Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# 2021-cu il üçün Əlamətdar və tarixi günlər təqvimi

**Bakı-2021**

## Tərtibçidən

F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır. 1965-ci ildə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradıldı. Bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanıldı. Fonddan yalnız kitabxananın öz işçiləri deyil, həmçinin respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları fəal istifadə edirdi. Onun əsasında rayon uşaq kitabxanalarına hər il orta hesabla 140-150 yazılı arayış göndərilirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod və formalar tətbiq olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə sərəncamı-kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verdi.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Elmi metodika şöbəsi uzun illərdir metodiki vəsaitlərlə yanaşı əlamətdar və tarixi günlər, yubliyar yazıçılardan bəhs edən təqvim işləyib Azərbaycanın 65 rayonunda yerləşən uşaq kitabxanalarına göndərir. F. Köçərli adına RUK-sı bu il də uşaq kitabxanaları üçün 2021 - ci il üçün təqvim işləyib, hazırlamışdır. Ümid edirik ki, hazırladığımız təqvim rayonlarımızda yerləşən uşaq kitabxanalarına metodiki köməklik edəcəkdir.

## Yanvar

**Əlamətdar və tarixi günlər**

1 Yanvar – Yeni il
15 Yanvar – Vikipediya gününün yaranması, (1999)
16 Yanvar – Ümumdünya Bitlz Günü, (2001)
17 Yanvar – Ümumdünya Uşaq İxtirası Günü
20 Yanvar – Ümumxalq Hüzn Günü, (1990)
21 Yanvar – Beynəlxalq Qucaqlaşma Günü, (1986)
23 Yanvar – Əl Yazısı (xətt) Günü
29 Yanvar – Gömrük İşçiləri Günü, (1992)
Yanvar ayının bazar günlərindən birində – Ümumdünya Qar Günü. Beynəlxalq Qış İdman Növləri Günü, (2012)

**Yubilyar yazıçı və şairlər**

Ədəbiyyatşünas Aslan Aslanovun anadan olmasının 95 illiyi, (01.01.1926-1995)
Yazıçı Zaman Qarayevin anadan olmasının 90 illiyi, (05.01.1931)
Şair Sabir Məmmədzadənin anadan olmasının 90 illiyi, (06.01.1931-1984)
Yazıçı, publisist Sadıq Elcanlının anadan olmasının 65 illiyi, (12.01.1956)
Yazıçı Vaqif Musanın anadan olmasının 90 illiyi, (15.01.1936)
Şairə Mədinə Gülgünün anadan olmasının 95 illiyi, (17.01.1926-1991)
Yazıçı, publisist Əşrəf İbrahimovun anadan olmasının 80 illiyi, (19.01.1941)
Yazıçı Məmmədrza Afiyətin anadan olmasının 95 illiyi, (22.01.1926)
Ədəbiyyatşünas Araz Dadaşzadənin anadan olmasının 85 illiyi, (30.01.1936- 1990)

**Xarici ədəbiyyat**

Amerika yazıçısı Cek Londonun anadan olmasının 145 illiyi, (12.01.1876- 1916)
Alman yazıçısı Ernest Teodor Amadey Hofmanın 245 illiyi, (24.01.1776-1822)
Rus yazıçısı M.Saltıkov-Şedrinin anadan olmasının 195 illiyi, (27.01.1826-1889)

**İncəsənət**

Kinorejissor, xalq artisti Eldar Quliyevin anadan olmasının 80 illiyi, (18.01.1941)
Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın 265 illiyi, (27.01.1756-1791)

**Folklor**

Aşıq Hüseyn Şəmkirlinin anadan olmasının 210 illiyi, (30.01.1811-1891)

**Tariximiz, bu günümüz**

Tarixçi alim Sara Aşurbəylinin anadan olmasının 115 illiyi, (27.01.1906-2001)

**Milli qəhrəmanlarımız**

Kərimov Elgiz Kərim oğlu 50 illiyi, (05. 01. 1971-12.03. 1992)
Ramazanov Şamil Ağasəf oğlu 45 illiyi, (19.01. 1976-04.04.1995)
Nəsirov Yalçın Canhəsən oğlu 45 illiyi, (23.01.1976-04. 04. 1995)

## Yanvar

## Əlamətdar tarixi günlər, bayramlar

### 1 Yanvar – Yeni il

*"Yeni ildə sizə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram. Mən arzulayıram ki, yeni ildə bizim bütün balalarımız yaxşı oxusunlar, təhsillərini davam etdirsinlər, savadlı olsunlar, müxtəlif biliklərə yiyələnsinlər. Çünki hər bir insanın gələcəyini, gələcək taleyini onun biliyi, savadı, təhsili təmin edir. Ona görə, əziz uşaqlar, sizin bugünkü vəzifəniz məhz yaxşı oxumaq, bilikli olmaqdır. Mən arzu edirəm ki, bizim bütün balalarımız Azərbaycana, Vətənə bağlı olsunlar, Vətəni sevsinlər, vətənpərvər böyüsünlər. Azərbaycan kimi ölkədə yaşamaq böyük xoşbəxtlikdir. Azərbaycanın təkrarolunmaz təbiəti, qədim və zəngin mədəniyyəti, istedadlı xalqı vardır".*

**Mehriban Əliyeva,**

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*



Yeni il Yer kürəsinin bütün guşələrində, dini etiqadlarından asılı olmayaraq, müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan bayramlardandır. Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar bu günü İsa peyğəmbərin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Verilən mənbələrə görə bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır. Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olub. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçilərin fikrincə, məhz həmin dövrdə ərazilərdə bu bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi yüksələndə əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmişdir. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli küknar ağacsız təsəvvür etmək çətindir. Əlbəttə, bu, təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq naminə süni küknarla da keçinmək olar.

İnternetdə: www.books.google.com

**15 Yanvar – Vikipediya gününün yaranması, (1999)**




Vikipediya – İnternetdə azad şəkildə yayımlanan, dünyanın bir çox dillərində viki texnologiyasının tətbiqi ilə könüllü istifadəçilər tərəfindən yaradılan ensiklopediyadır. Yarandığı dövrdən, yəni 2001-ci ilin əvvəllərindən İnternetdə Viki texnologiyası ilə işləyən ən nəhəng layihə Vikipediya (Wikipedia) – azad onlayn ensiklopediyasıdır.

Layihənin tarixi 1999-cu ildən başlayır. Layihənin baş redaktoru, təşkilatçısı Larri Senqer və Bomis kompaniyasının icraçı direktoru, layihəni maliyyələşdirən Cimmi Uels Viki texnologiyası əsasında onlayn ensiklopediya yaratmaq qərarına gələrək onu Nupediya (NuPedia.com) adlandırdılar. Nupediya virtual ensiklopediyası, 2000-ci ilin mart ayından fəaliyyətə başladı. İngilis dilində yaradılmış bu ensiklopediyanı viki-sayt hesab etmək olmazdı. Onun əsasını alim və mütəxəssislər tərəfindən məqalələrin dəqiq yoxlanması təşkil edirdi. Nupediyada məqalələrin daxil olunması prosesi çox ləng getdiyindən onun bağlanması haqqında qərar qəbul edildi və 2003-cü ilin sentyabr ayında bağlandı. Nupediya ensiklopediyası bağlanarkən orada 24 tamamlanmış, 74 yoxlama prosesində olan məqalə var idi. Nupediya ensiklopediyası əsasında yaradılmış Vikipediya açıq ensiklopediyası 2001-ci ilin 15 yanvar tarixində İnternetdə fəaliyyət göstərməyə başlayır. Nupediyadan fərqli olaraq Vikipediyada məqalələr könüllü İnternet istifadəçiləri tərəfindən yoxlanılır ki, bu da ensiklopediyanın çox sürətlə zənginləşməsinə səbəb olmuşdur. Ensiklopediyanın adı ingilis texniki termini olan "wiki" (saytın fəaliyyətinin əsasını təşkil edən texnologiya; söz özü havay dilində "tez" deməkdir) və "encyclopedia" (ensiklopediya) sözlərindən yaranıb. Vikipediyanın yaradıcıları – Cimmi Ueyls və Larri Senger tamamilə ayrı fəlsəfəyə əsaslanan, biliklərini paylaşmaq istəyən insanların birgə təşəbbüsü ilə dünyanın ən dolğun İnternet ensiklopediyasını yaratmaq qərarına gəlmişlər. Bu təşəbbüs özünü doğrultmuş və Vikipediya qısa zamanda dünyanın ən məşhur 25 internet saytı sırasına daxil olmuşdur. 2009-cu ildə aparılan araşdırmalara görə, ingilis dilində olan Vikipediya dünyanın ən çox oxunan və internet istifadəçilərinin tez-tez müraciət etdikləri saytlar arasında 1-ci yeri tutmuşdur. Vikipediyanı Britannika kimi digər internet ensiklopediyalardan fərqləndirən əsas cəhət onun açıq olması, yəni istənilən internet istifadəçisinin onu redaktə edə bilməsidir.

İnternetdə: www.books.google.com

## 16 Yanvar – Ümumdünya Bitlz Günü (The Beatles), (2001)



2001-ci ildən YUNESKO-nun qərarı ilə hər il yanvarın 16-sı Ümumdünya Bitlz Günü kimi qeyd olunur. Bu tarix təsadüfi olaraq seçilməyib. 1957-ci il yanvarın 16-da Böyük Britaniyanın Liverpul şəhərində “The Cavern” klubu açılıb. Məhz bu klubda hələ o zaman heç kəsin tanımadığı gənc musiqiçilər – Con Lennon, Pol Makkartni və Corc Harrison şöhrətə doğru ilk addımlarını atıblar. Bir neçə il sonra Rinqo Star da onlara qoşulub.
İnternetdə: www.books.google.com

**17 Yanvar – Ümumdünya Uşaq İxtirası Günü**




Hər il 17 yanvar dünyada Uşaq İxtirası Günü kimi qeyd edilir. Maraqlıdır ki, bu tarix məşhur amerikalı siyasətçi Benjamin Franklinin doğum günü tarixi ilə eyni gündə təyin edilmişdir. 1718-ci ildə 12 yaşlı Benjamin balıq üzgəclərini xatırladan iki qəribə əşya ilə çimərlikdə peyda olur. Ətrafdakıların istehzalı gülüşlərinə baxmayaraq, Benjamin o gün hamıdan daha sürətlə üzür. Beləliklə, üzgüçülük üçün ilk lazımı əşya yaranmış olur. Franklin 15 yaşında olarkən dünyaya növbəti bir yenilik – yellənən kürsünü bəxş edib.




1824-cü ildə isə fransız çəkməçinin 15 yaşlı oğlu Lui Brayl görmə qabiliyyəti olmayan insanlar üçün xüsusi şrift yaradıb və bu hərflər onun şərəfinə Brayl şrifti adlandırılıb. Qeyd edək ki, Lui atasının emalatxanasında çəkməçi bıçağına ilişərək yıxılmış və 5 yaşında görmə qabiliyyətini itirmişdir. Lakin Lui öz ixtirasının köməkliyi ilə oxumağı öyrənmişdi. Dünya hələ də bu ixtiradan istifadə edir.




Amerikalı Frenk Epperson isə qışda küçədə qalmış bir stəkan limonadın onu milyonçuya çevirəcəyini ağlına belə gətirməmişdi. Səhər limonad soyuqdan buza çevrilmiş, bununla da on bir yaşlı Epperson "meyvəli buzu" ixtira etmişdir. O, ilk vaxtlarda öz ixtirasını kütləvi istehsalata çevirməyi düşünmürdü və onu yalnız on səkkiz ildən sonra, yəni 1923-cü ildə donmuş limonad istehsalı ilə məşğul olan zavodu yaratdıqda xatırlayırdı. 1928-ci ildə isə patenti satmış və mütəmadi olaraq yaxşı gəlir əldə etmişdir.

İnternetdə: www.books.google.com

**20 Yanvar – Ümumxalq Hüzn Günü, (1990)**




***"Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".***

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

20 Yanvar faciəsi 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktıdır. Yanvarın 19-dan 20-nə keçən gecə, əvvəlcədən fövqəladə vəziyyət elan edilmədən, sovet ordusu Azərbaycana qarşı hərbi əməliyyatlara başlayıb. Faciə zamanı 137 insan öldürülüb, 744 nəfər ağır xəsarət alıb, 841 nəfər isə qanunsuz həbs edilib. 17 yanvar 1992-ci ildə Ali Sovetin Milli Şurası (1991-1992-ci illərdə qanunverici orqan funksiyasını yerinə yetirən orqan) "20 Yanvarın Şəhidlər Günü elan olunması haqqında" qanun qəbul edib. Qanuna əsasən yanvarın 20-si ölkə ərazisində qeyri-iş günü elan olunub. 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilib, faciənin günahkarlarının adları açıqlanıb. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, küçələrə və meydanlara çıxaraq qəti etirazını bildirən xalq kütlələrinə qarşı Azərbaycan ərazisinə ordu hissələrinin yeridilməsi 1990-cı ilin 20 yanvarında misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar.

**Kitablar:** R.Səməndər "Şəhidlər" (1990), V.Babanlı "Hoydu, dəlilərim, hoydu!" (1993), M.Ələkbərli "Ağlama şəhidlərə" (2002), Hidayət "Azərbaycan harayı" (2002), N.Kəsəmənli "20 Yanvar ; Qar yağır Şəhidlər xiyabanına" (2002), Qabil "Çalsın Azərbaycan haray zəngini" (2002), B.Vahabzadə "Şəhidlər" (2002), B.Eyyubova "20 Yanvar" (2003), A.Kamal "Şəhidlər xiyabanı" (2003), N.Əyyub "Qanlı Yanvar" (2004), M.Gülgün "Şəhid balaları", O.Hacıyeva "Şəhidliyə qovuşaq" (2004), Y.Hüseyn "Şəhidlər" (2004), İ.Allahverdiyev "Şəhidlər xiyabanı" (2005), M.Aslan "Ağla, qərənfil, ağla" (2006), Aslan M. "Məzarsız şəhidə ağı" (2006), R.Buzovnalı "Şəhidlər" (2007), Z.Dəmirçi "20 Yanvar" (2008) və s. **Filmoqrafiya:** "Azadlığa gedən yollar" (1990), "20 yanvar" (1990), "Matəm" (1990) və s. İnternetdə: www.az.wikipedia.orq; www.books.google.com

**21 Yanvar – Beynəlxalq Qucaqlaşma Günü, (1986)**

  

Yanvarın 21-də bütün dünyada ən qeyri-adi bayramlardan biri – Beynəlxalq Qucaqlaşma Günü qeyd olunur (İnternational Hug Day). Bu bayramın əsası 1986-cı ildə ABŞ-da qoyulmuş, sonradan bütün dünyada yayılmışdır. Bayramın ənənəsinə görə həmin gün hətta tanımadığın insanlarla belə dostcasına qucaqlaşa bilərsən.

Bu bayramın çox gənc olmasına baxmayaraq, onun müəllifinin kimliyi və nə üçün məhz bu günü seçməsi müəyyənləşdirilməyib. Belə hesab olunur ki, bayramın təşəbbüskarı tələbələr olmuşlar.

Son illərdə gənclər bu bayramı geniş qeyd edirlər. Bayramın tərəfdarları hesab edirlər ki, insanlar qucaqlaşan zaman bir-birlərinə müsbət enerjilərini, qəlblərindən gələn istiliyi ötürürlər.

Psixoloqlar belə hesab edirlər ki, sizi qucaqlamaq istəyən insanlar təhlükəsizlik, komfort və sevgi hisslərini yaşamaq istəyirlər. Qucaqlaşma bizi bütün ömrümüz boyu müşayiət edir. Biz görüşdüyümüz zaman və ya uzun ayrılıqdan sonra doğmalarımızı və dostlarımızı qucaqlayırıq, öz sevincimizi və minnətdarlığımızı bildirmək istəyərkən də qucaqlaşırıq. Bu bayram heç bir maddi xərcə səbəb olmur. Siz sevdiklərinizi yalnız qəlbinizin hərarəti ilə, ürəkdən qucaqlaşaraq, sevginizi ifadə edərək təbrik edirsiniz, mükafatlandırırsınız.

İnternetdə: www.books.google.com

## 23 Yanvar – Əl Yazısı (xətt) Günü





Dövrümüzdə kompüterlərin, elektron poçtların, elektron bloknotların, SMS-lərin və digər sürətli ünsiyyət vasitələrinin ildən-ilə populyarlıq qazanması müasir insanı öz fikirlərini əli ilə yazaraq ifadə etməkdən uzaqlaşdırır. Bəlkə də, yaxın gələcəkdə əl ilə yazılmış məktub və ya açıqca arzu olunan hədiyyə olacaq.

Hər il yanvarın 23-ü Xətt Günü və ya daha gözəl deyimlə, Əl Yazısı Günü (National Handwriting Day) qeyd olunur. Bu günün qeyd olunmasında əsas məqsəd insanlara əl yazısının unikallığını, hər bir insanın əl yazısının özünəməxsusluğunu, əl ilə yazı yazmağın vacibliyini xatırlatmaqdır.

Bu bayramın qeyd olunması ABŞ-ın WIMA təşkilatı tərəfindən təklif olunub. WIMA ABŞ-ın yazı ləvazimatları istehsalçılarının assosiasiyasıdır. Təşkilatın məqsədi əl yazısının dəyərini xatırlatmaq və onun populyarlığını artırmaq olmuşdur. Bu məqsədlə qeyd olunacaq bayramın tarixi ABŞ-ın məşhur dövlət xadimi Con Xenkokun anadan olduğu gün seçilmişdir. C.Xenkok ABŞ-ın Müstəqillik Bəyannaməsinə ilk imza atan şəxs olmuşdur.

Çində, Yaponiyada və bir çox digər Asiya ölkələrində gözəl yazmaq bacarığı incəsənət hesab olunur və bu gün hətta kalliqrafiya ustaları çox yüksək qiymətləndirilir. Başqa ölkələrdə gözəl əl yazısı çox yüksək qiymətləndirilməsə də, yaxşı xətt, gözəl əl yazısı hər yerdə hörmətə layiq görülür. Odur ki, belə bir bayramın qeyd olunması çox mənalıdır.

İnternetdə: www.books.google.com

**29 Yanvar – Gömrük İşçiləri Günü, (1992)**

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra – 1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu. Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Bu sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır. Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur.

Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi. Aprel işğalı, digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi.

SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 29 yanvar gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

İnternetdə: www.books.google.com

**Ümumdünya Qar Günü, yaxud Beynəlxalq Qış İdman Növləri Günü, (2012)**



2012-ci ildə dünyada daha bir müsbət ənənə yaranmışdır. Həmin ilin qışından başlayaraq Beynəlxalq Xizək İdmanı Federasiyasının (FIS) təşəbbüsü ilə bu bayram – Ümumdünya Qar Günü (World Snow Day) adlanmışdır. Onun başqa adı isə – Beynəlxalq Qış İdman Oyunları Günüdür. Bayram hər il yanvar ayının bazar günlərindən birində qeyd olunur.





Bayramın məqsədi qış idman oyunlarına marağı artırmaq və gəncləri fəal həyat tərzinə cəlb etməkdir. FIS-in fikrinə görə, həmin gün "qar festivalları" keçirilməlidir və burada həm uşaqlar, həm də böyüklər xizək və konki yarışlarında iştirak etməlidirlər.

İnternetdə : www.books.google.com

## Yubilyar yazıçı və şairlər

### 1 Yanvar - Şair, ədəbiyyatşünas Aslan Aslanovun 95 illiyi, (1926-1995)

***Sözləri Aslan Aslanova, musiqisi Telman Hacıyevə aid olan "Lalələr" mahnısı ilk yarandığı vaxtdan bu günə kimi musiqisevərlərin dilindən düşmür.***



**Aslanov Aslan Məmməd oğlu şair, filosof, 1954- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, fəlsəfə elmləri doktoru (1974), professor (1976), Azərbaycan MEA müxbir üzvü (1980).**

Aslanov Aslan Məmməd oğlu 1926 - cı il yanvarın 1-də Azərbaycanın Ağstafa şəhərində anadan olmuşdur. Ağstafa dəmiryol orta məktəbini bitirdikdən sonra orada müəllim kimi qalıb fəaliyyət göstərmişdir. ADU- nun fizika – riyaziyyat fakultəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Fəlsəfə üzrə namizədlik dissertasiyası müdafiə etmiş (1958), dosent vəzifəsində işləmişdir. (1962), ADU - nun estetika və etika kafedrasına rəhbərlik etmişdir (1961-1980). M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977-1987) vəzifəsində işləmişdir. Beynəlxalq elmi konqreslərdə İsveçrədə (1968), Almaniyada (1970), Rumıniyada (1972) və Moskvada (1979) məruzə ilə çıxış etmişdir. İngiltərədə və Almaniya Federativ Respublikasında (1978-1979) keçirilən sovet elmləri günlərinin iştirakçısı olmuşdur. "SSRI-nin Ali təhsil əlaçısı", "ADR Ali təhsil əlaçısı" və digər medallarla, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Qızıl fondda saxlanılan "Lalələr" mahnısının bəstəkarı Telman Hacıyevdir. Sözləri isə şair Aslan Aslanova aiddir. Mahnı təxminən 1970-1975-ci illərdə yazılıb və ifa olunub.

Şair Aslan Aslanov Gəncədə olarkən dağın döşünə çıxanda hər tərəfin lalələrlə dolu olduğunu görür və bundan ilhama gələrək "Lalələr" adlı şeirini yazır. Sonra şeiri Telman Hacıyevə verir ki, musiqi bəstələsin. Bu mahnını Zeynəb Xanlarova, Gülağa Məmmədov, Rəşid Behbudov, Anatollu Qəniyev, Aygün Bəylər, Azərin oxuyublar.

Lalələr mahnısına ilk dəfə rəqs Azərbaycan Respublikasının əməkdar artisti Roza Cəlilova tərəfindən ifa edilmişdir.1995 - ci il avqustun 23 - də Bakıda vəfat etmişdir. II fəxri xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Səni düşünürəm" (1958), "Qızlar və bənövşələr"(1961), "İncəsənət və tərbiyə" (1967), "Nəğməli günlərim"(1985), "Estetika aləmində"(1987) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 73.

**5 Yanvar - Yazıçı Zaman Qarayevin anadan olmasının 90 illiyi, (1931-2004)**

***Zaman Qarayev M. F. Axundov ədəbi irsinin öyrənilməsi sahəsində çox böyük xidmətləri olan ədəbiyyatçımızdır..***



**Qarayev Zaman Sadiq oğlu nasir, ədəbiyyatşünas, 1961- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1976), "Qızıl qələm" mükafatı laureatı.**

Qarayev Zaman Sadiq oğlu 1931-ci ildə Azərbaycanın Şəki rayonunun Böyük Dəhnə kəndində kolxozçu ailəsində anadan olmuşdur. Kənd orta məktəbi bitirdikdən sonra ADU- nun filologiya fakultəsində təhsil almışdır (1947-1952).Qasım İsmayılov və Şəki rayonlarının kənd məktəblərində müəllimlik etmişdir.

Bakıya köçəndən sonra Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində, "Gənclik" nəşriyyatında və "Kənd həyatı" jurnalında işləmişdir. Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində redaktor vəzifəsində çalışmışdır. "Təşəbbüs" adlı ilk hekayəsi "İnqilab və mədəniyyət"Jurnalında (1951,N 9) dərc olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda kiçik hekayələri, elmi və publisistik məqalələri müntəzəm çap edilmişdir.

Zaman Qarayev M. F. Axundov ədəbi irsinin öyrənilməsi sahəsində faydalı işlər görmüşdür. Onun məlum olmayan "Səfərdə" və "İran şahının Qafqaza səyahəti" əsərlərini aşkara çıxarıb çap etdirmişdir. 2004- cü il mayın 24 - də vəfat etmişdir.

**Əsərləri:** "Kürən" (1959), "Qonağım olun" (1961), "Göy çəmənlər" (1965), "Xarqo" (1967), "Gəlinaparan" (1969), "Ayrılıqdan sonra" (1981), "Əlincə qalası" (1988), "Amansız vəzir" (1998), "Dəhnə ziyalıları" (2000) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 948.

**6 Yanvar - Şair Sabir Məmmədzadənin anadan olmasının 90 illiyi, (1931-1984)**

***Sabir Məmmədzadə ilhamı çağırmayan, ilhamın qonağı olan, ədəbiyyat adamıydı. İşində səliqəli və tabeçi, amma öz poetik dünyasını yaşayan şair idi.***

Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi Azər Turan



**Məmmədov sabir Məhəmmədəli oğlu- şair, 1974- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Sabir Məmmədzadə 1931 - ci ildə Azərbaycanın Tərtər rayonunda fəhlə ailəsində doğulmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Mirbəşir rayon pionerlər evində idman dərnəyinin müdiri (1951), pionerlər evinin direktoru olmuş (1951-1952), Bakıda bir müddət inşaatda çalışmış (1953-1954), ADU- nun filologiya fakultəsində təhsil almışdır. (1954-1959).

Şair Sabir Məmmədzadə sonra A. Şaiq adına uşaq kitabxanasında kitabxanaçı (1959), M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasında baş metodist (1960-1965) olmuşdur.

"Abonementdə oxucularla iş" (1971), "Kitabxana şurasının işi" (1972) və digər metodiki vəsaitlərin müəllifidir.

Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır. (1970-1983).

1984- cü ilin yanvarında Bakıda vəfat etmişdir.

**Əsərləri:** "İtmiş açar" (1964), "Məzəli oxucular" (1965), "Xumar" (1970), "Ay çimir" (1975), "Arı balaları, Birincə və Şirincə" (1983), "Qara cücə, ağ cücə" (1962).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh713.

**12 Yanvar - Yazıçı, publisist Sadıq Elcanlının anadan olmasının 65 illiyi, (1956)**



***Sadiq Elcanlı ötən əsrin 70-ci illərində qəzet, jurnal və almanaxlarda hekayələri dərc olunan, bütün yazıları ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanan, bir sıra povest və romanların, sənədli filmlərin ssenari müəllifi olan bizim sevilən əməkdar jurnalistimizdir.***

Sadıq Elcanlı 12 yanvar 1956-cı ildə Dəvəçinin Surra kəndində anadan olub. Universitetin filologiya fakültəsində təhsil alıb (1974-1979). 1980-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətində işləyir, ədəbiyyat və incəsənət redaksiyasında baş redaktordur. "Sirli səsin sorağı", "Əbədi sevginin xatirələri" povest və hekayələr kitabının müəllifidir.

**Əsərləri:** "Sirli səsin sorağı" (1985), "Ədəbi sevginin xatirələri" (1987), "Yaddaş yarası" (1991), "Qanlı quzğun meydanı" (1994), "Mənim mövqeyim" (1999), "Sükutun sonu" (2003) və s.

**Filmoqrafiya:**Abbas Səhhət (film, 2007) (qısametrajlı sənədli film) (Aztv)-ssenari müəllifi,"Atikva" ümid deməkdir (film, 1994), Avşarlar (film, 1996), Bəsdir, ağlama! (film, 1999), Bir ömrün xatirəsi (film, 2007), Böyük ömrün davamı (film, 2007), Dünya bir pəncərədir (veriliş, 2007), Etnoqrafik etüdlər (film, 1996), Ey, Vətən! (film, 1995), Əbədi zirvə (film, 1998), Əbədiyyət ünvanı. I film. Min illərin xatirəsi (film, 2004), Əbədiyyət ünvanı. II film. Heydər Əliyev və Naxçıvan (film, 2004), Güllələnmiş heykəllər (film, 2002), Hacı Arif (film, 1995), Heydər Əliyev və Azərbaycan dili (film, 1997), Xilaskar. I film (film, 2003), Xilaskar. II film (film, 2003), İncə Dərəsi (film), İşğal (film, 1994), Kamil (film, 1997), Qanlı Bakı (film, 1994), Qisas günü (film, 1993), Qobustan (film, 1997), Mətbuat fədaisi (film, 2007), Novruz (film, 1995), Olacağa çarə yoxdur (film, 2003), Pirə qayıdan yol (film, 1994), Səhnəmizin Yaşarı (film, 1996), Səni axtarırıq... (film, 2013), Sirli salnamələr (film, 1995), Şeirin xəzrisi (film, 2000), Təlatüm (film, 2006), Tikdim ki, izim qala (film, 1997), Tikdim ki, izim qala. II film (film, 1997), Tikdim ki, izim qala. III film (film, 1998), Üç zirvənin fatehi (film, 2008) Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan S.Elcanlının ötən əsrin 70-ci illərində qəzet, jurnal və almanaxlarda dərc olunan ilk hekayələri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Yazıçı ilk qələm təcrübələrində kənd həyatının ağrı-acılarından, "sovet rəngləri" ilə gizlədilən əsil həqiqətlərdən danışmışdır. O, bir sıra povest və romanların, sənədli filmlərin ssenari müəllifidir. Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan S.Elcanlının ötən əsrin 70-ci illərində qəzet, jurnal və almanaxlarda dərc olunan ilk hekayələri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Yazıçı ilk qələm təcrübələrində kənd həyatının ağrı-acılarından, "sovet rəngləri" ilə gizlədilən əsil həqiqətlərdən danışmışdır. O, bir sıra povest və romanların, sənədli filmlərin ssenari müəllifidir.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh764.

**15 Yanvar - Yazıçı Vaqif Musanın anadan olmasının 85 illiyi, (1936-1996)**



**Musayev Vaqif Məmmədyusif oğlu – nasir, 1967-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1964)**

Musayev Vaqif Məmmədyusif oğlu 1936-cı ilin yanvarın 15-də Quba rayonunun Rustov kəndində anadan olub. Bakıdakı 2 saylı tibb texnikumunda (1954-1956), sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1960-1965). İlk hekayəsi –"Kişi, qadın və qız" 1965-ci ildə "Azərbaycan" jurnalında çap olunub. Əmək fəaliyyətinə "Azərbaycan" jurnalının nəsr şöbəsində ədəbi işçi kimi başlamışdır (1965-1976). 1991-ci ildən ömrünün sonuna kimi Şərq-Qərb nəşriyyatında nəsr şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Azərbaycan Yazıçılar Birliyinin plenum üzvü olmuşdur (1991). Yeddi kitabın – o cümlədən çox saylı povest və romanların ("Od, yaxud gecə mahnısı", "Bəyim çayı boyunca", "Səhər mehi", və s.) müəllifidir.1996-cı il oktyabrın 24-də vəfat etmiş, Rustov kəndində dəfn edilmişdir.
**Əsərləri:** "Kişi, qadın və qız" (1967), "Od, yaxud gecə mahnısı"(1973), "Səhər mehi"(1978), "Bəyim çayı boyunca"(1982), "Ömrün də yazı varmış"(1988), "Sənin yolunda"(1994) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 900.

**17 Yanvar - Şairə Mədinə Gülgünün anadan olmasının 95 illiyi, (1926-1991)**

***“Sevgidə sədaqət, əhdə vəfa, həyat eşqi, insanın ucalığı, ana-qadın qəlbinin münbit əsrarlı kəhkəşanı övlad məhəbbəti, sülh, əmin-amanlıq arzuları, vətəni qorumaq, doğma təbiətə heyran olmaq, gözəllik duyğusu və s. Mədinə Gülgünün şeirlərində həmişə öz əksini tapmışdır”.***

**Professor Bəkir Nəbiyev**



**Mədinə Gülgün-Azərbaycan şairəsi, Azərbaycanın əməkdar incəsənət xadimi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları (1960, 1974, 1986), "Şərəf Nişanı" ordeni (1980), "21 Azər" (1946), "Əmək veteranı" (1948) və digər medallarla təltif olunmuşdur.**

Mədinə Gülgün 1926-cı il yanvarın 17-də Bakıda fəhlə ailəsində anadan olmuşdur. M. Gülgün Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir. Mədinə Gülgünün ilk yaradıclığı Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf edir.Vətən sevgisi,azadlıq həsrəti onun yaradıcılığının əsas leytmotivini təşkil edir. Onun şeirlərində başlıca yer tutan hicran, həsrət motivləri də əsasən buradan irəli gəlirdi. Mədinə Gülgünün poeziyasının ağır sınaqlarla dolu olan yollarında ilk addımlarını atdığı gündən onun lirasının ötdüyü nəğmələrin baş ahəngini xalqa, doğma vətənə övlad məhəbbəti, oxucularını ağ günlərə və qurtuluş uğrunda döyüşlərə çağırış nidalarını başlıca motivlərini təşkil etmişdir. Onun əsərləri bir sıra xarici ölkələrin dillərinə tərcümə olunmuşdur. Şairin Bakıda və Moskvada "Təbrizin baharı" (1950), Savalanın ətəklərində (1950); Sülhün səsi (1951); Yadigar üzük (1953); Təbriz qızı (1956); Firudin (poema) (1963); Dünyamızın sabahı (1974); Durnalar qayıdanda (1983); Dünya şirin dünyadır (1989) "Çinar olaydı", "Arzu bir ömürdür", "Yora bilməz yollar məni" (1978), "Könlümü ümidlər yaşadır" və onlarca digər şeir kitabı dərc olunmuşdur. Bu kitabların başlıca mövzusu insan, azadlıq, Təbriz həsrəti, insanlara canı yanan bir ana qəlbinin arzu və istəkləridir. Onun lirik şeirlərinə mahnılar bəstələnmişdir. Mədinə Gülgün 17 fevral 1991-ci ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** “Təbrizin baharı” (1950), “Seçilmiş əsərləri: Şerlər və poemalar” (1986), ”Yadigar üzük” (1953), ”Pərvanə” (1955), ”Günlər və xatirələr” (1959), “Firidun” (1963), “Dünyamızın sabahı” (1976), “Arzu da bir ömürdür: (Şerlər və poemalar)” (1976), ”Ömrün payız dayanacağı” (1983), “Dünya şirin dünyadır” (1989), “Mən bu ömrü yaşadım” (1997), “Yora bilməz yollar məni” (1978), “Çinar olaydı” (1985), “Qürbət elə qürbətdi; Bir dəli rüzgarım...; Danışım danışmayım...:” (Şerlər) (1993), “Sarı bülbül” (Şerlər) (1992) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 539.

**19 Yanvar – Yazıçı Əşrəf İbrahimovun anadan olmasının 80 illiyi, (1941-2000)**



**İbrahimov Əşrəf Məmmədvəli oğlu nasir, publisist, 1988- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Rəssamlar Birliyinin üzvü (1981)**

İbrahimov Əşrəf Məmmədvəli oğlu 1941 - ci il yanvarın 19 - da Azərbaycanın Vartaşen (indiki Oğuz) rayonunun Yaqublu kəndində kolxozçu ailəsində doğulmuşdur. Yeddi illiyi doğma kəndində, orta məktəbi Vartaşendə bitirmişdir (1958). Əvvəlcə Bakıda 6 saylı sənət məktəbində, sonra Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsilini davam etdirmişdir (1959-1964), Azərbaycan SSR Dövlət Musiqi Mədəniyyəti Muzeyində tərtibçi-rəssam (1967-1969) işləmişdir. ADU- nun jurnalistika fakültəsində təhsilini davam etdirmişdir(1965-1971). Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində "Gənclik" redaksiyasında kiçik redaktor, məktəblilər üçün veriliş redaksiyasında, ədəbiyyat və incəsənət redaksiyasında redaktor, böyük redaktor olmuşdur(1970-1978). "Ədəbiyyat və incəsənət" qəzetində təsviri incəsənət şöbəsinin müdiri(1978-1991), "İncəsənət"qəzetinin baş redaktoru (1991-2000) olmuşdur. Hekayə və publisist yazıları dövri mətbuatda 1969 - cu ildən müntəzəm dərc olunmuşdur. 2000 - ci il dekabrın 9 - da Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Talelər" (1971), "Azərbaycan mənzərəsi" (1975), "Bəyli kəndinin evləri" (1985), "Hafiz Məmmədov" (1985), "Hacağa Nəzərov" (1986), "Hekayələr" (1990), "Sultan Məhəmməd" (1992), "Əminə Dilbazi" (2000) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 292.

**22 Yanvar - Yazıçı Məmmədrza Afiyətin anadan omasının 95 illiyi, (1926-1995)**

***Məmmədrza Afiyət Ədəbiyyat və mədəniyyətimizi müvəffəqiyyətlə təmsil edən müəlliflərdəndir.***



Yazıçı-publisist Afiyət Abdulla oğlu Məmmədrza Mərəndi 1926-cı ildə Azərbaycanın Qazax rayonunda anadan olub, onun 6 yaşı olanda ailəsi ilə birlikdə Təbrizə köçüblər. Orta məktəbi Təbrizdə başa vurandan sonra, 1946-cı ildə Sovet ordusunun Təbrizdə olan yüksək rütbəli hərbçiləri ilə Azərbaycana qayıdıb. Burada hərbi məktəbə daxil olaraq, təhsilini uğurla başa vurub. Sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olaraq, ikinci ali təhsil alıb. O, uzun müddət jurnalistka sahəsi ilə məşğul olub. 30 ilə yaxın "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Afiyət mətbuatda çalışdığı dövrdə Nəriman Həsənzadə, Tahir Söhrab, Mədinə Gülgün, Balaş Azəroğlu, Bəxtiyar Vahabzadə kimi yazıçı və şairlərlə işləyib, dostluq və əməkdaşlıq edib. Fars dilindən Azərbaycan dilinə tərcümələrindən aydın olur ki, Afiyət Məmmədrza bir sıra dilləri mükəmməl bilmiş və ədəbi-bədii fikrin formalaşmasında mühüm rol oynamışdır. Onun müxtəlif vaxtlarda "Səttərxan", "Ürəkdə eşq", "Atamı istəyirəm" adlı kitabları nəşr edilib. Afiyət Məmmədrzanın həyat yoldaşı Qəhrəmanova Fəxricahan xanım o zaman ki Dövlət Nəşriyyat Komitəsində 30 il şöbə müdiri vəzifəsində işləyib. Uğurlu fəaliyyətinə görə bir sıra fəxri fərmanlara layiq görülüb. Azərbaycan ədəbiyatının təbliği ilə yanaşı, eyni zamanda Sovet İttifaqına daxil olan respublikalarda da sərgilər təşkil edib..Afiyət Məmmədrzanın daha bir kitabına diqqət edək. Müəllifin bu kitabı "Ürəkdə işıq" adlanır. "Yazıçı" nəşriyyatında nəşr edilən bu əsərdə də Cənubi Azərbaycan mövzusu xüsusi yer tutur. Müəllif "Ürəkdə işıq" kitabında yaradıcılıq ənənəsinə sadiq qalmış və kitaba cənublu qardaş və bacılarının acınacaqlı həyatından, ictimai-siyasi məhrumiyyətlərindən, xalqın milli azadlıq uğrunda mübarizəsindən, imperializmin, şahlıq üsuli-idarəsinin, cəhalət və nadanlığın ifşasından bəhs olunan hekayələri daxil etmişdir.

**Əsərləri:** "Alov" (1959), "Atamı istəyirəm" (1961), "Sərdare-milli Səttərxan" (1968), "Məşrutə İnqilabı və Pəhləvi dərbarının xəyanətləri" (1978), "Sərdare-milli Səttərxan" (1980), "Ürəkdə işıq" (1984) və s.

**Tərcümələri:** "Balaca qara balıq"(1978), "Cuğundur satan oğlan"(1960), "Səməd Bəhrəngi. Məhəbbət nağılı"(1987)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 581.

**30 Yanvar - Ədəbiyyatşünas Araz Dadaşzadənin 85 illiyi, (1936- 1990)**

***"Araz Dadaşzadənin təhlillərində poetik sistem -Vaqifin, yaxud XVIII əsrdə yazıb-yaratmış bir şairin poetikası elə bir mövqedən təhlil edilir ki, hər bir sözün, ifadə və deyimin ümumi kontekstdəki "tarixçəsi", dolayısı ilə ədəbi prosesin "kardioqramması" həqiqətə yaxın bir durumda ortaya çıxır. A.Dadaşzadənin elmi təfsirində "metafora boşluqları" yoxdur, yəni tədqiqatçı ciddiliyi bir an belə əldən vermir, müəyyən konsepsiyanın sahibi kimi əda göstərmir, sadəcə məlum fikirlərin sırasında özünü ifadə edir."***

**Filologiya elmləri doktoru Cavanşir Yusifli**



**Araz Məmməd Arif oğlu Dadaşzadə - Azərbaycan tənqidçisi və ədəbiyyatşünası, əməkdar elm xadimi. Araz Dadaşzadə Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiya heyətinin və elmi-redaksiya şurasının (1976-1990), Azərbaycan Yazıçılar İttifaqı Təftiş Komissiyasının (1976-1990), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin (1977-1982) üzvü olmuşdur. 1989-cu ildə Araz Dadaşzadəyə Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi fəxri adı verilmişdir.**

Araz Dadaşzadə 1936-cı il yanvarın 30-da Bakı şəhərində akademik Məmməd Arif və görkəmli pedaqoq Zümrüd Axundovanın ailəsində anadan olmuşdur. Araz Dadaşzadə 1952-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Fəlsəfə fakültəsinə daxil olmuşdur. 1953-cü ildə həmin fakültə bağlandığından, təhsilini Universitetin tarix fakültəsində davam etdirmiş və 1957-ci ildə bu təhsil ocağını uğurla bitirmişdir. Araz Dadaşzadənin ömrünün böyük bir hissəsi Azərbaycan Sovet Ensiklopediyasının nəşrə hazırlanması və nəşri ilə bağlıdır. Tədqiqatçı alim 1966-1968-ci illərdə Ensiklopediyanın Baş redaksiyasında Ədəbiyyat və İncəsənət redaksiyasının müdiri, 1976-1988-ci illərdə isə baş redaktorun birinci müavini işləmişdir.A.Dadaşzadə 1988-1990-cı illərdə, yəni ömrünün sonunadək Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru vəzifəsində çalışmışdır. A.Dadaşzadə ədəbi fəaliyyətə 1956-cı ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Tərli kürəklər" kinofilminə yazdığı eyniadlı resenziya ilə başlamış, müxtəlif vaxtlarda "Kral Lir", "Dədə Qorqud", "Dərviş Parisi dağıdır" və s. filmlərə həsr edilmiş məqalələrin müəllifi olmuşdur. O, 1964-cü ildə "M.P.Vaqifin yaradıcılığı" mövzusunda namizədlik, 1977-ci ildə isə "XVIII əsr Azərbaycan lirikası (ideya-tematik və sənətkarlıq xüsusiyyətləri)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Araz Dadaşzadə 1990-cı il noyabrın 2-də vəfat etmiş və Bakıda, ikinci Fəxri xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Molla Pənah Vaqif (həyat və yaradıcılığı)" (1966), "Molla Pənah Vaqif (həyat və yaradıcılığı haqqında oçerk)" (1968), "Həyat müğənnisi" (1968), "XVIII əsr Azərbaycan lirikası" (1980), "Xeyirxahlıq və gözəllik poeziyası" (1986) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 64.

## Xarici ədəbiyyat

### 12 Yanvar - Amerika yazıçısı Cek Londonun 145 illiyi, (1876- 1916)

***"İnsanın gerçək təyinatı ömür sürmək deyil, yaşamaqdır."***

**Cek London**



**Cek London - ABŞ yazıçısı, daha çox sərgüzəştlərlə dolu hekayə və romanların müəllifi.**

Con Qriffit Çeyni 1876-cı il 12 yanvar tarixində San-Fransisko şəhərində anadan olmuşdur. Cek London çox kiçik yaşlarından ağır zəhmətə qatlaşmalı olur. Məktəbli illərində qəzetlər satır, on dörd yaşında isə konserv fabrikinə işə düzəlir. Lakin işi çox ağır olduğundan buranı tərk etməli olur. Qadağan olunmasına baxmayaraq San-Fransisko limanında dəniz iblizləri ovu ilə də məşğul olur. 1893-cü ildə Yaponiya sahillərinə və Berinq dənizinə dəniz pişiyi ovuna çıxan gəmiyə matros düzəlir. İlk dəniz səfəri Londonda olduqca böyük təəssüratlar oyatmaqla onun gələcək yaradıcılığına böyük təsir göstərir.Ömrünün son illərində böyrək xəstəliyindən əziyyət çəkir və ağrılarından birində həddindən artıq miqdarda ağrıkəsici qəbul edir.Əsərlərinin motivləri əsasında 50-dən artıq film çəkilmişdir.London işçi ailəsindən gəlirdi. Xüsusilə bölgə kitabxanasında kitablar oxuyaraq özünü yetişdirmişdir. 1885-ci ildə Ouidada italyan bir kəndli uşağın cəmiyyətdə yüksəlişini anladan Siqnayı oxudu. Bu romandakı obraz ədəbiyyat sahəsində hədəflərinə çatması baxımından prototipi olacaqdı.London yaradıcılığa "Yaponiya sahillərində tayfun" adlı oçerki ilə gəlir və bu gəliş kifayət qədər uğurlu olur. Belə ki, San-Fransisko qəzetlərindən biri gənc yazıçını mükafatlandırır. Bir az sonra qələmə aldığı **"Canavar oğlu" (Boston, 1900), "Atalarının tanrısı" (Çikaqo, 1901) "Şaxtanın övladları" (Nyu-York, 1902), "İnsana inam" (Nyu-York, 1904), "Ayüzlü" (Nyu-York, 1906), "İtirilmiş sima" (Nyu-York, 1910)** hekayələrindən ibarət toplu, **"Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904), "Martin İden"** romanları yazıçıya böyük şöhrət gətirir.1894-cü ildə Buffaloda 30 gün müddətinə həbs edilən London daha sonra Oaklanda geri qayıtdı və Oakland Litseyinə yazıldı. Burda "Aegis" məktəb jurnalında bəzi yazıları nəşr edildi. Cek London ümidsizcə Berkeley Universitetinə girməyi arzu edirdi və 1899-cı ildə yay boyunca davamlı dərs çalışdıqdan sonra bunu bacara bildi. Amma maddi problemlər səbəbi ilə 1897-ci ildə ayrılmağa məcbur oldu və diplom ala bilmədi.Ömrünün son illərində böyrək xəstəliyindən əziyyət çəkir və bir gün çox ağrıyır və həddindən artıq olaraq ağrıkəsici qəbul edir. Cek London 1916-ci il noyabr ayının 22-də Kaliforniyanın Qlen-Ellen şəhərciyində vəfat edir.

**Əsərləri:** "Yaponiya sahillərində tayfun", "Canavar oğlu" (Boston, 1900), "Atalarının tanrısı" (Çikaqo, 1901), "Şaxtanın övladları" (Nyu-York, 1902), "İnsana inam" (Nyu-York, 1904), "Ayüzlü" (Nyu-York, 1906), "İtirilmiş sima" (Nyu-York, 1910) hekayələrindən ibarət toplu, "Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904),
"Martin İden", "Həyat eşqi" və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Cek_London

**25 Yanvar - Alman yazıçısı, bəstəkar, rəssam Ernest Teodor Amadey Hofmanın 245 illiyi, (1776-1822)**

***Ernest Teodor Amadey Hofman daima ictimai mühitin diqqətini cəlb etmişdir. O, romantik operanın – "İndianın" yaradıcısıdır.***



Ernest Teodor Amadey Hofman 24 yanvar 1776 - cı ildə Köniqsberq şəhərində anadan olmuşdur. Onun ata - anası yola getmədiklərinə görə ayrılmışlar. Hofman nənəsi ilə qalmışdır. O, ağır həyat keçirmiş, demək olar ki, aclıq içində yaşamışdır.Unversitetdə hüquq elmləri üzrə təhsil almışdır.

Ernest Teodor Amadey Hofman hələ gəncliyində musiqi, ədəbiyyat, rəssamlıqla məşğul olmuş, ilk günlərdən ictimai mühitin diqqətini cəlb etmişdir.1807-ci ildə o, bütün işlərini buraxıb Berlinə köçür, 1808-ci ildə o, iş tapır. O, Almaniyada Banberq teatrında bəstəkar, Drezden və Leypsiqdə opera truppasında musiqi üzrə direktor, rejissor işləmişdir.

Ernest Teodor Amadey Hofman romantik operanın – "İndianın" yaradıcısıdır. Hofman 30-dan çox bədii əsər yaratmışdır. Onun ilk novellası 1809-cu ildə yazılmışdır. Ernest Teodor Amadey Hofman 1814-cü ildə "Qızıl bardaq", 1876-cı ildə "İblis eliksiri" və s. romanlarını yazır.

Ernest Teodor Amadey Hofmanın 1814-cü ildə yazdığı "Qızıl bardaq" nağılının qəhrəmanı Anselim, çox sadə, heç nədə bəxti gətirməyən oğlandır. A.Hofman 1822-ci ilin 25 yanvarında Berlində vəfat etmişdir.

**Əsərləri:** "Qızıl bardaq" (1814), "İblis eliksiri" (1876), "Şelkunçik və siçanlar padşahı" və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Ernest_Teodor_Amadey_Hofman

**27 Yanvar - Rus yazıçısı M.Saltıkov-Şedrinin 195 illiyi, (1826-1889)**

***Mixail Saltıkov-Şedrinin bədii və publisistik əsərləri rus ədəbiyyatında tənqidi realizmi daha da inkişaf etdirmişdir.***



Mixail Yevqrafoviç Saltıkov-Şedrin 1826-cı il yanvar ayının 27-də Moskva vilayətinin Taldom rayonunda anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra bədii yaradıcılıqla məşğul olmağa başlamışdır. Natural məktəb ruhunda yazılmış ilk povestlərin ("Ziddiyyətlər" 1847, "Dolaşıq iş" 1848) görə həbs olunmuş və sonradan Vyatkaya sürgün edilmişdi. 1855-ci ildə sürgündən Peterburqa qayıdaraq, ədəbi fəaliyyətini davam etdirmişdir. "Quberniya oçerkləri"ndə (1856-1857) təhkimçilik quruluşuna nifrət, təhkimçi kəndlilərə rəğbət motivləri geniş əks olunmuşdur.1856-1862-ci illərdə bir sıra yüksək quberniya vəzifələrində çalışan Saltıkov onlarla cinayətkar mülkədarı məhkəməyə cəlb etmiş, çoxlu rüşvətxor məmur xidmətdən çıxarılmışdır. 1862-ci ilin əvvəllərində, ehtimal var ki, yuxarıların" təkidi ilə Saltıkov istefaya göndərilmişdir. Qeyd etmək lazımdır ki, əyalətdə yaşayıb-işləmək yazıçıya zəngin yaradıcılıq materialı vermişdir. "Mənsur satiralar" (1863) kitabındakı oçerk və hekayələrdə təhkimçi mütləqiyyət üsul-idarəsinin tarixən ölümə məhkumluğu fiziki əksini tapmışdır. Dövlət xidmətindən uzaqlaşdırıldıqdan sonra "Russkaya pravda" jurnalını nəşr etmək fikrinə düşdü, lakin hökumət buna icazə vermədi. N.A.Nekrasovun dəvəti ilə "Sovremennik" jurnalının redaksiyasına işə girdi. Onun burada dərc edilmiş "İctimai həyatımız" aylıq şərhləri həmin illər rus publisistikası və ədəbi tənqidinin görkəmli nümunələrindən sayılır.1864-cü ildə Saltıkov dövlət xidmətinə qayıtsa da, rus tənqidi realizm ənənələrinə sadiq qaldı. 1868-ci ildə çarın göstərişi ilə Saltıkov birdəfəlik ehtiyata buraxıldı və ona hər hansı bir dövlət vəzifəsi tutmaq qadağan edildi. Həmin vaxtdan Saltıkov "Oteçestvennıye zapiski" jurnalında işləmiş, Nekrasovun vəfatından sonra isə onun baş redaktoru olmuşdur.Bədii yaradıcılığının zirvəsi olan "Bir şəhərin tarixi" (1869-1870), "Nəcib nitqlər" (1872-1876), "Müasir idilliya" (1877-1881), "Xalacığaza məktublar" (1881-1882) əsərlərində mütləqiyyət və təhkimçilik quruluşu kəskin satira atəşinə tutulur, o dövr rus cəmiyyətinin sosial ziddiyyətləri, kapitalist münasibətlərinin yaranması göstərilir. Saltıkov ömrünün son illərində "Nağıllar" (1882-1886), "Həyatın təfərrüatı" (1886-1887) və s. kimi bədii sənət inciləri yaratmışdır. Ezop üslubu Saltıkov satirasının başlıca xüsusiyyətlərindəndir.Dahi rus yazıçısı Saltıkov-Şedrin 1889-cu il, may ayının 10-da Peterburq şəhərində vəfat etmişdir.

**Əsərləri:** "Bir şəhərin tarixi" (1869-1870), "Nəcib nitqlər" (1872-1876), "Müasir idilliya" (1877-1881), "Xalacığaza məktublar" (1881-1882), "Nağıllar" (1882-1886), "Həyatın təfərrüatı" (1886-1887) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Mixail_Saltıkov-Şedrin

**İncəsənət**

**18 Yanvar - Xalq artisti, kinorejissor Eldar Quliyevin 80 illiyi, (1941)**

***“Mən bu fikirdəyəm ki, Eldarın “Bir cənub şəhərində” filmi sənət əsəri kimi çox güclü, çox dəyərlidir”.***

**Xalq artisti Tofiq Quliyev**

***1979-cu ildə Eldar Quliyevin çəkdiyi “Babək” filmi professionallıq səviyyəsinə, kütləvi və batal səhnələrin miqyasına görə heç də xaricdə istehsal olunan bu tipli filmlərdən geri qalmırdı. Həmin illərdə “Babək” filmi 52 ölkə tərəfindən satın alınıb.***



**Eldar Quliyev - Azərbaycan kinorejissoru, ssenari müəllifi, aktyor, filmlərin bədii rəhbəri, Azərbaycan SSR Dövlət mükafatı laureatı (1978), Azərbaycanın xalq artisti, "Debüt" studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kino kafedrasının professoru, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvü, Azərbaycan SSR əməkdar incəsənət xadimi (1976) Qırmızı Əmək Bayrağı Ordeni, “Şöhrət” və “Şərəf” ordenləri ilə təltif olunub.**

Görkəmli Azərbaycan kinorejissoru, xalq artisti, professor Eldar Tofiq oğlu Quliyev 18 yanvar 1941-ci ildə Bakıda anadan olub. 1960-1966-ci illərdə Moskvada ÜDKİ-nun rejissorluq fakültəsində, Serqey Gerasimovun kursunda təhsil alıb. 1967-ci ildən "Azərbaycanfilm" kinostudiyasında işləyir. “Biri vardı, biri yoxdu...” adlı ilk qısametrajlı filmini çəkib. Kifayət qədər tanınmış bədii və sənədli filmin müəllifidir. 1969-cu ildə ilk böyük ekran əsəri olan “Bir cənub şəhərində” filmi ilə özünü təsdiqləyib və bu filmlə Azərbaycan kinosunda yeni bir mərhələnin təməlini qoyub. Bunlarla yanaşı “Ən vacib müsahibə”, “Var olun, qızlar...”, “Ürək... Ürək...”, “Nizami”, “Nə gözəldir bu dünya...”, “Girov”, “İstanbul reysi”, “Dərvişin qeydləri” və s. filmlərə quruluş verib.Həmçinin bir neçə filmin ssenari müəllifidir. Çəkdiyi filmlərin bir neçəsi kinofestivallarda priz və mükafatlara layiq görülmüşdür. "Debüt" studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kino kafedrasının professorudur.Eldar Quliyev öz bilik və təcrübəsini cavanlara ötürməyi, “Debüt” Eksperimental Gənclik yaradıcılıq studiyasının rəhbəri kimi isə neçə-neçə gəncə yardımçı olmağı özünə borc bilir. Professional Kinorejissorlar Gildiyasının ən fəal yaradıcılarından olan Eldar Quliyev Gildiya yaradılan gündən indiyədək qurumun prezidentidir.

**Rejissor olduğu filmlər:** “Səməd Vurğun” (1966), “Biri vardı, biri yoxdu”(1967), “Bir cənub şəhərində” (1969), “Abşeron ritmləri” (1970), “Ən vacib müsahibə" (1971), ”Var olun qızlar” (1972), “Səmt küləyi” (1973), ”Ürək...Ürək” (1976), “Sevinc buxtası” (1977), “Babək” (1979), “Yalançını evinəcən qovarlar” (1981), “Nizami” (1982), “Gümüşgöl əfsanəsi” (1984), “Unudulmuş qəhrəman” (2005), “Heydər Əliyev” “Dünyaya pəncərə” (2006), “İstanbul reysi” (2010), “Dərvişin qeydləri” (2013) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Eldar_Quliyev_(kinorejissor)

**27 Yanvar - Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın 265 illiyi, (1756-1791)**

***"Motsartın əsərləri opera teatrımızın, filormoniyanın, ayrı-ayrı musiqiçilərimizin repertuarında möhkəm yer tutmuş, konservatoriya və musiqi məktəblərində həvəslə öyrənilmişdir".***

**Xalq artisti Tofiq Bakıxanov**



**Volfqanq Amadey Motsart (alm. Wolfgang Amadeus Mozart; d. 27 yanvar 1756, Zaltsburq – ö. 5 dekabr 1791, Vyana) dahi Avstriya bəstəkarı, Avropa klassik musiqisinin ən nüfuzlu nümayəndələrindən biri.**

Motsart bəstəkarlıqla yanaşı, eyni zamanda mahir skripkaçı, orqan ifaçısı və dirijor da olmuşdur. Müasirlərinin dediyinə görə dahi bəstəkar qeyri-adi musiqi duyumu, eşitdiyi musiqiləri yadda saxlama və improvizə etmə kimi fenomenal qabiliyyətlərə malik olmuşdur.Yaratdığı 600-dən çox əsəri simfonik, konsert, kamera, piano, xor kimi klassik musiqi janrlarının ən yüksək zirvələrində qərarlaşıb. Onun əsərləri dünyanın ən nüfuzlu orkestrlərinin konsert repertuarlarının ayrılmaz parçasını təşkil edir. Beş yaşında Motsart özü kiçik parçalar bəstələməyə başladı və atası heyrət içində onları nota yazırdı. Belə erkən əsərlər arasında Andante (K. 1a) və Allegro C-də (K. 1b) var idi. Motsartın uşaqlıq illərində ailəsi Avropa boyu bir neçə səyahətlər etmiş və Leopold Motsart bu səyahətlərdə uşaqlarının istedadını nümayiş etdirmişdir. O, musiqinin bir çox janrlarında simfoniya, sonata, simli kvartet, serenada və ara-sıra opera əsərləri yazır. Bu ilkin dövrdə yaratdığı əsərləri indi də ifa olunmaqdadır. K. 271 E bemol piano konserti, başlanğıcda solist tərəfindən orkestranın gözlənilməz fasiləsi ilə klassik musiqinin kəşfi sayılır. Motsart Münhendə "La finta giardiniera" adlı operasının premyerasını böyük uğurla həyata keçirir.1781-ci ilin yanvarında Motsartın Idomeneo operası Münhendə böyük uğurla səhnəyə qoyulur. 1782-1785-ci illər ərzində Motsart piano üçün konsertlər seriyası yazır və bu konsertlərdə özü solo ifaçı kimi çıxış edir. 1785-ci ilin sonlarına yaxın o piano konsertlərinə ara verir və "Lorenzo da Ponte" adlı librettosu ilə özünün opera fəaliyyətinə başlayır. 1786-ci ildə "Fiqaronun toyu" operası Vyanada uğurla səhnəyə qoyulur. Əsər Praqada da böyük uğur qazanır. Əsərin Praqa uğuru "Da Ponte" operasının sifarişi ilə nəticələnir və nəticədə "Don Ciovanni" operası yaranır. Motsart 1791-ci ildə imperatorun Praqada tacqoyma mərasimi ilə bağlı şənliklərdə nümayiş etdirilən "La clemenze di Tito" operasının 6 sentyabr premyerasında xəstələnir. Motsart dekabr ayının 5-i gecə saat 1-də vəfat edir. Bəstəkar haqqında bioqrafiyalar ərsəyə gəlir və müəlliflər onun yarımçıq qalmış əsərlərini tamamlamaq uğrunda rəqabətə girişirlər.

**Əsərləri:** "La clemenze di Tito", "Exsulate jubilate", K. 165 solo kantatası, "Sehrli fleyta", sonuncu piano konseri (K. 595 B bemolda), Klarnet konserti (K. 622), simli kvartet seriyasından son kvarteti (E bemolda K. 614),Ave verum corpus kilsə nəğməsi (K. 618) və bitirə bimədiyi Rekviyemi (K. 626).

İnternetdə: https://az.wikipedia.org/wiki/Volfqanq_Amadey_Motsart

**Folklor**

**30 Yanvar - Aşıq Hüseyn Şəmkirlinin anadan olmasının 210 illiyi, (1811-1891)**



***Aşıq musiqisi, aşıq insanın mənəvi dəyərlərini, əməllərini tərənnüm edir və bundan ilham alır.Xalq yaradıcılığında mövcud olan aşıq sənəti üçün yeni keyfiyyət xüsusiyyətləri xasdır ki, bunlar da milli irs kimi Azərbaycanda peşəkar bəstəkarlıq yaradıcılığının əvəzolunmaz və çox mühüm mənbəsi hesab edilir.***

Xalqın tarixi dəyəri və mənəvi inkişaf səviyyəsi həmin xalqa mənsub yaradıcı şəxslərin yaradıcılıq fəaliyyət nəticələri ilə müəyyən olunur. Təbii ki, Azərbaycan xalqının yaradıcılıq istiqamətlərindən bir də çoxəsrlik aşıq musiqisində təzahür olunur. Bu, xalqın fəlsəfi mədəniyyətinin formalaşdığı xüsusi bədii təfəkkür sahəsidir. Bu incəsənət növündə poeziya, musiqi, rəqs, ifaçılıq sintezi özünü göstərir.Aşıq sənətinin əsas mövzuları – məhəbbət və təbiət gözəlliyi, insan və onun əməlləridir. Özü də bu yaradıcılıq prosesi sintez, yəni teatrlaşdırılmış şəkildə improvizator aşıq tərəfindən sazda ifa kimi tərənnüm olunur. Aşıq sənəti indi də bütün xalqın musiqi-yaradıcılıq düşüncəsində öz ictimai əhəmiyyətini saxlamaqdadır. Onun mənbələrindən indiki peşəkar bəstəçilər də dəyərlənir və öz yaradıcılıqlarında ondan çox uğur və dəqiqliklə istifadə edirlər. Aşıq musiqisinin mövzuları həyatın özü kimi çox rəngarəngdir – xalqın azadlıqsevərliyi, oğul və qızların qəhrəmanlığı, onların cəsur əməlləri, səciyyəvi milli xüsusiyyət kimi alicənablıq, düzgünlük və xeyirxahlıq mənəvi dəyərlər kimi.Öz yaradıcılığında ən yaxşı şair, xanəndə, musiqiçi və aktyor xüsusiyyətlərini cəmləşdirən bir sıra aşığın adını qeyd edək –Aşıq Hüseyn Şəmkirli, Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Sarı aşıq, Aşıq Ələsgər…

Azərbaycanda aşıq sənətinin tarixini tədqiq etməyi qarşımıza məqsəd qoymuruq, çox mürəkkəb olan və xalq tərəfindən çox sevilən bu incənət janrının xalqın fəlsəfi mədəniyyətinin formalaşmasında rolunu və əhəmiyyətini qeyd etmək istəyirik. Azərbaycanda aşıq sənətinin dərin tarixi inkişaf mərhələlərindən söhbət açan bir sıra ədəbi mənbələr bizə məlumdur. Sənətşünaslıq elmi sahəsində professor Tariyel Məmmədovun «Azərbaycan aşıqlarının ənənəvi havaları» adlı doktorluq dissertasiyasını qeyd etmək olar. Bu tədqiqatda bilavasitə xanəndə-dastançı aşıqların dilindən dinlənilən əsərlərin musiqi-poetik dili, metroritmikası, forması araşdırılır.

**Qoşmaları:** “Danışma”

**Gəraylıları**: “Bayaz”,  “Üstünə”, “Ziba” və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Aşıq Hüseyn Şəmkirli

**Tariximiz, bu günümüz**
**27 Yanvar - Tarixçi alim Sara Aşurbəylinin anadan olmasının 115 illiyi, (1906-2001)**
***“Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir”.***

Ulu öndər Heydər Əliyev



**Aşurbəyli Sara Balabəy qızı — Azərbaycan alimi, tarixçisi və şərqşünası.**

Sara Aşurbəyli 1906-cı il yanvarın 27-də Bakı şəhərində anadan olmuşdur. O, Yaxın və Orta Şərq xalqları tarixinin bilicisi olmaqla yanaşı, həm də rəssam və musiqiçi idi. Ağır təqib illərində yaşamaq üçün bu bilik və bacarıqlarından istifadə etmişdir. Sara xanım dram teatrında rəssam və dekorator, məktəbdə müəllim işləmiş, müəllimi Üzeyir Hacıbəyovun dəvəti ilə 15 il Konservatoriyada xarici dildən dərs demiş, eləcə də öz çəkdiyi rəsm əsərlərini sataraq dolanmışdır. Sərgilərdən birində onun "Göygöl" əsərini Meksika nümayəndələri almışlar. Bu əsər indi Meksika muzeylərindən birində saxlanır. 1946-cı ildə Sara xanım Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilmişdir.Sara Aşurbəyli sonralar Azərbaycan Tarixi Muzeyində Orta əsrlər tarixi şöbəsinin müdiri, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi, Tarix İnstitutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifəsində işləmiş, 1993-cü ildən ömrünün sonuna qədər Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi olmuşdur. O, "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri" və "Şirvanşahlar dövlətinin tarixi" kitablarının müəllifidir. Bu tədqiqatlarına görə Sankt-Peterburqda tarix elmləri namizədi, Tbilisidə isə, 1966-cı ildə tarix elmləri doktoru adına layiq görülmüşdür. Azərbaycan tarixinə, mədəniyyətinə həsr etdiyi məqalələrinə, tədqiqatlarına görə isə o, Azərbaycan Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeni və respublikanın əməkdar elm xadimi adı ilə mükafatlandırılmış, Xəzər Universitetinin Fəxri Doktoru adını almışdır.Görkəmli alim 2001-ci il iyulun 17-də 96 yaşında vəfat etmişdir. Sara xanım Aşurbəyli XX əsrin inqilabdan əvvəlki, sovet və postsovet dövrlərindəki Azərbaycan qadınının yeni obrazının təcəssümü idi.

**Əsərləri:** “Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü.” (1998), “Şirvanşahlar dövləti (VI – XVI əsrlər)” (1997), “Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri” (1990), “Orta əsr Bakı (VIII - əvvəli.XIX ə.s.) tarixi oçerk.” (1964), “Şirvan şəhərlərinin sosial-iqtisadi və siyasi tarixinin XVI - XVII ə. Azərbaycan MEA-nın tarix İnstitutunun arxivi”, “IX - X əsrlərdə Şirvanın xəritəsi” və s.

**Filmoqrafiya:** Böyük İpək Yolunda (film, 1986) (elmi məsləhətçi)

İnternetdə:https://az.wikipedia.org/wiki/Sara_Aşurbəyli

## Milli qəhrəmanlar zirvəsi

### 5 Yanvar - Kərimov Elgiz Kərim oğlu 50 illiyi, (05. 01. 1971-12.03. 1992)

***"Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daima yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!"***
**Ulu öndər Heydər Əliyev**



Elgiz Kərimov 5 yanvar 1971-ci ildə Bərdə rayonunda dünyaya gəlmişdir. 1987-ci ildə orta təhsilini başa vurmuş, elə həmin il hərbi xidmətə çağırılmışdır. Elgiz hərbi xidmətini başa vurub Bərdəyə qayıtsa da, ön cəhbəyə könüllü, ürəkli gedənlərdən biri oldu. Erməni işğalçılarının Vətənimizə hücumu ilə barışa bilməyən Kərimov 1991-ci ildə könüllü özünümüdafiə batalyonlarından birinə yazılaraq Vətəninin müdafiəsinə qalxdı.Elgiz Kərimov Əsgəran yaxınlığında gedən şiddətli döyüş zamanı neçə-neçə erməni yaraqlısını məhv etdi. Bu döyüşdə göstərdiyi igidlikdən sonra gənc əsgərin adı dillər əzbəri oldu. İştirak etdiyi bütün döyüşlərdə böyük rəşadət göstərən qəhrəman 1992-ci il 12 martda mühasirəyə düşmüş döyüşçü yoldaşlarını xilas etmək üçün Xocalı rayonunun Naxçıvanlı kəndinə gəldi. Bir saata yaxın davam edən ağır döyüşdən sonra ermənilərin mühasirəsi yarıldı, döyüşçülərimiz azad edildi. Lakin bu döyüşdə Vətənimizin daha bir igid oğlu düşmən gülləsinə tuş gəldi. 21 yaşlı cəsur döyüşçümüz canından əziz tutduğu torpağı uğrunda qəhrəmancasına həlak oldu.Subay idi.Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Kərimov Elgiz Kərim oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.Bərdə rayonunda dəfn edilmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Elgiz_Kərimov

**19 Yanvar - Ramazanov Şamil Ağasəf oğlu 45 illiyi, (19.01. 1976-04.04.1995)**

***Heç kəs unudulmur, heç nə yaddan çıxmır.***



**Şamil Ramazanov — Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Ramazanov Şamil Ağasəf oğlu 19 yanvar 1976-cı ildə Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. 1983-1993-cü illərdə burada orta məktəbdə təhsil almışdır.19 mart 1994-cü ildə Ağsu rayonunda hərbi xidmətə çağırılır. Gəncə şəhərindəki "N" saylı hərbi hissədə təlim keçən Şamil komandirlərin verdiyi tapşırıqları layiqincə yerinə yetirir, tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənmişdi. 1995-ci il məlum 13-17 mart hadisələri baş verdi, silahlı dəstənin zərərsizləşdirilməsi zamanı cəsur əsgər qəhrəmancasına həlak oldu. Subay idi. Ağsu rayonunun Rəhimli kəndində dəfn edilmişdir. Ağsu rayonunun mərkəzi Kinoteatrı qəhrəmanımızın adını daşıyır.

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Ramazanov Şamil Ağasəf oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə: https://az.wikipedia.org/wiki/ Şamil_Ramazanov

**23 Yanvar - Nəsirov Yalçın Canhəsən oğlu 45 illiyi, (23.01.1976-04. 04. 1995)**

***"Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir!"***

**Ulu öndər Heydər Əliyev**



**Yalçın Nəsirov — Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Azərbaycanın Milli Qəhrəmanı Yalçın Nəsirov 23 yanvar 1976-cı ildə Astara rayonunun Sərək kəndində anadan olmuşdur. 1982-1992-ci illərdə burada təhsil almışdır. 1994-cü il 19 aprel Milli Orduya çağırılır. O, Daxili Qoşunların tərkibində Lökbatanda 2 ay hərbi təlim keçir, sonra xidmətini Tərtər və Şamaxı rayonlarında davam etdirir. Yalçın komandirlərin tapşırıqlarını vaxtında yerinə yetirirdi. Gənc əsgər böyük arzularla yaşayırdı. Yalçın verilən tapşırıqları layiqincə yerinə yetirirdi. O, Vətənimizi azad və bütöv güclü görmək arzusu ilə yaşayırdı. 1995-ci il mart hadisələri baş verdi. 13-17 mart günlərində dövlət çevirilişinə cəhd edən dəstənin zərərsizləşdirilməsi zamanı Yalçın ağır yaralandı. Xeyli qan itirmişdi. Onu təcili olaraq Sabunçu rayon xəstəxanasına çatdırdılar. Lakin artıq gec idi... Həkimlər onu həyata qaytara bilmədi. 24 mart tarixdə o, aldığı yaradan Sabunçu rayon xəstəxanasında gözlərini əbədi yumdu.Subay idi. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Nəsirov Yalçın Canhəsən oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.Astara rayonu Sərək kənd orta məktəbi onun adını daşıyır.Astara rayonundakı "Qəhrəmanlar" parkında büstü qoyulmuşdur.

İnternetdə: https://az.wikipedia.org/wiki/Yalçın Nəsirov

# Fevral

## Əlamətdar tarixi günlər və bayramlar

2 Fevral – Ümumrespublika Gənclər Günü, (1997)

4 Fevral – Ümumdünya Xərçənglə Mübarizə Günü, (2005)

7 Fevral – Beynəlxalq Təhlükəsiz İnternet Günü, (2004)

8 Fevral – Beynəlxalq Nənələr və Babalar Günü, (2008)

14 Fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü, (1992)

14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü, (2012)

17 Fevral – Təmənnasız Xeyirxahlıq İfadəsi Günü

21 Fevral – Beynəlxalq Ana Dili Günü, (1999)

27 Fevral – Beynəlxalq Qütb Ayısı Günü

## Bu tarixi unutmayaq

26 fevral – Xocalı faciəsi, (1992)

## Azərbaycanın tanınmış şəxsiyyətləri

Yazıçı, salnaməçi, jurnalist, tərcüməçi, redaktor, etnoqraf Ceyhun Hacıbəyovun 130 illiyi, (03. 02.1891-1962)

## Azərbaycanın tanınmış elm adamları

Azərbaycan alimi, ensiklopediyaçı Nəsirəddin Tusinin 820 illiyi, (1201-1274)

## Yubilyar yazıçı və şairlər

Şair Əbdülbaqi Fövzinin (Yusifzadə) 120 illiyi, (12.02.1901-1956)

Şair, dramaturq Nəriman Həsənzadənin 90 illiyi, (18.02.1931)

Tənqidçi, tərçüməçi İshaq İbrahimovun 100 illiyi, (21. 02. 1921-1987)

Uşaq dramaturgiyasının banisi, yazıçı Abdulla Şaiqin 140 illiyi, (24.02.1881-1959)

Şairə Ağabəyim Ağanın 240 illiyi, (25.02.1781-1831)

Yazıçı Firuz Sadıqzadənin 90 illiyi, (25.02.1931-1995)

Xalq yazıçısı Əli Vəliyevin 120 illiyi, (27. 02. 1901-1983)

## Xarici ədəbiyyat

Özbək şairi Əlişir Nəvainin 580 illiyi, (09.02.1441-1501)

Tatar şairi Musa Cəlilin 115 illiyi, (15.02.1906-1944)

Rus uşaq şairi A.L.Bartonun 110 illiyi, (17.02.1906-1982)

## İncəsənət

Tarzən, xalq artisti Bəhram Mansurovun 110 illiyi, (12.02. 1911-1985)

Xalq artisti Əliabbas Qədirovun 75 illiyi, (13.02.1946-2006)

Xalq artisti Sofiya Hüseynovanın 95 illiyi, (17.02.1926 -30.07)

Xalq rəssamı Böyükağa Mirzəzadənin 100 illiyi, (21.02.1921-03.11.2007)

Rejissor, xalq artisti Şəmsi Bədəlbəylinin 110 illiyi, (23.02.1911-1987)

Xalq rəssamı Oqtay Sadıqzadənin 100 illiyi, (24.02.1921-20.12.2014)

Xalq artisti Səkinə İsmayılovanın 65 illiyi, (24.02.1956)

**Milli qəhrəmanlar zirvəsi**
Kərimov Bəşir Bəylər oğlunun 45 illiyi, (02.02.1976-1995)

**Əlamətdar tarixi günlər və bayramlar**
**2 Fevral – Ümumrespublika Gənclər Günü, (1997)**




***Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir.***
Heydər Əliyev,
*Ümummilli lider*

***Gənclik, əlbəttə, başqa nemətdir,***
***Unudulmaz böyük səadətdir...***
Hüseyn Cavid

1 fevral 1997-ci ildə Respublika Gənclər Forumunun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "2 fevral – Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd olunur. Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti mövcuddur və indi həmin siyasət daha qətiyyətlə həyata keçirilir. Bu gün ölkəmizin hər yerində Azərbaycan gəncləri öz bayramlarını uğurlarla qeyd edirlər. Ulu öndərin gəncliyə və gənclərə etimadı indi öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. İndi ölkəmizdə dövlət qeydiyyatından keçən 170-dən çox gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin gördüyü işlər də diqqəti xüsusilə cəlb edir. Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilirlər. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

İnternetdə: www.books.google.com

## 4 Fevral – Ümumdünya Xərçənglə Mübarizə Günü, (2005)




Ümumdünya Xərçənglə Mübarizə Günü 2005-ci ildə Xərçəng Əleyhinə Beynəlxalq İttifaq (UİCC) tərəfindən təsis edilmişdir. Əsas məqsəd dünya ölkələrinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu və mübarizənin yalnız birlikdə aparıldıqda səmərə verdiyini bir daha dünya ictimaiyyətinə xatırlatmaqdır. Əsas məqsəd ayrı-ayrı fərdlərin, təşkilat və hökümətlərin birgə fəaliyyəti ilə 2025-ci ilə qədər xərçəng və digər qeyri-infeksion xəstəliklər nəticəsində vaxtından əvvəl ölüm hallarının sayını 25% azaltmağın mümkünlüyünü göstərməkdir. Dünyada xərçəng xəstəliyindən hər il 7 milyondan çox insan həyatını itirir. Hazırda bu diaqnozla 20 milyon insan yaşayır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə 2030-cu ildə onkoloji xəstələrin sayı iki dəfə artacaq.

İnternetdə: www.books.google.com

## 7 Fevral – Beynəlxalq Təhlükəsiz İnternet Günü, (2004)




Beynəlxalq Təhlükəsiz İnternet Günü (İnternational Safer Internet Day) Avropa Komissiyasının qərarı ilə 2004-cü ildə təsis edilib. Bu əlamətdar hadisə dünyanın 60-dan çox ölkəsində müxtəlif şüarlar altında ("İnternet və uşaqlar", "Qlobal şəbəkədə kibercinayət: qanunsuz kontentlərdən müdafiə", "İnternet adi bir oyun vasitəsi deyil, İnternet bizim həyatımızdır" və s.) qeyd olunur. Tədbirlər qeyri-hökümət təşkilatı olan INSAFE (European Safer Internet Network – Avropa Təhlükəsiz İnternet Şəbəkəsi) tərəfindən koordinasiya edilir. INSAFE – Avropa Komissiyasının iştirakı ilə yaradılan milli təşkilatlar şəbəkəsidir. Təşkilatın əsas missiyası təhlükəsiz interneti təbliğ etmək, xüsusən də gələcək nəsilləri qlobal şəbəkədəki mövcud təhdidlərlə bağlı məlumatlandırmaq, maarifləndirmə işləri aparmaqdır. Ənənəvi olaraq hər il fevral ayının ikinci həftəsinin çərşənbə axşamı günündə təşkil edilən və bu il "Təhlükəsiz rəqəmsal texnologiyalar dünyasını birlikdə kəşf edin" şüarı ilə keçirilən müxtəlif səpkili tədbirlərdə – "Təhlükəsiz internet-mədəniyyət: uşaq və yeniyetmələr üçün pozitiv və təhlükəsiz İnternet", "Təhsil və informasiya təhlükəsizliyi", "Təhlükəsiz internetin yaradılmasında peşəkar cəmiyyətlərin rolu", "İnternetdə neqativ kontentdən texniki müdafiə metodları", "İnternet məhdud fiziki imkanlı insanlar üçün", "İnternet nəsilləri birləşdirir və insanları maarifləndirir" və s. mövzularda məruzələr dinlənilir, müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilərək təklif və tövsiyələr verilir.

İnternetdə: www.books.google.com

**8 Fevral – Beynəlxalq Nənələr və Babalar Günü, (2008)**



Bir çox Avropa ölkələrində "Nənələr və babalar" günü qeyd olunur. Fransada martın ilk bazar günü, İtaliyada oktyabrın ilk bazar günü, Estoniyada sentyabrın ikinci bazar günü, Polşada isə ayrıca nənələr günü (21 yanvar) və babalar günü (22 yanvar) qeyd olunur. 2008-ci ildən 8 fevral günü Beynəlxalq nənələr və babalar günü kimi qəbul olunub və bu təşəbbüsü həm YUNESKO, həm də Avropa Birliyinin mədəniyyət üzrə komissiyaları dəstəkləyib. Həmin gün yaşından asılı olmayaraq nənə və babası olan hər kəs onların ziyarətinə gedir.

Azərbaycanın Ahıl Ziyalılara Qayğı İctimai Birliyinin rəhbəri Nəsrulla Nurullayev isə bildirib ki, Azərbaycan xalqının mentalitetinə uyğun olaraq yaşlı insanlara qayğı göstərməyi cavan nəsil hər zaman özünə borc bilir və "Nənələr və babalar" gününün təsis olunması bunun bir daha sübutu ola bilər. Onun sözlərinə görə, bütün dünyada olduğu kimi, Azərbaycanda da oktyabrın 1-i Beynəlxalq ahıllar günü kimi qeyd olunur, lakin nənə və baba olan insanlar üçün ayrıca bir gün qeyd etmək cavan nəslin onlara qarşı münasibətini daha da yaxşılaşdıracaq.

İnternetdə: www.books.google.com

**14 Fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü, (1992)**



Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, Birinci Dünya Müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib və indiki Belarus ərazisində gedən döyüşlərdən birində həlak olub. 1992-ci ildən Azərbaycanda Hərbi Hava Qüvvələri ilə (HHQ ilə) bağlı islahatlar dövrü başlanıb. Həmin il bu qurumun strukturu milliləşdirilib. General-mayor Rail Rzayev HHQ-nin komandanı təyin edilib. Bir qədər sonra Hərbi Hava Qüvvələri Hava Hücumundan Müdafiə Qoşunları ilə birləşdirilib. General-leytenant rütbəsi alan Rail Rzayev Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ və HHMQ) komandanı kimi fəaliyyətini davam etdirib. Atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda başlanan hərbi islahatlar prosesinin özəyini məhz HHQ və HHMQ təşkil edib. Səbəb aydındır – işğal altında olan Azərbaycan əraziləri yüksək relyefə malikdir və bu əraziləri işğaldan qurtarmaq işində qırıcıların, hərbi təyyarələrin və hava hədəflərini vuracaq texnikaların əvəzi yoxdur. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb. Beləliklə, 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ və HHMQ-nin dirçəldilməsinə sərf edilib.

Xatırladaq ki, Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (İPAP) çərçivəsində H. Z. Tağıyev qəsəbəsindəki hərbi aerodrom modernləşdirilib. Eyni zamanda hərbi aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib və təmir edilib, aerodromun texniki təminatı, paraşüt-desant xidməti və əyləc paraşütlərinin yığılması binalarının inşasına başlanılıb.

Hazırda Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuş keçirmiş pilotlar sayılır. Pilotlarımız, əsasən, Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrin müvafiq ixtisasartırma kurslarında və təlimlərdə iştirak edirlər.

1992-ci ilin sentyabrında verilən fərmana əsasən 14 fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü kimi qeyd olunur.

İnternetdə: www.books.google.com

**14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü, (2012)**




14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü (International Book Giving Day) – təqvimdə ən gənc bayramlardandır. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir.

Bu bayram 2012-ci ildə özünün meydana gəlməsində ABŞ-da məşhur Delightful Children's Books uşaq kitabı saytının yaradıcısı Emmi Brodmura borcludur. Bu ideyanı ona balaca oğlu vermişdir. O, anasından soruşmuşdur ki, niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün yoxdur.

Öncə Emmi Brodmur internet şəbəkəsində müxtəlif insanlara bu təşəbbüsə qoşulmağı təklif etmişdir. İki il ərzində bu təşəbbüs dünyada dəstək qazanmış və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir.

Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynamışdır. Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola salınır və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır.

İnternetdə: www.books.google.com

## 17 Fevral – Təmənnasız Xeyirxahlıq İfadəsi Günü



Hər il fevralın 17-də bütün dünyada qeyd olunan Təmənnasız Xeyirxahlıq İfadəsi Günü (Random Acts of Kindness Day) beynəlxalq xeyriyyə təşkilatlarının təşəbbüsü ilə təsis olunmuşdur. Bu bayram ABŞ-da yaransa da, lakin bu gün artıq ümumdünya əhəmiyyətli bayrama çevrilmişdir və vətəndaşlıqdan, milliyyətdən və dini inanclardan asılı olmayaraq qeyd olunur.

Bu bayram daha çox Qərbi Avropa və ABŞ-da məşhurdur. Həmin gün bir çox şəhərlərdə ənənəvi olaraq məşhur aktyorların, ictimai və siyasi xadimlərin iştirakı ilə xeyriyyə tədbirləri və marafonları keçirilir.

Əgər insan öz yaxşılığı müqabilində təşəkkür gözləyirsə, bu həqiqi yaxşılıq, xeyirxahlıq hesab olunmur. Siz xeyirxahlıq etdiyiniz insanların sevincini görməyi və tərifini eşitməyi gözləməməlisiniz. Xeyirxah əməllər özlüyündə sizə zövq verməlidir, buna görə tərif gözləməməlisiniz. Əsl xeyirxahlıq budur!

İnternetdə: www.books.google.com

## 21 Fevral – Beynəlxalq Ana Dili Günü, (1999)

***Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük sərvətidir.***

Ümummilli lider Heydər Əliyev

***Ey türk oğulları, vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilimizin bir sözünü ləl cavahirata dəyişməyin.***

Şah İsmayıl Xətai




Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu il noyabr tarixində keçirilən Baş konfransının 30-cu sessiyasında təsis edilib və 21 fevral 2000-ci ildən dünyada dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilir.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Çünki Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Dünyada məhv olmaq təklükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Dil ünsiyyət vasitəsidir, millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik, tarixin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir.

İnternetdə: www.books.google.com

## 27 Fevral – Beynəlxalq Qütb Ayısı Günü



Hər il fevralın 27-də dünyada Beynəlxalq Qütb Ayısı Günü (International Polar Bear Day) qeyd olunur. Bu günün qeyd olunmasının əsas məqsədi ictimaiyyətin onlar haqqında məlumatını artırmaq və bu heyvanların qorunmasının vacibliyini vurğulamaqdır. Həmin gün ənənəvi olaraq təbiətin müdafiəsi ilə məşğul olan ekologiya təşkilatları tərəfindən müxtəlif aksiyalar və maarifləndirici tədbirlər həyata keçirilir.

Qütb ayılarının yoxolma təhlükəsinin əsas səbəblərindən biri olan qütb buzlaqlarının ərinməsidir. Ağ ayıların məhv olmasının daha bir səbəbi ətraf mühiti çirkləndirən neft quyularının işlənməsidir.

Son illərdə əldə olunmuş məlumatlar sübut edir ki, Qütb ayısı təqribən 5 milyon il əvvəl təkamülə başlamışdır. Onun əcdadı qonur ayı olmuşdur. Lakin ağ ayı, qonur ayıdan fərqli olaraq, uzaq Şimalda, dəniz buzları arasında yaşamağa uyğunlaşmışdır.

İnternetdə: www.books.google.com

**Bu tarixi unutmayaq**
**26 Fevral – Xocalı faciəsi, (1992)**




Xocalı soyqırımı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Rusiyanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə, Xocalı şəhərini işğal edərkən, azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğındır. Bu faciə xalqımıza qarşı dəhşətli soyqırımdır. Hücumdan əvvəl, yəni fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutulmuşdur. Nəticədə, fevralın 26-sı səhər saat 5 radələrində Xocalı tam alova bürünmüşdür. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etmişdir. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən sakinlərdən 613-ü düşmən gülləsinə tuş gələrək qətliamın qurbanı olmuşdur. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfər Xocalı sakini qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq olmuşdur. 1275 xocalılı əsir, 150 insan itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.

1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün ardıcıl tədbirlər görmüşdür. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi, siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur.

İnternetdə: www.books.google.com

**Azərbaycanın tanınmış şəxsiyyətləri**

**Yazıçı, salnaməçi, jurnalist, tərcüməçi, redaktor, etnoqraf Ceyhun Hacıbəyovun 130 illiyi, (03. 02.1891-1962)**

***Ceyhun Hacıbəyli özünün zəngin və çoxşaxəli yaradıcılığı, milli – mənəvi irsə qəlbən bağlılığı ilə xalqımızın yaddaşında özünə əbədi abidə ucaltmışdır.***



**Ceyhun Hacıbəylı (1891-1962) – yazıçı, salnaməçi, jurnalist, tərcüməçi, redaktor.**

Ceyhun Hacıbəyli 1891-cı il fevralın 3-də Şuşa şəhərində anadan olmuşdur. Müəllifin yaradıcılığı tədqiq olunmadığından, toplanmadığından mühacirətə qədərki əsərləri qəzet səhifələrində pərəm-pərəm düşmüşdür. Ceyhun Hacıbəyli yaradıcılığının ilk dövründə qələmini felyeton janrında sınamış, amma sonralar felyeton yazmamışdır. Felyetonları arasında "Pristav Ağa" daha çox diqqəti cəlb edir.Ceyhun bəy sonrakı illərdən başlayaraq məhsuldar şəkildə maarif, mədəniyyət, din, dil, xeyriyyəçilik, qaçqınlar mövzularında məqalələr yazır, çap etdirir. Mühacirətdən əvvəl (1919-cu ildən) "Kaspi", "Proqres", "Bakı", "Azərbaycan" və başqa qəzetlərdə yüzlərlə publisistik məqalə, hekayə dərc etdirən C. Hacıbəyli həmin dövrdə "Известия" (Kaspidə), "İttihat" və "Azərbaycan" (rus dilində) qəzetlərinin redaktoru olmuşdur.1910-cu ildə o, "Hacı Kərim" povestini yazır və 1911-ci ildə kitab şəklində çap etdirir. Lakin həmin povestdən sonra yaradıcılıqdan uzun müddət uzaqlaşmışdır. Ceyhun bəy Fransada yaşayarkən "La Revul du Mond Müsulman", "La Fiqaro" kimi mətbu orqanlarla əməkdaşlıq etmiş, "La Revul des Deux Mende" adlı jurnallarda çalışmış, Parisdə fransız dilində nəşr olunan "Qafqaz" və Münhendə Azərbaycan dilində çıxan "Azərbaycan" jurnalının redaktoru olmuşdur. "Azadlıq" radiostansiyasının yaradıcılarından sayılan Ceyhun Hacıbəyli Münhendəki "SSRİ-ni Öyrənən Universitetin" müxbir üzvü seçilmişdir. Ceyhun bəyin "İslam Əleyhinə" kampaniya və onun Azərbaycanda Metodları" adlı iri həcmli tədqiqat əsəri isə xüsusi əhəmiyyət kəsb edir. Adı Azərbaycanın Azadlıq tarixinə qızıl hərflərlə yazılan C.Hacıbəyli mühacirətdə yaşadığı bütün dövrdə (1919-1962) əqidə və amalından dönməmiş, son nəfəsinədək sovet imperiyası ilə ideoloji mübarizə aparmış, Azərbaycanın müstəqilliyi uğrunda bacardığını əsirgəməmişdir.

**Məqalələri:** Dağıstan məktəblisi (şer), Əhməd Cavad faciəsi: "Düşmən tikanları", Azərbaycanın ibtidası: ("Azərbaycan" qəzetinin nəşr tarixindən), Rusiya demokratları hansı məqamlarda bolşeviklərlə qovuşurlar? və s.

**Haqqında olan ədəbiyyat:**Tahirov A. C.Hacıbəylinin imzaları: Açılmamış səhifələr. Tahirov A. Zamanın hökmü: 3 fevral Ceyhun Hacıbəylinin ad günüdür, Tahirov A. İki müəllif, iki "Pristav ağa": (Üzeyir Hacıbəyli və qardaşı Ceyhun Hacıbəylinin ayrı-ayrı vaxtlarda qələmə aldıqları "Pristav ağa" adlı satirik hekayə haqqında).

İnternetdə:https://az.wikipedia.org/wiki/Ceyhun_Hacıbəyli

**Azərbaycanın tanınmış elm adamları**

**18 Fevral - Azərbaycan alimi Nəsirəddin Tusinin 820 illiyi, (1201-1274)**



***Tusi Şərq dünyasında etikaya dair "Əxlaqi-Nasiri" adlı məşhur əsəri ilə və Marağa rəsədxanasının banisi kimi xüsusi rəğbət qazanmışdır.***

Alimin yaradıcılığı ensiklopedik səciyyə daşıyır. Marağada yaşamış və fəaliyyət göstərmişdir.Məhəmməd ibn Həsən ət-Tusi 1201-ci il şənbə günü 18 fevralda Tus şəhərində anadan olmuşdur. İlk təhsilini atasından almış, sonra Həmədan və Tus şəhərlərində dövrünün tanınmış alimlərinin – İbn Sina və Bəhmənyarın davamçılarının yanında təhsil görmüşdür. Otuz yaşında ikən Kuhistan ismaillilərinin rəhbəri Nəsirəddin Möhtəşəm onu sarayına qonaq çağırır və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edir. 1235-ci ildə Nəsirəddin Tusi sonralar ona dünya şöhrəti gətirən və bir çox dillərə tərcümə olunan məşhur "Əxlaqi Nasiri" əsərini tamamlayır. Hülakü xan 1258-ci ildə Bağdadı fəth edərək, Abbasilər sülaləsinin hakimiyyətinə son qoymuşdu. Hülaku xan dövlətinin mərkəzini 1260-cı ildə Azərbaycana salır. İlxanilər adlanan bu yeni dövlətin başçıları "ilxan"lar (el xanları) idi. Hülaku xan öz dövlətinin paytaxtı kimi əvvəlcə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Marağanı, sonra isə Təbrizi seçir. Elə həmin vaxt Nəsirəddin Marağa rəsədxanasının tikintisinə başlayır. 25 iyun 1274-cü ildə (18 zilhiccə 672-ci il) Bağdadda vəfat etmiş və öz vəsiyyəti ilə Kazımeyn şəhərində on iki imam şiələrinin 7-ci imamı Museyi Kazımla və onun nəvəsi 9-cu imam Məhəmmədin məzarlarının ayaq tərəfində dəfn olunmuşdur. Nəsirəddin Tusi elmin müxtəlif sahələri ilə dərindən maraqlanmışdı. Onun qələmindən çıxan yüzdən artıq ciddi əsər elmin astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrinə həsr olunmuşdu. Bununla belə Nəsirəddinin yaradıcılığından astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur. Tusi bu sahələrdə aparılmış iyirmidən artıq uğurlu araşdırmanın müəllifidir. Riyaziyyata həsr etdiyi əsərlər yalnız ərəbcə, astronomiya üzrə tədqiqatları isə həm fars, həm də ərəb dillərində yazılmışdır. Riyaziyyatçı alimin ən məşhur əsərləri arasında "Şəklül-qita" ("Bütöv çoxtərəfli haqda risalə), "Came'ül-hesab" ("Lövhə və tozun köməyi ilə hesab toplusu"), "Dairənin ölçüsü", "Təhrir Öqlidis" ("Evklid "Başlanğıc"ının təsviri") kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət "Zici-İlxani" ("İlxanilərin astronomik cədvəlləri") əsəri isə alimin adını dünya astronomiya tarixinə salmışdır. Çağdaş tədqiqatçıların bir çoxu Nəsirəddin Tusini hər şeydən öncə, riyaziyyatçı hesab edir. Onun əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamışdır.

**Əsərləri:** Təcrid əl-Əqaid (Əqidənin təcridi), Təcrid əl-Kəlam (Kəlamın təcridi),Tezkeri hayat,Təhriri-Öqlidis (Evklidin şərhi), Təhrir əl-Məcəsti,Əsas əl-İqtibas (İqtibasın əsası),Əsraf əl-Əşraf, Əxlaqi-Nasiri (1235), Füsul-Nəsiriyyə,Övsafül-Əşraf, Risab fil-İmamə (İmamətə dair traktat),Cəbr və qədr Cələul-Hesab və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Nəsrəddin_Tusi

**Yubilyar yazıçı və şairlər**

**12 Fevral - Şair Əbdülbaqi Fövzinin (Yusifzadə) 120 illiyi, (1901-1956)**



Yusifzadə Əbdülbaqi Nəsir oğlu 1901-ci il fevralın 12-də Azərbaycanın Şamaxı qəzasında (indiki Şamaxı şəhərində) dəmirçi ailəsində doğulmuşdur. İbtidai təhsilini Şamaxıda rus-tatar məktəbində almışdır (1911-1916). Eyni zamanda çəkməçi yanında şagird olmuş, oradan tütün fabrikinə fəhləliyə keçmişdir. 1918-ci ildə ailəliklə Gəncəyə köçmüşlər. Burada əvvəlcə tütün fabrikində işləmiş, sonra Gəncə müəllimlər seminariyasına daxil olmuşdur (1919). Əksinqilabi qiyam nəticəsində seminariya müvəqqəti bağlanmışdır (1920).1921-ci ildə şagird komitəsinin sədri olmuşdur. Gəncə qəza icraiyyə komitəsində müxtəlif vəzifələrdə, həm də savadsızlığın ləğvi sahəsində çalışmışdır (1921-1924). Təhsilini davam etdirmək üçün Bakıya göndərilmişdir. Əvvəlcə fəhlə fakültəsində oxumuş, sonra pedaqoji texnikuma dəyişilmişdir (1924-1928). Eyni zamanda, yazıçı S.S.Axundovun müdirlik etdiyi 19 nömrəli 1 dərəcəli orta məktəbdə müəllim işləmişdir 1926-cı ildə "Gənc qızıl qələmlər" cəmiyyətinin üzvü olmuşdur. Azərbaycan Proletar Yazıçıları Birliyi 1928-ci ildə onu Moskvaya, V. Bryusov adına ali ədəbiyyat kurslarına göndərmişdir. Əvvəcə 1 Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində, sonra Dövlət Redaksiya-Nəşriyyat institutunda təhsil almış, orada 111 kursu bitirmişdir (1928-1933). Azərnəşrdə bədii ədəbiyyat şöbəsində redaktor işləmişdir (1933-1941).Sovet Ordusuna çağırılmış, Zaqafqaziya cəbhəsində siyasi idarədə təlimatçı-ədəbiyyatçı kimi xidmət etmişdir (1942-ci ilədək). Səhhətinə görə tərxis olunub Azərbaycan Radio Verilişləri Komitəsində—"Son xəbərlər" redaksiyasında məsul redaktor, sədr müavini, uşaq şöbəsində məsul redaktor, ədəbi-dram şöbəsinin məsul redaktoru, sonra redaktoru işləmişdir.Ədəbi fəaliyyətə 1920-1922-ci illərdən başlamışdır. "Gəncə seminariyasında" adlı ilk tənqidi məqaləsi "Dilxor" təxəllüsü ilə "Əxbar" qəzetinin 1920-ci il payız nömrələrində çap olunmuşdur. 1922-ci ildə "Yeni Gəncə" qəzetində "Eynək" şerini "Salik" təxəllüsü ilə dərc etdirmişdir. İstər "Yeni fikir" qəzeti, "Qızıl şəfəq" və "Dan ulduzu" jurnallarında (Tiflis dövri mətbuatı), istərsə də "Komsomol", "Pioner", "Maarif işçisi", "İnqilab və mədəniyyət" jurnallarında, "Kommunist", "Yeni yol", "Gənc işçi" qəzetlərində şer və hekayələrini Şahid, xüsusən Şirvani təxəllüsləri ilə çap etdirmişdir. Onun Simferopolda Krım tatarlarının dilində çap edilən "İleri" ("İrəli") jurnalında, "Yeni dünya", "Yaş qüvvət" ("Gənc qüvvə") qəzetlərində də yazıları çap olunmuşdur. "Tamara" adlı ilk pyesi Bakı və Gəncədə 1923-1924-cü illərdə fəhlə klubunda tamaşaya qoyulmuşdur. Bakıya köçdükdən sonra əsərlərini Fövzi təxəllüsü ilə dərc etdirmişdir. Əsas janrı poeziya olsa da Hekayə və pyeslər də yazmışdır. V.Mayakovski, M.Lermontov, A. Qaydar, N Qribaçov və b. sənətkarlardan tərcümələr etmişdir. Xidmətlərinə görə üç medalla təltif olunmuşdur. 1956-cı il yanvarın 7-də Bakıda vəfat etmişdir. **Əsərləri:** "Qadın intiqamı", "Üfüqlər qızaranda", "Həyatdan səslər", "Qaçay" və s. İnternetdə: https://az.wikipedia.org/wiki /Əbdülbaqi_ Fövzi

**18 Fevral - Şair, dramaturq Nəriman Həsənzadənin 90 illiyi, (18.02.1931)**

***Nəriman Həsənzadə olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir."*** **Xalq yazıçısı Mir Cəlal Paşayev**



**Həsənzadə Nəriman Əliməmməd oğlu — şair, dramaturq, Azərbaycan Yazıçılar İttifaqının üzvü (1954), Filologiya elmləri namizədi (1965), Azərbaycanın əməkdar incəsənət xadimi (1981), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990-1995), Azərbaycanın xalq şairi (2005), "İlin şairi" makafatı laureatı (2010).**

Nəriman Həsənzadə 1931-ci il fevralın 18-də Poylu qəsəbəsində anadan olub. 1949-cu ildə H.Zərdabi adına Kirovabad Dövlət İnstitutunun filologiya fakültəsinə daxil olmuşdur. 1953-cü ildə həmin Universiteti bitirmişdir. Azərbaycan Yazıçılar İttifaqı onu Moskvadakı İkiillik ədəbiyyat kursuna göndərir. Buranı bitirdikdən sonra Qorki adına Ədəbiyyat İnstitutuna daxil olur. Beş il burada təhsil alıb, Bakıya qayıdır. Hazırda Azərbaycan Milli Aviasiya Akademiyasının "Humanitar fənlər kafedrası"nın müdiri vəzifəsində çalışır, dosentdir. Müstəqil Azərbaycan Respublikasının "Şərəf" ordeni (2011) ilə təltif olunmuş və Fərdi prezident təqaüdünə layiq görülmüşdür. "Kayseri poeziya günləri"ndən (Türkiyə, 2009) şair yüksək təəssüratlar və ödüllərlə qayıtmışdır. N. Həsənzadə ilin şairi elan olunmuş, ona "Uğur – 2009" diplomu verilmişdir.

**Kitabları:** "Dostlar gözləyir məni" (1956), "Qız ürəyi" (1957), "Haradasan"(1959), "Qaraca Çobanın hekayəti" (1960), "Sizdən ayrılmadım" (1961), "Könlüm şer istəyir" (1964), "Yadına düşəcəyəm" (1966), "Nəriman"(1968), "Niyə demədiniz" (1970), "Zümrüd quşu" (1973), "Mənim gecəm-gündüzüm" (1973), "Nabat xalanın çörəyi" (1974), "Zümrüd quşu" (1976), "Nəriman" (1978), "Sən bağışladın" (1979), "Bir az möhlət istəyirəm ömürdən" (1981), "Fikir eləmə" (1982), "Kimin sualı var"(1984), "Nabat xalanın çörəyi" (1986), "Seçilmiş əsərləri" (1987), "Mənim nigahımı pozdu təbiət" (1989), "Bütün millətlərə" (1991), "Taleyin töhfəsi" (1993), "Gəlimli-gedimli dünya" (1995), "Pompeyin yürüşü" (1995), "Seçilmiş əsərləri" (2004), "Poylu beşiyim mənim" (2007), "Nəriman" (2009), "Seçilmiş əsərləri" (2010), "Nuru Paşa" (2010) və s.

**Poemaları:** "Nəriman", "Zümrüd quşu", "Kimin sualı var?", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Midiya sarayı", "Bəyanət", "Həsrət", "Vətənsiz", "Heybədə gəzən şeir", "Şahid ol, günəş", "Rəsul Həmzətova məktub", "Şəhid atası Şərif qağaya məktub", "Qafqaz", "Cavid", "Qaçaq Kərəm", "Səfirə", "Xarı bülbül" və s.

**Povesti:** Nabat xalanın çörəyi

**Filmoqrafiya:** Nəriman Həsənzadə (film, 2006), Qəmbər Hüseynli (film, 2007), Mən Hüseyn Arifəm... (film, 2010) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 665.

**21 Fevral - Tənqidçi, tərçüməçi İshaq İbrahimovun 100 illiyi, (1921-1987)**



**Azərbaycan SSR əməkdar incəsənət xadimi — 30.07.1979**

İshaq İbrahimov 1921-ci il fevralın 21-də Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmiş, İkinci Dünya müharibəsinin başlanması ona təhsilini davam etdirməyə imkan verməmişdir. 1941-ci ilin sentyabrından Sovet Ordusu sıralarında əsgər borcunu yerinə yetirməyə başlamışdır: ön cəbhədə əldə silah vuruşmuş, yaralanmış, müalicədən sonra yenidən cənub-qərb cəbhəsində topçu diviziyasında kəşfiyyat rəisi, ştab rəisi kimi döyüşlərdə iştirak etmişdir (1941-1942). Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda bədii tərcümə ilə məşğul olmuşdur (1945-1948). "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında ədəbi işçi, məsul katib (1948-1952), Azərbaycan Radio Verilişləri İdarəsində bədii verilişlər şöbəsinin baş redaktoru (1952-1959), "Azərbaycan" jurnalı redaksiyasında məsul katib (1959-1962), C.Cabbarlı adına "Azərbaycanfilm"də ssenari şöbəsinin müdiri, eyni zamanda ssenari-redaksiya heyətinin üzvü (1962-1966), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Radio bədii verilişləri şöbəsində tərcüməçi, "Ekran" yaradıcılıq birliyi redaksiya heyətinin üzvü, baş redaktor vəzifələrində (1962-1975) çalışmışdır. Azərbaycan Yazıçılar İttifaqında tərcüməçilər bölməsi bürosunun sədri idi. Azərbaycan Yazıçılar İttifaqının katibi seçilmişdir (1975-1984). Yazıçılar İttifaqı nümayəndələrinin tərkibində İraqda səfərdə olmuşdur. Azərbaycan KP 26 Bakı komissarı adına rayon komitəsi plenumunun, SSRİ Yazıçılar İttifaqı idarə heyətinin üzvü, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin üzvü, Bakı şəhər Sovetinin deputatı seçilmişdir. SSRİ döyüş medalları ilə təltif olunmuşdur. 1987-ci il iyulun 5-də vəfat etmişdir.

**Tərcümələri (ruscadan):** "Georgi Qulia. Sagen kəndinin baharı"(1949), "M.Qorki. Məqalə və pamfletlər" (1951), "Vasilenko" 1951, "V.Ajayev. Moskvadan uzaqlarda" (1952), "N.V.Qoqol. İvan İvanoviçin İvan Nikiforoviçdən küsməsi haqqında povest" (1953), "Zekers. Yeddinci xaç" (1954), "V.Latsis. Qanadsız quşlar", "A.P.Çexov. Hekayələr", "Abdulla Qədiri. Ötən günlər", "F.M.Dostoyevski. Netoçka Nezvanova", "H.AIbert Lixanov. Ailə vəziyyəti" (roman). (1970), "K.Y.Paustovski. Yaxın və uzaq adamlar" (1971), "Abdulla Qədiri. Ötən günlər" (1979), "P.Vejinov. Polkovnikə məktub yoxdur" (1982), "Layoş Meşterhazi. Prometey müəmması" (1984), "Çingiz Aytmatov. Gün var əsrə bərabər" və s.

**Filmoqrafiya:** Romeo mənim qonşumdur (film, 1963), Arşın mal alan (film, 1965), Qaraca qız (film, 1966) (film, kinoalmanax),Təsnif (film, 1969) (sənədli film), Qəribə görüşlər (film, 1969) (sənədli film), Cücələrim (film, 1970) (sənədli film) (Nazim Zeynalovla birgə),Oxuyur Şövkət Ələkbərova (film, 1970), İlham (film, 1972) (cizgi filmi), Gülüstan bayatı-şiraz (film, 1972) (sənədli film), Axtaran tapar (film, 1980) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 446.

**24 Fevral - Uşaq dramaturgiyasının banisi, yazıçı, ictimai xadim Abdulla Şaiqin 140 illiyi, (1881-1959)**

***Abdulla Şaiq həqiqəti hər şeydən uca tutan, daima həqiqət axtaran, tərəqqi və yüksəliş yolunda fədakarcasına çalışan yazıçı olmuşdur.***

Xalq yazıçısı Mirzə İbrahimov

***Abdulla Şaiqin nəcib həyatı bir çıraq kimi həmişə xalq üçün yanmışdır. Bu çırağın işığında uşaqların da, böyüklərin də qəlbində yalnız xeyirxah duyğular, xeyirxah arzular baş qaldırmışdır.***

Xalq yazıçısı İlyas Əfəndiyev



**Talıbzadə Abdulla Şaiq Mustafa oğlu - klassik Azərbaycan şairi, yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünas, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, əməkdar incəsənət xadimi (1940).**

Abdulla Şaiq 1881-ci il fevralın 24-də Tiflisdə ruhani ailəsində dünyaya gəlib. 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Xorasana gəlib. Yeddi il Xorasanda mükəmməl təhsil alıb, tarix, məntiq, psixologiya elmlərini, Şərq, Azərbaycan, rus ədəbiyyatını öyrənib. 1900-cü ildə Tiflisə qayıdıb. Bir müddət Tiflisdə qaldıqdan sonra 1901-ci ildə Bakıya gəlib. Bakıda bir rus ziyalısının böyük kitabxanasını alıb. Bir az sonra inqilabi hadisələr, Sabunçu kimi fəhlə mahalında çalışması, əməkçilərin ağır həyatını öyrənməsi və başqa olaylar onun dünyagörüşünü genişləndirib. O, milli intibah, milli dirçəliş tərəfdarı olan maarifçi pedaqoq, romantik şair kimi formalaşıb. Mollanəsrəddinçilərə yaxın olsa da, onlara hörmətlə yanaşsa da baxışlarına, ruhuna görə füyuzatçılara daha doğma idi. A. Şaiq həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürüb, eyni zamanda Azərbaycan ədəbiyyatını tədqiq və təbliğ edib, Xaqani, Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid kimi şair-yazıçıların yaradıcılıqları araşdırıb. A. Şaiq yaradıcılığına tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeiri olub. O, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə Azərbaycan milli uşaq poeziyasının incilərini yaradıb. Bir sıra şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görüb. Bu illərdə "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilib, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olub. Xalq ədəbiyyatını toplayıb araşdıran A. Şaiq bu örnəklər əsasında "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazıb. Onun "Ədhəm", "Tapdıq dədə", "Qoçpolad" kimi poemalarında milli folklorun təsiri görünür. Şaiq həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının özülünü qoyub. Nəsr yaradıcılığına 1905-ci ildə romantik "İki müztərib və ya əzab və vicdan" yarımçıq romanı ilə başlayan ədib "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "İblisin huzurunda",

"Dursun", "Əsrimizin qəhrəmanlar"ı kimi bir çox hekayə, povest və romanlar yazıb. "Köç" və "Məktub yetişmədi" hekayələri və "Əsrimizin qəhrəmanları" romanı ilk milli nəsr örnəkləri kimi dəyərləndirilir. "Həpimiz bir günəşin zərrəsiyiz" əsəri şairin o dövrkü dünyagörüşünü, şər qüvvələrin xalqlar arasında nifaq salmasını, savaş törətdiyini, bəşərin sabahını, insanların taleyini göstərən romantik şeirlərindəndir. Azərbaycan Gənc Tamaşaçılar Teatrının, Uşaq və Gənclər nəşriyyatının işi birbaşa Şaiqin adı ilə bağlıdır. Uzun müddət bu teatrda çalışan ədib "Xasay", "Eloğlu", "Vətən", "Fitnə", "Qaraca qız" kimi çeşidli pyeslər yazır. "Fitnə" və "Nüşabə" əsərləri Nizami süjetləri əsasında yaranan maraqlı sənət örnəkləridir.Ədib bu illərdə də uşaqlar üçün gözəl əsərlər yazır, başqa sənət dostlarını da bu işə cəlb edir. Onun "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də öz dəyərini saxlayır. M.Seyidzadə, M.Dilbazi, M.Rzaquluzadə, Z.Cabbarzadə və başqa müəlliflər uşaqlar üçün əsər yazmağı ondan öyrənirlər. Alim, ədəbiyyatşünas, folklorçu kimi də çalışan A. Şaiq klassik ədəbiyyat yönümündə araşdırmalar aparır. Onun Nizami, Füzuli, Nəsimi, Vaqif, M.F.Axundov, Mirzə Cəlil, M.Cavid, M.Hadi kimi sənətçilər haqqındakı fikirləri bu gün də dəyərlidir. Ədəbiyyat sahəsindəki fəaliyyətinə görə A.Şaiqə "Əməkdar incəsənət xadimi" adı verilmişdir. A.Şaiq 1959-cu ildə Bakıda vəfat etmişdir.
**Kitabları:** “Gülşən ədəbiyyat” (1910), “Uşaq gözlüyü” (1910), “Tülkü, qarğa, hacıleylək” (1911), “Tülkü, qarğa, hacıleylək” (1911), “Tülkü və xoruz” (1911), “Uşaq gözlüyü” (1911), “Gözəl bahar pyesi” (1912), ”Gülzar qiraət kitabı” (1912), “Bədbəxt ailə” (1912), “Kimdir haqlı?” (1913), “Murad” (1913), “Ürək tikmək, yaxud Qurban bayramı”(1913), “Şələquyruq” (1913), “Uşaq gözlüyü” (1915), “Uşaq gözlüyü” (1917), “Milli qiraət kitabı” (1919), “Uşaq gözlüyü” (1919), “Türk çələngi” (1919), “Uşaq gözlüyü” (1919), “Vətən” (1919), “Ədəbiyyat dərsləri” (1919), “Milli qiraət kitabı” (1919), “Müəllim (hekayə)” (1926), “Məktub yetişmədi” (1926), “Göbələk” (1926), “Anabacı” (1926), “İldırım”(1927), “Tülkü həccə gedir” (1927), “Dördüncü il (dərslik)” (1930), “Eşşək üstündə səyahət”(1933), “Seçilmiş hekayələr” (1933), “Oyunçu bağalar” (1934), “Çocuq şeirləri” (1934), “Yaxşı arxa” (1939), “Tapdıq dədə” (1939), “Gözəl bahar” (1940), “Araz (roman)” (1940), “Tıq-tıq xanım” (1942), “Nağıllar” (1945), “Ovçu Məstan” (1945), “Qoç Polad” (1946), “Nüşabə” (1947), “Seçilmiş əsərləri” (1948), “Şeirlər, nağıllar” (1948), “Köç”(1950), “Bənövşə” (1964), “Pirin kəraməti” (1965), “Şeirlər, poemalar, təmsillər” (1976), “Əsərləri (beş cilddə), I cild” (1966), “Əsərləri (beş cilddə), II cild” (1968), “Əsərləri (beş cilddə), III cild” (1972), “Əsərləri (beş cilddə), IV cild” (1977), “Əsərləri (beş cilddə), V cild” (1978), “Araz”(1980), “Seçilmiş əsərləri” (1984) və s.
**Tərcümələri:** “İki uşaq” (mənzum hekayə) (1906), “Rumi. İbrət və müqabilə (məsnəvi)” (1906), “Daniel Defo. Məşhur ingilis Robinzonun hekayəsi” (1909), “Şekspir. Maqbet” (1932), “Barto. Pinti qız” (1935), “Nizami. İsgəndərnamə. I hissə (Şərəfnamə)” (1941), “İ.A. Krılov. Seçilmiş təmsillər” (1944), “Nizami. Sehrli üzük” (1962), “Nizami Gəncəvi. İsgəndərnamə” (1964), “İ.A. Krılov. Cırcırama və qarışqa”(1976) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 25.

**25 Fevral - Yazıçı Firuz Sadıxzadənin anadan olmasının 90 illiyi, (1931-1995)**



**Sadıxov Firuz Sadıx oğlu – nasir, tənqidçi, ədəbiyyatşünas, 1959 - cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Sadıxov Firuz Sadıx oğlu 1931- ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 7 yaşında ikən atasını itirdiyindən anasının himayəsi altında boya-başa çatmışdır. 1938- ci ildə ailəliklə Cənubi Azərbaycana köçmüşlər. İbtidai təhsilini Sərab şəhərində, sonra Tehranda farsca almışdır. 1945 – ci ildə İran Demokratik Gənclər İttifaqı sıralarına daxil olmuşdur. 1946 - cı ilin dekabrında ailəliklə Sovet İttifaqına – Bakıya köçmüşlər. Burada orta məktəbi bitirdikdən sonra ADU - nun filologiya fakultəsində təhsil almışdır (1950-1955). Kiçik yaşlarından şeir və hekayə yazsa da, onun "İlk mahnı" adlı kiçik həcmli hekayəsi 1950 - ci ildə Cənubi Azərbaycan yazıçılarının almanaxında çıxandan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. İctimai işlərdə fəal çalışmışdır. Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin məsul katibi olmuşdur (1957-ci ildən).Universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında aspirant olarkən Qətran Təbrizinin həyat və yaradıcılığı mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1958).Universitetdə dosent vəzifəsində çalışmışdır. Müasir Cənubi Azərbaycan ədəbiyyatının bir sıra məsələlərinə dair məqalələri, rəyləri çap olunmuşdur. "Heyrət ey büt" (qəzəllər) kitabı onun tərtibi, redaktorluğu ilə kütləvi tirajla buraxılmışdır (1992). Firuz Sadıxzadə 1997- ci il mayın 24 - də Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Savalan ətəklərində" (1956), "Məhəbbət və azadlıq" (1963), "Tüfənglə ölçülən torpaq (povest və hekayələr)" (1967), "Məhəbbət körpüsü" (1975), "Nizami və müasirlik" (1992) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 332.

**27 Fevral - Xalq yazıçısı Əli Vəliyevin 120 illiyi, (1901-1983)**

***“Əli Vəliyev haqqında danışmaq həyatın dibindən dırmana-dırmana qalxan bir bahadır haqqında danışmaq deməkdir.”***

**Xalq şairi Məmməd Rahim**

***“Əli Vəliyev uzun illərdən bəri bir əlində qələm tutmuş, gözəl, səmimi, dolğun əsərlər yaratmış, bir əli ilə də ədəbiyyata yeni gələn gənclərin qolundan tutub qaldırmışdır.”***

**Şair Qasım Qasımzadə**



**Əli Vəliyev nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1937), Azərbaycan SSR xalq yazıçısı (1974), M.F.Axundov adına Dövlət mükafatı laureatı (1958).**

Əli Vəliyev 1901-ci il fevralın 27-də Zəngəzur mahalının Ağudi kəndində anadan olmuşdur. 1923-cü ildə Şuşa firqə məktəbinə daxil olmuşdur. Şuşa firqə məktəbindən sonra Bakı mərkəzi firqə məktəbində və mühazirəçilər qrupunda təhsilini davam etdirmişdir. 1933-1934-cü illərdə "Şərq qapısı" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. 1945-1950-ci illərdə Kommunist qəzetinin məsul redaktoru vəzifəsində çalışmışdır.1950-1954-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi vəzifəsində işləmişdir. 1954-cü ildə M.F.Axundov adına Respublika Dövlət mükafatına layiq görülmüşdür. 1954-1959-cu illərdə "Azərbaycan"jurnalının məsul redaktoru vəzifəsində çalışmışdır. Əli Vəliyev 2 fevral 1983-cü ildə Bakı şəhərində vəfat etmişdir.1937-1941-ci illərdə "Qarlı dağlar", "Qəhrəman", "Ordenli çoban" və "Sübut" kitabları çap edilmişdir. 1941-1942-ci illərdə Böyük Vətən müharibəsi cəbhələrində yazıçı-jurnalist kimi iştirak etmiş, gördüyü, şahidi olduğu insanlar və onların qəhrəmanlığı haqqında "Cəbhə hekayələri" kitabını yazmışdır. 1942-1945-ci illərdə "Ərköyün", "Sovqat" kitablarını çap etdirmişdir.1945-1950-ci illərdə "Gülşən" povesti və "Hekayələr" kitabları nəşr edilmişdir. 1954-cü ildə "Gülşən" povesti və "Çiçəkli" romanı M.F.Axundov adına Respublika Dövlət mükafatına layiq görülmüşdür. 1954-1959-cu illərdə yazıçının "Madarın dastanı", "Ürək dostları", Azərbaycan, rus və Ukrayna dillərində "Çiçəkli" romanı, "Seçilmiş əsərləri"nin I cildi oxuculara təqdim olunmuşdur.

**Əsərləri:** “Allahın səyahəti” (1930), “Nənəmin cəhrəsi” (1930), “Qarlı dağlar” (1938), “Dostlar” (1939), “Ordenli çoban” (1939), “Qəhrəman” (1940), “Sübut” (1941), “Cəbhə hekayələri” (1942), “Gülşən” (1953), “Çiçəkli” (1955), “Turaclıya gedən yol” (1961), “Anaqız” (1965), “Bir cüt ulduz” (1967), “Bir cüt tərlan” (1968), “Seçilmiş əsərləri,(6 cilddə)” (1968), “Seçilmiş əsərləri, (povest, hekayələr və romanları - 6 cilddə)” (1969), “Seçilmiş əsərləri” (1970), “Gülşən və ürək dostları,(Povestlər)” (1970), “Ürək dostları” (1970), “Samovar tüstüləri” (1971), “Durna qatarı” (1972), “Budağın xatirələri” (1974), “Zamanın ulduzları” (1976), “Narahat adam” (1978), “Oçerklər” (1978), “Ötən günlər” (1981), “Madarın dastanı” (1988) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 262.

**Xarici ədəbiyyat**

**9 Fevral - Özbək şairi Əlişir Nəvainin anadan olmasının 580 illiyi, (1441-1501)**

***Zəmanəmizdə yayılan bütün ədəbiyyat tarixlərində Nəvainin elmi, dini, sənəti, Türkçülüyü xüsusi yer tutur. Nəvai yalnız elm və sənət sahəsində deyil, ölkənin mədəni hala gəlməsində, texniki sənətlərin inkişafında və iqtisadiyyatının güclənməsində də böyük xidmətləri olan şəxsiyyətlərdəndir.***



Əlişir Nəvai 9 fevral 1441-ci ildə Herat şəhərində anadan olmuşdur. Zamanın bəstəkar və rəssamlarını ən çox təşviq və himayə edənlərdən biri də Nəvai olmuşdur. Ancaq onun əsas böyük xidməti "Türkçülük" və "Türk dilçiliyi" sahəsində olmuşdur və bu baxımdan misilsizdir.Əlişir Nəvai ərəbcə və farscanı ana dili kimi bilir,öz dövründə bu dillərdə ən gözəl əsərləri yaza biləcək qədər incəliklərinə vaqif idi.Əsrlərə örnək olacaq əsərləriylə bunu sübuta yetirmişdi. Ancaq o dövrün dəbinə uyaraq ərəb dilində və xüsusilə fars dilində yazan Türk şairlərinə qarşı çıxır, Türk dilinin əcnəbi dillərin kölgəsində qalmasına qarşı üsyan edirdi. Nəvai Türk dilinin bir məcazlar,cinaslar,qafiyələr və fellər dili olduğunu, səs və məna incəlikləriylə çatdırılan qüdrətli ifadə imkanlarının fars dilindən üstün olduğunu bilir,bunu sübut etmək istəyirdi.Ona görə milli və yüksək bir ədəbiyyat, ancaq milli şüur və milli zövqün inkişaf etdirildiyi bir dildə yaradılırdı."Mühakəmət-ül-Lüğəteyn" adlı əsərini bu məqsədlə meydana gətirmişdi. Əsərləri: Əlişir Nəvai 16-sı mənzum,16-sı mənsur olmaqla bir-birindən dəyərli 32 əsər yazmışdır.Çoxunun əlyazma nüsxələri kitabxanalarımızda saxlanılır. Bu əsərlərin hamısı məşhurdur, amma ən məşhurları "Mühakəmət-ül Lüğəteyn","Məcalisün-Nəfais" adlı əsərləriylə, beş məsnəvidən ibarət olan "Xəmsə"si və bütün şerlərini topladığı "Divan"lardır. "Mühakəmət-ül Lüğəteyn" adlı əsərində Türk və fars dillərini qarşılaşdırır.Türk dilinin və Türklərin əcəm dilindən və əcəmlərdən hansı baxımdan üstün olduğunu açıqlayır, sübuta yetirir. "Məcalisün-Nəfais" şairlər və ədiblər təzkirəsidir. Başqa cür desək, bir ədəbiyyat tarixidir və XV əsrdə Türküstan və iranda yetişən şairlərin həyat və yaradıcılıqlarına dair dəyərli məlumatlar verməkdədir. "Xəmsə"sində "Fərhad və Şirin","Leyli və Məcnun" kimi mənzum romanları, Makedoniyalı İskəndərin həyatından bəhs edən "Səddi-İskəndəri",sasani hökmdarı Bəhram Gurun həyatından bəhs edən "Səbəy-Səyyarə" adlı tarixi əsərləri, əxlaq və təsəvvüfə dair fikirlərini əks etdirir. Divanlarında isə uşaqlığından etibarən yazdığı bütün şerləri toplanıb.Qəzəllər, müxəmməslər, rübailər, müstəzadlar, müfrədlərdən ibarət bu şerlər Orta Asiya Türk dilinin ən gözəl nümunələridir.Əlişir Nəvainin şerləri həm yazıldıqları dövrdə,həm də sonralar bütün Türk dünyasında zövqlə oxunmuş,çox məşhur Türk şairləri onu örnək bilmiş, ona təriflər yazmışdır.

**Əsərləri:** “Yeddi səyyarə”

İnternetdə: https://az.wikipedia.org/wiki/Əlişir_Nəvai

**15 Fevral - Tatar şairi Musa Cəlilin anadan olmasının 115 illiyi, (1906-1944)**

***Yarandın, yaşadın şanlı bir gündə***
***Sözün ulduz-ulduz, çiçək-çiçəkdir.***
***Xatirən daima torpaq üstündə,***
***Yaşıl bir ot kimi göyərəcəkdir...***

Xalq şairi Səməd Vurğun



**Musa Cəlil - XX əsr tatar ədəbiyyatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı (1956).**

Musa Mustafoviç (Cəlilov), Rusiyanın Orenburq şəhərində anadan olmuşdur. Uşaqlıqdan atasını itirmiş, anasının himayəsində yaşamışdır. Keçən əsrin 20-ci illərindən bədii yaradıcılığa başlamış, şeirlərini vətən, xalq, ayrılıq mövzularında yazmışdır. 1919-cu ildə komsomol təşkilatına qoşulmuş və Rusiyada vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. 1931-ci ildə Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsini bitirən Musa Cəlil əvvəl tatar dilində nəşr olunan bəzi uşaq jurnallarının redaktoru, sonralar isə yenə tatar dilindəki "Kommunist" qəzetinin redaktor müavini olmuşdur. Tatar gənclər təşkilatına rəhbərlik edən Musa Cəlil, İkinci dünya müharibəsi illərində sovet ordusunun tərkibində vuruşmuş, 1942-ci ildə almanlara əsir düşərək Şpandau toplama düşərgəsinə göndərilmişdir.Əsirlikdə də fəallıq göstərmiş, almanların tatarlardan təşkil etdiyi İdil-Ural Legionunun üzvləri arasında antifaşist qüvvələrin yaradıcılarından olmuşdur. 1944-cü ilin avqustunda əsirlərin kütləvi şəkildə qaçışını təşkil etmişdir. Lakin onları satmışlar və Musa Cəlil tutularaq 25 avqust 1944-cü ildə Berlindəki Plötzenzee həbsxanasında digər məşhur tatar yazıçısı Abdulla Alişlə birlikdə edam edilmişdir. Sovet hökuməti ona Vətən xaini damğası vurmuş, ailəsini isə sürgün etdirmişdir. 1949-cu ildə Musa Cəlilin belçikali əsir yoldaşı SSRİ-nin Brüsseldəki konsulluğuna gələrək onun əsirlikdə olarkən antifaşist qüvvələrinin döyünən ürəyi və düşünən beyni olduğunu söyləmiş, əvvəlcə onun bir neçə şeirini, bir müddət sonra isə iki kitabını konsulluğa təqdim etmişdir. Bu kitablar tezliklə çap olunmuş, 1956-cı ildə şairə bəraət verilmiş və onun əsərlərinin çapına qoyulan qadağa birdəfəlik aradan qaldırılmışdır. Həmin il Musa Cəlilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı, 1957-ci ildə isə Lenin mükafatı verilmişdir. Kazan şəhərində onun heykəli ucaldılmış, tatar milli dram teatrına onun adı verilmiş, adına ədəbi mükafat təsis olunmuşdur. 1954-cü ildə böyük Azərbaycan şairi Səməd Vurğun Musa Cəlilin xatirəsinə həsr olunmuş "Musa Cəlilə" şeirini yazıb. Musa Cəlilin ilk əsəri 1919-cu ildə dərc olunmuşdur. 1925-ci ildə onun **"Biz gəlirik"** adlı şeir və poemalar toplusu işıq üzü görmüşdür. 1941-ci ildə **"Altun çeç"** və **"İldar"** operaları üçün 4 libretto yazmışdır. Alman əsirliyində yazdığı **"Moabit gündəliyi"** adlı şeirlər toplusuna görə ölümündən sonra Lenin mükafatına layiq görülmüşdür (1957).

İnternetdə: https://az.wikipedia.org/wiki/Musa_Cəlil

**17 Fevral - Rus uşaq şairi A.L.Bartonun anadan olmasının 115 illiyi, (1906-1982)**

***Aqni Bartonun poetik xəzinəsi bütün zamanlara, bütün nəsillərə məxsusdur.***



Aqni Barto Moskva şəhərində baytar ailəsində anadan olmuşdur. Məktəbdə oxuyarkən aktrisa olmaq arzusu ilə yaşamışdır. Lakin uşaq yaşlarından onun daha bir istedadı üzə çıxmış, şeir yazmağa başlamış, müəllim və rəfiqələrini dostluq şarjı ilə nəzmə çəkmişdir. 1925- ci ildə "Çinli balası Van Li" şeirini nəşriyyata təqdim edəndən sonra ədəbiyyatşünas A.V. Lunaçarski onun şeirləri ilə maraqlanır və gənc şairəyə uşaqlar üçün yazmağı tövsiyə edir. 1928 – ci ildə uşaqlar üçün yazdığı "Qardaşlar" adlı məşhur kitabı çap olunur. Bu kitab Rusiyada və bir sıra xarici ölkələrdə dəyərləndirilmiş, dəfələrlə çap olunmuşdur. Şairənin şeir yaradıcılığında yumoristik və satirik motivlər olduqca qüvvətlidir. Onun "Pinti qız", "Ağlayan qız", "Oyuncaqlar", "Ədəbsiz ayı balası", "Məni də başa düşün!.." və sair şeirlərdə bunları görmək mümkündür. A. Barto XX əsrin 70 – ci illərində Bakıda keçirilmiş "Ədəbiyyatların dostluğu, xalqların dostluğudur" adlı müşavirədə iştirak etmək üçün Azərbaycana gəlmiş və uşaqlarla maraqlı görüşlər keçirmişdir. Bir çox əsərləri dəfələrlə dilimizə tərcümə edilmiş və kütləvi tirajla çap olunmuşdur.

**Əsərləri:** "Şeirlər" (1951), "Pinti qız" (1957), "Kobud ayı balası" (1967), "İpatdı" (1970) və s.

İnternetdə:https://ru.wikipedia.org/wiki Aqni_ Barto

## İncəsənət

### 12 Fevral - Tarzən, xalq artisti Bəhram Mansurovun 110 illiyi, (1911-1985)

***"Bəhram Mansurov ilk azərbaycanlı musiqiçidir ki, onun ifasında"Çahargah"(1970) və "Rast"(1978) muğamları nota alınıb, "Bayatı-Şiraz", "Humayun" CD- lərə yazılıb, bütün dünyaya yayılıb."***

Xalq artisti Eldar Mansurov



Bəhram Mansurov uşaqlıqdan evlərində təşkil olunan musiqi məclislərinin şahidi olub. Babası Məşədi Məlik bəy dövrünün açıq fikirli şəxslərindən biri, həm də istedadlı musiqişünas, mahir çalğıçı idi. Azərbaycanın bütün guşələrindən gələn muğam biliciləri, musiqiçilər, xanəndələr bu məclislərə toplaşardılar. Bu məclislərdən nəinki görkəmli musiqiçilər faydalanmış, həm də Seyid Əzim, Xurşudbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev kimi məşhur şair və ədiblərimiz onunla yaxın əlaqədə olmuş, onun şəninə şeirlər yazmışlar. Bu məclislər XIX əsrin ikinci yarısında (1863-cü ildən başlayaraq) bir növ "xalq konservatoriyası" rolunu oynayıb. Bu musiqi ocağı sonralar çoxları üçün bir həyat məktəbi olub. Bəhram 8 yaşından tarı sinəsinə basaraq uşaq arzularını tarın kövrək tellərinə kökləyib. Bəhram Mansurovun 19 yaşı olanda Müslüm Maqomayev onu ilk notlu xalq çalğı alətləri orkestrinə, daha sonra isə Opera və balet Teatrına solist-tarzən kimi dəvət edir. Bəhram Mansurov opera səhnəsində Hüseynqulu Sarabski, Yavər Kələntərli, Hüseynağa Hacıbababəyov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva kimi korifeylərlə işləyir. Rübabə Muradova, Sara Qədimova, Əbülfət Əliyev, Gülxar Həsənova, Zeynəb Xanlarova, Mais Salmanov, Bakir Haşımov, Qulu Əsgərov, Arif Babayev, Nəzakət Məmmədova, Baba Mirzəyev və başqa sənətkarları teatra cəlb edərək onları tamaşalara hazırlayır. Bəhram Mansurov ilk azərbaycanlı musiqiçidir ki, onun ifasında Azərbaycan muğamları UNESCO xətti ilə vallara və CD-lərə yazılıb, bütün dünyaya yayılmışdır. O, 1978 və 1983-cü illərdə Səmərqənddə keçirilən Beynəlxalq Muğam Simpoziumunda Azərbaycanı təmsil etmişdir. Bəhram Mansurov Sadıqcandan sonra klassik azərbaycan muğamlarını qoruyub saxlayan və təbliğ edən yeganə tarzən idi. Onun ifasından bütün muğamlar, dəraməd, diringə, təsnif və rənglər oğlu, bəstəkar Eldar Mansurov tərəfindən nota salınmışdır. 2011-ci il fevral ayının 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Bəhram Mansurovun anadan olmasının 100 illiyi münasibəti ilə yubiley tədbirləri keçirildi.

**Filmoqrafiya:** O olmasın, bu olsun (film, 1956), Muğamlar (film, 1965), Çalır Bəhram Mansurov (film, 1971), Üzeyir ömrü (film, 1981), Səni kim unudar... (film, 1995),Bakı bağları. Şüvəlan (film, 2007),Tarın sədaları. Mansurovlar (2013) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Bəhram_Mansurov

**13 Fevral - Xalq artisti Əliabbas Qədirovun anadan olmasının 75 illiyi, (1946-2006)**

***Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğundur. Oynadığı rollar janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayırdı. Onun aktyor təbiətində ilk baxışda "gizli" görünən, ancaq duzlu və cazibəli yumor idi. O, bu yumordan həssaslıqla, yığcam "xəsisliklə", lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edərdi.***



Əliabbas Qədirov Azərbaycanın məşhur qiraət ustalarından biridir, onun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabir... kimi dahilərin poetik nümunələri lentə alınıb. Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda anadan olub. Səhnə sənətinə səkkizinci sinifdən başlayaraq maraq göstərib. Məşhur aktyor 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin edilib. Onun oynadığı tamaşaların bir qismi televiziyanın "Qızıl fond"una daxildir. Onlardan Süleyman Sani Axundovun, "Laçın yuvası" (Cahangir), Məmməd Muradan "Təkan" (Dilqəm), İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Mar Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə təcəssüm tapıb.Əliabbas Qədirov teatrla yanaşı, kino aktyoru kimi də məşhurdur və böyük uğurlar qazanıb. Hətta o, məhz kinorejissor Eldar Quliyevin çəkdiyi "Sevinc buxtası" iki seriyalı bədii filmindəki Nazim roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Səhnə və ekran ustası Əliabbas Qədirov teatr və kino yaradıcılığındakı uğurlarına görə 1978 - ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 17 may 1989-cu ildə isə xalq artisti fəxri adları ilə təltif olunub. 2006-ci ildə mart 8-də xalq artisti, «Şöhrət» ordeni laureatı olub Aktyor bundan əlavə "Azərbaycanfilm"də "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçurum" (Cəlil), "Qocalar" (Fəriz), "Babək" (Fəzl), "Dənizdən işarə" (Sultanov), "Sevinc buxtası" (Nazim) kimi kinolentlərinə çəkilib. Azərbaycan Dövlət Akademik Dram teatrının bədii rəhbəri Əlabbas Qədirov 60 yaşında leykemiya xəstəliyindən (ağ qan xərçəngi) vəfat edib. İkinci Fəxri Xiyabanda dəfn edilib.

**Filmoqrafiya:** Nə yaxşı ki, dünyada Səməd Vurğun var (film, 1976), Od içində (film, 1978),Babək (film, 1979), Onun bəlalı sevgisi (film, 1980),Əzablı yollar (film, 1982), Şuşa (film, 2001),Güllələnmiş heykəllər (film, 2002), Heydər Əliyev və Azərbaycan rabitəsi (film, 2003), Haray (film, 2004), Küçələrə su səpmişəm (film, 2004) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Əliabbas_Qədirov

**17 Fevral - Xalq artisti Sofiya Hüseynovanın 95 illiyi, (1926-2015)**



**Sofiya Hüseynova C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aparıcı aktrisası komik, psixoloji və dramatik rolların məharətli ifaçısı; Azərbaycanın xalq artisti, Şöhrət Ordenli**

Sofiya Hüseynova 17 fevral 1926-cı ildə Naxçıvanda anadan olub. Qızlıq soyadı İsmayılovadır. Atası Həsən İsmayılov hərbçi, anası Xədicə Qazıyeva isə aktrisa olub. Atası işləməyə Naxçıvana göndərilir və burda Naxçıvanın ilk aktrisası olan Xədicə Qazıyeva ilə tanış olur. Sofya Hüseynova orta məktəbi Naxçıvanda bitirib. Şagird vaxtlarında uşaq rollarında səhnəyə çıxıb. Anasının tövsiyəsi ilə 1944-cü ildən teatrın truppasına daxil olub. 1945-ci ildə qısa müddət Zaqatala DDT-də işlədikdən sonra yenə Naxçıvana qayıdıb.Sofiya Hüseynova 1 iyun 1974-cü ildə Azərbaycan SSR əməkdar artisti, 1 dekabr 1982-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub. Həyatı boyu Naxçıvan teatrın aktrisası olmuş, bir-birindən maraqlı və rəngarəng obrazlar yaratmışdır.

Gülnar və Xuraman, Fitnə ("Vaqif" və "Fərhad və Şirin" Səməd Vurğun), Sara və Gülnisə, Susanna, Nadya ("Solğun çiçəklər", "Aydın" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Tərgül ("Məhsəti", Kəmalə Ağayeva), Humay ("Komsomol poeması", İsgəndər Coşqun), Zöhrə ("Eşq və intiqam", Süleyman Sani Axundov), Nərminə ("Göz həkimi", İslam Səfərli), Zalxa ("Toy", Sabit Rəhman), Günəş ("Günəş", Hüseyn Razi), Tanya ("Alınmaz qala", Həsən Elsevər), Tovuz xanım ("Bir cüt bədmüşk ağacı", Əkrəm Əylisli), Gülnaz və Sənəm, Gülçöhrə, Minnət xanım ("Məşədi İbad", "Arşın mal alan" və "Ər və arvad", Üzeyir bəy Hacıbəyov), Gülcamal ("Qatır Məmməd", Zeynal Xəlil), Qızbacı ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Şölə xanım ("Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Güllücə ("Dan ulduzu", Cahangir Məmmədov) rolları aktrisanın yaradıcılıq nailiyyətləri sayılır.

Milli koloriti həmişə əsas götürən aktrisa, eyni zamanda əcnəbi dramaturqların pyeslərinin tamaşalarında oynadığı obrazların yaşadığı dövrün etiket qaydalarını, sosial mənşəyini, kübar davranış tərzini dərindən mənimsəyib. Mənimsədiklərini isə ifa etdiyi rollarda yaradıcılıqla reallaşdırıb. Bu baxımdan kruçinina, Larisa ("Günahsız müqəssirlər" və "Cehizsiz qız", Aleksandr Ostrovski), Liana ("Bostan iti", Lope de Veqa), Xanuma ("Xanuma", Avksenti Saqareli) rolları aktrisanın ifasında məharətlə oynanılmışdır. Mütənasib uca boyu, zərif bədən quruluşu aktrisaya müxtəlif rollar oynamağa geniş imkan yaradırdı.

Aktrisa 30 iyul 2015-ci il tarixində 89 yaşında Naxçıvanda vəfat edib.

**Filmoqrafiya:**Tale yükü (film, 1997) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Sofiya_Hüseynova

**21 Fevral - Xalq rəssamı Böyükağa Mirzəzadənin 100 illiyi, (1921-2007)**

***Böyükağa Mirzəzadə Azərbaycan milli rəngkarlıq məktəbinə Avropa ruhunu gətirərək onun daha da zənginləşməsinə nail olan, XX əsrin yetirdiyi çox istedadlı rəssam, sənət adamlarındandır. Bu görkəmli fırça ustası klassik ənənələrlə müasir standartları birləşdirərək Avropa rəngkarlığını məharətlə Azərbaycan təsviri sənətinə uzlaşdırmışdır.***



**Böyükağa Məşədi oğlu Mirzəzadə — Azərbaycanın xalq rəssamı. 20.02.1998 –ci ildən "Şöhrət" ordeni laureatı**

Böyükağa Məşədi oğlu Mirzəzadə 21 fevral 1921-ci ildə Bakıda anadan olmuşdur. O, 1939-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu və 1973-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Rəssamlığın müxtəlif janrlarında fəaliyyət göstərmişdir. B.Mirzəzadə 1972-ci ildə Nəriman Nərimanov "Ölülər" pyesinin ilk tamaşası münasibətilə Cəlil Məmmədquluzadəni təbrik edərkən" (yağlı boya) teatrlaşdırılmış qrup portreti tablosunu yaratmışdır. Əsər Nizami adına Azərbaycan Dövlət Ədəbiyyat Muzeyində saxlanılır. B.Mirzəzadə teatr-dekorasiya sənəti sahəsində də fəaliyyət göstərmişdir. Rəssamın yaradıcılığı həm çoxşaxəli və həm də məhsuldar olmuşdur. Böyükağa Mirzəzadə rəssamlıq sənətinin bir neçə janrında eyni dərəcədə yüksək sənət meyarlarına uyğun əsərlər yaratmışdır. Rəssamın süjetli tablo, mənzərə, portret, natürmort, teatr – dekorasiya və digər sahələrdə yaratdığı sənət nümunələrinə nəzər yetirərkən, sənətkarın yaradıcılıq dühasının genişliyi və əhatəliliyinin, cəsarətli rəng çalarlarının, bədii təxəyyülünün və ecazkar fırçasının qüdrətinin bir daha şahidi olmaq olar. Kompozisiya aydınlığını, işıq–kölgə həllində təsirliliyi, kolorit zənginliyini, plenerə hədsiz marağını, impressionist ənənələrinə xüsusi meylliyi rəssamın yaradıcılığının səciyyəvi xüsusiyyətləridir. Rəssamın çəkdiyi portretlərə tamaşa edəndə onun həssas müşahidə qabiliyyətinə malik olmasını, obrazının daxili mənəvi dünyasına nüfuz edərək onları mahiranə rəng çalarları ilə yaratdığını görmək olar.Rəssam süjetli tabloların gözəl nümunələrini yaratmışdır. Bunlardan **“Pambıq tarlasında”**, **“Pambıq yığımı”**, **“Çimərlikdə”**, **“Günorta”**, **“Bizim Lənkəranda”**, **“Xəzər neftçiləri”**, **“Bizim kəndin insanları”**, **“Səhnə arxasında”** və digər əsərlərini qeyd etmək olar. Böyükağa Mirzəzadə 3 noyabr 2007-ci ildə Bakıda vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Böyükağa Mirzəzadə

**23 Fevral - Rejissor, xalq artisti Şəmsi Bədəlbəylinin 110 illiyi, (1911-1987)**

***Şəmsi Bədəlbəyli Azərbaycan Teatr Cəmiyyəti idarə heyətinin sədri işləyərkən, teatr işçiləri ordusunun əsl ağsaqqalı, ağıllı, təmkinli rəhbəri olmuşdur.***

Rusiya Federasiyasının Xalq artisti Y. Simonov



**Bədəlbəyli Şəmsi Bədəl bəy oğlu — tanınmış Azərbaycan aktyoru və rejissoru, Azərbaycanın xalq artisti.**

23 fevral 1911-ci ildə – Şəmsi Bədəlbəyli Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində görkəmli pedaqoq və ictimai xadim Bədəlbəy Bədəlbəylinin (1875-1932) və Rəhimə xanım Qacarın (1880-1966) ailəsində dünyaya gəlmişdir. Bakıda orta məktəbdə ibtidai təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Ş.Bədəlbəyli Azərbaycan Pedaqoji Texnikumuna daxil olur. 1927-1932-ci illərdə – Azərbaycan Dövlət Konservatoriyasında təhsil alır: iki il xalq çalğı alətləri şöbəsində, daha sonra kompozisiya nəzəriyyəsi sinfində Üzeyir Hacıbəylinin tələbəsi olur. 1939-cu il, 23 oktyabr - Azərbaycan Dövlət Dram Teatrında Ş.Bədəlbəylinin rejissor kimi ilk müstəqil işi olaraq, C.Məmmədquluzadənin "Ölülər" əsəri tamaşaya qoyulur. Bu, onun yaradıcılığında yeni mərhələnin başlanğıcı olur. Ş.Bədəlbəyliyə Azərbaycan incəsənətinin inkişafında böyük nailiyyətlərinə görə Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən əməkdar incəsənət xadimi fəxri adı verilir. Ş.Bədəlbəyli bundan sonrakı illərdə də bir sıra hökümət mükafatlarına layiq görülmüş, fəxri fərmanlarla, orden və medallarla təltif olunmuşdur.1943-1949-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər vəzifəsinə təyin olunur. 1946-cı il, 17 iyul - Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində F.Əmirovun "Gözün aydın" musiqili komediyası Ş.Bədəlbəyli tərəfindən tamaşaya qoyulur.1948-ci il, 31 dekabr - Ş.Bədəlbəyli həmin səhnədə S.Ələsgərovun "Ulduz" musiqili komediyasına quruluş verir. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Ş.Bədəlbəyli 1947-ci ildə Ü.Hacıbəylinin "O olmasın, bu olsun", 1956-cı ildə "Arşın mal alan" musiqili komediyalarına yeni quruluş vermişdir.1952-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Ü.Hacıbəylinin "Koroğlu" operasına yeni quruluş verir. 1987-ci il, 24 may - Şəmsi Bədəlbəyli vəfat etmiş, Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

**Filmoqrafiya:** O qızı tapın (film, 1970), Axırıncı aşırım (film, 1971) (tammetrajlı bədii film) - rol: Şabanzadə, Xatirələr sahili (film, 1972),Ömrün səhifələri (film, 1974), Tikdim ki, izim qala. III film (film, 1998), Hər şey olduğu kimi. Beşinci film. Rəşid Behbudov (film, 2000), Maestro Niyazi (film, 2007) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Şəmsi Bədəlbəyli

**24 Fevral - Xalq artisti Səkinə İsmayılovanın anadan olmasının 65 illiyi, (1956)**
***"Tamaşaçı öncə ifaçının simasına, geyiminə, sonra sənətinə qiymət verib alqışlayır. Səkinə xanım bu xüsusiyyətləri özündə cəmləşdirən, sevilən sənətkarlardandır."***
**Xalq artisti Rəşid Behbudov**



**Səkinə İsmayılova — müğənni, muğam ifaçısı. Azərbaycan Respublikasının xalq artisti (1992)**

Səkinə Qulu qızı İsmayılova 4 fevral 1956-cı ildə anadan olub. Asəf Zeynallı adına Musiqi Məktəbinin muğam sinfini (1974), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib (1990). Əməkdar artist (1988), xalq artisti (1992) Səkinə İsmayılova muğamı qavalla ifa edən ilk qadın xanəndədir.Opera və Balet teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları – Leyli "Leyli və Məcnun", Əsli "Əsli və Kərəm", Gülbahar "Gəlin qayası", Şahsənəm "Aşıq Qərib" və s. ifa etmiş və etməkdədir. Xalq mahnıları və muğamların əvəzedilməz ifaçısı olan Səkinə İsmayılova Azərbaycan muğam sənətini dünyanın bir çox ölkələrində İran, Türkiyə, İraq, Səudiyyə Ərəbistanı, Vyetnam, Yaponiya, Hindistan, Avstriya, Almaniya, Hollandiya, İsveç, fransa, Norveç, Danimarka, Macarıstan, Lüksemburq, ABŞ və s. dəfələrlə yüksək səviyyədə təmsil etmişdir. Səkinə İsmayılova ilk dəfə olaraq qadınlardan ibarət muğam üçlüyü yaradaraq bu kiçik kollektivlə son illərdə bir sıra xarici ölkələrdə çıxış etmişdir.Təcrübəli muğam ustası rəsmi dövlət və yubiley tədbirlərinin fəal iştirakçısı olmaqla bərabər, son illərdə Heydər Əliyev adına Sarayda, və Azərbaycan Dövlət Filarmoniyasında keçirdiyi solo konsertlərlə də tamaşaçılarının rəğbətini qazanmışdır. Səkinə İsmayılova Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Milli Konservatoriyasının müəllimidir. Onun yetirmələri bu gün müxtəlif musiqi kollektivlərində uğurla çıxış edir və populyardırlar. Prezident mükafatçısıdır.

**Filmoqrafiya:** Qəzəlxan (film, 1991), Hacı Arif (film, 1995), Nəriman Əliyev (film, 2005), Biz qayıdacağıq (film, 2007), Muğam (veriliş, 2007), Xalq Təranələri (film) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Səkinə İsmayılova

**Milli qəhrəmanlıq zirvəsi**

**2 Fevral - Kərimov Bəşir Bəylər oğlunun 45 illiyi, (02.02.1976-1995)**



**Bəşir Kərimov — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

Kərimov Bəşir Bəylər oğlu 2 fevral 1976-cı ildə Füzuli rayonunun Qacar kəndində anadan olmuşdur. 1983-cü ildə burada orta məktəbə getmiş, 1991-ci ildə səkkizinci sinfi bitirərək texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. Erməni qəsbkarları bu illərdə Qarabağa geniş planlı hücumlar, edir Azərbaycanın əsrlərdən yadigar torpaqlarını işğal edirdilər.

Bəşir Kərimov 1993-cü ildə artıq döyüş meydanlarında idi…o, burada patron daşıyır, əsgərlərə yemək çatdırılmasında iştirak edirdi. 1993-cü il ermənilər Qacar kəndinə hücum etdikləri vaxt Bəşir də qanlı döyüşə girmişdi. Füzuli rayonu işğal edildikdən sonra isə onun ailəsi İmişli rayonunda məskunlaşır. 1994-cü il 19 may Bəşir Milli Ordu sıralarına çağırılır. 1995-ci il 13-17 mart hadisələri zamanı o, dövlətçiliyimiz uğrunda silahlı dəstənin zərərsizləşdirilməsində iştirak edir və bu qarşıdurma zamanı Kərimov Bəşir qardaş gülləsindən həlak oldu.

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı fərmanı ilə Kərimov Bəşir Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Kərimov Bəşir Bəylər oğlu

## Mart

**Əlamətdar tarixi günlər və bayramlar**

2 Mart – Azərbaycan Respublikasının BMT-nin Üzvlüyünə Qəbul Olunduğu Gün, (1992)
2 Mart – Ümumdünya Ucadan Oxu Günü
3 Mart – Ümumdünya Yazıçı Günü, (1921)
3 Mart – Ümumdünya Vəhşi Təbiət Günü, (1973)
5 Mart – Bədən Tərbiyəsi və İdman Günü, (2005)
8 Mart – Beynəlxalq Qadınlar Günü, (1910)
9 Mart – Barbi Gəlinciyinin Yaranma Günü
10 Mart – Milli Teatr Günü, (1873)
12 Mart – Daxili Qoşunlar Günü, (1995)
14 Mart – Ümumdünya Yuxu Günü, (2008)
20-25 Mart – Novruz bayramı
20 Mart – Beynəlxalq Xoşbəxtlik Günü, (2012)
21 Mart – Beynəlxalq Meşə Günü, (2013)
21 Mart – Beynəlxalq Poeziya Günü, (1999)
21 Mart – İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü, (1966)
21 Mart – Beynəlxalq Kuklaçı Günü, (2000)
22 Mart – Ümumdünya Su Ehtiyatları Günü, (1992)
23 Mart – Ümumdünya Meteorologiya Günü, (1950)
25 Mart – “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adının təsis edildiyi gün, (1992)
27 Mart – Beynəlxalq Teatr Günü, (1962)
31 Mart – Yer Saatı Günü

**Bu tarixi unutmayaq**

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü, (1918)

**Yubilyar yazıçı və şairlər**

Şairə Hökumə Billurinin anadan olmasının 95 illiyi, (03. 03.1926-1999)
Tənqidçi, ədəbiyyatşünas Yaşar Qarayevin 85 illiyi, (05.03.1936-2002)
Yazıçı Fərman Eyvazlının anadan olmasının 90 illiyi, (06.03.1931-1996)
Xalq şairi Süleyman Rüstəmin anadan olmasının 115 illiyi, (12.03.1906-1989)
Yazıçı Əmir Mustafayevin anadan olmasının 85 illiyi, (12.03.1936)
Yazıçı, dramaturq Nahid Hacızadənin anadan olmasının 85 illiyi, (14. 03.1936)
Şair, tərcüməçi İsa İsmayılzadənin anadan olmasının 80 illiyi, (15.03.1941-1997)
Şair Ələkbər Salahzadənin anadan olmasının 80 illiyi, (15.03.1941)
Şair, tənqidçi, ədəbiyyatşünas İsmayıl Vəlibəyli (Öməroğlu 70 illiyi, (16.03.1951)
Şair Böyükağa Qasımzadənin anadan olmasının 105 illiyi, (18.03.1916-1957)
Xalq şairi Səməd Vurğunun anadan olmasının 115 illiyi, (21.03.1906-1956)

Yazıçı, publisist Nurəddin Babayevin anadan olmasının 100 illiyi, (21.03.1921-1991)
Yazıçı İsa Hümmətovun anadan olmasının 90 illiyi, (21.03.1931-1990)
Yazıçı Nemət Veysəllinin anadan olmasının 80 illiyi, (21.03.1941)
Şair Əli Kərimin anadan olmasının 90 illiyi, (22.03.1931-1969)
Yazıçı Seyran Səxavətin anadan olmasının 75 illiyi, (23.03.1946)
Xalq yazıçısı Əbülhəsən Ələkbərzadənin 115 illiyi, (31.03.1906-1986)

**İncəsənət**

Xalq artisti Ağadadaş Qurbanovun anadan olmasının 110 illiyi, (08. 03.1911-1965)
Aktyor Əyyub Haqverdiyevin anadan olmasının 110 illiyi, (15.03.1911-1981)
Bəstəkar Zakir Bağırovun anadan olmasının 105 illiyi, (16.03.1916)
Aktyor, rejissor Hüseyn Ərəblinskinin anadan olmasının 140 illiyi, (17.03.1881-1919)
Xalq artisti Ələkbər Seyfinin anadan olmasının 120 illiyi, (19.03.1901-1977)
Aktyor Kazım Ziyanın anadan olmasının 115 illiyi, (21.03.1896-1956)
Xalq artisti Sidqi Ruhullanın anadan olmasının 135 illiyi, (28.03.1886-1959)
Xanəndə Cabbar Qaryağdıoğlunun anadan olmasının 160 illiyi, (31.03.1861-1944)

## Mart

## Əlamətdar tarixi günlər və bayramlar

### 2 Mart – Azərbaycan Respublikasının BMT Üzvlüyünə Qəbul Olunduğu Gün, (1992)




***Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir.***

Ümummilli lider Heydər Əliyev

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Bu dövrdə yeni formalaşmağa başlayan Azərbaycanın müstəqil xarici siyasəti, ilk növbədə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, yeni dünya nizamı çərçivəsində regional və qlobal proseslərdə ölkənin fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Avropa və Trans-Atlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdi. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Əsas prioritet istiqamət isə hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkənin təhlükəsizlik mühitinin əsas təyinedici amili oldu və bu da, öz növbəsində, Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynadı.

İnternetdə: www.books.google.com

**2 Mart – Ümumdünya Ucadan Oxu Günü**






Ümumdünya Ucadan Oxu Günü Söz, Kitab, Mütaliə bayramıdır. Bu gün LitWorld şirkətinin təşəbbüsü ilə hər il mart ayının birinci həftəsinin çərşənbə günü qeyd olunur. Bu günü qeyd etmənin məqsədi mütaliəni ətraf dünya ilə qarşılıqlı təsir üsulu və öz emosiyalarını başqa insanlara səslənən söz vasitəsilə çatdırmaq imkanı kimi göstərməkdir. Bu aksiyada iştirak etməklə, insanlar dünyadakı bütün uşaqların savad alması hüququnu dəstəkləyirlər.

Son illər Ümumdünya Ucadan Oxu Günü 80-dən çox ölkədə, bir milyondan çox insan tərəfindən qeyd olunur.

İnternetdə: www.books.google.com

**3 Mart – Beynəlxalq Yazıçı Günü, (1921)**




Maraqlı tarixi olan bu bayram 1921-ci ildən PEN klub tərəfindən (bu ad ingiliscə üç sözün poets (şair), essayists (oçerkçi) və nvelists (novella, roman müəllifi) – ilk hərflərindən yaranan qısaltmadır) qeyd olunmağa başlayıb. PEN klubun ilk beynəlxalq konqresi isə 1923-cü ildə Londonda keçirilib. 1986-cı il yanvarın 12-dən 18-dək PEN klubun sayca 48-ci beynəlxalq konqresi baş tutub. Məhz həmin tədbirin iştirakçıları mart ayının 3-nü "Yazıçı"nın "Ümumdünya Sülh Günü" elan edilməsi barədə qərar qəbul ediblər. Həmin vaxtadək artıq dünyanın yüzdən çox ölkəsində PEN mərkəzləri fəaliyyət göstərirdi. Bir sıra ölkələrdə bu bayram sadəcə "Yazıçı Günü" adlanır və bir növ daha çox fərqlənmiş ədibləri təbrik etmək və mükafatlandırmaq üçün münasib gün kimi qeyd olunur.

Bayramı keçirməkdə məqsəd "Dördüncü hakimiyyət"in – demokratik mətbuatın mənfi aspektlərinə qarşı çıxmağa, yalan yazılara, məqsədli təhriflərə, faktların bilərəkdən saxtalaşdırılmasına, yaxud siyasi, qrup və şəxsi maraqlar naminə gerçəyin vicdansızcasına yozulmasına yol verməməyə çağıran peşə bayramıdır. Qeyd edək ki, eyniadlı təşkilat – PEN klub bizim ölkəmizdə də yaradılıb. Üzvləri də kifayət qədər tanınmış adamlardır. Bu təşkilat ölkəmizdə 2011- ci ildə yaradılıb və prezidenti postuna yazıçı Çingiz Abdullayev seçilib. Bütün dünyada fəaliyyət göstərən PEN klubun məqsəd və vəzifələri bizdə də hədəf götürülüb. Ölkəmizdə PEN klubun digər məqsədi Azərbaycan yazıçılarını dünya ölkələrində tanıtmaqdır. Bu da təbii ki, tərcümə vasitəsilə mümkündür. Klubun üzvləri ən istedadlı, görkəmli və fəal yazıçılardır.

İnternetdə: www.books.google.com

**3 Mart – Ümumdünya Vəhşi Təbiət Günü, (1973)**



20 dekabr 2013-cü ildə BMT-nin Baş Assambleyası vəhşi flora və fauna məsələləri ilə bağlı geniş ictimaiyyətin məlumatlılığını artırmaq məqsədi ilə martın üçünü Vəhşi Təbiət Günü ( World Wildlife Day) elan etmişdir (A/RES/68/205 saylı qətnamə ilə). Həmin il təbii müxtəlifliyin qorunması sahəsində digər bir mühüm sənədin qəbul edilməsinin 40 illiyi qeyd olunmuşdur. Həmin sənəd "Məhv olmaq təhlükəsi qarşısında qalan vəhşi fauna və flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya adlanırdı. Sənəd 3 mart 1973-cü ildə qəbul olunmuşdur.

Bu bayramın BMT-də qəbulundan öncə 2013-cü ilin yazında Tailandda keçirilən SİTES Tərəfdarları Konfransı iştirakçılarının bu haqda təşəbbüsü olmuşdur. Məhz bu konfransda martın 3-nü Vəhşi Təbiət Günü kimi qeyd etmək təklif olunmuşdur. Konfrans iştirakçıları bu təkliflə bağlı BMT-yə müraciət etmişlər. 180 ölkə Konvensiyaya qoşulmuşdur. Bu bayramın yaranması Yer üzündəki bioloji müxtəlifliyin mühafizəsinin zəruriliyini göstərir.

İnternetdə: www.books.google.com

## 5 Mart – Bədən Tərbiyəsi və İdman Günü, (2005)

***İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır.***



Ümummilli lider Heydər Əliyev

Bu tarix Azərbaycan Prezidenti İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd olunur. Ölkəmizdə idmanın inkişafı isə ildən-ilə geniş vüsət alır. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. Prezident İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbər seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə tezliklə öz müsbət nəticəsini verdi. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya oyunlarında Azərbaycan idmançılarının qazandığı qələbəni xüsusilə qeyd etmək lazımdır. Bu yarışlarda Azərbaycan idmançıları 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi. Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülməsi, Olimpiya oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal böyük tarixi nailiyyətdir.

Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın ölkəmizdə idmana qayğısı da bu sahənin inkişafına böyük töhfələr verir və Azərbaycan idmanı əsl yüksəliş dövrünü yaşayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə idmanın və bədən tərbiyəsinin inkişafı sahəsində ardıcıl olaraq görülən tədbirlər Azərbaycanı həm də idman dövləti kimi tanıdır. "Sağlam bədəndə sağlam ruh olar" pirinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir.

İnternetdə: www.books.google.com

## 8 Mart – Beynəlxalq Qadınlar Günü, (1910)




***Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir.***

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

Qadınların kişilərlə bərabərhüquqlu olmaq uğrunda apardığı mübarizə başlanğıc kimi 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində, geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil etməsi qəbul edilir. 1908-ci ildə Nyu-Yorkda 15000 qadın, daha qısa çalışma saatı, daha yaxşı gəlir və səsvermə hüququ üçün nümayiş keçirdi. Nümayişdə ilk dəfə olaraq dekret icazəsi istəyən qadınların şüarı "Çörək və Gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha yaxşı həyat tərzini ifadə edirdi. 1909-cu ildə isə Avropadakı qadınlar fevral ayının son bazar gününü (fevralın 28-ni) ilk qadın günü olaraq qeyd etmişlər. 1910-cu ildə (1857-ci il hadisələrdən 52 il sonra) Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasionalının qurultayında Klara Setkin adlı bir alman sosialist qadını 1857-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq, Amerikada 8 martda yandırılaraq öldürülən 129 qadın işçinin xatirəsinə hər il 8 mart gününü Beynəlxalq Qadınlar Günü olmasını təklif etdi və bu təklifi qəbul edildi. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də, buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib. 1998-ci ildə Azərbaycanda Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub. Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, onların bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

İnternetdə: www.books.google.com

**9 Mart – Barbi Gəlinciyinin Yaranması Günü**



Dünyada ən məşhur olan gəlincik Barbinin anası və onun əsas yaradıcısı Rut Hendler hesab olunurdu. Rut Elliot düşündü və qərara gəldi ki, nəyə görə istifadə etdikləri ağac parçalarının qırıntılarını atsınlar? Çünki belə qırıntılardan da gəlir əldə etmək olardı. Rut irəli bir təklif sürdü və bildirdi ki, həmin ağac parçalarından gəlinciklər üçün mebel hazırlansın. 1956-cı ildə Rut Hendler İsveçrəyə istirahət məqsədi ilə getmişdi. Orada o, çox qəribə bir gəlincik gördü və hamı bu gəlinciyi Lilli adlandırırdı. Bu gəlincik özündən çox əmin görünürdü, həmçinin açıq sarı rəngində saçları və çox gözəl formada olan paltarları var idi. Rut bu gəlinciyə baxdıqdan sonra özlüyündə düşündü ki, bəlkə də artıq uşaqlar "ana – qız" formasında evcik qurub oynamaqdan beziblər. Rut buna əsasən uşaqlar üçün tamamilə böyüklərin həyatına bənzər bir yeni gəlincik yaratmaq qərarına gəldi. Bu düşüncələr içində yanan Rut Lilli gəlinciyinin bütün səlahiyyətlərini öz əli altına aldı və tamamilə yeni texnika ilə işləməyə başladı. İş prosesində onun yoldaşının firması Mattelin çox saylı mühəndisləri və rəssamları da iştirak edirdi. Rut Lilli gəlinciyini bütün hissələrinə qədər ən gözəl formaya salmaq istəyirdi. Barbini yaradaraq Rut sosial sorğu keçirdi. Bütün qız uşaqları bir ağızdan məhz belə gəlincik istədiklərini bildirdilər. Nəticədə Rut uşaqların sözünə qulaq asmaq qərarına gəldi, çünki "uşaqlar həmişə sözün düzünü deyirlər". Barbi üçün ilk paltarlar tanınmış modelyer olan Jivanşi və Dioradan sifariş edilmişdi. 1958-ci ildə Hendler rəsmi yollarla bu gəlinciyin bütün patentlərini öz üzərinə aldı. Gəlincik bütün dünyada hazırlanmış heç bir oyuncağa bənzəmirdi. Gəlincik hazırlayan şəxslərin qızının adı olan Barbaranın şərəfinə Barbi adlandırıldı və beləcə Barbi dünyaya gəldi. Hazırda bu gəlinciklər dünyanın 150 müxtəlif ölkəsində bir dənəsi 25-70 dollara satılır. Tədqiqatçıların fikrincə, dünyada daha çox tələbat yaradan 20 mal içərisində bu gəlincik də yer alır. Hazırda amerikan ailələrin çoxunun evində ən azı 10 ədəd Barbi gəlinciyinə rast gəlmək mümkündür. Bu vəziyyət İtaliya, Fransa ailələrində də belədir, üstəlik İngiltərədə bu say orta hesaba görə 5 gəlincikdən ibarətdir. Havay adalarında Barbi muzeyi yaradılmışdır. İngilətərədə Mançester adını daşıyan qəsəbədə "Barbisayağı" adını daşıyan evlərdən ibarət olan küçə hazırlanmışdır. Hazırda bütün dünya Mattel kompaniyasını Disney kimi nəhəng formada tanıyır. Mattek firması ekskuliziv icazəyə sahibdir, yəni öz oyuncaqlarını Disneyləndə satır, həm də məşhur fiqurlar olan Tom və Cerrini də hazırlayıb buraxır.

İnternetdə: www.books.google.com

## 10 Mart – Milli Teatr Günü, (1873)

***Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir.***

**Ümummilli lider Heydər Əliyev**



XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı Realnı Məktəbinin teatr həvəskarları truppası tərəfindən Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti - vəziri - xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov mühüm rol oynamışlar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyulmuşdur. Qeyd edək ki, Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdı. Hələ XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən, burada ona üç hissəli bir tamaşa göstərmişlər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı. Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H. Z. Tağıyevin böyük xidməti olmuşdur. O, Bakı şəhərində ilk teatr binası inşa etdirmişdir. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseynqulu Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov və başqaları kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində də canlanma yaratmışdır. Cümhuriyyət hökümətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili olmuşdur.

Bu, Azərbaycan professional teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N. Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açılmışdır. Sovet hakimiyyəti illərində Azərbaycanda teatr sənəti daha da inkişaf etmişdir. Məhz martın 10-nu Azərbaycan milli teatrının əsası qoyulan günü teatrsevərlər Milli Teatr Günü kimi qeyd edirlər.

İnternetdə: www.books.google.com

**12 Mart – Daxili Qoşunlar Günü, (1995)**



Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycanda Daxili Qoşunların hərbi hissələrinin yaradılması zərurəti meydana çıxdı. Bir tərəfdən Ermənistan ordusunun Qarabağa və sərhəd bölgələrimizə təcavüzünün getdikcə geniş miqyas alması, digər tərəfdən ölkə daxilində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrin fəallaşması bunu tələb edirdi.Ona görə də 1992-ci il mart ayının 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrinin yaradılmasına başlandı. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə bu hərbi hissələr yüksək döyüş qabiliyyəti nümayiş etdirdilər və möhkəmləndilər. Daxili Qoşunların 1738 nəfər döyüşçüsü göstərdikləri döyüş şücaətlərinə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuşlar. Sonrakı dövrlərdə Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasında Daxili Qoşunların böyük rolu olmuşdur. 1991-ci ilin dekabrında sabiq SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakı şəhərində yerləşən 5-ci diviziyası buraxılmış və heyəti 2 min 500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilmişdir. Həmin vaxtdan Azərbaycan Daxili Qoşunları Biləcəri qəsəbəsində yerləşən hərbi hissənin əsasında yaradılmağa başlamışdır. Daxili Qoşunların Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf etmişdir. 1995-ci il martın 9-da ümummilli lider Heydər Əliyevin imzaladığı müvafiq Fərmanla Azərbaycan Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - yəni 12 mart Daxili Qoşunlar günü elan olunmuşdur. Daxili Qoşunların inkişafına, möhkəmlənməsinə ulu öndər Heydər Əliyev daim diqqət yetirmiş, onun formalaşmasında da ümummilli liderimizin misilsiz tarixi xidmətləri olmuşdur. Daxili işlər orqanlarının ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunlar ötən illərdə şərəfli yol keçmiş, ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxaraq inkişaf etmişdir. 2003-cü ildən Daxili Qoşunların inkişafında yeni bir mərhələ başlamışdır. Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ölkənin daxili işlər orqanlarının ayrılmaz hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi, peşəkar hazırlığının yüksəldilməsi üçün daim diqqət və qayğı göstərir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycanın Daxili Qoşunları döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıradadır.

İnternetdə: https://azertag.az/xeber/12_MART___DAXILI_QOSUNLAR_GUNUDUR

**14 Mart – Ümumdünya Yuxu Günü, (2008)**



İlk dəfə Ümumdünya Yuxu Günü 2008-ci il martın 14-də qeyd edilib. Həmin ildən başlayaraq Beynəlxalq Səhiyyə Təşkilatının yuxu və sağlamlıq problemləri üzrə layihəsi çərçivəsində hər il mart ayının ikinci həftəsinin cümə günü qeyd olunur. Bu gün çərçivəsində tədbirlər hər il müəyyən mövzuya həsr edilir.

Yuxu orqanizmin sağlamlığı üçün çox vacibdir. Düzgün yuxu zamanı orqanizm gündüz sərf etdiyi qüvvəsini bərpa edir. Buna görə də sağlam insan gümrah və enerjili şəkildə yuxudan oyanır.

Ümumdünya Yuxu Günündə sosial reklamlar fəallaşır, yuxu və onun pozulmasının insan sağlamlığına və bütövlükdə cəmiyyətə təsirləri problemlərinə həsr olunmuş simpoziumlar təşkil olunur.

İnsan həyatının üçdə birini yuxuda keçirir. Sübut olunub ki, uzun müddətli yuxusuzluq insanın həyat fəaliyyətinə çox mənfi təsir göstərir. Yuxunun cəmi 4 saat itirilməsi insan reaksiyasını 45% aşağı salır. Yaddaş pisləşir, insanda müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaranır. Lakin çox yatmaq da yuxusuzluq qədər zərərlidir. Həkimlər belə hesab edirklər ki, böyüklər üçün ideal yuxu müddəti gündə 7-8 saatdır. Bəzi mütəxəssislər belə hesab edirlər ki, qadınlara bir saat artıq yuxu lazımdır, çünki onlar daha emosionaldırlar. Uşaqlar isə gündə 10 saatdan az yatmamalıdırlar.

Qoy bu bayram öz yuxumuza, yəni həm də sağlamlığımıza daha da diqqətli olmağımıza əlavə bir səbəb olsun.

İnternetdə: www.books.google.com

**20-25 Mart – Novruz bayramı**



***Novruz bayramı xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomendir. Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir.***

Ümummilli lider Heydər Əliyev

Novruz bayramı Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20-si, 21-i və ya 22-sində) keçirilir. Bir sıra xalqlar ta qədimdən yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan başlayaraq Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda və bir çox Şərq ölkələrində baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. 2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i Beynəlxalq Novruz Günü elan edilmişdir. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Müasir dövrümüz üçün bu bir milli bayramdır. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır. “Novruz” – hərfi mənada “yeni gün” deməkdir. Amma ifadə etdiyi mərasim semantikasına görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. “Novruz” anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Novruz haqqında məlumatlara Ömər Xəyyamın “Novruznamə”, Nizamülmülkün “Siyasətnamə”, Nizami Gəncəvinin “İsgəndərnamə” və b. əsərlərində rast gəlirik. Qədim dövrlərdə Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda, dövlət bayramı kimi qeyd olunmuşdur. Tarixi məlumatlara görə, Novruz bayramı bir ay davam edirdi. Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. İnternetdə: www.books.google.com

**20 Mart – Beynəlxalq Xoşbəxtlik Günü, (2012)**



BMT 2012-ci ildə martın 20-ni Beynəlxalq Xoşbəxtlik Günü (International Day of Happiness) elan etmişdir. Burada məqsəd xoşbəxtliyə can atmağın planetimizdəki bütün insanların ortaq hissi olması haqqında ideyanı dəstəkləməkdir.

Beynəlxalq Xoşbəxtlik Gününün təsisçilərinin fikrincə, bu bayram xoşbəxtliyin bəşəriyyətin əsas məqsədlərindən biri olduğunu göstərmək və xatırlatmaq üçün təsis olunub. Bununla əlaqədar təsisçilər bütün ölkələri öz səylərini hər bir insanın rifahına yönəltməyə çağırırlar. BMT hər bir üzv dövlətə, beynəlxalq və regional təşkilatlara, həmçinin mülki şəxslər və qeyri-hökumət təşkilatları da daxil olmaqla, vətəndaş cəmiyyətinə Beynəlxalq Xoşbəxtlik Gününü, maarifləndirmə tədbirləri də daxil olmaqla, lazımı qaydada qeyd etməyə çağırır.

İnternetdə: www.books.google.com

**21 Mart – Beynəlxalq Meşə Günü, (2013)**



Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qərarı ilə martın 21-i Beynəlxalq Meşə Günü elan edilmişdir və 1971-ci ildən qeyd olunur. BMT Baş Məclisinin 6 yanvar 2013-cü il qərarı ilə həmin ildən etibarən hər il martın 21-i qeyd edilir. Beynəlxalq Meşə Günü meşələrin və meşə sahələrinin Yer kürəsində davamlı inkişaf və təhlükəsizlik üçün böyük əhəmiyyət daşımasına diqqəti cəlb etmək məqsədi güdür. BMT Baş Məclisin bu qərarını Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı alqışlamış və üzv dövlətləri həmin gün xüsusi tədbirlər, o cümlədən ağacəkmə kampaniyaları keçirilməsini dəstəkləməyə çağırmışdır.

Yer kürəsi ərazisinin quru hissəsinin 31 faizi meşələrlə örtülmüşdür. Haqlı olaraq meşələri planetimizin ağciyərləri adlandırırlar. Yerin ekoloji sistemləri və atmosfer arasında karbon qazı mübadiləsi prosesində meşələr mühüm yer tutur. Dünyadakı meşələrin 13 faizi xüsusi qorunan təbii ərazilərə aiddir. Son illərdə meşələrin qırılması, deqradasiya və yanğınlar nəticəsində Yer kürəsində meşələrin təhlükəli dərəcədə azalması meyilləri bütün beynəlxalq birliyi ciddi narahat edir.

İnternetdə: www.books.google.com

**21 Mart – Beynəlxalq Poeziya Günü, (1999)**

***İnsanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, insanların mənəviyyatına, əxlaqına, tərbiyyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.***

Ümummilli lider Heydər Əliyev



1999-cu ildə YUNESKO-nun baş konfransının 33-cü sessiyasında hər il martın 21-də Ümumdünya Poeziya Gününü (World Poetry Day) qeyd etmək qərara alınmışdır. İlk Ümümdünya Poeziya Günü, YUNESKO-nun mənzil-qərargahının yerləşdiyi Parisdə keçirilmişdir. YUNESKO-nun qərarında deyilir: "Poeziya müasir insanın ən dərin və kəskin mənəvi suallarına cavab ola bilər, lakin bunun üçün ona daha çox ictimai diqqəti cəlb etmək zəruridir". Bundan başqa, Ümumdünya Poeziya Günü kiçik nəşriyyatlara özlərini göstərmək imkanı verir, çünki məhz onların səyi ilə müasir şairlərin əsərləri oxuculara çatır. Bu bayram canlı poetik söz ənənələrini dirildən poeziya klubları üçün də bir imkandır. YUNESKO hesab edir ki, bu gün kütləvi informasiya vasitələrində poeziyanın insanlara açıq, əsl müasir sənət nümunəsi kimi pozitiv obrazının yaradılmasına xidmət edir. Belə hesab olunur ki, ən qədim şeir-himnlər e.ə. XXIII əsrdə yaranmışdır. Şeirlərin müəllifi şairə En-hedu-ana olmuşdur. O, akkad çarı Sarqonun qızı olmuşdur. En-hedu-ana Ay tanrısı Nann və səhər ulduzu tanrıçası İnann haqqında yazmışdır. Bu günlə əlaqədar təhsil, mədəniyyət müəssisələrində, yaradıcı kollektivlərdə müxtəlif tədbirlər keçirilir. Bu ocağın neçə-neçə unudulmaz söz sahiblərindən biri olan sevimli Şəhriyar qəlbini, ruhunu şeirə, sözə, poeziyaya bağışlayaraq deyib:

*Şeir mədəniyyət, incəsənətdir,*
*İncə ruh, incə zövq, incə sənətdir.*
*O da musiqi tək qəlbin səsidir,*
*Həyatın ən böyük möcüzəsidir.*

Fransız yazıçısı Anatol Frans haqlı olaraq qeyd edib ki, şeirlə insan ruhu arasında qədim bir ünsiyyət var. Buna görə də insanın sevincli və kədərli anlarında şeir həmişə onunladır. Bu məqamlarda Livan yazıçısı və rəssamı Xəlil Cübranın sözləri yada düşür: "Şeir qanı axan yaranın və ya gülümsəyən dodaqların nəğməsidir". Rus şairi, Nobel mükafatı laureatı İosif Brodski isə bildirib ki, poeziya ən yaxşı sözlərin ən yaxşı düzümü deyil, poeziya dilin adi mövcudluq formasıdır.

İnternetdə: www.books.google.com

**21 Mart – İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü, (1966)**



İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü (İnternational Day for the Racial Discrimination) BMT-nin Baş Assambleyasının 1966-cı il 26 oktyabr tarixində keçirilən XXI sessiyasının qərarı hər il martın 21-də keçirilir. 1960-cı ilin həmin günü polis Şarpevildə (Cənubi Afrika) aparteid rejiminin Cənubi Afrika Respublikasında afrikalıların məcburi pasportlaşdırılması haqqında qanunun əleyhinə dinc nümayiş zamanı atəş açmış və 69 nəfəri öldürmüşdür. BMT-nin Baş Assambleyası bu günü elan edərək beynəlxalq birliyi, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üçün səylərini birləşdirməyə çağırmışdır. Bununla BMT təsdiq etmişdir ki, irqi ayrı-seçkiliyi insan hüquqlarının, əsas azadlıqların və ədalətin inkarı hesab etmək olar və o, insan ləyaqətinə qarşı cinayətdir. BMT ayrı-seçkiliyin sosial və iqtisadi inkişafa, həmçinin beynəlxalq əməkdaşlığa və sülhə maneə olduğunu da qəbul edir.

İnternetdə: www.books.google.com

**21 Mart – Beynəlxalq Kuklaçı Günü, (2000)**



21 Mart Beynəlxalq Kuklaçılar Gününün (İnternational Day of Puppetry) qeyd olunması ideyası məşhur İran kukla teatrı xadimi Civad Zülfaqarihoya məxsusdur. 2000-ci ildə Maqdeburqda, Beynəlxalq Kukla Teatrı Xadimləri İttifaqının XVIII Konqresində o, bu məsələni müzakirəyə çıxarmışdır. İki ildən sonra UNİMA-nın Beynəlxalq Şurasının iclasında bayramın tarixi müəyyən olunmuşdur. Bütün dünyadan olan kuklaçıların bayramı ənənəsi 2000-ci ilin 21 martında yaranmışdır. Məhz həmin gündən başlayaraq kukla teatrlarının bütün peşəkarları və pərəstişkarları tərəfindən Beynəlxalq Kuklaçı Günü qeyd olunur. Ənənəyə görə, həmin gün kukla teatrı və yaradıcı qruplarının əməkdaşları maraqlı kukla tamaşaları, görüşlər, konsertlər təşkil edirlər.

Ölkəmizdə də kuklaların, kukla tamaşalarının yaranmasının öz tarixi vardır. Kuklalar səhnədə görünəndə həmişə bayram olur. Kukla tamaşaları uşaqlara xeyirxahlığı, yaxşıları dəyərləndirməyi və sevməyi öyrədir. Əgər kuklalar balacalar üçün bir oyun, əyləncədirsə, böyüklər üçün bir eyham, bir mesajdır. Oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən tərbiyəvi və çox təsirli vasitə kimi önəm daşıyar. Kukla oyunlarını üç tipə bölmək olar: kilimarası; kukla oyunu; kölgə oyunu. Kukla oyunu tamaşalarının eyni kökdən olan bir neçə forması var. Bunlardan ən geniş yayılanı "Bəbək", "Keçəl pəhləvan", "Maral oyunu", "Kilimarası" qədim kukla oyunlarındandır. İllər ötdükcə mədəniyyətin hər bir sahəsi kimi kukla teatrı da inkişaf etmişdir. Xalqımız ta qədimdən, təbii vasitələrdən istifadə olunmaqla, kuklalar düzəltmiş, xalq oyunları təşkil etmişdir. Min illər boyu azərbaycanlıların yaşadıqları geniş ərazidə kukla oyunları da yayılmışdır. Bu oyunlar üçün kukla düzəldənləri oyuqçular adlandırıblar.

Azərbaycanda körpə balaların kuklalarla əsas görüş ünvanı Abdulla Şaiq adına Kukla Teatrıdır. Kukla Teatrında həm milli, həm də dünya xalqlarının nağıl qəhrəmanlarının iştirakı ilə "Turpun nağılı", "Qoçaq Əhməd", "Cik-Cik xanım", "Ələddin", "Cırtdan", "Quşcuğaz", "Göyçək Fatma", "Qırmızı Papaq", "Məlikməmməd" və başqa tamaşalar nümayiş olunur.

İnternetdə: www.books.google.com

**22 Mart – Ümumdünya Su Ehtiyatları Günü, (1992)**



Ümumdünya Su Ehtiyatları Gününün keçirilməsi ideyası ilk dəfə BMT-nin Ətraf mühitin qorunması və inkişafı üzrə 1992-ci ildə Rio-de-Janeyroda təşkil olunan konfransında səslənmişdir.

Su bəşəriyyət üçün zəruridir. Su damlası çox böyük gücə malikdir, su damlası hamıya lazımdır. Yer səthinin 70%-i su ilə örtülsə də, onun 97,5%-i duzlu sudur. Yerdə qalan 2,5% şirin suyun 68,7%-i buzlaqların donmuş suyudur. Planetin su ehtiyatının ümumi həcminin cəmi 1 faizi insanlar tərəfindən istifadə üçün əlçatandır. XX əsrdə suyun istifadəsi 6 dəfə artmış, əhalinin artım tempini 2 dəfə üstələmişdir. İnkişaf etmiş ölkələrdə şirin su ehtiyatlarının 30%-ə qədər sızma nəticəsində itirilir, bəzi böyük şəhərlərdə isə bu itki 70%-ə qədər artır. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü il 22 fevral tarixli 47/193 saylı qətnaməsini qəbul edərək martın 22-ni Ümumdünya Su Ehtiyatları Günü elan etmişdir. Bu əlamətdar gün 1993-cü ildən qeyd olunur.

İnternetdə: www.books.google.com

## 23 Mart – Ümumdünya Meteorologiya Günü, (1950)



Ümumdünya Meteorologiya Günü 1950-ci ildən, yəni bu təşkilatın yaradılması barədə konvensiya qüvvəyə minəndən bəri ənənəvi olaraq hər il bir deviz altında keçirilir. Azərbaycan 1993-cü il sentyabrın 3-dən Ümumdünya Meteorologiya Təşkilatının üzvüdür. 1873-cü ilin sentyabrında Vyana şəhərində yaradılmış Ümumdünya Meteorologiya Təşkilatı ən qədim beynəlxalq təşkilatlardan biri olan Beynəlxalq Meteorologiya Təşkilatının sələfidir. 1951-ci ildən isə Birləşmiş Millətlər Təşkilatının Xüsusi Agentliyidir. Artıq Ümumdünya Meteorologiya Gününün hər il bir deviz altında keçirilməsi ənənəyə çevrilib.

2012-ci ilin mövzusu olan "Hava, iqlim və su gələcəyimizin aparıcı quvvəsidir" devizi isə hava, iqlim və su ilə əlaqədar təqdim olunan məlumatların sosial-iqtisadi sektorlar üçün müstəsna rolunu göstərmək üçün seçilmişdir. "Hava, iqlim və su gələcəyimizin aparıcı quvvəsidir" devizi Ümumdünya Meteorologiya Təşkilatının 16-cı Konqresində 2012-ci ildən başlayaraq İqlim Xidmətlərinin Qlobal Çərçivə Sisteminin (İXQÇS) yaradılmasına dair qəbul edilmiş qərarın icrası ilə bağlıdır. Bu Konqresdə İqlim Xidmətlərinin Qlobal Çərçivə Sisteminin 4 prioritet istiqaməti müəyyən edilmişdir: təbii fəlakət təsirlərinin minimuma endirilməsi, su resursları, səhiyyə və qida təhlükəsizliyi. Operativ və rejim xarakterli hidrometeoroloji məlumatlardan, proqnoz və xəbərdarlıqlardan iqtisadiyyatın ayrı-ayrı sahələrində, kənd təsərrüfatı, tikinti, aviasiya, gəmiçilik, energetika və s. sahələrdə istifadə edilməsi böyük səmərə verməklə, dayanıqlı inkişafı təmin edən amillərdəndir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti tərəfindən müşahidə şəbəkələri yeni cihaz və avadanlıqlarla, o cümlədən avtomat meteoroloji stansiyalarla təmin olunur. Bu da müşahidələrin keyfiyyət göstəriciləri ilə bərabər onların operativ ötürülməsini və istifadəsini təmin edir. Hava şəraitini idarə etmək mümkün olmasa da, mütəmadi olaraq müşahidələrin aparılması və daha yüksək dəqiqliklə qabaqcadan verilən proqnoz və xəbərdarlıqlar nisbətən əlverişli və təhlükəsiz həyat üçün zəmin yarada bilir. Bununla da təbii fəlakətlərin təsirlərinin nisbətən yumşaldılması məqsədilə iqtisadiyyatın bütün sahələrində keyfiyyətli hidrometeoroloji xidmətə tələbatın artması müşahidə olunur. Bu baxımdan da hidrometeorologiya xidmətlərinin rolu əvəzsizdir.

İnternetdə: http://news.milli.az

## 25 Mart – “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adının təsis edildiyi gün, (1992)

***"Sizin qəhrəmanlığınız bu gün həyata atılan, orduda xidmətə gedən və hərbi xidmətə hazırlaşan gənclər üçün örnəkdir, nümunədir. Vətən yolunda canlarını qurban vermi ş, şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanlarının həyatı, onların qəhrəmanlığı büt ün xalqımız üçün, o cümlədən, xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir".***

Ümummilli lider Heydər Əliyev






Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi olan “Azərbaycanın Milli Qəhrəmanı” adı “Azərbaycanın Milli Qəhrəmanı adının müəyyən olunması haqqında” Azərbaycan Respublikasının 25 mart 1992-ci il tarixli, 331-XII nömrəli Qanunu ilə müəyyən olunmuşdur.

“Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. “Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir. “Azərbaycanın Milli Qəhrəmanı” adı eyni şəxsə bir dəfə verilir. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı – “Ay-Ulduz” medalı “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının 7 iyul 1992-ci il tarixli, 201 nömrəli Qanunu ilə təsis edilmişdir. “Ay-Ulduz” medalı “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli Qanununa əsasən “Qızıl Ulduz” medalı ilə əvəz edilmişdir.

İnternetdə: www.books.google.com

**27 Mart – Beynəlxalq Teatr Günü, (1962)**



Bu günün hər il dünyada keçirilməsi ilə bağlı qərar YUNESKO yanında Beynəlxalq Teatr İnstitutunun 1962-ci ildə Vyanada keçirilən konqresində qəbul olunub. Hər il Beynəlxalq Teatr Günü münasibəti ilə nüfuzlu incəsənət xadimləri dünya ictimaiyyətinə müraciət edirlər. Bu ənənənin əsasını qoyan və ilk dəfə dünya ictimaiyyətinə Teatr Günü münasibətilə mesaj göndərən fransalı yazıçı Jan Kokto (1962-ci il) olub. Ölkəmizin rəhbərliyi bütün sahələrdə olduğu kimi, teatr sənətinin də inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Teatr binalarının əsaslı təmiri, incəsənət ustalarının sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı bu gün uğurla həyata keçirilir. Proqrama uyğun olaraq Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, Dövlət Rus Dram, Dövlət Gənc Tamaşaçılar, Dövlət Akademik Milli Dram teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılmışdır. Hazırda bu istiqamətdə işlər uğurla davam etdirilir. Ötən illər ərzində respublika teatrları dünyanın 20-dən artıq ölkəsində, o cümlədən Almaniya, Türkiyə, Rusiya, Belarus, Gürcüstan, Fransa, Mərakeş, Finlandiya, İran, Misir, Hollandiya, Estoniya, Bolqarıstan, Ukrayna və İsveçrədə keçirilən beynəlxalq tədbirlərdə ölkəmizi ləyaqətlə təmsil ediblər. Eyni zamanda, xarici dövlətlərdən tanınmış rejissorlar, baletmeysterlər, xoreoqraflar, teatr rəssamları tamaşa hazırlamaq üçün Azərbaycana dəvət olunublar. Hər il Beynəlxalq Teatr Günü ilə əlaqədar ölkə teatrlarında müxtəlif tədbirlər keçirilir, tamaşalar göstərilir.

İnternetdə: www.books.google.com

## 31 Mart – Yer Saatı Günü



Yer saatı (ing. Earth Hour) – Ümumdünya vəhşi təbiət fondu tərəfindən hər il keçirilən beynəlxalq tədbir. Hər ilin mart ayının axırıncı şənbə günü keçirilir və hər kəsi, dövlət və kommersiya təşkilatlarını həyati əhəmiyyət daşımayan bütün elektrik cihazlarını bir saatlığa keçirməyə çağırır. Bununla da dünyada iqlimin dəyişməsinə diqqət ayırmağa çalışır. İlk dəfə bu tədbir (WWF) tərəfindən The Sydney Morning Herald qəzeti ilə birgə 2007-ci ildə Avstraliyada keçirilib. Artıq gələn il dünyada tərəfdarları tapıldı, 2009-cu ildə isə geniş hərəkata çevrildi. WWF-nin məlumatına görə onu hər il 1 milyard əhali keçirir.

Azərbaycan rəsmi olaraq 2011-ci ildən "Yer saatı" kampaniyasına qoşulub. Elə həmin il keçirilən ilk tədbirdə Bakıda Qız Qalasının işıqları 1 saat müddətinə söndürülüb. 2012-ci ildə 31 Mart tarixində Azərbaycan ikinci dəfə kampaniyada iştirakı edib. 2013-cü ildə "Yer saatı" kampaniyası Bakı şəhəri ilə yanaşı, ölkənin regionlarında Gəncə və İsmayıllı şəhərlərində keçirilib.

2014-cü ildə "Yer saatı" kampaniyası "İrəli" İctimai Birliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə həyata keçirilib. "Yer saatı" kampaniyasının Azərbaycanda əsas təşkilatçısı "İrəli" İctimai Birliyidir. Rauf Mərdiyev kampaniyanın ölkə üzrə koordinatorudur.

İnternetdə: www.books.google.com

**Bu tarixi unutmayaq**
**31 Mart – Azərbaycanlıların Soyqırımı Günü, (1918)**




Bu gün 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınlarla bağlıdır. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni işbirliyinin nəticəsi olub. Sovet dönəmində üstündən sükutla keçilən mart qırğınları 1998-ci ildən etibarən ulu öndərimiz Heydər Əliyevin 26 mart tarixli fərmanına əsasən hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Tarixi faktlar göstərir ki, 31 mart əslində, 1918-1920-ci illər ərzində zaman-zaman Azərbaycanın ən müxtəlif bölgələrində həyata keçirilən soyqırımların anım günüdür. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında ermənilərlə ruslar Azərbaycan türkünü qanına-qəltan ediblər. Bundan əvvəl və sonra bu cür soyqırımlar çox törədilsə də, 1918-ci il martın 31-də baş verən qətl öz miqyasına görə bunların hamısından fərqlənir.

Qeyd edək ki, hələ martın 31-nə qədər, daha dəqiqi, martın 18-21-də də Bakıda dəhşətli hadisələr baş vermişdi. Dörd gün ərzində şəhərin müsəlman əhalisi top atəşinə tutulur, güllələnir, diri-diri yandırılırdı. Bəzi məlumatlara görə, həmin günlərdə çox sayda müsəlman qətlə yetirilmişdi. Qırğının törədilməsinin başlıca səbəbi Azərbaycanın müstəqilliyinin qarşısının alınması, Bakının mühüm iqtisadi və siyasi əhəmiyyəti ilə bağlıydı. İngilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel elə qənaətə gəlib ki, 1918-ci ilin martında 8-12 min azərbaycanlı qətlə yetirilib. ABŞ tarixçiləri C. və K. Makkartilər də 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlman öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

### 3 Mart - Şairə Hökumə Billurinin anadan olmasının 95 illiyi, (03. 03.1926-1999)



*Qollarım dolana boynuna bir gün*
*Yenə baş qoyaram dizinə Təbriz.*
*Həsrətdən hicrandan cana doymuşam,*
*Doyunca baxaram gözünə Təbriz.*

Hökumə İbrahim qızı Billuri Cənubi Azərbaycanın Zəncan şəhərində dünyaya göz açmışdı. Bütün uşaqlar kimi, o da qayğısız, xoşbəxt böyümüşdü. Yeniyetmə yaşına çatanda isə hissləri, duyğuları onun düşüncəsini dəyişər, təfəkküründə haqqa, ədalətə tapınmaq kimi fikirlər oyanardı. Gənc Hökumə sevincini, kədər və intizarını poetik formada bildirməyi bacarırdı. Cənubi Azərb.-da milli azadlıq və demokratik hərəkatın (1941-45) fəal iştirakçısı olmuşdur. 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olundu. Amma ürəyindən nisgil çəkilmədi. Azərb. Dövlət Un-tinin filol. fakültəsini (1952) və Moskvada İctimai Elmlər Akademiyasını (1963) bitirmişdir. Yaradıcılığı məhsuldar oldu. Hökumə xanım kövrək şeirlər müəllifi olduğu kimi, həm də son dərəcə mədəni, alicənab insan idi. Onun 20-yə yaxın kitabı yadigar qalıb. Əsl ziyalı əvvəl mənsub olduğu xalqını, sonra özünü düşünməlidir. Billuri məhz belə qələm sahiblərindən idi. Hökumə Billuri əməkdar incəsənət xadimi fəxri adına, müxtəlif fərmanlara, diplomlara layiq görülmüşdür. "Ürək dustaq oldu dərdə, fərağa" desə də, onun ömründən bugünümüzə daim anılan unudulmaz xatirələr yadigar qalmışdır. Hökumə Billuri 22 noyabr 2000-ci ildə Bakıda vəfat etmişdir.Vətən həsrəti ilə qəlbi döyünən şairənin el arasında məhşur şerlərindən biridə "Təbriz" şeiridir. Azərbaycan Demokrat Firqəsi MK orqanı "Azərbaycan" qəzetinin baş redaktoru (1956-60), Azərb. EA Şərqşünaslıq İnstitunun baş elmi işçisi (1964 ildən) olmuşdur.

**Əsərləri:** "Mənim arzum" (1949), "Mübarizə illərində" (1951), "Şairin yadigarı" (1957), "Səndən uzaqlarda" (1961), "Səhər günəşi" (1964), "İstərəm" (1969), "Çinar gözləyir məni" (1975), "Şeirlər" (1980), "Bir də bahar gəlsə" (1984) və s. kitabları, "Səriyyə" ("Ölməz qəhrəman"), "Sənin həyatın", "Məhin", "O göylərin altında" poemaları. M. Şəhriyarın farsca şeirlərini Azərb., Səməd Vurğunun "Zəncinin arzuları" poemasını, C.Cabbarlı. M.Dilbazi, Nəbi Xəzri və b.-nın şeirlərini isə fars dilinə tərcümə etmişdir. Müasir Cənubi Azərb. ədəbiyyatına, o cümlədən M.Şəhriyarın həyat və yaradıcılığına dair tədqiqatların müəllifidir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Hökumə _Billuri

**5 Mart - Tənqidçi, ədəbiyyatşünas Yaşar Qarayevin 85 illiyi, (05.03.1936-2002)**



**Qarayev Yaşar Vahid oğlu — tənqidçi, ədəbiyyatşünas, 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1980), professor (1985), Azərbaycan Dövlət mükafatı laureatı (1980), Azərbaycanın Əməkdar elm xadimi (1982), Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü (1990), Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü (2002)**

Yaşar Qarayev 1936-cı il martın 5-də Şəki şəhərində xırda sənətkar ailəsində anadan olmuşdur. ADU-nun filologiya fakültəsində təhsil almışdır (1954-1958). Sonra Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, nəzəriyyə və ədəbi proses şöbəsinin müdiri, institutda direktorun elmi işlər üzrə müavini işləmiş, həmin şöbəyə başçılıq etməklə yanaşı, institutun direktoru vəzifəsində çalışmışdır (1987). Məqalə və kitabları "Yaşar", "Q.Yaşar", "Y.Qarayev" imzaları ilə dərc olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqının tənqid və ədəbiyyatşünaslıq şurasının rəhbəri olmuşdur (1976-1991). "Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin təşəbbüsçüsü, müəlliflərindən biri və məsul redaktoru olmuşdur. Respublikanın elmi və ədəbi-mədəni inkişafında fəal çalışmış, Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi üzrə əlaqələndirmə şurasının sədri, ədəbiyyat institutu elmi şurasının sədri, Memarlıq və İncəsənət İnstitutunun, Türkmənistan EA Dil və Ədəbiyyat İnstitutu elmi şurasının, Azərbaycan Dövlət nəşrkomu yanında redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin, Mədəniyyət Nazirliyi bədii şurasının, "Yazıçı" nəşriyyatının bədii şurasının, "Azərbaycan" və "Ulduz" jurnalı redaksiya heyətinin, "Bilik" Cəmiyyəti rəyasət heyətinin, ensiklopediya elmi redaksiya heyətinin üzvü olmuşdur. Eyni zamanda SSRİ Yazıçılar İttifaqı rəyasət heyəti yanında tənqid və ədəbiyyatşünaslıq şurasının, Azərbaycan Yazıçılar İttifaqı M.F.Axundov adına mükafat komissiyasının üzvü idi. "Füzuli Vəqfı" fondunun rəyasət heyətinin üzvü kimi fəaliyyət göstərmişdir (1994-?).2002-ci il avqustun 25-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Faciə və qəhrəman" (1965), "Səhnəmiz və müasirlərimiz" (1972), "Tənqid: problemlər, portretlər" (1976), "Poeziya və nəsr" (1979), "Realizm: sənət və həqiqət" (1980), "Mirzə Fətəli Axundov" (1982), "Poeziyanın kamilliyi" (1985), "Ədəbi üfüqlər" (1985), "Meyar-şəxsiyyətdir" (1989), "Xan bülbülün nağılı" (1994), "Tarix: Yaxından və uzaqdan" (1996) və s.

**Filmoqrafiya:** "Geriyə baxmağa dəyər" (film, 1985), "Sən həmişə bizimləsən" (film, 1997), "Cavad Heyət varlığı" (film, 2001), "Üç zirvənin fatehi" (film, 2008)

İnternetdə: https://az.wikipedia.org/wiki/Yaşar_Qarayev

**6 Mart - Yazıçı Fərman Eyvazlının anadan olmasının 90 illiyi, (06.03.1931-1996)**



**Eyvazov Fərman Allahverdi oğlu - nasir, 1962- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1970)**

Eyvazov Fərman Allahverdi oğlu 1931 - ci il martın 6 - da Azərbaycanın Ağstafa rayonunda doğulmuşdur. Ağstafada orta məktəbi bitirdikdən sonra Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunun nəsr bölməsində təhsil almışdır(1951-1956).Ədəbi fəaliyyətə 1950 - ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunan "İlk səsim" şeirilə başlamışdır. "Drujba narodov" jurnalının Azərbaycan üzrə xüsusi muxbiri (1956-1957), Radio və Televiziya Verilişləri Komitəsində redaktor, böyük redaktor (1961-1962) işləmiş, sonra bir müddət yaradıcılıqla məşğul olmuşdur. "Azərnəşr"də siyasi ədəbiyyat redaksiyasında tərcüməçi (1965-1967), Azərbaycan Jurnalistlər İttifaqında yaradıcılıq şöbəsinin müdiri (1967-1996) vəzifələrində çalışmışdır. Macarıstanda yaradıcılıq ezamiyyətində olmuşdur (1974). "Şərəfli əməyə görə" medalı ilə təltif edilmişdir. 1996-cı il noyabrın 26-da Bakıda vəfat etmişdir.

**Kitablar:** "Mən niyə qayıtmadım"(1961), "Qaçaq Kərəm" (1986), "Qaçaq Kərəm" (1987), "Qaçaq Kərəm" (1990) və s.

**Tərcümələri:** N.Nosov "Yamaq" (1963), Y. Fuçik. "Radistin qutusunda üç hərf" (1963), Fateh Niyazi. "Üçüncü qız" (1964), Y. Amadu. "Su Kinkasın qeyri adi ölümü" (1964), "Yapon xalq nağılları" (1966), B.Rjevski "Heyvanat parkları şahının səhvi" (1966) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Fərman_ Eyvazlı

**12 Mart - Xalq şairi Süleyman Rüstəmin 115 illiyi, (12.03.1906 - 1989)**

***“Süleyman Rüstəm xoşbəxt bir insandır. Bu dünyaya gələn hər bir adam bu dünyadan gedəcəkdir. Ancaq xoşbəxt o kəsdir ki, dünyada böyük iz qoyur. Süleyman Rüstəm bizim ölkəmizdə, Azərbaycan xalqının həyatında böyük iz qoyub dünyasını dəyişmiş görkəmli şəxsiyyətlərdən biridir.”***

Ulu öndər Heydər Əliyev



**Süleyman Rüstəm (tam adı: Rüstəmzadə Süleyman Əliabbas oğlu) — şair, dramaturq, ictimai xadim, 1934-cü ildən AYİ-nin üzvü, Azərbaycanın Əməkdar İncəsənət xadimi (1943), Azərbaycanın xalq şairi (1960), Stalin mükafatı (1950), II dərəcəli Azərbaycan Dövlət mükafatı laureatı (1970), Sosialist Əməyi Qəhrəmanı (1976). 1940-cı ildən Sov.İKP üzvü.**

Süleyman Rüstəm 1906-cı il martın 12-də Bakının Novxanı kəndində anadan olmuşdur. ADU-nun şərq fakültəsinə daxil olmuşdur, 1929-cu ildə oradan Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakültəsinə köçürülmüşdür. Zaqafqaziya Mərkəzi İcraiyyə komitəsinə üzv seçilmişdir (1935). Azərbaycan SSRİ birinci çağırış Ali Sovetinə deputat seçilmişdir (1938), bundan sonra ömrünün sonuna qədər bütün çağırışlarda deputat olmuşdur. M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının direktoru (1937-1938), "Ədəbiyyat qəzeti" nin baş redaktoru olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinə, "Azərbaycan", "Kirpi" jurnallarının və "Sovetski pisatel" nəşriyyatının redaksiya heyətlərinə üzv seçilmişdir. Yaradıcılığında siyasi lirika və sevgi şeirləri mühüm yer tutur. Heca və əruz vəznlərində yazmışdır. Qəzəl janrına meyl göstərirdi. Onun yaradıcılığında çox əsərləri, poemaları və şeirləri aparıcı yol oynayır.Xidmətlərinə görə üç dəfə Lenin ordeni, iki "Qırmızı Əmək Bayrağı" ordeni, Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri fərmanı və bir sıra medallarla təltif olunmuşdur. Azərbaycan SSRİ Ali Sovetinin sədri olmuşdur.1989-cu il iyunun 10-da Bakıda vəfat etmişdir.

**Əsərləri:** “Ələmdən nəşəyə” (1927), “Addımlar” (1930), “Səs” (1932), “Yanğın” (1932), “Atəş”(1932), “Şairin səsi”(1934), “Ulduzlar” (1934), “Ana ürəyi” (1942), “Durnalar” (1942), “Ana və poçtalyon” (1943), “Gün o gün olsun ki...” (1943), “Doğma paytaxtım” (1953), “Həyat nəğmələri” (1953), “İki sahil” (1954), “Lirik şeirlər” (1956), “Dəmir addımlar” (1957), “Şeirlər” (1959), “Günəşli sahillərdə”(1963), “Durna”(1963), “Qafurun qəlbi” (1970), “Könül”(1970), “Mahnılar, mahnılar” (1975), “Xəzərimin səhəri”(1976), “Mənim günəşim”(1980), “Ürək döyüntüləri”(1984), “Təbrizim”(1986), ”Azərbaycana gəlsin”(1988) və s.

**Filmoqrafiya:** Qanlı zəmi (film, 1985)

İnternetdə: https://az.wikipedia.org/wiki/Süleyman_ Rüstəm

**12 Mart - Yazıçı Əmir Mustafayevin anadan olmasının 85 illiyi, (12.03.1936-2007)**



**Mustafayev Əmir Gülbala oğlu – nasir, 1974 - cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü**

Əmir Mustafayev 1936 - cı il martın 12 - də Azərbaycanın Qusar şəhərində doğulmuşdur.Burada 4 saylı şəhər orta məktəbini bitirib, BDU - nun filologiya fakültəsində təhsil almışdır (1953-1958). Sonra ÜİLKGİ MK nəzdində olan Moskva Mərkəzi Komsomol Məktəbində, Bakı Ali Partiya Məktəbində təhsilini davam etdirmişdir. "O gəldi" adlı ilk hekayəsi 1954 - cü ildə "Azərbaycan gəncləri" qəzetində çap olunmuşdur. Bu vaxtdan dövri mətbuatda müntəzəm çıxış etmişdir. "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri (1957-1969), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında məsul katib (1971-1976), "Azərbaycan" jurnalı redaksiyasında məsul katib (1976-1979) vəzifələrində işləmişdir. Bir il C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenarist olmuş, yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında çalışmışdır. Sonra Azərnəşrdə bədii ədəbiyyat şöbəsində müdir (1985-1989), "Karvan" kitablar seriyası redaksiyasında məsul katib (1989-1990), "Respublika" qəzeti redaksiyasında baş redaktorun müavini (1990-1991), "Həyat" qəzetində mədəniyyət şöbəsinin müdiri olmuşdur (1991-1993). "Azərbaycan" qəzetinin baş redaktoru işləmişdir (1993-2002). Onun bu fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.Əmir Mustafayev ölkəmizdə"Tərəqqi"medalınavə Prezident təqaü-dünə layiq görülmüş ilk ziyalılardandır.

**Əsərləri:** "Zolaqlı çemodan" (1967), "Qızıl ulduzlar" (1968), "Qırovçayın payız nəğməsi" (1972), "Dağlarcanın ağ qovaqları" (1976), "İsti külək" (1978), "Qayğı yükü" (1979), "Qara zolaq" (1981), "Sevirsə qayıdacaq" (1983), "Səndən ötrü" (1985), "Gecə zəngi" (1987), "Qurd ürəyi" (1989), "Ürəkdən asılan yük" (1990), "Seçilmiş əsərləri" (1991), "Sonuncu şeytan" (1994) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Əmir_ Mustafayev

**14 Mart - Yazıçı, dramaturq Nahid Hacızadənin anadan olmasının 85 illiyi, (1936)**
***"Nahid Hacızadə sözünün kölgəsi olan yazıçıdır."***

Jurnalist Flora Xəlilzadə

***"Deyirlər, insan öz zamanının övladı olur. Burada bir həqiqət vardır. İnsan bəzən zamanın burulğanlarında, gündəlik qayğıların mənganəsində mütiləşir, sınır, zamanın hökmünə boyun əyərək dövrünün övladına çevrilir... Nahid müəllim "zamanın övladı" olmaqdan üstün çıxdı". Bəlkə elə bu məziyyətinə görə də Nahid Hacızadə Azərbaycan ədəbiyyatının solmayan səhifələrini yazanlardan biridir. "Ölən əsərlər" müəllifi olmamaq, həqiqətən, qələm sahibi üçün bir şərafətdir.***



Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev

Nahid Rəhim oğlu Hacıyev 1936-cı il martın 14-də Gədəbəyin Düzrəsullu kəndində anadan olub. Bakıda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. Sonralar bir müddət nəşriyyatda çalışsa da, hazırda Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktorudur.Yazıçı ömrünü ləyaqətlə yaşamağı bacaran Nahid Hacızadə həm də görkəmli dramaturqdur. Onun "Ömrün sorağında", "Ömür gözləyir bizi", "Məhəbbət yaşadır", "Köçündən ayrılan durna" pyesləri Şəki, İrəvan və Bakı teatrlarında tamaşaya qoyulub. "Qisas qiyamətə qalmaz" pyesi isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının hazırladığı ən uğurlu tamaşalardan biri olub. Nahid Hacızadənin əsərindəki kökə bağlılıq, vətənə məhəbbət və bu duyğuların səhnədə uğurlu həlli idi. Nahid Hacızadənin ssenariləri əsasında həm də 30-a yaxın sənədli və bədii televiziya filmi çəkilib. Müəllifin "Son qəmin olsun, Vətən!", "Qayalarda qalan səs" və "Yaşa, ey haqq" filmləri Qızıl Fonda daxil edilib. Maraqlıdır ki, Nahid Hacızadə lap gənclik çağlarından poeziyaya maraq göstərib. Onun şeirlərinə çoxlu sayda mahnılar bəstələnib. Çox fərəhli bir haldır ki, Nahid Hacızadə bütün yaradıcılığı boyu doğma dilimizin keşiyində əsl əsgər kimi dayanıb. Bu səbəbdən də yazdıqları maraqla qarşılanıb. Hər şeydən öncə, Nahid Hacızadə nasirdir. O, ədəbiyyata 1969-cu ildə "Ulduz" jurnalında çap edilən "Lirik miniatürlər"lə gəlib. İlk kitabı da 1972-ci ildə "Gənclik" nəşriyyatında çap edilib. "Bir ana tanıyırdım" adlanan bu əsəri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılandı və qədəmləri yüngül oldu.

**Əsərləri:** "Bir ana tanıyırdım" (1972), "Dağlar yuxuma girir" (1975), "Bir ürəyin çağırışı" (1978), "Ömür gözləyir bizi" (1983), "Məhəbbət ölüncə var" (1983), "Köçündən ayrılan durna" (1989), "Qərib axşamlar" (1992), "Cəmil Əhmədli ilə üç görüş, Diplomat" (2000) və s.

**Filmoqrafiya:**Sevilin bacıları (film, 1971), Muğan qızı (film, 1972), Şamama (film, 1973), Uzunömürlü ağaclar (film, 1974),Tələbə avtoqrafları (film, 1976), Bəxtiyar Vahabzadə (film, 1987),Qayalarda qalan səs (film, 1995),Yurd yeri (film, 1994), İstiqlal şairi (film, 1996) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Nahid_ Hacızadə

**15 Mart - Şair, tərcüməçi İsa İsmayılzadənin 80 illiyi, (1941-1997)**



İsa İsmayılzadə 1941-ci il martın 15-də Gürcüstanın Qarayazı rayonunda anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1958-1963).Ədəbi fəaliyyətə tələbəlik illərində "Aprel çiçəkləri" (1959) almanaxında və "Azərbaycan gəncləri" qəzetində (19 iyun 1961-ci il) çap etdirdiyi ilk şeiri ilə başlamışdır. O, Qardabanidə orta məktəbdə müəllim (1963-1964), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında elmi redaktor (1966-1968), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, baş redaktorun müavini, "Ulduz" jurnalı redaksiyasında şöbə müdiri (1968-1981), "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində işləmişdir (1981-ci ildən ömrünün sonunadək). Eyni zamanda Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin musiqili veriliş baş redaksiyasında (müqavilə ilə) musiqi mətnləri şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir (1994-cü ildən). Şeir və poemaları keçmiş SSRİ xalqlarının dillərinə, habelə bir sıra xarici dillərə tərcümə edilmişdir. Öz yaradıcılığında poetik tərcüməyə də xüsusi diqqət vermiş, sosialist ölkələri yazıçılarının Moskvada keçirilən birinci Beynəlxalq simpoziumunda (1977), Asiya və Afrika ölkələri yazıçılarının Yurmalada keçirilən seminar-müşavirəsində (1978) iştirak etmişdir. 1997-ci il iyulun 14-də vəfat etmişdir.
**Əsərləri:** "Ulduzların ad günü"(1968), "İşıqlı yarpaqlar" (1972), "Torpaq nəğməsi" (1977), "Ömrümdən keçən qatar" (1980), "Salam, Yer kürəsi" (1982), "Anamla söhbət" (1985), "Yellənсəkdə yellənən külək" (1985), "Gedim anamdan soruşum" (1987), "Bir ömürlük gecə (şeirlər və poemalar)" (1989), "Seçilmiş əsərləri" (1991), "Vurağan, tutağan, yatağan" (1992) və s.
**Filmoqrafiya:** Qarabağ bülbülləri (film, 1977), Belə bir şəhər var (film, 1982), Bəyin oğurlanması (film, 1986), İntizar (film, 1986)

İnternetdə:https://az.wikipedia.org/wiki/İsa İsmayılzadə

**15 Mart - Şair Ələkbər Salahzadənin anadan olmasının 80 illiyi, (1941-2013)**
***Ələkbər Salahzadə milli söz səntimiz üçün eləcə 60-cılar adlandırılan nəslin bir tanınmış ismi yox, ən yeni dövrün ədəbi salnaməsində yaddaqalan şairlərdən biridir.***



**Ələkbər Salahzadə — şair, tərcüməçi, 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Rəsul Rza adına mükafat laureatı 2002, Əməkdar incəsənət xadimi 2005.**

Məmmədsalahlı Ələkbər Baba oğlu – 1941-ci il martın 15-də Qonaqkənd (indiki Quba) rayonunun Cimi kəndində anadan olmuşdur. Orta məktəbi Qonaqkənddə başa vurub ADU-nun filologiya fakültəsində təhsil almışdır (1958-1963). Ədəbi fəaliyyətə orta məktəbdə oxuduğu illərdən başlamış, illər keçdikcə dövri mətbuatda çıxış etmişdir. "Azərbaycan" jurnalının ədəbi işçisi, "Tərcürmə saatı" radio jurnalının ştatdankənar redaktoru olmuşdur (1965-1967). Azərbaycan Sovet Ensiklopediyasında dil, ədəbiyyat, incəsənət redaksiyasında elmi redaktor (1966), "Gənclik" nəşriyyatında tərcüməçi, sonra poeziya üzrə redaktor (1968-1976), Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatın təbliği bürosunun direktor müavini (1976-1989) işləmişdir. Sonra "Ulduz" jurnalında poeziya şöbəsinin müdiri (1989-1992), redaktor vəzifəsində çalışmışdır (1992-2004). Hazırda "Qobustan" jurnalının baş redaktorudur (2004-cü ildən). 60-cı illərdən fəal ədəbi fəaliyyətə başlamışdır. Bədii tərcümə ilə də ardıcıl məşğul olur. Əsərləri xarici ölkə xalqlarının dillərinə çevrilmişdir. 100-dən çox essesi, məqaləsi çap olunub. Radio-pyesləri, 20-dən artıq uşaq nağılı vardır. "Kölgədən qorxan" (1983) Şəki, "Yayın qış gecələri" (1985) Sumqayıt, "Nağaraçı naxırçı" (1987) pyesləri Ağdam Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. 60-cı illərdən fəal ədəbi fəaliyyətə başlayan Ə. Salahzadə bədii tərcümə ilə yanaşı, 100-dən çox essenin, məqalənin də müəllifidir. Radio-pyesləri, 20-dən artıq uşaq nağılı var. "Kölgədən qorxan", "Yayın qış gecələri", "Nağaraçı naxırçı"pyesləri tamaşaya qoyulub.
**Əsərləri:** "Beş yarpaq (şeirlər və poema)" (1968), "Od hevkəli(şeirlər və poema)" (1970), "Gözlər baxır dünyaya (şeirlər və poemalar)"(1979), "Xatirə çiçəyi (şeirlər və poema)" (1982), "Yerimiz bir, göyümüz bir (şeirlər və poemalar)" (1986), "Od odası (şeirlər və poemalar)" (1989), "Yanıltmaclı əlifba" (1995)
**Tərcümələri** (ruscadan): A.Tarkovski. Gözəl Gülayim haqqında povest (1970), Pyatras Svirka, Tülkünün kələyi (1970), A.Platonov. Dörd hekayə (1971), Lorens Sterin, Fransaya və İtaliyaya sentimental səyahət (1973), A.V.Sofranov. Vida poeması (1980)

İnternetdə:https://az.wikipedia.org/wiki/ Ələkbər_ Salahzadə

**18 Mart - Şair, ədəbiyyatşünas İsmayıl Vəlibəyli (Öməroğlu) 70 illiyi, (18.03.1951)**



**İsmayıl Ömər oğlu Vəliyev - Yazıçı-publisist, filologiya elmləri doktoru, BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının professoru, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr şöbəsinin baş elmi işçisi, qəzetçi-yazar.**

İsmayıl Ömər oğlu Vəliyev 1951-ci il martın 18-də Ermənistan SSR - nin Allahverdi rayonunun Böyük Ayrım kəndində anadan olmuşdur. 1970-1975-ci illərdə Azərbaycan Dövlət Universitenin jurnalistika fakültəsinin əyani şöbəsində təhsil almışdır. 1971-ci ildən Azərbaycan Radio və Televiziyası ilə əməkdaşlıq etmiş, on ilə yaxın "Bulaq" folklor verlişinin daimi müəlliflərindən biri olmuşdur. Onun hazırladığı verlişlərin bir çoxu radionun "Qızıl fond"unda saxlanılmaqdadır. Bundan əlavə, "Zəka" radio elmi proqramının uzun illər ssenari müəllifi və aparıcısı olmuşdur. Televiziyanın vaxtilə populyar olan "İdrak" proqramı da İ.Vəliyevin ideyası əsasında yaradılmış və uzun müddət onun müəllifliyi və aparıcılığı ilə "Ata yurdu" verlişi uzun müddət efirə getmişdir.İsmayıl Vəliyev bədii yaradıcılığa 1965-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc etdirdiyi kiçik sənədli hekayə ilə başlamışdır. O vaxtdan uşaqlar üçün şer və hekayələr yazmış, "Pioner" jurnalında və başqa mətbuat orqanlarında da xeyli nağıl və hekayələri dərc olunmuşdur. Onun uşaq hekayələri beynəlxalq təşkilatların mükafat və qrantlarına layiq görülmüşdür. İ.Vəliyev publisistika və tərcümə işi ilə ardıcıl məşğul olur. Qədim şumerlərin məşhur "Bilqamış dastanı"nı, "Avesta"dan parçaları, Qədim Misir ədəbiyyatı nümunələrini, türk, rus, bolqar, litva, ukrayna, türkmən və başqa dillərdən bir sıra elmi və bədii əsərləri tərcümə etmişdir.

**Əsərləri**: "Ömrün yaşıl yarpaqları" (1978), "Ədəbi portret və xarakter" (1981), "Mənim odum, ocağım (şeirlər və poemalar)" (1983), "Literaturnıy portret: eqo funksiya i tipoloqiya" (1986), "Bəxtimə düşən dünya" (1990), "Dünya susur, tarix susmur" (1994), "Azərbaycanın siyasi partiyaları və ictimai təşkilatları" (1995), "Qaçqınlıq" (1996), "Qızılqaz əfsanəsi" (1996), "Pişik balasının oyunları"(1996), "Sarı buğda" (1996), "Zalım pələng və nəğməli quş" (1996), "Zalım padşahla oğlu" (1996), "Qara gündəlik. 1990-cı il yanvar hadisələri" (1997), "Azərbaycan soraq kitabı" (1997), "Burulğanlar içində" (1997), "İnsan: həyatda və sənətdə"(1998), "Yerlə göyün arasında (şeirlər)" (1998),"Ədəbiyyatda insan konsepsiyası. Tarixi təşəkkülü, inkişaf mərhələləri (monoqrafiya)" (1999), "Payız yagışları (seçmə şeirlər)" ( 2001), "Sevgi dünyam (şeirlər)" (2001), "Günəşin rəngləri (şeirlər)" (2001), "Ədəbi-bədii və uşaq kitablarının redaktəsi (ali məktəb tələbələri üçün dərslik)" (2002), "Redaktənin əsasları (ali məktəb tələbələri üçün dərslik)" (2002), "Redaksiya nəşriyyat işinin əsasları (jurnalistlər, nəşriyyat redaktorları və kitabşünaslar üçün vəsait)" (2004), "Redaktənin əsasları. Mətnin redaktor təhlili (mühazirə mətnləri)" (2003), "Heydər Əliyev və türk dünyası" (2003), "Bədii söz və insan", "Bir ömürlük məhəbbət", "Kitab palatası", "Parfiya", və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ İsmayıl _ Vəlibəyli

**18 Mart - Şair Böyükağa Qasımzadənin anadan olmasının 105 illiyi, (1916-1957)**



**Qasımov Böyükağa Məmməd oğlu – şair, tərcüməçi, 1939-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Böyükağa Qasımzadə 1916-cı il martın 18-də Bakı quberniyası Bakı qəzasının Maştağa kəndində xırda sahibkar-dəmirçi ailəsində doğulmuşdur. Atası Məmməd kişi 1903-cü ildə Bakıya köçüb xırdavat dükanı sahibi, sonra adi fəhlə olmuşdur. Böyükağa yeddiillik məktəbi Bakıda bitirib fəhlə fakültəsində (1932), sonra isə sənaye institutunda (1937) təhsil almışdır.Ədəbi yaradıcılığa 30-cu illərdə başlamış, ilk şeirlərini məktəblilərə həsr etmişdir. Onun ilk kitabı – "Murad" poeması 1937-ci ildə çapdan çıxmışdır. APİ-nin dil və ədəbiyyat fakültəsini bitirmişdir (1937-1941). İkinci Dünya müharibəsinin ilk günlərində səfərbərliyə alınmış, hərbi məktəbdə kursant, 1941-ci ilin dekabrında Cənub cəbhəsində atıcı rotasının komandiri, siyasi şöbənin təlimatçısı, Zaqafqaziya cəbhəsində "Döyüşçü" qəzeti redaksiyasında məsul katib işləmişdir (1942-1945). Xüsusi tapşırıqla İrana göndərilmiş (1945-1946), sonra təyyarəçilik məktəbində xüsusi qrupda siyasi rəhbər, hərbi klubda rəis vəzifələrində işləmişdir (1947-1948). Ordudan tərxis ediləndən sonra "Ədəbiyyat qəzeti"ndə incəsənət şöbəsinin müdiri (1948-1950), daha sonra "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri (1953-1957) olmuşdur. A.S.Puşkin, N.Nekrasov, N.V.Qoqol, T.Şevçenko, İ.Franko, M.Bajan, P.Tıçina kimi sənətkarların və bir sıra xarici ölkə yazıçılarının poetik əsərlərini doğma dilə çevirmişdir. Füzulinin "Yeddi cam" əsərini, M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"nı farscadan, "Sasunlu David" eposunu ermənicədən tərcümə etmişdir. Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur (1951-1952). Sonra bütün qüvvə və bacarığını yaradıcılıq işinə vermişdir. 1957-ci il avqustun 29-da 41 yaşında vəfat etmişdir.

**Əsərləri:** "Murad"(1937), "Şirin sözlər" (1939), "Anarsan məni" (1945), "Bahar şəfəqləri" (1949), "Əsərləri" (1961), "Şirin sözlər" (1966), "Seçilmiş əsərləri" (1976)

İnternetdə:https://az.wikipedia.org/wiki/ Böyükağa _ Qasımzadə

**21 Mart - Xalq şairi Səməd Vurğunun anadan olmasının 115 illiyi, (1906-1956)**

***"Səməd Vurğun böyük alim, filosof, Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından, təşəbbüsçülərindən biridir. O, Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir."***

Ulu öndər Heydər Əliyev



Səməd Yusif oğlu Vəkilov 21 mart 1906-cı ildə Qazax qəzasının Yuxarı Salahlı kəndində bəy nəslinə mənsub ailədə anadan olmuşdur. Səməd Vurğun seminariyanı bitirdikdən sonra (1924) Qazax, Quba və Gəncədə Azərbaycan dili və ədəbiyyatını tədris etməyə başlayır. 1920-1930 illərdə şairin səsi ciddi surətdə ədəbi mühitin və geniş oxucu kütlələrinin nəzərini cəlb edir. 1930-cu illərdə O, Aleksandr Puşkinin "Yevgeni Onegin", Maksim Qorkinin "Qız və ölüm", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərlərini Azərbaycan dilinə tərcümə edir. 1930-1940-cı illər Vurğun istedadının çiçəklənməsi və yüksəlişi dövrüdür. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunmuşdur. Bu dövrdə şair, Azərbaycan poeziyasının dilini bir çox əcnəbi sözlərdən təmizləyərək, Azərbaycan ədəbiyyatını və dramaturgiyasını yeni əsərlər hesabına zənginləşdirmişdir. Yalnız 1935-ci ildə Səməd Vurğun 7 poema və 100-ə yaxın şeir yazmışdır. 1934-cü ildə yazılmış "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə şair öz vətəninin qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyini tərənnüm etmişdir. 1936-37-ci illərdə yeni əsərlər yazmaqla yanaşı tərcüməçiliklə də məşğul olaraq, Puşkinin "Yevgeni Onegin" mənzum romanını Azərbaycan dilinə tərcümə etmişdir. Bu tərcüməsinə görə şairə Puşkin komitəsinin "A.S.Puşkin medalı" təqdim olunmuşdur. Bu illər şair Şota Rustavelinin "Pələng dərisi geymiş pəhvəlan" əsərinin bir hissəsini böyük ustalıqla tərcümə etmiş, buna görə Gürcüstan SSR MİK-in fəxri fərmanı ilə təltif edilmişdir. Eləcə də şair Taras Şevçenkonun, İlya Çavçavadzenin və Cambul Cumayevin bir çox şeirlərini dilimizə tərcümə etmişdir.1937-ci ilin ikinci yarısında Səməd Vurğun özünün ölməz dram əsərini – "Vaqif"i yazır. "Vaqif" dramını 3-4 həftə ərzində, heyrətləndirici bir sürətlə tamamlayan şair əsərdə Molla Pənah Vaqifin faciəli həyatını, şair böyüklüyünü, insanlıq kamilliyini ustalıqla, məhəbbətlə əks etdirmişdir. "Vaqif" dramına görə Səməd Vurğun 1941-ci ildə "Stalin mükafatı"na layiq görülmüşdür.Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq işində fəal iştirak edən Səməd Vurğun 1939-cu ildən başlayaraq Nizami haqqında məqalələr yazmış, elmi məruzələrlə çıxış etmiş, onun "Leyli və Məcnun" poemasını məharətlə Azərbaycan dilinə çevirmişdir. 1941-ci ildə Səməd Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" mənzum dramını yazır. Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi yer tutur. Müharibə illərində sənətkar 60-dan artıq şeir, bir neçə poema, o cümlədən "Bakının dastanı"

poemasını yazmışdı. Onun yazdığı "Ukrayna partizanlarına" şeirinin mətnləri təyyarədən Ukrayna meşələrinə səpələnərək partizanlara çatdırılmışdı.1943-cü ildə ABŞ-da keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı "Ananın öyüdü" şeiri çox yüksək qiymətləndirilmiş və dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap etdirilərək hərbçilər arasında yayılmışdır. 1945-ci ildə yazdığı fəlsəfi dram olan "İnsan"da şair gələcəyi romantik vüsətlə əks etdirməyə çalışmış, müharibənin odlu-alovlu günləri içərisində insan zəkasının qüdrətini göstərmişdir. Şairin bu əsərdə yaratdığı "Qardaşlıq şəhəri"ndə dünyanın eyni arzu və ideallarla yaşayan insanları toplaşmışdır.Səməd Vurğun təkcə məşhur şair deyil, eyni zamanda böyük alim, əvvəzsiz təşkilatçı və nəzəriyyəçi idi. 1945-ci ildə o, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir. Səməd Vurğunun müharibədən sonrakı dövr yaradıcılığı da çox məhsuldar olmuşdur. Şair bir-birinin ardınca "Muğan" (1948), "Aygün" (1950-1951) və "Zamanın bayraqdarı" (1952) poemalarını qələmə almışdır.1956-cı il may ayının 27-də şair gözlərini əbədi yumdu. Şair may ayının 30-da Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

**Əsərləri:** Komsomol poeması (1933), Muradxan (1933), Xumar (1933), Lökbatan (1933), Kənd səhəri (1933), Ölüm kürsüsü (1934), Macəra (1935), Acı xatirələr (1935), 26-lar (1935), Qız qayası (1935), Aslan qayası (1935), Bulaq əfsanəsi (1935), Dar ağacı (1935),Ölən məhəbbət (1935),Talıstan (1935), Üsyan (1936), Bəsti (1937),Yazla qışın dəyişməsi (1937), Ayın Əfsanəsi (Aybəniz) (1941), Hürmüz və Əhriman (1943), Bakının dastanı (1944), Zəncinin arzuları (1948), Muğan (1948-1949), Aygün (1950-1951), Zamanın bayraqdarı (1952) və s.

**Dram əsərləri:**Vaqif (1937), Xanlar (1938-1939), Fərhad və Şirin (1939-1941), İnsan (1945), Şairin həyatı, İki sevgi (1940-1941)

**Tərcümələri:**"Yevgeni Onegin", A.S.Puşkin (1936),"Pələng dərisi geymiş pəhləvan", Şota Rustaveli (1936)**,**"Leyli və Məcnun", Nizami Gəncəvi (1939),Taras Şevçenkonun əsərləri**,** Maksim Qorkinin əsərləri**,** İlya Çavçavadzenin əsərləri**,** Cambul Cabayevin əsərləri.

**Haqqında yazılmış əsərlər :** Adilxan Bayramov, "Yaşayan ömür", Bakı, "İşıq", 1990, 88 səh.

**Filmoqrafiya** : Komsomol nəsli (film, 1938),Səməd Vurğun (film, 1958), Aygün (film, 1960), Səməd Vurğun (film, 1966), Muğanın dastanı (film, 1968), Xalq şairi Səməd Vurğun (film, 1969),Yeddi oğul istərəm... (film, 1970), Səməd Vurğun (film, 1976), Nə yaxşı ki, dünyada Səməd Vurğun var (film, 1976),Vurğun ocağı (film, 2003), Monoloq (film, 1987), Hər şey olduğu kimi. Beşinci film. Rəşid Behbudov (film, 2000), Qəmbər Hüseynli (film, 2007),Üç zirvənin fatehi (film, 2008).

İnternetdə:https://az.wikipedia.org/wiki/Səməd_ Vurğun

**21 Mart - Yazıçı Nurəddin Babayevin anadan olmasının 100 illiyi, (1921-1991)**



**Nurəddin Həsən oğlu Babayev — görkəmli yazıçı-jurnalist, alim, professor, publisist, Azərbaycanda Jurnalistika fakültəsinin əsas yaradıcılarından biri və ilk dekanı, yaşadığı dövrün incəsənət xadimləri sırasında uca zirvə tutmuş sənətkardır. Nurəddin Babayev Azərbaycan yazıçılar ittifaqının üzvü, oçerk və publisistika şurasının sədri, 1954-cü ildən SSRİ yazıçılar ittifaqının üzvü, oçerk və publisistika şurasının üzvü, Jurnalistlər ittifaqının üzvü və idarə heyətinin katibi, Əməkdar incəsənət xadimi, Əmək və müharibə veteranı, onlarla mükafatlar laureatıdır.**

Nurəddin Babayev 1921-ci il mart ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. Ziyalı ailəsində böyümüşdür. ADU-nun(indiki BDU-nun)filologiya fakültəsinə daxil olmuşdur. 1943-45-ci illərdə "Kommunist" qəzeti redaksiyasında şöbə müdiri, "Azərbaycan müəllimi" qəzetində redaktor müavini, 1953-cü ildən isə "Uşaq gənc nəşrdə" baş redaktor və eyni zamanda olduqca geniş və məhsuldar müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.1969-cu ildə alim, yazıçılarımız və Nurəddin Babayevin səyləri başda olmaqla universitetdə "Jurnalisitika" fakültəsi yaradıldı. Ömrünün sonuna qədər öz misilsiz pedaqogik, jurnalistika, yazıçılıq məharəti və təcrübəsi ilə tələbələri ilə bölüşür, onların elmi, mədəni sahədə möhkəmlənməsinə şərait yaratmış və dövrünün əsərləri, məqalələri ən çox çap olunan yazıçısı olmuşdur.Nurəddin Babayevin yaradıcılığı olduqca çoxşaxəli xarakter daşıyır. Nurəddin müəllimin bir sıra əsərləri rus, alman, ingilis, fransız, ispan, polyak, bolqar, macar və s. dillərə tərcümə olunmuşdur. Ədəbi fəaliyyətə 1939-cu ildə başlamış, bundan sonra məqalə, oçerk və hekayələri tez-tez müxtəlif qəzetlərdə dərc edilirdi."Əbədi qəhrəmanlıq" adlı ilk kitabı 1945-ci ildə çap olunmuşdur. Onun ədəbi yaradıcılığında gənclərin təlim-tərbiyəsinə həsr edilmiş əsərləri xüsusilə diqqətə layiq olub, çox qiymətlidir. Nurəddin Babayevin bu kitabları gənclər üçün stolüstü kitab olmaqla yanaşı hər bir zaman, hər bir gənc üçün tərbiyəvi, əxlaqi nəsihətlərlə, vacib və əvəz olunmaz əsl həyat təcrübəsi ilə zəngin xəzinələrdir. 1991-ci il sentyabr ayının 25-i dahi pedaqoq, jurnalist və yazıçı Nurəddin Babayev uzun sürən xəstəlikdən sonra vəfat etdi.

**Əsərləri:** “Böyük arzular” (1943), “Ölməz qəhrəman” (1945), “Xəzərin sahilində”, “Böyük kədər”, “Bir gəncin romantikası” (1948-1949), “Bir gecənin faciəsi”, “Həyat yollarda”, “Odlu günlərin qəhrəmanı”, “Müəllimin xatirələri”, “Məhəbbət körpüsü”, “Əbədi qəhrəmanlıq” (1945), “Bacılar” (1949), “Bahar övladları” (1959), “Ürəklər bir olanda” (1961), “Zərif duyğular” (1963), “Biz Azərbaycandanıq” (1965), “Oğluma məktublar” (1966), “Qəhrəmanların izi ilə” (1968), “Səni unutmuruq” (1970), “Qızlar, sözüm sizədir” (1972), “Ulduzlar sönmür” (1975), “Qızlar söz istəyir” (1977), “Ürəyimdə sözüm var” (1980), “Açıq söhbət” (1982), “Elə yaz ki” (1985), “Gəlin kişilikdən danışaq” (1986), “Babam-nənəm ,atam-anam və biz” (1988) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 683.

**21 Mart - Yazıçı İsa Hümmətovun anadan olmasının 90 illiyi, (1931-1990)**



**Hümmətov İsa Rüstəm oğlu - nasir, 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1958), Əmək veteranı (1988).**

İsa Hümmətov 1931-ci il martın 21-də Qərbi Azərbaycanın Vedi rayonunun Bayburt kəndində anadan olmuşdur. Burada ibtidai məktəbi bitirib Yerevanda pedaqoji texnikumda, sonra isə APİ-nin dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1949-1954). Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında başlamışdır. Əvvəlcə müxbir, sonra şöbə müdiri işləmişdir (1954-1960). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində redaktor, "Abşeron" qəzeti redaksiyasında məsul katib, "Maarif" nəşriyyatında və Azərnəşrdə redaktor (1961-1978), "Yazıçı" nəşriyyatında böyük redaktor işləmişdir (1978-1990). "Moruqlu budaq" adlı ilk hekayəsi 1958-ci ildə "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin nəşriyyat üzrə ilk təşkilat katibi olmuşdur. "Beşilliyin qalibi" diplomu və döş nişanı ilə təltif edilmişdır. 1990-cı il noyabrın 11-də Bakıda vəfat etmişdir.
**Əsərləri:** "Ətirli çiçəklər" (1959), "Atanın həsrəti" (1960), "Nənə, əlini mənə ver" (1964, "Ehtiyat qapıçı" (1966), "Nazilə" (1968), "Muğanın fəxri" (1969), "Günəşi qabaqlayanlar" (1971), "Mövlud ayı" (1971), "Həyatımın mənası" (1973), "Araz çağlayan yerdə" (1976), "Baba yadigarı" (1977), "Dünyanın bəzəyi" (1979), "İki məhəbbət" (1981), "Çinar əfsanəsi" (1983), "Şeytanın qurbanları" (1987) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 441.

**21 Mart - Yazıçı Nemət Veysəllinin anadan olmasının 80 illiyi, (1941)**

***Nemət Veysəlli portret və oçerklərində sənət adamlarının gördüyü işləri geniş təhlil etməklə yanaşı, həm də sənətkarları kamil oxucu imtahanından keçirir və onları daha ciddi işləməyə ruhlandırırdı. Onun seçdiyi mövzular və "həmsöhbət olduğu qəhrəmanları" Azərbaycanın sənədli nəsrində, publisistikasında seçilirdi.***



**Mehdiyev Nemət Bayramalı oğlu Veysəlli — Azərbaycan Yazıçılar Birliyinin (1985) və Azərbaycan Jurnalistlər Birliyinin (1978) üzvü. Publisist torpaqlarımızda savaş gedən illərdə "cəbhə bölgələrindən operativ materiallar hazırladığına", "Azərbaycanda gedən müharibəni yüksək peşəkarlıqla, obyektiv və fədakarcasına işıqlandırdığına görə", "Səhər" qəzetinin, Beynəlxalq Avrasiya Mətbuat fondunun diplomlarına (1993-1994), AKİVİHİ-nın "Qızıl qələm" (1994) mükafatlarına layiq görülmüşdür.**

Azərbaycan ədəbiyyatında öz imzası ilə seçilən, yazdığı əsərləri ilə oxucular arasında böyük hörmət qazanan qələm sahiblərindən biri də Nemət Veysəllidir. Nemət Bayramalı oğlu Veysəlli 1941-ci il martın 21-də Qaryagin rayonunun (indiki Füzuli) Yuxarı Veysəlli kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika (1965-1971) fakültəsini bitirib. Azərbaycan Yazıçılar (1985) və Jurnalistlər Birliyinin (1978) üzvüdür. "Sehrkar səslər, əfsanəvi rənglər", "Sular qovuşan yerdə" "Hər şeydən uca", "Düzlərin ağ işığı","Evimiz yuxuma girir" "Salamat görməyimə şadam", "Haran ağrıyır, Vətən?", "Sənsiz keçən illər", "Bəylər bəy", "Həyat sevən insan","Şəhərlər, evlər, naxışlar","Yaş həddinə görə" ,"Piyadaların döyüşü" "Tikintisi yarımçıq qalmış evlər" adlı bədii-publisistik kitablarının müəllifidir. Publisistin "Sehrkar səslər, əfsanəvi rənglər" adlı kitabında sənət adamlarının həyat və yaradıcılıqları ilə bağlı bir-birindən maraqlı yazılar cəmlənmişdir. Nemət Veysəlli portret və oçerklərində sənət adamlarının həyatını, onların yaradıcılıqlarını, gördüyü işləri geniş təhlil etməklə yanaşı, həm də insanın mənəvi simasını səciyyələndirən meyarlarla yanaşır, müasirliyin əsas mahiyyətini üzə çıxarmağa və canlandırmağa fikir verir. Yazıçının "Haran ağrıyır, Vətən?" , "Yaş həddinə görə", "Piyadaların döyüşü" publisistik kitablarında yazıçı son illər vətən ağrısı, xain düşmən tərəfindən işğal olunmuş torpaqlarımızın həsrət yanğısından doğan bir sualla "Vətən"in özünə müraciət edir - Haran ağrıyır, Vətən? müraciət edir. Ünvanlanmış suala müəllif bu kitablarında cavab tapır. Nemət Veysəlli həmişəki kimi sənət adamlarına xüsusi bir prizmadan yanaşmağı bacarır. Həyatda çox şey dəyişsə də, yazıçı-publisistin özü üçün qəbul etdiyi meyarlar dəyişmir. Onun əsas mövzusu və qəhrəmanı da dəyişməz qalır. Bu – Vətəndir. O, vətəninə xidmət edən əsgər-yazıçıdır.

**Əsərləri:** "Sehrkar səslər, əfsanəvi rənglər" (1984), "Sular qovuşan yerdə" (1985), "Hər şeydən uca", "Düzlərin ağ işığı" (1988), "Evimiz yuxuma girir" (1991), "Salamat görməyimə şadam" (1998), "Sənsiz keçən illər"(2000), "Bəylər bəy" (2004), "Həyat sevən insan" (2004), "Şəhərlər, evlər, naxışlar" (2005), "Yaş həddinə görə" (2006), "Piyadaların döyüşü" (2010), "Tikintisi yarımçıq qalmış evlər" (2014) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 658.

## 22 Mart - Şair Əli Kərimin anadan olmasının 90 illiyi, (1931-1969)

***"Əli Kərimin ömrü, öz şair sözü kimi, poeziyada atributa çevrilmişdi. Bu gün onun üslubunu, deyim tərzini, söz-obrazlarını davam etdirən şairlər var . Əli Kərim mövzu məhdudluğu bilməyib, mövzu əlvanlığı, həm də seçilmiş mövzunu orijinal işləmə tərzi onun yaradıcılığını səciyyələndirən cəhətləndəndir."***

**Professor Tofiq Hacıyev**



**Əli Kərim (tam adı: Kərimov Əli Paşa oğlu) — şair, tərcüməçi, 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Əli Kərim (Əli Paşa oğlu Kərimov) 1931-ci il mart ayının 18-də Azərbaycanın Göyçay şəhərində anadan olmuşdur. Əli Kərim 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur, burada ehtiyacı olduğu yataqxana olmadığından Teatr İnstitutunun teatrşünaslıq fakültəsinə keçir, III kursdan Moskvada, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsilini davam etdirir və 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirir. Bakıya qayıtdıqdan sonra "Azərbaycan" jurnalının redaksiyasında işləmiş, şeir şöbəsinin müdiri olmuşdur. İlk nəşr olunan əsəri 1948-ci ildə «Azərbaycan pioneri» qəzetində çıxmış "Təzə müəllim" şeiri olmuşdur. 1957-ci ildə Moskvada keçirilən tələbələrin VI Ümumdünya Festivalında "İlk simfoniya" poeması mükafata layiq görülmüşdür. İlk kitabı 1958-ci ildə Azərbaycan ədəbiyyatı dekadası münasibəti ilə Moskvada rusca çıxan "Два влюбленных" ("İki sevgili") kitabı olmuşdur. Ona həsr edilmiş Feyzi Mustafayevin «Dinmə, ey kədər» (1986), Elza Kərimin «Nə xoşbəxt imişəm», Altay Məmmədovun «Tanıdığım Əli Kərim» xatirələr kitabları çapdan çıxmışdır. Şairin bədii yaradıcılığının tədqiqinə həsr edilmiş Cavanşir Yusiflinin «Azərbaycan poeziyasında Əli Kərim mərhələsi» (2005), «Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış» (2010), Sona Xəyalın «Əli Kərim» (2011) və b. monoqrafiya və məqalələrin adlarını çəkimək olar. Şairin əsərlərindən bir çoxu ölümündən sonra işıq üzü görmüşdür. Əli Kərim 1969-cu ilin 30 iyununda Bakıda vəfat etmiş, Göyçayda dəfn edilmişdir. Dəfn edildiyi yerdə Əli Kərim parkı salınmışdır. Sumqayıt şəhərində Əli Kərim poeziya klubu fəaliyyət göstərir. Əli Kərim ədəbiyyata özünə məxsus üslubu ilə gəlmiş, ilk şeirlərindən parlaq istedadı ilə şeirsevərlərin diqqətini cəlb etmiş, özündən sonra gələn bir sıra şairlərə güclü təsir etmiş sənətkarlardandır.

**Əsərləri:** "İki sevgili" (1960), "Həmişə səfərdə" (1963), "Qızıl qanad" 1965, "Qaytar ana borcunu" (1970), "Uşaqlar və ulduzlar" (1971), "Səfərdən sonra" (1972), "Tənbəl ayı balası" (1973), "Seçilmiş əsərləri" (iki cilddə). I cild. 1974, "Seçilmiş əsərləri" (iki cilddə). II cild.(1975), "Pillələr" (roman) (1978), "Qız və kəpənək" (1979), "Qayıt" (1983), "Pillələr" (roman).1987, Seçilmiş əsərləri (iki cilddə). I cild.(1991), "Seçilmiş əsərləri (iki cilddə). II cild. (1991), "Mavi nəğmənin sahilində" (1991).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 251.

**23 Mart - Yazıçı Seyran Səxavətin anadan olmasının 75 illiyi, (1946)**



**Xanlarov Seyran Əsgər oğlu (Seyran Səxavət) — şair, nasir, tərcüməçi, 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biridir. Əsərlərinin əsas qayəsini insan, sevgi, vətən kimi bəşəri mövzular olmuşdur.**

Seyran Səxavət 1946-cı il martın 23-də Füzuli rayonunun Yağlıvənd kəndində anadan olmuşdur. Həmin kənddə orta məktəbi bitirdikdən sonra Natəvan adına Füzuli şəhər məktəbində direktorun köməkçisi vəzifəsində işləmişdir (1962-1964). Sonra ADU-nun şərqşünaslıq fakültəsində təhsil almışdır (1964-1970). Sovet Ordusu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi olmuşdur (1970-1972). "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi çalışmış, sonra iki il İranda tərcüməçi işləmişdir (1974-1976). Yenidən Bakıda "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmişdir (1976-1981). Sonra "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri işləmişdir (1981-1991). Bədii yaradıcılığa 1962-ci ildən dövri mətbuatda çap etdirdiyi şeir, hekayə və publisist yazıları ilə başlamışdır. Həmin vaxtdan mərkəzi və respublika mətbuatı səhifələrində müntəzəm çıxış edir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və bir sıra xarici dillərə tərcümə olunmuşdur. "Qızıl teşt" pyesi Azərbaycan Akademik Dram teatrında (1988), "Büst" pyesi Lənkəranda (1989), "Qapıların o üzündə qalan dünya" pyesi Füzulidə (1990) Dövlət dram teatrında tamaşaya qoyulmuşdur. "Nekroloq" romanı Azərbaycan Yazıçılar Birliyinin 2002-ci ilin Y.Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür.

**Əsərləri:** “Adalar (şeirlər)” (1970), “Mənim planetim (şeirlər)” (1977), “Hamı elə bilirdi ki” (hekayələr və povest) (1982), “Daş evlər (roman)” (1985), “Dar köynək” (povestlər) (1987), “Daş evlər” (roman) (1989), “Qızıl teşt” (povestlər, hekayələr) (1999), “Nekroloq” (roman) (2003), “Polad toxumu” (roman) (2003), “Yüz ilin kişisi” (povestlər və hekayələr)

**Tərcümələri:** A.Ebnoidze. İki ay kənddə və ya imeretisayağı evlənmə (roman). Bakı: Gənclik, 1986, 264 səh.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı.səh 782.

**İncəsənət**

**8 Mart - Xalq artisti Ağadadaş Qurbanovun 110 illiyi, (1911-1965)**



**Ağadadaş Gülməmməd oğlu Qurbanov — Azərbaycan teatr və kino aktyoru. 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar, 27 fevral 1954-cü ildə xalq artisti fəxri adlarına layiq görülüb.**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının banilərindən biri, həm faciə, həm dram, həm də komediya janrlı tamaşaların ifaçısı Ağadadaş Gülməmməd oğlu Qurbanov 8 mart 1911-ci ildə Bakıda doğulub. Ağadadaş Qurbanov 1952-ci ilədək teatrda işləmişdi. Aktyor Gənc Tamaşaçılar Teatrında böyüklər üçün nəzərdə tutulan Cəfər Cabbarlının "Aydın" (Aydın), Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (Molla İbrahimxəlil), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), Fridrix Şillerin "Qaçaqlar" (Karl Moor), Nikolay Qoqolun "Müfəttiş" (Xlestakov), Rabindranat Taqorun "Qaneşin yolu" hekayəsi əsasında "Əfilər" (Qaneş) pyeslərinin tamaşalarında iştirak etmişdi. Ağadadaş Qurbanov 1952-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında işləmişdi. O, bu teatrda Mirzə Səməndər, Əbu Übeyd, Ötgün ("Almaz", "Od gəlini" və "Dönüş", Cəfər Cabbarlı), Şeyx Mərvan və Şeyx Sənan, Səyavuş ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Kamillo ("Qış nağılı", Vilyam Şekspir), İbrahim xan və Vaqif ("Vaqif", Səməd Vurğun), Şults ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), İvanov ("Göz həkimi", İslam Səfərli), Dəmirçi Musa ("Toy", Sabit Rəhman), Yəhudi ("Mariya Tüdor", Viktor Hüqo), Kamal ("Məhəbbətin hökmü", Cabbar Məcnunbəyov), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Tağı Hüseyn ("Köç", Cavad Fəhmi Başqut), Allan ("Ailə namusu", Hüseyn Muxtarov), Gülcamal ("Yaxşı adam", Mirzə İbrahimov), Professor Mudrov ("Şirvan gözəli", Ənvər Məmmədxanlı), Akif ("Həyat", Mirzə İbrahimov), Əşrəf bəy ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov) kimi parlaq və yaddaqalan rollarda çıxış etmişdi. "Səbuhi", "Koroğlu", "Bir qalanın sirri", "Kölgələr sürünür" filmlərinə çəkilmişdi. "Arşın mal alan" filmində Soltan bəy roluna çəkilən aktyor kinolentinin tamamlandığı ərəfədə Salyanda qastrolda idi. Mehmanxananın eyvanına çıxanda qəfildən eyvan uçub və sənətkar 25 iyun 1965-ci ildə faciəli şəkildə həlak olmuşdu. Bakıda Fəxri xiyabanda dəfn olunmuşdu.

**Filmoqrafiya:** Səbuhi (film, 1941), Şamdan bəy (film, 1956),Qızmar günəş altında (film, 1957), Bir qalanın sirri (film, 1959), Koroğlu (film, 1960), Bizim küçə (film, 1961), Telefonçu qız (film, 1962), Zəncirlənmiş adam (film, 1964), Arşın mal alan (film, 1965),Yun şal (film, 1965) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Ağadadaş _Qurbanov

**15 Mart - Aktyor Əyyub Haqverdiyevin anadan olmasının 110 illiyi, (1911-1981)**

Əyyub Məmmədəli oğlu Haqverdiyev 15 mart 1911-ci ildə Naxçıvanda anadan olmuşdur.1936-1996 illərdə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləmişdir.1964-cü ildə Azərbaycan Respublikasının Xalq Artisti fəxri adı verilmişdir.Əyyub Haqverdiyev 12 iyun 1996 ildə Naxçıvanda vəfat etmişdir.
**Fəaliyyəti:** Əyyub Haqverdiyev Məşədi İbad, Vəli ("O olmasın, bu olsun", "Arşın mal alan", Ü. Hacıbəyov), Dursun ("Durna", S.Rüstəm), Mirzə Səməndər, Aqşın ("Almaz", "Od gəlini", C.Cabbarlı), Surxay ("Toy", Sabit Rəhman) və s. rolları oynamışdır.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əyyub_ Haqverdiyev

**16 Mart - Bəstəkar Zakir Bağırovun anadan olmasının 105 illiyi, (1916)**



**Bağırov Zakir Cavad oğlu — Azərbaycan bəstəkarı, Azərbaycanın əməkdar incəsənət xadimi (1961).**

Zakir Bağırov 16 mart 1916-cı ildə Şuşada dünyaya gəlmişdir. 1949-cu ildə Moskva Dövlət Konservatoriyasını bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasında müəllim, 1970-ci ildən isə musiqi nəzəriyyəsi kafedrasının müdiri işləmişdir. Bir çox teatr tamaşasına və kinofilmə musiqi yazmışdır. "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir. Zakir Bağırov 1996-cı ildə vəfat etmişdir. **Əsərləri:**
Opera :"Aygün"(1972), "Qoca Xattabıç"
Operetta: "Kəndimizin Mahnısı" (1958), "Qaynana" (1974)
İnstrumental: xalq çalğı alətləri orkestri üçün süitalar (1956, 1969), fortepiano ilə orkestr üçün konsert (1970), orqan üçün improvizasiya və fuqa (1973), "Çahargah" muğamı əsasında arfada solo üçün əsər, kamera-instrumental əsərləri, mahnı və romans.
**Kitabları:** Azərbaycan xalq rəqsləri. Not yazısı T.Quliyev, Z.Bağırov, M.İsmayılov. Bakı, 1951,"Dügah" muğamı. Bakı, 1936.
**Filmoqrafiya:** "Ağ qızıl" ustaları (film, 1958), Aygün (film, 1960), Bərəkətli torpaq (film, 1954), Bizim Azərbaycan (film, 1959),Gənc Leninçilər (film, 1951),"Kazbek" qutusu (film, 1958), Quba bağlarında (film, 1953), Mən Xəzər dənizçisiyəm (film, 1961), Nizami (film, 1959), Səadət yolu ilə (film, 1956),Təbiətin dostları (film, 1958), Uğurlu yol! (film, 1975),Yeni il gecəsində (film, 1958) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Zakir _Bağırov

**17 Mart - Aktyor, rejissor Hüseyn Ərəblinskinin 140 illiyi, (1881-1919)**

***Hüseyn Ərəblinski bütün həyatının mənasını sənət məbədinə xidmət eləməkdə görürdü. O, söyləyirdi ki, "Səhnə müqəddəsdir, ona layiq olmaq üçün aktyor ciddi bir əxlaq sahibi olmalıdı."***

***Hüseyn Ərəblinskinin Azərbaycan teatrına göstərdiyi ən böyük xidmətlərdən biri də odur ki, o, dünya klassiklərini, eləcə də, rus dramaturqlarının bir sıra əsərlərini ilk dəfə olaraq, Azərbaycan səhnəsinə gətirmişdi.***



Hüseyn Məmməd oğlu Xələfov 1881-ci ildə Bakı şəhərində yoxsul bir ailədə dünyaya göz açıb. "Üçüncü Rus-Tatar" məktəbinə daxil olan Hüseyn burada eyni zamanda rusca oxuyub-yazmağı öyrənir. Məktəb illərində ədəbiyyata xüsusi marağı ilə seçilən gələcək sənətkar məhz o illərdə teatrla tanış olur. Bu, professional teatrdan uzaq olan dərviş oyunları, səyyar sirk tamaşaları idi. Hüseyn Ərəblinskinin teatr fəaliyyəti 1903-1904-cü illərdə yaradılan Müsəlman artistləri cəmiyyəti ilə sıx bağlıdır. Onun səhnədə ilk uğuru da məhz bu dövrə təsadüf edir. Bu haqda danışarkən, Hüseynin Otello rolunu diqqətdən kənarda qoymaq olmaz. O, ilk dəfə Otello rolunu 1910-cu ildə oynayıb. Xatırladaq ki, Hüseyn Otellonu 1910-cu ildə oynasa da, bu rol üzərində düz üç il çalışıb. Aktyorun bu rolun əvəzsiz ifaçı olması barədə bir sıra mənbələrdə məlumat verilib. O cümlədən, rus rejissoru Levini Ərəblinskinin Otellosu barədə bu fikirdə olmuşdur: "Mən bir çox tragik artistlər görmüşəm. Lakin sizdəki istedad və məharətin misli və bərabərini görməmişəm. Hərgah siz bu rolu rus səhnəsində ifa etsəydiniz, mən rejissorluğumu buraxıb, sizinlə birlikdə bütün Rusiyanı və hətta Avropanı gəzərdim."Hüseyn Ərəblinskinin ən uğurlu işləri sırasında olan rolları aşağıdakılardır. Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar"ında Qacar, Lanskoyun "Qəzavət"ində Əhməd bəy Şamxal, Qoqolun "Müəffətiş"ində Xlestakov, Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində Fəxrəddin, Mirzə Fətəli Axundovun "Hacı Qara" əsərində Heydər bəy, Şillerin "Qaçaqlar"ında Frans, Şekspirin "Otello"sunda Otello. Tarixi faktlardan məlum olur ki, Hüseyn 1916-cı ildə Bakıda çəkilən "Neft və Milyonlar Səltənətində" filmində Lütfəli bəyi oynamışdır. Hüseyn Ərəblinski 1919-cu ildə qətlə yetirilib. "Neft və Milyonlar Səltənətində" filmi Ərəblinskinin çəkildiyi ilk və son filmdir.1969-cu ildə Azərbaycan hökuməti Hüseyn Ərəblinskinin xatirəsini əbədiləşdirmək haqqında qərar qəbul etmişdir. Bu məqsədlə Sumqayıt Dövlət Gənclər Dram Teatrına Hüseyn Ərəblinskinin adı verilmişdir.

**Filmoqrafiya:** Abbas Mirzə Şərifzadə (film), Neft və milyonlar səltənətində (film, 1916)-Lütfəli, Azərbaycanın səhnə ustaları (film, 1965),Üzeyir ömrü (film, 1981), Hüseyn Ərəblinski (film, 1982)

İnternetdə:https://az.wikipedia.org/wiki/Hüseyn_ Ərəblinski

**19 Mart - Xalq artisti Ələkbər Seyfinin anadan olmasının 120 illiyi, (1901-1977)**
**Ələkbər Seyfi unudulmaz və yaradıcı sənətkar olmaqla yanaşı, həm də bacarıqlı rəhbər təşkilatçı kimi də mədəniyyət tariximizdə xüsusi yer tuturdu.**



Ələkbər Seyfulla oğlu Seyfi 19 mart 1901-ci ildə Tiflisdə anadan olub. "İttifaq" məktəbində təhsil alıb. Səhnəyə ilk dəfə şagird vaxtı, 1914-cü ilin əvvəllərində "Dəmirçi Gavə" (Şəmsəddin Sami) tamaşasında Bəhram rolunda çıxıb. Bundan sonra məktəb tamaşalarında kiçik rollar oynayıb. 1917-ci ildə "İbrət" dram dərnəyinə üzv olub. Truppanın yaradıcı heyətinə çox tez isinişib. Tezliklə o, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Hafizə xanım), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Feyzulla), Nəriman Nərimanovun "Nadir şah" (Rzaqulu xan), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Mahmud bəy), Hüseyn Cavidin "Maral (Cəmil bəy), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Vəli və Telli), Cəlil Məmmədquluzadənin "Ölülər" (Müəllim), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Yetər) pyeslərinin tamaşalarında çıxış edib. Ələkbər Seyfi 1922-ci ildən başlayaraq Tiflis Dövlət Azərbaycan Dram Teatrında yeddi il işləyib. Bu dövrdə İkinci zabit ("İblis", Hüseyn Cavid), Şeyx Abuzər və Serqo ("Şeyx Sənan",Hüseyn Cavid), Pyotr İvanoviç ("Müfəttiş", Nikolay Qoqol), Vəli ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Cücə ("Topal Teymur", Hüseyn Cavid), Kərəməli ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Hambal ("Məşədi İbad",Üzeyir bəy Hacıbəyov), Əşrəf ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Əbdüləli bəy ("Sevil", Cəfər Cabbarlı) rollarını oynayıb. O, daim yaradıcılıq ruhu olan sənətkar idi, dayanmadan öz üzərində çalışırdı. Avropa və Rusiya klassiklərini mütaliə edirdi. Stanislavski kimi böyük səhnə islahatçısının demokratik fikirlərini öyrənir, həmin fikirləri məharətlə öz yaradıcılığında tətbiq edirdi. Ələkbər Seyfinin həmişə həyata, yaşamağa böyük inamla baxdığını deyən Maarif Teymur onun xarakterinin özünəməxsusluğu haqqında danışır: Ələkbər Seyfi həmişə nikbin idi. Onun haqqında deyilmiş bəzi böhtanları da özünəməxsus təmkinlə qarşılamış, canından artıq sevdiyi səhnəni, aktyorluq sənətini, teatrı həmişə uca tutmuşdu. Ələkbər Seyfinin həmin dövrün keşməkeşli durumu ilə bağlı yazdığı qeydləri daxili aləmini, xarakterini çox gözəl açır. Ələkbər Seyfi 1929-cu ildə Bakı Türk İşçi Teatrına dəvət alıb. Xalq artisti (1961) Ələkbər Seyfi 1977-ci ildə vəfat edib.
**Filmoqrafiya:** Səhər (film, 1960), Qanun naminə (film, 1968), Mən ki gözəl deyildim (film, 1968), Uşaqlığın son gecəsi (film, 1968)-İsmayıl
**Tərcümələri:** "Məkr və məhəbbət" F.Şiller.

İnternetdə:https://az.wikipedia.org/wiki/Ələkbər_ Seyfi

**21 Mart - Aktyor Kazım Ziyanın anadan olmasının 115 illiyi, (1896-1956)**

***Səlis səhnə danışığı, aydın və məftunedici diksiyası, yüksək səhnə mədəniyyəti, dərin mütaliəsi, geniş dünyagörüşü, müəllimlik məharəti ilə işlədiyi bütün teatrlarda kollektivin böyük rəğbətini qazanmış Kazım Ziyanın zəngin yaradıcılığı öz dəyər və mənası ilə milli teatr sənətimizin parlaq səhifələrini təşkil edir. Kazım Ziya hələ gənc yaşlarından səhnədə Azərbaycan dilinin aydın və dəqiq tələffüzü uğrunda mübarizə aparmış, nöqsanlara qarşı barışmaz olmuşdur.***



**Kazım Cəfər oğlu Kazımzadə (Ziya) - Azərbaycanın görkəmli teatr və kino aktyoru. Azərbaycanın xalq artisti (1943) ,SSRİ Dövlət Mükafatı laureatı (1948)**

Kazım Cəfər oğlu Kazımzadə (Kazım Ziya) 21 mart 1896-cı ildə Azərbaycanın Ordubad rayonundakı Yuxarı Əylis kəndində doğulub. Yeniyetmə yaşlarından ərəb və fars dillərini mükəmməl öyrənib. Sonralar rus və fransız dillərini də mənimsəyib. Gələcəyin sənətkarı 1911-ci ildə əmisi Hüseynin ailəsi ilə Bakıya köçüb. O, 1912-ci ilin payızında burada "İttihad" İran gimnaziyasma daxil olub. Bir il sonra Kazım məktəbdə ədəbiyyat dərnəyi yaradıb. 1914-cü ildə Hüseyn Ərəblinski başda olmaqla teatr fədailəri "İttihad" məktəbində şagirdlərin xeyrinə Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsinin tamaşasını göstəriblər. Bununla da Kazım Ziyanın taleyinin sənət seçimi qətiləşib. Həmin vaxtdan müxtəlif teatr dəstələrində çıxışlar edib.Kazım Ziya Milli Dram Teatrının tamaşalarında fəal iştirak etsə də, truppanın ştatına 1922-ci ildə götürülüb. Arada bir il Naxçıvana gedib. Orada dövlət teatrının formalaşmasında ciddi çalışan Kazım Ziya 1925-ci ildə yenidən Bakıya qayıdaraq Bakı Türk İşçi və Kəndli Teatrının truppasına daxil olub. Bakı Türk İşçi Teatrı 1933-cü ildə Gəncəyə köçəndə Kazım Ziya da doğma kollektivdən ayrılmayıb. 1936-cı ildən 1938-ci ilədək Tiflisdə və İrəvandakı dövlət teatrlarında aktyorluq edib. 1938-ci ildə Bakıya gələrək Milli Dram Teatrının formalaşıb şöhrətlənmiş truppasına daxil olub. Səhnə səmimiyyəti və yüksək intellektuallığı ilə seçilən Kazım Ziyanın Milli Dram Teatrında yaratdığı əsas rollar bunlardır: Arif, Dərviş ("İblis" və "Şeyx Sənan", Hüseyn Cavid), Vaqif Söhbət ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Surxay, Usta Segah ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Piri baba ("Eşq və intiqam", Süleyman Sani Axundov), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), İmamyar, Xaspolad ("Yaşar" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Mirzə Həbib, Xan ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Görkəmli sənətkar 20 noyabr 1956-cı ildə Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

**Filmoqrafiya:**Qız qalası əfsanəsi (film, 1923), Bismillah (film, 1925) - Molla Rövzəxan, Səbuhi (film, 1941), Bir ailə (film, 1943), Sualtı qayıq "T-9" (film, 1943), Fətəli xan (film, 1947), Məhəmməd Füzuli (film, 1958),Onlar belə sevirdilər (veriliş, 2007) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Kazım_Ziya

**28 Mart - Xalq artisti Sidqi Ruhullanın anadan olmasının 135 illiyi, (1886-1959)**



**Sidqi Ruhulla, əsl adı Ruhulla Fətulla oğlu Axundov (9 aprel 1886 — 5 may 1959) — Azərbaycanın və SSRİ-nin xalq artisti və teatr rejisoru.**

Sidqi Ruhulla 1886-cı ildə Bakının Buzovna kəndində müəllim ailəsində anadan olmuş, ibtidai təhsilini bir kənd müəllimindən almışdır. Əsl adı Ruhulla, soyadı Axundov olsa da, gəncliyində "Vətən" dramında Sidqi rolunu məharətlə ifa etdiyi üçün yoldaşlarının məsləhətilə Sidqi ləqəbini qəbul etmişdir.

Sidqinin mənəvi inkişafında atası Molla Fətullahın da təsiri olmuşdur. Sidqi uşaqlıq və gənclik illərini Buzovnada keçirmişdir. 1903-cü ildə 17 yaşında ikən atası onu Bakıda varlı bir tacirin dükanına şagird verir. Qoca müəllimin məqsədi oğlunu ticarətə alışdırmaq idi. Lakin atanın xəbəri yox idi ki, onun öz oğluna təlim etdiyi kitablar, elm, şeir və sənət onun mənəviyyatını tamamilə başqa bir istiqamətdə tərbiyə etmişdir. Onun fikri-zikri təhsilini davam etdirmək idi. Buna görə də onu "ipə-sapa yatmayan şagird" adlandırırdılar. Sidqi vaxtında dükana gəlməz, günlərinin çoxunu elm sahəsində özündən qüvvətli olan gənc ziyalı yoldaşları ilə birlikdə keçirərdi. Sidqinin gənclik yoldaşlarının çoxu maarifpərvər və inqilabçı gənclər idi. 1904-cü ildə Sidqinin atası ölür. Sidqi dostlarının və yoldaşlarının təşviqi ilə atasından qalan ev əşyalarını satıb Moskvaya oxumağa gedir. Moskvada Sidqi qohumlarının köməyilə təhsilini davam etdirə biləcəyinə ümid edirdi. Lakin bu ümid boşa çıxır. Sidqi Moskvada qala bilməyib, Bakıya qayıdır. 1906-cı ildə birinci dəfə Azərbaycan səhnəsində böyük tragik Ərəblinskini Axundovun "Vəziri Xani Lənkəran" komediyasında Teymur Ağa rolunda gördü. Bu andan Sidqinin gələcək taleyi həll olundu. Sidqi sanki çoxdan axtardığı bir fəaliyyət sahəsini tapmış oldu. Onda hələ uşaqlıqdan aktyor sənətinə böyük həvəs var idi. Ərəblinski ilə dostlaşan Sidqi Ruhulla səhnəyə olan həvəsini ona bildirdi. O, Sidqinin səsində, qamətində, mimikasında, jestlərində böyük gələcəyi olan aktyoru əvvəlcədən görə bildi və Sidqini səhnəyə cəlb etdi.1906-cı ildə Sidqi birinci dəfə Vəzirovun "Adı var, Özü yox" komediyasında Telli rolunda səhnəyə çıxdı. O vaxt milli teatr səhnəsində Azərbaycan qızları olmadığından qadın rollarını kişilər ifa edirdilər. Sidqi Bakının müxtəlif fəhlə rayonlarında çıxış edir, arabir şəhərdə də tamaşa verirdi. Sidqinin hələ ilk kiçik rolları onun fövqəladə bir istedada malik olduğunu aydın göstərirdi. Xüsusilə Ərəblinski Sidqinin istedadına çox böyük qiymət verirdi. Ərəblinski Haqverdiyevin "Dağılan tifaq" faciəsinin bir əlyazmasını Sidqiyə bağışlayıb üzərində yazmışdır: "Şagirdim Sidqi Ruhullaya". 1908-ci ildə Bakıda "Morskoe Sobranie" zalında Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsi tamaşaya qoyulur. Burada Rüstəm bəy rolu Sidqiyə tapşırılır. Bu rolda Sidqi öz ifasının təbiiliyi, rolu dərindən hiss edib yaşaması ilə diqqəti cəlb edir. Bu tamaşadan sonra Sidqi hər şeyi buraxıb peşəkar aktyor olmağı qərara alır. Ərəblinski ilə birlikdə bir neçə ay İrəvan, Naxçıvan, Tiflis, Batumi və Vladiqafqazı gəzib tamaşalar verir. Bir neçə il sonra Sidqi Ruhulla yenə səyyar aktyor

sifətilə İrana və Cənubi Azərbaycana gedir. Sidqini bu qastrola göndərən və həvəsləndirən Ərəblinski idi. 50 illik səhnə fəaliyyəti dövründə Sidqi Ruhulla həmişə zəngin həyat təcrübəsi, müşahidə, bilik, məharət və bacarıq, gərgin əmək tələb edən 300-ə yaxın müxtəlif surətlər silsiləsi yaratmışdır. O, Azərbaycan yazıçılarından Cəfər Cabbarlı, Səməd Vurğun, Abdulla Şaiq,Mirzə İbrahimov, Məmməd Səid Ordubadi, Sabit Rəhman, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyevlə yanaşı rus klassiklərinin, qərb dramaturqlarının da əsərlərində müxtəlif rollar ifa etmişdir. Sidqinin səhnə fəaliyyəti ilə yanaşı, öz sənəti ilə əlaqədar olan ictimai fəaliyyətini də qeyd etmək lazımdır. Aktyor və aktrisaların yeni nəslinin tərbiyəsində, başqa görkəmli səhnə ustaları kimi, Sidqinin də müəyyən xidməti olmuşdur. Onun arxivində əksəriyyəti gənclər tərəfindən yazılmış yüzdən artıq məktub var ki, bu məktub və şeirlərin çoxunda Azərbaycan teatrının yeni qüvvələri onlara xüsusi qayğı göstərdiyi üçün öz təşəkkürlərini bildirirlər.1931-ci ildə Sidqi Ruhulla Azərbaycan SSR-nin əməkdar artisti, 1938-ci ildə Azərbaycan SSR xalq artisti, 1949-cu ildə SSRİ xalq artisti adını almışdır. Sidqi Ruhulla 1945-1946-cı illərdə "Qırmızı Əmək Bayrağı" ordeni ilə, "Əmək igidliyinə görə" və "Qafqazın müdafiəsi üçün" medalları ilə təltif olunmuşdur. Sidqi Ruhulla 1959-cu ildə 73 yaşında Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.
**Adlar və mükafatlar:** Azərbaycanın əməkdar artisti (1931); Azərbaycanın xalq artisti (1938); "Qırmızı Əmək Bayrağı" ordeni (1945-1946); SSRİ Dövlət mükafatı laureatı (1948); SSRİ xalq artisti (1949);"Əmək igidliyinə görə" medalı; "Qafqazın müdafiəsi üçün" medalı.
**Filmoqrafiya:** Abbas Mirzə Şərifzadə (film) (qısametrajlı sənədli film) (Aztv) (arxiv kadrlar) ("Gilan qızı" filminin çəkiliş kadrlarında), Bismillah (film, 1925) (Tammetrajlı Bədii Film), Gilan qızı (film, 1928) - Hacı Zəkidər (Tammetrajlı Bədii Film), Hacı Qara (film, 1929) - Əliyar Bəy (Tammetrajlı Bədii Film), Qızıl kol (film, 1930) (Tammetrajlı Bədii Film), Kəndlilər (film, 1939), Fətəli xan (film, 1947), Mənim atam Əliövsət Sadıqov (film, 2007).

İnternetdə:https://az.wikipedia.org/wiki /Sidqi_ Ruhulla

**31 Mart – Musiqi xadimi, bəstəkar, xanəndə Cabbar Qaryağdıoğlunun 160 illiyi, (1861-1944)**



Cabbar Qaryağdıoğlu XIX əsrin II yarısında yetişən və musiqi tariximizdə ən görkəmli rol oynayan sənətkarlardan biridir. Xalqın içərisindən çıxmış bu sənətkar özünün bütün mənalı həyatını klassik Azərbaycan musiqisinin inkişafına həsr etmişdir. Ömrünün 60 ilini xalqdan öyrəndiyi və topladığı 500-dən artıq mahnını işləyib Azərbaycanın xanəndəlik sənətini yaratmağa həsr etmiş müğənni Zaqafqaziyada ən yaxşı xalq ifaçısı şöhrətini qazanmışdır. Cabbar Qaryağdıoğlu 1861-ci ildə Şuşada "Seyidli" məhəlləsində anadan olmuşdur. Cabbar Qaryağdıoğlunu Azərbaycan xalq musiqisinin canlı tarixi, ensiklopediyası adlandırırdılar. Onun oxuduğu muğam və xalq mahnıları indi də Azərbaycanın musiqi xəzinəsinin ən qiymətli inciləridir. Şərqin vokal sənəti tarixində, geniş xalq kütlələri arasında Cabbar Qaryağdıoğlu ilə müqayisə edilə biləcək ikinci bir müğənni yoxdur. Onun adı dünya vokal sənətinin bir sıra görkəmli sənətkarlarının adları ilə yanaşı çəkilir. Cabbar Qaryağdıoğlunun səsi güclü dramatik-tenor tipli səs idi. O, bu güclü və əzəmətli səsi ilə son dərəcə lirik-minor ruhlu muğam sayılan "Segah"ı olduqca həzin və yumşaq, eyni zamanda, yanıqlı səsləndirməklə adamda elə təsəvvür yaradırdı ki, muğamı dramatik tenor yox, lirik tenor oxuyur. Azərbaycanda ilk Şərq konserti 1901-ci ilin yayında Ə.Haqverdiyevin rəhbərliyi altında Şuşada "Xandəmirovun teatr salonu"nda təşkil edilmişdir. Konsertdə Cabbar Qaryağdıoğlu böyük ifaçılıq qabiliyyəti göstərərək, Azərbaycan şairləri ─ Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani və Xurşidbanu Natəvanın qəzəllərini doğma ana dilində ilham və məhəbbətlə oxumaqla, xanəndəlik sənətində yeni bir mərhələ açmış, muğamatın geniş xalq kütlələri içərisində yayılmasına böyük köməklik göstərmişdir. Şuşadakı ilk Şərq konsertindən sonra Azərbaycanın digər şəhərlərində, xüsusilə də Bakıda XX əsrin ilk illərindən başlayaraq Şərq konsertləri verilirdi. Azərbaycanda opera sənətinin meydana gəlməsində də onun rolu böyükdür. Opera səhnəmizin ilk aktyoru məhz Qaryağdıoğlu olmuşdur. Seyid Şuşinski, Bülbül, Davud Səfiyarov, Zülfü Adıgözəlov, Xan Şuşinski, Cahan Talışinskaya, Yavər Kələntərli, Mütəllim Mütəllimov kimi görkəmli muğam ustaları məhz Cabbar Qaryağdıoğlunun tələbələri olmuşlar. Cabbar Qaryağdıoğlunun böyük sənəti və zəngin səsi dünyanın bir çox bəstəkarlarının, musiqişünas və mədəniyyət xadimlərinin diqqət mərkəzində olmuşdur. Onun sənətinin sirləri gənc xanəndələrə öyrədilir. Onun "Şahnaz"ı, "Qatar"ı, "Heyratı"sı musiqi xəzinəmizin ən qiymətli inciləridir.

**Adları və mükafatları:** "Azərbaycan SSR xalq artisti" fəxri adı — 1935**,** "Şərəf Nişanı" ordeni.

**Filmoqrafiya:** Neft və milyonlar səltənətində (film, 1916) - Xanəndə (Tammetrajlı Bədii Film), Məhəmməd Füzuli (film, 1958)**,** Məclisi üns (film, 2006)**,** Muğamat var olan yerdə... (film, 2009)

İnternetdə: https://az.wikipedia.org/wiki/Cabbar_Qaryağdıoğlu

**Aprel**

**Əlamətdar və tarixi günlər**

1 Aprel – Ümumdünya Gülüş Günü, (1564)
1 Aprel – Beynəlxalq Quşlar Günü, (1894)
2 Aprel – Beynəlxalq Uşaq Kitabı Günü, (1967)
4 Aprel – Ümumdünya İnternet Günü, (1998)
5 Aprel – Qar Qızın Ad Günü, (2009)
6 Aprel – Beynəlxalq Cizgi Filmləri Günü, (2002)
6 Aprel – İlk Olimpiya Oyunlarının Keçirildiyi Gün, (1896)
7 Aprel – Ümumdünya Sağlamlıq Günü, (1950)
7 Aprel - "Molla Nəsrəddin" jurnalının nəşrinin 115 illiyi, (1906)
12 Aprel – Ümumdünya  Aviasiya və Kosmanavtika Günü, (1962)
13 Aprel – Ümumdünya Rok-N-Roll Günü, (1954)
15 Aprel – Beynəlxalq  Mədəniyyət Günü, (1935)
17 Aprel – Ümumdünya Hemofiliya Günü, (1964)
18 Aprel – Tarixi Abidələrin Mühafizəsi Günü, (1983)
21 Aprel – Beynəlxalq Sirk Günü
22 Aprel – Ümumdünya Yer Kürəsi  Günü, (1970)
23 Aprel – Ümumdünya Kitab və Müəllif  Hüquqları Günü, (1995)
23 Aprel – Ümumdünya İngilis Dili Günü, (2010)
24 Aprel – Gənclərin Beynəlxalq Həmrəylik Günü, (1957)
28 Aprel – Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü, (1997)
29 Aprel – Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü, (1962)
29 Aprel – Beynəlxalq Rəqs Günü, (1982)
30 Aprel – Beynəlxalq Caz Günü, (2011)

**Yubilyar yazıçı və şairlər**

Şair, tərcüməçi Ənvər Əlibəylinin anadan olmasının 105 illiyi, (01.04.1916-1968)
Yazıçı Zöhrə Əsgərovanın anadan olmasının 70 illiyi, (02. 04. 1951)
Yazıçı Yaşar Rzayevin anadan olmasının 80 illiyi, (07.04.1941)
Yazıçı, tənqidçi, ədəbiyyatşünas Allahverdi Eminovun 80 illiyi, (10.04.1941)
Yazıçı Sultanməcid Qənizadənin anadan olmasının 155 illiyi, (24.04.1866-1942)

**İncəsənət**

Teatr tənqidçisi, teatrşünüs, yazıçı İnqilab Kərimovun 90 illiyi, (04.04.1931)
Bəstəkar Qəmbər Hüseynlinin anadan olmasının 105 illiyi, (16.04.1916-1961)
İlk azərbaycanlı qadın musiqişünas Xurşud Ağayevanın 115 illiyi, (20.04. 1906-1953)
Pianoçu, xalq artisti Tamilla Mahmudovanın anadan olmasının 90 illiyi, (21.04.1931)
Xalq rəssamı Hüseyn Əliyevin anadan olmasının 110 illiyi, (21.04.1911-1991)
Bəstəkar Ədilə Hüseynzadənin anadan olmasının 105 illiyi (29.04.1916-2005)

**Milli qəhrəmanlıq zirvəsi**
Hacıyev Etibar Firudin oğlunun 50 illiyi, (05.04.1971-15.06.1992)
Edilov Yelmar Şahmar oğlunun75 illiyi, (10.04.1946-11.04.1994)

**Aprel**
**Əlamətdar tarixi günlər və bayramlar**

**1 Aprel – Ümumdünya Gülüş Günü, (1564)**




Hər il aprel ayının 1-də Avropada və bir çox Asiya ölkələrində Gülüş Günü keçirilir. Bu gün rəsmi bayram kimi heç bir ölkənin təqviminə daxil edilməsə də, dünyanın bir çox dövlətlərində qeyd olunur. Həmin günü Böyük Britaniyada "Səfehlər günü", Fransada isə "Aprel balığı günü" adlandırırlar. Gəlin əvvəla bu günün tarixçəsinə bir nəzər salaq. Bəzi mənbələrə görə 1 aprel zarafatının yaranması belə olub: Təqribən 5 əsrlik tarixi olan Gülüş Günü ilk dəfə Fransada təşəkkül tapıb. 1564-cü ildə Fransa Kralı IX Çarles, il başlanğıcının yanvar ayının birinci günü olması barədə qərar verib. Amma bundan əvvəl də Fransada yeni ili 1 apreldə qeyd ediblər. O zamankı rabitə şərtlərində IX Çarlesin bu qərarı ölkədə çox da yayılmayıb. Məsələdən xəbərdar olanlar isə protest məqsədilə köhnə adətlərinə davam edərək, 1 apreldə şənliklər keçiriblər. Digərləri onları "aprel axmaqları" adlandırıblar. 1 aprelə isə "bütün axmaqların günü" adını veriblər. Uzun illər sonra yanvarın ilk ay olmasına öyrəşiblər və 1 aprel gününü mədəniyyətlərinin bir parçası sayaraq Gülüş Günü kimi qeyd ediblər. İndi bütün dünyada 1 Aprel Ümumdünya Gülüş Günü kimi qeyd olunur. Başqa rəvayətə görə, qədim Romada 17 fevralı "Avamlar bayramı kimi" keçirirmişlər. Şərqi Hindistanda isə bu bayram martın 31-nə təsadüf edib. Rəvayətə görə, belə qeyri-adi ənənəyə təbiətin özü səbəb olub. Havanın yaz şıltaqlıqlarını əhali gülüş və zarafatlarla qarşılamaq məqsədilə bu günü özlərinə xoş ovqat yaratmaq üçün seçib. Azərbaycanda isə bu gün daha çox insanların bir-birlərini aldatması ilə müşayiət olunur. Hətta həmin gün televiziya kanallarında gedən bəzi xəbərlər, dövri nəşrlərdə dərc olunan informasiyalar da yanlış olur. Özü də bundan heç kəs incimir. Amma hamı çalışır ki, aprelin 1-i aldanmasın.
İnternetdə: www.books.google.com

## 1 Aprel – Beynəlxalq Quşlar Günü, (1894)




Hər il bütün planet Beynəlxalq Quşlar Gününü (International Bird Day) – beynəlxalq ekoloji bayram kimi qeyd edir. Bu bayram 1894-cü ildə ABŞ-da meydana gəlmişdir. Kütləvi informasiya vasitələrinin sayəsində populyarlıq qazanan bayram tezliklə bütün ştatlarda qeyd edilməyə başlanıb, sonradan Avropaya keçib. İndi isə YUNESKO-nun “İnsan və biosfer” bioloji proqramı çərçivəsində dünyanın bir çox ölkələrində qeyd olunur.

Hər ilin bu günü təbiətsevərlər quşlar üçün yuvalar düzəldir, suda yaşayan quşların məskunlaşdığı yerləri yaxşılaşdırır və s. tədbirlər görürlər. Quşlarla bağlı daha bir məşhur bayram may ayının ikinci bazar günü keçirilən Ümumdünya Miqrasiya Edən Quşlar Günüdür.

İnternetdə: www.books.google.com

## 2 Aprel – Beynəlxalq Uşaq Kitabı Günü, (1967)



Uşaqların tərbiyəsində kitablar xüsusi yer tutur. Kitab onları zəngin mənəvi zövqə malik bir insan kimi tərbiyə edir, öz xalqının zəngin tarixi keçmişinə dərindən bələd olmasına imkan yaradır. Uşaq Kitabı Gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi vardır. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olmuşdur. Beynəlxalq Uşaq Kitabı Gününün bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif etmişdir. 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən isə Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir. Nağılları 100-dən çox dilə tərcümə edilmişdir. Y.Lepman 1953-cü ildə uşaq ədəbiyyatı üzrə "balaca nobel mükafatı" –H.X.Andersen mükafatının təsis edilməsini də təklif edib. Həmin ildən bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə, dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsm çəkən 17 illüstrasiyaçı-rəssama təqdim olunub. İlk dəfə bu, 1956-cı ildə ingilis nağılçısı E.Fardkona, 1958-ci ildə isə İsveç yazıçısı A.Lindqrene verilib. Sonra E.Keçtner, C.Kryuss, italyan C.Rodari də bu mükafata layiq görülüb. Başqa bir mükafat isə son illər nəşr olunan uşaq kitablarının illüstrasiyası və onların dünyanın müxtəlif dillərdə tərcüməsinə görə təqdim edilən Fəxri Diplomdur. Ümumiyyətlə, uşaq kitablarının tarixi 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsi ilə başlayır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Y.A.Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədilə rəsmlərin yer aldığı kitab nəşr etdirmişdir. D.Defo və C.Sviftin – böyüklər üçün yazılmış – "Robinzon Kruzo" və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olunmuşdur. 1846-cı ildən başlayaraq H.X.Andersenin qələmə aldığı nağılları uşaqlar bu gün də çox sevirlər. Son illər "Dünya uşaq ədəbiyyatı kitabxanasının 50 cildliyi", "Macəra və fantastika kitabxanasının 25 cildliyi" və "Kiçik yaşlı uşaqlar üçün" seriyasından çoxlu kitablar çap edilmişdir. Azərbaycanda uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2012-ci ildən Beynəlxalq Uşaq Kitabı Şurasının üzvüdür. Hazırda Beynəlxalq Uşaq Kitabı Günü ölkəmizdə də özünəməxsus şəkildə qeyd olunur. F.Köçərli adına Respublika Uşaq Kitabxanası hər il Milli Uşaq Kitabı Sərgisi təşkil etməklə, Azərbaycanda çap olunan uşaq ədəbiyyatı nümunələri ilə oxucuları tanış edir, kitabın və kitabxananın imicinin yüksəlməsinə zəmin yaradır. Bu tarix cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etmək üçün təsis olunmuşdur.

İnternetdə: http://www.clb.az

## 4 Aprel – Ümumdünya İnternet Günü, (1998)




Bu bayramın dərin, bir qədər mübahisəli tarixçəsi var. Belə ki, 4 aprel şagirdlərin, tələbələrin himayəçisi olan və tarixdə ilk "Etymologiae" ensiklopediyasının yaradıcısı Sevilyalı müqəddəs İsidorun ölüm günüdür. Məlumat üçün qeyd edək ki, katolik kilsəsi 1998-ci ildə ümumdünya internet şəbəkəsini insan bilikləri xəzinəsi adlandırıb. Uzun müddət namizədlər arasında seçim edən Vatikan 2000-ci ildə belə qərara gəlib ki, internetin ən yaxşı himayəçisi müqəddəs İsidor ola bilər. Öz qərarını şərh edən II İoann Pavel bildirib ki, insan biliklərinin xəzinəsi internetdir, buna görə də o, bu missiyanı müqəddəs İsidora həvalə edib. Qeyd edək ki, internet himayəçisi ilk dəfə olaraq çarpaz istinad sistemindən istifadə edib. Bu sistem qlobal şəbəkədə istifadə edilən hiper istinadları xatırladır.

İnternetdə: www.books.google.com

## 5 Aprel – Qar Qızın Ad Günü, (2009)



Qar qız – Yeni il və nağıl qəhrəmanı, Şaxta babanın nəvəsi, onun daimi yol yoldaşı və köməkçisidir. Bayramlarda uşaqlar və Şaxta baba arasında vasitəçi kimi çıxış edir. Qar qızın yaşı balaca qızcığaz və gənc qız arasında dəyişilir. Ən çox isə gənc qız obrazında təsvir edilir, çünki həm ədəbi obraz kimi, həm də Şaxta babanın müşayiətçisi kimi daha uyğun gəlir. Şaxta babanın və Qar qızın ilk birgə rəsmi çıxışı 1937-ci ildə Moskva İttifaqlar Evində olmuşdur.

Qar qız rus folklorunda qardan düzəldilmiş və canlanmış qız haqqında xalq nağılının personajıdır. Bu süjet 1869-cu ildə A.Afanasyev tərəfindən işlənmiş və “Slavyanların təbiətlə bağlı poetik görüşləri” adlı kitabının ikinci cildində dərc olunmuşdur.

1873-cü ildə A.N.Ostrovski A.Afanasyevin nağıllarının təsiri ilə “Qar qız” pyesini yazır. Burada Qar qız Şaxta baba və Günəş tanrısı Yarilanın şərəfinə yay ritualı zamanı həlak olan Qırmızı Baharın qızı kimi təqdim olunur. O, gözəl, solğun bənizli, açıq rəngli saçlara malik olub, xəzlə haşiyələnmiş ağ-mavi kürk, papaq və əlcəklər geyinib. Əsər ilk əvvəl uğur qazanmasa da, 1882-ci ildə N.A.Rimski-Korsakov pyes əsasında eyniadlı operanı tamaşaya qoyduqdan sonra böyük şöhrət qazanmışdır.

1968-ci ildə “Qar qız” filminin çəkilişləri zamanı Mera çayının kənarında ağac dekorasiyalarından bütöv kənd yaradılıb. Məhz burada A.N.Ostrovski öz əsərini yazmışdır. Çəkilişlər başa çatdıqdan sonra ağac dekorasiyalar Kostromaya köçürülüb, burada “Berendeyevka” parkı salınıb. 2008-ci ildə Kostromada Qar qızın köşkü tikilmişdir və orada Qar qız ilboyu qonaqlarını qəbul edir. 2009-cu il aprelin 4-də ilk dəfə rəsmi şəkildə Qar qızın ad Günü qeyd olunmuşdur. Həmin vaxtdan Qar qızın ad Günü Kostromada hər il keçirilir.

İnternetdə: www.books.google.com

## 6 Aprel – Beynəlxalq Cizgi Filmləri Günü, (2002)



Dünya Cizgi Filmi günü 2002-ci ildə Beynəlxalq Animasiya Filmləri Dərnəyi tərəfindən təsis edildi. 1906-cı ilin aprelin 6-da Con Stuart Blekton və Albert Smit Amerikanın kinoteatr birliyi ilə Vitage təsisçiləri ilk cizgi filmləri "Gülməli üzlərin gülməli mərhələləri" adlı film çəkmişdir. Bunlar animasiya tarixində ilk cizgi filmləri idi.

Dünya Cizgi Film Gününü qeyd etmək fikri yalnız 2002-ci ildə yaranmışdır və həmin gündən dünyanın bir çox ölkələrində qeyd olunur. Beynəlxalq Cizgi Filmləri Günü öncəsi dünyanın hər yerindən animasiya kinosu peşəkarları və həvəskarları öz filmlərinin proqramlarını bir-birləri ilə bölüşür və bu hadisəni bütün il gözləyən tamaşaçılar üçün əsərlərinin ilk nümayişini göstərirlər. Cizgi filmlərinin belə seansları artıq dünyanın 104 ölkəsində keçirilir.

İnternetdə: www.books.google.com

## 6 Aprel – İlk Olimpiya Oyunlarının Keçirildiyi Gün, (1896)



Qədim Yunanıstanda mövcud olmuş Olimpiya Oyunlarının bərpa olunması təşəbbüsünü XIX əsrin sonlarında fransız ictimai xadimi baron Pyer de Kuberten təklif etmişdir. Onun dövründə Yay Olimpiya Oyunları kimi tanınan bu beynəlxalq tədbir 1896-cı ildən etibarən hər 4 ildən bir keçirilir. (Bura dünya müharibələrinin baş verdiyi illər daxil deyil.) 1924-cü ildə Qış Olimpiya Oyunları təsis edildi. Əvvəllər yay və qış oyunları eyni ildə keçirilirdi, lakin 1994-cü ildə Qış Olimpiya Oyunlarının keçirilməsi yay oyunlarına nəzərən iki il irəli çəkildi. Olimpiya Oyunları dedikdə yalnız idman yarışlarını, idman həyatının insanlara bəxş etdiyi dəyərləri dar mənada yox, geniş, fəlsəfi anlayış kimi qəbul etmək lazımdır. Olimpiya Oyunlarının böyüklüyü idmançıların təkcə yarışlarda göstərdikləri idman nəticələri deyil, bu oyunlarda idmançı mənəviyyatı, onun kamil bir insan kimi formalaşması prosesinin reallaşdırılması, onun müqəddəs ideyalara xidmət etməsindən irəli gəlir. Olimpiya hərəkatı sülh və əmin-amanlıqla daim yanaşı durmuşdur. Qədim Yunanıstanda Olimpiya Oyunlarının yaranmasından söz gedərkən oyunların əsası, bir növ, dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslanırdı. Orada stadion, teatr və məbəd müqəddəs yer sayılmışdır. Burada iki şəhərdə – Olimpiya və Delfidə hər 4 ildən bir xoş məramlı oyunlar keçirilirdi. Bu şəhərlərdə keçirilən oyunlardan əlavə, şeir, mahnı, ədəbiyyat və incəsənət üzrə istedadlı şəxslər bilik, bacarıq və qabiliyyətlərini nümayiş etdirirdilər. Olimpiya oyunlarında fiziki bacarıq mənəviyyatla, incəsənətlə vəhdət təşkil edirdi. Olimpiya antik dövrdən başlayaraq uzun, enişli-yoxuşlu yol keçmiş, zəmanəmizə gəlib çatmış və bu yolda müxtəlif maneələrlə rastlaşsa da, öz əzəli mahiyyətini qoruyub saxlamışdır. Olimpiya Oyunları ümumbəşəri nüfuz sahibi olmaqla, dünya xalqlarının dərin məhəbbətini də qazanmışdır. Müasir Olimpiya oyunlarını bərpa edərkən baron Pyer de Kuberten olimpiya ideyalarını dərisinin rəngindən, sosial, siyasi, dini əqidəsindən və idmana dəxli olmayan digər amillərdən asılı olmayaraq, bütün qitələrin atletləri arasında vicdanlı idman mübarizəsinin simvolu kimi qəbul etmişdir.

İnternetdə: www.books.google.com

**7 Aprel – Ümumdünya Sağlamlıq Günü, (1950 )**

***“Sağlam bədəndə sağlam ruh olar”.***




1948-ci ildə I Ümumdünya Səhiyyə Assambleyası Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaranmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq Gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etmişdir. 1950-ci ildən başlayaraq Ümumdünya Sağlamlıq Günü hər il 7 aprel tarixində qeyd edilir.

Hər il Ümumdünya Sağlamlıq Gününün mövzusu ÜST üçün prioritet sayılan bir problemi diqqət mərkəzinə gətirir. Ümumdünya Sağlamlıq Günü diqqəti səhiyyə sahəsində beynəlxalq ictimaiyyətə təsir göstərən başlıca problemlərə yönəltmək üçün dünya səviyyəsində bir imkandır. Sağlamlıq ÜST-ün Nizamnaməsində yalnız xəstəliklərin, yaxud fiziki qüsurların olmamağı ilə deyil, tam fiziki, psixi və sosial sağlamlıq vəziyyəti kimi müəyyən edilir. ÜST özünün Ümumdünya Səhiyyə Assambleyası vasitəsi ilə 193 üzv dövlət tərəfindən idarə olunur.

Sağlam yaşlanmaq beynəlxalq ictimai səhiyyə proqramının gündəliyində prioritet məsələyə çevrilir. Bu həyatın ilkin mərhələlərindəki sağlamlıqla əlaqədardır və sağlam yaşlanma bir çox amillərdən asılıdır. Fərdin bioloji sisteminin funksional imkanları ömrün ilk illərində formalaşır, ilkin yetkinlik dövründə ən yüksək səviyyəyə çatır və bundan sonra təbii olaraq zəifləməyə başlayır. Yaşlanma harada yaşamasından, cavan və ya qoca, kişi və ya qadın, zəngin və ya kasıblığından asılı olmayaraq, hər bir insanı düşündürür. İqtisadiyyatın qloballaşdığı, texnologiyanın sürətlə inkişaf etdiyi, urbanizasiyanın artdığı, ailə modellərinin dəyişdiyi XXI əsrdə ən böyük sosial dəyişikliklərdən biri də əhalinin yaşlanması məsələsidir. Tezliklə dünyada həm yaşlı insanların ümumi sayı bütün həyatı boyu davranışları və məruz qaldığı təsirlərlə müəyyən edilir. Buraya onun qidalanması, fiziki aktivlik səviyyəsi və sağlamlıqla bağlı risklərə məruz qalması (məsələn, siqaret çəkmək, spirtli içkilərdən sui-istifadə və ya zəhərli maddələrin təsirinə məruz qalmaq) halları da daxildir.

İnternetdə: www.books.google.com

**12 Aprel – Beynəlxalq Aviasiya və Kosmonavtika Günü, (1962)**



12 aprel 1962-ci il Beynəlxalq Kosmonavtika günü elan olunub. Bu bayram əvvəllər ancaq Rusiyada keçirilirdi. Amma artıq belə deyil. Belə ki, BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında yekdilliklə qəbul edilən qətnaməyə əsasən 12 Aprel Beynəxalq Kosmosa Uçuş Günü (Space Probe Day) kimi bütün dünyada qeyd olunur. 1961-ci il aprelin 12-də SSRİ vətəndaşı Yuri Qaqarin "Vostok" kosmik gəmisində Yer kürəsinin ətrafında orbital uçuş həyata keçirərək, kosmik uçuş dövrünün əsasını qoydu. Cəmi 108 dəqiqə davam edən bu uçuş kosmosun tədqiqinin və mənimsənilməsinin başlanğıcı oldu. Başlanğıcda kosmosun tədqiq edilməsi, ABŞ və SSRİ arasında strateji yarış şəklini alsa da, sonralar bu əməkdaşlığa çevrildi. SSRİ dağıldıqdan sonra bunu Rusiya davam etdirir. Ancaq ABŞ kosmonavtlarının Aya uçmasını çıxmaqla, bütün digər ilk addımlar SSRİ tərəfindən atılıb. Bu günə qədər kosmosa təqribən 517 insan uçub, onlardan 55-i qadındır. Təəssüf ki, indiyədək 22 kosmonavt müxtəlif şəraitdə həyatını itirib. Vətəndaşları kosmosa uçuş keçirən ölkələr SSRİ, Rusiya, ABŞ, Çexoslovakiya, Polşa, Almaniya Demokratik Respublikası, Bolqarıstan, Macarıstan, Vyetnam, Kuba, Monqolustan, Rumıniya, Fransa, Almaniya Federativ Respublikası, Hindistan, Kanada, Səudiyyə Ərəbistanı, Niderland, Meksika, Suriya, Əfqanıstan, Yaponiya, Böyük Britaniya, Avstriya, Qazaxıstan, Belçika, İtaliya, İsveçrə, Ukrayna, İspaniya, Slovakiya, Cənubi Afrika Respublikası, İzrail, Çin, Braziliya, İsveç, Malayziya və Koreya Respublikasıdır.

İnternetdə: www.az.wikipedia.orq

**13 Aprel – Ümumdünya Rok-N-Roll Günü, (1954)**




Əslində bayramın qeyd olunmasına səbəb olan tarixi hadisə aprelin 12-də baş vermişdir. Belə ki, 1954-cü il aprelin 12-də Bill Xeyli adlı musiqiçi bu sahədə yeni istiqamətin başlanğıcını qoyan "Rock Around The Clock" sinqlini yazmışdır. Bu musiqi cəmiyyətə və ənənlərə meydan oxuyaraq ABŞ-ın sərhədlərini aşmış və bütün ölkələrə və qitələrə yayılmışdır. Musiqidə bu istiqamətin yaradıcılarından biri də əfsanəvi Elvis Presli olmuşdur. Onun geyim üslubu, hərəkətləri və davranışları onu yeniyetmə və gənclərin kumirinə çevirmişdir. 1960-cı illərin əvvəllərində rok-n-rollun yeni üslubu – pop-rok meydana gəlmişdir. Onun əsas nümyəndələri "Bitlz" qrpunun üzvləri, Liverpullu dördlük olmuşdur. Ötən illərin geniş yayılan rok musiqisi daha çox texniki, sürətli, güclü səslə müşayiət olunur.

İnternetdə: www.books.google.com

**15 Aprel – Ümumdünya Mədəniyyət Günü, (1935)**




Mədəniyyət dünyasının bütün sferalarının əhəmiyyətini bir daha qeyd etmək üçün xüsusi bayram – Beynəlxalq Mədəniyyət Günü (International Day of Culture) təsis edilmişdir. Hər il dünyanın bir çox ölkələrində 15 Aprel Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur. Bu bayram 1935-ci il aprelin 15-də beynəlxalq hüquq təcrübəsində Rerix Paktı kimi tanınan, "İncəsənət və elm müəssisələrinin və tarixi abidələrin qorunması haqqında" beynəlxalq müqavilənin qəbul olunmasının şərəfinə təsis edilmişdir. Bu Paktın imzalandığı günün Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunması təşəbbüsü ilə 1998-ci ildə Rerix Beynəlxalq Mərkəzi tərəfindən təsis olunan Beynəlxalq Mədəniyyətin Qorunması Liqası çıxış etmişdir. Bu ictimai təşkilatın fəaliyyəti mədəniyyət, incəsənət, elm və dinin nailiyyətlərinin qorunması və artırılmasına yönəlmişdir. 2008-ci ildə Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilalarının təşəbbüsü ilə 15 aprelin Ümumdünya Mədəniyyət Günü kimi təsdiq edilməsi üçün Beynəlxalq hərəkat yaradılmışdır. Hal-hazırda bu bayram dünyanın müxtəlif ölkələrində qeyd olunur.

İnternetdə: www.books.google.com

**17 Aprel – Ümumdünya Hemofiliya Günü, (1964)**




Dünyanın 102 ölkəsində aprelin 17 - si Ümumdünya Hemofiliya Günü kimi qeyd olunur. Təbabətdə bu xəstəliyə kral xəstəliyi deyirlər. Belə ki, Fransada kral Lüdoviklər nəslində əsasən oğlan uşaqları bu xəstəlikdən əziyyət çəkirmişlər. Bu gün isə qan çatışmazlığı dünyada bir problem kimi yaşanan hemofiliya xəstəliyinin yaranmasına səbəb olmuşdur. İrsi qan xəstəliyi olan hemofiliya dünyanın bir çox ölkələrində əsasən Asiya və Afrika qitəsində, Aralıq dənizi hövzəsində daha çox yayılmışdır. Xəstəliyin əsas səbəbləri kimi mütəxəssislər yaxın qohumların nigahı, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsirini göstərirlər. İndi dünyada 400 min hemofiliyalı xəstə var. Azərbaycanda Səhiyyə Nazirliyinin qeydiyyatında minə qədər talassemiyalı və hemofiliyalı irsi qan xəstəsi var. Əhalinin hər 12 nəfərindən biri talassemiyanın əlamətlərini özündə daşıyır. Hər il talassemiya xəstəsi olan təqribən 200 uşaq dünyaya gəlir, bu, kiçik bir ölkə üçün böyük göstəricidir. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən "Hemofiliya və talassemiyalı irsi qan xəstəliyinə düçar olmuş şəxslərə dövlət qayğısı" haqqında fərman imzalanmışdır. Bununla əlaqədar 2006-cı ilin yanvarında Nazirlər Kabineti Səhiyyə Nazirliyinin hazırladığı "Hemofiliyalı və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. Məqsəd ictimaiyyətin diqqətini hemofiliyalı xəstələrin problemlərinə cəlb etmək və onların həyat tərzlərinin yaxşılaşdırılmasına və ömürlərinin uzadılmasına dəstək olmaqdır. Proqramda hemofiliya və talassemiyanın fəsadlarından əmələ gələn əlilliyin və ölüm hallarının azaldılması, bu fəsadların profilaktikasının təşkili və belə xəstə uşaqların doğulmasının qarşısının alınması sisteminin yaradılması əsas yer almışdır. Nəzərdə tutulan digər tədbirlər hemofiliya və talassemiyalı xəstələrə göstərilən tibbi xidmət strukturunun təkmilləşdirilməsi, bu xəstəliyə düçar olan şəxslərin qeydiyyatının aparılması, xəstələrin müalicəsi və profilaktikası üzrə tibb mütəxəssislərinin hazırlanması, onların ixtisaslarının artırılmasıdır. Dövlət proqramı çərçivəsində xəstələrin dərman preparatları ilə pulsuz təmin olunması nəzərdə tutulmuşdur. Heydər Əliyev Fondu, fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın talassemiyalı uşaqlara diqqət və qayğısı isə həmin insanlar üçün böyük mənəvi dəstəyə çevrilmişdir. Fond 2005-ci ildən "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində bir sıra mühüm işlər görüb və görməkdədir. Fond tərəfindən talassemiyalı xəstələr üçün paytaxtda beş mərtəbəli Talassemiya Mərkəzi istifadəyə verilmişdir.

İnternetdə: www.books.google.com

## 18 Aprel – Tarixi Abidələrin Mühafizəsi Günü, (1983)



***"Biz öz milli mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr etməliyik. Əgər hansısa dağ kəndində tarixi abidə varsa, ona sadəcə qədim tikili kimi yox, milli sərvət kimi yanaşmalıyıq".***

**Ümummilli lider Heydər Əliyev**

Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir. Tarixi abidələr – məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər. Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz – Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdi. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki Xan sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla, İçərişəhər Dövlət Tarixi-Memarlıq Kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

İnternetdə: www.books.google.com

## 21 Aprel – Beynəlxalq Sirk Günü




Sirk (lat. Circus – "çevrə" deməkdir) – bir qrup artist və ya müəssisə tərəfindən akrobatika, kloun, sehrbazlıq, heyvan oyunları kimi müxtəlif səhnələrlə həyata keçirilən sənət növüdür. Sirk peşəsi heyvanlarla işləməklə bərabər müxtəlif akrobatika və gimnastika kimi sahələri də özündə cəmləşdirir. Buraya, həmçinin tamaşaçılar üçün maraqlı olan havada kəndir üzərində yerimək, velosiped sürmək, janqlyorluq etmək və yerdə idman növləri yerinə yetirilir. Kloun daha mürəkkəb sirk janrıdır. O, bir neçə ixtisasa yiyələnmiş olur və başqa "nömrələrdə" onun çıxışı böyük maraq doğurur. Klounun mənası gülməli çıxış deməkdir. Sirkin yaranmasının qədim tarixi vardır. Onun kökü antik Romadan başlayır. Keçən zaman ərəfəsində sirk sənəti də inkişaf etmiş və istər xarici görünüşündə (çevik karvan və teatr səhnələri), istərsə də atraksiyonların aparılmasında (at teatrı, pantomima) müəyyən dəyişikliklərə məruz qalmışdır. Sirk sənəti adətən ailə sülaləsi şəklində mövcud olmuşdur. Klassik sirkin atası ingilis Filip Astli (1742–1814) sayılır. İllər keçdikcə sirkin inkişafına müxtəllif xalqların təsiri nəticəsində bu və ya digər sahədə öz üstünlüyünə malik milli sirklər yaranmağa başlamışdır. Avropada hələ də közəri halda fəaliyyət gösətərən sirklər mövcud olsa da bir çox Şərq ölkələrində sirk teatrları tikilmiş və burada mütəmadi olaraq öz proqramları ilə çıxış edirlər. Köçəri sirk ustaları avtomobil karvanlarında şəhər-şəhər gəzərək öz sənətləri ilə tamaşaçıları heyran edirlər. Azərbaycanda milli sirk sənətinin tarixi çox qədimdir. Hələ qədim zamanlardan "Kovkan", "Zorxana" kimi milli xalq oyunlarında, cıdır yarışlarında, kəndirbazların və pəhləvanların çıxışlarında bugünkü peşəkar sirkin güc jonqlyorluğu, kəndirbazlıq, akrobatika, cigitlər və digər janrlarının elementləri mövcud olmuşdur. İlk peşəkar sirk – heyvanxana isə Azərbaycanda XIX əsrin 90-cı illərində məşhur Nikitin qardaşları tərəfindən tikilmişdir. Taxtadan tikilmiş həmin sirk binası az sonra yanır. 1905-ci ildə yeni şəhərin başqa ərazisində sirk binası tikilərək istifadəyə verilmişdir. 1945-ci ildə ilk dəfə olaraq Azərbaycanın milli sirk truppası yaradılmışdır. Truppa yalnız sirk nömrələrindən ibarət olmayıb, tərkibinə estrada və balet artistlərinin çıxışları salınmışdı. 1967-ci ildə Bakı Dövlət Sirkinin memarı E.İsmayılov və F.Leontyev olan hazırkı binası istifadəyə verilmişdir. Həmin dövr üçün texniki imkanlarına görə çox müasir sayılan bina memarlıq baxımından bu gün də əksər dünya sirkləri ilə rəqabət aparmağa qadirdir.

İnternetdə: www.books.google.com

**22 Aprel – Ümumdünya Yer Kürəsi Günü, (1970)**

***Təbiət bir ahəngdir, ritmlə döyünən həssas bir ürəkdir.***



Ümumdünya Yer Kürəsi Gününün və ya “Ağac Günü”nün tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. ABŞ-da senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramda məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olunub. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırıb. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətə istiqamətlənib. Məhz XX əsrin 70-ci illərindən etibarən şirkətlər ətraf aləmin mühafizəsinə nə qədər vəsait ayırmaları barədə rəsmi məlumat verməyə başlayıblar.

Son illər Ümumdünya Yer Kürəsi Günü ilə bağlı müxtəlif layihələr və tədbirlər həyata keçirilir. 2003-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan rayonlarını əhatə edən Ağ göl Milli Parkı yaradılmışdır.

İnternetdə: www.books.google.com

**23 Aprel – Ümumdünya Kitab və Müəllif Hüquqları Günü, (1995)**



1995-ci ilin bu günündə Parisdə YUNESKO-nun Baş konfransı keçirilib. Konfransda nümayəndələr həmin gün kitab və müəlliflərə ehtiram göstərilməsini qərara alaraq, hər kəsi, əsasən də gənc nəsli mütaliədən həzz almağa, eləcə də bəşəriyyətin ictimai və mədəni inkişafında böyük rolu olmuş insanların zəhmətinə hörmət bəsləməyə çağırıblar. Elə həmin konfransda Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü, həmçinin uşaq və yeniyetmə ədəbiyyatında dözümlülük ideallarının təbliğinə görə YUNESKO mükafatı təsis edilib. YUNESKO bu günü dünya şöhrətli dramaturqlar Uilyam Şekspirin, Migel de Servantesin və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanin şərəfinə müəyyənləşdirib. Bu gün 1616-cı ildə M.Servantes, V.Şekspir və İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Bugünkü tarixdə həmçinin Moris Drüon, X.Laksness, C.Pla və Manuel Mexia Valyexo kimi məşhur müəlliflərin anadan olma və ya həyatdan getmə günləridir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü Azərbaycanda 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilir. Müəlliflik hüququnun kitabla bağlı olması, başqa sözlə, "Yaradıcıdan – Kitaba, Müəllifdən – Müəlliflik Hüququna" yolu heç də təsadüfi deyil. Məşhur Volterin kəlamı ilə desək, "onlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsusdur".

Azərbaycan müasir müəllif-hüquq sisteminə malikdir. Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan tədbirlərin keçirilməsinin məqsədi kitab və müəlliflik hüququnun mədəni irsimizlə bağlı əhəmiyyətini bir daha açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, yaradıcı şəxslərə öz hörmət və ehtiramlarımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasının vacib olduğunu bir daha təsdiqləməkdir.

İnternetdə: www.books.google.com

**23 Aprel – Ümumdünya İngilis Dili Günü, (2010)**




Ümumdünya İngilis Dili Günü ilk dəfə 2010-cu ildə qeyd olunmuşdur. Belə təkliflə təşkilatın ictimaiyyətlə əlaqələr departamenti çıxış etmişdir. Bayramın məqsədi dünyada çoxdillilik ənənələrini möhkəmləndirməkdir. Birləşmiş Millətlər Təşkilatı təqvimdə altı gün – hər bir rəsmi dil üçün bir gün ayırmışdır. İngilis Dili Gününün qeyd edilməsi böyük ingilis şairi, yazıçısı, dünyanın ən məşhur dramaturqu Vilyam Şekspirin anadan olduğu günlə bağlıdır. Bu gün ingilis dili "dünya dili" hesab olunur, bu dildə dünyanın onlarla ölkəsində bir milyarddan çox insan danışır. Bu dil yalnız ingilislərin deyil, həm də ABŞ, İrlandiya, Kanada, Malta, Avstraliya, Yeni Zelandiya sakinlərinin dilidir. İngilis dili Asiya və Afrikanın bir neçə dövlətinin rəsmi dilidir.

İnternetdə: www.books.google.com

**24 Aprel – Gənclərin Beynəlxalq Həmrəylik Günü, (1957)**



Ümumdünya Demokratik Gənclər Federasiyasının qərarı ilə 1957-ci ildən hər il aprelin 24-də Beynəlxalq Gənclərin Həmrəylik Günü (International Day of Youth Solidarity) qeyd olunur. Bu günün qeyd olunması dövlət orqanlarının, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin diqqətini gənclərin problemlərinə yönəltməyə xidmət edir. Eyni zamanda bu bayrama gənclər birliklərinin, ictimai təşkilatların, geniş əhali kütlələrinin, öz uşaqlarının və nəvələrinin gələcəyinə laqeyd olmayan insanların səylərinin birləşdirilməsi, cəmiyyətin gənclərin hüquqlarına əməl edilməsinə nəzarət etməsinə, cəmiyyətin iqtisadi, sosial, elmi-texniki və mənəvi problemlərinin reallaşdırılmasında gənclərin mütəşəkkilliyinin və yaradıcı fəallığının yüksəldilməsinə, nəsillərin varisliyinə, qanunların və hüquq qaydalarının qorunmasına yardım edir.

1955-ci ildə gənclərin həmrəylik gününün hansı günə təyin olunması ilə bağlı Asiya və Afrika ölkələrinin Bandunq konfransında yekun iclas keçirilib. Beləliklə, Gənclərin Beynəlxalq Həmrəylik Günü ilk dəfə 1957-ci ildə müstəmləkəçilik əleyhinə mübarizədə, sülh şəraitində yanaşı yaşama uğrunda Gənclərin Beynəlxalq Həmrəylik Günü kimi qeyd olunub. Sözügedən tarixdə gənclər üçün konfranslar, konsertlər və bayram tədbirləri təşkil olunur. Lakin Sovet İttifaqı dağıldıqdan sonra beynəlxalq gün öz əsas sponsorunu itirdiyi üçün arabir qeyd edilir.

İnternetdə: www.books.google.com

**28 Aprel – Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü, (1997)**

1918-ci ildə Azərbaycan Xalq Cünhuriyyəti müstəqilliyini bərpa etdikdən sonra 1919-cu il martın 28-də Azərbaycanda ilk milli təhlükəsizlik orqanı yaradıldı. Lakin azadlıq çox çəkmədi və 1920-ci ildə sovet ordusu tərəfindən Azərbaycan yenidən işğal edildi. Sovet İttifaqı süquta uğrayandan sonra 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yarandı. Prezident Heydər Əliyevin 1997-ci il 23 mart tarixli fərmanı ilə 28 mart – Milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan olunub.

İnternetdə: www.books.google.com

**29 Aprel – Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü, (1962)**





Bu gün 1962-ci ildə Beynəlxalq Qardaşlaşmış Şəhərlər Federasiyası tərəfindən təsis olunub və aprel ayının axırıncı bazar günü qeyd olunur. Ümumdünya Qardaşlaşmış Şəhərlər Federasiyası beynəlxalq qeyri-hökumət təşkilatı olub, 1957-ci il aprelin 29-da Parisdə yaradılmışdır. Bu təşkilatın əsası Eks-le-Bendə (Fransa) qardaşlaşmış şəhərlərin nümayəndələri tərəfindən qoyulmuşdur. Onlar 1970-ci ildə Avropa, Asiya, Afrika və Amerikanın 50-dən çox ölkəsinin minə qədər şəhərini birləşdirdilər. Hitlerə qarşı koalisiyanın müttəfiq ölkələrinin şəhərləri arasında dostluq və əməkdaşlıq haqqında ilk saziş hələ 1942-ci ildə müharibə nəticəsində tamamilə dağılmış SSRİ-nin – Stalinqrad və İngiltərənin Koventri şəhərləri arasında imzalanmışdır. Beləliklə, hər il aprelin 29-da, aprel ayının sonuncu bazar günü dünyada, ənənəvi olaraq, Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü keçirilir.

İnternetdə: www.books.google.com

**29 Aprel – Beynəlxalq Rəqs Günü, (1982)**



29 aprel peşəkar və ya həvəskar rəqslə məşğul olan, rəqsi sevən hər kəsin bayramıdır. Beynəlxalq Rəqs Günü 1982-ci ildən bəri YUNESKO-nun qərarı ilə qeyd olunur. Bu tarix Fransız baletmeysteri Jan Jorj Noverin doğum gününə, yəni aprelin 29-na təsadüf edir. Jan Jorj Nover müasir baletin nəzəriyyəçisi hesab olunur. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da Beynəlxalq Rəqs Günü təsis olduğu tarixdən hər il qeyd olunur. Azərbaycanda rəqsin tarixi olduqca zəngin və qədimdir. İncəsənətin bir qolu olan rəqslərimiz ülvilik, gözəllik və birlik rəmzi sayılır. Hələ eramızdan 2-3 min il əvvəl Azərbaycan ərazisində rəqslər insanların həyatında müəyyən yer tutmuşdur. Bu baxımdan Qobustan qayaüstü təsvirləri arasında "Yallı" oynayan insanların təsviri xüsusilə maraq doğurur. Bu təsvirlər Azərbaycan xalqının qədim dövrdən rəqsə olan marağından xəbər verir. Bir-birindən maraqlı, məzmunlu xalq rəqslərimiz nəinki Vətəndə, dünyanın böyük konsert salonlarında da sevilir. Onların simasında Azərbaycan milli xoreoqrafiya sənəti inkişaf yolunu tapmışdır. İncəsənətin ayrılmaz hissəsi olan milli rəqslərimiz gözəlliyi, bədiiliyi və zərifliyi ilə seçilir. Folklor, qədim xalq oyunları, rəqs havaları milli incəsənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. "Tərəkəmə", "Naz eləmə", "Turacı", "Uzundərə", "Qoçəli", "Heyvagülü", "Vağzalı" xalq rəqslərinə tamaşa etmək kifayətdir ki, xalqımızın zəngin musiqiyə, köklü adət-ənənəyə bağlı olduğunu duyasan. Filmlərimizdə də rəqslərdən elementlərə rast gəlmək olar ki, bu da milli rəqs sənətinin inkişafı və təbliğində mühüm rol oynayır.

İnternetdə: www.books.google.com

**30 Aprel – Beynəlxalq Caz Günü, (2011)**




Birinci Beynəlxalq Caz Günü (International Jazz Day) ilk dəfə 2012-ci ildə keçirilib. Yeni bayramın təqvimə daxil edilməsi və onun 30 aprel tarixində qeyd olunmasını YUNESKO-nun Baş konfransı 2011-ci ilin noyabrında elan etmişdir. Bu bayramın əsas məqsədi kimi onun təsisçiləri "caz haqqında, sülh, birlik, insanlar arasında dialoq və əlaqələrin genişlənməsinə yardım edən qüvvə kimi beynəlxalq ictimaiyyətin məlumatlılıq dərəcəsinin artırılması"nı nəzərdə tutmuşdur. Dünyanın beş qitəsinin musiqiçiləri və caz həvəskarları artıq adət halını alan həmin günü əsl bayram əhvali-ruhiyyəsi ilə qeyd edirlər. Cazın vətəni kimi tanınan Yeni Orleanda isə demək olar ki, hər gün bütün caz həvəskarları müxtəlif musiqilər səsləndirir, insanlara xoş əhvali-ruhiyyə bəxş edirlər. Caz XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikada Afrika və Avropa mədəniyyətlərinin sintezi kimi meydana gəlsə də, musiqi aləmində irqi ayrı-seçkiliyin aradan qalxmasında böyük rol oynamışdır. Hal-hazırda bir çox ictimai təşkilatlar, təhsil müəssisələri və ayrı-ayrı şəxslər, o cümlədən dövlət orqanları cazın inkişafına yardım edirlər.

Azərbaycan cazı dünyada özünəməxsus yeri ilə seçilir. Bunu ölkəmizdə keçirilən Beynəlxalq Caz Festivallarına olan maraq bir daha sübut edir. Amerika cazı və muğam musiqisi üzərində qurulan Azərbaycan cazının bünövrəsi isə 30-cu illərin sonunda Niyazi və Tofiq Quliyevin yaratdığı "Dövlət Cazı" adı ilə tanınan Dövlət estrada Orkestri tərəfindən qoyulub. Azərbaycanda estrada və caz musiqisinin ikinci həyatı Rafiq Babayevin yaratdığı "Qaya" ansamblı ilə başlayır. Bu ansambl keçmiş SSRİ-də böyük şöhrət qazanıb. Vaqif Mustafazadə dövrü isə Azərbaycanda sözün əsl mənasında cazın intibah dövrü hesab edilə bilər. Belə ki, virtouz musiqiçi muğamla cazın sintezini yaradıb. Özündən sonra onun yolunu qızı Əzizə Mustafazədə davam etdirir. Böyük təməllər üzərində qurulan Azərbaycan cazı indi gənc ifaçıların timsalında inkişaf dövrünü yaşayır. Bir sıra tanınmış ifaçılarla yanaşı, Montreyö caz festivalının qalibi İsfar Sarabskinin adını çəkmək yetərlidir ki, Azərbaycanda caz ənənəsinin necə yaşadığının şahidi olasan. Caz millətləri birləşdirən və insanlar və dövlətlər arasında sərhədləri aşan unikal musiqi sənətidir.

İnternetdə: www.az.wikipedia.orq

**Yubilyar yazıçı və şairlər**

**1 Aprel - Şair, tərcüməçi Ənvər Əlibəylinin 105 illiyi, (1916-1968)**



**Əlibəyli Ənvər Əliverdi oğlu — şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1939), tərcüməçi, ictimai xadim.**

Ənvər Əlibəyli 1916-cı il aprel ayının 1-də Bakıda dünyaya göz açmışdır. Əvvəl Tibb Texnikumunda, sonra ADU-nun fəhlə fakültəsində, APİ-nin filologiya fakültəsində təhsil almışdır. 1938-ci ildən İkinci Dünya müharibəsi başlayana qədər Azərbaycan radiosunda çalışmışdır. Tiflisdə Topçular Hərbi məktəbini bitirib, leytenant rütbəsi ilə könüllü olaraq ön cəbhəyə getmişdir. İkinci Dünya Müharibəsinin ilk günlərindən ordu sıralarında olan Ənvər Əlibəyli artilleriya batareyasının komandiri olmuş, məşhur 416-cı Taqanroq atıcı diviziyasında ağır döyüş yolu keçmişdir. 1944-cü ildə ağır yaralandıqdan sonra yazıçı-jurnalist kimi döyüşdə iştirakını davam etmişdir. 40-cı illərin axırında "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarının məsul katibi olan Ənvər Əlibəyli 1948-1952-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının orqanı "Ədəbiyyat qəzetinin" redaktoru, 1952-ci ildən ömrünün axırınadək Respublika Radio və Televiziya Verilişləri Komitəsinin sədri vəzifələrində işləmişdir. SSRİ Ali Sovetinin deputatı (7-ci çağırış) olmuşdur. 1939-cu ildən Sovet Yazıçılar İttifaqının üzvü olan Ənvər Əlibəylinin şeir və poemaları rus dilinə, keçmiş SSRİ xalqlarının dillərinə tərcümə edilmişdir. Onun “Qaranquş” adlı ilk şeirlər kitabı 1947-ci ildə işıq üzü görür. Sonrakı illərdə xeyli kitabı nəşr olunur: “Sənin adınla”, “İlk məhəbbət”, “Dostluq körpüsü”, “Mingəçevir şeirləri”, “Dalğalar arasında”, “Elə xoşbəxtəm ki!”, “Nəğmələr”, “Bir kitab şeir”, “Ürəyimdəsən” və s. Ənvər Əlibəyli həm də bir neçə poemanın müəllifidir. “Samur dastanı“ poeması Samur çayının suyunu çəkib susuz çöllərimizə çatdıran inşaatçıların bəhrəli əməyindən bəhs edir. Əsərdə lirizm ilə epos maraqlı şəkildə bir-birinə qovuşur. “Bacı”, “Gözlər, ürəklər, əməllər” poemaları 1941-1945-ci illərin hadisələrindən, “Dalğalar arasında” poeması isə dəniz neftçilərinin sücaətindən, “Polad”, “Dostluq körpüsü” yaxın keçmişin hadisələrindən bəhs edir. Ənvər Əlibəyli 1968-ci ildə Bakıda həyatının, yaradıcılığının yüksələn bir vaxtında dünyadan köçmüşdür. Məzarı Fəxri Xiyabandadır.

**Əsərləri:**Qaranquş (1947), Sənin adınla (1950), İlk məhəbbət (1956), Elə xoşbəxtəm ki... (1964), Gözlər, ürəklər, əməllər (1966), Nəğmələr(1968), Dostluq körpüsü, İlan və qurbağa

**Filmoqrafiya:** DALE (film, 1960), Bəxtiyar (film, 1955),Əzizə Cəfərzadə (film, 1999), Qara daşlar (film, 1956), Qızmar günəş altında (film, 1957), Mahnı qanadlarında (film, 1959), Zəncirlənmiş adam (film, 1964).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 285.

**2 Aprel - Yazıçı Zöhrə Əsgərovanın anadan olmasının 70 illiyi, (02.04.1951)**
***“Nə qədər canımızda nəfəs var kaş küsən qəlblərə məlhəm olmağa tələsəydik. Təkcə ayrılığa, ölməyə gecikə bilsəydik...”***



**Əsgərova Zöhrə Qulamhüseyn qızı — nasir, publisist, 1989-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1980). 1996- cı ildə "Xan qızı Natəvan" mükafatı laureatı, 1998-ci ildə "Araz" ədəbi ali mükafatı laureatı, 2011-ci ilin Milli Kulturoloji müsabiqəsinin mükafatçısı, 2012-ci ildə "Qızıl qələm" mükafatının laureatıdır. 2013-cü ildə yaradıcılıq uğurlarına görə Rəsul Rza adına beynəlxalq mükafata layiq görülübdür.**

Zöhrə Əsgərova 1951-ci il aprelin 2-də Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Burada 199 saylı şəhər orta məktəbini bitirmişdir (1968). Bədii yaradıcılığa erkən başlamışdır. M.Ə.Sabir kitabxanası nəzdində ədəbiyyat dərnəyinin fəal üzvü olmuşdur. İlk qələm təcrübələri – məqalə və mənsur şeirləri "Azərbaycan gəncləri" qəzetinin 1969-cu il tarixli sayında dərc edilmişdir. Zaqafqaziya komsomol məktəbinin 6 aylıq kursunda siyasi təhsil almışdır (1971). M.A.Əliyev adına İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində təhsilini davam etdirmişdir (1969-1973). Azərdövsulayihə İnstitutunda klub müdiri (1973), R.Mustafayev adına İncəsənət muzeyinin əməkdaşı olmuşdur (1974-1978). Azərbaycan ədəbi-gənclər birliyi yığıncaqlarında fəal iştirak etmişdir. "Qadın dünyası" qəzetində qadınların ictimai hərəkatına dair silsilə yazıları dərc olunmuşdur (1994). Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor (1978), Azərbaycan Dövlət Nəşriyyat poliqrafiya və kitab ticarəti işləri komitəsində redaktor (1979), “Yazıçı" nəşriyyatında redaktor (1980-1987), "Gənclik" nəşriyyatında yeniyetmələr üçün bədii ədəbiyyat redaksiyasında redaktor işləmişdir (1987-1993). 1999-cu ildə "Ekspress" qəzetində müxbir kimi çalışmışdır. 2003-cü ildən 2006-cı ilə qədər Bakı Bədən Tərbiyəsi və Turizm kollecində ədəbiyyat müəllimi işləmişdir. 2006-cı ildən Gənclər və İdman Nazirliyində çalışır, hal-hazırda dövlət qulluğunun kiçik müşaviridir, baş məsləhətçidir. İki övladı var. Həzrəti Fatimeyi Zəhranın mövludu günü münasibətilə "Şəhriyar" qəzetinin xüsusi buraxılışı "Analı dünyam" jurnalını hazırlamışdır (1996). "Bahar çiçəkləri", "Çinar pöhrələri", "Mənim bağım, baharım" almanaxlarında, eləcə də dövri mətbuatın qəzet və jurnallarında hekayələri və əsərləri çap olunur.

**Əsərləri:** “Ünsiyyət” (1981), “İki tale” (1984), “Tənhalıq”(1989), “Özgə evin işığı” (1991), “Bir ömrə sığmayan arzular”, “Mirvari toy” (2006), “Özəl poçtdan məktub var” (2011), “Talelərə yazılan musiqi” (2013), “Tarixi yaddaş və qondarma əhvalatlar” (2015) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 962.

## 7 Aprel - Yazıçı Yaşar Rzayevin anadan olmasının 80 illiyi, (07.04.1941)



**Yaşar Rzayev — Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü**

Yaşar Rzayev 1941-ci il aprelin 7-də Lənkəran şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Əsli-kökü Cənubi Azərbaycandandır. Lənkəranda orta məktəbi bitirib, sonra əla qiymətlərlə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. Hekayələr, respublika televiziyasının verilişləri üçün ssenarilər yazmış, ilk hekayələri "Aprel çiçəkləri", "Gənc qələmlər" almanaxlarında, "Azərbaycan" jurnalında çap olunmuşdur. Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, Lənkəran Şəhər Partiya Komitəsində təlimatçı, təşkilat şöbəsinin müdiri işləmişdir. Bədii yazıları, müxtəlif məqalələri çap olunmuş, Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmuşdu. 1983-cü ildə ikinci katib seçilmiş, 1990-1991-ci illərin mürəkkəblikləri və ziddiyyətləri əhatəsində Lənkəranın inkişafı üçün də bir çox işlər görmüşdür. Lənkəran Dövlət Universitetinin təşkilinə nail olmuşdur. Avqust 1992-ci ildən sentyabr 1993-cü ilədək Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu Lənkəran filialının direktoru,1993-cü ilin sentyabrından 1995-ci ilin oktyabrınadək Şəhər İcra Hakimiyyəti Başçısının humanitar məsələlər üzrə müavini işləmişdir. 1995-ci ilin oktyabrında Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, deputatlıq dövründə Milli Məclisdə 200-dən çox çıxışı olmuşdur. Həmçinin MDB Parlamentlərarası Assambleyasının üzvü kimi də fəaliyyət göstərmişdir. Sankt-Peterburqda, Minskdə, Türkiyənin Samsun şəhərində (türk xalqlarının toplantısında) çıxışlar etmişdir. Filologiya üzrə fəlsəfə doktorudur. "Milli azadlıq şüurunun formalaşmasında Azərbaycan ədəbiyyatının rolu (1960-1980-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. "Azərbaycan romanı siyasi-ideoloji proseslər və milli-mənəvi ideallar kontekstində (1930-1950-ci illər)" adlı doktorluq dissertasiyası yazmışdır. 42 elmi məqalənin, 200-ə dək müxtəlif məqalələrin, oçerk və reportajların, publisistik yazıların, resenziyaların, tərcümələrin müəllifidir, beynəlxalq elmi konfransların iştirakçısıdır. Elmi məqalələri Rusiyada, Türkiyədə, Ukraynada, Qazaxıstanda, Özbəkistanda çap olunmuşdur. Hazırda elmi-pedaqoji fəaliyyətlə məşğuldur.

**Əsərləri:** "Gecə eşelonu" (1972), "Əks-səda" (povest və hekayələr) (1981), "Beş dəqiqəlik yol" (povestlər, hekayələr) (2001) və s.

**Elmi kitabları:** "Bədii söz və milli azadlıq şüuru" (2007), "Azərbaycan romanı: siyasət və milli düşüncə" (2010), "Dünənə necə baxmalı. Elmi məqalələr toplusu" (2011) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 926.

**10 Aprel - Yazıçı, ədəbiyyatşünas Allahverdi Eminovun 80 illiyi, (10.04.1941)**



**Eminov Allahverdi İsgəndər oğlu ədəbiyyatşünas, tənqidçi, nasir, 1998- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, pedoqoji elmlər namizədi.**

Eminov Allahverdi İsgəndər oğlu 1941 - ci il aprelin 10 - da Azərbaycanda Salyan rayonunun Qırmızıkənd kəndində dəmiryolçu ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedoqoji İnstitutunun tarix-filologiya fakültəsində təhsil almışdır (1959-1964). Təyinatla göndərildiyi Salyan rayonunun Kərimbəyli kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi olmuşdur. 1965 - ci ildə ordu sıralarına xidmətə çağırılmış, bir neçə aydan sonra tərxis olunmuş, müəllimlik fəaliyyətini davam etdirmişdir. Azərbaycan Elmi – Tədqiqat Pedoqoji Elmlər İnstitutunda aspirant (1968-1971), orada elmi işçi (1971-1974), “Azərbaycan məktəbi” jurnalında məsul katib (1974-1976), “Azərbaycan müəllimi” qəzetində şöbə müdiri (1976-1984), “Maarif” nəşriyyatında baş redaktor (1984-1992) olmuşdur. Azərbaycan Dövlət Müəllimlər İnstitunun Salyan filialının direktorudur (2001-ci ildən).60 - cı illərdən dövri mətbuatda ədəbi-tənqidi məqalələrlə çıxış edir. Elmi fantastik janrın nəzəri problemləri, yaradıcılıq psixologiyası ilə məşğul olur. Dövri mətbuatda 200 - dən artıq məqaləsi çıxmışdır. “Pedaqogika” (1993) dərsliyinin müəllifidir.

**Əsərləri:** “Gördüklərim, yazdıqlarım, unutduqlarım” (1990), “Şərq ailəsinin sirləri” (1992), “Səsimiz niyə qəzetdən gəlir” (1966), “Səməd Vurğunun poetikası” (1999), “Sözdən saray tikən şair” (1998), “Əhməd Seyidov fenomeni” (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat - Poliqrafiya Mərkəzi, 2011.S. 59.

**24 Aprel - Yazıçı Sultanməcid Qənizadənin 155 illiyi (1866-1942)**

***"Qənizadə iqtidarlı bir ədib olduğunu bildirir. Əsərlərinin hər birində təzə fikirlər, vüsətli xəyallar, dərin mənalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik".***

Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli



**Sultan Məcid Qənizadə - Azərbaycanın tanınmış maarif xadimi, müəllim, yazıçı, tərcüməçi, jurnalist, bir sıra lüğətlər, dərsliklər, bədii əsərlər, felyetonlar müəllifi.**

Sultan Məcid Qənizadə 1866-cı ilin aprel ayında tacir Hacı Murtuzəli kişinin ailəsində dünyaya gəlmişdi. Tədqiqatçıların yazdıqlarına görə, Sultan Məcidin ulu babası Ağa Məsih Şirvani Şamaxının tanınmış şairlərindən olub. Ədibin bəzi məqalələrində "Məsihzadə" imzası ilə yazması da bu varisliyə işarədir. Rus dilini mükəmməl bildiyindən Sultan Məcid Qənizadə 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Onun hazırladığı bir sıra lüğətlər bu sahədə ilkin addımlardan sayıla bilər. "Lüğəti-rusi və türki" (1902), "Samouçitel tatarskoqo yazıka" və başqa kitablar S.M.Qənizadənin elmi təfəkküründən, dillərə olan münasibətindən, gərgin əməyindən, yaradıcı fəaliyyətindən, öz millətinə göstərdiyi xidmətdən və can yanğısından xəbər verir. Sultan Məcid Qənizadə mədəniyyət xadimi idi. Sultan Məcid Qənizadə tərcüməçi idi. 1894-cü ildə o, Lev Tolstoyun "Əvvəlinci şərabçı" pyesini tərcümə edib, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur ki, bu da Azərbaycan səhnəsi tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olmuşdur". Sultan Məcid Qənizadə böyük yazıçı və dramaturq idi. Rus ədiblərindən etdiyi tərcümələrlə yanaşı, Sultan Məcid xalq nağılları əsasında uşaqlar üçün mənzum hekayələr yazıbmış. Ən sanballı bədii əsəri isə "Məktubati-Şeyda bəy Şirvani" adlanır. Əslində bu, bioqrafik bir əsərdir. Sultan Məcid Qənizadə böyük jurnalist idi. Qori müəllimləri seminariyasında işlədiyi müddətdən mətbuatda müntəzəm çıxış edən Sultan Məcid Qənizadə ən çox "Dəbistan" jurnalında çap olunardı. Sultan Məcid Qənizadə böyük Azərbaycanlı idi. Müəllimliyə başladığı ilk gündən həyatını və yaradıcılığını millətinin oyanışına, tərəqqisinə, təhsilinə və işıqlı gələcəyə sahib durmasına bağlamışdı. İnsan mənəviyyatını, əxlaqını önə çəkən Qənizadə dünyəvi elmləri yorulmadan təbliğ etməklə yanaşı, hər kəsi insan olmağa, insaniyyətə, milliyyətə, Vətənə xidmətə səsləyərdi. O, bütün ibrətamiz öyüdlərində vətəndaş olduğunu, Vətənə bağlılığını ifadə edirdi. 1937-ci ilin repressiyaları öz qara caynaqlarını yaşının ahıl çağında Sultan Məcid Qənizadəyə də tuşladı. Ömrü boyu millətinə, xalqına, onun işıqlı gələcəyinə xidmət göstərən bir şəxsiyyəti həbs edərək "xalq düşməni" kimi güllələdilər.

**Əsərləri:** Yazarın Əli İskəndər Cabbarovla birlikdə yazdığı "Kəlili ədəbiyyat"(müntəxabat), "İstilahi Azərbaycan", "Lüğəti rusi və Azərbaycan (müsəlman)", "Axşam səbri xeyir olar", "Məktubati Şeyda bəy Şirvani" "Müəllimlər iftixarı", "Gəlinlər həmayli", "Allah xofu" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 809.

**Xarici ədəbiyyat**
**7 Aprel - Rus uşaq yazıçısı Vitali Korjikovun 90 illiyi, (1931-2007)**



Rus sovet uşaq yazıçısı, dənizdə macəralar haqqında kitabları ilə məşhur olan Vitali Titoviç Korjikov 12 aprel 1931-ci ildə Ukraynada, Xarkov şəhərində anadan olub. V.Korjikovun atası böyük tikintilərin rəhbəri olmuş, Arkadi Qaydarla tanış olmuşdur. Repressiyaya məruz qalmış və 1937-ci ildə güllələnmişdir. Gələcək yazıçının anası da repressiya olunuğundan, Vitali Korjikovu anasının Melitopolda yaşayan qohumları tərbiyə ediblər. O, müharibə vaxtı Almatıya evakuasiya olunmuş, sonradan azad olunmuş Melitopola geri qayıtmışdır. Bir il Melitopol Pedaqoji institutunda oxumuş, 1950-ci ildə Moskva Dövlət Pedaqoji institutuna köçürülmüşdür. İnstitutu bitirdikdən sonra Saxalində müəllim işləmiş, burada dənizçilik peşəsinə yiyələnmişdir. 1957-ci ildə Vladivostokda V.Korjikovun **"Qanadlar"** adlı ilk şeirlər toplusu çapdan çıxmışdır. **"İlk üzgüçülük"** (1961), **"Solnışkinin şən dəniz gəzintisi", "Dinozavr pəncəsi"** (1979), **"Kenquru kimi dalğalar"** (1976) adlı uşaqlar üçün povestləri yazıçıya populyarlıq qazandırmışdır.


















İnternetdə:https://ru.wikipedia.org/wiki Vitali _Titoviç_ Korjikov

**15 Aprel - Amerika uşaq yazıçısı, nağılçı Frenk Baumun 165 illiyi, (1856-1919)**



**Laymen Frenk Baum (1856 – 1919) — Amerika jurnalisti, yazıçı**

Amerika jurnalisti Liman Frenk Baum 1856 - cı ildə anadan olmuşdur. Frenk Baum uşaq yazıçısı olmaq fikrində deyildi. Birinci kitabını əyləncəli şəkillərə yazdığı mətni o, dostu, rəssam Denskonun xahişi ilə qələmə almışdır. Kitab bəyənilmiş və Baum uydurma öz ölkəsinin qəribə sehrbazı haqqında böyük nağıl yazmaq qərarına gəlmişdir. Amerikan uşaqları Frenk Baumi “Oz şəhərinin sehrbazı” kitabı ilə tanıyırlar. Bu kitab 14 cilddən ibarətdir. Müəllifə şöhrət gətirən “Oz şəhərinin sehrbazı” kitabı olmuşdur. Bizlərə bu kitab “Zümrüd şəhərinin sehrbazı” adı altında gəlib çatmışdır. Nağıl müvəffəqiyyət qazanmış, tezliklə səhnəyə qoyulmuş və oxucular müəllifdən nağılı davam etdirməyi xahiş etmişlər. Baum özü də qəhrəmanlarını xoşlamış və onlarla bir də görüşməyə həvəslə razılıq vermişdir. Bir neçə il ərzində o, öz ölkəsinin möcüzələri haqqında 13 povest nağıl yazıb tamamlamışdır. Bu əsərdə Doroti adlı cəsur qız və onun şən dostlarından danışılır. Doroti qasırğa nəticəsində doğma Kanzasdan sehrli bir ölkəyə düşür. Orada onun başına bir çox macəralar gəlir. O, özü də bilmədən qəddar cadugəri öldürür. Cənub cadugəri ilə tanış olduqdan sonra onun və yaxın dostlarının köməyi ilə o, Kanzas şəhərinə qayıdır. Bu nağılda dostluq, birlik, yaxşılıq qalib gəlir. Frenk Baum 1919-cu ildə vəfat etmişdir.



















İnternetdə:https://ru.wikipedia.org/wiki Laymen_ Frenk_ Baum

**İncəsənət**

**4 Aprel – Teatr tənqidçisi, yazıçı İnqilab Kərimovun 90 illiyi, (1931-2011)**



Azərbaycanın peşəkar teatrşünas nəslinə mənsub olan İnqilab Saleh oğlu Kərimov 1931-ci il aprelin 4-də Göyçay rayonunda doğulub. Orada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsində təhsil alıb (1948 – 1953). İnqilab Kərimov 1957-ci il noyabrın 25-dən taleyini Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə bağlayıb. Gələcəyin alimi burada kiçik elmi işçi, baş elmi işçi (1966-1985) olub. Hazırda həmin institutda teatr, kino və televiziya şöbəsinin müdiri vəzifəsində işləyir. Alim-tədqiqatçı İnqilab Kərimov 1968-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində teatr tarixi, teatr tənqidi və dram nəzəriyyəsi fənlərini tədris edir. Həmin universitetin professorudur. "Sovet Azərbaycanının gənclər teatrı" adlı namizədlik dissertasiyasını 1963-cü ildə müdafiə edib. "Azərbaycan teatrının yaranması, təşəkkülü və inkişafı problemləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri) adlı doktorluq dissertasiyasını 1988-ci ildə Moskvada müdafiə edərək sənətşünaslıq doktoru alimlik dərəcəsi alıb. İnqilab Kərimov 200-ə yaxın elmi əsərin müəllifidir, o cümlədən 25 monoqrafiya və kitabın müəllifidir. Elmi əsərlərindən bir neçəsi rus dilində çap olunub. "Abdulla Şaiq və teatr", "Ağadadaş Qurbanov", "Azərbaycan və gürcü səhnə ustalarının dostluğu", "Xalq istedadları", "Sovet Azərbaycanının gənclər teatrı", "Azərbaycan Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Cəfər Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Gənclik və gözəllik teatrı", "Sənət yolu, dostluq yolu", "Nəriman Nərimanov və teatr", "Azərbaycan teatrının təşəkkülü və inkişafı", "Türkiyə və Azərbaycan teatr əlaqələri", "Şuşa Ağdam teatrı", "Azərbaycan teatrı 125" kitabları var. Görkəmli alim, yorulmaz tədqiqatçı, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov Azərbaycan teatrının tarixinə və tənqidinə həsr olunmuş, eyni zamanda teatrın nəzəri məsələləri ilə bağlı çoxlu elmi əsərlərin müəllifidir. Alim mətbuatda "İnqilab" imzası ilə çıxış edir. İnqilab Kərimov 2001-ci ildə Azərbaycan MEA-nm müxbir üzvü seçilib.

**Filmoqrafiya:** Gənclik teatrının 50 illiyi (film, 1979)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S .434.

**9 Aprel- Xalq artisti Sidqi Ruhullanın 135 illiyi, (1886-1959)**

***50 illik səhnə fəaliyyəti dövründə Sidqi Ruhulla həmişə zəngin həyat təcrübəsi, müşahidə, bilik, məharət və bacarıq, gərgin əmək tələb edən 300-ə yaxın müxtəlif surətlər silsiləsi yaratmışdır.***



**Sidqi Ruhulla, əsl adı Ruhulla Fətulla oğlu Axundov Azərbaycanın və SSRİ-nin xalq artisti və teatr rejisoru. 1931-ci ildə Sidqi Ruhulla Azərbaycan SSR-nin əməkdar artisti, 1938-ci ildə Azərbaycan SSR xalq artisti, 1949-cu ildə SSRİ xalq artisti adını almışdır. Sidqi Ruhulla 1945-1946-cı illərdə "Qırmızı Əmək Bayrağı" ordeni ilə, "Əmək igidliyinə görə" və "Qafqazın müdafiəsi üçün" medalları ilə təltif olunmuşdur.**

Ruhulla Fətulla oğlu Axundov (Sidqi Ruhulla) 1886-cı ildə Bakının Buzovna kəndində müəllim ailəsində anadan olmuş, ibtidai təhsilini bir kənd müəllimindən almışdır. Əsl adı Ruhulla, soyadı Axundov olsa da, gəncliyində "Vətən" dramında Sidqi rolunu məharətlə ifa etdiyi üçün yoldaşlarının məsləhətilə Sidqi ləqəbini qəbul etmişdir. 1906-cı ildə birinci dəfə Azərbaycan səhnəsində böyük tragik Ərəblinskini Axundovun "Vəziri Xani Lənkəran" komediyasında Teymur Ağa rolunda gördü. Bu andan Sidqinin gələcək taleyi həll olundu. Sidqi sanki çoxdan axtardığı bir fəaliyyət sahəsini tapmış oldu. Onda hələ uşaqlıqdan aktyor sənətinə böyük həvəs var idi. Ərəblinski ilə dostlaşan Sidqi Ruhulla səhnəyə olan həvəsini ona bildirdi. O, Sidqinin səsində, qamətində, mimikasında, jestlərində böyük gələcəyi olan aktyoru əvvəlcədən görə bildi və Sidqini səhnəyə cəlb etdi.1906-cı ildə Sidqi birinci dəfə Vəzirovun "Adı var, Özü yox" komediyasında Telli rolunda səhnəyə çıxdı. O vaxt milli teatr səhnəsində Azərbaycan qızları olmadığından qadın rollarını kişilər ifa edirdilər. 1908-ci ildə Bakıda "Morskoe Sobranie" zalında Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsi tamaşaya qoyulur. Burada Rüstəm bəy rolu Sidqiyə tapşırılır. Bu rolda Sidqi öz ifasının təbiiliyi, rolu dərindən hiss edib yaşaması ilə diqqəti cəlb edir. Bu tamaşadan sonra Sidqi hər şeyi buraxıb peşəkar aktyor olmağı qərara alır. O, Azərbaycan yazıçılarından Cəfər Cabbarlı, Səməd Vurğun, Abdulla Şaiq, Mirzə İbrahimov, Məmməd Səid Ordubadi, Sabit Rəhman, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyevlə yanaşı rus klassiklərinin, qərb dramaturqlarının da əsərlərində müxtəlif rollar ifa etmişdir.Sidqi Ruhulla 1959-cu ildə 73 yaşında Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

**Fimoqrafiya:** Abbas Mirzə Şərifzadə (film), Bismillah (film, 1925), Gilan qızı (film, 1928), Hacı Qara (film, 1929), Qızıl kol (film, 1930), Kəndlilər (film, 1939), Fətəli xan (film, 1947), Mənim atam Əliövsət Sadıqov (film, 2007) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Sidqi_Ruhulla

**16 Aprel - Bəstəkar Qəmbər Hüseynlinin anadan olmasının 105 illiyi, (1916-1961)**

***"Qəmbər Hüseynlinin tarda "Segah", "Şur" və "Zabul" və digər muğamları yüksək peşəkarlıqla ifa bacarığı başqalarından fərqlənirdi. Qəmbər Hüseynlinin "Muğana ceyran", "Tellər oynadı", "İlk məhəbbət", "Ay işığında", "Gecələr uzanaydı" mahnılarında insanı heyrətləndirən elementlər zəngindir. Ona görə də, bu melodiyaları dinləmək adamı bezdirmir."***

Şirəli Məmmədov



**Hüseynli Qəmbər Məşədi Muxtar oğlu (16 aprel 1916 – 1 avqust 1961) — Azərbaycan bəstəkarı, Azərbaycanın əməkdar incəsənət xadimi (1961).**

Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində anadan olub. 1927-ci ildə orta məktəbdə oxuya-oxuya Gəncə orta ixtisas musiqi məktəbinin tar sinfinə qəbul olunur. 1929-cu ildə isə Gəncə pedaqoji texnikumuna daxil olur. Təhsil illərini sonralar Azərbaycanın böyük bəstəkarı olan Fikrət Əmirov və tarzən Zərif Qayıbovla birgə addımlayırdı. "Rast"ı, "Şur"u, "Zabul segahı"nı və başqa muğamları tarda məharətlə ifa edən gənc və istedadlı Q.Hüseynli hələ tələbə ikən aşıq və el havalarını toplayıb nota alırdı. 1934-cü ildə texnikumun tar sinfini fərqlənmə diplomu ilə bitirən Qəmbər pedaqoji kollektivin qərarı ilə təhsilini davam etdirmək üçün Bakıya göndərilir. Ona Bakı Musiqi Texnikumunun violonçel sinfində təhsil almaq təklif olunanda tərəddüd etmədən razılıq verir. O, görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romans-mahnısını bəstələyir. Gənc bəstəkar 1951-ci ildə yenidən A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbinin bəstəkarlıq şöbəsinə daxil olaraq professor B.İ.Zeydmanın sinfində təhsilini davam etdirir. Üç ildən sonra tanınmış şair Mirmehdi Seyidzadənin librettosu əsasında diplom işi kimi "Qızıl quş" operasını yazaraq, 1954-cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirir.Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romans yaradıcılığı mühüm yer tutur. Unudulmaz sənətkarın romans lirikasının zirvəsi sayılan "Ay işığında", "Gecələr uzanaydı", "İlk məhəbbət", "Düşür yadıma", "Gülə-gülə", "Sən-sən" və s. əsərlərindəki zərifliyə heyran qalmamaq mümkün deyil. Ancaq bəstəkarın mahnı çələngində öz təravəti, xalq təranələri ilə könüllər oxşayan, bütün dünyanı diyar-diyar dolaşan bir sənət incisi də var - "Cücələrim". Cücələrim demək olar ki, dünyanın hər yerində səslənib və 100-dən artıq dildə ifa edilib. Şair Tofiq Mütəllibovla birgə hələ 1948-ci ildə bu gözəl sənət incisini yaratmaq böyük sənət uğuru idi. Qəmbər Hüseynli musiqinin bütün janrlarında yazıb. O, "Ailə namusu", "Şeyx Sənan", "Dağılan tifaq", "Almaz" və sair bu kimi səhnə əsərlərinə də musiqi yazıb. 100-dən çox romansın müəllifidir.

**Filmoqrafiya:** Cücələrim (film, 1980), Hər şey yaxşılığa doğru (film, 1997), Hər şey yaxşılığa doğru (film, 1997), Qəlbin Ay işığı (film, 2002), Qəmbər Hüseynli (film, 2007)

İnternetdə: https://az.wikipedia.org/wiki/Qəmbər_Hüseynli

**20 Aprel - İlk azərbaycanlı qadın musiqişünas Xurşud Ağayevanın 115 illiyi, (1906-1953)**

***Xurşud Ağayeva ilk azərbaycanlı musiqişünas xanımımızdır.Ü.Hacıbəyov haqda birinci monoqrafiyanın müəllifi, Azərbaycanın əməkdar incəsənət xadimidir.***



Ağayeva Xurşid Həsən qızı 1906-cı ildə Bakıda anadan olmuşdur.1918-1920-ci illərdə Azərbaycan Respublikası Parlamentinin ilk sədrinin birinci müavini olmuş Həsən bəy Ağayevin qızıdır. Xurşid Ağayeva Azərbaycan musiqisinə aid məqalələrin, "XIX əsrdə Azərbaycan musiqi mədəniyyəti ocaqları" əsərinin müəllifidir. Ziyalı ailədə böyüyən Xurşid Ağayeva orta təhsilini bitirdikdən sonra 1935-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur . Azərbaycan musiqisinə və onun tarixinə olan marağı Xurşid xanım Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli haqqında ilk monoqrafiyanın müəllifi də məhz Xurşid Ağayevadır. Azərbaycan Dövlət Konservatoriyasında musiqi tarixindən dərs demiş, elmi işlər üzrə prorektor (1944-1946) olmuşdur.O, 1930-cu ildə isə musiqiçi müəllimlərin Moskva İxtisasartırma İnstitutuna oxumağa göndərilmişdir. Xurşid xanım musiqi nəzəriyyəsi və tarixi üzrə tədris kitablarının Azərbaycan dilinə tərcüməsi üzərində işləmişdir. Azərbaycan musiqisinə aid bir sıra məqalələrin, "XIX əsrdə Azərbaycan musiqi mədəniyyəti ocaqları" (vəfat etməsi ilə əlaqədar tamamlanmamışdır) əsərinin müəllifidir. Xurşid Ağayeva 3 dekabr 1953-cü ildə vəfat etmişdir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Xurşid_Ağayeva

## Milli qəhrəmanlıq zirvəsi
### Hacıyev Etibar Firudin oğlunun 50 illiyi, (05.04.1971-15.06.1992)

**Hacıyev Etibar Firudin oğlu — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**



Etibar Firudin oğlu Hacıyev 1971-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun (Vardenis) Zod kəndində anadan olmuşdur. Zod kənd orta məktəbini bitirdikdən sonra bir müddət sovxozda işləmişdir. Erməni millətçiləri və separatçıları tərəfindən oradakı soydaşlarımız qovulan zaman onun ailəsi Kəlbəcər rayonuna pənah gətirir. Etibar 1989-cu ildə hərbi xidmətə çağırılır, ordudan tərxis edildikdən sonra isə vətənə geri dönür.1992-ci ildə Etibar könüllü olaraq Milli Orduya yazılır və torpaqlarımızın müdafiəsinə qalxır. Böyük Canbar, Kiçik Canbar, Buzluq, Erkəç kəndlərinin erməni quldurlarından azad edilməsində xüsusi fədakarlıq göstərir. 1992-ci il 15 iyun Goranboy rayonunun Ağcakənd kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olur.Subay idi. Azərbaycan Respublikası prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə Hacıyev Etibar Firudin oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Göygöl rayonunda dəfn edilmişdir.Göygöl rayonunda küçələrdən biri qəhrəmanımızın adını daşıyır.

***Göz açıb dünyaya gəldiyim gündən,***
***Ömrümü adına bağlamışam mən.***
***Sənsiz mən kiməm ki, vətən, ay vətən,***
***Ay arzum, diləyim, ruhum, vicdanım***
***Könlümün sevinci Azərbaycanım.***

İnternetdə:https://az.wikipedia.org/wiki/Etibar_Hacıyev

**10 Aprel - Edilov Yelmar Şahmar oğlunun75 illiyi, (10.04.1946-11.04.1994)**



**Edilov Yelmar Şahmar oğlu — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

Azərbaycanın Milli Qəhrəmanı Edilov Yelmar Şahmar oğlu 10 aprel 1946-cı ildə Ağdam rayonunun Əlimədədli kəndində anadan olmuşdur. 1954-1964-cü illərdə Əlimədədli kənd orta məktəbində təhsil almış, sonra isə Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil omuşdur. O, 1964-cü ildə Minsk şəhərində hərbi xidmətə başlayır. Yelmar yaxşı samboçu idi. Qarnizon birinciliyi yarışları zamanı aldığı zədədən, o hərbi xidmətən ikinci qrup əlil kimi tərxis olunur və texnikumda yarımçıq qalmış təhsilini davam etdirir. 1970-ci ildə təhsilini başa vurdu. M.F.Axundov adına üzümçülük kolxozunda işə düzəlir. 1988-ci ildə ata-babalarımızdan yadigar torpaqlarımız olan Qərbi Azərbaycan ərazisindən soydaşlarımızın deportasiya edilməsi zamanı Yelmar Könüllü özünümüdafiə batalyonlarının yaradılmasını təkid edirdi. Bu iş yalnız 1990-cı ildən sonra görülməyə başlanıldı. 1991-ci ilin əvvəllərindən başlayaraq Ağdamın bir çox kəndləri erməni işğalçıları tərəfindən gecə-gündüz atəşə tutulurdu. Yelmar Edilovun rəhbərliyi ilə Kolanı kəndində özünümüdafiə batalyonu yaradıldı. Bu dəstə Ağdamda böyük hünər göstərdi, onlar dəfələrlə ermənilərə lazımı cavabı verdilər. 11 aprel 1994-cü ildə "çərik" kökəltmə məntəqəsi uğrunda gedən döyüşdə Yelmar qəhrəmanlıqla həlak olur. Ailəli idi. Yeddi övladı var. Bakı şəhərindəki ikinci Şəhidlər xiyabanında dəfn edilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Edilov Yelmar Şahmar oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

***Sən varsan, ömrüm də güllü bahardır,***
***Mənə hər addımda taleyim yardır.***
***Sənsiz yerişim də müşkül olardı***
***Sənsən üfüqlərdə şəfəqim, danım,***
***Hər qumu bir inci Azərbaycanım!***

İnternetdə: https://az.wikipedia.org/wiki/Yelmar_Edilov

# May

### Əlamətdar tarixi günlər və bayramlar

3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü, (1993)
3 May – Türk Dünyasının Həmrəylik Günü, (1944)
3 May – Beynəlxalq Günəş Günü, (1994)
5 May – Əlillərin Hüquqlarının Müdafiəsi Günü, (1992)
8 May – Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü, (1953)
9 May – Faşizm üzərində Qələbə Günü, (1945)
15 May – Beynəlxalq Ailə Günü, (1994)
15 May – Beynəlxalq İqlim Günü, (1992)
18 May – Beynəlxalq Muzeylər Günü, (1977)
20 May – Ümumdünya Metrologiya Günü, (1875)
21 May – Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günü, (2002)
22 May – Beynəlxalq Bioloji Müxtəliflik Günü, (2000)
23 May – Ümumdünya Tısbağa Günü, (2000)
28 May – Respublika Günü, (1918)
31 May – Ümumdünya Tütünlə Mübarizə Günü, (1988)

## Yubilyar yazıçı və şairlər

Türkoloq, tənqidçi Tofiq Hacıyevin anadan olmasının 85 illiyi, (01.05.1936)
Şair Sabir Cümşüdün anadan olmasının 85 illiyi, (05.05.1936)
Şair Mobil Quluzadənin anadan olmasının 85 illiyi, (08.05.1936)
Yazıçı Əhmədağa Muğanlının anadan olmasının 95 illiyi, (08.05.1926-2001)
Dramaturq Lütfəli Həsənovun anadan olmasının 105 illiyi, (10.05.1916-1976)
Yazıçı Məhərrəm Bayramovun anadan olmasının 105 illiyi, (15.05.1916-1988)
Şair, publisist Sabir Rüstəmxanlının anadan olmasının 75 illiyi, (20.05.1946)
Şair, yazıçı Söhrab Tahirin anadan olmasının 95 illiyi, (27.05.1926)
Ədəbiyyatşünas, tənqidçi Qurban Bayramovun anadan olmasının 75 illiyi, (30.05.1946)

### Xarici ədəbiyyat

Hind yazıçısı R.Taqorun anadan olmasının 160 illiyi, (07.05.1861-1941)
Rus yazıçısı Aleksandr Fadeyevin anadan olmasının 120 illiyi, (13.05.1901-1956)
Niderland uşaq yazıçısı Anna Şmidtin 110 illiyi, (20.05.1911–1995)

### Milli qəhrəmanlıq zirvəsi

Paşayev Baxşeyiş Xanəhməd oğlunun 85 illiyi, (01.05.1936-12.07.1992)
Əliyev İlham Muzəffər oğlunun 60 illiyi, (05.05.1961-19.08.1990)
Həsənov İlham Gülbala oğlunun 45 illiyi, (06.05.1976-17.03.1995)
Hüseynov Elşən İbrahim oğlunun 45 illiyi, (30.05.1976-17.03.1995)

## Əlamətdar tarixi günlər və bayramlar

### 3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü, (1993)



1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərinə mətbuat azadlığının və demokratikliyinin təminatına yardımçı olmağa çağıran Vindhuk Bəyannaməsini qəbul ediblər. Buna görə, BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü elan edib. Söz və mətbuat azadlığı demokratiyanın meyarı olaraq tanınır. Söz azadlığının olmadığı ölkələrdə insan hüquqlarının pozulması hallarına daha çox rast gəlinir. Bu gün bir çox beynəlxalq qurumlar ölkələrdə söz və mətbuat azadlığını diqqət mərkəzində saxlayırlar.

İnternetdə: www.books.google.com

### 3 May – Türk Dünyasının Həmrəyliyi Günü, (1944)

***Türk millətinin bayrağı onun müqəddəslik simvoludur.***



Bu tarixi gün ilk dəfə 1944-ci ilin 3 mayında Topxana hərbi həbsxanasında 10 nəfər məhkum tərəfindən qeyd olunub. Azərbaycanda Türkçülük Günü 1992-ci ilin may ayının 3-dən etibarən qeyd edilir. Türkçülük Günü Türkiyədə daha geniş qeyd olunur. Azərbaycanda isə bu günü əsasən milliyyətçilər qeyd edirlər. Hər bir xalq öz keçmişini, tarixini bilməli, özünü tanımalı və mirası yaşatmalıdır. 3 May tarixinin Türkçülük Günü kimi tarixə yazılmasında, türkçülük uğrunda mübarizə aparan insanlar uzun illər təqiblərə məruz qalmışlar. Türkçülük Günü əslində Türkiyədən qaynaqlanır. Türk dünyası bütün dünyaya ədalət, hürriyyət gətirdi. Sonradan türkü məhv etmək üçün müəyyən qüvvələr hərəkətə gəldi. Türk dövlətləri sıradan çıxarıldı, 1918-ci ildə Birinci Dünya müharibəsi bitənə kimi Osmanlı imperiyasını da çökdürdülər. Bundan sonra meydana Atatürk gəldi və türk millətini, türk milliyyətçilərini qalibiyyətə apardı. Atatürkdən sonra baş verən proseslər yenidən Qərb dünyasının istəyi ilə getməyə başladı. Bu dövrdə milliyətçilər təqiblərə məruz qaldılar və bunun kuliminasiya nöqtəsi isə 3 may 1944-cü ildə baş verdi.

İnternetdə: www.books.google.com

**3 May – Beynəlxalq Günəş Günü, (1994)**



Bu gün YUNESKO-nun qərarı ilə təyin olunmuşdur. Yer kürəsinə ən yaxın ulduz Günəşdir. Yaşayışın mənbəyi olan Günəşi nə qədər tanıyırıq? Beynəlxalq Günəş Günü artıq on ildən çoxdur ki, may ayının 3-də qeyd edilir. Günəş Günü Milli Uçuş və Kosmos İdarəsi tərəfindən qeyd edilir. Günəş bitki və heyvanlar aləminə lazım olan istiliyi, işığı verir. Yer Kürəsinin atmosferini formalaşdırır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şairimiz Məmməd Araz hələ 1982-ci ildə maraqlı bir şeir yazmışdır: "Günəş günü". Bu şeir təbiəti, işığı, yerin və göyün gözəlliklərini, eləcə də insanın ruhundakı nuru, xeyirxah əməlləri qorumaq üçün bir çağırış idi:

*Əkinçi, səpinçi gününə yaxın,*
*Dəmirçi, kömürçü gününə yaxın,*
*Bu günü qoparaq il budağından,*
*Elə adisinin, elə bozunun.*
*Süpürüb qarını, silib tozunu*
*Yuyub gözümüzdə, sözümüzdə biz*
*Sərib qurudub da sinəmizdə biz,*
*O günə ad verək, ad – Günəş günü,*
*Əkək ağlımıza, yaddaşımıza.*
*Bir gün salam verək, - İşığın aydın!*
*Töhfəmiz olmasın işıqdan ayrı...*

Bu şeir yazılandan xeyli sonra – 1994-cü ildə beynəlxalq təqvimlərdə əlamətdar günlər sırasına biri də əlavə olundu: Günəş Günü. Beynəlxalq Günəş Enerjisi Cəmiyyətinin Avropa bölməsinin təşəbbüsü ilə insanların diqqətini bərpa olunan enerji mənbələrinə cəlb etmək üçün hər il mayın 3-də dünyada Günəş Günü qeyd olunur. Həmin gündə alimlər, ictimai təşkilatlar və şirkətlər günəş enerjisinin imkanlarını nümayiş etdirmək üçün müxtəlif tədbirlər təşkil edirlər.

İnternetdə: www.books.google.com

**5 May – Əlillərin Hüquqlarının Müdafiəsi Günü, (1992)**



1992-ci ildən BMT Baş Assambleyasının qərarı ilə hər il 5 may Əlillərin Hüquqlarının Müdafiəsi Günü kimi qeyd olunur. Azərbaycanda bu qəbildən olan insanların sayı 450 mindən çoxdur. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı mövcuddur. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Əlillərin sosial müdafiəsi isə ildən-ilə daha da gücləndirilir, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu işlər onların cəmiyyətə inteqrasiyasına xidmət edir. Dövlət hər ay əlillik qruplarına uyğun olaraq, onlara pensiya və sosial müavinətlər verir. Onların sağlamlığının bərpası üçün paytaxtda və bölgələrdə reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar əlilliyin qarşısının alınmasında, əlillərin reabilitasiyasında mühüm rol oynayır. BMT-nin nüfuzlu strukturlarından biri olan Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyi tərəfindən ölkəmizin Prezidentinə ünvanlanmış 2008-ci il 12 dekabr tarixli müraciətdə "Əlillərin hüquqları haqqında" Konvensiyanın yerli və mərkəzi səviyyədə müxtəlif dövlət qurumları arasında əlaqələndirməni təmin etmək məqsədilə hökumətdə əlaqələndirici şəxsin təyin olunması və əlaqələndirmə mexanizminin yaradılması (maddə 33.1), Konvensiyanın həyata keçirilməsinin təşviqi və monitorinqi (maddə 33.2) məqsədilə Ombudsman Aparatında müvafiq bazanın yaradılması üçün adekvat tədbirlərin görülməsi təklif edilmişdir. Bu UNİCEF-in həmin istiqamətdə hökumətimizə dəstək vermək niyyətində olduğunun ifadəsidir.

İnternetdə: www.books.google.com

## 8 May – Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü, (1953)

Bu gün 1828-ci il may ayının 8-də anadan olmuş İsveçrə vətəndaşı, humanist ictimai xadim, “Nobel” sülh mükafatı laureatı Anri Dünanın şərəfinə təsis edilmişdir və 1953-cü ildən qeyd olunur. Anri Düna 1859-cu ildə İtaliyanın Solferino əyalətində Avstriya və Fransa orduları arasında baş vermiş döyüşün şahidi olmuş və müharibənin dəhşətlərini öz gözləri ilə gördükdə, yerli əhalini yardım üçün səfərbər etmişdir. 1863-cü ildə Anri Dünanın təşəbbüsü ilə yaralılara yardım göstərən Beynəlxalq Komitə (gələcək Beynəlxalq Qırmızı Xaç Komitəsi) yaradılmışdır. 1864-cü il avqust ayının 22-də İsveçrədə keçirilən Diplomatik Konfransda emblem – ağ fonda qırmızı xaç qəbul olunmuşdur. Belə fərqləndirici nişan, qırmızı fonda ağ xaçı əks etdirən İsveçrə dövlətinin bayrağına olan hörmətin əlamətidir.

1876-cı ildə Osmanlı imperiyası rus-türk müharibəsində iştirak edən tibbi işçilərinin müdafiəsi üçün Qızıl Aypara emblemini təklif etmişdir. O vaxtdan adı çəkilən emblem, ağ fonda qırmızı xaç emblemi ilə yanaşı, bərabər hüquqlu nişan kimi qəbul olunub. Hazırda həmin emblem bir sıra ölkələr tərəfindən istifadə edilir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı tərkibində 183 milli Qızıl Xaç və Qızıl Aypara cəmiyyətlərini, Beynəlxalq Qırmızı Xaç Komitəsini və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasını birləşdirir.

İnternetdə: www.books.google.com

**9 May – Faşizm Üzərində Qələbə Günü, (1945)**

***"Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya müharibəsində, Böyük Vətən Müharibəsində Azərbaycan Respublikasının fəaliyyəti, rolu çox böyük olmuşdur".***

**Ümummilli lider Heydər Əliyev**




Müharibədə Azərbaycanın 600 mindən çox oğul və qızının amansız düşmənlə döyüşlərdə göstərdikləri misilsiz şücaət və igidlik, arxa cəbhədə çalışanların isə əmək rəşadəti dillər əzbəridir və bugünki nəsillər üçün daim örnək olaraq qalacaqdır**.** Azərbaycan xalqının İkinci Dünya Müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələri haqqında çoxlu sayda şeirlər, kitablar yazılmış, bədii və sənədli filmlər çəkilmiş, qəhrəmanların şərəfinə abidələr ucaldılmış, onların adları əbədiləşdirilmişdir. 9 may – Faşizm Üzərində Qələbə Günü təntənəli surətdə qeyd olunur. Bu qələbə heç də asan başa gəlməyib. Yüzlərlə, minlərlə həmvətənlərimiz bu qələbə naminə canlarından keçiblər. Onlar doğma Azərbaycanın hüdudlarından çox - çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq və həm də doğma Azərbaycan torpağını qoruyublar. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 130 nəfər həmyerlimizin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna əyani sübutdur. Əgər o vaxt Azərbaycan nefti cəbhəyə göndərilməsəydi, bu müharibə qələbə ilə bitməzdi. Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Qələbənin 50 illiyi ilə bağlı keçirilən təntənəli tədbirdə demişdir: "Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur". Müharibənin ilk illərində faşist Almaniyası işğal etdiyi Avropa ölkələrinin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirmişdi. Lakin "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altında bütün Sovet xalqlarını birləşdirdi. Bununla da düşmənin hücumları, nəinki dayandırıldı, faşistlər Moskva, Stalinqrad, Kursk və başqa döyüşlərdə ən ağır və sarsıdıcı məğlubiyyətə uğradı, 1945-ci ildə isə tamamilə məğlub edildi.

İnternetdə: www.books.google.com

**15 May – Beynəlxalq Ailə Günü, (1994)**

***"Ən gözəl təmir olunan uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz".***

**Mehriban Əliyeva,**

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*



Ailə Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəsdir. Dövlətimiz cəmiyyətin əsas atributu olan ailənin rifah halının gündən-günə daha da artmasının qayğısına qalmaqla, onun müqəddəsliyini bir daha təsdiq edir.

BMT Baş Assambleyası 1993-cü ilin sentyabrında 15 may tarixini 1994-cü ildən etibarən hər il Beynəlxalq Ailə Günü kimi qeyd etməyi qərara almışdır. Ailənin cəmiyyətin əsas elementi, kiçik demokratiyanın təməli olduğunu nəzərə alaraq, BMT demokratik ideyaları dəstəkləyən, sülh və demokratik millətlər birliyini qurmağa səy göstərən bütün dünya ailələrini birləşdirməyə çalışır. Azərbaycanda ailə bütün zamanlarda cəmiyyətimizin ən müqəddəs təməl daşı hesab olunub. Ulu öndər Heydər Əliyev Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayırdı. Bu münasibət indi də dövlət başçımız İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün ölkəmizdə ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir və dövlət öz siyasətində ailənin sosial müdafiəsi, gənc ailələrə qayğını əsas tutur. Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayan ulu öndər Heydər Əliyev cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin gerçəkləşdirilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də böyük işlər görmüşdür. 1998-ci il yanvarın 14-də Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu məsələyə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzalamışdır. Hazırda bu komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq mövcud problemlər üzərində işləyir, onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir. Ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban Əliyevanın ailə, qadın və uşaq məsələlərinə, bu sahədə aktual problemlərə həssas münasibəti bunu bir daha təsdiq edir. M. Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi nəhəng proqram və layihələr ailələr üçün, sözün əsl mənasında, böyük dayaqdır. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində görülən işlər də əslində, Azərbaycan ailəsinin rifahına, möhkəmlənməsinə xidmət edir.

İnternetdə: www.books.google.com

**15 May – Beynəlxalq İqlim günü, (1992)**



İqlimin qorunması bəşəriyyətin qarşısında duran qlobal problemlərdən biridir. Hər il mayın 15-də dünya Beynəlxalq İqlim Gününü qeyd edir. Bu qeyri-rəsmi bayramın təsis olunması, meteoroloqların iqlimin indiki və gələcək nəsillərin rifahı üçün vacib resurs kimi qorunub saxlanması çağırışına cavab olmuşdur. Qlobal istiləşmə, atmosfer qatında ozonun yüksək səviyyədə olması, planetdə hava şəraitinin dəyişilməsi – Yer kürəsində iqlimin pisləşməsinə səbəb olur və nəticə etibarilə insanların həyat, ərzaq və mülkiyyət təhlükəsizliyinə, təbii ehtiyatların vəziyyətinə və dövlətlərin balanslaşdırılmış inkişafına mənfi təsir göstərir. Müasir elmlər Yer kürəsində temperaturun getdikcə qalxması halında iqlimin fəlakətli dəyişikliyinin vaxtını dəqiq deyə bilmirlər. Lakin ekoloq və meteoroloqların fikrincə, bu dəyişiklikləri təxirə salmaq olar. Geridönməz iqlim dəyişikliklərinə səbəb olan əsas problemlərin sırasına atmosferdə parnik qazlarının toplanmasının çoxalmasıdır. Bu təzahür dünya səviyyəsində ilk dəfə 1992-ci ildə Rio-de-Janeyroda Yer Sammitində müzakirə olunmuşdur. Dünyanın 180-dən çox ölkəsinin nümayəndələri BMT-nin İqlim Dəyişikliyi Haqqında Çərçivə Konvensiyasını imzalamışlar. 1997-ci ildə bu konvensiya tərəfdarlarının Kiotoda (Yaponiya) keçirilən üçüncü konfransında konvensiyaya əlavə kimi məşhur Kioto protokolu qəbul olunmuşdur. 2007-ci ilin dekabrında Balidə (İndoneziya) BMT-nin iqlim dəyişikliyi məsələlərinə həsr olunan başqa bir konfransı keçirilmişdir.

Yer üzündə iqlimin qorunması planetin hər bir sakinindən asılıdır. Bunun üçün avtomobillərdən az istifadə etmək, ağac əkmək, yaşıllıqları qorumaq və s. lazımdır. Bu kiçik işləri hər bir insan həyata keçirsə, əslində çox böyük müsbət nəticələrə səbəb olar.

İnternetdə: www.books.google.com

**18 May – Beynəlxalq Muzeylər Günü, (1977)**

***"Muzey maddi - mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsidir".***

**Ümummilli lider Heydər Əliyev**




2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir. Ümummilli lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, YUNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Muzeylər dünyada mədəni proseslərin fəal iştirakçısına, eyni zamanda, qloballaşmanın mənfi nəticələrinə qarşı dura bilən mədəniyyət ocaqlarıdır. Hər il mayın 18-i dünyada Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının (İCOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.

Dünyanın 100-dən çox ölkəsində qeyd edilən Beynəlxalq Muzeylər Günü qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda bayram edilir. Ölkəmizdə muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə respublika Mədəniyyət Nazirliyinin Muzeylər İdarəsi, Muzey işi üzrə Elmi-Metodiki Mərkəz, Muzey Ekspozisiyalarının Bədii Tərtibatı Emalatxanası, Muzey Sərvətləri və Xatirə Əşyalarının Bədii Bərpa Mərkəzi təşkil olunmuşdur. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial – xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır. 1994-cü ildə "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində "İstiqlal" Muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" 2006-cı il 18 dekabr, "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 2006-cı il 19 dekabr, "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli sərəncamları, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı", həmçinin "Azərbaycan Xalça Muzeyinin yeni binasının maddi-texniki təminatı haqqında" 2013-cü il 29 dekabr tarixli sərəncamları bu sahəyə göstərilən qayğıya bariz nümunələrdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata

keçirmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq, milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu YUNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır. Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənmiş, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmişdir. Ümummilli liderimizin siyasi irsinin öyrənilməsi, azərbaycançılıq məfkurəsinin formalaşdırılaraq inkişaf etdirilməsi məqsədilə yaradılan Heydər Əliyev muzeyləri isə respublikada muzey şəbəkəsinin genişləndirilməsi sahəsində mühüm hadisə kimi qiymətləndirilməlidir.

İnternetdə: www.books.google.com

**20 May – Ümumdünya Metrologiya Günü, (1875)**



Ümumdünya Metrologiya Gününün tarixi 1875-ci ilin 20 mayından – Parisdə Beynəlxalq Diplomatik Konfransda 17 inkişaf etmiş ölkənin hökumət nümayəndələrinin məşhur Metrik Konvensiyasını imzalamaqla başlayıb. Konvensiyaya uyğun olaraq Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro (BİPM) yaradılıb, ölçmələr üzrə elm sahəsində beynəlxalq əməkdaşlığın əsasları və onun sənayedə, ticarətdə, cəmiyyətin mənafeyi naminə praktiki tətbiqi mexanizmləri işlənib hazırlanıb. Belə ki, məhz bu sənəddən sonra ölçmələrin metrik sistemi və beynəlxalq vahidlər sistemi tətbiq edilib, onun əsasında Beynəlxalq Ölçmələr Sistemi yaradılıb. Metrik Konvensiyanın ən başlıca məqsədi olan ölçmələrin vəhdətinin bütün ölkələrdə təmin edilməsi bu gün də çox vacib məsələdir. Müasir cəmiyyətin bütün həyat və fəaliyyət istiqamətləri – səhiyyə, ekologiya, müdafiə və təhlükəsizlik, ən yeni elm həcmli texnologiyaların inkişafı və tətbiqi, energetika, ticarət və s. ölçmələrin dəqiqliyindən, vəhdətindən və doğruluğundan asılıdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən 13 iyun 2000-ci ildə təsdiq olunmuş "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, daha sonra 13 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş eyni adlı, lakin müasir dövrün tələblərinə uyğun hazırlanmış yeni Qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirib və metrologiyanın inkişafına ciddi təkan olub. Azərbaycanda metrologiya sahəsi üzrə dövlət siyasətini Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirməkdədir. Bu sahənin beynəlxalq tələblər səviyyəsində inkişafına nail olmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2012-ci il tarixli Fərmanı ilə Komitə yanında Dövlət Metrologiya Xidməti yaradılıb. Hazırda Azərbaycanda ölçmələrin vəhdətini və dövlət etalonlarından ötürülməsini təmin etmək məqsədilə milli etalon bazasının təkmilləşdirilməsi üzrə işlər aparılır. Belə ki, Komitənin Milli Etalon Mərkəzində kütlə, təzyiq, sıxlıq və özlülük, temperatur, elektrik, vaxt və tezlik, dozimetriya dövlət etalonları saxlanılır və adıçəkilən sahələr üzrə ölçmələr digər ölçmə vasitələrinə ötürülür.

İnternetdə: www.books.google.com

**21 May – Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günü, (2002)**




Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilmişdir. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilmişdir. Hazırda dünya mədəniyyətini çox müxtəlif amillər təhdid edir – bir halda milli özünəməxsusluğun həddən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, digər halda din mədəniyyətə təzyiq göstərir, üçüncü halda praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər yox olur, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur. Bütün bu faktların nəzərə alınması və onların əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə YUNESKO-nun “Mədəniyyətlərin müxtəlifliyinə dair” bəyannaməsinin qəbul olunmasını zəruri etmişdir. Bu bəyannamənin həyata keçirilməsi üçün iyirmi əsas istiqamətdən ibarət Fəaliyyət Planı qəbul olunmuşdur. Bəyannamədə müxtəliflik, dialoq və inkişaf arasında əlaqənin yeni anlayışı irəli sürülmüşdür. Qeyd etmək lazımdır ki, BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir. Milli-mədəni müxtəliflik mədəni zənginlik deməkdir. Azərbaycan dövləti ölkədəki milli-mədəni müxtəlifliyin qorunub saxlanmasında, inkişafında maraqlıdır və buna dəstək verir. Dünya cəmiyyəti bununla mədəni müxtəlifliyin inkişafına töhfələr verməklə, mədəni irsin qorunması, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında münasibətlərin qurulması vacibliyini həmişə yadda saxlamalıdır.

İnternetdə: www.books.google.com

**22 May – Beynəlxalq Bioloji Müxtəliflik Günü, (2000)**

***Məşhur bioloq E. Vilson biomüxtəlifliyi – "həyatın məğzi" adlandırmışdır. Biomüxtəliflik Yer üzərində mövcud olan genlərdən ekosistemlərə qədər bütün canlıların əmələ gətirdiyi müxtəlifliyin məcmusu deməkdir.***



Bioloji müxtəliflik bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə və digər su ekosistemləri və ekoloji komplekslər də daxil olmaqla, bütün canlı orqanizmlərin növ müxtəlifliyi deməkdir. 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası 55/201 nömrəli qətnaməsi ilə 22 may tarixini Bioloji müxtəliflik üzrə Konvensiyanın qəbul olunması, həmçinin "Beynəlxalq Bioloji Müxtəliflik Günü" elan etmişdir. Azərbaycanda biomüxtəliflik üzrə Konvensiyaya 2000-ci ildə qoşulmuşdur. Bizim taleyimiz ekosistemin məhsuldarlığından və sağlamlığından asılı olduğundan dünyada biomüxtəlifliyin qorunması, irqindən, dinindən, rəngindən asılı olmayaraq, hər birimizin borcudur. Bu baxımdan təbiətdə canlıların qorunması təbliğinə istiqamətlənmiş 22 May – Beynəlxalq Biomüxtəliflik Gününü Avropanın bir çox ölkələri qeyd edirlər. 1992-ci ildə BMT-nin təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş konfransda qeyd edildiyi kimi, "dünyanın gələcəyi, inkişafı ekoloji problemlərin həll ediləcəyindən asılı olacaqdır".

Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Burada zəngin bitki və heyvan növləri cəmlənmişdir. Müasir Azərbaycan faunası 18.000 canlıdan ibarət olub, məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunmuşdur. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. Azərbaycanın su hövzələrində balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Azərbaycanın həşəratlar aləmi də, son dərəcə zəngin olub, 25 minə yaxın növü əhatə edir. Azərbaycan florasının biomüxtəlifliyinə isə dərman, efiryağlı, dekorativ, meyvə, texniki və digər faydalı bitkilər daxildir.

İnternetdə: www.books.google.com

**23 May - Ümumdünya Metereologiya günü**



***Hər kiçik yarpağı da***
***Bulağı da***
***Suyu da.***
***Havanı da qoruyaq.***
***Quşların sığındığı***
***Yuvanı da qoruyaq!***
Əhməd Cəmil

Ümumdünya Metereologiya günü 1950 - ci ildən, yəni ÜMT- nin yaradılması barədə konvensiya qüvvəyə minəndən bəri ənənəvi olaraq hər il bir deviz altında keçirilir. Mərkəzi Cenevrədədir. Ümumdünya Metereologiya Konqresi hər 4 ildən bir keçirilir. Azərbaycan 1993 - cü il sentyabrın 3 - dən Ümumdünya Metereologiya Təşkilatının üzvüdür və Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyasına qoşulub və bu konvensiyadan irəli gələn bütün tələblərə əməl edərək, mütəmadi olaraq meteoroloji, hidroloji, iqlim müşahidələri aparır, məlumatların beynəlxalq və regional mübadiləsini təmin edərək, təşkilatın qəbul etdiyi qərarları icra edir. Müəyyən edilmiş metroloji norma və qaydalara riayət edilməsi Azərbaycan dövlətinin diqqətində olan ən vacib məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev tərəfindən 13 iyun 2000-ci ildə təsdiq olunmuş "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, daha sonra 13 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş eyni adlı, lakin müasir dövrün tələblərinə uyğun hazırlanmış yeni Qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirib və metrologiyanın inkişafına ciddi təkan olub. Hazırda Azərbaycan Respublikası Prezidentinin apardığı uğurlu iqtisadi siyasətin nəticəsində ölkəmizin ixrac qabiliyyəti yüksəlib, yerli məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması işləri sürətlənib. Bütün bunlar isə metroloji təminatın inkişafından xəbər verir. Ölkə başçısı tərəfindən həyata keçirilən qeyri-neft sektorunun inkişafına yönələn məqsədyönlü iqtisadi-siyasi kurs müasir təcrübələrə və insan kapitalına əsaslanan innovativ iqtisadiyyatın inkişafına xidmət edir. Sənayenin effektivliyinin artırılması üçün yeni texnologiyalar, yeni yanaşmalar və metrologiya sahəsinin inkişafı həlledici əhəmiyyətə malikdir.

İnternetdə:https://azertag.az/xeber/20_may___Umumdunya_Metrologiya_gunudur-1062326

**23 May – Ümumdünya Tısbağa Günü, (2000)**



Tısbağa müdriklik, sərvət və uzunömürlülük rəmzi daşıyan heyvandır. 23 may bir çox ölkələrdə Ümumdünya Tısbağa Günü (World Turtle Day) qeyd olunur. Bu qeyri-adi bayram 2000-ci ildə Amerika Tısbağaların Qorunması Cəmiyyətinin (American Tortoise Rescue) təşəbbüsü ilə keçirilir. Bu təşkilat 1990-cu ildə Malibuda (ABŞ, Kaliforniya ştatı), şəhərin ətrafında yaşayan tısbağaların populyasiyasının qorunması üçün yaradılmışdır. Bayramın məqsədi tısbağaların insanlarla qonşuluqda yaşamaları səbəbindən kütləvi şəkildə tələf olmalarına ictimaiyyətin diqqətini cəlb etməkdir. Hər il bu gün tısbağaların məskunlaşdığı bütün ərazilərdə könüllülər miqrasiya və ya digər təhlükəli yerlərdə hərəkətin intensiv olduğu şoselərdə bu heyvanlar üçün keçidlər yaradaraq onları xilas edirlər. Aksiya iştirakçıları, həmçinin dəniz tısbağalarının yumurta qoyduğu dəniz sahillərinə qanunla qorunan ərazilər statusunun verilməsinə nail olurlar.

İnternetdə: www.books.google.com

## 28 May – Respublika Günü (1918)

***Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir.***

**Ümummilli lider Heydər Əliyev**




Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanıb. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Azərbaycanda hökm sürən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünya dövlətləri üçün açıq ölkəyə çevrilib. 28 May – Respublika Günü 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 1990-cu ildən Respublika Günü dövlət bayramı kimi qeyd edilir. 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Çar imperiyası dağıldı. Ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandı. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) yaradıldı. Bu respublika azərbaycanlıların tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. Azərbaycan Xalq Cümhuriyyətini rəsmi surətdə tanıyan ilk dövlət Osmanlı olmuşdur. (4 iyun 1918-ci ildə) 1918-ci ilin 9 noyabrında M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qırmızı rəngdə idi. Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Təəssüf ki, müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalıb devrildi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Amma xalqımızın azadlıq arzusu heç vaxt sönmədi və 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi.

İnternetdə: www.books.google.com

**31 May – Ümumdünya Tütünlə Mübarizə Günü, (1988)**



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Assambleyası 1988-ci ildə 31 may tarixini Ümumdünya Tütünlə Mübarizə Günü elan edib. O vaxtdan etibarən hər il dünyanın müxtəlif ölkələrində insanları tütün məhsullarından istifadədən çəkindirmək məqsədi ilə bu tarixi gün qeyd olunur. Azərbaycan 2005-ci ildə Tütünlə mübarizə haqqında ÜST-ün Çərçivə Konvensiyasını ratifikasiya edib. Bəşəriyyət XXI əsrin əvvəllərindən başlayaraq daha bir problemlə – ağciyərin xroniki xəstəliklərinin kəskin artması ilə üz-üzə qalmışdır. Ekologiyanın pisləşdiyi, qlobal tütün epidemiyasının genişləndiyi bir şəraitdə bu növ xəstəliklər təkcə sürətlə yayılmır, həm də bu səbəbdən ölüm halları kütləvi şəkildə artır.

21 may 2003-cü ildə Ümumdünya Səhiyyə Təşkilatı Assambleyası bütün dünya dövlətlərinin tam hüquqlu nümayəndələrinin işləyib hazırladıqları Tütünə qarşı Mübarizə üzrə Çərçivə Konvensiyasının bitmiş mətnini təsdiq etdi. Konvensiya 2003-cü il iyunun 30-dan 2004-cü il iyunun 29-na qədər BMT-nin Nyu - Yorkdakı mənzil qərargahında bütün dünya dövlətlərinin imzalaması üçün açıq idi. Bu müddətdə sənədi dünyanın 167 dövləti imzaladı. Bu gün onların sayı 192-yə çatır və bu sırada Azərbaycan Respublikası da var. Çərçivə Konvensiyasının iştirakçı dövlətləri, həmçinin Azərbaycan öz üzərinə bir tərəfdən tütün məhsullarına tələbatın və istifadəsinin azalması ilə digər tərəfdən isə tütün məmulatlarının idxalına nəzarətlə bağlı siyasət və qanun işləyib hazırlamaq və qəbul etmək öhdəliyi götürmüşlər.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

### 1 May - Türkoloq, tənqidçi Tofiq Hacıyevin anadan olmasının 85 illiyi, (1936)

***Tofiq Hacıyev Azərbaycan dili üslublarının tarixi təşəkkülünü müəyyənləşdirib və tarixi inkişafını tədqiq edib. Tarixi üslubiyyatın əsasını qoyub. Onun "Dədə Qorqud kitabı"nın bədii dili və tarixi, filoloji məzmunu ilə bağlı tədqiqləri, qorqudşünaslığa gətirdiyi "qorqudçu ozan" anlayışı diqqəti çəkir.***



**Tofiq İsmayıl oğlu Hacıyev- Azərbaycan dilçisi, türkoloq-alim, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Bakı Dövlət Universitetinin türkologiya kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü (2014)**

Tofiq Hacıyev 1 may 1936-cı ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub, 1958-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib və dilçilik ixtisası üzrə aspiranturaya qəbul edilib. 1962-ci ilin martında “Azərbaycan dilinin Cəbrayıl şivəsi” mövzusunda namizədlik, 1969-cu ildə “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. Tofiq Hacıyevin “Sabir: qaynaqlar və sələflər” (1980), “Şeirimiz, nəsrimiz, ədəbi dilimiz” (1990), “Dədə Qorqud: dilimiz, düşüncəmiz” (1999) kitabları işıq üzü görüb. “Azərbaycan sovet ədəbiyyatı” (1988) dərsliyinin ərsəyə gəlməsində həm müəllif kimi iştirak edib. Eyni zamanda “Azərbaycan ədəbi dili tarixi” (1976), “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili tarixi” (1977), “Azərbaycan dili” (1993, Zərifə Budaqova ilə birgə) kimi monoqrafiya və dərs vəsaitlərinin müəllifidir. Klassiklərimizin dili və üslubu ilə bağlı onlarca məqaləsi işıq üzü görüb: “Satira dili” (1975), “Yazıçı dili və ideya-bədii təhlil” (1979), “Molla Nəsrəddin”in dili və üslubu” (1983), “Füzuli: dil sənətkarlığı” (1994) kitabları çap olunub. Orta məktəblər üçün “Türk dili” (IX sinif, 1994, Əsgər Quliyev, Nizami Cəfərovla birgə), “Türk dili” (X-XI siniflər, 1994, Nizami Cəfərovla birgə) dərslikləri də nəşr edilib. Ümumiyyətlə, 20 kitabın, 400-dən çox elmi məqalənin müəllifidir.

**Əsas əsərləri və tərcümələri:** “Satira dili” (1975), “Azərbaycan ədəbi dili tarixi” (1976), “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” (1977), “Yazıçı dili və ideya-bədii təhlil” (1979), “Sabir: qaynaqlar və sələflər” (1980), “Azərbaycan dili tarixi” (1983), “Molla Nəsrəddin” in dili və üslubu” (1983), “Azərbaycan ədəbi dili tarixi, 2-ci hissə” (1987), “Şeirimiz, nəsrimiz, ədəbi dilimiz” (1990), “Azərbaycan dili” (1992), “Füzuli: dil sənətkarlığı” (1994), “Murad Adci. Qıpçaq çölünün yovşanı” (1997),” Dədə Qorqud: dilimiz, düşüncəmiz” (1999), “Azərbaycan ədəbiyyatı tarixi” (altı cilddə)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 879.

**5 May - Şair Sabir Cümşüdün anadan olmasının 85 illiyi, (05.05.1936)**



**Cümşüdov Sabir Qənbər oğlu - şair, nasir publisist, 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, iqtisad elmləri doktoru, professor.**

Cümşüdov Sabir Qənbər oğlu 1936-cı il mayın 5-də Astara rayonunun Motoliyataq kəndində anadan olmuşdur. İbtidai təhsilini Lerik rayonunun kənd məktəbində almışdır. ADPU - nin mexanika fakültəsində təhsil alıb, avtomobil nəqliyyatının istismarı üzrə mühəndis olmuşdur (1953-1958). Respublika Avtomobil Nəqliyyatı Nazirliyinin avtotəsərrüfatlarında baş mexanik, avtomobil dəstəsinin rəisi və baş mühəndisi işləmişdir (1958-1962). 1965 - ci ildə dissertasiya müdafiə edib texniki elmləri namizədi alimlik dərəcəsi almışdır. ADPU - də müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir (1965-1980). İqtisad elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür (1971). Ədəbi fəaliyyətə 1976-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş "Yaylaqlar" şeiri ilə başlamışdır. Həmin vaxtdan şeirləri, hekayə, əsər, mənsur şeir və publisist yazıları dövri mətbuatda müntəzəm surətdə çap olunur. Bir sıra şeirlərinə mahnı bəstələnmişdir. Ali məktəblərin elmi-texniki konfranslarında məruzə ilə çıxış etmişdir. Keçmiş SSRİ ali təhsil sistemi üzrə mərkəzi elmi metodiki şuranın üzvü olmuşdur (1979-1991).

**Əsərləri:** "Kamillik zirvəsi" (1980), "Göyün çıraqları" (1981), "Günəş damcıları" (1983), "Bahar nəfəsi" (1989), "Məhəbbət ülviyyəti" (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 754.

**7 May - Şair Mobil Quluzadənin anadan olmasının 85 illiyi, (07.05.1936)**



**Quliyev Mobil Balay oğlu şair, 1982 - ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

*Gəldim ki, uzadam bizim yamacı,*
*Evimiz həmişə başında olsun.*
*Gəldim ki, yurdumdan mən söhbət açım,*
*Gözüm torpağında, daşında olsun.*

Mobil Quluzadə

Quliyev Mobil Balay oğlu 1936 - cı ildə Azərbaycanın Füzuli rayonunun Mirzəcamallı kəndində anadan olmuşdur. Seyidmahmudlu kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətdə olmuşdur (1957-1960). Ədəbi fəaliyyətə 1957- ci ildə "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyi "Qalsın", "Dağlar" şeirləri ilə başlamışdır. APİ- nin ibtidai təhsil, pedaqogika və metodika fakültəsində təhsil almışdır (1961-1966). Əzizbəyov rayonundakı 241 saylı məktəbdə müəllimlik etmişdir. 1976 - cı ilin sentyabr ayından səhhətinə görə təqaüdə çıxmış, fərdi yaradıcılıqla məşğuldur.
**Əsərləri:** "Qızıl qayalar" (1969), "Neyin səsi" (1973), "Durna lələyi" (1979), "Karvan gedir" (1981), "Ulduzların yaşı" (1983), "Qızıl sarmaşıq" (1986), "Bəlkə yada düşüm" (1986) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 619.

**10 May - Yazıçı Əhmədağa Muğanlının anadan olmasının 95 illiyi, (1926-2001)**
***Əhmədağa Muğanlı böyük şair Xəqaninin belə bir fikrini yeri düşəndə söyləməyi xoşlayırdı: "Öz ürəyimi sındıra bilərəm, ancaq başqasının ürəyinə toxunmaram. Bu məndə uşaqlıqdan adətdir".***



**Qurbanov Əhmədağa Əkbər oğlu (Əhmədağa Muğanlı) - nasir, ssenarist, kino redaktoru. 1962-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Kinematoqrafçılar Birliyinin üzvü (1962), Azərbaycan Dövlət mükafatı laureatı (1983), Əməkdar mədəniyyət işçisi (1991).**

Qurbanov Əhmədağa Əkbər oğlu (Əhmədağa Muğanlı) 1926-cı il mayın 10-da Biləsuvar rayonunun Əliabad kəndində anadan olmuşdur. İbtidai təhsili doğma kənddə, orta təhsili isə Xırmandalı kənd orta məktəbində almış, məktəbi gümüş medalla bitirmişdir. ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1947-1952). Ədəbi fəaliyyətə "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Biz qol çəkirik ki..." hekayəsi ilə başlamışdır. Ondan sonra dövri mətbuatda vaxtaşırı çıxış edir. 20-yə yaxın sənədli film ("Azərbaycan..., Azərbaycan...", "Alagöz yaylağında", "Muğanın dastanı", "Çobanbayatı", "Mən sərhədçiyəm" və s.), "Dağlarda döyüş" (1968), "Od içində vahə" (1982), "Qocalar..., qocalar" (1982), "Atları yəhərləyin" (S.Rüstəmlə birlikdə, 1983), "Doğma sahillər" (1988) bədii filmlərin ssenari müəllifidir. Doqquz SSRİ medalı və SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Fəxri fərmanı, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin Fəxri fərmanı, "SSRİ-nin əlaçı kinematoqrafçısı", "Sərhəd qoşunları əlaçısı" döş nişanları ilə təltif olunmuşdur. 2001-ci il avqustun 4-də Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Vicdan" (1959), "Tikanlı məftillər" (1962), "Şəhriyar əfsanəsi" (1973), "Çobanbayatı" (1977), "Şikəstə" (1979), "Ömürdən yeddi yarpaq" (1984), "Gecikmiş etiraf" (1991), "Dağ dağa söykənər..." (1996) və s.

**Filmoqrafiya:** Nizami (film, 1959), Od içində (film, 1978), Odla təmasda (film, 1972), Ötür-ötür (film, 1980), Sabir (film, 1962), Şənlik bizə yaraşır (film, 1974), Şeytan göz qabağında (film, 1987), Vətən sərhəddən başlanır (film, 1988),Vətənin keşiyində (film, 1988), Bahar əyləncələri (film, 1989)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 229.

**10 May - Dramaturq Lütfəli Həsənovun anadan olmasının 105 illiyi, (1916-1976)**



**Həsənov Lütfəli Əkbər oğlu – dramaturq, 1957 - ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. "Qırmızı ulduz" ordeni, "Hərbi xidmətə görə", "Leninqradın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur.**

Lütfəli Həsənov 1916-cı il mayın 10-da Nuxa şəhərində sənətkar ailəsində doğulmuşdur. 1931-ci ildə Nuxa şəhər yeddiillik məktəbini bitirdikdən sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil almış (1932-1937), Ağdaş rayonunda iki il həkimlik etmişdir. Ədəbi yaradıcılığa şeir və hekayə ilə başlamışdır. İlk mətbu şeirləri ("Qızıl Bakı", "Gecənin təranəsi") 1937- ci ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur. İlk "Qardaş torpağı" pyesi "Azərbaycan" jurnalında dərc edilmişdir. 1939-cu ilin sentyabrında Sovet Ordusu sıralarına çağırılmış, 8 il hərbi xidmətdə olmuşdur. İkinci Dünya müharibə iştirakçısıdır. Hərbi qospitallarda şöbə müdiri olmuş, Nuxa rayon birləşmiş xəstəxanasında həkim işləmişdir (1953- cü ildən). Onun "Günəş" pyesi 1957-ci ildən Gəncə Dram Teatrında tamaşaya qoyulmuşdur. "Nuxa fəhləsi" qəzetində müntəzəm çıxış etmişdir. 1976 - cı il avqustun 4 - də Şəkidə vəfat etmişdir.
**Əsərləri:** "İki imtahan" (1960), "Bizim iş təcrübəmiz" (1967), "Ürəklə söhbət" (1971), "Zaman və insan ömrü" (1972) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 516.

**15 May - Yazıçı Məhərrəm Bayramovun anadan olmasının 105 illiyi, (1916-1988)**



**Bayramov Məhərrəm Sarəng oğlu – nasir, 1949 – cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, əmək veteranı (1974) “Qırmızı ulduz”, I dərəcəli “Böyük Vətən müharibəsi” ordenləri, on bir medalla , o cümlədən əmək veteranı medalı ilə təltif olunmuşdur.**

Məhərrəm Bayramov 1916 - cı il mayın 15-də Bakı yaxınlığındakı Suraxanı kəndində anadan olmuşdur. Gənc yaşlarından Abşeronda, “Əzizbəyovneft” trestində fəhlə, neftölçən, hava tənzimçisi işləmiş, həm də orta təhsil almışdır (1934-1937). Məktəblilərin dama üzrə yarışlarında respublika çempionu olmuş (1933), Moskvada keçirilən ümumittifaq dama yarışlarında III yeri tutmuşdur (1934). 1939 -1940 - cı illərdə Sovet Ordusu tərkibində Finlandiyada olmuşdur. Ordudan qayıtdıqdan sonra Bakıda Çaparidze rayon partiya komitəsində təbliğat və təşviqat şöbəsinin müdiri (1942-1945), Azərnəşrdə hərbi vətənpərvərlik ədəbiyyatı şöbəsinin müdiri (1945), Bakı şəhəri rayon partiya komitəsində təşkil-təminat şöbəsinin müdiri (1947), III Beynəlmiləl mətbəəsində partiya təşkilatının katibi (1949), Azərbaycan SSR Daxili İşlər Nazirliyində partiya təşkilatının təlimatçısı (1954), yenidən Bakı şəhəri RK partiya kabinetində müdir (1957), Yeni Suraxanıdakı 8 mart adına mədəniyyət evinin müdiri (1962), 232 və 89 saylı məktəblərdə müəllim (1962-1974) vəzifələrində işləmişdir. 1974 - cü ildə təqaüdə çıxmış, bütün qüvvəsini bədii yaradıcılığa həsr etmişdir. Bakı şəhəri rayon zəhmətkeş Deputatları Sovetinin deputatı seçilmişdir (1958-1959). İctimai işlərdə fəal çalışmışdır. Məhərrəm Bayramov 1988 - ci il fevralın 19 - da Bakıda vəfat etmişdir.

**Əsərləri:** “Müharibə günlərində” (1946), “Buruqlar arasında” (1949), “Təmir ustası” (1950) və s.

**Tərcümələri (ruscadan):** Stoyanov Dosqalov, Rad babanın ulduzu (1950), Göy qurşağı (ədəbi almanax) (1985)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 552.

**20 May - Şair, publisist Sabir Rüstəmxanlının anadan olmasının 75 illiyi, (1946)**

***Sabir Rüstəmxanlının "Ömür kitabı" adlı əsəri Azərbaycanda xalqın milli və yurdsevərlik duyğularının oyanmasında ciddi rol oynamış və 1988-ci il milli azadlıq hərəkatının mənəvi təməllərindən biri olmuşdur.***



**Rüstəmxanlı Sabir Xudu oğlu -Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Azərbaycanın xalq şairi, ictimai-siyasi xadim, millət vəkili**

**R**üstəmxanlı Sabir Xudu oğlu 1946-cı il may ayının 20-də Yardımlının Hamarkənd kəndində anadan olub. 1963-cü ildə Yardımlı qəsəbə onbirillik məktəbini bitirib. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1968-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. S.Rüstəmxanlı 1976-cı ildə “Molla Nəsrəddin" və folklor” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. Erkən yaşlarından məşğul olduğu ədəbi fəaliyyət 1967-ci ildən onun əsas peşəsinə çevrilmişdir. 1967-1978-ci illər ərzində “Ədəbiyyat və incəsənət” qəzetində xüsusi müxbir və şöbə müdiri, 1978-1989-cu illər arasında isə “Yazıçı” nəşriyyatının baş redaktoru olmuş, yüzlərlə elmi, ədəbi-tənqidi, publisistik yazı çap etdirmişdir. İlk kitabı 1970-ci ildə nəşr edilmişdir. Azərbaycanda, Türkiyədə, Rusiyada, İsveçdə 20-dən artıq şer, nəsr, publisistika kitabları nəşr edilmişdir. Kitabları Azərbaycanın yüksək ədəbi ödüllərinə layiq görülmüş, onun adını bütün türk dünyasında və əski Sovetlər Birliyində tanıtdırmışdır. “Tanımaq istəsən”, “Xəbər gözləyirəm”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim!”, “Qan yaddaşı”, “Zaman məndən keçir” və sair kimi şeir kitablarının, “Bütövlük”, “Didərginlər”, “Cavad xan”, “Orxonla görüş” poemaların, “Bu sənin xalqındır” publisistik yazılarından ibarət əsərin, “Atamın ruhu”, “Xətai yurdu”, “Göy Tanrı”, “Ölüm Zirvəsi (Cavad xan)”, “Difai Fədailəri”, “Sunami” romanlarının müəllifidir. Əsərləri bir çox dünya xalqlarının dillərinə tərcümə olunub. 2005-ci ildə Xalq Şairi fəxri adına layiq görülmüşdür.

Kitabları: “Tanımaq istəsən”, “Xəbər gözləyirəm”, “Gəncə qapısı”, “Sağ ol, ana dilim!”, “Qan yaddaşı”, “Ömür kitabı”, “Zaman məndən keçir!”, “Xətai yurdu”, “Göy Tanrı”, “Bütövlük həsrəti”, “Atamın ruhu”, “Ölüm zirvəsi” , “Difai fədailəri”, “Sunami”, “Əbədi Sevda” və s.

**Filmoqrafiya:** Azərbaycana namus və sevgiylə (film, 2006), Baba Dağ (film, 2006), Cavad xan (film, 2009), Heydər Əliyev. Dördüncü film. Lider (film, 1999), Meşəyə insan gəlir (film, 1980), Musaküçə kəndinin sakinləri (film, 1973), Müstəqillik yollarında. Birinci film (film, 2004), Zəlimxan dastanı (film, 2007), Əsgər mahnıları və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 760.

**27 May - Şair, yazıçı Söhrab Tahirin anadan olmasının 95 illiyi, (1926-2016)**



**Tahiri Söhrab Əbülfəz oğlu (Söhrab Tahir) — Azərbaycanın xalq şairi, nasir, publisist.**

Tahiri Söhrab Əbülfəz oğlu 1926-cı mayın 27-də İranın Astara şəhərində sənətkar ailəsində anadan olmuşdur. "Səadət" və "Şahpur" məktəblərində 9 – cu sinfədək təhsil almış, ailə vəziyyətinin ağırlığı üzündən atası ilə "İran-İngilis neft şirkəti"ndə işləməyə məcbur olmuşdur. Sovet Ordusunun İrana daxil olmasından sonra xalq hərəkatında fəal iştirak etmişdir. 1946-cı ildə Bakıya təhsil almağa göndərilmişdir. 1950-ci ildə Bakı Tibb Məktəbində stomatoloq və feldşerlik ixtisası almışdır. O, 1952-1957-ci illərdə ADU-nin filologiya fakültəsində oxumuşdur. 1959-1961–ci illərdə Moskvada Maksim Qorki adına Ali Ədəbiyyat kurslarında müdavim olmuşdur. 1962 – 1966-cı illərdə ADF-in Bakı komitəsində birinci katib, "Azərbaycan" qəzeti və jurnalı redaksiyalarında bədii şöbələrdə müdir, "Səhər" ədəbi–tarixi jurnalında baş redaktor müavini, 1984-cü ildən "Azərbaycan" jurnalında redaktor olmuşdur. Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin," jurnalı redaksiya heyətinin, "Yazıçı" nəşiryyatının bədii şurasının, Azərbaycan Ədəbiyyat Fondu idarə heyətinin üzvü, SSRİ ədəbiyyat fondu plenimunun üzvü, Azərbaycan Yazıçılar Birliyi şeir şurasının sədri (1986-1991) olmuşdur. 1991–ci ildə Bədii ədəbiyyatı təbliğat bürosu idarə heyətinin sədri təyin edilmişdir. İnqilabi, ədəbi–ictimai fəaliyyətinə görə Təbrizdə "21 Azər" medalı və bir sıra başqa medallarla, Azərbaycan SSRİ Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. 2006 – cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür. 2010 – cu ildə Rusiya Yazıçılar İttifaqı və onun Moskva şəhər təşkilatı nəzdində fəaliyyət göstərən Yazıçı – tərcüməçilər İttifaqının qərarı ilə Beynəlxalq V.V.Mayakovski ordeni ilə təltif edilmişdir.

**Əsərləri:** "Vətənlə sevgi arasında" (şeirlər və poemalar) (1986), "Qonşu qızın məktubları" (povest və roman) (1985), "Əmanət (povestlər)" (1991), "Lirika" (1992), "Sevgi əfsanəsi" (şeirlər və poemalar) (1983), "Ay işığında", "Səndən uzaqda", "Burdan bir atlı keçdi", "İki dəfə yox olmuş adam", "Sonuncu şah", "Ata" və s.

**Haqqında olan ədəbiyyat :** Arzumanlı V. 75 yaşın pillələri (Söhrab Tahir-75. Ömürdən yarpaqlar). Bakı: Qartal, 2001; Babayev A. Ölümdən güclü… (Söhrab Tahirin eyni adlı kitabı haqqında). "Kommunist", 1982; Duyğun R. Mübariz poeziya (Şair Söhrab Tahir haqqında). "Bakı", 1986; Əbilov A. Təbrizdən Turana gedən yol: Bu Söhrab Tahirin məslək və tale yoludur "Yeni Azərbaycan", 2001; Mütəllibov T. Yaş artıqca gəncləşən ürək (Şair S.Tahir haqqında). "Azərbaycan gəncləri", 1986 və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 807.

**30 May – Ədəbiyyatşünas, tənqidçi Qurban Bayramovun 75 illiyi, (1946)**



**Bayramov Qurban Fərman oğlu (1946) — Azərbaycan Yazıçılar Birliyinin üzvü (1985), Respublika Qarabağ Ağsaqqallar Şurasının üzvü (2001), Azərbaycan Ziyalılar Hərəkatı Ali Şurasının üzvü (2003), filologiya üzrə fəlsəfə doktoru (1979), Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi. Azərbaycan MEA-nın, Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının fəxri fərmanlarına, "Tanınmış Vurğunşünas alim", "Fədakar alim", "Elm fədaisi" fəxri diplomlarına, "Səməd Vurğun mükafatı"na, "Avropa Nəşr Mətbu Evi"nin "Qızıl medal"ına layiq görülmüşdür.**

Qurban Bayramov 1946-cı il mayın 30 – da Azərbaycanın Ağdam rayonunun Əlimədədli kəndində anadan olmuşdur. Orta təhsilini burada almış, indki N.Tusi adına ADPU-nin filologiya fakültəsini (1963-1967) bitirmişdir. Orta məktəbdə müəllim, tədris işləri üzrə direkor müavini vəzifələrində çalışmışdır (1967-1971). Hərbi xidmətdə olmuş (1967-1968), aspirantura təhsili almışdır (1970-1974). 1972 – ci ildən Ədəbiyyat İnstitutunda baş laborant, elmi işçi, baş elmi işçi olmuşdur. Hazırda həmin institutda aparıcı elmi işçi vəzifəsində fəaliyyət göstərir.1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda dissertasiya müdafiə etmişdir. Dövri və elmi mətbuatda 300-dən çox məqalə dərc etdirmiş, "Vurğun poeziyası", "Lirik qəhrəman və zaman", "Yaşar Qarayev: Milli yaddaş təlimi – Azərbaycançılıq" elmi-nəzəri, "Yaralı Vətənin yaralı övladları" bədii-publisist kitabları var. Onun "Müasir Azərbaycan poeziyasında üslubi meyillər", "Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik", "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı", "Səməd Vurğun dünən, bu gün və sabah", "M.H.Şəhriyar poetik üslubu", "Qarabağ ədəbi mühiti – uzaq keçmişdən bu günümüzə qədər" maraqlı tədqiqat işləri vardır. Azərbaycan ədəbiyyatının əksər nümayəndələri barəsində məqalə yazmış, fikir söyləmiş, elmi və bədii kitabların redaktoru olmuş, onların bir çoxuna ön söz yazmış, xüsusən, "Azərbaycan poeziyası"na həsr etdiyi ədəbi icmalları maraq doğurmuşdur. Uzun illər "Gənclik" nəşriyyatında rəsmi rəyçi, Azərbaycan Dövlət Televiziyasında "Ədəbiyyatşünaslıq və zaman", "Ədəbiyyat"(1982-1992) elmi-kütləvi, tədris televiziya verilişlərinin müəllif-aparıcısı, Ədəbiyyat İnstitutu Elmi Şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü olmuşdur.

**Əsərləri:** "Vurğun poeziyası" (1976), "Lirik qəhrəman və zaman" (1986), "Tarixilik və müasirlik" – "Sosialist realizmi müasir mərhələdə" (1988), "Yaşar Qarayev: Milli yaddaş təlimi – Azərbaycançılıq" (2001), "Poeziyanın sirri: Çaylar geri axmır, dənizə can atır və yaxud, qəlbini nar təkin kağıza sıxan şair Şahməmmədin poeportreti" (2009).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 508.

**Xarici ədəbiyyat**

**Hind yazıçısı Rabindranat Taqorun anadan olmasının 160 illiyi, (1861-1941)**

***"Güclü və qüdrətli olmaq qüvvəyə görə üstün olmaq deyil, zəifi öz zirvəsinə qaldıra bilməkdir."*** R.Taqor



**Rabindranat Taqor — hind yazıçısı, şair, bəstəkar, rəssam və ictimai xadim, Ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1913-cü il )**

Rabindranat Taqor əsərlərini benqalca yazmışdır. Hindistan və Banqladeşin himnlərinin müəllifidir. Adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib. Benqal şairi, dramaturq, rəssam, bəstəkar və filosof, Hindistan və Banqladeşin milli himnlərinin müəllifi, Asiya qitəsinin ilk Nobel mükafatı laureatı Rabindranat Taqor Kəlküttdə yaşayan zəngin brahman ailəsinin 14-cü uşağı idi. İlk şeirlərini kiçik uşaq ikən – səkkiz yaşında yazmışdı. Ev şəraitində, Kəlküttədəki Şərq seminariyasında və Benqal Akademiyasında təhsil almışdı. Benqal dilinin, tarix və mədəniyyətinin mahir bilicilərindən sayılırdı. "Şairin tarixçəsi" adlı ilk poeması 1878-ci ildə çap olunmuşdu. Elə həmin ildə də hüquq təhsili almaq üçün Londona göndərilmişdi. Lakin təhsilini başa vurmadan geri qayıtmışdı. "Axşam nəğmələri" (1882) və "Səhər nəğmələri" (1883) poetik məcmuələri ilə yetkin şair kimi tanınmışdı. Beləliklə, yalnız ingiliscə kiçik bir kitabı, amma təbii ki, zəngin və təkrarsız yaradıcılıq yolu sayəsində Rabindranat Taqor 1913-cü ildə Nobel laureatı oldu. Mükafat ona "poetik təfəkkürünün müstəsna bir ustalıqla əks edildiyi və Qərb ədəbiyyatının bir hissəsinə çevrilən gözəl, orijinal, hissiyyat dərinliyi ilə seçilən şeirlərinə görə" verilmişdi. Qərbdə Taqor daha çox şair kimi tanınsa da, o, çoxsaylı pyeslərin və nəsr əsərlərinin, habelə ilk benqal romanının müəllifidir. "Qurban mərasimi" (1890), "Poçt" (1912), "Qırmızı məxmər gülləri" (1925) pyeslərində ədalət və həqiqət axtarışları, mənəvi təkamül uğrunda mübarizə öz əksini tapmışdı. Rabindranat Taqor 70 yaşının astanasında özünü rəssam kimi sınamış və incəsənətin digər sahələrindəki kimi burada da uğur qazanmışdı. Taqor–bəstəkar 2 mindən çox nəğmənin müəllifi idi. Həmin nəğmələr benqallar arasında bu gün də məşhurdur. Bir sözlə, o, sağlığında ölkəsində və dünyada təmsil etdiyi xalqın simvoluna çevrilməyi bacarmışdı. Rabindranat Taqorun "Gitancali" kitabına daxil olan şeirlər, "Fəlakət" romanı və bir sıra nəsr əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur.

**Əsərləri:** "Fəlakət", "Qurban mərasimi" (1890), "Poçt" (1912), "Qırmızı məxmər gülləri" (1925) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Rabindranat_Taqor

**13 May – Rus yazıçısı Aleksandr Fadeyevin 120 illiyi, (1901-1956)**

***Fadeyev demək olar ki, 30 il müddətində sovet ədəbiyyatının yol göstərənlərindən biri olmuşdur.***



**Aleksandr Fadeyev (1901-1956) — rus yazıçısı.**

Aleksandr Fadeyev 1901-ci ildə Tver əyalətinin Kirmi kəndində inqilabçı ailəsində doğulmuşdu. Aleksandr uşaqlıqdan ətrafdakıları istedadı ilə heyran etmişdi. Fadeyev hələ döyüşçü olduğu zamanlardan yazırdı. Tərxis olunandan sonra isə ciddi surətdə yaradıcılıqla məşğul olmağa başladı və 1926-cı ildə onun "Darmadağın" romanı çap olundu. Romanın çapından sonra Fadeyev tezliklə Rusiya Proletar Yazıçıları İttifaqının rəhbəri təyin edildi. O, sosialist realizminin nəzəriyyəçilərindən biri idi. Onu "ədəbiyyat naziri"də adlandırdılar. O, müharibə illərində hərbi müxbir qismində cəbhə bölgəsinə gedir. Almanlara qarşı mətanətlə vuruşaraq həlak olmuş Qırmızı Don yeniyetmələri haqqında əhvalatı eşidir. Fadeyev bundan sonra iri həcmli "Gənc qvardiyaçılar" romanını yazır. Sovet ədəbiyyatı ideoloji rəhbərinin romanı gözlənildiyi kimi rəğbətlə qarşılanmır. Hətta Stalin belə Don gənclərinin müqavimət hərəkatında partiyanın rolunun göstərilmədiyi üçün Fadeyevi möhkəm danlayır. Fadeyev əsəri yenidən yazmağa məcbur olur. O zarafatla dostlarına deyirdi:"Gənc qvardiyanı qocasına dəyişməklə məşğulam". "Gənc qvardiya"nın işlənmiş variantı birinci qədər güclü alınmasa da, onun ölümündən sonra bu əsər sovet dərsliklərinə salındı. Filmi də çəkildi. Bir neçə il öncə aparılan araşdırmalarda isə məlum oldu ki, sən demə, Fadeyev romanda bir çox tarixi faktları təhrif edibmiş. Fadeyevin "Udegeylərin sonuncusu" və "Qara metallurgiya" adlı iki yarımçıq romanı da var. O, 31 mart 1951- ci ildə Stalinə məktubunda sonuncu romanda "nəhəng kommunizm quruculuğu"ndan yazacağını vəd edirdi. Mayın 13 – də iş otağında tapança ilə sinəsindən nişan alır. Fadeyev ölümündən qabaq Mərkəzi Komitəyə məktub yollamışdı. Məktub o zaman ictimaiyyətə açıqlanmadı, gizli saxlanıldı. 44 il gizli arxivdə saxlanılan məktub yalnız 1990-cü ildə dərc olundu: "Mənim həyatım bir yazıçı kimi bütün mənasını itirir və mən alçaqlıq, yalan və böhtan kimi üzərimə düşən bu murdar mövcudluqdan böyük sevinclə xilas olaraq, həyatdan gedirəm. Son ümidim bunu heç olmasa, dövləti idarə edən insanlara demək idi, amma 3 il ərzində xahişlərimə baxmayaraq, məni heç kim qəbul edə bilmir.

**Filmoqrafiya:** Gənc qvardiya (film, 1948)

İnternetdə: https://az.wikipedia.org/wiki Aleksandr_ Fadeyev

## 20 May – Niderland uşaq yazıçısı Anna Şmidtin 110 illiyi, (20.05.1911–21.05.1995)

***O, ən yaxşı uşaqlar üçün yazan Niderland Dövlət mükafatı və H.K.Andersen Qızıl medalının laureatıdır. Niderlandda onu “Uşaq ədəbiyyatının şahı” adlandırırlar.***



Niderland yazıçısı, uşaqlar və gənclər üçün ən yaxşı kitaba görə Niderland Dövlət mükafatının ilk laureatı (1964), H.X.Andersen adına Qızıl medalın laureatı Anna Mariya Gertruda Şmidt 20 may 1911- ci ildə anadan olub. Gələcək yazıçı uşaqlıqdan Andersenin nağılları ilə böyüyüb. Kitabxanaçılıq təhsili alan A.Şmidt sonradan çox böyük kitabxananın direktoru olub və yazmağa başlayır. Faşist işğalı zamanı Niderlandın gizli qəzetində uşaq şöbəsində işləyir. II Dünya müharibəsindən sonra A.Şmidt uşaqlar üçün kitab yazmağa başlayır. 1950-ci ildə onun “Fitçalan çaydan” adlı şeirlər kitabı çapdan çıxır. Tezliklə yazıçı balacalar üçün “Yip və Yanneke” (1953-1960) adlı hekayələr seriyasını yazmağa başlayır. Bu hekayələr Niderland uşaq ədəbiyyatının qızıl fonduna daxil edilib. Onun yazdığı əsərlər Niderland uşaq ədəbiyyatında çevriliş təsiri yaratmışdır. O, uşaq ruhunu yaxşı bilirdi, həmişə onları müdafiə edirdi, qəlbən də hər zaman uşaq idi. Onu Niderland uşaq ədəbiyyatının kraliçası adlandırırlar.

21 may 1995-ci ildə, özünün 84 illiyindən bir gün sonra Anna Mariya Gertruda Şmidt intihar edərək həyatına son vermişdir. Amsterdamda dəfn olunmuşdur.
















İnternetdə: https://ru.wikipedia.org/wiki/ Anna Mariya Gertruda Şmidt

**İncəsənət**

**15 May –Teatr tənqidçisi, teatrşünas Mahmud Allahverdiyevin 90 illiyi (1931-1999)**

***Mahmud Allahverdiyevin milli teatrımızın tarixi və nəzəriyyəsi sahəsində apardığı səmərəli tədqiqat işləri sənətşünaslıq elmində özünə layiq yer tutur. Onun fundamental elmi əsərləri bu gün də tədqiqatçıların, tələbələrin stolüstü kitabı olaraq qalmaqdadır.***



**Allahverdiyev Mahmud Qara oğlu – teatr tənqidçisi, ədəbiyyatşünas, 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, sənətşünaslıq doktoru (1991), professor (1985). Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı (1959) və "Əməkdə fərqlənməyə görə" medalı (1981) ilə təltif edilmişdir.**

Allahverdiyev Mahmud Qara oğlu 1931-ci il mayın 15-də Gürcüstanın Bolnisi rayonunun İmir-Həsən kəndində anadan olmuşdur. Burada səkkizillik məktəbi, qonşu Faxralı, Arixli kəndlərində orta məktəbi bitirmişdir (1950-ci ildə). Orta məktəbi öz doğma kəndində bitirən, teatr sənətinə böyük marağı olan Mahmud Allahverdiyev 1952-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun Aktyorluq şöbəsinə qəbul olunur. "Azərbaycan xalq teatrı tarixi", "Ələsgər Ələkbərov", "Mirzağa Əliyevin yaradıcılıq yolu", "Cəfər Cabbarlı və müasirlik", "Qaravəlli tamaşaları", "Azərbaycan teatrı bu gün", "Müasir Azərbaycan teatrında ənənə və novatorluq məsələləri", "Teatr tənqidi və müasirlik" kimi əsərlərin müəllifi Mahmud Allahverdiyevdir. Ədəbi fəaliyyətə 1963-cü ildə "Azərbaycan kommunisti" jurnalında çap olunan nitq mədəniyyəti haqqında məqaləsi ilə başlamışdır. Dövri mətbuatda müasir milli teatr və dramaturgiya problemlərinə dair məqalələrlə vaxtaşırı çıxış etmişdir. "Müasir aktyor yaradıcılığı. Ələsgər Ələkbərov" mövzusunda namizədlik (1966), "Azərbaycan xalq teatrının kökləri, növləri və müasirlik" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1991). Moskvada "Nauka" nəşriyyatının buraxdığı "SSRİ folklor teatrı" (1985) kitabının müəlliflərindən biridir. Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutu tear və kino şöbəsinin aspirantı olmuşdur (1962-1965). Sonra həmin şöbədə kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir (1965-1972). M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatr tarixi kafedrasında dosent (1972-1978), kafedra müdiri (1978-1993), həm də institutda tədris və elmi işlər üzrə prorektor olmuşdur (1982-1993). Müxtəlif vaxtlarda həmin Universitetdə kafedra müdiri, dekan, prorektor vəzifələrində çalışmışdır. Bir müddət Türkiyədə Memar Sinan Universitetində dərs deyən Mahmud Allahverdiyev Türkiyədə Azərbaycan teatrına həsr etdiyi "Sözüm var sizə, gənclər" kitabını türk dilində nəşr etdirmişdir.Türkiyədə İstanbul şəhərindəki Memar Sinan Universitetinin teatr və musiqi bölümündə Azərbaycan və rus teatr tarixindən mühazirə oxumuşdur. 1999-cu il dekabrın 2-də vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Mahmud_Allahverdiyev

**27 May – Rejissor, xalq artisti Soltan Dadaşovun 115 illiyi, (1906-1969)**



***Soltan milli muğam operalarımızı monumental səpkidə hazırlamağa cəhd göstərən və bu sahədə dəyərli nailiyyətlər qazanan, bugünədək davam edən ənənənin təməlini qoyan cəsarətli, yaradıcı və novator rejissor idi.***

Soltan Baba oğlu Dadaşov 1906-cı il mayın 27-də Bakıda doğulub. 1920-1921-ci illərdə Soltan Dadaşov Bakıdakı Mərkəzi fəhlə klubunun dram dərnəyinin fəallarından olub. Sovet hökumətinin təşkil etdiyi təbliğat və təşviqat briqadalarının fəal üzvü kimi Azərbaycanın rayonlarında aktyor, müğənni kimi çıxışlar edib. 1923-cü ildə milli səhnə mədəniyyətimizi peşəkar ixtisaslı kadrlarla təmin etmək məqsədilə Bakı Teatr Məktəbi (Texnikumu) açılıb. Soltan Dadaşov həmin məktəbin ilk məzunlarından olub və 1924-cü ildə həmçinin Milli Dram Teatrının yardım heyətində aktyorluq edib. Texnikumda oxuduğu illərdə teatrın səhnəsində tamaşaya qoyulmuş bir sıra əsərlərdə epizod rollar oynayıb. Fərasətli tələbə olduğuna, Bakı Teatr Məktəbini əla qiymətlərlə bitirdiyinə, rus dilində sərbəst danışdığına, həssas musiqi duyumuna və Milli Dram Teatrının səhnəsindəki sərbəst yaradıcılıq cəhdlərinə görə və ən əsası, sənət müəllimi Aleksandr Tuqanovun zəmanəti ilə Azərbaycan Respublikasının Xalq Maarif Komissarlığı (XMK) 1927-ci ildə Soltan Dadaşovu Moskvada təhsilini davam etdirməyə göndərib. Mərkəzi Teatr Texnikumunda dörd il təhsil alan Soltan Dadaşov 1931-ci ildə Bakıya musiqili teatr rejissoru ixtisası ilə qayıdıb. Soltan Dadaşov Opera və Balet Teatrında otuz səkkiz illik rejissorluğu dövründə Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" ("Məşədi Ibad"), "Arşın mal alan", "Leyli və Məcnun" (bir neçə quruluşda), "Cəbhə və vətən", "Əsli və Kərəm", Müslüm Maqomayevin "Nərgiz", "Şah Ismayıl", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Cüzeppe Verdinin "Riqoletto", "Traviata", Soltan Hacıbəyovun "Gülşən" (balet), Ibrahimov Məmmədovun "Tülkü və Alabaş", Rujero Leonkovallonun "Məzhəkəçilər" əsərlərinin quruluşçu rejissoru olmuşdur. 1967-ci ildə Soltan Dadaşov sirk proqramında milli folklorumuzun bütün estetik gözəlliklərini, etno-mədəni tariximizin oyun-tamaşa səciyyələrini təcəssüm etdirən xüsusi "Novruz" proqramı hazırlayıb. 1934-cü ildən pedaqoji fəaliyyətlə də məşğul olan Soltan Dadaşov uzun illər Azərbaycan Dövlət Teatr Institutunda aktyor və rejissor sənətindən dərs deyib. Milli opera teatrı tarixini, onun görkəmli sənətkarlarının yaradıcılıq yolunu dərindən bilən Soltan Dadaşov "Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrı" kitabının, xalq artisti Hüseynağa Hacıbababəyov barədə monoqrafiyanın müəllifidir. Azərbaycan estradasında rejissorluq etmiş, Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı üçün rəngarəng proqram kompozisiyaları hazırlamışdır. Azərbaycan musiqili teatrının inkişafında xidmətlərinə və rejissorluq sənətində qazandığı ciddi nailiyyətlərə görə Soltan Dadaşov 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi və 26 aprel 1958-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub. Sənətkar 7 sentyabr 1969-cu ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri Xiyabandadır.

İnternetdə: https://az.wikipedia.org/wiki/Soltan_Dadaşov

**29 May – Rəssam, aktyor Elçin Məmmədovun 75 illiyi, (1946-2001)**

***"Böyüklərdə təsadüf edən bu bacarıq Elçində qorunaraq ona həm coğrafi məkanda, həm də sənət dünyasında sərbəst miqrasiya etməyə imkan verirdi. İncəsənətin müxtəlif növləri bir-birini zənginləşdirərək və rəssamın fərdilik möhürünü daşıyaraq onun taleyində kəsişirdi".***

Dilarə Vahabova



Elçin Məmmədov 29 may 1946-cı ildə Mehdi Məmmədov və Barat Şəkinskaya kimi sənətkarların ailəsində dünyaya göz açıb. Hələ anadan olmamışdan 3 gün qabaq Barat Şəkinskaya Mehdi Məmmədovun quruluşunda Vilyam Şekspirin "On İkinci Gecə" tamaşasının premyerasında iştirak edirdi. Kişi kostyumunda çıxış etdiyi üçün hamiləliyi o qədər də bilinmirdi. Premyeradan 3 gün sonra isə Elçin dünyaya göz açır. Valideynləri sənət adamı idi. Odur ki, səhər saat 10-da teatra gedər, günorta evə gəlib yemək yeyər, dincələr, axşamlar isə tamaşaları olduğu üçün yenidən teatra qayıdardılar. Ona görə də Elçini uşaqlıqdan özündən 14 yaş böyük bacısı Solmaz böyüdüb. 11-ci sinfi qurtardıqdan sonra isə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəssamlıq fakültəsinə daxil olur. İlk dəfə uşaqlıq dostu Azərpaşa Nemətovun Gənc Tamaşaçılar Teatrında rus dilində quruluş verdiyi "Mənim qardaşım klarnetdə çalır" tamaşasının rəssamı olub. Sonralar isə daha çox atası ilə birlikdə çalışıb. Bakıda fəaliyyət göstərən bütün teatrlarda, eyni zamanda Moskva, Arxangelsk, Serebrovskidə də 100-dən çox tamaşada rəssamlıq edib. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamı olub. Mehdi Məmmədovun quruluş verdiyi "İblis" tamaşasına görə Dövlət Mükafatı laureatı adını alıb. Elçin Məmmədovun rəssam kimi quruluş verdiyi son tamaşası da Azərpaşa Nemətovla olub. Ömür vəfa etsəydi, "Hamlet" tamaşasında rəssam işlərini sona yetirəcəkdi. Ancaq qismət olmur. Son işi yarımçıq qalır. 2001-ci il fevralın 18-də rəssam, aktyor Elçin Məmmədov ömrünün 55-ci baharında dünyasını dəyişir.

**Filmoqrafiya:**Yeddi oğul istərəm... (film, 1970), Xəzinə (film, 1970), Ağır şkaf (film, 1971), Toya dəvətnamə (film, 1973), Dədə Qorqud (film, 1975), Çətirimiz buludlardır (film, 1976), Dantenin yubileyi (film, 1978), Qəribə adam (film, 1979), Yarımçıq qalmış mahnı (film, 1979), Bağlı qapı (film, 1981), Bir dəfə (film, 1990), Ovsunçu (film, 2003), Ənvər Həsənov. Yeddi oğuldan biri (film, 2007)

İnternetdə:https://az.wikipedia.org/wiki/Elçin_ Məmmədov_(rəssam)

**Milli qəhrəmanlıq zirvəsi**
**1 May – Paşayev Baxşeyiş Xanəhməd oğlunun 85 illiyi, (01.05.1936-12.07.1992)**



**Baxşeyiş Xanəhməd oğlu Paşayev — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

**Azərbaycan Respublikası prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Paşayev Baxşeyiş Xanəhməd oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adı verilmişdir.**

Baxşeyiş Paşayev 1 may 1936 – cı ildə Ağdam rayonunun Əhmədavar kəndində doğulmuşdur. Burada məktəbi bitirdikdən sonra Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1988-ci illərdə Qarabağda vəziyyət pisləşəndən xalq hərəkatına qoşulmuşdur. Daha sonra həyatını cəbhə ilə bağlayan Baxşeyiş döyüşçülərə silah sursat çatdırmış, dinc sakinlərin təhlükəsizliyi üçün həyatı bahasına risklər etmişdir. Baxşeyiş "Qarabağ Müdafiə Şahinləri" dəstəsinin ən fəal üzvlərindən biri olmuşdur. Xramort kəndinin erməni təcavüzkarlarından təmizlənməsində xüsusi fərqlənmişdir. "Ağsaqqal" ləqəbi ilə tanınan Baxşeyiş peşəkar atıcı olduğundan quldurların xeyli canlı qüvvəsini məhv etmişdir. Dəfələrlə Xanabad, Naxçıvanlı, Aranzəmin kəndlərinə kəşfiyyata getmişdir. 1992-ci il Xocalı faciəsi zamanı onlarla dinc sakini xilas etmişdir. 1992-ci il iyul ayının 12-də erməni işğalçıları Xanabad kəndinə böyük qüvvə ilə hücuma keçmişlər. Əks hücumla döyüşçülərimiz başda Baxşeyiş Paşayev olmaqla düşmənin 7 postunu ələ keçirmiş, amma qəfil atılan düşmən gülləsi Vətənimizin bu cəsur övladının həyatına son qoymuşdur. O, döyüş meydanında qəhrəmancasına həlak olmuşdur. Ailəli idi, doqquz övladı var. Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

***Sənindir bax, bu döyünən ürəklər,***
***Amal da sən, arzu da sən, şərəf sən,***
***Səninkidir bu muradlar, diləklər!***
***Biz getsək də, bu dünyada sən yaşa.***
***Adımız adınla çəkilsin qoşa.***
***Yaylıqları bayraq olan Vətənim,***
***Bayraqları torpaq olan Vətənim…***

Çingiz Əlioğlu

İnternetdə: https://az.wikipedia.org/wiki/ Baxşeyiş_ Paşayev

**5 May - Əliyev İlham Müzəffər oğlunun 60 illiyi, (05. 05. 1961-19.08.1990)**



**İlham Əliyev — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

Əliyev İlham Müzəffər oğlu 5 may 1961-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. Orta məktəbi 1978 - ci ildə bitirmiş, 1980 - ci ildə hərbi xidmətə çağırılmışdır. 1985-ci ildə İlham Əliyev Bryansk Xüsusi Orta Milis Məktəbinə daxil olur. 19 avqust 1990-cı il leytenant İlham Əliyev torpaqlarımızın müdafiəsinə göndərildi. Qazax rayonunun Əskipara kəndində döyüşən İlham qəhrəmancasına həlak oldu. Evli idi. Bir övladı var. İlham özünün şərəfli ölümü ilə bir dünya arzusunu soyuq məzara apardı. Uşaqlıqdan milisdə işləmək arzusu qəlbində baş qaldırmışdı. Orta məktəbdə inşada bu arzusunu ifadə edərək yazırdı : "haqsızlıqlarla barışmazlıq, cinayətkarlara güzəştə getməmək, dözüm və mətanət – milisləri birləşdirən başlıca cəhətlər məhz bunlardır. Milis işçisi görəndə həyəcan, sevinc hissləri keçirirəm. İnanıram ki, bir gün mən də onların sırasında olacağam, milisin mətin cərgəsində dayanacağam. Müqəddəs qanunlarımızın, dinc həyatın keşiyini çəkəcəyəm..." Gədəbəy rayonunda dəfn edilib. Gədəbəy şəhərindəki 1 saylı orta məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur.

**Azərbaycan Respublikası prezidentinin 6 iyul 1992-ci il tarixli 831 saylı fərmanı ilə İlham Müzəffər oğlu Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Od ürəkli , od nəfəsli diyarımsan***
***Ocağına canım qurban , Azərbaycan !***
***Əzilsən də , əyilməyən vüqarımsan***
***Bu çağına canım qurban , Azərbaycan !***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/ İlham_ Əliyev

**6 May - Həsənov İlham Gülbala oğlunun 45 illiyi, (06. 05. 1976-17. 03. 1995)**



**İlham Həsənov — Azərbaycanın Milli Qəhrəmanı, mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Həsənov İlham Gülbala oğlu 6 may 1976 - cı ildə Ağstafa rayonunun Xətai kəndində anadan olmuşdur. 1993-cü ildə məktəbi bitirdikdən sonra, zabit olmaq arzusu ilə sənədlərini Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə verir, bura daxil ola bilməyən İlham ruhdan düşmür Bakı Yüngül Sənaye Texnikumuna daxil olur. 1994-cü ildə Milli Orduya çağırılır. O tez bir zamanda əsgər və zabitlərin hörmətini qazanır. Hərbi təlim yarım il çəkir, sonra isə cəbhə... İlham cəbhədə təzəcə əməliyatlara qoşulmağa başlamışdı ki, mart hadisələri baş verdi. Öz dövlətinə, rəhbərinə, xalqına xidmət edən İlham Həsənov mart hadisələri zamanı dəstənin zərərsizləşdirilməsində canından keçən neçə-neçə vətən oğullarından biri oldu. Subay idi. Ağstafa şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ağstafa rayonunda adına küçə var.

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Həsənov İlham Gülbala oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Sən mənə anasan, anamdan əziz,***
***Sənə məhəbbətim dənizdir, dəniz.***
***Ömrümün bir anı keçməsin sənsiz,***
***Ey mənim varlığım, qəlbim, vicdanım,***
***Mən sənə qurbanam, Azərbaycanım!***

Solmaz Şirin

İnternetdə: https://az.wikipedia.org/wiki/ İlham_ Həsənov

**30 May - Hüseynov Elşən İbrahim oğlunun 45 illiyi, (30. 05. 1976 - 17. 03. 1995)**



**Eldar Məcidov – Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycanın müstəqilliyi naminə, birliyimiz naminə şəhidlik zirvəsini fəth etmiş fateh.**

Eldar Məcidov 30 may 1976 - cı il Saatlı rayonun Qıraqlı kəndində anadan olmuşdur. 1983-cü ildə burada məktəbə getmiş, 1993-cü ildə burada məktəbi bitirmişdir. 1994-cü ildə Milli Orduya çağırılmışdır. 13-17 mart hadisələri zamanı görkəmli siyasi xadim, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin komandanlığı ilə silahlı dəstənin zərərsizləşdirilməsində iştirak edərək şəhid olmuşdur. Subay idi. Saatlı rayonunun Qıraqlı kəndində dəfn edilmişdir. Saatlı rayon mərkəzi xəstəxanası onun adını daşıyır.

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-cil tarixli 307 saylı fərmanı ilə Hüseynov Elşən İbrahim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Göz açdığım qədim torpaq,***
***Dayağımsan sən dünyada.***
***Doğma anam, ey mehriban,***
***Ey qəhrəman, Azərbaycan!***

***Şəhidlərin al qanından,***
***Lalə açmış yollar ilə,***
***İstiqlalın sabahına***
***Qürurla get, Azərbaycan***

Nəbi Xəzri

İnternetdə: https://az.wikipedia.org/wiki/ Eldar_ Məcidov

# İyun

**Əlamətdar tarixi günlər və bayramlar**

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü, (1950)

1 İyun – Ümumdünya Süd Günü, (2001)

3 - 4 İyun – Beynəlxalq Su Hövzələrinin Təmizlənməsi Günü, (1955)

4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü, (1982)

5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, (1972)

8 İyun – Ümumdünya Okeanlar Günü, (1992)

14 İyun – Beynəlxalq Blogger Günü, (2004)

15 İyun – Milli Qurtuluş Günü, (1993)

15 İyun – Ümumdünya Külək Günü

16 İyun – Beynəlxalq Atalar Günü, (1909)

17 İyun – Tibb İşçiləri Günü, (2001)

20 İyun – Ümumdünya Qaçqınlar Günü, (2000)

21 İyun – Dünya Yoqa Günü

23 İyun – Beynəlxalq Olimpiya Günü, (1948)

23 İyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü, (2006)

26 İyun – Silahlı Qüvvələr Günü, (1918)

26 İyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü

**Yubilyar yazıçı və şairlər**

Yazıçı Qərib Mehdinin 85 illiyi, (21.06.1936)

**Xarici ədəbiyyat**

Amerika yazıçısı H.Biçer-Stounun 210 iliiyi, (14.06.1811-1896).

İngilis yazıçısı Henri Haqqardın 165 illiyi, (22.06.1856-1925)

**Milli qəhrəmanlıq zirvəsi**

Sədiyev Vəzir İsa oğlunun 60 illiyi, (06.06.1961-19.02.1993)

Salahov Şakir Şamil oğlunun 55 illiyi, (15.06.1966-28.01.1992)

Məcidov Zakir Nüsrət oğlunun 65 illiyi, (26.06.1956-06.08.1992)

Əliyev Yavər Yaqub oğlunun 65 illiyi, (27.06.1956-29.02.1992)

## Əlamətdar tarixi günlər və bayramlar

### 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü, (1950)

***“Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!”***

Ümummilli lider Heydər Əliyev



1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününün (International Children's Day) qeyd olunması 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qərara alınıb. Həmin gün təşkil olunan Qadınların Beynəlxalq Konfransında uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bu gün dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Bu bayramla yanaşı, BMT-nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. Ümumdünya Uşaqlar Günü 1954 - cü ildə BMT-nin Baş Assambleyasının № 836 (IX) saylı qətnaməsində 1956 –c ı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə edilən bayram kimi qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalamışdır. Sərəncama görə 2009 - cu il "Uşaq ili" elan olunmuşdur. 1924-cü ildə ilk dəfə olaraq Uşaqların hüquqlarını təmin edən Bəyənnamə qəbul edilmişdir. Bu bəyənnamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Həmin bəyənnamənin qəbul edilməsi ilə bağlı ilk işlər Eglantyne Djebb tərəfindən görülmüşdür. O, bacısı Doroti Bakstonun köməyi ilə 1919 - cu ildə uşaqlara yardım göstərmiş, onların müdafiəsini təmin etmək üçün Londonda Uşaqlara Yardım Fondunun əsasını qoymuşdur.

İnternetdə: www.books.google.com

**1 İyun – Ümumdünya Süd Günü, (2001)**




Ümumdünya Süd Gününün məqsədi uşaqların müdafiəsində, sağlamlığında südün rolunun aşılanmasıdır. Süd məhsullarının faydası çoxdan təsdiq olunmuş bir faktdır. Süd məhsulları mədə şirəsinin ifraz olunmasını stimullaşdırır, bağırsaqların fəaliyyətini və maddələr mübadiləsini yaxşılaşdırır, orqanizm tərəfindən çox tez və asan mənimsənilir. Bundan əlavə, insan orqanizminə düşdükdə südturşulu bakteriyalar C, B1, B2, B12, D vitaminlərini və hətta təbii antibiotikləri istehsal edir ki, onlar xəstəlikləri törədən mikrobların (o cümlədən, mədə-bağırsaq və vərəm xəstəlikləri törədən mikrobların) inkişafını dayandırır və ya onları məhv edir. Süd məhsullarının tərkibində orqanizm üçün vacib olan çoxlu miqdarda kalsium və fosfor mikroelementləri var ki, bu da insanın dişləri və sümükləri tərkibinə daxildir. Bundan əlavə, kalsium insanın ürək əzələsinin, gözlərin, sinir sisteminin sağlamlığında böyük rol oynayır. Digər süd məhsulları ilə müqayisədə, kalsium daha çox miqdarda bərk pendirlərin tərkibində olur. Lakin süd məhsullarının, bəlkə də, ən əsas dəyəri ondan ibarətdir ki, onlar bağırsaq mikroflorasını yaxşılaşdırırlar.

Pis ekologiya, stresslər, antibiotik və s. dərmanlarının tez-tez qəbul edilməsi, düzgün olmayan qidalanma bağırsaqların mikroflorasına güclü zərbə vurur. Nəticədə, orada "yaşayan" xeyirli mikroorqanizmlərin sayı kəskin surətdə azalır və əksinə zərərli mikroorqanizmlərin sayı artır. Bu balans pozulduqda disbakterioz inkişaf edir, nəticədə isə insanın immun sistemi zəifləyir. İmmun sistemin zəiflənməsi isə orqanizmdə müxtəlif xəstəliklərin və pozğunluqların əmələ gəlməsinə səbəb olur.

Qatıq və yoqurt mədə şirəsinin ifrazını çoxaldır, mədəaltı vəzin fəaliyyətini yaxşılaşdırır. Onlar qəbizlik, kolit, qastrit, qaraciyər və öd yollarının xəstəlikləri, piylənmə, ateroskleroz, hipertoniya, qanazlığı, miokard infarktı zamanı çox xeyirlidir.

İnternetdə: www.books.google.com

## 3-4 İyun – Beynəlxalq Su Hövzələrinin Təmizlənməsi Günü, (1955)





Beynəlxalq Su hövzələrinin Təmizlənməsi Gününün (International Cleanup Day) ideya müəllifləri və təşkilatçıları dalğıclardır. Bu bayramın əsas hadisəsi kütləvi iməclikdir. Bu əlamətdar gün 1955-ci ildən dünyanın bir çox ölkələrində PADI – Dayvinq təlimatçılarının peşəkar assosiasiyasının himayəsi altında keçir. Həmin gün regional yeraltı üzgüçülük klubları yerli su hövzələrinə gedir, onların diblərini və sahillərini təmizləyirlər. Bəzi şəhərlərdə bu tədbirlər yerli hökumət orqanlarının dəstəyi ilə aparılır. Bu günə marağı artırmaq üçün çox zaman tədbirlər komandalar arasında yarış halında keçirilir.

İnternetdə: www.books.google.com

## 4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü, (1982)



1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında ES-7/8 nömrəli qətnaməsi ilə hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü (International Day of Innocent Children Victims of Aggression) kimi qeyd etməyi qərara almışdır. Hərbi münaqişələr zonasında yaşayan uşaqlar – gələcəyi olmayan uşaqlardır. Bütün dünyada lokal münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir. Bu gün həm də BMT-nin həmin uşaqların qorunması haqqında məsələdə öhdəliklərini təsdiq edir.

İnternetdə: www.books.google.com

**5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, (1972)**



***Başımın üstündə çətirli meşə,***
***Yuyunmuş, daranmış, ətirli meşə,***
***O yazda yaşıldı, payızda əlvan.***
***Bir ağac kəhrəba, bir ağac mərcan.***
***Bir yarpaq günəşin şöləsində zər,***
***Bir yarpaq buludun gözünü silər.***
***Dinim, ya dinməyim, dinməyim əlbət,***
***Qoy danışsın təbiət!***

***Xalq şairi Qabil***

5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün qeyd olunması 16 dekabr 1972 - ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 27-ci sessiyasında elan edilib. Həmçinin Baş Assambleyanın bu sessiyasında BMT sistemində yeni təşkilat – BMT Ətraf Mühit Proqramı (UNEP) qəbul edilib. Hər il bu təşkilat tərəfindən Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü keçirilir. Belə bir günün keçirilməsinə 11 may 1971 - ci ildə dünyanın 23 ölkəsinin 2200 elm və mədəniyyət xadiminin imzası ilə BMT-nin Baş katibinə ünvanlanan müraciət səbəb olub. Onlar "ya biz çirklənməni qurtarırıq, ya da çirklənmə bizi qurtarar" adlı müraciətləri ilə bəşəriyyətə ətraf mühitin çirklənməsi barədə xəbərdarlıq etmişlər. Baş Assambleya bu günün qeyd edilməsi ilə bağlı qətnaməsində BMT-yə daxil olan ölkə və təşkilatları hər il həmin gün ərəfəsində ətraf mühitin qorunması və yaxşılaşdırılmasına yönələn işlər həyata keçirməyə çağırır. Hər il Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün Avropa regionunda qeyd edilməsi üçün Avropa ölkələrindən baş şəhərlər elan edir. 2010-cu ildə İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə bərabər Azərbaycanın Bakı şəhəri də mərkəz şəhər seçilib. Bakının bu statusa layiq görülməsi Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiya sahəsində görülən işlərin, həyata keçirilən dövlət və milli proqramların uğurlu nəticəsi kimi qiymətləndirilir və beynəlxalq qurumların Cənubi Qafqaz regionunda Azərbaycana böyük əhəmiyyət verməsindən irəli gəlir.

İnternetdə: www.books.google.com

**8 İyun – Ümumdünya Okeanlar Günü, (1992)**




Ümumdünya Okeanlar Günü 8 iyun 1992-ci ildə Rio-de Janeyroda BMT-nin "Ətraf mühit və inkişaf" Konfransında elan edilib. Rəsmi olaraq 2009-cu ildən qeyd olunur. Zoopark, akvariumlar və delfinariyalar əsasən bu gündə okean heyvanlarının qorunması, mühafizəsi ilə bağlı tədbirlər keçirməklə ictimaiyyətin diqqətini cəlb edirlər. BMT bu bayramı elan etməklə, okeanların planet üçün həyatı vacibliyini xüsusi qeyd edib. Yer kürəsinin 70%-i okeanlar təşkil edir. Bu bayram bir çox Avropa ölkələrində (Belçika, Böyük Britaniya, Almaniya, Hollandiya, İrlandiya, İspaniya, İtaliya, Norveç, Portuqaliya, Fransa), Cənub-Şərqi Asiya dövlətlərində (Vyetnam, İndoneziya, Sinqapur, Filippin), Cənubi Asiyada (Hindistan, Şri-Lanka), Uzaq Şərqdə (Çin, Yaponiya), Latın Amerikası ölkələrində (Argentina, Ekvador, Kuba), Avsraliya və Afrikada (Əlcəzair, Qabon, Marokko, Mavritaniya, Keniya, Kamerun), həmçinin Şimali Amerika ölkələrində (Kanada, ABŞ, Meksika) qeyd edilir.

İnternetdə: www.books.google.com

**14 İyun – Beynəlxalq Blogger Günü, (2004)**




Bu bayramın keçirilməsi ideyası 2004-cü ildə yaranmışdır. 40-dan çox ölkədən 500 insan eyni vaxtda birləşərək qərara gəlmişlər ki, onlara – bütün dünyanın şəbəkə bloggerləri arasında dostluq münasibətlərinin simvolu kimi özlərinə aid gün lazımdır. 2007-ci il iyunun 14-də Beynəlxalq Blogger Gününün üçüncü ildönümündə ümumdünya şəbəkəsinin öz bloqu olan hər bir üzvü bütün bloggerlər arasında həmrəylik haqqında qısa bildiriş yazmışlar.

İnternetdə: www.books.google.com

## 15 İyun – Milli Qurtuluş Günü, (1993)




***"Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."***

**Ümummilli lider Heydər Əliyev**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır – Heydər Əliyev. Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

İnternetdə: www.books.google.com

## 15 İyun – Ümumdünya Külək Günü



Bu qeyri-adi bayramın keçirilməsi Avropa Külək Enerjisi Assosiasiyası və Ümumdünya Külək Enerjisi Şurası tərəfindən təklif olunmuşdur. Həmin günü keçirməkdə məqsəd dünya ictimaiyyətini maarifləndirmək, diqqətini bu məsələyə yönəltməkdir. Külək enerjisi küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Alternativ enerji (bərpa olunan) mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjilərdən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir. İnsanlar küləyin gücündən çox qədim dövrdən bəri faydalanırlar. Buna misal olaraq yelkənli gəmilər və yel dəyirmanları göstərilə bilər. Daha sonra taxıl dənüyütmə, nasosla suvurma, ağackəsmə işləri üçün də külək gücündən faydalanılmışdır. İndiki vaxtda daha çox elektrik enerjisi almaq məqsədilə istifadə edilməkdədir.

Elektrik enerjisi istehsalı üçün daha səmərəli texnologiyalardan biridir. Külək qurğularının inşasına ənənəvi elektrik stansiyalarının qurulmasına nisbətən daha az vaxt sərf olunur. Bundan başqa, külək, əslində, istənilən ölkənin malik olduğu daimi təbii enerji mənbəyidir. Külək enerjisindən istifadə olunması energetikanın daha tez inkişaf edən sahələrindən biridir. Azərbaycan ərazisində əsasən Abşeron yarımadası, Xəzər dənizi və digər ərazilər külək enerjisindən istifadə etmək üçün daha məqsədəuyğun sayılır. Azərbaycanın külək rejimi mürəkkəb xarakterə malikdir. Bu da ölkə ərazisinin 60%-nin dağlıq zonalardan ibarət olması ilə əlaqədardır.

İnternetdə: www.books.google.com

## 16 İyun – Beynəlxalq Atalar Günü, (1909)





Dünyanın bir çox ölkələrində iyunun üçüncü bazar günü Atalar Günü (Father's Day) kimi qeyd olunur. Onu ilk dəfə ABŞ-da qeyd etməyə başlamışlar. Sonora Smart Dodd 1909-cu ildə kilsədə Analar Gününə həsr olunmuş ibadət zamanı düşünmüşdür ki, anasının ölümündən sonra onu və daha beş uşağı atası böyüdüb tərbiyə etmişdir. Sonra atasının özü üçün necə xüsusi insan olduğunu, onu necə sevdiyini və qiymətləndirdiyini bilməsini istəmişdir. Bu ənənə bir çox ölkələrə yayılmışdır və hər kəs atasına öz sevgisini bildirmək üçün bu günü əlavə bir fürsət hesab edir.

İnternetdə: www.books.google.com

## 17 İyun – Tibb İşçiləri Günü, (2001)

***Yaxşı sağlamlıq ən böyük var-dövlətdən bahadır.***

***Latın atalar sözü***



İnsan üçün çox qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığı ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri durur.

Azərbaycanda tibbin inkişafı daha çox XX əsrlə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığın mühafizəsi ilə bağlı olmuşdur. Bununla əlaqədar olaraq, Nazirlər Şurasının 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olunmuşdur. İndi Azərbaycanda öz sənətinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığının keşiyində duran minlərlə səhiyyə işçisi vardır.

Ümummilli lider Heydər Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaradılmasını nəzərə alaraq, "Tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən hər il 17 iyun Tibb İşçiləri Günü kimi qeyd olunur.

İnternetdə: www.books.google.com

## 20 İyun – Ümumdünya Qaçqınlar Günü, (2000)



BMT Baş Assambleyası 4 dekabr 2000-ci ildə iyunun 20-nin Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilməsinə dair qətnamə qəbul edib. BMT-nin açıqlamasına görə hazırda dünyada 15.4 milyon insan qaçqınlıq həyatı yaşayır və onların sayı artmaqda davam edir. Beynəlxalq Qaçqınlar Günü Azərbaycanda da hər il geniş qeyd edilir. Bu isə heç də təsadüfi deyil. Belə ki, Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb, tarixi torpaqlarına təcavüz edilib, nəticədə minlərlə soydaşımız qaçqına çevrilib. Sonuncu dəfə 250 min etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub, Azərbaycana pənah gətirib, 700 minə yaxın soydaşımız isə Dağlıq Qarabağdan və Ermənistan silahlı qüvvələrinin işğal etdiyi 7 rayondan didərgin salınaraq ölkənin 67 rayonunda 1600 məntəqədə müvəqqəti məskunlaşıblar.

Bundan başqa, ölkəmizdəki qaçqınların təxminən 50 mini Fərqanə hadisələri vaxtı Orta Asiyadan gələn Ahıska türkləri, 11 minə yaxını isə sığınacaq axtaranlardır. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayandan Azərbaycanda mövcud olan 12 çadır düşərgəsinin 5-i 2003-cü ildə, 7-si isə sonrakı 4 ildə ləğv olunub. 2007-ci il dekabrın 24-ü Azərbaycan tarixinə, həm də son çadır düşərgələrinin ləğvi kimi düşüb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" nın və sonradan həmin Dövlət Proqramına 31 oktyabr 2007-ci il, 21 fevral 2011-ci il tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb. Fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev Fondu da məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına çalışıb. Dövlət proqramına uyğun olaraq, məcburi köçkünlərin "böyük qayıdışı" layihəsi də artıq hazırdır. Bu proqram müxtəlif nazirliklər, dövlət komitələri və beynəlxalq təşkilatlar tərəfindən razılaşdırıblar. Layihə işğal altında olan Azərbaycan torpaqlarının azad olandan sonra həyata keçiriləcək. Qaçqın o şəxsdir ki, vətəndaşı olduğu ölkənin himayəsindən istifadə edə bilmir. İrqi əlamətinə, milliyyətinə, müəyyən sosial qrupa mənsubluğuna, siyasi əqidəsinə və dini etiqadına görə təqiblərə məruz qalır.

İnternetdə: www.books.google.com

## 21 İyun – Dünya Yoqa Günü



Yoqa – ənənəvi Asiya sisteminə əsaslanan fiziki tapşırıqların (tətbiqlərin, məşqlərin) sırasıdır. Yoqanın ən aydın, şəffaf mənası onun etimoloji mənşəyində saxlanılır. Yoqa sözü – Sanskrit dilində yuj sözündən götürülüb. Mənası, "birlik", "ittifaq" deməkdir. "Yoqa" sözü öz mənşəyini sanskrit dilindəki "yuq" sözündən götürür ki, o da tərcümədə "birləşmə", "qovuşma", "tövhid" mənasını verir. Yoqa – altı əsas ortodoksal hind fəlsəfi sistemindən birini təşkil edir. Bu təlim ilk dəfə sistemli şəkildə qədim hind müdriki Patacalinin (e.ə. I əsr) "Yoqa sutra" əsərində təsvir edilir. Ümumi halda, yoqa sistemi – xatxa-yoqa, raca-yoqa, karma-yoqa, jnani-yoqa, bxakti-yoqa və s. kimi mərhələlərə bölünür ki, bu mərhələlərin hamısından uğurla keçənlər müasir yoqlar kimi havada uçmağı, özgələrin fikirlərini oxumağı və s. bacarırlar. Yoqa təlimi bugünkü elmə təsir etmiş ən güclü mistik cərəyandır və bugünkü alimlər mistikanı, fövqəltəbii qabiliyyətləri analiz etmək üçün ən çox hind yoqları üzərində təcrübə, müşahidə aparırlar. Demək olar ki, fövqəltəbii qüvvələrin sirrini bugünkü günə qədər yaşadan yeganə mistik təriqətdir. Yoqa səkkiz hissədən meydana gəlir. Bu hissələr Ashta-Anga olaraq adlandırılar.

- Yama – müsbət yönlərin inkişaf etdirilməsi
- Niyama – mənfi yönlərin aradan qaldırılması
- Asana – fiziki duruşlar
- Pranayama – nəfəs və enerji texnikaları
- Pratyahara – bioenerji və çakra texnikaları
- Dharana – konsentrasiya texnikaları

Yoqanın tarixi öz kökləri ilə qədim zamanlara gedib çıxır. Hind çayı boyunca tapılmış və Hind sivilizasiyasına (b.e.ə. 3300-1700 illər) aid olan bəzi əlyazmalarda meditativ və yoqa pozalarında olan fiqurlar təsvir olunmuşdur.

- Dhyana – Meditasyiya texnikaları
- Samadhi – süpermeditasiya texnikaları

İnsanlığın başlanğıcından bəri Yoqa tətbiq olunmaqdadır. İlk başlarda Ustaddan şagirdə şifahi köçürülən məlumatlar zaman içində başqa təlimlərlə qarışdırıldığı üçün günümüzdən 2000-3000 il əvvəl Ustad Patancali tərəfindən təkrar orijinal halına sadələşdirilib kitab halına gətirilmişdir. Yoqanın bu orijinal halını izah etdiyi kitab Yoqa Sutradır. Yoqa bütün dünyada populyarlaşmaqdadır. 2014-cü ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) üzv dövlətləri 21 iyunun Beynəlxalq Yoqa Günü elan olunması haqqında qətnamə qəbul ediblər. Həmin tarixdən etibarən 21 iyun Beynəlxalq Yoqa Günü dünyada milyonlarla insan tərəfindən qeyd olunur.

İnternetdə: www.books.google.com

**23 İyun – Beynəlxalq Olimpiya Günü, (1948)**




Bu gün Beynəlxalq Olimpiya Komitəsi tərəfindən təsis edilmişdir. 1947-ci ildə BOK-nin Stokholmda keçirilən 41-ci sessiyasında hər il Dünya Olimpiya Gününü keçirmək təklifi irəli sürülüb. İlk Olimpiya Günü 1948-ci il iyunun 23-də 9 ölkədə qeyd olunub. Olimpiya Gününü daha təntənəli şəkildə və bütün Milli Olimpiya Komitələrinin iştirakı ilə qeyd etmək məqsədi ilə 1987-ci ildə Olimpiya Qaçış Günü keçirilib. Azərbaycanda Beynəlxalq Olimpiya Qaçış Günü ilk dəfə 1996-cı ildə təşkil edilib. Elə həmin ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatılıb. Bu gün ölkəmizdə idman sürətlə kütləviləşir. Hər il müxtəlif beynəlxalq yarışların Azərbaycanda keçirilməsi, digər sahələrdə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırır.

Hər dörd ildən bir böyük səbrsizliklə izlədiyimiz Olimpiya Oyunlarının qədim olmaqla yanaşı, həm də keşməkeşli tarixi var. Qədim Yunanıstanda əsası qoyulan Olimpiya Oyunları, bir növ, dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslanırdı. Olimpiya Oyunlarında fiziki bacarıq mənəviyyatla, incəsənətlə vəhdət təşkil edirdi. Bu oyunların bərpası təşəbbüsü 1894-cü ildə fransız ictimai xadimi baron Pyer de Kuberten tərəfindən irəli sürülüb. Həmin konqresdə ilk Olimpiya Oyunlarının keçiriləcəyi yer də müəyyən olunub. Beləliklə, ilk Oimpiya Oyunları 1896-cı ildə Yunanıstanın paytaxtı Afina şəhərində keçirilib. Üzərində 5 halqa olan Olimpiya bayrağının ideyasına görə halqalar 5 qitəni göstərir: göy, sarı, yaşıl, qara və qırmızı. Rəngli halqaların bir-birinə keçirilməsi bu qitələr arasında dostluğu ifadə edir. Dərisinin rəngindən, sosial, siyasi, dini əqidəsindən və idmana aid olmayan digər amillərdən asılı olmayaraq, bütün qitələrin atletləri arasında vicdanlı, idman mübarizəsinin simvolu kimi qəbul edib.

1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi yaradılıb. 1997-ci ildə Milli Olimpiya Komitəsinə İlham Əliyevin sədr seçilməsi isə Azərbaycanda olimpiya hərəkatının güclənməsi üçün böyük təkan oldu.

İnternetdə: www.books.google.com

## 23 İyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü, (2006)



Bu bayram Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib. Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 1995-ci ildə qəbul olunan Konstitusiya ölkəmizdə dövlət quruluşu və idarəçilik prinsiplərini təsbit edir. Ölkəmizdə Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də qəbul edilən “Dövlət qulluğu haqqında” Qanundur. Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib. Respublikamız müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatları uğurla davam etdirir. Bu islahatlardan məqsəd çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması, bütövlükdə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirilməsindən ibarətdir. Prezident İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb, onun Əsasnaməsi təsdiq edilib. Komissiyanın əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının ixtisas hazırlığının artırılması, qanunvericilikdə nəzərdə tutulan siyasətin həyata keçirilməsini təmin etməkdir. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynayır. İndi ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirlik, komitə və digər qurumlarda 28 minə yaxın dövlət qulluqçusu çalışır. 10 min nəfərdən çox şəxs isə dövlət qulluqçusu kimi pensiya alır.

İnternetdə: www.books.google.com

## 26 İyun – Silahlı Qüvvələr Günü, (1918)




***"Güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var. Azərbaycan ordusuna eşq olsun! Yaşasın Azərbaycan!"***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Milli Ordumuzun yaradılması hələ Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə təsadüf edir. O vaxtlar Rusiya imperiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən "azad" edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxarmışdı. 1917-1918-ci illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhəddini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi istedadlı generalları var idi. AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilirdi. Ancaq tədricən müharibədəki məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü batalyonlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Qismən hərbi səfərbərlik və orduya çağırış işi yoluna qoyuldu. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu.

İnternetdə: www.books.google.com

**26 İyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü**




Narkomaniya “ağ ölümdür”, həyatdan üz çevirməkdir. “Narkomaniya” və “ölüm” sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar. Narkotik maddələr müxtəlif çeşidlidir. Daha çox yayılanları isə xaşxaş, tiryək, marixuana, heroin, kokain və s.-dir. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə – narkomaniyaya gətirib çıxarır.

Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisi birdən-birə azalır, ümumi zəhərlənmə baş verir. Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar çoxdur. Narkotik maddə alverçiləri heroin və kokaini yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkərli diabet tez inkişaf edir. Əgər "xalis mal", yəni heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin güclü təsirindən o saat ölmək olar. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş beyin zədələnə və bununla da yaşaya-yaşaya şikəstlik əmələ gələ bilər. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanından məhrum olur.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirilmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə aparılır. Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

İnternetdə: www.books.google.com

**Yubilyar yazıçı və şairlər**

**21 İyun - Yazıçı Qərib Mehdinin anadan olmasının 85 illiyi, (1936)**

***"Qərib Mehdi əsərlərini (kiçik hekayə və yaxud publisist yazıları da) sevgiylə, məxsusi nəvazişlə yazır, yox bu azdır; "ədəbi portretlərini" o, daha böyük maraqla, sərt-soyuq ağılla rəsm edir."***

H.Zərdabi və "Qızıl qələm" mükafatçısı F. Ruzigar



**Nasir, publisist, jurnalist 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1976-cı ildən Azərbaycan Jurnalistlər İttifaqının üzvü Mehdiyev Qərib Qasım oğlu çoxsaylı fəaliyyətinə görə 1991- ci ildə "Həsən bəy Zərdabi", "Məmməd Araz" ali ədəbi mükafatına, bir illik prezident təqaüdünə, "Əməkdar jurnalist" adına, BMT-nin "Şərəf və vicdan" ordeninə layiq görülmüşdür**.

Mehdiyev Qərib Qasım oğlu 1936-cı il iyunun 21-də Azərbaycanın Qutqaşen (indiki Qəbələ) rayonunun Mirzəbəyli kəndində anadan olmuşdur. 1943-cü ildə Gəncə şəhərinə köçmüş və 3 saylı fəhlə-gənclər axşam məktəbini bitirmişdir (1955). 1956-cı ilildən bədii yaradıcılıqla məşğuldur. 1958-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində ilk mətbu əsəri "İşığın qəzəbi" adlı satirik hekayəsi dərc olunub. 1967-ci ildə "İşıq" adlı ilk kitabı çapdan çıxıb. Q.Mehdi 39 kitabın, yüzlərlə publisist məqalənin müəllifidir. Əsərləri tərcümə olunaraq dünyanın 18 ölkəsində çap edilmişdir. Qərib Mehdi insan xarakterinin müşahidəsi və təsvirinin ustasıdır. Bunu onun bütün əsərlərində görürük. Yazıçı fərdin və mühitinin astarına varmaqla Qərib Mehdinin nasir qələmi sanki peşənin sirlərinə bir köynək də yaxın olduğunu təsdiqə yetirir.

**Əsərləri:** "İşıq" (1967), "Yaralı mərmər" (1969), "Rast" (1973), "Təmiz hava" (1980), "Qəhqəhə" (1993), "Xatırlanmaq xoşbəxtliyi" (2000), "Hamını oxumağa çağıran adam" (2000), "Bulanma, könül çayım" (2002), "Göyçəgülü" (2002), "Səbuhinin hekayələri" (2003), "Bu qızı eşit, İlahi" (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S 494.

**Xarici ədəbiyyat**

**14 İyun - Amerika yazıçısı Harriet Biçer Stounun 210 iliiyi, (1811-1896).**



Harriet Biçer Stou 1811-ci il iyunun 14-də Amerikanın şimalındakı kiçik bir şəhərdə-Liçfilddə məşhur din xadimi Layman Biçerin ailəsində dünyaya göz açmışdır. Atası ABŞ-ın az-çox tanınan adamlarından biri idi. Layman ailənin uşaqlarının hamısına yaxşı tərbiyə və təhsil vermiş, onların cəmiyyətdə layiqli insan kimi yaşamalarına qayğı və nəvaziş göstərmişdir. "Xanım Biçer Stou" məqaləsinin elə ilk sətirlərində qadınların cəmiyyətdəki rolu və mövqeyi yüksək qiymətləndirilir: "Kişilərdə qadınların haqqı çoxdur. Onlar dünyada çox yaxşılıqlar etmişlər. Məşhur qadınlar hər bir vilayətdə və hər bir əsrdə olmuşlar. Belə ki, bunların hər birindən bir əhvalat yazılmış olsa, neçə cild kitab meydana çıxar. Həmin qadınlardan ən mötəbərlərindən və bizə bilinməsi lazım olanın biri də ədibə Harriet Biçer Stoudur". Stoular ailəsi Nyu-York yaxınlığındakı kiçik bir əyalət şəhərində yaşayarkən, Harriet əyalətdəki qara dərili qulların ağır və dözülməz həyatı, Amerika zəncilərinin hüquqsuzluqları barədə "Tom dayının daxması" adlı iri bir roman yazmaq fikrinə düşür. Dünya şöhrətli “Tom dayının koması” əsəri İngiltərədə 35 dəfə nəşr olunmuş, 20 dünya xalqları dilinə tərcümə edilmişdir. H.B.Stou ibtidai məktəbi qurtarandan sonra təhsilini böyük bacısının açdığı məktəbdə davam etdirir. Bu məktəbi qurtarandan sonra elə oradaca - Qərbi Qadın İnstitutunda müəllimliyə başlayır.

Onun ədəbiyyat aləminə gəlişi həyatının bu dövrü ilə bağlıdır. Gənc müəllim məktəbyaşlı uşaqlar üçün hekayələr yazıb, Amerikanın bir sıra mətbu orqanlarında çap olunub. Gərgin zehni əməkdən yorulsa da, Harriet Biçer Stou Amerika zəncilərini öz azadlığı uğrunda mübarizəyə çağırır, ciddi mütaliə edir, fürsət tapdıqca zəncilərin həyatına aid bir-birindən maraqlı yazılar yazırdı.

H.B.Stonun "Tom dayının koması" əsərini Azərbaycan dilinə yazıçı Hidayət Orucov tərcümə etmişdir.














İnternetdə:https://az.wikipedia.org/wiki/Harriyet_ Biçer_ Stou

**22 İyun - İngilis yazıçısı, dünya macəra ədəbiyyatının klassiki Henri Rayder Heqqardın anadan olmasının 165 illiyi, (1856-1925)**



İngilis yazıçısı, dünya macəra ədəbiyyatının klassiki Henri Rayder Heqqard 22 iyun 1856-cı ildə İngiltərədə anadan olub, məktəbi bitirdikdən sonra atası tərəfindən Londona, Xarici İşlər Nazirliyində işləmək üçün hazırlaşmağa göndərilir. Lakin diplomatik xidmətə qəbul edilə bilməyən gələcək yazıçı 1875-ci ildə Cənubi Afrikaya gedir və burada katib kimi işləməyə başlayır. Bir müddət vəkil kimi fəaliyyət göstərir, lakin bu iş onu cəlb etmir və o, yazmağa başlayır. Tarixi, psixoloji, fantastik hekayələr yazaraq özünü sınayan Heqqarda Cənubi Afrikada macəralar haqqında yazdığı əsərlər dünya şöhrəti gətirmişdir. Bu əsərlərdəki fantastika elementi onların belə geniş şəkildə populyarlıq qazanmasında əhəmiyyətli rol oynamışdır. Heqqardın populyar qəhrəmanı bəyaz dərili ovçu və macəra axtaran Allan Kvotermeyn onun bir çox əsərlərinin mərkəzi personajıdır. “**Mayvanın qisası**”, “**Mari**”, “**Fırtına övladları**”, “**Cess**”, “**Beatris**”, “**Kleopatra**” və s. əsərlərin müəllifidir. H.R.Heqqard 14 may 1925-ci ildə vəfat etmişdir.














İnternetdə:https://www.wikiwand.com/az/Henri_Rayder_Haqqard

**Milli qəhrəmanlıq zirvəsi**
**6 İyun – Sədiyev Vəzir İsa oğlunun 60 illiyi, (06.06.1961-19.02.1993)**



**Vəzir Sədiyev — Azərbaycanın Milli Qəhrəmanı;**
**Qarabağ müharibəsi şəhidi**

Sədiyev Vəzir İsa oğlu 6 iyun 1961-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olmuşdur. Orta təhsilini Qərbi Azərbaycanda alan Vəzir daha sonra Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə daxil olur. Vəzir Sədiyev Əfqanıstan müharibəsində iştirak etmişdi. O, yüksək səviyyəli xidmətinə görə mayor rütbəsi də almışdı. Dəhşətli Xocalı soyqırımından sonra könüllü olaraq müharibəyə qoşulmağı qərara alır. Vəzir Laçın, Qubadlı, Füzuli, Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak edir. Milli Orduda artilleriya hissələrinin yaradılmasında onun böyük xidmətləri olmuşdşur. 1993-cü il 19 fevral Həsənriz kəndi uğrunda gedən döyüşlərdə cəsur komandir Vəzir Sədiyev qəhrəmancasına həlak oldu. Ailəli idi, bir övladı qalıb. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

**Azərbaycan Respublikası prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə Sədiyev Vəzir İsa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

***Qəhrəman Mehdilərə,***
***Həzilərə həsədim,***
***Cəbhələrdən dönməyən***
***Atalara həsrətim –***
***Hərbi andımdır mənim.***

Ələmdar Quluzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/ Vəzir _Sədiyev

**15 İyun - Salahov Şakir Şamil oğlunun 55 illiyi, (15.06.1966-28.01.1992)**



**Salahov Şakir — Azərbaycanın Milli Qəhrəmanı**

Salahov Şakir Şamil oğlu 15 iyun 1966-cı ildə Xocalı rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1981-ci ildə Cəmilli kənd orta məktəbini bitirmişdir. 1984-cü ildə hərbi xidmətə çağırılır. 1986-cı ildə xidmətini başa vurur və Xankəndi Daxili İşlər Şöbəsinə işə qəbul olunur. Qarabağ müharibəsinin cəsur döyüşçüsü ilk günlərdən erməni yaraqlılarının hücumlarının qarşısını məharətlə alırdı. 1991-ci il 26 fevral ermənilər Cəmilli kəndinə hücum edəndə Şakir xeyli sayda qulduru məhv etmişdi. 1991-ci il 23 avqust erməni quldurları Kosalar-Cəmilli kəndləri arasındakı "Darlı" adlanan yerdə "UAZ" markalı maşını atəşə tutdular. Bu hadisə zamanı üç nəfər şəhid oldu. Erməni quldurlarını taparaq məhv edən Şakir şəhidlərin qanını yerdə qoymadı. 1992-ci il 28 yanvar Ağdam Şuşa istiqamətində uçan vertolyot ermənilər tərəfindən vuruldu, ermənilərə əsir düşməmək üçün vertolyotdan hərkəs özünü ataraq həlak etdi, onların arasında Şakir Salahov da var idi. Subay idi. Bərdə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Salahov Şakir Şamil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

***Ünvansız ölənləri***
***Axı, necə unudum?***
***Bir naməlum əsgərin***
***Qəbri üstdə sükutum –***
***Hərbi andımdır mənim***

Ələmdar Quluzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/ Şakir_Salahov

**26 İyun - Məcidov Zakir Nüsrət oğlunun 65 illiyi, (26.06. 1956-06.08.1992)**

**Zakir Məcidov — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi**



Məcidov Zakir Nüsrət oğlu 1956-cı il 26 iyunda Neftçala rayonunun Həsənabad qəsəbəsində dünyaya göz açmışdır. Orta təhsilini 1963-73-cü illərdə Bakıda başa vurduqdan sonra, Zakir 1974-cü ildə Ryazan vilayətinin Sasovo şəhərinə gedərək Ali Hərbi Aviasiya məktəbinə daxil olmuşdur. 1977-ci ildə həmin məktəbi bitirərək, leytenant rütbəsi almışdır. Vətənə dönən gənc Zakir əmək fəaliyyətinə Yevlax avia dəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi başlamışdır. Vətənin başını qara buludlar alanda canından çox sevdiyi torpağını qorumaq üçün ilk şahinlərdən biri oldu. Tez-tez sərhəd bölgələrinə uçuşlar edən Z.Məcidov, ordakı vəziyyəti görür, buna biganə qala bilmir və vətənimiz son dərəcə təhlükəli durumda ikən bir çox mərd yurddaşlarımız kimi könüllülər sırasına daxil olur. Zakir Məcidov 1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan 843 saylı hərbi hava hissəsində Mİ-24 vertolyotlarından birinə komandir təyin olunur. O, həmin vertolyotla Ağdərənin Aterk kəndində ermənilərin yerləşdiyi qərargahı darmadağın edir, düşmənin xeyli texnikasını sıradan çıxarır. Bu onun son uçuşu olur. Döyüş əməliyyatını müvəffəqiyyətlə yerinə yetirdikdən sonra bir-birinin ardınca ona tuşlanan raket zərbələri vertolyotunu ciddi zədələyir. Sayıqlığını itirməyən igid komandir çox çalışır ki, vertolyotu öz ərazimizə çatdırsın. Lakin buna müvəffəq ola bilmir. Z.Məcidov 36 yaşında Vətənimizin aydın səması uğrunda qəhrəmancasına həlak olur. Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. Neftçala rayon Uşaq Yaradıcılıq Mərkəzi Milli qəhrəman Zakir Məcidovun adını daşıyır.

**Azərbaycan Respublikası prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə Məcidov Zakir Nüsrət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Təki vətənimiz düşməsin dara***
***Baxmayıb soyuğa, borana, qara***
***Cavab vermək üçün o azğınlara***
***Hər bir çətinliyə dözdü Şəhidlər.***

Dursun Musayeva

İnternetdə:https://az.wikipedia.org/wiki/Zakir_Məcidov

**27 İyun - Əliyev Yavər Yaqub oğlunun 65 illiyi, (27.06.1956-29.02.1992)**



**Yavər Əliyev — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi**

Əliyev Yavər Yaqub oğlu 27 iyun 1956-ci ildə Bakı şəhərində anadan olmuşdur. Pirallahı adasında 253 saylı orta məktəbi bitirbikdən sonra Ukraynanın Kremençuq Aviasiya Məktəbinə daxil olmuşdur. Yavər Əliyev Azərbaycan Hərbi Qüvvələrinin yaranmasında böyük işlər görmüşdür. Yavər Əliyev bir neçə dəfə Qarabağa Mİ-24 vertolyutunda uçuşlar etmiş, aşağı yüksəklikdə uçaraq düşmən mövqelərinə ağır zərbələr endirmişdir. Bu uçuşlar zamanı ermənilər çoxlu itkilər verirdi. 1992-ci il 29 fevral tarixində Yavərin sonuncu uçuşu oldu. Ailəli idi. İki övladı atasının peşə yolunu davam etdirir. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Pirallahı adasında oxuduğu 253 saylı orta məktəb onun adını daşıyır.

**Azərbaycan Respublikası prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə Əliyev Yavər Yaqub oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı "adına layiq görülmüşdür.**

***Savaşlardan alnıaçıq çıxan zaman***
***Tarixlərə bağışladın neçə qurban.***
***Hər qonşuda bir parçası əsir qalan***
***Torpağına canım qurban, Azərbaycan !***

Nəriman Həsənzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/ Yavər_ Əliyev

## İyul

**Əlamətdar tarixi günlər və bayramlar**

2 İyul – Polis İşçiləri Günü, (1998)
4 İyul – Beynəlxalq Əsir Delfinlər Günü, ( 1960)
11 İyul – Ümumdünya Şokolad Günü, (1995)
20 İyul – Beynəlxalq Şahmat Günü, (1996)
20 İyul – Beynəlxalq Tort Günü
22 İyul – Milli Mətbuat və Jurnalistika Günü, (1875)
23 İyul – Ümumdünya Balina və Delfinlər Günü, (1986)
29 İyul – Beynəlxalq Pələng Günü, (2010)
30 İyul – Beynəlxalq Dostluq Günü, (2011)

**Yubilyar yazıçı və şairlər**

Yazıçı Əlisəfa Azayevin 70 illiyi, (01.07.1951-1970)
Yazıçı Şamo Arifin 85 illiyi, (09.07.1936)
Şair, publisist Əlisəttar İbrahimovun 125 illiyi, (31.07.1896-1937)

**Xarici ədəbiyyat**

Fransız şairi, təmsilçi Jan de Lafontenin 400 illiyi, (08.07.1621-1695)
Rus yazıçısı Sergey Baruzdinin 95 illiyi, (22.07.1926-1991)
İrland yazıçısı, dramaturq Corc Bernard Şounun 165 illiyi, (26.07.1856-1950)
İngilis yazıçısı Beatriks Potterin 155 illiyi, (28.07.1866-1943)

**İncəsənət**

Holland rəssamı və qrafiki Rembrandtın 415 illiyi, (15.07.1606-04.10.1669).
Xalq rəssamı Maral Rəhmanzadənin 105 illiyi, (23.07.1916-2008)

**Milli qəhrəmanlıq zirvəsi**

Kərimov Kərim Məhəmməd oğlunun 50 illiyi, (02. 07.1971-06.05.1992)
Zülfüqarov Samir Xəlil oğlunun 45 illiyi, (03.07.1976-17.03.1995)
Hüseynov Sadiq Dayandur oğlunun 60 illiyi, (29.07.1961-13.04.1992)

## Əlamətdar tarixi günlər və bayramlar

## 2 İyul – Polis İşçiləri Günü, (1998)



***Xidmət etmək sayılır kişilikdən nişana,***
***Xalqına xidmət etmək bir şərəfdir insana.***
*Nizami Gəncəvi*

Azərbaycanın ilk polis bölüyü 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb. Polis bölüyünün yaranmasından 80 il sonra həmin gün polislərin peşə bayramı kimi qeyd olunmağa başlayıb. Belə ki, Prezident Heydər Əliyevin 24 may 1998-ci il tarixli "Azərbaycan Polisi Gününün təsis edilməsi haqqında" fərmanına əsasən iyulun 2-si Azərbaycan daxili işlər orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Azərbaycan polisinə verilən bu önəmin səbəbi ondan qaynaqlanır ki, ulu öndər ölkəmizdə daim polisin fəaliyyətinə yüksək qiymət verib. İctimai sabitliyin qorunub saxlanmasında, cinayətkarlıq hallarının qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyəti yüksək qiymətləndirilib. Azərbaycan polisi dövlətə və xalqa yüksək sadiqlik nümayiş etdirməklə, mühüm vəzifələrin öhdəsindən həmişə layiqincə gəlib. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın və təhlükəsizliyin təminində, daxili sabitliyin yaradılması sahəsində qanunla müəyyən edilən vəzifəsini layiqincə yerinə yetirir. Azərbaycan polisi Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda "Azərbaycanın Milli Qəhrəmanı" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır. Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılır.

**İnternetdə: www.books.google.com**

## 4 İyul – Beynəlxalq Əsir Delfinlər Günü, (1960)



Bu günün təsis olunması delfinlərin və digər dəniz məməlilərinin hərbi məqsədlərlə istifadə olunması və onların qapalı yerlərdə saxlanmasına qarşı mübarizə aparanlar tərəfindən irəli sürülmüşdür. Qeyd edək ki, dəniz heyvanlarından hərbi məqsədlərlə istifadə olunması ideyası hələ ötən əsrin əvvəllərində meydana gəlmişdir.

Düşmən gəmilərinin partladılması, minaların aşkara çıxarılması, düşmən üzgüçü-kəşfiyyatçıların zərərsizləşdirilməsi üçün xüsusi delfin dəstələrinin yaradılması təklif olunurdu. Belə layihələr 1960-cı illərdən başlayaraq SSRİ-də və ABŞ-da reallaşdırılırdı. Döyüş delfinləri amerikalılar tərəfindən Vyetnam müharibəsində və İraqda xüsusi əməliyyatların gedişində istifadə olunmuşdur. SSRİ-də isə xüsusi təlim görmüş delfin dəstələri Qara dənizdə minaları axtarırdı. SSRİ-nin süqutundan sonra Rusiyada belə fəaliyyət qadağan olunmuşdur. ABŞ-da isə bu gün də bununla məşğul olan beş mərkəz fəaliyyət göstərir. Dəniz məməlilərinin okeanarium və delfinarilərdə saxlanmasının da mənfi tərəfi var. Delfinlər təbiətdə gün ərzində 100 km-dən çox məsafə qət edirlər və 200 m-dən çox dərinliyə enə bilirlər. Heç bir delfinari əsir delfinlərə belə imkan yarada bilmir. Delfinlərin hərəkət zamanı çıxardıqları səs hovuzda təhrif və dəfələrlə əks olunduğu üçün onlara çox böyük zərər vurur. Xlorlu su onların dərisini və görmə orqanlarını zədələyir. Nəticədə bu heyvanların qapalı yerlərdə saxlanması onların yaşama müddətini 5-6 dəfə azaldır. Buna görə də belə sual yaranır: insanın bu heyvanları əsir etməyə haqqı varmı? Beynəlxalq Əsir Delfinlər Günü bu heyvanların azad və özlərinin təbii mühitlərdə yaşamaq hüquqlarını təmin etmək məqsədilə ictimaiyyətin diqqətini bu problemə cəlb etməyə xidmət edir. Delfinlərin əhliləşdirilməsinə 8 ay vaxt lazım olur. Bu ağıllı heyvan insanı çox tez başa düşmək qabiliyyətinə malikdir. Hovuzlarda bəslənən delfinlər az bir zamanda nimçədən səliqə ilə balıq götürüb yeməyi, yanan şamı söndürməyi, voleybol oynamağı öyrənirlər. Delfinlər balıqları ultrasəslə axtarıb tapır. Yarasalar kimi, delfinlər də şaqqıltılı səslər və ya ucadan qırıq-qırıq fit səsinə oxşar ultrasəslər buraxır və balıqlara toxunub qayıdan bu səsləri tutmaqla ovlarını tapırlar. Delfinlərin beyni insanlara çox oxşardır. Ekoloqlar onların qorunmasında çox israrlıdırlar. Hal-hazırda dünyada delfinlərlə birgə olan üzmə proqramları çox məşhurdur.

**İnternetdə: www.books.google.com**

**11 İyul – Ümumdünya Şokolad Günü, (1995)**



Şokolad Günü (World Chocolate Day) ilk dəfə 1995-ci ildə Fransada qeyd edilib. Tez bir zamanda məşhurluq qazanaraq Almaniya, İtaliya, İsveçrə və digər Avropa ölkələrində, eləcə də Avropadan kənarda keçirilməyə başlanılıb. Çox sevdiyimiz şokoladın və şokolad ağacının vətəni Mərkəzi və Cənubi Amerikadır. Əvvəllər içki kimi qəbul edilən bu şirniyyatın adı haqqında müxtəlif versiyalar var. Onlardan birinə görə, şokolad qədim astek sözü olub, "xocolatl" yəni, kakao paxlasından alınan içkinin adını bildirir. Mənası isə "acı su" kimi tərcümə olunur. Avropada "qara qızıl" adı ilə tanınması isə ispanlara məxsus olub. Şokoladın tarixi 3000 il əvvəlki dövrə aid edilən nemətlər sırasına daxildir. Təxminən bizim eradan 1500 il əvvəl Meksika körfəzi sahillərində yeni sivilizasiya meydana gəlmişdir. İrəli sürülən fikirlərə əsasən məhz "kakao" sözü ilk dəfə olaraq onlar tərəfindən dildə "kakava" kimi tələffüz edilib. Dünyada sevgi rəmzi kimi tanınan ilk şirniyyat şokoladdır. Statistikaya əsasən 20 yaşlı əksər gənclər məhz ağ şokolada üstünlük verir. Şokoladın tərkibindəki fenamin maddəsi, insanda sevgi hissi yaradır. Şokolad A, B, C, D, E, kalsium, kalium və natrium vitaminləri ilə zəngindir. Kakao və şokolad antiseptik xüsusiyyətlərə malik olub, dişi bir çox zərərdən qoruyurlar. Şokolad yeməklə qızdırma, soyuqdəymə xəstəliklərini dəf etmək olar. Dünyanın ən kalorili şokoladı südlü şokolad hesab edilir. Dünya qadınlarının 15%-i hər gün şokolad yeyir. İsveçrəlilər dünyada ən çox şokolad yeyən əhali sayılır. Belə ki, hesablamalara əsasən bu ölkədə hər sakinə il ərzində 10 kq şokolad düşür.

Müasir elm şokoladın tərkibində insanı psixoloji rahatladan elementlərin olduğunu göstərir. Tünd şokoladın növləri bədəndən endorfinin – insanda rahatlıq, xoşbəxtlik, məmnunluq və razılıq hissləri yaradan hormonu stimullaşdırır və əhvali-ruhiyyəni yüksəldir. Həmçinin ehtimal olunur ki, şokolad xərçəng əleyhinə effektə malikdir və qocalma prosesini ləngidir.

**İnternetdə:** [www.books.google.com](http://www.books.google.com)

**20 iyul – Beynəlxalq Şahmat Günü, (1996)**



1996-cı ildən 20 iyul dünyanın hər yerində Beynəlxalq Şahmat Günü kimi qeyd olunur. Bu bayram əsası 1924-cü ildə qoyulmuş Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qərarı ilə keçirilir. Bütün rəsmi yarışlar, o cümlədən kişi və qadınlar arasında dünya çempionatları, kişi, qadın, tələbə və yeniyetmələrin komanda birincilikləri, Avropanın komanda birinciliyi, Avropa Çempionlar kuboku, Panamerikan fərdi yarışları FİDE-nin himayəsi altında keçirilir. FİDE 1950-ci ildən kişilərə, 1976-cı ildən isə qadınlara beynəlxalq qrossmeyster adı verir.

Azərbaycanda şahmat ən populyar idman növlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-2014-cü illərdə şahmatın inkişafına dair Dövlət Proqramı təsdiq edilmişdir. Ölkəmizdə şahmat ötən ilin 70-ci illərində inkişaf etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada müasir şahmat məktəbi binaları tikilməyə başlanmış, gənclərin bu idman növünə marağı artmış, gənc və istedadlı şahmatçılar yetişmişdir.

Şahmat oyununun adı farsca “şah” və “mat” sözlərindən yaranıb. Mənası “hökmdar öldü” deməkdir. Şahmatın vətəni Hindistan hesab edilir. Şahmatın sələfi olan “Şətrənc” oyunu V əsrdə Hindistanda yaranıb. Azərbaycanda şahmatın təqribən V-VI əsrlərdə yaranması güman edilir. Şərq poeziyasının klassikləri, Xaqani və Nizaminin (XII-XIII əsrlər), habelə Füzulinin (XVI əsr) və başqa böyük mütəfəkkirlərin əsərlərində şahmatdan bəhs edilir. Böyük yazıçı və filosof Mirzə Fətəli Axundzadə 1864-cü ildə yazdığı “Şətrənc oyunu” şeirində şahmat oyununun qaydalarını poetik dildə şərh edib.

**İnternetdə: www.books.google.com**

**20 İyul – Beynəlxalq Tort Günü**



Hər bir ölkənin mədəniyyətinə uyğun reseptlərdən yararlanaraq tortlar bişirilir. Tortları müxtəlif mərasimlərlə əlaqədar hazırladıqlarına görə onların forma və ölçüləri də kəskin surətdə fərqlənir. Tortla əlaqədar çoxsaylı faktlar və maraqlı məlumatlar verilmişdir. Bunların çox hissəsi hətta Ginnesin rekordlar kitabına daxil edilmişdir. Bunlara misal olaraq ABŞ–ın Miçiqan ştatında hazırlanmış tortu göstərmək olar. Bu tort stoldan 13 metr hündür idi və 100 pillədən təşkil edilmişdi. Həmçinin ən ağır tort da ABŞ–da yaradılıb, lakin bu tort Alabama ştatına aid edilir. 50 tondan ibarət olan tort ağırlığına görə seçilir. Bu möhtəşəm tortun bir hissəsini dondurma təşkil edirdi, onun görkəmi isə ştatın coğrafi kartında olduğu kimdir. Dünyada ən uzun toru Peru kulinarları tərəfindən yaradılmışdır. Onun uzunluğu 46 metrdən ibarət idi. Üzəri bolluca şəkərlə qarışdırılmış meyvələrdən və kremdən olan qızılgüllərdən təşkil olunmuşdu. Daha sonra bu tortu 15 000 hissəyə bölərək, Peruda həmin ay ərzində ad günü olan bütün uşaqlarına payladılar. Bizim qonşu Rusiya da bu rekordlardan uzaqda qalmamışdır. Ən böyük formada olan tort Moskvanın tanınmış Mərkəzi Univermağının ad günündə hazırlanmışdır. Tort bol formada cem və marsipanla (badam qurəbiyyəsi; döyülmüş badamla şəkərdən hazırlanan şirniyyat) bəzədilmişdir. Onun hündürlüyü Ginnesin rekordlar kitabında mütəxəssiz kimi işləyən ekspertlər tərəfindən ölçülmüşdür. Üç metrdən və üç tondan ibarət olan bu tort seçilirdi. İlk əvvəl çoxpilləli tortlar Londonda meydana gəlmişdir. Bu kimi tortları zallara gətirərkən öz görkəmi, hündürlüyü, çəkisi ilə mərasim iştirakçılarını heyrətləndirir. Lakin bu tipli proses ilk dəfə olaraq XVIII əsrdə həyata keçirilmişdir. Müasir zamanımızda tortlar beze, marsipan, şokolad, meyvə və merenqa (çalınmış yumurta ağı, qənd və qaymaqdan hazırlanan pirojna) ilə hazırlanır. Tortun bəzədilməsi isə insanın fantaziyasından və onu sifariş verən şəxsin istəklərindən asılı olaraq dəyişir.

Vətənimizdə də çox çeşidli tortlara rast gəlmək mümkündür və hazırkı dövrdə xüsusi kulinarlar tərəfindən hazırlanan şirniyyatlar öz görkəmi, keyfiyyət ilə seçilir.
Toy üçün nəzərdə tutulmuş tortların əksəriyyətinə Qədim Romada rast gəlmək olar, lakin burada tortu gəlinin başı ilə bəzəyirdilər. Xüsusən istəkdən asılı olaraq dəyişikliklər də etmək olurdu. Müasir zamanımızda isə toy üçün nəzərdə tutulan tortlar xüsusən seçilir. Əvvəllər tortların görkəmi əhəmiyyət kəsb etmirdi və onlar çox sadə hazırlanırdı. Beləliklə, xüsusi qaydada hazırlanan böyük desertlər bir neçə mərtəbədən təşkil olunur, bol qaydada meyvə və kremlə bəzədilir.

**İnternetdə: www.books.google.com**

## 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü, (1875)




***"Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur".***

Ümummilli lider Heydər Əliyev

Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda Azərbaycan dilində "Əkinçi" qəzetinin çap olunmasına nail olmuş və qəzetin ilk sayı 1875-ci ilin iyulun 22-də işıq üzü görmüşdür. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmləməsində böyük rol oynamışdır. Qəzetin müttərəqqi ideyaları Rusiya hakim dairələrini narahat etmiş və iki il sonra qəzet bağlanmışdır. XIX əsrin sonlarında "Ziya", (1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890-ci illər) qəzetləri nəşrə başlamışdır. XX əsrin əvvələrində C.Məmmədquluzadə, M.Şaxtaxtiniski, S.Hüseyn, Ö.Faiq Nemanzadə, Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Həmin dövrdə "Həyat", "Açıq söz", "Azərbaycan" kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxmışdır. 1906-ci ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlanması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqanı qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başlandığı gün – 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilib. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkənin nüfuzlu beynəlxalq təşkilata – Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin martın sonunda imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və mətbuat azadlığı şəraitini yaxşılaşdırmaqdır.

**İnternetdə:** **www.books.google.com**

## 23 İyul – Ümumdünya Balina və Delfinlər Günü, (1986)

 

1986-cı ildə Beynəlxalq Balinaovlama Komissiyası (International Whaling Comission: IWC) bu heyvanların 200 illik amansız şəkildə qırılmasından sonra balina sənayesinə qadağa qoymuşdur. Bu qadağa indi də qüvvədədir və bütün dünyada balinaların ovlanması, o cümlədən balina ətinin ticarəti qadağan olunmuşdur. Lakin balina sənayesi bu heyvanlar üçün yeganə təhlükə deyil. Balinaların, delfinlərin və digər dəniz məməlilərinin yox olmasının daha bir səbəbi – onların delfinarilər, okeanariumlar və sirklər üçün tutulmasıdır. Buna görə də bu gün yalnız balinaların deyil, bütün dəniz məməlilərinin qorunması günü hesab olunur. Beynəlxalq Delfinovlama Komissiyası balinaların ovlanmasına qadağa tətbiq etdikdən sonra Yaponiya sanksiyalardan çəkinərək bu sazişə qoşulmağa məcbur olmuşdur. Lakin balinaların elmi məqsədlərlə ovlanması hüququ vardır. 2007-ci ildə balinaların ovlanma kvotası 950 balina təşkil edirdi. Həmin kvotaya görə, hər il Yaponiya ancaq üçə qədər balina ovlayırdı. Lakin həmin il yapon "Nissin-maru" balina ovlama donanmasında yanğın baş verir və "tədqiqat" üçün 508 heyvan öldürülür.

Elmi işlər başa çatdıqdan sonra heyvanların əti əsasən yapon restoranlarında istifadə olunur. Beynəlxalq Balinaovlama Komissiyasının qadağası 19 fevralda qüvvəyə minmişdir.

Hər il fevralın 19-da daha bir bayram – Beynəlxalq Balinalar Günü qeyd olunur. Bəzən müxtəlif ölkələrin ekoloji təşkilatları bu günü birlikdə məhvolma təhlükəsi qarşısında qalan hər bir növ dəniz məməlisinin müdafiəsinə həsr edirlər.

**İnternetdə: www.books.google.com**

**29 İyul – Beynəlxalq Pələng Günü, (2010)**



29 iyul – Beynəlxalq Pələng Günüdür. Bu gün 2010-cu ildə Sankt-Peterburqda keçirilən “Pələng sammit”ində təsis olunub.

Pələnglər pişikkimilər fəsiləsinin ən güclü və böyük üzvləridir. Faunanın bu yırtıcı nümayəndələri, əsasən, Banqladeş, Malayziya, Hindistan və Koreyada yaşayırlar. Pələnglərin sayına görə Hindistan dünyada birinci yerdədir. Dünya Vəhşi Təbiəti Müdafiə Fondunun məlumatına görə, Yer kürəsində mövcud olan 3890 pələngdən 2500-dən çoxu Hindistandadır.

Pələnglərin sayının azalmasında əsas faktor brakonyerlik, qanunsuz heyvan ticarəti kimi antropogen amillər, iqlim dəyişikliyi və onların yaşayış areallarını itirməsidir.

Beynəlxalq Pələng Günü bəşəriyyətin diqqətini bu yırtıcıların qorunmasına və onların sayının azalmasının qarşısının alınmasına çəkmək üçün bir çox ölkələrdə qeyd edilir.

**İnternetdə: www.books.google.com**

**30 İyul – Beynəlxalq Dostluq Günü, (2011)**




Bu gün 24 aprel 2011-ci ildə BMT-nin qərarı ilə təsis olunmuşdur. Bütün planetin marağında olan Beynəlxalq Dostluq Günü əsasən zorakılığa qarşı olmaqla, mədəniyyətlərin dostluğunu nümayiş etdirir. BMT-nin Baş Məclisi Paraqvayın təşəbbüsü ilə iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etmişdir. Baş Məclis qurumun üzvü olan ölkələrə bu nəcib təşəbbüsü fəal təbliğ etməyi tövsiyə etmişdir. Bu münasibətlə Baş Məclis tərəfindən yekdilliklə qəbul edilmiş qətnamədə bütün dünya insanlarının ən nəcib və misilsiz hisslərinin təzahürü olan dostluğun aktuallığı və böyük əhəmiyyəti vurğulanmışdır.

Baş Məclis qurumun üzvü olan ölkələrə Beynəlxalq Dostluq Gününü öz adət-ənənələrinə uyğun qeyd etməyi məsləhət görmüşdür.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**Yubilyar yazıçı və şairlər**
**1 İyul - Yazıçı Əlisəfa Azayevin anadan olmasının 70 illiyi, (01.07.1951)**
***" Əlisəfa Azayev həmişə qələminə və mövzularına sadiqliyi ilə seçilmişdir".***

Flora Xəlilzadə



**Azayev Əlisəfa Soltan oğlu – nasir, 1993- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Əlisəfa Azayev 1951-ci il iyulun 1-də Azərbaycanda Kürdəmir rayonunun Qaramahmudlu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra bir il kolxozda işləmişdir. M. Ə. Sabir adına Şamaxı pedoqoji məktəbində təhsil almışdır (1968-1970). Kürdəmir rayonu Süşün kənd səkkizillik məktəbində bir il müəllim işlədikdən sonra ordu sıralarında hərbi xidməti borcunu yerinə yetirmişdir (1971-1973). Ordudan tərxis olunub Ərəbxana kənd orta məktəbində müəllim (1973-1979), "Bilik" cəmiyyətinin Kürdəmir rayon təşkilatının məsul katibi (1979-1982), orada xalq deputatları soveti İcraiyyə komitəsi təşkilat şöbəsinin müdiri (1982-1995) işləmişdir. Hazırda ədliyyə orqanlarında çalışır. Azərbaycan Dövlət Universitetində Konstitusiya hüququ üzrə aspiranturada təhsilini davam etdirmişdir (1992-1996). Ədəbi fəaliyyətə 70-ci illərdən başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış edir. Onun əsərləri zəngin müşahidə əsasında yazılıb. İnsanlarda düzlük, zəhmətsevərlik, dözümlülük, özündən böyüklərə hörmət, kiçiklərə qayğı göstərmək kimi məziyyətləri tərbiyə etmək məqsədi daşıyır. Müasirlərinin həyatı, arzu və düşüncələri, üzləşdikləri bir sıra çətinliklər, həyat həqiqətləri, reallıqlar Əlisəfa müəllimin hekayələrinin başlıca xüsusiyyətidir. Çünki yazıçının mövzuları, həm də bədii imkanları bir-birini tamamlayır. Xüsusilə də prokurorluq və hüquq mühafizə orqanlarından yazdığı silsilə əsərlər Əlisəfa Ağayevin detektiv janrda yazan peşəkar yazıçı kimi səciyyələndirir. Ə. Ağayevin nəsrində diqqəti çəkən bir məsələ oxucunun ürəyindən xəbər verir. Bütün qaranlıqların bağrını mütləq işıq yaracaq. Həqiqət qalibdir, haqq basılmaz! Qələmə aldığı hər bir hadisədə maraqlı sujet xətti qurmaq, oxucunu intizarda saxlamaq, qəhrəmanlarının mənəviyyatını ustalıqla açmağı bacarmaq, Ə. Ağayevi oxucularına sevdirən cəhətlərdəndir.

**Əsərləri:** "Yeddi il sonra" (1979), "Çin qızılgülü" (1987), "Gecə yarı sui-qəsd" (1991), "Kürdəmir şəhidləri" (1995), "Sirli qətl" (1996), "Gözlənilməyən hadisə" (1996), "Amansız qatil" (1997), "Qürbət ellərdə" (2000), "Əsgər anası" (2000), "Prokuror qızı" (2001), "Sahildə qətl" (2002), "Qatarda hadisə" (2002), "Qanlı gündəlik"(2002), "Günahsız məhbus" (2003) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əlisəfa_Azayev

**9 İyul - Yazıçı Şamo Arifin anadan olmasının 85 illiyi, (1936)**



**Rəhimov Arif Süleyman oğlu- nasir, 1964- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, geologiya-mineralogiya elmləri namizədi (1965), "Qızıl qələm" mükafatı laureatı.**

Rəhimov Arif Süleyman oğlu 1936-cı il iyulun 9-da Qubadlı rayonunun Əyin kəndində anadan olub. O, geologiya və mineralogiya üzrə tanınmış alimdir. Bakıda 7 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun geoloji kəşfiyyat fakultəsində təhsil almışdır (1954-1959). Azərbaycan Neft Sənayesi Elmi – Tədqiqat layihə İnstitutunda kollektor-fəhlə, texnik, baş texnik, mühəndis, aspirant, baş mühəndis, kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi, eyni zamanda "Azərekspertiza" Birliyinin direktoru vəzifələrində işləmişdir (1959-2003). "Kiçik Qafqazın şimal- şərq dağətəyinin geotektonik inkişafının riyazi üsulla öyrənilməsi və Mezozoy çöküntülərinin neft-qazlılıq perspektivliyi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1965). Neft geologiyasına dair 50-dək elmi əsərin müəllifidir. Ədəbi fəaliyyətə 1957- ci ildə "Azərbaycan qadını" jurnalında çap olunan "Qoşa çinar" hekayə-əfsanəsi ilə başlamışdır. Az sonra 1964-cü ildə "Göz dağı" povesti və "Anamın yuxusuna girməsin" romanını çap etdirib. Sonuncu romanı "Qınamayın məni" olub. Dövri mətbuatda əsərləri vaxtaşırı dərc edilmişdir. 90 - cı illərdə baş verən ictimai siyasi hadisələr haqqında mülahizələri ölkədə və xarici mətbuatda dərc olunmuş, efirdə yayılmışdır. 1954-cü ildən Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda çalışan alim 1995- ci ildə Geoloji-kəşfiyyat ümumiləşdirməsi laboratoriyasında aparıcı elmi işçi işləmişdir.

**Əsərləri:** "Xəzər və neft" (1961), "Göz dağı"(1964), "Anamın yuxusuna girməsin" (1974), "Qınamayın məni" (1992) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Şamo_Arif

**31 İyul - Şair, publisist Əlisəttar İbrahimovun 125 illiyi, (1896-1937)**



**İbrahimov Əlisəttar Murad oğlu – şair, publisist, 1934- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Əlisəttar İbrahimov 1896-cı il iyulun 31-də Bakı quberniyasının Balaxanı kəndində anadan olmuşdur. İbtidai təhsilini kənd mədrəsəsində almışdır. Ağır vəziyyətə görə təhsilini davam etdirə bilməmiş, Balaxanıda fəhləlik etmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra müxtəlif vəzifələrdə çalışmışdır. Bakı Əmək Birjasının, Azərbaycan Fövqəladə Komissiyasının katibi, Azərbaycan xalq sənaye ticarəti komissarlığında şöbə müdiri, Azərbaycan xalq ictimai təminat komissiyasının müdiri, Gürcüstan SSR Tbilisi şəhərində "Yeni kənd" qəzetinin redaktoru, Göyçay Rayon Komitəsinin birinci katibi və s. vəzifələrdə işləmişdir. Bədii yaradıcılığa inqilabdan əvvəl başlamışdır. Ədəbi - tənqidi və publisist məqalələri ilə yanaşı, onun şeirləri dövri mətbuatda müntəzəm çap edilmişdir. M. Y. Lermontovun "Mələk" şeirini ilk dəfə tərcümə etmişdir. Əlisəttar İbrahimov 1938- ci ildə cəza tədbirləri dövründə həlak olmuşdur.

**Əsərləri:** "Şahzadə və dilənçi" (1912), "İki güzgü" (1913), "Dirilik suyu" (1914), "Dəmir pəncə" (1923) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əlisəttar_İbrahimov

**Xarici ədəbiyyat**

**8 İyul - Fransız şairi, təmsilçi Jan de Lafontenin 400 illiyi, (08.07.1621-1695)**

***Lafonten təmsilləri təkcə fransız ədəbiyyatının deyil, dünya ədəbiyyatının incisi hesab olunur. Süjet xətti real həyatdan və qədim yunan klassikləri Fedr və Ezopdan, hind, ərəb nağıllarından götürülmüşdür.***



Fransız şairi, təmsilçisi Jan de La Fonten 8 iyul 1621-ci ildə Fransada, Şato-Tyerridə anadan olmuşdur. Atası meşə idarəsində işlədiyi üçün gələcək şairin uşaqlığı da meşələrdə, çöllərdə keçmişdir. 1647-ci ildə atası onu özünün vəzifəsinə keçirir və evlənməyə vadar edir. Lakin La Fonten tezliklə Parisə köçür, burada öz istedadının pərəstişkarlarının əhatəsində yaşayır və çox gec-gec doğma yerləri və ailəsini yad edir. Parisdə böyük uğur qazanan şair şahzadə Konde, Laruşfuko, madam de Lafayet kimi görkəmli şəxslərlə dost olsa da, saraya yol tapmır. Çünki XIV Lüdovik onu xoşlamırdı. Məhz bu səbəbdən də o, yalnız 1684-cü ildə Fransa Akademiyasının üzvü seçilir.
1692-ci ilin dekabrında şair xəstələnir və həyata marağını itirərək dinə üz tutur. La Fonten 1695-ci ildə vəfat edir. Yaradıcılığının ilk illərində **"Xacə"** komediyasını, **"Adonis"** poemasını, 1664-cü ildən isə "**Nağıllar**"ını dərc etdirir. 1668-ci ildən onun təmsilləri çapdan çıxır. Onun ilk təmsilləri didaktik, sonrakı təmsilləri isə didaktika ilə şəxsi hisslərinin ötürülməsidir. **"Psixeya və Kupidonun məhəbbəti"** povestinin, **"Xına ağacı haqqında poema"**nın müəllifidir. Lakin o, daha çox təmsilləri ilə tanınır və onun bu janrda yazdığı əsərlər dünya ədəbiyyatının incisi hesab olunur.


















İnternetdə:https://az.wikipedia.org/wiki/Jan_de_Lafonten

**22 İyul - Rus yazıçısı Sergey Baruzdinin 95 illiyi, (22.07.1926-1991)**



Rus sovet yazıçısı Sergey Alekseyeviç Baruzdin 22 iyul 1926-cı ildə Moskvada anadan olmuşdur. 1938-ci ildə özünün ilk hekayələrini "Pioner" jurnalında nəşr etdirən S.A.Baruzdin 1958-ci ildə M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. Əsasən uşaqlar və gənclər üçün əsərlərin müəllifi olan yazıçı böyüklər üçün **"Qət olunmuşun təkrarı"** romanının, **"Qadınlar haqqında povest"**in, **"Mən bizim küçəni sevirəm..."** adlı povest və hekayələr toplusunun müəllifidir. 1965-ci ildən "Xalqlar dostluğu" jurnalının baş redaktoru olmuşdur. Yazıçının **"Svetlana haqqında", "Bu evi kim tikib", "Yeni həyatlər", "Dünən olanlar"** və s. kitabları var.

Sergey Baruzdinin uşaqlar üçün yazdığı əsərlər: **"Balacalar ona yolka deyirdilər"** (tərcümə edəni Həsən Əliyev və Mirvarid Dilbazi), **"Dəniz necədir" (tərcümə edəni G.Həsənzadə), "On üç yaşında", "Son güllə"** və s.

S.A.Baruzdin 4 mart 1991-ci ildə vəfat etmişdir.












İnternetdə:https://yandex.ru/search/Sergey_Baruzdin

**26 İyul - İrland yazıçısı, dramaturq Corc Bernard Şounun 165 illiyi, (1856-1950)**

***"İnsan kərpic kimidir – yandıqca möhkəmlənər. Əgər xoşbəxtliyi təqib edərək, bir zaman ona qovuşa bilsəniz, onda öz eynəyini axtaran qoca qarı kimi aşkar edəcəksiniz ki, o hər zaman burnunuzun ucunda olub."***

Corc Bernard Şou



**Corc Bernard Şou - ədəbiyyat sahəsində "Nobel" mükafatı almış və "Oskar"-a layiq yeganə insandır. Dövrünün görkəmli tənqidçisi, həm də ingiliscə yazan dramaturqlar içərisində Şekspirdən sonra ən məşhurudur. Onun hədəfə tuş gələn sitatları onun dünya görüşünün bütün dərinliyini ortaya qoyur. Corc Bernard Şou irland əsilli tanınmış Böyük Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır (1925).**

İrland dramaturqu və tənqidçisi Corc Bernard Şou Dublində doğulmuşdur. Janr və forma baxımından seçilən 60-dan çox pyesin müəllifidir. Yaradıcılığında sosial mövzulara daha çox diqqət yetirmişdir. Özünün də etiraf etdiyi kimi daha çox oxuduğu kitabların Şekspirin, Dikkensin əsərlərinin, "Min bir gecə" nağıllarının, İncilin təsiri altında formalaşmışdır. Dram yaradıcılığına başlamamışdan əvvəl Bernard Şou 1885-1890-cı illərdə Londonun "Uorld", "Star" kimi populyar qəzetlərinin teatr və musiqi tənqidçisi olmuşdu. İngilis şairi U.Oden onu "bəlkə də bütün zamanların ən yaxşı musiqi tənqidçisi" adlandırmışdı. Teatrşünas kimi guşə apardığı "Saterdey revyu" qəzetində Şou realist dramlar və İbsen yaradıcılığı haqqında məqalələrlə çıxış edirdi. Onun "İbsenizmin mahiyyəti" kitabçası (1891) həmin dövrdə Avropada populyar olan Norveç sənətkarı haqqında ingilis dilində ilk ciddi tədqiqat əsəri idi. Məhz bu əsərin təsiri ilə İbseni ingilis səhnəsində tamaşaya qoyan rejissor T.Qreyn Şounun özünü pyes yazmağa təşviq etmişdi. Şounu dramaturq kimi tanıdan ilk əsəri 1897-ci ildə ABŞ-da tamaşaya qoyulan "Şeytanın şagirdi" pyesi oldu. Müəllif vətəni Britaniyadan əvvəl Amerikada şöhrət qazandı. 1898 - ci ildə o, əsərlərinin iki cildliyini "Xoşa gələn və xoşa gəlməyən pyeslər" adı altında çap etdirmişdi. "Şeytanın şagirdi"nin ardınca müəllifin 1903-cü ildə "Kandid" pyesi də ABŞ səhnəsində göstərilmişdi. Növbəti ildə isə Londonun Kort teatrında oynanılan **"Con Bullun başqa adası"** pyesi böyük rəğbətlə qarşılandı. 1938-ci ildə **"Piqmalion"** pyesinin motivləri əsasında çəkilən filmə görə Şou həm də Oskar mükafatı aldı. O, ədəbiyyat və incəsənət sahəsində hər iki məşhur mükafata layiq görülən yeganə sənət adamı olaraq qalmaqdadır.

**Əsərləri:** "Kandid", "Yaşayarıq, görərik", "İnsan və fövqəlinsan", "Mayor Barbara", "Həkim dilemma qarşısında", "Bayandın milyardları", "Con Bullun başqa adası", "Piqmalion", "Şeytanın şagirdi", "İbsenizmin mahiyyəti" və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Corc_Bernard_Şou

**28 İyul - İngilis uşaq yazıçısı və rəssamı Elen Beatriks Potterin 155 illiyi, (1866-1943)**



İngilis uşaq yazıçısı və rəssamı, alimi Elen Beatriks Potter (28 iyul 1866, London – 22 dekabr 1943, Nir-Sorey) uşaqlıqdan təbiəti, heyvanları sevir və böyüdükdən sonra uşaqlıq arzusunu həyata keçirərək Londondan “Hill-Top” malikanəsinə köçür. O, burada həm təbiətə aid illüstrasiyalar çəkir, həm də onlara hekayələr, nağıllar qoşurdu. Onun yazıçı və rəssam kimi yolu 1902-ci ildən başlayır. Məhz həmin il naşir Frederik Uorn onun “Dovşan Piter haqqında nağıl” adlı kitabını nəşr edir. Elen Beatriks Potter daha çox heyvanlardan bəhs edən uşaq kitablarına üstünlük vermişdir. Ən məşhur əsəri "**Dovşan Peterin bütün macəraları**"-dır. Bundan sonra onun ildə iki kitabı çap olunmağa başlayır. B.Potter İngiltərədə təbiətin qorunmasına ilk başlayanlardan olmuşdur. O, müflis olmuş qonşularının fermalarını almış, lakin onların təsərrüfatla məşğul olmalarına imkan yaratmışdır. Yaziçi 4000 akr torpaq və 15 fermanı Milli parka vəsiyyət etmişdir. Onun **“Uxti-Tuxti”, “Dovşan Piter və digər macəralar”, “Ətli piroq haqqında nağıl”, “Üç siçan”, “Dələ Tressi və onun dostları”, “Balaca pişik Tom və onun dostları”** və s. nağılları müxtəlif dillərə tərcümə olunmuş və ekranlaşdırılmışdır.













İnternetdə:https://cld.bz/pnhHBZu/12/

**İncəsənət**

**15 İyul - Holland rəssamı Rembrandtın 415 illiyi, (1606-1669).**



***Holland rəssamı və qrafiki, dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri Rembrandtın adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib.***

Rembrandt Harmens van Reyn dəyirmançı ailəsində doğulmuşdur. Bir müddət Leyden Universitetində oxumuş (1620), sonralar Leydendə Yakob van Svanenburxdan və Amsterdamda Piter Lastmandan rəssamlıq dərsləri almışdır. 1625-31-ci illərdə Leydendə işləmiş, 1632-ci ildə Amsterdama köçmüşdür. 1630-1640-cı illərin əvvəlləri Rembrandt yaradıcılığının uğurlu dövrü və şəxsi həyatının xoşbəxt çağları olmuşdur. Bu illərdə portretlər ustası kimi şöhrət qazanan Rembrandt külli miqdarda sifariş almış, yanına çoxlu şagird gəlmişdir. Rembrandt (1606-1669) – Dünya rəngkarlığının zirvələrindəndir. Rembrandt bir-birinin ardınca iri həcmli dini kompozisiyalar işləmişdir. Məs. "İbrahimin qurban kəsilməsi" (1635). O, tez-tez Saskiyanı və oğlunu təsvir edir. Dünyaya 650 əsər bağışlayan rəssam həyatdan yoxsulluq içərisində gedir. Rembrandtın yaradıcılığı daha çox psixologizmi ilə fərqlənirdi. O, işıq-kölgə effektlərinə üstünlük verən rəssam idi. O, 60-a yaxın avtoportret, 300 ofort və 1000-dən artıq rəsmlər yaratmışdır. Onun dini və mifoloji mövzudakı əsərlərinə "Müqəddəs ailə", "Danaya"nı göstərmək olar. Həyatının sonlarında rəssamın yaradıcılığında qəm, küdurət, melanxoliya üstünlük təşkil edir. Bu əhvali-ruhiyyə rəssamın "Yan Siks" rəsmində daha çox hiss olunur. Rembrandt yaratdığı portretlərdə ("Doktor Tülpün anatomiya dərsi" (1632), "Saskiyanın portreti" (1634), "Saskiya ilə avtoportret" (1635) və s.) obrazların səciyyəvi cizgilərini məharətlə verə bilmişdir. Onun məşhur əsərləri: "Danaya", "Gecə qarovulçusu", "Müqəddəs ailə" (1645), "Xəstələri dirildən İsa" (1649), "Xendrikke pəncərə önündə", "Avtoportret" (1652), "Səfil oğulun qayıtması" (1668-1669) və s.-dir. Sonuncu əsər rəssamın yaradıcılığının sonu, "Titusun portreti" (1656) isə gənc yaşında ölmüş oğlunun şəkli olub, dünya incəsənətində ən gözəl gənc oğlan portretidir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Rembrandt

**23 İyul - Xalq rəssamı Maral Rəhmanzadənin 105 illiyi, (1916-2008)**

***"Maral Rəhmanzadə Azərbaycan təsviri incəsənətinin elə bir simasıdır ki, o hər zaman ətrafa işıq saçıb, hər kəsi öz cazibəsində saxlamağı bacarıb. Sağlığında əfsanəyə çevrilən Maral xanım əsl Azərbaycan qadını kimi özünü təqdim edib. O, əsrlərlə təkmilləşdirilən mövzulara yeni nüanslar gətirməklə təsviri incəsənətdə orijinal mövzular açan ilk və demək olar, yeganə qadın rəssam olmağı bacardı."***

İradə Sarıyeva



**Rəhmanzadə Maral Yusif qızı professional rəssamlıq təhsili görmüş azərbaycanlı qadın rəssam, qrafikçi, Azərbaycan Xalq rəssamı (1964), Azərbaycan Respublikası Dövlət mükafatı laureatı (1965), "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni, Azərbaycanın "Şöhrət" ordeni ilə təltif edilib.** Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanına, Məhəmməd Füzulinin "Qəzəllər"inə və Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasına çəkdiyi illüstrasiyalar kitab qrafikasının gözəl nümunələridir. Bu nümunələr hər zaman bizdə xoş ovqat yaradıb. "Azərbaycanın aşıq və şair qadınları" kitabına çəkdiyi bənzərsiz illüstrasiyalar unudulmazdır. Qadın gözəlliyi, zərifliyi, istedadı, əzəməti bu rəsmlərin başlıca qayəsini təşkil edir. Həmişə diqqət mərkəzində olan və sevilən, dəyərləndirilən Maral Rəhmanzadə 1916-cı il iyulun 23-də Bakı şəhərində anadan olub. 1930-1933-cü illərdə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, 1934-1940-cı illərdə Moskva Rəssamlıq İnstitutunda oxuyub. M.Rəhmanzadə milli təsviri sənətin inkişafındakı böyük xidmətlərinə görə bir çox orden və medallara, o cümlədən "Şöhrət" ordeninə layiq görülüb. "Dəniz nefti" Maral Rəhmanzadə yaradıcılığında özünü işıqlı xətlə göstərir. Sənətşünasların bildirdiyinə görə, onu digərlərindən fərqləndirən cəhət mənzərələrdən qrafika, linoqravür, sulu boya, rəsm və portretlərinə qədər bütün işlərində tərənnüm etdiyi vətəninə olan hədsiz sevgisi idi. Keçən əsrin ortalarında öz əsərlərində neftçilərin ağır əməyini əks etdirən birinci qadın rəssam da məhz Maral xanım oldu. Maral Rəhmanzadənin bütün işlərində sərt reallıq dərin şairanəliklə heyranedici ahəngdarlıq təşkil edir. Təbii fəlakətin gücü və gözəlliyinə heyranlıq insan cəsarəti qarşısında baş əyməklə əvəz olunur. İlk baxışdan onun qadınlara çox da yaxın olmayan mövzuda işlədiyi tablolarda müəllifin şəxsi iştirakı hiss edilir və məhz bu onun işlərinə qəribə energetika əlavə edir. 2008-ci il mart ayının 16-da vəfat edən və Mərdəkan qəbiristanlığında torpağa tapşırılan rəssam uzun və mənalı ömür yaşayıb.

**Əsərləri:** "Bizim qızlar", "Mənim bacılarım", "Doğma Vətənim", "Azərbaycan", "Cəbhə rəfiqələri", "Qadın ansamblının çıxışı", "Haqsızlıq", "Köləlik simvolu", "Bizim Xəzərdə", "Yeddi gəmi adası", "Neftin daşınması", "Neftçilər tankerdə", "Rezervuar parkı", "Günəş şüaları","Fırtınada" və "Ərzaq gətiriblər" və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Maral_Rəhmanzadə

**Milli qəhrəmanlıq zirvəsi**
**2 İyul - Kərimov Kərim Məhəmməd oğlunun 50 illiyi, (02. 07.1971-06.05.1992)**



**Kərim Kərimov — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

**Azərbaycan Respublikası prezidentinin 11 sentyabr 1992-ci il tarxili 193 saylı fərmanı ilə Kərimov Kərim Məhəmməd oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

Kərim Kərimov 2 iyul 1971-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Tümenə getmiş, Komandir məktəbinə daxil olmuşdur. Azərbaycan ağır günlərini yaşamağa başladığı vaxt Kərim azərbaycanlı gəncləri toplayaraq vətənə qayıtmağı, Qarabağa getməyi təklif edir, beləliklə 15 nəfər kursantla birlikdə vətənə qayıdırlar. Biləcəridə təlim keçdikdən sonra Goranboya yollanırlar. İlk gündən cəbhədə "Tümendən gələn zabit" kimi tanınan Kərim bütün tapşırıqları itkisiz yerinə yetirə bilirdi. 1992-ci il 5 may tarixində Kərim quldurlar yuvası Talış təpəsinə qalxır, qızğın döyüşdə 40 erməni quldunu məhv edilir. 1992-ci il 6 may tarixində düşmən güclü əks hücuma keçir, onlar mühasirəyə düşürlər. Kərim avtomatını döyüşçü dostuna verib qumbaratanla bir döyüş maşınını vurur. Kərim ikinci atəşi açmaq istəyəndə yaralanır, əsir düşməmək üçün odlu siqnal fişəngini sinəsinə sıxır. Erməni işğalçıları onun və dostlarının cəsədlərini götürüb aradan çıxırlar. 12 iyun 1992-ci ildə kəndləri ermənilərdən təmizləmək üçün yeni hücumlar başlayır. Kərimin atası və əmisi də döyüşlərdə iştirak etməyə başlayırlar. 16 iyun döyüşçülərimizin tutduğu iki erməni əsiri Kərimin ferma yaxınlığında basdırıldığını deyir. Onun cəsədi aşkar edildikdən sonra Naxçıvana yola salınır. 5 may 1992-ci il Goranboy cəbhəsində qəhrəmancasına həlak olmuş Kərim 17 iyun 1992-ci il tarixində doğma kəndi Qarahəsənlidə torpağa tapşırılır. Subay idi. Qarahəsənli kəndində qəhrəmanımızın büstü qoyulub. Goranboy və Şərur rayonlarında adına məktəb var.

***Hər millətin, hər torpağın öz adı var, öz ünvanı***
***Yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.***
***Vahid Vətən himnimizdi Şəhidlərin axan qanı,***
***Nəsillərə yadigardı, zaman yazdı bu dastanı.***
***Millətlərə hürriyyətdi, istiqlaldı şüarımız,***
***Azadlığı, səadəti qorumaqdı qərarımız.***

Nəriman Həsənzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/ Kərim _ Kərimov (milli_qəhrəman)

**3 İyul - Zülfüqarov Samir Xəlil oğlunun 45 illiyi, (03.07.1976-17.03.1995)**



**Samir Zülfüqarov — Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda gənc ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Zülfüqarov Samir Xəlil oğlu 3 iyul 1976-cı ildə Şabran rayonunda anadan olmuşdur. Səkkizinci sinfə qədər burada təhsil alan Samir, ailə vəziyyətləri ağır olduğu üçün təhsilini yarımçıq qoyaraq işləmiş, ailəsinə dayaq olmuşdur. 1994-cü il Şabran rayonundan hərbi xidmətə çağırılır. Samir qısa müddətə "N" saylı hərbi hissədə silahların çoxundan istifadə etməyi öyrənmişdi. Nizam intizamı, ciddiliyi ona böyük hörmət qazandırmışdı. Komadirləri bütün bunları nəzərə alaraq Samirə qısa müddətli məzuniyyət verdilər. 1995-ci il mart hadisəsi xəbərini eşidən cəsur əsgər döyüşçü dostlarının yanına qayıtdı. Milli Ordu silahlı dəstəni zərərsizləşdirərkən Samir də əməliyyatda iştirak edirdi. O, ömrünün ən gözəl bir zamanında, dövlətçiliyimiz, suverenliyimiz uğrunda gənc ömrünü qurban verdi. 17 mart 1995-ci il Samir əbədiyyətə qovuşdu. Subay idi. Şabran rayonunun Ağbaş kəndində dəfn edilib. Şabran rayonu üç saylı orta məktəb onun adını daşıyır.

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Zülfüqarov Samir Xəlil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

***Respublikam – ana torpaq, qədim Odlar diyarımız!***
***Yaşadıqca – vətənimiz, ölsək – şəhid məzarımız.***
***Üç rəngdədi bayrağımız, qalxan bayraq enən deyil,***
***Mərd oğullar dar ayaqda öz andından dönən deyil.***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/Samir_ Zülfüqarov

**29 İyul - Hüseynov Sadiq Dayandur oğlunun 60 illiyi, (29.07.1961-13.04.1992)**



**Sadıq Hüseynov — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi.**

Hüseynov Sadiq Dayandur oğlu 29 iyul 1969-cu ildə Ağcabədi rayonunun Xocavənd kəndində doğulmuşdur. 1968-1978-ci illərdə orta məktəbdə oxumuşdur. 1980-cı ildə ordu sıralarına çağırılmışdır. 1989-cu ildə DİN-nin sərəncamı ilə Şuşa şəhərində sahə müvəkkili olaraq işə başlayır. Ermənilərin azğınlaşmış silahlı dəstələri Azərbaycan torpaqlarını işğal etdikləri vaxtlarda digər polis əməkdaşları kimi o da, döyüşlərə girirdi. 29 mart 1992-ci il o döyüşlərdən birində ağır yaralanır, buna baxmayaraq silahı yerə qoymurdu. 13 aprel 1992-ci il erməni faşistlərinin silahlı dəstələri Şuşanı ağır raket atəşinə tutmuşdular. Sadıq döyüş yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak oldu. Ailəli idi, bir övladı yadigar qalıb. Ağcabədi rayonunun Xocavənd kəndində dəfn edilmişdir. Xocavənd kənd orta məktəbinə onun adı verilmişdir.

**Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Hüseynov Sadıq Dayandur oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Oğullar itirib Azərbaycanım,***
***İgidlər yetirib Azərbaycanım!***
***Sonsuz məhəbbəti ürəyimdədir,***
***Qüvvəti dizimdə, biləyimdədir,***
***Torpağının ətri çörəyimdədir,***

Süleyman Rüstəm

İnternetdə: https://az.wikipedia.org/wiki/Sadıq_Hüseynov_(milli_qəhrəman)

## Avqust

### Əlamətdar tarixi günlər və bayramlar

1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, (2001)

2 Avqust – Azərbaycan Kinosu Günü, (1898)

3 Avqust – Ümumdünya Qarpız Günü

5 Avqust – Hərbi Donanma Günü, (1996)

5 Avqust – Beynəlxalq İşıqfor Günü, (1914)

8 Avqust – Beynəlxalq Alpinizm Günü, (1786)

12 Avqust – Beynəlxalq Gənclər Günü, (1999)

15 Avqust – "Allo" sözünün ad Günü, (1877)

18 Avqust – Sərhəd Qoşunları Günü, (2002)

26 Avqust – Beynəlxalq Azərbaycan Muğamı Günü, (2010)

### Yubilyar yazıçı və şairlər

Yazıçı Əlisa Nicatın 90 illiyi, (10.08.1931)
Yazıçı, tərcüməçi Aydın Abdullayevin 75 illiyi, (10.08.1946)
Yazıçı Əleviyyə Babayevanın 100 illiyi, (12.08.1921-2014)
Xalq şairi Qabilin 95 illiyi, (12.08.1926-2007)
Ədəbiyyatşünas Kamil Vəliyevin 75 illiyi, (18.08.1946)
Şair Camal Yusifzadənin 80 illiyi, (19.08.1941)
Yazıçı, dramaturq Seyfəddin Dağlının 100 illiyi, (21.08.1921-1983)
Yazıçı, dramaturq Əzim İsmayıllının 85 illiyi, (26.08.1936)
Şair Qaçay Köçərlinin 85 illiyi, (27.08.1936)

### Xarici ədəbiyyat

İngilis yazıçısı Volter Skotun 250 illiyi, (15.08.1771-1832)
Amerika yazıçısı Teodor Drayzerin 150 illiyi, (27.08.1871-1945)

### İncəsənət

Diktor, pedaqoq, xalq artisti Rafiq Hüseynovun 75 illiyi, (03.08.1946 -26.11.2017)
Xalq artisti, baletmeystr Rəfiqə Axundovanın 90 illiyi, (07.08.1931)
Aktyor, rejissor İsmayıl Hidayətzadənin 120 illiyi, (19.08.1901-1951)
Xalq artisti Xan Şuşinskinin 120 illiyi, (20.08.1901-1979)
Xanəndə Bülbülcanın 180 illiyi, (22.08.1841-1927)

### Milli qəhrəmanlıq zirvəsi

Quliyev Emin Ələkbər oğlunun 45 illiyi, (12.08.1976-17.03.1995)

Xəlilov Eldar Xəlil oğlunun 45 illiyi, (19.08.1976-17.03.1995)

Mehdiyev Fazil Umud oğlunun 55 illiyi, (20.08.1966-24.09.1991)

**Əlamətdar tarixi günlər və bayramlar**

**1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, (2001)**

***"Dil hər bir xalqın mənəvi sərvəti, qürur yeridir. Tarixin sınağından çıxıb cilalana-cilalana bu günümüzədək gəlib çatan Azərbaycan dili də bizim hər birimiz üçün ana laylası kimi əziz və müqəddəsdir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır..."***

**Ümummilli lider Heydər Əliyev**




Ulu əcdadlarımız olan albanların 52 hərfdən ibarət əlifbası vardı. Ölkəmizdə İslam dininin yayılması ilə əlaqədar ərəb əlifbasından geniş istifadə olunmuş, yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolunu oynamışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqələrinə xidmət etmiş ərəb qrafikası dilimizin səs sistemini dolğunluğu ilə əks etdirə bilmir, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmırdı. Bu çatışmazlıqlar M. F. Axundzadə başda olmaqla, dövrün mütərəqqi maarifçi ziyalılarında əlifba islahatı keçirmək ideyaları yaratmışdı. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu komitəyə Azərbaycan (türk) dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırığı verildi. Bu, yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyəsinə əsasən 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Lakin Türkiyə Cümhuriyyətində də latın qrafikalı əlifbaya keçilməsi və bunun nəticəsində SSRİ-də və xaricdə yaşayan türk xalqları arasında mədəni əlaqələrin güclənməsi qorxusu Sovet imperiyası rəhbərliyində Azərbaycan əlifbasının yenidən dəyişdirilməsi planlarını yaratdı. 1940-cı il yanvarın 1-dən kiril qrafikalı əlifbaya keçmək haqqında qərar qəbul olundu. Sonralar kiril qrafikasının Azərbaycan dilinin fonetik səs sisteminə uyğunlaşdırılması üçün Azərbaycan kiril qrafikasında müəyyən dəyişikliklər aparıldı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Nəticədə 1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə Qanun qəbul olundu. 2001-ci ildə isə latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı. Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da fərman imzalamışdır. Bu fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan edilmişdir. İnternetdə:

İnternetdə: https://az.wikipedia.org/wiki/Azərbaycan_Dili_və Əlifbası_Günü

**2 Avqust – Azərbaycan Kinosu Günü, (1898)**




Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və 1898-ci il avqustun 2-də ilk kinosüjetlərin yaranmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən qeyd olunur. Bu il Azərbaycan kinosunun 120 yaşı tamam olur. Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlayır. Lümyer qardaşları ilk filmi nümayiş etdirdikdən sonra 1898-ci ildə fotoqraf Mişon Bakıda "Balaxanıda neft fontanı" və "Bibiheybət neft mədənində yanğın" adlı xronikal süjetləri lentə almaqla milli kinomatoqrafiyamızın əsasını qoydu. Bundan sonra onlarla film çəkildi. Onlar arasında ən yadda qalanı Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilmiş ilk milli kinokomediya oldu. 1920-ci ildən sonra isə Azərbaycanda sovet kinosu erası başladı. Həmin illərdə çəkilən "Ulduz", "Şərikli çörək", "Bizim Cəbiş müəllim" və digər filmlərin ideoloji xətti olsa da, onları bizə sevdirən milli ruhun, milli adət-ənənələrin özündə əks etdirmələridir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanda çəkilən filmlərin sayında azalma baş verdi. Ötən əsrin sonunda çəkilən filmlər sırasında ən çox yadda qalanları isə Qarabağ münaqişəsindən bəhs edən "Özgə vaxt", "Biz qayıdacağıq", "Fəryad", "Sarı gəlin", "Lal çinar", "Arxada qalmış gələcək" kimi kinolentlər oldu. Son illərdə kino sahəsinə dövlət marağının artması tarixi-vətənpərvərlik mövzularında çəkilmiş nisbətən iribüdcəli "Cavad xan" və "Hökmdarın taleyi" kimi filmlərin meydana gəlməsinə kömək olub. Bu gün Azərbaycanda filmlər dövlət sifarişi ilə yanaşı özəl şirkətlərin xəttilə də çəkilir. Belə özəl qurumlardan biri "BakıFilm" Kinostudiyasıdır. Mövcud olduğu 5 il ərzində "BakıFilm" Kinostudiyasında vətənpərvərlik və Qarabağ müharibəsindən bəhs edən "Qaydasız döyüş", "Seçilən", "Bulağıstan" bədii filmləri, "Qızlar serialı", eləcə də "Yaddaş" filmi hazırlanıb. Bundan başqa "BakıFilm" kinostudiyasının çəkdiyi "Xoca" filmi dünyanın bir çox ölkəsində, habelə kino festivallarında nümayiş olunaraq tamaşaçıların rəğbətini qazanıb. Qeyd edək ki, 2001-ci ildən prezident Heydər Əliyevin sərəncamı ilə avqustun ikisi Azərbaycan Milli Kino günü kimi rəsmiləşdirilib.

İnternetdə: https://az.wikipedia.org/wiki/Azərbaycan_Kinosu_Günü

## 3 Avqust – Ümumdünya Qarpız Günü



Qarpız günü ilk dəfə avqustun 3-də Amerikada qeyd olunmuşdur. Bu ölkənin, xüsusən latınamerikalı əhalisi qarpızı çox sevirlər. Orada bu şirin və dadlı meyvə yay pikniklərinin zəruri atributlarından biridir. Ümumiyyətlə, qarpızı kim sevmir ki? Bu böyük, orqanizmin susuzluğunu yatıran, təravət verən meyvə 90% sudan ibarətdir. Şirin olmasına baxmayaraq, kalorisi az olan qarpızın bayramının kim və nə zaman təyin edildiyi məlum deyil.

Qabaqkimilər fəsiləsindən olan qarpız birillik bostan bitkisidir. Qarpızın qabığı müxtəlif rəngdə ola bilər: ağ və sarı rəngdən tünd yaşıla qədər. Üzərində isə ləkə, zolaq və s. formalarda şəkilləri olur. Hazırda dünyanın 90-dan çox ölkəsində qarpızın 1200-dən çox növü becərilir. Qarpızın vətəni Cənubi Afrika hesab olunur. Hətta Qədim Misirdə aparılan qazıntılar sübut etmişdir ki, orada qarpız becərilib. Qədim Misir miflərində və papiruslar üzərindəki qədim reseptlərdə bu meyvənin adı çəkilir. Qarpız Qədim Romada da məlum idi. Qədim Çinə ticarət gəmiləri vasitəsilə aparılan qarpız orada da sevilmişdir. Bu gün də dünyada qarpızın ən çox becərildiyi yer Çindir. Qarpız Rusiya və Avropada təxminən XI-XII əsrlərdə (bəzi faktlara görə, XIII-XIV əsrlərdə), Amerikada isə XVI əsrdə peyda olmuşdur.

Qarpızı sevənlər çox olduğu üçün bu günü qeyd etmək onlara əlavə bayram əhvali-ruhiyyəsi yaşadır.

İnternetdə: https://portal.azertag.az/az/node/14576

**5 Avqust – Hərbi Donanma Günü, (1996)**



Azərbaycan Hərbi Donanması 1919-cu ildə Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaradılıb. Belə ki, 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil veriblər. Bu gəmilərin əsasında Azərbaycan Xəzər Hərbi Dəniz Donanması təşkil olunub. Azərbaycan hökumətinin bu tədbiri ölkənin dəniz sərhədlərinin qorunmasında mühüm addım oldu. 1919-cu ilin sonlarında general İbrahim ağa Usubovun başçılıq etdiyi Azərbaycan hərbi missiyası donanma üçün xaricdən 6 birtoplu qırıcı kater, 12 qırıcı kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, simsiz teleqraf qurğuları və s. alıb. Azərbaycan Hökuməti rus donanmasının admiralı, Şimal qütbünə ekspedisiyanın iştirakçısı, türk əsilli İslamovu milli donanmanın yaradılması işinə kömək göstərmək üçün 1919-cu ilin yayında Azərbaycana dəvət edib. "Astrabad", "Qars" və "Ərdəhan" hərb gəmilərinin komandirliyi azərbaycanlı kapitanlara tapşırılıb. Hərbi donanmanın maddi-texniki bazasının və kadr təminatının gücləndirilməsi planları aprel işğalı nəticəsində həyata keçirilməmiş qalıb. Az sonra bolşeviklərin gəlişi ilə Azərbaycan hərbi donanması ləğv olunub. SSRİ dağıldıqdan sonra Azərbaycanda da hərbi-dəniz donanmasının təşkilinə şərait yarandı.1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi-Dəniz Qüvvələri Qərargahı, mühafizə və təminat rotası yaradıldı. Xəzər Hərbi-dəniz donanmasının 25%-i və Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasının ixtiyarına verildi. 1992-ci il iyunun 26-da "Bakılı" keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən hər il avqustun 5-i Azərbaycan Respublikası Hərbi Donanma Günü kimi qeyd olunur.

İnternetdə: https://az.wikipedia.org/wiki/Hərbi_Donanma_Günü

## 5 Avqust – Beynəlxalq İşıqfor Günü, (1914)





Beynəlxalq İşıqfor Günü 1914-cü il avqustun 5-də baş vermiş bir hadisə ilə əlaqədar qeyd olunur. Belə ki, həmin gün ABŞ-in Klivlend şəhərində müasir işıqfor qurğularının ilk əcdadı meydana gəlmişdir. O, qırmızı və yaşıl fənərlərə malik idi və işıqlar dəyişən zaman səs siqnalı işə düşürdü. Əslində, ilk işıqforu hələ XIX əsrdə britaniyalı Cey Nayt icad etmişdir. Bu qurğu 1868-ci ildə Londonda parlament binası qarşısında quraşdırılmışdır. Üç ildən sonra onun fənəri partlamış və polis işçisini yaralamışdır. Bu hadisədən sonra işıqfor, demək olar ki, 50 il unudulmuşdur. 1910-cu ildə ilk ikirəngli fənərə malik avtomat işıqfor qurğusu hazırlanmış və patentləşdirilmişdir. Müasir işqforlara bənzər üçrəngli qurğuları ilk dəfə 1920-ci ildə Detroyt və Nyu-York sakinləri görmüşlər.

Zaman keçdikcə işıqforlar Amerikanın və Avropanın bir çox şəhərlərində populyarlıq qazanmışdır. İşıqfor – mexaniki nəqliyyat vasitələrinin, həmçinin piyada keçidlərindəki insanların və yol hərəkətinin digər iştirakçılarının hərəkətini tənzimləmək üçün nəzərdə tutulan optik siqnalizasiya qurğusudur. İşıqfor, həmçinin dəmir yollarında və gəmiçilikdə də istifadə olunur. 2010-cu ildə Rusiyanın Perm şəhərində işıqfora abidə qoyulmuşdur.

İnternetdə:http://www.calend.ru/holidays

## 8 Avqust – Beynəlxalq Alpinizm Günü (Alpinist günü), (1786)



Avqustun 8-də dünyada Beynəlxalq Alpinizm Günü və ya Alpinist Günü qeyd olunur. Bu bayram sərhəd tanımır, əsl kişiləri və ruhən möhkəm qadınları birləşdirir. Bu bayramın meydana çıxmasında iki cəsur isveçrəli – həkim Mişel-Qabriel Pakkarda və dağ bələdçisi Jak Balmaya borcluyuq. Onlar 1786-cı il avqustun 8-də bütün alpinistlər arasında ilk olaraq Alp dağlarının ən yüksək zirvəsini – Monblan zirvəsini fəth etmişlər. Bu zirvə dəniz səviyyəsindən 4810 metr yüksəklikdə yerləşir. Həmin vaxta qədər Monblan zirvəsini fəth etmək cəhdləri çox olsa da, buna ilk nail olanlar məhz həmin insanlar olmuşlar. O gündən dünya alpinistləri Alp dağlarının ən yüksək zirvəsinin fəth olunmasını öz bayramları kimi qeyd edirlər. Bu günü yalnız dağ zirvələrini fəth edənlər deyil, həm də sənaye alpinizmi ilə məşğul olanlar öz bayramları hesab edirlər. Dünyada hər il göydələnlərin, hündürmərtəbəli binaların sayı daha da artır. Belə mütəxəssislər binaların fasadlarını və pəncərələrini yuyur, rəngləyir, təmir edir, qardan və sırsıradan təmizləyir, kondisionerləri montaj edir və s. Yüksəklikləri fəth edənlər bu bayram günündə görüşlər keçirir, təcrübə mübadiləsi aparır, yeni rekordlar müəyyən edir, təsirli tamaşalar göstərirlər. Dünyanın bəzi şəhərlərində idman klubları həmin gün yarışlar, konsertlər və digər bayram tədbirləri təşkil edirlər.

İnternetdə:http://www.calend.ru/holidays

**12 Avqust – Beynəlxalq Gənclər Günü, (1999)**



1998-ci il avqustun 12-də Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilmiş beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Bu gün BMT-nin qərarı ilə gənclərə lazımı diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə 1999-cu ildə müəyyən edilib və 2000-ci ildən qeyd olunur. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Savadlı, geniş dünya görüşünə malik gənclərin yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələdir. Bu gün iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərini, doğma ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadır. Hər bir xalqın tarixində onun uğurlu gələcəyini quran şəxsiyyətlər var. Azərbaycan xalqı bu günü və sabahı üçün ulu öndərimiz Heydər Əliyevə borcludur. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərimizin əlindədir. Hər bir xalqın, hər bir dövlətin gəncləri onun həm bu günü, həm də sabaha ümididir. Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin bugünkü uğurlu davamı gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Azərbaycan dövlətinin müstəqilliyi və suverenliyinin qorunub möhkəmləndirilməsi, onun inkişafı, ərazi bütövlüyünün təmin edilməsi, ölkə iqtisadiyyatının sürətlə inkişafı, əhalinin sosial problemlərinin həlli, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması yolunda görüləcək bu əzəmətli işlərin həyata keçməsinin əsas ağırlığı bugünkü gənclərin üzərinə düşür. Ölkəmizdə gənclər siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırmış, onların imkan və bacarıqlarını yüksək qiymətləndirmiş, problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermişdir. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini də öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətimizin başçısının davamlı inkişaf konsepsiyasının uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun da xidmətləri böyükdür.

İnternetdə: www.books.google.com

**15 Avqust – "Allo" sözünün ad Günü, (1877)**




Avqustun 15-i "Allo" telefon müraciətinin ad günü kimi maraqlı bayram qeyd olunur. Bu müraciətin təxminən 140 illik tarixi var. İlk dəfə 1877-ci il avqustun 15-də Tomas Edison bu salamlaşma formasından istifadə etməyi təklif etmişdir. Onun fikrincə, "Hello" telefon müraciətinin bütün variantları arasında ən yaxşısıdır. O, teleqraf şirkətinin prezidentini də buna inandırmağa çalışmışdır. Telefonu icad edən Aleksandr Bell isə "Ahoy" sözündən müraciət forması kimi istifadə etməyi təklif etmişdir. Lakin Tomas Edisonun təklifi zamanın sınağından çıxmışdır. "Hello" sözü "Allo"ya çevrilmişdir. Telefon ünsiyyətində "Bəli", "Eşidirəm" kimi geniş yayılmış formalar da var.

Bəzi ölkələrdə telefon söhbətinin öz "vizit kartları" da mövcuddur. Belə ki, yunanlar telefon zənginə "Parakalo" – "Xahiş edirəm", italyanlar "Pronto" – "Eşitməyə hazıram" sözləri ilə cavab verirlər. Almaniyada isə telefona cavab verərkən çox vaxt öz soyadlarını söyləyirlər.

İnternetdə:http://www.calend.ru/holidays

## 18 Avqust – Sərhəd Qoşunları Günü, (2002)



***“Vətən – Yurdun bütün torpaqlarını birləşdirib vahid, qüdrətli və mərkəzləşdirilmiş Azərbaycan dövləti yaradan, doğma dilimizi Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazidə – Səfəvi imperatorluğunda dövlət dilinə çevirən Şah İsmayıl Xətayinin əmanətidir bizə!”***

Ümummilli lider Heydər Əliyev

18 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılıb. Prezident Heydər Əliyevin 2000-ci il 16 avqust sərəncamı ilə avqustun 18-i Azərbaycanda Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunması qərara alınıb. Sovet dövründə Sərhəd Qoşunları Dövlət Təhlükəsizlik Komitəsinin strukturu kimi mövcud olub, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra da sərhəd xidməti bir müddət Milli Təhlükəsizlik Nazirliyinin tərkibində fəaliyyət göstərib. Prezident Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradılıb. Həmin fərmanla Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunlarının komandanı təyin edilib.

İnternetdə: www.books.google.com

**26 Avqust – Beynəlxalq Azərbaycan Muğamı Günü, (2010)**



Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu Üzərində Yerləşən Ölkələrin Musiqisi Günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün əziz bayramdır.

Azərbaycan muğamının müasir tarixində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

YUNESKO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir. Ölkəmizdə "Muğam aləmi" Beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyət Fondunun bu sahəyə göstərdiyi diqqətə bariz nümunələrdəndir.

Xalqımızın şərəfli və keşməkəşli tarixini səslərdə əbədiləşdirən muğamlarımız ən ağrılı-acılı günlərimizdə həm də təskinliyimizdir. Heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bütün hallarda – qüssəli, sevincli, anlarımızda ovqatımıza təsir edir, azadlığa və müstəqilliyə qovuşduğumuz anların fərəhini yaşadır və bizləri qələbəyə səsləyir.

İnternetdən: http://liderinfo.az/dunya

**Yubilyar yazıçı və şairlər**

**10 Avqust - Yazıçı Əlisa Nicatın anadan olmasının 90 illiyi, (10.08.1931)**

***Əlisa Nicatın " Mirzə Şəfi" romanı böyük Azərbaycan şairi Mirzə Şəfi Vazeh haqqında bioqrafik əsərdir. Roman "sənətkar və zaman " konsepsiyasının bir növ bədii ifadəsi təsiri bağışlayır.***



**Əlisa Nicat — Azərbaycan yazıçısı, Fəlsəfə elmləri üzrə fəxri doktor**

Əlisa Qulam oğlu Hüseynov 1936-cı il avqustun 10-da Lerik rayonunun Zuvand mahalının Yuxarı Gədik kəndində doğulub. 1955-ci ildə Lənkəran şəhərinin 3 saylı orta məktəbini bitirib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaşünaslıq şöbəsinə daxil olub, 1963-cü ildə oranı tamamlayıb. 1955-ci ildə "Ədəbiyyat və incəsənət", "Bircə söz" adlı ilk şeiri çap olunub. 1959-cu ildə yazmağa başladığı "Qızılbaşlar" romanını dövrün yaratdığı əngəllər ucbatından yalnız 1983-cü ildə "Yazıçı" nəşriyyatında çap etdirə bilib. 1961-ci ildə "Gecəniz xeyrə qalsın, ulduzlar" adlı ilk hekayəsi, 1964-də ilk şeirlər kitabı olan "Yay axşamı", 1970-ci ildə isə "Bir qız, üç çinar" adlı ilk hekayələr kitabı nəşr edilib. 1967-1969-cu illərdə Azərbaycan radiosunun "Gənclik" və "İncəsənət" redaksiyalarında, ardınca "Ekran" telefilm birliyində fəaliyyət göstərib. 1973-1983-cü illərdə "Elm və həyat" jurnalında redaktor və şöbə müdiri vəzifəsində çalışıb. 1983-1990-cı illərdə Lənkəranda yaşayıb və bu dövrdə "Zərdüşt", "Əsarət bayramı", "Gərəksiz" povestlərini qələmə alıb, Plutarxın "Makedoniyalı İskəndər" (1982), Məhəmməd Tahirin "Şeyx Şamil" (1983) kitablarını tərcümə edib. 1987-ci ildə povest və hekayələrin toplandığı "Qəbilə başçısı" kitabı, 1990-cı ildə "Gəncəli müdrik" romanı çap edilib. SSRİ-nin süqutundan və müstəqilliyn əldə edilməsindən sonra 1993-1994-cü illərdə "Turan" jurnalını nəşr etdirib. Müstəqillik dövründə "Nağıllara dönən tarix" (1993), "Ruhların söhbəti" (1994), "Dünya sərkərdələri" (1995), "Dünya filosofları" (1995), "Kədər şərabı" (1997), "Dünya tarixçiləri" (1998), "Yüz böyük Azərbaycanlı" (1999), "Karvan" (2000), "Tarixin qürubu" (2009) kitabları çap edilib. Eyni zamanda bu dövr ərzində ölkənin tanınmış mətbu orqanlarında çalışıb. 1999-cu il aprelin 28-də AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq institutunun elmi şurasının qərarı ilə Əlisa Nicata səmərəli elmi və elmi-maarif fəaliyyətinə görə fəlsəfə elmləri üzrə fəxri doktor adı verilib. Qocaman fəlsəfə doktorunun bütün külliyyatı 50 clddən ibarətdir.

**Əsərləri:** "Sasanilərin sonu", "Ehramlar", "Sarsılmaz Mir Cəfər", "Mələklər və İblislər", "Rza xan", "Qızılbaşlar", "Fenomen", "Satrap və demokrat", "Artakserks və Midya türkləri", "Əsrin mənzərəsi", "Gilan", "Şirvan", "Təbriz", "Çaldıran", "100 böyük azərbaycanlı", "Sirli xəzinə", "Yay axşamı, "Çənlibel", "Bir qız, üç çinar", "Qırmızı buludlar", "Nəğməyə dönmüş ömür", "Gəncəli müdrik" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 273.

**1 Avqust - Yazıçı, tərcüməçi Aydın Abdullayevin 75 illiyi, (1946-1995)**



**Abdullayev Aydın Ələkbər oğlu – nasir, tərcüməçi, 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990).**

Abdullayev Aydın Ələkbər oğlu 1946- cı il avqustun 10-da Azərbaycanın Şuşa şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Bakıdakı 44 saylı orta məktəbi bitirdikdən sonra ADU- nun şərqşünaslıq fakultəsində təhsil almışdır (1964-1970). Misir və Yəmən Ərəb Respublikasında Dövlət Təhlükəsizliyi Komitəsində, Milli Təhlükəsizlik Nazirliyi sistemində (1974-1993), Azərbaycan Respublikası Ali Sovetində çalışmışdır (1994- cü ildən).

Ədəbi fəaliyyətə 1966-cı ildən "Göyərçin" jurnalında dərc olunan "Təəccüblənmə, Elxan" adlı hekayəsi ilə başlamışdır. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. Bədii tərcümə ilə də ardıcıl məşğul olmuşdur. Xidmətlərinə görə dörd medalla təltif olunmuşdur. 1995- ci il dekabrın 15- də Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:** "Nübar" (1980), "Dağlar o dağlar deyil"(1984), "Gərək belə görüşməyəydik" (1988) və s.

**Tərcümələri**: "Qrim qardaşları" (1980), M. Steyqa "Arxadan gələn addım səsləri" (povest) (1981), İ. Pivovarova "Üç minus və ya 5 "A" sinfində əhvalat (1982), K. Çilaşvili "Bizim ev" (1982), Y. Korçak "Kral I Matius" (1986), K. Sayan "Taxta başmaqlar", "Stendal "Qırmızı və qara" (1995) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 92.

## 12 Avqust - Yazıçı Ələviyyə Babayevanın anadan olmasının 100 illiyi, (1921-2014)

***"Məndən soruşsalar ki, Elmi bədii ədəbiiyat əsəri necə olur? Mən deyərdim ki, Ələviyyə Babayevanın əsərlərini oxuyun."***

Əkrəm Cəfər



**Babayeva Ələviyyə Hənifə qızı — nasir, tərcüməçi, ssenari müəllifi; 1951-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi (1979).**

Ələviyyə Babayeva 1921-ci il 12 avqustda Bakıda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun fılologiya fakültəsində təhsil almışdır. Ədəbi fəaliyyətə 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlamışdır. Hekayə, povest və romanlar yazmaqla yanaşı, müasir rus ədəbiyyatından tərcümələr etmişdir. A.Qaydarın "Uzaq ölkələr" (1950), V.Biankinin "İz ilə" (1947), "Ayı balası" (1959), "Qırmızı təpə" (1963), K.Paustovskinin "Oğru pişik" (1951), V.Q.Korolenkonun "Satın alınmış uşaqlar" (1962), Y.Sotnikin "Əcaib quş" (1964), V.Astafyevin "Ulduz xəzanı" (1970), Y.Çaruşinin "Nikitanın oyuncaqları" (1984) və b. onun tərcüməsində kütləvi tirajla çap olunmuşdur. "Azərbaycan qadını" jurnalında məsul katib (1951-1973), "Gənclik" nəşriyyatında müasir ədəbiyyat şöbəsinin müdiri (1973-1976), sonra baş redaktor (1976-1985) olmuşdur. Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyündə, həmçinin Azərbaycanın bir çox yerlərində ədəbi tədbirlərdə iştirak etmişdir. Azərbaycan Yazıçılar Birliyinin qəbul komissiyasının üzvü, tərcümə seksiyasının rəhbəri olmuşdur. 23 sentyabr 2014-cü ildə vəfat etmişdir.

**Əsərləri:** "Mənim müəlliməm" (1950), "Hekayələr" (1951), "Tək ağac" (1957), "Kənd yolları" (1958), "Payızda" (1960), "Mən tək deyiləm" (1962), "Kənd yollarında səyahət" (1962), "Yenə bahardı" (1963), "Kölgə" (1964), "Tut ağacı" (1967), "Süsən sünbül" (1968), "Hörüklər" (1968), "Povestlər" (1969), "Adamlar və talelər" (1973), "Böyürtkən mürəbbəsi" (1971), "Sehirli pillələr" (1974), "Hardasan dost, harda" (1977), "Səni axtarıram" (1985), "Küləyin tərkində" (1983), "Yanar su" (1986), "Anadil ağlayırdı" (1987), "Açar" (1991), "Seçilmiş əsərləri" (iki cilddə), "Darıxıram a dağlar" (povestlər), "Əlvida" (roman) (1994), "Bəlkə sabah olmadı" (roman) (1996), "Rəngbərəng yuxular" (publisist povest) (2000), "Son döngə" (roman) (2000), "Dəli Sona" (roman) (1998), "Cırtdan şəhərdən qaçıb" (povest və hekayələr) (2001) və s.

**Filmoqrafiya:** Dınqıl, sazım, dınqıl (film, 1976), Sehrlənmiş küpə (film, 1979)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 244.

**12 Avqust - Xalq şairi Qabilin anadan olmasının 95 illiyi, (1926-2007)**

***"Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da, o çox böyük iş idi və Qabil bu işi gördü. Bu həqiqətən, dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi".***

Ulu öndər Heydər Əliyev



**Qabil Allahverdi oğlu İmamverdiyev — Azərbaycan Respublikasının Xalq Şairi. 1949-cu ildən AYİ-nin üzvü, Azərbaycan SSR Dövlət mükafatı laureatı (1976), Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi (1984). "Şöhrət" ordeni (1996), "İstiqlal" ordeni (2006), "Əmək igidliyinə görə" medalı, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı (1980), Ədəbiyyat Fondunun Rəsul Rza mükafatına layiq görülmüşdür (1998).**

Qabil İmamverdiyev 12 avqust 1926-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun nəzdində olan hazırlıq kursunda orta təhsil alıb, institutun dil və ədəbiyyat fakültəsinə daxil olmuşdur (1944-1948). Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik ali ədəbiyyat kurslarında müdavim olmuşdur. "Azərbaycan" jurnalı redaksiyasında şeir üzrə ədəbi işçi, baş redaktorun müavini (1975-1979) vəzifələrində işləmişdir. AYB Ağsaqqallar Şurasının sədri olmuşdur. Daim poetik duyğularla qəlbində Vətəninə, millətinə tükənməz məhəbbəti olan Qabil böyük ictimai hisslər, duyğularla, gərgin zəhməti və yaradıcılıq axtarışları, canlı həyat müşahidələri ilə vicdanla xalqına xidmət etmişdir. Böyük çağdaş şairimizi xalqa sevdirən bu cəhətlər içərisində ən başlıcası Qabil poeziyasına uğur gətirən cəhət - yüksək vətəndaşlıq mövqeyinin bu poeziyada güclü şəkildə poetik doğruluqla ifadə edilməsidir. Qabilin dillər əzbəri olan atalar sözü, zərb məsəllər kimi əks-səda verən misraları, rübailəri, beytləri, ayrı-ayrı şeirləri bunu deməyə əsas verir. Xalqının, millətinin problemlərini bir an da olsun nəzərindən qaçırmayan, zamanın nigaran suallarına cavab verməyə çalışan Qabil şeirləri 60 illik bir dövrdə Azərbaycan xalqının ictimai - siyasi həyatının bədii salnaməsidir. Qabil 4 aprel 2007-ci ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:** “Seçilmiş əsərləri” (2004), “Mənim mavi Xəzərim” (1959), “Ömrüm boyu” (1962), “Nəsimi” (1980) (I-III kitab), “Ömrün həbləri” (1989), “İlahi qisməti” (2001), “Dostlarım, tanışlarım” (2002), “Səhər açılır”, “Bol məhsullu tarlada”, “Küləkli havalarda”, “Vətəndaş sərnişinlər”, “Nağaraçı”, “Təmizlik” və s.

**Filmoqrafiya:** Qabil (film, 2001)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 481.

**18 Avqust - Ədəbiyyatşünas Kamil Vəliyevin anadan olmasının 75 illiyi, (1946)**

***"Milli özünüdərk prosesində anadilli ədəbiyyatın varlığı mühüm şərtdir. Və belə bir ədəbiyyat qabaqcıl qayələrin ifadəsinə çevrildikdə, xalqın duyğularını real şəkildə əks etdirəndə öz yüksək vəzifəsini həyata keçirmiş olur."***

Kamil Vəliyev



**Vəliyev Kamil Nəriman oğlu— filologiya elmləri doktoru**

Kamil Vəliyev Nəriman oğlu 18 avqust 1946-cı ildə Cəbrayıl rayonunda anadan olmuşdur. 1965-ci ildə orta təhsilini başa çatdırmışdır. 1970-ci ildə ADU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və həmin il universitetdə müəllimliyə başlamışdır. 1988-ci ildə professorluq dərəcəsi almış, 1988-1999-cu illər arasında universitetdə Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik etmiş, Böyük Elmi Şuranın üzvü olmuşdur. 1990-cı ildə Konya Səlcuq Universitetinin fəxri doktoru adını almışdır. 1991-1992-ci illərdə İzmir Universitetində, 1999-2000-ci ildə Şimali Kiprin Doğu Ağdəniz Universitetində dərs demişdir. Türkiyənin nüfuzlu elmi təşkilatlarından Türk Dil Qurumunun, Atatürk Kültür Mərkəzinin və Türk Folklor Qurumunun fəxri üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin, Ali Attestasiya Komissiyasının ekspertlər şurasının üzvü olmuşdur. 30 kitabın, 500-dən çox məqalənin müəllifidir. Dünyanın 20-dən artıq ölkəsində elmi konfranslarda çıxış etmişdir. 1993-cü ildə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində işləmişdir. 1998-ci ildə elmi araşdırmalarına və Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin inkişafına görə Türkiyə Respublikası prezidentinin fərmanı ilə Türkiyə Cümhuriyyəti "Şərəf və Ləyaqət nişanı" ilə təltif edilmişdir. 2002-ci ildə xidmətlərinə görə Türkiyə Nazirlər Kabineti yanında Türk Əməkdaşlıq və İnkişaf Agentliyinin, Türk Dil Qurumunun mükafatlarını almışdır. 2004-cü ildə Bilkənd Universiteti və Türk Mədəniyyətinə Xidmət Vəqfi tərəfindən dünyaca məşhur dörd elm və mədəniyyət xadimi ilə birgə mükafatlandırılmışdır. Həmin il Qırğızıstanda Çingiz Aytmatov Akademiyasının fəxri üzvü seçilmişdir. 2006-cı ilin dekabrında Türk Dil Qurumunun, Konya Səlcuq Universitetinin, Karaman Bələdiyyəsinin, Hüseyn Qazi Vakfının və Başbakanlıq yanında Avraziya Mərkəzinin ödüllərini almışdır. Hazırda Türkiyənin İstanbul Yedditəpə Universitetində dərs deyir və Azərbaycan-Avrasiya Araşdırmaları Mərkəzinə rəhbərlik edir. Ailəlidir, iki oğlu var.

**Əsərləri:** Böyük mütəfəkkir M. F.Axundzadə "Fikir karvanı" (1984) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 469.

**19 Avqust – Şair, dramaturq Camal Yusifzadənin 80 illiyi, (1941-2017)**



***"Camal Yusifzadənin şeirləri mənə sadəliyi, sözlərin təbii duyumu ilə Sabirin "Gəl, gəl, a yaz günləri", "Dərsə gedən bir uşaq" şeirini xatırlatdı. Belə şeirlər çox olsun. Bu şeir nəğmə adlanır. Bu, doğrudan da, nəğmədir. İndi bir Fikrət, bir Cahangir, bir Seyid lazımdır ki, onu musiqi dilində səsləndirsin. Mənim fikrimcə, Camal uşaqlar üçün yaxşı şeirlər yaza bilər."***

Xalq şairi Rəsul Rza

Bağırov Camal Yusif oğlu 1941-ci il avqustun 19-da Lənkəran şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakıda ADU-nun tarix fakültəsində təhsil almışdır (1960-1965). Tələbəlik illərində bədii yaradıcılığa başlamış, ilk şerini 1963-cü ildə Lənkəranda çıxan "Leninçi" qəzetində dərc etdirmişdir. Sonra Bakıda Azərbaycan Sovet Ensiklopediyasında elmi redaktor, böyük elmi redaktor vəzifələrində işləmişdir (1966-1972). "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında teatr, kino və musiqi şöbəsində ədəbi işçi, sonra şöbə müdiri olmuşdur (1972-1990). Televiziya və Radio Verilişləri Şirkətində ədəbi dram verilişləri baş redaksiyası baş redaktorunun müavini olmuşdur (1991-1998). 1998-ci il-dən həmin şirkətdə Azərbaycan Telefilm Yaradıcılıq Birliyinin baş redaktorudur. Onun "Dağlar arxasız olmur", "İtil getlər", "Kim dəli, kim ağıllı", "Ölümü köynəkdən keçirən oğul", "Sabaha ömür payı qazananlar" və s. pyesləri tamaşaya qoyulmuşdur. Camal Yusifzadənin doqquz kitabı çapdan çıxıb. Onun həm erudisiyasına, həm insani əxlaqına, həm də sözə sədaqətinə heyran olmamaq mümkün deyil.

**Əsərləri:** "Lənkəran nəğməsi" (1970), "Atlılar, qanadlılar" (1975), "Yol içində milyon seçdik" (1980), "Payızdan gələnlər" (1983), "Ümiddən keçən yol" (1988),
"Küləyi döymək olmaz" (1993) və s.

**Filmoqrafiya**:Abşeron lövhələri (film, 2004), Ağaxan (film, 2006), Ana duasından başlanan yol (film, 2001), Aşıq Məhəmməd Sadaxlı (film, 2003), Aşiqlər (film, 2008) Atəşgah (film, 2001), Ayna (film, 2000), Azərbaycan çayı (film, 2003), Azərbaycan çinisi (film, 2000), Azərbaycan üzümü (film, 2002), Bakı SOS Uşaq Kəndi (film, 2001) Başmaq (film, 2001), Bir ocağın nuru (film, 2001), Bizim qəribə taleyimiz (film, 2005) Çiçi xalçaları (film, 2002), Çinarlı şəhərin generalları (film, 1999), Dan ulduzu, tale ulduzu (film, 2001), Daşları dindirən alim (film, 2001), Dədə Qorqud axtarışında (film, 2000), Dədəgünəş (film, 2000), Dönüş (film, 1999), Əsrin şahidi (film, 2002), Əzizə Cəfərzadə (film, 1999), Əzvay (film, 2005), Firəngiz Əlizadə. Lüsern-99 (film, 1999).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh146.

## 26 Avqust - Yazıçı, dramaturq Əzim İsmayıllının anadan olmasının 85 illiyi, (1936)



**İsmayıllı Əzim İsfəndiyar oğlu – nasir, dramaturq, ədəbiyyatşünas, 1973- cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1962), "Araz" ali ədəbi mukafat laureatı.**

İsmayıllı Əzim İsfəndiyar oğlu 1936- cı il avqustun 26-da Azərbaycanda İsmayıllı rayonundakı Lahıc qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. İsmayıllı şəhərində 1 saylı orta məktəbi bitirmişdir (1954). Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir (1954-1960). Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri redaksiyasının satira və yumor şöbəsində ştatdankənar müxbir, eyni zamanda "Elm" nəşriyyatında korrektor kimi başlamışdır (1960). Bədii yaradıcılığa 50-ci illərdən başlamışdır. İlk hekayəsi "Qocalıqda yorğalıq" 1957-ci ildə "Gənclik nəğmələri" almanaxında dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Tbilisidə "Merani" nəşriyyatının buraxdığı "Çeşmə" (1980) ədəbi məcmuəsinin tərtibçisi və müəlliflərindən biridir. Əzim İsmayıllı Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı yazıçıların Gürcüstan Yazıçılar İttifaqı nəzdində yaranmış "Dan Ulduzu" ədəbi birliyinə rəhbərlik etmişdir (1985- ci ildən). Eyni zamanda "Dan ulduzu" ədəbi toplusunun tərtibçisi və redaktorudur (1987-1989-1990). "XX əsrin 30-40-cı illərində Gürcüstanın Azərbaycan mətbuatında ədəbiyyat məsələləri" mövzusunda tədqiqatla məşğul olmuşdur. Bir sıra elmi məqalələri qəzet və jurnallarda dərc olunmuşdur. "Bir cüt bənövşə", "Ölülər və dirilər", "Kölgələr işıqlanır", "Göz dağı", "Gizli düşmən" və sair pyes və ssenariləri vardır. Türkiyədə Əski şəhərdə Yunis İmrənin 750 illik yubileyi münasibəti ilə keçirilən konqresdə Atatürk qızıl medalına, "Araz" ali ədəbi mükafatına layiq görülmüşdür. Beynəlxalq Anamur poeziya festivalının qalibidir. Əsərləri xarici ölkə xalqlarının dillərində nəşr olunmuşdur. Xidmətlərinə görə 2 medalla təltif edilmişdir.

**Əsərləri:** "Nəfəs" (1966), "Qanlı qaya" (1989), "Dünənki anım" (1989) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 297.

**27 Avqust - Yazıçı, dramaturq Seyfəddin Dağlının 100 illiyi, (1921-1983)**

***"Ötən əsrin ortalarında "yandırdığı "Məşəl"in odu elə sönməz oldu ki, onun hər parçasından qopan qığılcım bu yazıçını sevən oxucuların qəlbinə nur kimi axdı. Bir vaxt bu dünyada var olmuş Seyfəddin Dağlını unudulmağa qoymadı. Əslində, bu işıq payı unudulmaz yazıçının Vətənə, torpağa, millətə bağlı ürəyinin sevdiyi insanlara əbədi ərməğanı oldu."***

Əməkdar İncəsənət xadimi Flora Xəlilzadə



**Yazıçı, dramaturq Seyfəddin Dağlı 26.08.1981- ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüşdür. Azərbaycan ədəbiyyatını öz əsərləri ilə zənginləşdirən və ədəbiyyatımızın inkişafında böyük xidmətlər göstərmiş yazıçılardan biri də nasir və dramaturq Seyfəddin Dağlıdır. O, həm gözəl bir insan, həm də bir yazıçı kimi yaddaşlarda xoş xatirələrlə yaşayır.**

Seyfəddin Əliağa oğlu Abbasov 1921-ci avqustun 27-də Xızıda doğulub. Bir müddət "Kommunist" və "Ordu" qəzetlərində müxtəlif vəzifələrdə çalışıb. Dövlət Radio Komitəsində baş redaktor (1956-1959), sonra Bakı Telestudiyasının direktoru və sədr müavini vəzifələrində çalışıb. Uzun müddət "Kirpi" jurnalının baş redaktoru olub. "Azərbaycanfilm" kinostudiyasında ssenari redkollegiyasının üzvü, "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışıb. 1948-ci ildə "Dəniz kəşfiyyatçısı" adlı kitabı nəşr edilib. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır" pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və sair kitabları geniş oxucu kütləsinin rəğbətini qazanıb. Pyesləri Akademik Milli Dram Teatrı, Musiqili Komediya Teatrı, Gənc Tamaşaçılar Teatrında dəfələrlə tamaşaya qoyulub. Bir çoxları kimi Seyfəddin Dağlı da yaradıcılığa şeirlə başlamışdı. Onun satirik şeirlərindən bəzilərinə musiqi də yazıldı. Bunların içərisində bəstəkar Cahangir Cahangirovun bəstələdiyi, müğənni Mirzə Babayevin oxuduğu "Çayçı" mahnısı çox məşhurdur.

**Əsərləri:** "Məşəl", "Sabiqlər", "Bahar oğlu", "Yay qayğıları", "Nəğməli çanta", "Göyçək oğlan", "Aldada bilməzsən", Mənziliniz mübarək", "Məşəl yanır", "Şirin duz", "Adı sənin , dadı mənim", "Aydınlığa doğru", "Təzə gəlin", "Kölgələr pıçıldaşır", "Vergülağa və Absətəli", "Adam yalan danışmaz", "Şakərlilər", "İpək gül", "Kəcil qapısı və s.

**Filmoqrafiya:** Onun bəlalı sevgisi (film, 1980), Qayınana (film, 1978), Adı sənin, dadı mənim (film, 1980), Gecəniz xeyrə qalsın (film, 1977), Kommunist (film, 1969), Solmaz bir bahar kimi (film, 1979).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 778.

**27 Avqust - Şair Qaçay Köçərlinin anadan olmasının 85 illiyi, (1936)**



***Haqdan gəldim yer üzünə haqsız oldum,***
***Tanrım mənə bəxt vermişdi, baxtsız oldum.***
***Bir sevgidən taxt vermişdi, taxtsız qaldım.***
***Mən bilmirdim, nələr varmış yer üzündə,***
***Yerdən böyük kədər varmış yer üzündə.***

Qaçay Köçərli

Qaçay Fərman oğlu Şirinov (Köçərli) 1936-cı il avqustun 27- də Tərtər rayonunun Köçərli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra sovet ordusu sıralarına gedib və 1959-cu ildə tərxis olunub. Ordudan tərxis olunduqdan sonra Suraxanıdakı üçüncü neft mədənində operator köməkçisi işləmişdir. Daha sonra operatorluq və Azərbaycan Politexnik İnstitutunun avtomobil nəqliyyatının istismarı şöbəsində ali təhsil almışdır. Bunun ardınca Binədəki texniki peşə məktəbində təsərrüfat üzrə müdir müavini, müəllim, istehsalat təlimi ustası işləmişdir. Azərbaycan radiosu ilə yaradıcılıq əlaqələri saxlayıb, əvəzçiliklə müxtəlif redaksiyalarda müvəqqəti işləyib, istehsalatdan ayrılmadan Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Azteleradionun pioner və məktəblilər redaksiyasında redaktor, böyük redaktor kimi çalışmışdır. İlk şeri "Bakı" axşam qəzetində 1960-cı ildə dərc olunub. Ondan sonra dövri mətbuatda vaxtaşırı çıxış edib. "Tək çinar" (1970), "Ömrün şüaları" (1974), "Günəş ömrü" (1979), "Üzü günəşə dünyam" (1982), "Dünya sənə oxşayır, ana" (1983) şeir kitablarından sonra – 1984-cü ildə Yazıçılar Birliyinə üzv qəbul edilib. Növbəti illərdə "Torpaq qərib olmur", "Qanlı hekayələr", "Səsim Tanrı harayıdır", "Dünya iki səslidir" və s. şeir kitabları, 2009-cu ildə "Beşik" nəşriyyatının xətti ilə "Mən və mənim dünyam" silsiləsindən nəzərdə tutulan 8 kitabdan 6-sı – **"Ovsunçu İbrahim", "Əmir Teymur və Aslanın nağılı", "İşıq çəlik", "Gül qızın nağılı", "Zəhmətkeş atanın fərsiz oğulları" və "Qızıl inəyin nağılı"** işıq üzü görüb. Oğlu Elcan Şirinov Qarabağ döyüşlərində şəhid olub, Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

**Əsərləri**: "Tək çinar", "Ömrün şüaları", "Günəş ömrü", "Üzü günəşə dünyam", "Dünya sənə oxşayır, ana", "Torpaq qərib olmur", "Qanlı hekayələr" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.səh 483.

**Xarici ədəbiyyat**

**15 Avqust - İngilis yazıçısı Volter Skotun anadan olmasının 250 illiyi, (1771-1832)**

***“Volter Skot Avropanın ən yeni sənətinə tarixi və ictimai istiqamət vermişdir. V.Skott öz romanlarında “tarixin yaylarını açıb göstərir”.***

V.Q.Belinski



**Valter Skott - Şotlandiya mənşəli vəkil, şair, yazıçısı, tarixçi, tarixi roman janrının banisi.**

Valter Skott dünya ədəbiyyatşünaslığında tarixi roman janrının banisi və ustad sənətkarlarından biri hesab edilir. O gördüyü abidələri, ya da dinlədiyi hekayələri təsvir etdiyi əhvalatın mərkəzində yerləşdirərək onları təsiredici və inandırıcı hadisələr zənciri kimi təsvir edir. Əsərləri avtobioqrafik xüsusiyyətlər daşıyarkən belə, universallığını qoruyub saxlayır. V.Skott tarixi mövzularda romanlar yazmamışdan əvvəl bu sahədə ətraflı tədqiqatlar aparmışdır. Yazıçı bir-birinin ardınca “Sonuncu menestrelin mahnısı”, “Marmion”, “Göl qızı”, “Rokbi” adlı romantik poemalarını yazır. Xüsusən, “Sonuncu menestrelin mahnısı” (1805) əsəri müəllifə, qədim Şotlandiyanı çox gözəl təsvir etdiyinə görə böyük şöhrət qazandırdı. Bütün bunların təsviri, poemanın şifahi xalq ədəbiyyatı ilə bağlı olması, Orta əsrlərə böyük maraq V.Skotun poemalarının gələcəkdə onun geniş lövhələri əhatə edən tarixi romanlar yazması üçün bir növ hazırlıq idi. Valter Skott tarixi sənədlərə, tarixi məna və məzmun daşıyan faktlara, tarixçilərin keçmişi tədqiq etmək baxımından əldə etdiyi materiallara rəngarəng don geyindirərək, quru və cansıxıcı görünən bu məlumatları maraqlı və cazibədar etmişdir. İlk romanı “Ueverli”ni 1814-cü ildə nəşr etdirən V.Skott 28 roman, bir neçə povest və hekayə yazmışdır. Yazıçının romanları mövzusuna görə, 3 qrupa bölünür. Bu romanların bir hissəsi doğma vətəni Şotlandiyanın tarixi keçmişinə həsr edilmişdir. “Şotlandiya romanları” ədəbi silsiləsinə daxil olan “Ueverli, yaxud altmış il əvvəl”, (1814), “Qay Mannerinq” (1815), “Antikvar” (1816), “Puritanlar” (1816), “Rob Roy” (1817) və başqalarının adlarını çəkmək olar. V.Skottun digər romanlarında isə İngiltərənin keçmişi təsvir edilir. Bu qismə “Ayvenqo” (1819), “Monastır” (1820), “Rahib” (1820), “Kenilvort” (1820), “Vudstok” (1826) əsərlərini aid etmək olar. V.Skottun romanlarının bir qismi də digər ölkələrin tarixinə həsr edilmişdir. Belə əsərlərə “Kventin Dorvard” və “Talisman” romanları aiddir. Valter Skott 21 sentyabr 1832-ci ildə infaktdan vəfat etmiş, Drayboroda dəfn edilmişdir.

**Əsərləri:** “Ueverli, yaxud altmış il əvvəl” (1814), “Qay Mannerinq və ya Astroloq” (1815), “Antikvar” (1816), “Puritanlar” (1816), “Rob Roy” (1817), “Rahib” (1820), “Monastır” (1820), “Kenilvort” (1821), “Kventin Dorvard” (1823), “Talisman” (1825), ”Maltanın mühasirəsi” (1832), “Şotlandiyanın sərhəd nəğmələri” (1800-1803), “Marmion” (1808), “Göl qızı” (1810), “Rokbi” (1813), “Vaterloo tarlası” (1815)

İnternetdə: https://ru.wikipedia.org/wiki/Скотт_Вальтер

**27 Avqust - Amerika yazıçısı Teodor Drayzerin 150 illiyi, (1871-1945)**



**Teodor Herman Albert Drayzer (ing. Theodore Herman Albert Dreiser; 27 avqust 1871-28 dekabr 1945) — ABŞ yazıçısı və ictimai xadimi**.

Dünya şöhrətli Amerika yazıçısı Teodor Drayzer 27 avqust 1871-ci ildə İndiana ştatının Terre-Hote şəhərində anadan olmuşdur. O, ailənin on ikinci uşağı idi. Kasıbçılıq, ciddi dini tərbiyə görmüş, xəyalpərəst qəlbə malik olan Drayzer yaşam uğrunda mübarizə aparmağa uyğunlaşmışdı. Onun 1886-1891-ci illər Çikaqodakı işəmuzd çalışması, İndiana universitetindəki təhsil illəri (1889-1890), 1892-1895-ci illərdə Çikaqo, Sent-Luia, Pitsburq və Nyu-York şəhərlərinin qəzetlərindəki əmək fəaliyyəti acı ümidsizliklərə düçar olmuşdur. H.Spenserin əsərləri ilə tanışlıqdan sonra onun ümidsizlikləri fəlsəfədə təzahür etməyə başladı; bu fəlsəfəyə görə insanlar yalnız və yalnız təbiətin köməksiz qurbanları hesab edilirdi. O, Balzakı "fəth" etdikdən sonra isə fəlsəfi baxışlarının bədii ifadəsini tapdı. Teoder Drayzer 1900-cü ildə "Kerri bacı" romanını yazdı. Yazıçının ilk irihəcmli bu əsəri heç də ona şöhrət yox, həqarət gətirdi. 1250 nüsxədə çap edilmiş kitabın yalnız 450-si oxucuya yetişdi, qalan nüsxələr isə donduruldu. Yeddi ildən sonra "Kerri bacı" kitabı İngiltərədə növbəti dəfə işıq üzü gördü, bestsellerə çevrildi, tənqidçilərin ən yüksək rəyini qazandı, bütün Avropa dillərinə tərcümə olundu və yalnız bundan sonra ABŞ-da nəşr olundu. Hal-hazırda isə bu kitabı XX əsr Amerika ədəbiyyatının "vizit kartı" adlandırırlar. 1915-ci ildən sonra Drayzer hekayə və esselər, tərcümeyi-hal yazmışdır; bütün bu əsərlərdə ictimai qaydaların adi adama göstərdiyi əzici təsiri əks etdirir. Bu ideya onun ən məşhur əsəri olan "Amerika faciəsi"nin mövzusunu təşkil edir. Əsəri həqiqətən baş vermiş məhkəmə prosesinin protokoluna əsaslanır: cəmiyyətdə irəli getməyə can atan gənc adam cinayət törədir və ölüm cəzasına məhkum edilir. Yeri gəlmişkən, bu kitabda əvvəlki Spenser heyranlığı başqa dünyagörüşü ilə əvəz olunur. "Kerri bacı" romanından sonra Teodor Drayzer "Cenni Herhardt" (1911), "Arzular trilogiyası": " Maliyyəçi " (1912), "Titan" (1914), "Dözümlülük" (tamamlanmamış, 1947), "Dahi" (1915), "Amerika faciəsi" (1925), "Dayaq" (1946) romanlarını, publisistik məqalələr və "Vur, təbil!" pyesini, "Drayzer Rusiyaya baxır" (1928), "Faciəli Amerika" (1931) və "Məktublar" (1959) publisistik əsərlərini yazmışdır. Teodor Drayzer 1945-ci il dekabrın 28-də Hollivudda (Kaliforniya ştatı) vəfat etmişdir.

**Əsərləri:** "Dahi", "Kerri bacı", "Cenni Herhardt" və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Teodor_Drayzer

**İncəsənət**

**4 Avqust - Diktor, pedaqoq, xalq artisti Rafiq Hüseynovun 75 illiyi, (1946)**



**Rafiq Hüseynov - Azərbaycan Respublikasının xalq artistı.**

Rafiq Hüseynov 1946-ci ildə Şuşa şəhərində anadan olub. Şuşada doğulan Rafiq Hüseynov Bakıda - İçərişəhərdə yaşayarkən atasını çox erkən yaşlarında itirir, anası onu və bacısını çətinliklə böyüdür. Orta məktəbi bitirdikdən sonra şərqşünas olmaq istəyirmiş, amma sənədlərini götürmürlər. Ailə vəziyyəti ağır olan 17 yaşlı Rafiq iş tapmaq məqsidlə Azərbaycan Televiziyasına gəlir. Yalandan televiziyaya vurğun olduğunu söyləyir. "Nə iş versəniz işləyəcəm" deyir və onu işıqçı işinə götürürər. İki il AzTV-də işıqçı kimi çalışır. Və televiziyaya elə bağlanır ki, buranı tərk etməyi ağlından belə, keçirmir. Sonradan onu diktorlar müsabiqəsinə dəvət edirlər. Müsabiqədən keçən Rafiq Hüseynov 1966-cı ilin dekabrında ilk dəfə diktor kimi efirə çıxır. İlk efir günündə həyəcandan çaşıb mətni o dərəcədə pis oxuyir ki, o zaman televiziyaya ciddi nəzarət edən Mərkəzi Komitədən zəng edib deyirlər ki, "bu kimdir işə götürmüsünüz, onu ordan rədd edin!". Rafiq Hüseynovu o zaman AzTV-nin sədr müavini işləyən mərhum şair Nəbi Xəzri xilas edir və deyir ki, "bu oğlanın gələcəyi var". Tarix Nəbi Xəzrinin yanılmadığını sübut edir...Mərkəzi Komitədən verilən o göstərişdən sonra 7 ay efirə buraxılmayan gənc Rafiq, ümidsizliyə qapılmır, əksinə, öz üzərində işləyərək yenidən etimad qazanır. Beləcə AzTV-də diktor olaraq qalan Rafiq Hüseynov bütün varlığını seçdiyi peşəyə həsr edir. İllərdən sonra öz səsiylə tamaşaçıların sevimlisinə çevrilir... Fəaliyyəti dövründə Moskvanın ali dərəcəli diktoru səviyyəsinə kimi yüksələn Rafiq Hüseynov bir müddət AzTV-nin sədr müavini vəzifəsində də çalışmağa nail olur...

Rafiq Hüseynov 26 oktyabr 2017-ci ildə Almaniyanın Düsseldorf şəhərində dünyasını dəyişib. 2 noyabr 2017-ci ildə cənazəsi Almaniyadan Bakıya gətirilib. 3 noyabr 2017-ci ildə Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında baş tutan vida mərasimindən sonra Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

**Filmoqrafiya:** Şəki (film, 1977), Ölü zona (film, 1988), Fəryad (film, 1993), Artilleriyanın "Allah"ı sayılırdı (film, 1996), Ailə (film, 1998) (tammetrajlı bədii film) – redaktor, Kədərimiz... Vüqarımız... (film, 1998), Nəsrulla Nəsrullayev (film, 1999), Narahat adam (film, 2005), Biz qayıdacağıq (film, 2007), Top həm düşər, həm qalxar (film, 2011), Gün keçdi (film, 2012).

İnternetdə: https://az.wikipedia.org/wiki/Rafiq_Hüseynov_(diktor)

**7 Avqust - Xalq artisti, baletmeystr Rəfiqə Axundovanın 90 illiyi, (1931)**



**Axundova Rəfiqə Hacı qızı (d.7.8.1931, Bakı) — Rəqqasə, Rəqs quruluşçusu, Libretto müəllifi, baletmeyster. Azərbaycan Xalq artisti (1970).**

Rəfiqə Axundova 1951-ci ildə Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir. Böyük Teatrda təkmilləşmə kursu keçmişdir (1951-52, Moskva). Azərb. Opera və Balet Teatrının solisti olmuşdur (1951-71). 1971-ci ildən həmin teatrın baletmeysteri, 1990-cı ildən baş baletmeysteridir. Əsas partiyaları: Ayişə və Gözəllər gözəli, Fanni ("Yeddi gözəl", "İldırımlı yollarla", Q.Qarayev), Gülşən ("Gülşən", S.Hacıbəyov), Gülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), Şirin ("Məhəbbət əfsanəsi", A.Məlikov), Zarema ("Baxçasaray fontanı", B.Asafyev), Jizel ("Jizel", A.Adan) və s. Əri Maqsud Məmmədovla birlikdə Azərb. Opera və Balet Teatrında "Xəzər balladası" (1968, T.Bakıxanov), "Qobustan kölgələri" (1969, F.Qarayev), "Yallı" və "Azərbaycan süitası" (1969, R.Hacıyev), "İldırımlı yollarla" və "Yeddi gözəl" (1975, 1978, Q.Qarayev), "Babək" (1986, A.Əlizadə), "Şelkunçik" (1988, P.Çaykovski), habelə Novosibirsk Opera və Balet Teatrında "İldırımlı yollarla" (1976) baletlərinin quruluşunu vermişdir. Əlcəzair, İsveç, Misir və Belçikada pedaqoq-baletmeyster işləmişdir. Əlcəzairdə "Üç inqilab" (1973, R.Hacıyev; M.Məmmədovla birgə) ilk milli baletini, Malmödə "Muğam" (1975, N.Əliverdibəyov) musiqili xoreoqrafiya lövhəsini, Qahirədə "Yeddi gözəl" (1979), Antverpendə "Kaleydoskop (1980, F.Qarayev) baletlərini (hər ikisi M.Məmmədovla birgə) tamaşaya qoymuşdur. "Xəzər balladası", "Qobustan kölgələri" və "Azərbaycan süitası" 1969-cu ildə Parisdə keçirilən 7-ci Beynəlxalq rəqs festivalında nümayiş etdirilmiş və Paris Rəqs Akademiyasının diplomuna layiq görülmüşdür. 1994-cü ildə "Yeddi gözəl" baletini Ankarada tamaşaya qoymuşdur (M.Məmmədovla birgə). "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**Quruluş verdiyi baletlər** (Maqsud Məmmədovla birgə) : Xəzər balladası (1968), Qobustan kölgələri (1969), Yallı (balet)(1969) xoreoqrafik miniatürü, Ləzgihəngi (baleti-1969) - xoreoqrafik miniatürü, Azərbaycan süitası (1969), Kaleydoskop (1971), Muğam (1972) xoreoqrafik miniatürü, Üç inqilab (1973), İldırımlı yollarla (1975), Yeddi gözəl (1978), Babək (1986)

**Filmoqrafiya:** Doğma xalqıma (film, 1954), Abşeron ritmləri (film, 1970), Dədə Qorqud (film, 1975), Qərib cinlər diyarında (film, 1977), Qayınana (film, 1978), Yeddi gözəl (film, 1982), Bəyin oğurlanması (film, 1986), Bir qəlbin iki dastanı (film, 2001) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Rəfiqə_Axundova

**19 Avqust - Aktyor, rejissor İsmayıl Hidayətzadənin 120 illiyi, (1901-1951)**

***"Məncə, aktyor səhnədə beşmi, onmu, bilmirəm, neçə il yanmalı və oradaca külə dönüb öz sənətkar ömrünü yaşamalıdır".*** İ. Hidayətzadə



**İsmayıl Hüseyn oğlu Hidayətzadə (19 avqust 1901, Bakı-11 noyabr 1951, Bakı) - Azərbaycan aktyoru. Azərbaycan SSR Xalq Artisti (1938), "Şərəf Nişanı" və "Qırmızı Əmək Bayrağı" Ordeni ilə təltif edilmişdir.**

İsmayıl Hidayətzadə 1901-ci ildə Bakıda dənizçi ailəsində anadan olub. İsmayıl 1909-cu ildən etibarən "İttihad" məktəbində oxumuşdur. Burada oxuduğu illər İsmayıl Hidayətzadənin gələcək həyatını müəyyənləşdirir. Uşaqlıqdan canında olan rol oynamaq həvəsi gündən-günə qüvvətlənir. Başa düşür ki, yaşadığı ömür səhnənin cazibəsindədir. Hüseyn Ərəblinskini daha yaxından görməyə, məşqlərində iştirak etməyə müyəssər olan İsmayıl Hidayətzadə onu daha ustalıqla təqlid etməyə başlayır. İsmayıl Hidayətzadə məhz bu illərdə böyük səhnəyə gəlir. 1920-ci ildən Dövlət teatrında işləyir. Paralel olaraq, 1921-ci ildə Voronovun teatr studiyasına daxil olur. Teatr studiyası İsmayıl Hidayətzadəyə çox şey öyrədir. Öncə, onun həvəskar imicini alt-üst edir. Onu professional aktyor kimi qəbul etməyə başlayırlar. 1926-ci ildə arabir özünü rejissorluqda sınayır. Bu sınaqlar onu teatr ictimaiyyətinə rejissor kimi tanıdır. 1934-cü ildə "Siyavuş" əsərini səhnələşdirmək ona tapşırılır. Teatr tənqidçilərinin bəyəndiyi "Siyavuş"dan sonra Opera və Balet Teatrında "Koroğlu" və "Karmen" operalarını səhnələşdirir. Rus Dram Teatrında "1905-ci İldə", "Vaqif" tamaşalarını qoyur. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində onun quruluş verdiyi "Koroğlu" və "Arşın mal alan" tamaşaları böyük uğur qazanır. Bu, İsmayıl Hidayətzadənin rejissor kimi şöhrətini artırır. Moskvadan qayıdandan sonra o, Opera və Balet Teatrının rəhbəri təyin edilir. Hidayətzadənin müasiri, görkəmli rejissor Tuqanov onun haqqında belə deyirmiş: "O, həmişə inandırıcı və real idi. Heç bir zaman şarja yer verməyərək, o, bütün tamaşa boyu tamaşaçının ürəyinə girməyi və onu öz ardınca aparmağı bacarırdı. O, heç bir zaman oynamırdı, heç bir ştampa yol vermirdi. Onun oyununda gəncliyə məxsus həssaslıq, ehtiras və qızğınlıqla bərabər sadəlik və təbiilik var idi." İsmayıl Hidayətzadənin Azərbaycan mədəniyyəti qarşısında xidmətləri yalnız yaratdığı zəngin rol qalereyası və uğurlu rejissor işi ilə tamamlanmır. O, ilk milli baletimizin - "Qız qalası"nın librettosunu yazıb. Opera studiyası da onun səyi ilə yaradılıb. Bütün ömrü boyu teatrda çalışan sənətkar cəmi-cümlətanı üç filmdə - "Qız qalası", "Almaz" və "Altıncı duyğu" filmlərində çəkilib. 2001-ci ildə aktyorun 100 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

**Filmoqrafiya:** Qız qalası əfsanəsi (film, 1923), Bismillah (film, 1925), Altıncı hiss (film, 1935), Almaz (film, 1936) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/ İsmayıl Hidayətzadə

**20 Avqust - Xalq artisti Xan Şuşinskinin anadan olmasının 120 illiyi, (1901-1979)**



Xan Şuşinski 1901-ci ildə avqust ayının 20-i Şuşa şəhərində anadan olmuşdur. 16 yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbdülhəsən xanın yolu ilə "Kürd-Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan Şuşinski" adını vermişdir. Xanın bir xanəndə kimi yetişməsində, həmçinin Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük təsiri olmuşdur. 1920-ci illərdə Xan Şuşinski Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirmişdir. Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tuturdu. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxuyur, onlara yeni bir çalarlar aşılayırdı. 1934-cü ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiyadasında böyük müvəffəqiyyət qazanaraq, birinci mükafata layiq görüldü. O, digər ölkələrdə də Azərbaycan musiqi mədəniyyətini yüksək səviyyədə və layiqincə təmsil etmişdir. 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəznində "Muğam studiyası" yaratmış və burada gənc xanəndələrə muğamın sirrlərini öyrətmişdir. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs demiş, muğam ifaçılarının yeni nəslini yaratmışdır. Xan əsl yaradıcı sənətkar kimi milli musiqi xəzinəsini yeni mahnılarla zənginləşdirirdi. Bu baxımdan onun "Qəmərim", "Şuşanın dağları" mahnıları dillər əzbəri olmuşdur. Xan Şuşinski öz yaradıcılığında bəstəkar mahnılarına da müraciət etmişdir. Bu mənada Üzeyir Hacıbəyovun "Qara göz" mahnısının ilk ifaçısı olmuş və mahnını yüksək zövqlə oxuyaraq yaşatmışdır. Xan Şuşinski 18 mart 1979-cu ildə vəfat etmişdir.

**Əsərləri:** "Yaxşı adamın hekayəti." (1976), "Nəğmələr susmur" (1975), "Səs, söz və ifaçılıq" (1979).

**Filmoqrafiya:**Bakı bağları. Buzovna (film, 2007), Biz qayıdacağıq (film, 2007), Havalansın Xanın səsi (film, 2001), Mədəniyyət salnaməsi. Əbülfət Əliyev (film, 2004), Muğamat var olan yerdə... (film, 2009), Muğamlar (film, 1965), O olmasın, bu olsun (film, 1956), Özgə ömür (film, 1987), Prima (film, 1992), Qızıl fonddan seçmələr (film, 2001), Səs (film, 1988).

**Haqqında olan ədəbiyyatlar:** Muxtaroğlu V. Havalansın Xanın səsi. 1971, Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. 1985, Çəmənli Mustafa. Muğam dünyasının Xanı (xatirələr). 2001, Babayev Aydın. Xanın səsi. "Ədəbiyyat və incəsənət", 1971 və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Xan_Şuşinski

**22 Avqust - Xanəndə Bülbülcanın (Əbdülbaqi) 180 illiyi, (1841-1927)**

***Cabbar Qaryağdıoğlu "Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim"də yazırdı ki, mən zəngulə vurmağı ilk dəfə Əbdülbaqidən öyrənmişəm. Onun sənətinin böyüklüyü də elə bu qeyri-adi zəngulələrində idi. Açığı, onun kimi heç kim zəngulə vura bilməzdi. Elə buna görə də Bülbülcanın muğamları çox fərqli və təsirli alınardı.***



Əbdülbaqi elə bir şöhrət qazanmışdı ki, onu külli Qarabağda öz adı ilə yox, məhz "Bülbülcan" kimi tanıyırdılar. Əvvəlcə "Bülbül" adlandırmışdılar. Sonrakı fəaliyyətində muğam və xalq mahnılarımızı elə bənzərsiz və ustalıqla oxudu ki, "can" kəlməsi bir təxəllüs kimi ünvanına qanadlandı. Əbdülbaqi Kərbəlayı Əli oğlu Zülalov 1841-ci ildə Şuşa şəhərində doğulmuşdu. Bir sənətkar kimi yetişməsində bu qədim şəhərin musiqi həyatı böyük rol oynadı. Hələ uşaqlıqdan əlini qulağının dibinə verərək səsi ilə ətrafa qəribə bir məlahətli avaz yayardı. Təbii ki, Şuşada səsə, sənətə qiymət verən sərraflar çox idi. Elə ilk musiqi təhsilini də Xarrat Qulunun məktəbində alan Əbdülbaqi sonralar tarzən Mirzə Sadıqla birlikdə Qarabağ, Şəki, Şirvan və Gəncənin el məclislərində, şənliklərdə iştirak etməyə başladı. Xüsusilə də Xurşudbanunun təşkil etdiyi şənliklərdə Əbdülbaqi yaxından iştirak edərdi. Səsi-sorağı Təbrizdən, İrəvandan, Şamaxıdan gələrdi. Hələ cavan yaşında Qafqazı və İranı gəzib öz istedadı və müxtəlif dillərdə muğam ifa etmə məharəti ilə muğamsevərlər arasında məşhurluq qazanmışdır. İran şahı Müzəffərəddin şah tərəfindən Şiri-Xurşid ordeninə layiq görülmüşdür. 1875-ci ildən başlayaraq ömrünün 30 ilini Tbilisidə yaşamışdır. Gürcü dilini öyrənib Azərbaycan muğamatlarını o dildə ifa edərdi və onu dinləyən Tbilisililəri mükəmməl səsi, yaraşıqlı xarici görünüşü və artistik davranışı ilə heyran edərdi. Tez-tez yaxın dostu və məşhur tarzən Sadıqcanla çıxış edərdi. 1905-ci ildə Bülbülcan Şuşaya qayıtdı və vaxtını yetim qalan qardaşı uşaqları Əli Zülalovun və Qəmbər Zülalovun böyütməsinə həsr etdi. 1920-ci illərdən bəri Bakıda yeni açılmış ali musiqi məktəblərdə dərs demişdir. 1929-cu ildə vəfat etdi. Zülalov ailəsi bu günə qədər dahi xanəndənin musiqi ənənələrini davam edir. Bülbülcandan dərs alan və onun sənətini sevən istedadlı gənclər sonralar Azərbaycan mədəniyyətinin məşhur simaları oldular: Cabbar Qaryağdıoğlu, Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Vahab bəy, Molla Abbas, Seyid Şuşinski və onlarca başqaları. O, bütün tamaşaçıların ürəyinə yol tapırdı. İfaçılıq məharəti ilə dinləyicilərin hamısını valeh edərdi. Hətta elə zəngulələr vurardı ki, hamı yerində donub qalardı. Ümumiyyətlə, xanəndəlik sənətində zəngulə vurmaq əsas amillərdən sayılır. Elə bir muğamımız yoxdur ki, orada zəngulə olmasın. Bülbülcanın ailəsi Azərbaycan incəsənət tarixində əhəmiyyətli rol oynayıb. Təsadüfi deyil ki, bu ocaq "istedadlılar ailəsi" kimi tanınıb. Əbdülbaqinin qızı, nəvəsi və qardaşı uşaqları Azərbaycan musiqi mədəniyyətinin, teatrının ilkinləri sırasında dayandılar. Onlar öz istedadları ilə Bülbülcanın nəcib ənənələrini layiqincə davam etdirdilər. Bülbülcanın qızı, nəvəsi və qardaşı uşaqları da xanəndə oldu.

İnternetdə: https://az.wikipedia.org/wiki/Bülbülcan

**Milli qəhrəmanlıq zirvəsi**

**12 Avqust - Quliyev Emin Ələkbər oğlunun 45 illiyi, (12.08.1976-17.03.1995)**



**Emin Quliyev — Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Quliyev Emin Ələkbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adna layiq görülmüşdür.**

Emin Quliyev 12 avqust 1976-cı ildə Bakının Qaradağ rayonunda anadan olmuşdur. 1983-cü ildə 228 saylı məktəbə getmiş, 1993-cü ildə bu məktəbi bitirmişdir. 1994-cü il 25 avqust Milli Ordu sıralarına çağırılmışdır. Emin Quliyev "N" saylı hərbi hissədə xidmət edər və bacarığına görə fərqlənirdi. Emin Quliyev idmanın bir neçə növü ilə məşğul olmuşdu. Onun xidmət etdiyi batalyonun əsgərləri 1995-ci ilin fevral ayının əvvəllərində Şubanıya ezam olundu. O, burada da özünün əsgəri keyfiyyətləri ilə fərqlənirdi. Təbii ki, onun kimi əsgərlərin cəsurluğu, qorxmazlığı komandir heyətinin nəzərindən yayınmırdı. Artıq bu ərəfədə ölkədə siyasi sabitlik pozulmuşdu. Bir dəstə hakimiyyət hərisi dövlət çevrilişinə can atırdı. Bunun qarşısı vaxtında alınmasaydı, ölkə ağır fəlakətlərlə üzləşə bilərdi. 13 mart 1995-ci ildə çağırışlara tabe olmayan bu dəstə öz çirkin əməllərini həyata keçirmək üçün silahlı əməliyyata başladı. Eminin xidmət etdiyi alayın əsgərləri bu qarşıdurmanı yatırmaq üçün hadisə yerinə göndərildi. Milli Ordunun əsgərləri hadisə yerinə çatanda silahlı toqquşma artıq başlamışdı. Emin cinayətkarlara qarşı aparılan əməliyyatda fəal iştirak edir, yaralıların döyüş meydanından çıxarılmasında əsl qəhrəmanlıq nümunəsi göstərirdi. 1995-ci il 13-17 mart hadisələri zamanı silahlı dəstənin zərərsizləşdirilməsində o dövlətçiliyimiz uğrunda canından keçdi. Subay idi. Qaradağ rayonunun Sahil qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Sahil qəsəbəsindəki 14 saylı məktəb, bir küçə və park qəhrəmanımızın adını daşıyır.

***Rahatlıq tapmadı bu gen dünyada,***
***Vermədi sirrini yaxına, yada.***
***Döyüş meydanına can atdı o da...***
***qəhrəman Emin***
***Keçəndə "Şəhidlər xiyaban"ından,***
***Dəhşətə gəlmişdir tökülən qandan.***
***Ölsə də ayrılmaz Azərbaycanından...***
***qəhrəman Emin***

Qurban Göyçəli

İnternetdə:https://az.wikipedia.org/wiki/Emin_Quliyev_(milli_qəhrəman)

**19 Avqust - Xəlilov Eldar Xəlil oğlunun 45 illiyi, (19.08.1976-17.03.1995)**



**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Xəlilov Eldar Xəlil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

**Eldar Xəlilov — Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Xəlilov Eldar Xəlil oğlu 19 avqust 1976-cı il Qərbi Azərbaycanın Zəngibasar rayonunun Zəngilər kəndində anadan olmuşdur. 1983-cü ildə məktəbə getmiş, 1988-ci ildə burada yaşayan soydaşlarımız erməni millətçilərinin təcavüzünə məruz qalanda o da ailəsi ilə birlikdə Bakıya gəlir və Bakıda məskunlaşır. Təhsilini 96 və 252 saylı məktəblərdə davam etdirir. 29 sentyabr 1994-cü ildə hərbi xidmətə çağırılır. 1995-ci il 13-17 mart silahlı dəstə dövlətimizə xəyanət edərkən Eldar dəstənin zərərsizləşdirilməsi zamanı həlak oldu, onun arzularla dolu gənc ömrü qırıldı... Subay idi. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Bakının Bakıxanov qəsəbəsindəki küçələrdən biri qəhrəmanımızın adını daşıyır.

***Od ürəkli , od nəfəsli diyarımsan***
***Ocağına canım qurban , Azərbaycan !***
***Əzilsən də , əyilməyən vüqarımsan***
***Bu çağına canım qurban , Azərbaycan !***
***Savaşlardan alnıaçıq çıxan zaman***
***Tarixlərə bağışladın neçə qurban.***
***Hər qonşuda bir parçası əsir qalan***
***Torpağına canım qurban , Azərbaycan !***

Nəriman Həsənzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/Eldar_Xəlilov

**20 Avqust - Mehdiyev Fazil Umud oğlunun 55 illiyi, (20.08.1966-24.09.1991)**



**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Mehdiyev Fazil Umud oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.**

Fazil Mehdiyev 20 avqust 1966-cı ildə Laçın rayonunun Ələkçi kəndində anadan olmuşdur. O, körpə olarkən ailəsi Ağdamın Abdal Gülablı kəndinə köçmüşdür. 1983-cü ildə məktəbi burada bitirmişdir. 1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur. Qarabağda baş verən hadisələr Fazil Mehdiyevi narahat edirdi. O, 1990-cı ildə Ağdam rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna yazılır. Tezliklə onun səsi ən qaynar döyüş meydanlarından eşidildi. 1991-ci ildə Qaradağlı kəndində ağır yaralanan Fazil azacıq sağalan kimi cəbhəyə qayıdır. Fazil 1991-ci ilin avqust ayında erməni işğalçılarına məxsus "Niva" markalı avtomobili ələ keçirib polis idarəsinə təhvil vermişdi. 1991-ci il sentyabrın 23-dən 24-ə keçən gecə ermənilər Abdal Gülablı (Gülablı) kəndinə hücum etmişdilər. Fazil dostu Salehlə maşına minib döyüşə tələsir. Ağdama gələn yolda pusqu quran ermənilər onları atəşə tuturlar və Fazil bu döyüşdə faciəli surətdə həlak olur. Subay idi. Ağdam rayonunun "Qarağacı" qəbristanlığında dəfn edilib. Bakının Nəsimi rayonunda büstü qoyulub, Səbail rayonunda isə adına küçə var.




**Haqqında yazılan kitab :**

Elbrus Şahmar “Fazilin Allah dərgahına gedən ömür yolu”

İnternetdə: https://az.wikipedia.org/wiki/Fazil_Mehdiyev

**Əlamətdar tarixi günlər və bayramlar**

7 Sentyabr – “Google” Şirkətinin Təsis Olunduğu Gün, (1998)
8 Sentyabr – Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü, (1958)
8 Sentyabr – Beynəlxalq Savadlılıq Günü, (1966)
9 Sentyabr – Ümumdünya Gözəllik Günü, (1995)
9 Sentyabr – “Smaylik”lərin Ad Günü, (1982)
12 Sentyabr – Respublika Uşaq Kitabxanasına ədəbiyyatşünas Firidun bəy Köçərlinin adının verildiyi gün, (1967)
15 Sentyabr – Bilik Günü, (2004)
15 Sentyabr – Beynəlxalq Nöqtə Günü, (2009)
16 Sentyabr – Beynəlxalq Ozon Qatının Qorunması Günü, (1994)
18 Sentyabr – Milli Musiqi Günü, (1995)
19 Sentyabr – Beynəlxalq Piratlar Günü, (1995)
20 Sentyabr – Neftçilər Günü, (1994)
20 Sentyabr – Ümumdünya Düyü Günü, (2004)
20-21 Sentyabr – Beynəlxalq Yarasalar Gecəsi
21 Sentyabr – Beynəlxalq Sülh Günü, (1981)
22 Sentyabr – Filləri Ümumdünya Müdafiə Günü
23 Sentyabr – Saqqız Günü, (1848)
24 Sentyabr – Beynəlxalq Lal-Kar Günü, (1951)
27 Sentyabr - İkinci Qarabağ müharibəsi (Vətən müharibəsi)
27 sentyabr —Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunduğu gün, (2020)
27 Sentyabr – Beynəlxalq Dovşanlar Günü
27 Sentyabr – Ümumdünya Turizm Günü, (1980)
29 Sentyabr – Ümumdünya Dəniz Günü, (1978)
29 Sentyabr – Dünya Ürək Günü, (2000)
30 Sentyabr – Beynəlxalq Tərcüməçilər Günü, (1991)

**Yubilyar yazıçı və şairlər**

Şair Tofiq Abdinin (Məhərrəmoğlunun) 80 illiyi, (01.09.1941-24.02.2014)
Şairə Fatma xanım Kəminənin 180 illiyi, (06.09.1841-1898)
Şair Novruz Gəncəlinin 100 illiyi, (12.09.1921- 1995)
Yazıçı Şəmsəddin Abbasovun 115 illiyi, (20.09.1906-1975)

**Xarici ədəbiyyat**

İngilis yazıçısı Roald Dahlın 105 illiyi, (13.09.1916-1990)
İngilis yazıçısı H.C.Uellsin 155 illiyi, (21.09.1866-1946)

**İncəsənət**

Xalq artisti Yaşar Nurinin 70 illiyi, (03.09.1951-22.11.2012)

Xalq artisti Əminə Yusif qızının 85 illiyi, (24.09.1936)
Müğənni Xanlar Haqverdiyevin 115 illiyi, (25.09.1906-1980)

**Milli qəhrəmanlıq zirvəsi**

Kərimov Kazımağa Mövsüm oğlunun 70 illiyi, (01.09.1951-01.04.1992)
İbrahimov Mirələkbər Mirələsgər oğlunun 60 illiyi, (30.09.1961-26.09.2009)
Məhəmmədov Seymur Qəhrəman oğlunun 50 illiyi, (18.09.1971-11.10.1992)
Qurbanov Arif Vəliş oğlunun 55 illiyi, (20.09.1966-05.03.1994)
Yusifov Zakir Tofiq oğlunun 65 illiyi, (29.09.1956-11.10.1992)
İbrahimov Mirələkbər Mirələsgər oğlunun 60 illiyi, (30.09.1961-05.03. 1994)

**Əlamətdar tarixi günlər və bayramlar**

**7 Sentyabr – “Google” Şirkətinin Təsis Olunduğu Gün, (1998)**




Google (azərb. Quql) dünyanın ən böyük axtarış sistemləri, eləcə də reklam sahəsində ixtisaslaşmış transmilli şirkətidir və ABŞ-da yerləşir. "Google" internetdə yerləşən bir çox xidmət və məhsullara sahiblik etməklə yanaşı onları inkişaf etdirir.

1.İnternetdə axtarış, buludlu hesablamalar (CLOUD COMPUTING) və reklam texnologiyaları sahələrinə investisiya qoyan transmilli şirkət. Mənzil-qərargahı Mountain View şəhərində (Kaliforniya, ABŞ) yerləşir. 1998-ci ildə Stenford Universitetinin məzunları Larri Peyc (Larry Page) və Sergey Brin tərəfindən yaradılıb. Sistem və uyğun şirkət öz adını qiyməti 10100 olan "quqol” (googol) riyazi kəmiyyətindən alıb; bu termin ötən əsrin 30-cu illərində amerikalı riyaziyyatçı Edvard Kasner tərəfindən daxil edilib. Şirkət, əsasən, özünün nəhəng Google axtarış sistemi ilə məşhurlaşıb. Şirkətin Gmail poçt xidməti, "Google+" və "Google Buzz" sosial alətlər kimi onlayn məhsulları da vardır. Bundan başqa, "Google" özünün "Google Chrome" brauzeri, fotoqrafiyalarla işləmək üçün "Picasa" proqramı və "Hangouts" ani məlumat mübadiləsi proqramı ilə tanınır. Smartfonlarda istifadə olunan "Android" mobil əməliyyat sistemi də "Google" şirkətinin məhsuludur.

2. İnternetdə ən populyar nəhəng axtarış sistemi. "Google Inc" şirkətinə məxsusdur. 1996-cı ildə Stenford Universitetinin tələbələri Larri Peyc (Larry Page) və Sergey Brin tərəfindən tədris layihəsi kimi yaradılıb. "BackRub" adlanan bu layihənin əsasında onlar 1998-ci ildə yeni "Google" axtarış sistemini yaratmışlar. "Google PDF", "RTF", "PostScript", "Microsoft Word", "Microsoft Excel", "Microsoft PowerPoint" və başqa formatlı sənədlərdə axtarışı dəstəkləyir. Axtarış sisteminin belə populyar olması ingilis dilində yeni sözün yaranmasına səbəb olub: "to google”, yaxud "to Google” – "quqllamaq”. Bu feil İnternetdə "Google" sisteminin köməyi ilə axtarış aparmağı bildirmək üçün istifadə olunur.

İnternetdə: http://anaveusaq.az/tarixde-bu-gun

**8 Sentyabr – Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü, (1958)**

***"Azərbaycan Prezidenti kimi mən mətbuat azadlığının təminatçısıyam. Hesab edirəm ki, Azərbaycanda söz azadlığı, mətbuat azadlığı tam təmin olunubdur".***

**Ümummilli lider Heydər Əliyev**



Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü 1958-ci ilin mayından qeyd edilir. Həmin il Buxarestdə keçirilən Beynəlxalq Jurnalistlər Təşkilatının IV konqresində bununla bağlı qərara gəlinib. Dünya mediası üçün əlamətdar sayılan bu gün 1943-cü ilin sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çex jurnalisti Yulius Fuçikin xatirəsinə təsis olunub.

Bu gün Azərbaycan dövləti siyasi mövqeyindən asılı olmayaraq, bütün Kütləvi İnformasiya Vasitələrinin (KİV-in) inkişafında maraqlıdır. Bunun üçün ölkədə KİV-ə dəstək konsepsiyası hazırlanıb və KİVDF (Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu) yaradılıb. KİVDF jurnalistlərin peşəkarlığının artırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün müxtəlif layihələr həyata keçirir. Bu qurumun layihələrində iştirak edən qəzetlərin maddi- texniki bazası yaxşılaşıb, avadanlıqlar yeniləri ilə əvəz edilib.

İnternetdə: www.books.google.com

**8 Sentyabr – Beynəlxalq Savadlılıq Günü, (1966)**



Beynəlxalq Savadlılıq Günü (İnternational Literasy Day) Beynəlxalq Millətlər Təşkilatı sistemində qeyd olunan bayramlardandır. O, 1965-ci ilin sentyabrında Tehranda keçirilmiş Təhsil nazirlərinin savadsızlığın ləğv edilməsi üzrə ümumdünya konfransının tövsiyələri ilə YUNESKO tərəfindən 1966-cı ildə təsis olunmuşdur. Sentyabrın 8-i bu konfransın təntənəli açılışı günüdür.

Bu günün əsas məqsədi YUNESKO-nun fəaliyyətinin əsas sahələrindən biri olan, ayrı-ayrı şəxslərin, icmaların, birliklərin hüquq və imkanlarının genişləndirilməsi aləti kimi savadlılığın yayılması sahəsində beynəlxalq birliyin səylərini fəallaşdırmaqdır.

Savadlılıq bəşəriyyət üçün həqiqətən bayramıdır. Çünki bu sahədə nəhəng uğurlar qazanılmış, Yer kürəsində savadlı insanların sayı 4 milyarda çatmışdır. Lakin bir çox ölkələrin bu sahədəki böyük uğurlarına baxmayaraq, dünyada 860 milyon yaşlı insan hələ də savadsızdır, 100 milyon uşaq isə məktəbə getmir. Saysız-hesabsız uşaq, gənc və böyük isə müasir dövrün tələblərinə cavab verən səviyyədə savada malik deyillər, bu da onları savadlı hesab etməyə imkan vermir.

Bu əlamətdar günün qeyd olunmasında hökumətlər, çoxtərəfli, ikitərəfli və qeyri-hökumət təşkilatları, özəl sektor, birliklər, cəmiyyətlər, həmçinin müəllimlər, bu sahənin mütəxəssisləri, tələbələr iştirak edirlər.

Qeyd etmək lazımdır ki, hər il Savadlılıq Günü müəyyən mövzuya həsr olunur. Belə ki, o, müxtəlif illərdə aşağıdakı devizlər altında keçirilmişdir: “Qadınlar üçün savadın əhəmiyyəti”, “Savadlılıq şəxsi imkanları genişləndirir”, “Savadlılıq və sağlamlıq”, “Savadlılıq sabit inkişafı təmin edir”, “Keçmişi oxuyaraq, gələcəyi yazırıq” və s.

İnternetdə: www.books.google.com

## 9 Sentyabr – Ümumdünya Gözəllik Günü, (1995)



XX əsrdə kosmetologiya sahəsində əsl inqilab baş vermişdir. Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi (SİDESKO) Beynəlxalq Gözəllik Gününün (İnternational Beauty Day) yaradılması təşəbbüsü ilə çıxış etmişdir və bu gün hər il sentyabrın 9-da qeyd olunur.

Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi dünyada əsas beynəlxalq gözəllik terapiyası assosiasiyası hesab olunur və 1946-cı ildə Brüsseldə yaradılmışdır. Bir çox ölkələrdə 33 şöbəsi olan komitə bütün dünyada minlərlə həkimi birləşdirir. 1995-ci ildən başlayaraq hər ilin 9 sentyabr günü bütün gözəl olan, estetik və mənəvi həzz bəxş edən hər şey alqışlanır, təqdir olunur.

Dünyada ilk gözəllik yarışması 1888-ci ilin sentyabrında Belçikada, ilk "Dünya gözəli" müsabiqəsi isə 1951-ci ildə Londonda keçirilmişdir.

Kosmetoloqlar, kosmetik vasitələrin istelsalçıları və satıcıları, plastik cərrahlar, model biznesinin nümayəndələri bu günü peşəkar bayramları kimi qeyd edirlər.

İnternetdə: www.books.google.com

**9 Sentyabr – "Smaylik"lərin Ad Günü, (1982)**



9 sentyabr 1982-ci ildə Karnegi Mellon Universitetinin professoru Skott Falman öz kolleqalarına elektron məlumat göndərir və simvoldan istifadə edir ":-)" Alim belə hesab edir ki, bu işarə gülümsər üzə bənzəyir. Həmin vaxtdan da Smayliklər Günü bütün dünyada qeyd olunmağa başlayır. "Emoji" sözü Yaponcada "şəkilli xarakter" mənasını verir və "e" (şəkil) və "moji" (xarakter) sözlərinin birləşməsindən meydana gəlir. Açıqlama vermək lazım olsa, smayllar müxtəlif duyğu və düşüncələrimizi, ümumiyyətlə, sarı sifətli insan bənzəri ikonlar vasitəçiliyi ilə ifadə edən, mesajlaşmadan istifadə etdiyimiz kiçik şəkillərdir. Bu hörmətcil və şirin insanlar, illər əvvəl smayllardan istifadə etməyə başlayıblar. Hətta bu gün də Yapon bir dostunuz olsa, rahatlıqla smayla olan sevgilərini görə bilərsiniz.

İnternetdə: www.books.google.com

**12 Sentyabr – Respublika Uşaq Kitabxanasına ədəbiyyatşünas, pedaqoq Firidun bəy Köçərlinin adının verildiyi gün, (1967)**



F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kütləvi kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır. F.Köçərlinin 1912-ci ildə çap etdirdiyi “Balalara hədiyyə” kitabına onun balalarımıza miras qoyduğu folklor nümunələri – xalqın sahib olduğu qədim tarixi-mədəni irs bu gün də qorunub saxlanılaraq yenidən öz orijinallığında olduğu kimi təkrar nəşr edilərək, oxucuların istifadəsinə verilmişdir. Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhmədağa oğlu Köçərlinin 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 14 fevral 2013-cü ildə Sərəncam vermişdir. F.Köçərlinin “Balalara hədiyyə” kitabı Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının sifarişi ilə nəfis tərtibatla “Şərq-Qərb” nəşriyyatında təkrar nəşr olunaraq, oxucuların istifadəsinə verildi. Kitabdakı illüstrasiyalar Azərbaycan Xalq rəssamı Arif Hüseynova məxsusdur.

Görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi formalaşmışdır. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratmışdır. Kitabxana 1999-cu ildən Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin 2012-ci ildən isə mötəbər bir təşkilatın – Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası 2013-cü ildən “Uşaq ədəbiyyatı xəzinəsindən” seriyası ilə “Firidun bəy Köçərli. Biblioqrafiya”, “İlyas Tapdıq”, “Abdulla Şaiq” kimi biblioqrafik göstəriciləri hazırlamış və nəşr etdirmişdir.

İnternetdə: [www.clb.az](http://www.clb.az)

**15 Sentyabr – Bilik Günü, (2004)**

***Təhsil xəzinədir, əmək onun açarı.***




Seyid Əzim Şirvani

Sentyabrın 15-i Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı, Bilik Günüdür. Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ötən əsrin 70-ci illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb. O vaxtdan başlayan qlobal miqyaslı təhsil quruculuğu sonrakı inkişaf üçün güclü təməl olub. 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatıb. Heydər Əliyevin imzaladığı "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməyə keçmək haqqında" qərarı da onun xalqına böyük töhfəsi idi. Ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb isə ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayıb. Ümummilli liderin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə elmin, təhsilin inkişafında böyük işlər görülüb. 1993-2003-cü illərdə 6 yeni akademiya təsis edilib, özəl ali məktəblər yaradılıb. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir: ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə Dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. 2003-cü ildən indiyədək ölkəmizdə iki mindən çox yeni məktəb binası tikilib. Prezident İlham Əliyevin sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir. Gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Təhsilin inkişafında Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən 400-ə yaxın məktəb tikilib və yenidən qurulub, həmçinin 40-a yaxın uşaq evi və internat məktəbi əsaslı təmir və bərpa olunub, lazımi avadanlıqla təchiz edilib. Fondun dəstəyi ilə əyani tədris vəsaitləri çap edilib. Beləliklə, sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Ümumilikdə isə, hər yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə həm də uğurların başlanğıcı deməkdir. İnternetdə: www.books.google.com

**15 Sentyabr – Beynəlxalq Nöqtə Günü, (2009)**




Bu bayramı, əsasən, Uşaq Yaradıcılıq Mərkəzlərində, uşaq kitabxanalarında keçirirlər. Beynəlxalq Nöqtə Gününün tarixi ingilis rəssamı Piter Q.Reynoldsun 2003-cü ildə yazdığı “Nöqtə” kitabı ilə bağlıdır. Bu kitabda şəkil çəkməyi bacarmayan balaca qız haqqında danışılır. Daha doğrusu, qıza elə gəlir ki, o, şəkil çəkə bilmir. Rəsm dərsində Vaşti sadəcə kağızı nöqtələyirdi. Lakin müəllimə ondan şəkilin altında imzasını qoymağı xahiş edir və nöqtəni gözəl çərçivəyə salıb divardan asır. “Mən daha yaxşı çəkə bilərəm”, – deyə Vaşti qərara gəlir və məlum olur ki, bu, həqiqətən belədir. Bu kitab çoxlu mükafatlar alır, Çikaqo kitabxanasının versiyası üzrə “İlin kitabı” seçilir və bir çox dillərə tərcümə olunur. 2009-cu ildə müəllim Terri Şey ilk dəfə Nöqtə Gününü qeyd edir. O gündən bəri Beynəlxalq Nöqtə Günü hər il qeyd olunur. Nöqtə günündə iştirak etmək üçün təsviri sənət studiyasında olmaq məcburi deyil. Kitabı satın almaq olar. Layihənin saytında qeydiyyatdan keçdikdən sonra isə metodiki vəsaiti və hətta proyektor üçün “Nöqtə”ləri yükləmək olar.

Öz nöqtənizdən başlayın! Ən yaradıcı fikirlərinizi və layihələrinizi həyata keçirin!

İnternetdə: www.books.google.com

**16 Sentyabr – Beynəlxalq Ozon Qatının Qorunması Günü, (1994)**




1994-cü ildə BMT-nin Baş Assambleyası özünün qətnaməsi ilə (A/RES/49/114) sentyabrın 16-nı Beynəlxalq Ozon Qatının Qorunması Günü (International Day for the Preservation of the Ozone Layer) elan etmişdir. Ozon Qatının Qorunması Günü ozon qatını dağıdan maddələr üzrə Monreal protokolunun imzalandığı günlə bağlıdır və 1995-ci ildən qeyd olunur.

1987-ci il sentyabrın 16-da 36 ölkənin imzaladığı və bu sənədə görə iştirakçı ölkələr ozon qatını dağıdan maddələrin istehsalını məhdudlaşdırmalı və tam dayandırmalıdırlar. Həmin gün Monreal protokolu və ona əlavələrdə qeyd olunan vəzifələr və məqsədlərə uyğun təbliğatın aparılması dövlətlərə tövsiyə olunur.

Ozon qatı nazik qaz qalxanı şəklində Yeri Günəş radiasiyasının dağıdıcı təsirindən qoruyur. O, yer üzərində nəhəng örtük kimi sərilmişdir. Əgər bu qat çox zəifləyərsə, bu bütün biosfer və canlı aləm üçün fəlakət olar. Ultrabənövşəyi şüaların insan üzərinə düşməsi nəticəsində dəri xərçəngi, görmənin itirilməsi və başqa xəstəliklər yarana bilər. XX əsrin 80-ci illərində alimlər Antarktidada ozonun ümumi tərkibinin iki dəfə azaldığını aşkara çıxardılar. Məhz o vaxtdan “ozon dəlikləri” ifadəsi yarandı. Ozon qatının nazikləşməsinə sənaye müəssisələrinin, zavodların məhsulu olan xlor oksidi təsir göstərir. Biz ozon dəliklərinin yaranmasının qarşısını almaq iqtidarında deyilik. Lakin məişət səviyyəsində əlimizdən gələni edə bilərik.

**İnternetdə: www.books.google.com**

**18 Sentyabr – Milli Musiqi Günü, (1995)**

***"Azərbaycan musiqi sənətinin parlaq inkişaf perspektivləri vardır. Lakin cəsarətli olmaq, yaxşı oxumaq və məhsuldar işləmək lazımdır. Xalqın mənəviyyatını duymaq, onun ümid və arzularının ifadəçisi olmaq, nikbinliyini, əhvali-ruhiyyəsini musiqi vasitəsilə əks etdirmək lazımdır".***



Ümummilli lider Heydər Əliyev

Sentyabrın 18-i Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəyovun doğum günüdür. Üzeyir bəyin doğum gününün musiqi tariximizin ən əlamətdar hadisəsi kimi anılması tez bir zamanda ənənə halını almışdır. 1995-ci ildə isə Prezident Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd edilməsi qərara alınmışdır. Həmin gün təkcə musiqisevərlərin deyil, həm də xalqımızın bayramıdır. Çünki elə bir azərbaycanlı tapmaq olmaz ki, onun qəlbində Üzeyir bəyə məhəbbət, onun ölməz sənətinə hörmət hissi olmasın. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur.

Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda H. Z. Tağıyevin teatrında hazırlanan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Ü. Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun" , "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. Ü.Hacıbəyov milli musiqi xəzinəsinə yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan "Koroğlu" operasını, həm də yeni Azərbaycan Respublikasının Dövlət Himnlərinin musiqisinin müəllifidir. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü. Hacıbəyovun anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur. Milli musiqimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.

İnternetdə: www.books.google.com

**19 Sentyabr – Beynəlxalq Piratlar Günü, (1995)**






19 sentyabr qeyri-rəsmi olaraq Beynəlxalq Piratlar Günü və ya Piratları Təqlid Günü (International Talk Like A Pirate Day) kimi qeyd olunur. Bu gün "Piratlar kimi danış" da adlandırılır. Çox şən keçən bu bayram dünyanın 40-dan çox ölkəsində qeyd olunur. Həmin gün insanlar piratların danışıqlarını təqlid edir, onların məşhur sözlərini işlədir, bəzən hətta onlar kimi geyinirlər. Bayramın vətəni Amerikanın Oreqon ştatının Olbani şəhəridir. Belə ki, 1995-ci il iyunun 6-da Con Baur və Mark Sammers adlı iki dost zarafat üçün piratların işlətdikləri ifadələrdən istifadə edərək söhbət ediblər. Bu bayramın konsepsiyası da belə yaranıb. 2002-ci ilə qədər bu bayram haqqında məlumat geniş yayılmamışdı. Lakin Deyv Berri adlı jurnalistin məqaləsindən sonra bu haqda məlumat yayılır və bayramın çoxlu pərəstişkarları yaranır. Bu qeyri-adi günü qeyd etmək ənənəsi tədricən Avstraliya, Kanada və İngiltərəyə, daha sonra başqa ölkələrə də yayılıb.

İnternetdə: www.books.google.com

**20 Sentyabr – Neftçilər Günü, (1994)**




Azərbaycan Prezidentinin 16 avqust 2001-ci il tarixli fərmanı ilə 20 sentyabr hər il ölkəmizdə Neftçilərin peşə bayramı günü kimi qeyd edilir.

Qeyd olunan tarix Azərbaycanda 1999-cu və 2004-cü ildə, yəni "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci və onuncu ildönümü rəsmi səviyyədə bayram kimi qeyd edilib. Neftçilər Günündə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

20 sentyabr 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakıda, "Respublika" sarayında "Əsrin müqaviləsi"nin imzalanmasının birinci ildönümü münasibətilə neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilib. Hər il 20 sentyabrda Azərbaycan Prezidentinin neft-qaz sənayesi kollektivləri ilə görüşləri mütəmadi xarakter alır.

İnternetdə: www.books.google.com

**20 Sentyabr – Ümumdünya Düyü Günü, (2004)**



20 Sentyabr – Ümumdünya Düyü Günü BMT-nın Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı FAO-nun təşəbbüsü ilə yaranmışdır. Əslində bu əlamətdar gün 1950-ci ildə düşünülsə də, bayram 2004-cü ildə BMT-nın Baş Assambleyası tərəfindən təsis olunmuşdur. Düyü bir çox ölkələrdə populyar olsa da, Şərqi və Cənub-Şərqi Asiya ölkələridə əsas qida hesab olunur və əkilib becərilir.

Arxeoloji qazıntıların nəticələrinə görə, düyü 7000 il əvvəl Çində məlum idi. O daha sonra Hindistana, Koreyaya, Yaponiyaya və s. ölkələrə yayılmışdır. Düyü Orta Asiyada e.ə. təxminən 500-cü ildə məlum olmuş, oradan isə Cənubi Qafqaza gəlib çıxmışdır. Bu gün düyü dadmayan insan təsəvvür etmək çətindir. Deməк olar ki, bütün xalqlar düyüdən yeməklər hazırlayırar. Yalnız Uzaq Şimalda yaşayan xalqlar istisna təşkil edirlər.

İnternetdə: www.books.google.com

## 20-21 Sentyabr – Beynəlxalq Yarasalar Gecəsi



Yarasa obrazı insanların çoxunda hələ də qorxu yaradır. Bu kiçik gecə heyvanlarının vampir olması haqqında əfsanələr, filmlər insanların onları müxtəlif yollarla məhv etməsinə, nəticədə yarasaların saylarının azalmasına gətirib çıxarmışdır. Bu da, öz növbəsində, təbiətdə tarazlığın pozulmasına səbəb olur. İnsanlara zərər vuran gecə həşəratlarını məhv edən və bir çox bitkilərin tozlanmasında iştirak edən yarasalara xüsusi bir gecə həsr olunmuşdur.

Dünyada hər il sentyabrın 20-dən 21-ə keçən gecə Beynəlxalq Yarasa Gecəsi qeyd olunur. Bu tarix təsadüfən seçilməmişdir. Məhz həmin vaxt uçan siçanların qış məskənlərinə miqrasiyası başlayır. Bayramın məqsədi onların insanlara zərərliliyi haqqında mifləri dağıtmaq, qorunmağa ehtiyaclarının olduğuna diqqəti cəlb etməkdir.

İnternetdə: calend.ru/holidays

## 21 Sentyabr – Beynəlxalq Sülh Günü, (1981)



***"Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur yer üzünü".***
Hüseyn Cavid

BMT bu günü 1981-ci ildə təsis edib. İlk Sülh Günü də 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-2002-ci ildə BMT Sülh Günü üçün 21 sentyabr gününü müəyyənləşdirib və bu tarixi Ümumdünya Atəşkəs Günü elan edib. Sülh bizim missiyamızdır, gündəlik axtarışlarımızın mövzusudur. Sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, ən sülhsevər xalqlardan biri olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz vətənlərində didərginə dönüblər, uzun illər ərzində qurduqları ev-eşiklərindən, topladıqları sərvətlərindən məhrum olublar. Bu illərdə Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdandan sonra hər şeydən əvvəl, böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını alıb, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzaladıb, müharibəni dayandırmaqla, ölkədə sabitliyə nail olub. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi. Ermənistan isə hələ də BMT Təhlükəsizlik Şurasının münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrin heç birinə əməl etmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır. Bu gün qüdrətli və güclü orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev də xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusu tarix boyu bəşəriyyəti düşündürüb.

İnternetdə: www.books.google.com

**22 Sentyabr – Filləri Ümumdünya Müdafiə Günü**



22 sentyabr bir çox ölkələrdə ekoloji bayramlardan biri olan Filləri Ümumdünya Müdafiə Günü (World Day of Elephants) kimi qeyd olunur. Bu bayram, planetimizdəki quruda yaşayan məməlilərin ən böyüyü olan fillərin sayının azalmasından narahat olan təbiəti mühafizə təşkilatları, ekoloqların təşəbbüsü ilə yaranmışdır. Fillər qədim xortumluların yeganə nümayəndəsi kimi günümüzədək gəlib çıxmışlar. Hal-hazırda onlar təbiətdə Cənub-Şərqi Asiyanın və Afrikanın tropik meşələrində və savannalarında yaşayırlar.

Qədim zamanlardan fillərə dünyanın bir çox xalqları tərəfindən sitayiş olunub, onlar hakimiyyət və hökmdarların əzəmətinin, xeyirxahlıq və sakitliyin, müdrikliyin simvolu olmuşlar. Hindistan, Tailand və s. kimi Asiya ölkələrində fillər bayramlarda mütləq yer alırlar. Lakin fillərin ən böyük düşmənləri də məhz insanlardır. Bu heyvanların sayının azalmasının əsas səbəbi dişlərinə və ətinə görə ovlanması, onların yaşayış sahələrinin daralması, meşələrin qırılması və ümumiyyətlə ekologiyanın pisləşməsidir. Bu gün Afrika filləri yoxolma təhlükəsi qarşısındadır. Hal-hazırda fillərin iki növü – Hind və Afrika filləri mühafizə olunur. Hind fillərinin hündürlüyü 2,5 metr, çəkiləri 3-5 ton, Afrika fillərinin hündürlüyü 4 metrədək, çəkiləri isə 5-7 tondur. 1989-cu ildə BMT öz qərarı ilə fil dişinin ticarətini tam qadağan etmişdir. Bu günün qeyd olunmasının da məqsədi məhz fillərin qorunmasına diqqəti cəlb etməkdir. Bayram rəsmi statusa malik olmasa da, ekoloji, təbiəti mühafizə təşkilatları, könüllülər tərfindən geniş qeyd olunur, maarifləndirici tədbirlər həyata keçirilir.

Fillər bədii əsərlərin də qəhrəmanı olurlar. Qriqori Osterin kitabındakı fil balası, Mauqli haqqında kitablardakı müdrik Xatxa və dünyada çox məşhur olan, ingilis yazıçısı və rəssamı Devid Makkinin yaratdığı Elmer adlı rəngbərəng, dama-dama fil buna misal ola bilər.

İnternetdə: www.books.google.com

**23 Sentyabr – Saqqız Günü, (1848)**



1848-ci il sentyabrın 23-ü saqqızın yaranma günü hesab olunur. Belə ki, məhz həmin gün amerikalı Con Kurtis öz evində ilk saqqızı istehsal etmişdir. Saqqız yeməli olmayan elastik əsasdan, müxtəlif dad və aromatverici əlavələrdən ibarət konfet növüdür.

İlk saqqızın tarixi e.ə VII-II əsrlər hesab olunur. O, Şimali Avropada qazıntılar zamanı tapılmışdır və üzərində insan dişinin izləri olan qatrandan ibarətdir. Qədim yunanlar saqqız ağacının qatranını çeynəyirdilər. Mayya hinduları isə dişlərini və nəfəslərini təmizləmək üçün sapodilla ağacının donmuş şirəsindən istifadə edirdilər.

1848-ci ildə Con Kurtis şam ağacının qatranından sənaye üsulu ilə saqqız istehsal etmək fikrinə düşür. Sonradan o, öz məmulatına parafin aromatizatorları əlavə edir. Onların istehsalı getdikcə genişlənir, lakin qatranı qatışıqlardan təmizləmək çətin olduğu üçün saqqız satışı aşağı idi.

1869-cu ildə saqqızın yeni həyatı başlayır. Artıq onu qatran deyil, kauçuk əsasda hazırlayırlar. Bu cür saqqızı Tomas Adams icad etmişdir. Yeni saqqız insanların xoşuna gəlir və artıq 1871-ci ildə Adams onun avtomatik istehsalı üçün maşın da icad edir və patentləşdirir. Daha sonra o, saqqızın dadını yaxşılaşdırmaq üçün ona biyan ekstraktı da əlavə edir.

Bu gün saqqızdan əsasən nəfəsi təravətləndirmək, yeməkdən sonra dişlərin təmizliyi üçün geniş istifadə olunur. Lakin saqqızın insan orqanizminə hər hansı faydası haqqında ümumi bir fikir yoxdur.

İnternetdə: www.books.google.com

**24 Sentyabr – Beynəlxalq Lal-Kar Günü, (1951)**



Bu gün 1951-ci ildə Beynəlxalq Lal-karlar Federasiyasının yaranması şərəfinə təsis olunub. Statistikaya əsasən, dünyada hər doqquz nəfərdən biri eşitmə qabiliyyətindən məhrumdur. Onlar bu qabiliyyəti travma, xəstəlik və ya anadangəlmə itirirlər. Yer kürəsində 2500 dil var. Lakin bir dil – jestlər dili də mövcuddur. Karlar Federasiyası ötən əsrin əllinci illərində karların beynəlxalq tədbirlərinə xidmət etmək üçün jestlər sistemini də yaradıb. Qeyd edək ki, eşitmə və görmə qabiliyyətini itirmiş insanların içərisində də çox tanınmış, görkəmli şəxslər olub.

İnternetdə: www.books.google.com

**27 Sentyabr - İkinci Qarabağ müharibəsi (Vətən müharibəsi)**




İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi -Atəşkəsdən sonra müşahidə olunan ən gərgin və uzunmüddətli döyüşdür. Beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin Ermənistan hökümətinin idarəetməsi altında yaradılan Qondarma Dağlıq Qarabağ Respublikası ilə bağlı həll olunmamış münaqişənin son gərginləşməsidir. 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir.

Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir. Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və Şimali Kipr Türk Respublikası isə Azərbaycana dəstək olduqlarını bildirmişdir.

29 sentyabr tarixində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar təcili iclas keçirmişdir. Rusiyanın vasitəçiliyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənən və həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan Silahlı Qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları nəticəsində atəşkəs yenidən pozulmuş, yaralıların və məhbusların mübadiləsi dayandırılmışdır. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir. 27 sentyabr 2020-ci il. Bu tarix xalqımızın yaddaşından, hərb tariximizdən silinməyəcək. Məhz həmin gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələnin başlanğıcı oldu. Öz murdar və çirkin əməllərindən əl çəkməyən, hər fürsətdə təxribatçı və fitnəkar hərəkətlərə əl atan, işğalçılıq və təcavüzkarlıq siyasətini davam etdirən, terrorçuluğu dövlət siyasətinə çevirən insanlıq düşməni nasist və faşist Ermənistan, quldur erməni silahlı birləşmələri növbəti dəfə atəşkəs rejimini pozdu, qanlı əməllərini, sülhə, təhlükəsizliyə təhdid olan niyyətlərini yenidən gerçəkləşdirməyə cəhd etdi. Dərhal Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun daha kəskin, daha sərt cavabı ilə

qarşılaşdı. Beləliklə, Qarabağ münaqişəsinin həllində hərb variantına keçildi, illərdir Qarabağa, işğal olunmuş torpaqlara qayıtmaq eşqi, həvəsi ilə alışıb-yanan Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu Vətən müharibəsinə başladı. Bəli, məhz Vətən müharibəsinə. Adına əks-həmlə, əks-hücum əməliyyatı desək də, bu, artıq Vətən müharibəsidir! 1994-ci il may ayının atəşkəsindən sonra başlayan, bizi zəfərlərə, qələbələrə səsləyən və aparan ikinci Vətən müharibəsi.

Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub.Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.Məlumatda deyilir: "Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirmiş, illər ərzində Ermənistanın işğal altındakı torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam və bunker sistemlərini darmadağın etmiş, torpaqlarımızı işğaldan azad etmişdir. Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olması, Ermənistanın çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq Ermənistanı məğlub etməyə müvəffəq olmuşdur. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biridir. 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olunmuşdur. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti və digər taktiki və strateji üstünlükləri şəxsi heyətin sıralarında itkilərimizi əsaslı dərəcədə azaltmışdır. Amma müharibə itkisiz olmur. Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olmuşdur. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir. Həlak olan hərbi qulluqçuların adları, təvəllüdü, rütbəsi və keçdiyi döyüş yolu barədə təfərrüatlı məlumatlar əlavə olaraq ölkə ictimaiyyətinə təqdim olunacaqdır. Aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət komissiya bu istiqamətdə fəaliyyət göstərir. Allah bütün şəhidlərimizə rəhmət eləsin!Şəhidlərimizin ruhu qarşısında baş əyirik!"

İnternetdə:https://az.wikipedia.org/wiki/kinci_Qarabağ_müharibəsi;https://azertag.az/xeber/27_sentyabr_2020

**27 Sentyabr —Murov zirvəsinin azad olunduğu gün, (2020)**



Silsilənin şimal-şərqində əsrarəngiz göllər yerləşir. Onlar arasında ən gözəli Göygöl gölüdür. Qarabağ müharibəsinin gedişində silsilə Ermənistan və Azərbaycan arasında cəbhə rolunu oynamış və bu gün də oynayır.Silsilənin maksimal hündürlüyü 3724 m olan Gamışdağ zirvəsidir. 27 sentyabr 2020-ci ildə Cəbhənin Goranboy istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatı nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi işğaldan azad edilmişdir. Müdafiə Nazirliyindən verilən məlumata görə, əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Murovdağ

## 27 Sentyabr – Beynəlxalq Dovşanlar Günü



Beynəlxalq Dovşanlar Günü xeyriyyə təşkilatları tərəfindən ictimaiyyətin diqqətini bu heyvanların problemlərinə cəlb etmək məqsədi ilə yaradılmışdır. Heyvanları müdafiə edənlər, dovşan xəzindən kürklərin hazırlanması və dovşan ətindən restoranlarda istifadə olunmasının ən azı azaldılmasına səy göstərirlər. Beynəlxalq Dovşanlar Günündə həm evdə, həm də təbiətdə yaşayan dovşanlara qarşı daha humanist davranılmasına, onların rahat və sağlam yaşamasına yardım edilməsinə çağırılır. Həmin günün sentyabrın sonuncu şənbəsi keçirilməsi tövsiyə olunur.

İnternetdə: www.books.google.com

**27 Sentyabr – Ümumdünya Turizm Günü, (1980)**

***“Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur. Çünki Azərbaycan xalqı yüksək mədəniyyətə malikdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək”.***

Ümummilli lider Heydər Əliyev




Beynəlxalq turizm hər bir ölkə üçün sosial-iqtisadi münasibətləri əks etdirir. Bununla da beynəlxalq münasibətlərin tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu prosesin tənzimlənməsi üçün də müəyyən norma və standart nizamlar işləyib hazırlayan beynəlxalq institutlar fəaliyyət göstərir. Bunlardan Ümumdünya Turizm Təşkilatı ən üzdə olan təşkilatlardan biridir. 1979-cu ildə Baş Qərargahı Madrid şəhərində yerləşən Təşkilat 27 sentyabr – Ümumdünya Turizm Gününü təsis edib. Qeyd edək ki, dünyada ilk turizm agentliyi 1841-ci ildə Tomas Kuk tərəfindən açılmışdır. Ümumdünya Turizm Günü 1980-ci ildən bəri BMT-nin Beynəlxalq Turizm Təşkilatı (BMBTT) tərəfindən hər il 27 sentyabr tarixində qeyd olunur. Bu günün məqsədi beynəlxalq aləmdə turizm haqqında məlumatlanmanı artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Ölkəmizdə Ümumdünya Turizm Günü 2001-ci ildən, Azərbaycanın Beynəlxalq Turizm Təşkilatına üzv olduğu vaxtdan qeyd olunur. Dünya ölkələrində qeyd olunduğu kimi, hər il Azərbaycanda da 27 sentyabr - Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün Ümumrespublika Daxili Turizm Konfransları da keçirilir. Azərbaycanda ilk dəfə olaraq 2003-cü ildə 26 sentyabr tarixində 1-ci Turizm Filmləri Festivalı keçirilmişdir. 2005-ci ildən başlayaraq məşhur xarici televiziya kanallarında respublikanın turizm potensialını əks etdirən reklam çarxları yayımlanır. 2002-ci ildən başlayaraq Bakıda hər il Beynəlxalq Turizm və Ümumrespublika Daxili Turizm Sərgiləri keçirilir. Son illər ölkəmizdə turizm sektoru sürətlə inkişaf edir. Qeyd edək ki, Azərbaycanın zəngin təbiətə malik olması ölkəmizdə bu sahənin inkişafı üçün əlverişli imkanlar yaradıb.

İnternetdə: www.books.google.com

**29 Sentyabr – Ümumdünya Dəniz Günü, (1978)**



***Mən çoxdan vurğunam sənə***
***Böyük arzum budur yenə:***
***dönüb bir göy göyərçinə***
***sahilinə qonam, dəniz.***

**Rəsul Rza**

Hökumətlərarası Dəniz Təşkilatı Assambleyasının 1977-ci ilin noyabrında keçirilmiş 10-cu sessiyasında qərara alınmış Ümumdünya Dəniz Günü 1978-ci ildən qeyd olunur. 1980-ci ilə kimi bu gün 17 martda qeyd olunurdu. Hazırki dövrdə isə bu gün sentyabrın axırıncı həftəsi qeyd olunur. Bütün dünyada bu bayramın keçirilməsinin məqsədi ictimaiyyətin, hökumət və özəl strukturların diqqətini dənizlərin və onların bioresurslarının qorunmasına cəlb etməkdir. Ənənəvi olaraq Dəniz Günü dənizlərin və okeanların insanlar üçün əhəmiyyətindən, sualtı dünyanın sərvətlərindən, həmçinin hər bir Yer planeti sakininin onun qorunması üçün nə edə biləcəyindən bəhs edən müsabiqə, festival formasında keçirilir. Adətən ictimai təşkilatlar bu bayramı dənizlərin qorunması, çimərliklərin təmizlənməsi üçün mitinqlərin və yürüşlərin keçirilməsi ilə qeyd edirlər.

Ümumdünya Dəniz Gününün tarixi hər dövlət üçün həmin ölkənin Beynəlxalq Dəniz Təşkilatının üzvləri tərəfindən təyin olunur. Azərbaycanda bu tarix 29 sentyabra təsadüf edir.

İnternetdə: www.books.google.com

**29 Sentyabr – Dünya Ürək Günü, (2000)**



Dünya Ürək Federasiyası dünyanın 100-dən çox ölkəsində ürək cəmiyyətləri və ürək fondlarının birgə səyi sayəsində 200 üzv təşkilatın birləşmiş icması vasitəsi ilə bütün dünyada ürək xəstəliklərinə qarşı mübarizə aparır. Dünya Ürək Federasiyasının təşəbbüsü və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və BMT-nin Uşaq Fondunun (UNİCEF) dəstəyi ilə hər il 29 sentyabr "Dünya Ürək Günü" kimi qeyd olunur. Bu gün ilk dəfə 2000-ci ildə keçirilib. 2011-ci ilə kimi "Dünya Ürək Günü" sentyabrın sonuncu bazar günü qeyd edilsə də, sonradan bu günün hər il sentyabrın 29-da keçirilməsi qərarına gəlinib. "Dünya Ürək Günü"nün keçirilməsində məqsəd əhalini ürək-damar xəstəliklərinin təhlükəliliyi barədə məlumatlandırmaq, bu xəstəliklərin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin uğurla aparılmasına nail olmaqdır. Dünya Ürək Federasiyası "Dünya Ürək Günü"nü hər il fərqli şüarla qeyd edir. "Həyat üçün ürək" "Dünya Ürək Günü"nün bu ilki şüarıdır. Hər il milyonlarla insan ürək-damar xəstəliklərindən dünyasını dəyişir. Vaxtından tez baş verən ölüm hallarının qarşısı tütün və spirtli içkilərdən imtina etmək, arterial təzyiqin və qanda şəkərin miqdarını normal saxlamaq, ürək-damar sisteminin fəaliyyətini möhkəmləndirən, arterial təzyiqi normallaşdıran və s. qoruyucu dərman preparatlarından istifadə etmək, düzgün qidalanmaq, çəkiyə diqqət etmək və fiziki aktiv olmaqla alına bilər. Belə vəziyyətdə Dünya Ürək Federasiyası dövlət qurumlarını, peşəkar tibb işçilərini, sahibkarları və digər fərdi şəxsləri bu yükün azaldılmasına çağırır. "Dünya Ürək Günü"nü keçirməklə, Dünya Ürək Federasiyası və digər ölkələrin partnyor təşkilatları insanlara ürək-damar xəstəliklərinin profilaktikası ilə məşğul olmağın nə qədər vacib olduğu fikrini aşılayır. Dünya Ürək Federasiyası üzv və partnyor təşkilatlarla birgə bu gün üçün xüsusi tədbirlər planı hazırlayır və bu plana uyğun olaraq, insanları ürək xəstəliklərindən qorunmaq üçün diqqətli olmağa çağırır. Sağlam həyat tərzinin təbliği ilə məşğul olan təşkilatlar tərəfindən "Dünya Ürək Günü"ndə müxtəlif idman yarışları, konsertlər və xeyriyyə tədbirləri həyata keçirilir, əhalinin kütləvi sağlamlıq müayinəsi aparılır, elmi forumlar, sərgilər, festivallar təşkil edilir, filmlər göstərilir, maarifləndirici bukletlər paylanılır. "Dünya Ürək Günü" ölkəmizdə də geniş şəkildə qeyd olunur. Dünya Ürək Günü ilə bağlı Bakıda və ölkənin ayrı-ayrı regionlarında bu qəbildən silsilə tədbirlər, beynəlxalq konfranslar və aksiyalar keçirilir.

İnternetdə: www.books.google.com

**30 Sentyabr – Beynəlxalq Tərcüməçilər Günü, (1991)**



Hər il sentyabrın 30-da şifahi və yazılı tərcümə ilə məşğul olanların peşə bayramı – Beynəlxalq Tərcüməçilər Günü (International Translation Day) qeyd olunur. Böyük rus şairi A.S.Puşkin tərcüməçiləri "tərəqqinin poçt atları" adlandırırdı. Babil qülləsinin dağılmasından bəri bütün bəşəriyyətin həyatında tərcüməçilərin rolu hiss olunmasa belə, çox böyük və əhəmiyyətlidir. Axı tərcüməçilər olmasaydı, ədəbiyyatın və kino sənətinin bütün əsərləri, elm və texnikanın nailiyyətləri əlçatmaz olardı, dünyanın müxtəlif ölkələrindən olan insanlar öz aralarında ünsiyyət qura bilməzdilər.

1991-ci ildə tərcüməçilərin də peşə bayramı yaranmışdır. Beynəlxalq Tərcüməçilər Federasiyası (FİT) 30 sentyabrı Beynəlxalq Tərcüməçilər Günü elan etmişdir. FİT 1953-cü ildə Parisdə yaradılmışdır və dünyanın 60-dan çox ölkəsindən 100-dən artıq tərcüməçilər assosiasiyasını birləşdirir. Təşkilatın yaradılmasında məqsəd tərcüməçilər arasında təcrübələrin bölüşülməsi və əlaqələrin möhkəmləndirilməsidir. Bayramın tarixi təsadüfən seçilməmişdir. 420-ci il sentyabrın 30-da Bibliyanı latın dilinə tərcümə edən tərcüməçi, tarixçi, yazıçı Müqəddəs İeronim Stridonski vəfat etmişdir.

Beynəlxalq Tərcüməçilər Günü münasibətilə hər il keçirilən konqreslər, konfranslar, seminarlar, "dəyirmi masa"lar və s. müəyyən bir mövzuya həsr olunur.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər
## 1 Sentyabr - Şair Tofiq Abdinin (Məhərrəmoğlunun) 80 illiyi, (1941-2014)



**Tofiq Məhərrəmoğlu (Tofiq Abdin) — azərbaycanlı publisist, yazıçı. Azərbaycan Respublikası Əməkdar Mədəniyyət İşçisi**.

Tofiq Məhərrəmoğlu 1941-ci ildə Salyan rayonunun Qırmızıkənd kəndində anadan olub. 1968-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini bitirib. Həmin ildən "Qobustan" toplusunda şöbə müdiri işləyib. 1993-2001-ci illərdə Türkiyədə yaşayıb, Türkiyənin "Orta doğu" və "Yeni Asiya" qəzetləri ilə əməkdaşlıq edib. 12 publisistik və şeir kitabının müəllifidir. Uzun müddət "Ədalət" qəzetində türk ədəbiyyatının təbliğiylə məşğul olub. Hüseyn Cavid adına Naxçıvan poeziya teatrında Rəsul Rzanın "Bir gün də insan ömrüdür" poeması əsasında tamaşası göstərilib. Uzun illər dövrü mətbuatda müntəzəm çıxış edib. 2002-ci ildə xalq şairi Rəsul Rza adına Beynəlxalq Ədəbiyyat mükafatını alıb. 2010-cu ildə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Tofiq Abdin 24 fevral 2014-cü ildə ürək tutmasından vəfat edib.

**Əsərləri:** "Etüd" (sənədli hekayələr) (1969), "Nəğməli gecələr" (1972), "Ata sevgisi" (1978), "Bəlkə bir də görüşdük" (1984), "Sahilsiz dünya" (1986), "Bəşir Səfəroğlu" (1986) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 875.

**6 Sentyabr - Şairə Fatma xanım Kəminənin 180 illiyi, (1841-1898)**

***Fatma xanım Kəminə həqiqətdə çox gözəl, zərif bir xanım idi və zahiri gözəlliyinə müvafiq batini və mənəvi tərəfdən dəxi-əxlaqi-həsənə sahibəsi olub, ziyadə xoşxülq, mülayim və xoşrəftar bir nadireyi-zəmanə idi".***

F. Köçərli



XIX əsr qadın aşıqlarındandır. 1841-cı ildə Şuşada dünyaya gəlib. Fatma xanım kiçik yaşlarından etibarən şeirə maraq göstərmişdir. Şairənin atası Mirzə Bəybaba Fəna da şair olub və "Fəna" təxəllüsü ilə şeir yazıb. Fatma xanım fars dilini də mükəmməl bilib və bu dildə də şeirlər yazıb. Təhsilini Şuşada alıb, savadına görə ona "Mirzə Fatma xanım" deyirdilər. XIX əsr təzkirələri arasında da şairənin şeirlərinə rast gəlinir. O dövrdə Fatma xanım Azərbaycanın ən məşhur 3-5 şairəsindən biri olub. Şairə onunla bir dövrdə yaşayan bir çox aşığın şeirlərinə nəzirələr yazmışdır. Amma dövrümüzə onun əsasən klassik şəkildə yazılmış şeirləri gəlib çatmışdır. Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Kəminə xanım haqqında məlumat verərkən, bildirmişdir ki, o, dörd yüzə yaxın şeir yazmış, Şuşada Mir Mövsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan"da yaxından iştirak etmişdir. Firudin bəy Köçərli Fatma xanım Kəminəni "nadireyi zəmanə" saymış, onun ölümünü ağır itki kimi dəyərləndirmişdir. Kəminə xanımın həyat və yaradıcılığı haqqında XIX əsr təzkirələrinə az da olsa məlumat vardır. Kəminə şairə Natəvanın başçılıq etdiyi "Məclisi-üns"ədəbi məclisin üzvləri ilə yaxın olmuş, onlarla deyişmişdir. Onun qəzəllərinin məzmun və formasının müəyyənləşməsində fəal iştirakçısı olduğu "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinin, bu məclislərdə toplaşan Natəvan, Mir Möhsün Nəvvab, Mirzə Rəim Fəna və başqa Qarabağ şairlərinin mühüm rolu olmuşdur. Fatma xanım öz qəzəllərində sənət dostlarını həmişə minnətdarlıq hissi ilə yad edir, onlarla keçirdiyi dəqiqələri ömrünün ən məsud anları sayırdı. Kəminənin poetik yaradıcılığı əsasən qəzəllərdən ibarətdir. Azərbaycan və fars dillərində qələmə aldığı bu əsərlərdə şairə klassik Şərq poeziyasının ənənəvi mövzularından kənara çıxmasa da, burada özünəməxsus qəlb dünyasını yarada bilmişdir. Kəminə sənətinin gözəlliyi, zərifliyi ondan ibarətdir ki, o, klassik ədəbi irsə həmişə sadiq qalmış, əsərlərinin mayasını məhz klassika ilə yoğurmuşdur. O, əsərlərində bədii təsvir vasitələrindən məharətlə istifadə etməklə yanaşı, şifahi xalq ədəbiyyatından, folklor, əsatir, atalar məsəllərindən bəhrələnib, yeri gəldikdə onlardan istifadə etmişdir. Təzkirəçilərin verdiyi məlumata görə, Fatma xanımın divanı da olmuşdur. M.Müctəhidzadə "Riyazül-aşiqin" əsərində Fatma xanım Kəminəyə yüksək qiymət verərək, onu Məhsəti, Nigar xanım, Nurcahan bəyim kimi şairələrlə bərabər tutmuşdur. Bununla yanaşı, onun divanı olduğunu və bu divanı şəxsən özü gördüyünü də qeyd etmişdir. Fatma xanım Kəminə 1898-ci ilin sentyabrında Şuşada vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Fatma_xanım_Kəminə

## 12 Sentyabr - Şair Novruz Gəncəlinin anadan olmasının 100 illiyi, (1921- 1995)

***"Həyatın çox ağır və sərt sınaqlarından üzüağ çıxan Novruz Gəncəli poeziyaya bir təbiilik, özünəməxsus deyim tərzi bəxş etdi".***

Qulu Xəlilov



**Sadıqov Novruz İsmayıl oğlu – şair, dramaturq, 1945- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü**

Sadıqov Novruz İsmayıl oğlu 1921- ci il sentyabrın 12-də Bakı şəhərində dəmirçi ailəsində anadan olmuşdur. 8 yaşında ikən atasını itirmiş, böyük qardaşının himayəsində yaşamışdır. H. Z. Tağıyev adına toxuculuq fabriki nəzdindəki 63 saylı orta məktəbdə ibtidai təhsil almışdır. Ailəlikcə Gəncəyə köçmüşlər. 1938- ci ildə böyük qardaşının vaxtsız vəfatı ailənin vəziyyətini ağırlaşdırmışdır. O, həm toxuculuq fabrikində işləməli, həm də təhsilini davam etdirməli olmuşdur. 3 saylı beynəlmiləl şəhər orta məktəbini bitirib, ADU-nun filologiya fakultəsinə daxil olmuşdur (1939). Eyni zamanda kitabxanada Azərbaycan şöbəsinin müdiri (1939-1940), incəsənət muzeyində ekskursiya rəhbəri (1940-1941) işləmişdir. Lerik rayonunun kəndlərində müəllim və məktəb müdiri vəzifələrində işləmişdir (1941-1943). Bakıda Dövlət Təhlükəsizliyi orqanlarında (1943-1946), "Azərbaycan gəncləri" qəzeti redaksiyasında, Azərbaycan Baş Mətbuat İdarəsində (1946-1949), Azərbaycan Yazıçılar İttifaqının "Natəvan" klubunda (1949-1950) çalışmışdır. "Ədəbiyyat qəzeti" redaksiyasında tənqid şöbəsinin müdiri, "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsində təlimatçı (1950-1960), "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini (1960-1976) olmuşdur. Azərbaycan Yazıçılar İttifaqında poeziya üzrə məsləhətçi işləmişdir (1976- cı ildən). C.Bayronun "Kavur", Y. Çarentsin "Hamı üçün" poemalarını, A. Makayonokun "Tribunal", C. Patrikin "Missis Səvinc", B.Brextin "Kuray ana və onun uşaqları" pyeslərini doğma dilə çevirmişdir. ÜİLKGİ- nın XI qurultayının və sülh tərəfdarlarının III Ümumittifaq konfransının nümayəndəsi olmuşdur. SSRİ medalları ilə təltif edilmişdir. 1995- ci il oktyabrın 19-da Bakıda vəfat etmişdir.

***Mən qovdum vətəndən qara kabusu,***
***Candan əziz tutdum arı, namusu.***
***Sən ey, qəm bilməyən gənc nəsil!***
***Üzümü görməyi eləsən arzu,***
***Bax, üfüqdən qalxan al səhər mənəm,***
***Qəlbinin istəyi o zəfər mənəm!***

**Kitablar:** "Odlu ürəklər", "Unudulmaz günlər", "Üç dost", "Dalğalar", "İnsan, od, su...", "Əbədi dost", "Şah və tutuquşu", "İnsan və qızılgül" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 682.

**20 Sentabr - Yazıçı Şəmsəddin Abbasovun anadan olmasının 115 illiyi, (1906-1975)**



Şəmsəddin Abbasov 1906-cı ilin sentyabrında Abşeron rayonunun Sayadlar kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. Bakıda rus-tatar məktəbində, sonra politexnikumda təhsil almış, 1926 – 1927-ci illərdə Politexnik İnstitutunda oxumuşdur. 1923-cü ildən "Yeni fikir", "Kommunist" və "Gənc işçi" qəzetlərində əməkdaşlıq etmişdir. Bu dövrdə "Məhşər günü" hekayəsi ilə ədəbi aləmə daxil olmuşdur. 1926-cı ilin iyun ayından "Gənc işçi" qəzeti redaksiyasında məsul katib vəzifəsində işləmiş, eyni zamanda "Komsomol" jurnalının redaksiya heyətinin tərkibinə daxil edilmişdir. Gənc yazıçılar birliyinin – "Gənc qızıl qələmlər"in yaradıcılarından biri olmuşdur. 1929-cu ildən "Kommunist" qəzetinin məsul katibi işləmişdir. 1938-1939-cu illərdə M. F. Axundov adına Opera və Balet Teatrının direktoru kimi Moskvada Azərbaycan incəsənəti dekadasında iştirak etmişdir. "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. 1939-cu ilin sentyabrında Bakı kinostudiyasının direktoru işləmişdir. O, ədəbi yaradıcılıqla müntəzəm məşğul olmuşdur. Rus dilindən ədəbi ssenarilər ("Stalinqrad döyüşü", "Musoqorski"), pyeslər ("Ulduzcuğaz", "Xmelnitski", "Saatsaz və toyuq"), roman və hekayələr (S. Babayevski "Yer üzərində işıq", A. P. Çexovun vodevilləri) tərcümə etmişdir. Özu də ssenari və pyeslər yazmışdır: "Babək" (1940), "Qələbə" (1931), "Qana qan" (1944), "Əsgər və Simuzər" (1945), "Fərhadın ailəsi" (1950), "Mister Uoll-trit" (1951). 1942-ci ilin avqust ayından Azərbaycan KP MK aparatına işə dəyişdirilmişdir. Burada təlimatçı, eyni zamanda Azərbaycanın İkinci Dünya müharibəsində iştirak etməsi ilə məşğul olan komissiyanın məsul katibi işləmişdir. Azərbaycan nümayəndələri ilə dəfələrlə ön cəbhədə olmuşdur. Şimali Qafqaz və Uzaq Şərq cəbhələri hərbi şuraları ona yaxşı işinə görə təşəkkür etmişdir. O, "Qafqaz müdafiəsi uğrunda" və "1941-1945-ci illər İkinci Dünya müharibəsində əmək igidliyinə görə" medalları ilə təltif edilmişdir. 1944-cü ilin yanvarında Azərbaycan SSR Nazirlər Soveti Yanında Radiolaşdırma və Radio Verilişləri Komitəsinə sədr təyin olunmuşdur. 1946-cı ildə "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif edilmişdir. Dəfələrlə Bakı zəhmətkeş deputatları Sovetinin deputatı olmuşdur. 1951-ci ilin oktyabrından Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru işləmişdir. 1975-ci il sentyabrın 20-də vəfat etmişdir.

**Kitablar:** "Məhşər günü", "İntiqam", "Mehdi pəhləvan", "Laylay", "Usta Kamal", "Təzə sədr", "Gur işıqlar", "Tənha dəniz burulğanında" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 840.

**Xarici ədəbiyyat**
**13 Sentyabr - İngilis yazıçısı Roald Dahlın 105 illiyi, (13.09.1916 -23.11.1990)**



Norveç əsilli ingilis yazıçısı, roman, hekayə, nağıllar müəllifi, şair və ssenarist Roald Dahl 13 sentyabr 1916-cı ildə İngiltərədə anadan olmuşdur. Gələcək yazıçı kolleci bitirdikdən sonra işgüzar həyata atılır. “Şell” neft şirkətində iki illik təhsildən sonra 1936-cı ildə arzusunda olduğu yerə - Şərqi Afrikaya, Tanqanikaya (indiki Tanzaniya) gedir. II Dünya müharibəsində hərbi təyyarəçi kimi iştirak edir. Liviyada yaralandıqdan sonra döyüşlərdə iştirak üçün yararsız hesab edilir və Böyük Britaniyanın Vaşinqtondakı səfirliyində hərbi attaşenin köməkçisi vəzifəsinə təyin olunur. Burada da onun yazıçılıq karyerası başlayır. Yazıçının ilk hekayələri bir neçə qəzetdə dərc olunur. Bu dövrdə o, əsasən antifaşist təbliğatı ilə bağlı, hərbi təyyarəçi, onun başına gələnlər haqqında yazırdı. Müharibədən sonra, 1945-ci ildə R.Dahl İngiltərəyə, anasının yanına qayıdır. 1948-ci ildə nüvə müharibəsi haqqında roman yazır. Bu, Xirosimadan sonra ABŞ-da nüvə müharibəsi mövzusunda yazılan ilk kitab idi. Bu kitab sonralar heç vaxt təkrar nəşr edilməmişdir. 1953-cü ildə onun novellalar kitabı – **“Klodun iti”** çapdan çıxır. 1954-cü ildə yazıçı nüfuzlu Edqar Po mükafatı alır. 1959-cu ildə “Öpüş” hekayələr toplusu çap olunduqdan sonra yazıçı qara yumor ustası kimi tanınır. Onun hekayələri bir çox dillərə tərcümə olunmağa başlayır. 1950-ci illərdə Nyu-Yorka gələn yazıçı burada müntəzəm olaraq qəzetlərdə hekayələrini nəşr etdirir. Burada o, Hollivud ulduzu Patrisiya Nil ilə tanış olur və onlar evlənirlər. Beş uşaq atası olan R.Dahl uşaqlar üçün çoxlu kitablar yazır. Onun uşaqlar üçün yazdığı **“Ceyms və nəhəng şaftalı**”, **“Çarli və şokolad fabriki”, “Denni – dünya çempionu”, “Matilda”** və digər kitabları böyük şöhrət qazanır və bir çox mükafatlara layiq görülür. R.Dahl 1990-cı il noyabrın 23-də Oksfordda (İngiltərə) 74 yaşında vəfat edir. Yazıçı xəstə uşaqlara kömək etmiş, onlar üçün xeyriyyəçilik fəaliyyəti göstərmişdir. Onun adını daşıyan fond bu gün də bu işi davam etdirir. R.Dahlın “Qanun”, “Əli və Nino” nəşriyyatı tərəfindən bir neçə uşaq kitabları azərbaycan dilində nəşr olunmuşdur.







İnternetdə:**https://ru.wikipedia.org/wiki**

**21 Sentyabr - İngilis yazıçısı H.C.Uellsin anadan olmasının 155 illiyi, (1866-1946)**

İngilis yazıçısı və alimi Herbert Corc Uells uşaq yaşlarından elmə və ədəbiyyata böyük maraq göstərmişdir. 17 yaşında ikən Kral Elmi Cəmiyyətinin kollecində təhsil alan Herbert 25 il sonra bu cəmiyyətin prezidenti seçilmişdir. Biologiya və fiziologiya doktoru Herbert Uells yazdığı bədii əsərlərdə öz elmi biliklərindən məharətlə istifadə etmişdir. Onun qələmə aldığı "Görünməz adam", "Zaman maşını", "Yatan oyananda", "Doktor Moronun adası" dünya elmi-fantastik ədəbiyyatının şah əsərləri sayılır. O, həmçinin "Kips", "Havada müharibə", "Tono Bens", "Azad edilmiş dünya" və s. romanların müəllifidir. 1905-ci ildə yazıçı "Müasir Utopiya" roman-traktatı ilə marksizmə qarşı çıxmışdır. 1920-ci və 1934-cü illərdə SSRİ-yə gəlmiş, Vladimir İliç Leninlə olan görüşlərindən sonra "Rusiya zülmət içində" adlı kitabını yazmış, burada o, V.İ.Lenini "Kremlin xəyalpərəsti" adlandırmışdı. "Doktor Moronun adası" əsərində Sakit okeanda qəzaya uğramış gəminin sağ qalan sərnişinlərindən birinin 10 ay bu dəhşətli adada yaşamağa məhkum olmasından, onun başına gələn qorxulu hadisələrdən bəhs olunur.

**Kitablar**: "Görünməz adam", "Vaxt maşını", "Doktor Moronun adası", "Dünyaların müharibəsi", "Yatan oyananda", "Kips", "Havada müharibə", "Tono Bens", "Azad edilmiş dünya" və s.







İnternetdə:https://unimall.az/h.c.-uells-doktor-moronun-adasi

## İncəsənət

## 24 Sentyabr - Xalq artisti Əminə Yusifqızının anadan olmasının 85 illiyi, (1936)



**Əminə Yusifqızı (24.9.1936, Bakı) - aktrisa, Azərbaycanın xalq artisti (1998), Cəfər Cabbarlı mükafatı (2010) laureatı**

Əminə Yusifqızı 24 sentyabr 1936-cı ildə Bakıda doğulub. Hələ məktəb yaşlarında ikən Gənc Tamaşaçılar Teatrında bir çox maraqlı çıxışları ilə yadda qalıb. Dram Teatrında (1964-1974), Dublyaj, səsləndirmə sahəsində də fəaliyyətləri mövcuddur. Bədii qiraət ustası kimi tanınır. M.F.Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitunu bitirmişdir (1961). Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının (1958-1964), Azərbaycan Milli Dram Teatrının (1964-74) aktrisası olmuşdur.

**Rolları:** Qulu ("Anacan", Y.Əzimzadə), Səbirə ("Son məktub", R.İsmayılov), Humay ("Komsomol poeması", İ.Coşğun; Səməd Vurğunun eyniadlı poeması əsasında), Ülkər ("Söz yarası", Q.Rəsulov), Əliman ("Ana tarla", Çingiz Aytmatov), Esse ("Şeytanın şagirdi", Bernard Şou) və s. 1974-cü ildən "Azərbaycanfilm" kinostudiyasında işləmişdir. "Şərikli çörək", "Sən nə üçün susursan?", "Bizim küçənin uşaqları", "Musiqi müəllimi" və s. filmlərdə, televiziya tamaşalarında çəkilmişdir.

**Filmoqrafiya:** Ad günü (film, 1977), Alma almaya bənzər (film, 1975), Alman klinikasına şəxsi səfər (film, 1988), Arşın mal alan (film, 1965), Arxadan vurulan zərbə (film, 1977), Bakıda küləklər əsir (film, 1974), Bayquş gələndə (film, 1978), Bəxtəvər (film, 1984), Bəyin oğurlanması (film, 1986), Bir ailəlik bağ evi (film, 1978), Bir cənub şəhərində (film, 1969), Birisigün, gecəyarısı... (film, 1981), Bizim küçənin oğlanları (film, 1973), Bulud niyə ağlayır? (film, 1973), Burulğan (film, 1986), Cazibə qüvvəsi (film, 1964)(film, kinoalmanax), Dairə (film, 1989), Dədə Qorqud (film, 1975), Ən vacib müsahibə (film, 1971), Əzablı yollar (film, 1982), Gənc qadının kişisi (film, 1988), Gilas ağacı (film, 1972), Həsən Əbluc (film, 1999), Həyat bizi sınayır (film, 1972), Heydər Əliyev. İki əsrin fenomeni (film, 2002), Xatirələr sahili (film, 1972), Xüsusi buraxılış (film, 1983), İnsan məskən salır (film, 1967), İstintaq (film, 1979), Kitabi Dədə Qorqud. Səkrəyin dastanı (film, 1990), Qanun naminə (film, 1968), Qatır Məmməd (film, 1974), Qayınana (film, 1978), Qətl günü (film, 1990), Qeybdən gələn səs (film, 2002), Qızıl uçurum (film, 1980), Qızıl qaz (film, 1972), Mən ki gözəl deyildim (film, 1968), Mən mahnı qoşuram (film, 1979), Mənim əziz atam (1970), Möcüzələr adası (film, 1963), Nizami (film, 1982), O qızı tapın (film, 1970), Od içində (film, 1978), Onu bağışlamaq olarmı? (film, 1959), Onun bəlalı sevgisi (film, 1980), Özgə ömür (film, 1987), Park (film, 1984), Prima (film, 1992), Rəngli yuxu (film, 1982), Sən niyə susursan? (film, 1966), Süd dişinin ağrısı (film, 1987), Şahid qız (film, 1990), Şərikli çörək (film, 1969), Üzeyir ömrü (film, 1981) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əminə_Yusifqızı

**25 Sentyabr - Müğənni Xanlar Haqverdiyevin 115 illiyi, (1906-1980)**





**Haqverdiyev Xanlar Məmməd oğlu - (1906-1980) — müğənni (lirik-dramatik tenor). Azərbaycan (1956) və Türkmənistan (1939) əməkdar artisti**

Xanlar Məmməd oğlu 1906-cı ildə Şuşa qəzasının Seyidli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsində oxumuşdur (1928-31). 1931- 62 illərdə (fasilələrlə) Azərbaycan Opera və Balet Teatrının solisti olmuş, “Leyli və Məcnun” operasında Məcnun və İbn Səlamın, “Əsli və Kərəm” operasında Kərəmin partiyalarını ifa etmişdir. Azərbaycan səhnəsinin unudulmaz Məcnunlarından biri də Xanlar Haqverdiyev olub. Bu istedadlı sənətkar "Leyli və Məcnun" operasında bir sıra partiyaların ifaçısı kimi yadda qalıb. Böyük məhəbbət və məharətlə can verdiyi Məcnun isə bu unudulmaz sənətkarın yaradıcılığında zirvə sayılırdı. O, Məcnun rolunda öz dəst-xətti ilə seçilən aktyorlardan biri olub. 1945-ci ildə Üzeyir Hacıbəylinin yubiley gecəsində Xanlar Haqverdiyevin mərasimdə çatdırdığı Məcnun rolu Üzeyir Hacıbəylini də valeh edib. Hətta sonralar məhz bu rolundakı yaxşı ifasına görə dəfələrlə rejissordan, teatr rəhbərliyindən təşəkkür alıb. 1938-1942-ci illərdə Türkmənistan Opera və Balet Teatrında “Koroğlu” operasında Koroğlu rolunda çıxış etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Xanlar_Haqverdiyev

**3 Sentyabr - Xalq artisti Yaşar Nurinin 70 illiyi, (03.09.1951-22.11.2012)**



**Yaşar Nuri azərbaycanlı aktyor, komik, psixoloji və dramatik rolların məharətli ifaçısı; (1981) Azərbaycan SSR-in Əməkdar Artisti fəxri adı; (1991) "Yaramaz" filmindəki Maşallah roluna görə Azərbaycan Respublikasının Dövlət Mükafatı; (1996) "Qızıl dərviş" mükafatı; (2005) Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatı; (2010) Cəfər Cabbarlı mükafatı; (2011) "Şöhrət" ordeni; (2012) Milli Kino Mükafatı; Azərbaycanın Xalq Artisti; Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı**

Yaşar Məmmədsadıq oğlu Nuriyev 1951-ci il sentyabr ayının 3-də Bakıda tanınmış aktyor Məmmədsadıq Nuriyevin ailəsində dünyaya gəlmişdir. Səhnəyə ilk dəfə on bir yaşında Azərbaycan Dövlət Musiqili Komediya Teatrında "Toy kimindir?" (dramaturq Məhərrəm Əlizadə) tamaşasında Tapdıq rolunda çıxmışdır. Məktəbli vaxtlarında dövlət televiziyasının "Yelkən" verilişinin aparıcılarından olmuşdur. Bundan başqa o, "Buratino", "Qaranquş", "Pioner" uşaq verilişi-teatrlarında müntəzəm iştirak etmişdir. Müxtəlif dram dərnəklərinə getmiş, 26-lar adına mədəniyyət sarayı xalq teatrının tamaşalarında çıxış etmişdir. Teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuri həm də məşhur kino ustası idi. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Əlliyə yaxın bədii filmə çəkilib, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. Onun əsasən baş rolları ifa etdiyi teletamaşalar televiziyanın fondunda daimi sənət nümunələri kimi qorunur. Aktyor nəinki televiziya, həmçinin radio və kinostudiyanın dublyaj sektoru ilə də əməkdaşlıq etmiş, radioda "Sabahınız xeyir", "Gülüş axşamı" yumoristik verilişlərinin, radio tamaşalarının iştirakçısı olmuşdur. "Azərbaycanfilm" kinostudiyasında isə saysız hesabsız yerli filmləri səsləndirmiş, əcnəbi filmləri dublyaj etmişdir. Yaşar Nuri cəsarətli aktyor kimi qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik, karnaval estetikasına uyğun obrazların ifasında uğur qazana bilmişdir. Səhnədə həmişə canlı, təravətli, ürəklərə yol tapmışdır. Aktyor özünü həm kinoda, həm də teatrda rejissor kimi sınamışdır. Teatrda İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" əsərinə quruluş vermiş, kinoda isə "Spasibo" filmini çəkmişdir. Yaşar Nuri uzun sürən xəstəlikdən sonra 22 noyabr 2012-ci ildə Bakı şəhərindəki Dövlət Gömrük Komitəsi Tibbi Xidməti İdarəsinin Mərkəzi Gömrük Hospitalında vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Yaşar_Nuri

**Milli qəhrəmanlıq zirvəsi**

**18 Sentyabr - Məmmədov Seymur Qəhrəman oğlunun 50 illiyi, (1971-1992)**



**Azərbaycan Respublikası prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

Məmmədov Seymur Qəhrəman oğlu 18 sentyabr 1971-ci ildə Füzuli şəhərində dünyaya göz açmışdır. 1978-1988-ci illərdə burada 2 saylı məktəbdə təhsil almışdır. 1988-ci ildə Azərbaycan Politexnik İnstituna daxil olmuşdur. 1991-ci ildə hərbi xidmətə çağırılır.

Hərbi xidmətini Almaniya və Ukraynada keçirir. Seymur Məmmədov ordudan tərxis edilən kimi könüllü olaraq özünümüdafiə batalyonuna yazılır. Seymur bir neçə kəndin azad edilməsində, əsirlərin geri alınmasında əsl qəhrəmanlıq göstərmişdir. 1992-ci il 1 aprel Seymurun son döyüşü oldu. Məlikcanlı kəndi uğrunda gedən döyüşlərdə hər birində 10 erməni döyüşçüsü olan 15 dayaq nöqtəsi məhv edildi. Həmin döyüşdə snayperlə vurulan Seymur 20 yaşında qəhrəmancasına şəhid oldu. Subay idi. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Oxuduğu məktəb onun adını daşıyır.

***Hər millətin, hər torpağın öz adı var, öz ünvanı,***
***Yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.***
***Vahid Vətən himnimizdi Şəhidlərin axan qanı,***
***Nəsillərə yadigardı, zaman yazdı bu dastanı.***
***Millətlərə hürriyyətdi, istiqlaldı şüarımız,***
***Azadlığı, səadəti qorumaqdı qərarımız.***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/Seymur_Məmmədov

**20 Sentyabr - Qurbanov Arif Vəliş oğlunun 55 illiyi, (20.09.1966-26.09.2009)**



**Arif Vəliş Oğlu Qubadov - Azərbaycanın Milli Qəhrəmanı.**

**Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il 307 saylı fərmanı ilə Qubadov Arif Vəliş oğlu "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

Arif Qubadov 20 sentyabr 1966-cı ildə Cəlilabad rayonu Əliqasımlı kəndində anadan olmuşdur. 1983-cü ildə Əliqasımlı kənd orta məktəbini bitirmişdir. 1984-cü ildə hərbi xidmətə çağırılmışdır. Ermənistan Respublikasının torpalaqlarımıza hücum etməsi və işğalçılıq siyasəti onu da bir azərbaycanlı kimi narahat etmişdir. 1992-ci ildən Milli Ordu sıralarında Arif Qubadovun şərəfli döyüş yolu başlamışdır. Arif ata-baba yurdlarımızdan biri olan Naxçıvanın Sədərək bölgəsində döyüşə atılmışdır. Onun komandirlik etdiyi tağım erməniləri geri oturtmuş və onlarla erməni quldurunu məhv etməklə yanaşı, düşmənin çoxlu sayda zirehli texnikalasını da sıradan çıxarmışdır.
1993-cü ildə Arif Ağdam cəbhəsinə göndərilmişdir. Əfətli, Yusifcanlı kəndləri ermənilərdən onun rəhbərliyi ilə təmizlənmişdir. 1993-cü ilin avqustundan cəsur döyüşçünün sorağı Füzuli cəbhəsindən gəlmişdir. Əhmədbəyli, Aşağı Kürmahmudlu və Yuxarı Kürmahmudlu, Alıxanlı kəndləri şəxsən Arifin komandirliyi ilə ermənilərdən azad edilmişdir. O, 1994-cü ildə Tərtər və Ağdərə rayonlarında da rəşadətlə döyüşmüşdür. Arif Qubadov 1996-cı ildə Bakı Birləşmiş Komandirlər Məktəbini, 2003-cü ildə isə Azərbaycan Respublikası MTN Akademiyasının sərhəd qoşunları bölməsini bitirmişdir. Ailəli idi, dörd övladı var. Azərbaycanın Milli Qəhrəmanı, ehtiyatda olan polkovnik-leytenant Arif Qubadov 43 yaşında Türkiyədə müalicə olunduğu Gülhanə Hərbi Tibb Akademiyasında 26 sentyabr 2009-cu ildə vəfat etmişdir.

***Neçə gizli sərvət yatır qucağında ,***
***Neçə ölkə od aparır ocağından .***
***Azadlığın al rəmzi var bayrağında***
***Bayrağına canım qurban , Azərbaycan !***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/ Qurbanov_ Arif

**29 Sentyabr - Yusifov Zakir Tofiq oğlunun 65 illiyi, (29.09.1956-11.10.1992)**



**Azərbaycan Respublikası prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Yusifov Zakir Tofiq oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

Yusifov Zakir Tofiq oğlu 29 sentyabr 1956-cı ildə Bakı şəhərində doğulmuşdur. 1974-cü ildə 194 saylı məktəbi bitirir və Mülki Təyyarəçilik məktəbinə daxil olur. 1977-ci ildə təhsilini başa vurur və Yevlaxda işə başlayır. AN-2 təyyarəsinə komandir təyin edilir. 1988-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsini bitirir. Respublika ilk hərbi vertalyot eskadrilyasının yaradılması olduqca çətin bir iş idi. Zakir bu işin öhdəsindən gəldi. Hərbi təlimlər və ardınca Qarabağa uçuşlar. Bu uçuşlardan ən uğurlusu 11 aprel oldu. İlk dəfə hərbi vertolyotla havaya qalxan Zakir Yusifov Füzuli-Xocavənd istiqamətində uğurlu uçuş edə bildi. O, döyüş tapşırığını başa vurur və geri dönür.

Cəsur komandir Zakir yüzdən artıq uçuşlar edərək erməni yaraqlılarının xeyli zirehli texnikasını məhv etmişdi. O, Füzuli, Xocavənd, Tərtər, Ağdərə, Şuşakənd səmalarında əsl qəhrəmanlıq səhifələri yazır. 11 oktyabr 1992-ci il növbəti uçuş zamanı onun vertolyotu ermənilər tərəfindən vurulur. Səfiyan kəndi istiqamətdə uçarkən vurulan vertolyotun heyəti həlak olur. Ailəli idi, iki övladı qalıb. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Vaxtilə oxuduğu 194 saylı məktəb və Bakının küçələrindən biri qəhrəmanımızın adını daşıyır.

***Başım üstdə məğrur-məğrur dalğalanan***
***Bayrağına canım qurban , Azərbaycan !***
***Ruhuma büt , cismim üçün vətən olan***
***Torpağına canım qurban , Azərbaycan !***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/Zakir_Yusifov

**30 Sentyabr - İbrahimov Mirələkbər Mirələsgər oğlunun 60 illiyi, (30.09.1961-05.03. 1994)**



**Azərbaycan Respublikası prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə kapitan İbrahimov Mirələkbər Mirələsgər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İbrahimov Mirələkbər Mirələsgər oğlu 30 sentyabr 1961-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində doğulmuşdur. Birinci sinfə burada getmiş, sonra Bakı şəhərinə köçmüşlər.1978-ci ildə Bakı şəhərindəki 158 saylı orta məktəbi bitirmiş və hərbi xidmətə getmişdir. Daha sonra Bakıda 153 saylı orta məktəbdə ibtidai hərbi hazırlıq müəllimi işləmişdir. Qarabağda ermənilərin törətdikləri ağılasığmaz vəhşiliklər Mirələkbəri bərk narahat edirdi. O, könüllü olaraq cəbhəyə göndərilməsini xahiş edir. 1993-cü ildə onu yenicə yaradılmış Yasamal taboruna komandir təyin edirlər. Mirələkbər öz taboru ilə Füzuli rayonunun Kürdmahmudlu, Aşağı Seyidəhmədli kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşur. Onun son döyüşü 5 mart 1994-cü ildə olur. Mənfur erməni quldurları iki kəndi işğal etdir. Əks hücuma keçən cəsur komandirin taboru kəndləri azad edir. Bu döyüşdə faşist ermənilərin gülləsinə tuş gələn Mirələkbər qəhrəmancasına şəhid olur. Evli idi, bir övladı yadigar qalıb. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Vaxtilə dərs dediyi 153 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır.

***Oğulları igid aslan***
***Əməlləri şanlı dastan.***
***Səndən ötrü keçib candan***
***Ulu babam – Azərbaycan!***
***O tarixdi daş qalalı***
***Bərəkətli gen tarlalı***
***Şirin, şəkər, bal laylalı***
***Mənim anam – Azərbaycan!***

Məmməd Hacızadə

İnternetdə: https://az.wikipedia.org/wiki/Mirələkbər_İbrahimov

**Oktyabr**

**Əlamətdar tarixi günlər və bayramlar**

1 Oktyabr – Beynəlxalq Ahıllar Günü, (1992)
1 Oktyabr – Prokurorluq İşçiləri Günü, (1998)
1 Oktyabr – Beynəlxalq Musiqi Günü, (1975)
2 Oktyabr – Elektron Məktubun Yaranması Günü, (1971)
3 Oktyabr - Suqovuşanın işğaldan azad edildiyi gün, (2020)
3 Oktyabr – Ümumdünya Memarlıq Günü, (1996)
4 Oktyabr - Cəbrayıl şəhərinin işğaldan azad edildiyi gün, (2020)
4 Oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü, (1931)
5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü**, (**1966)
9 Oktyabr - Xocavənd rayonunun Hadrut qəsəbəsinin işğaldan azad edildiyi gün, (2020)
9 Oktyabr – Ümumdünya Poçt Günü, (1874)
10 Oktyabr – Yanğınsöndürənlər Günü, (2002)
11 Oktyabr – Dünya Qız Uşaqları Günü, (2011)
12 Oktyabr – Ümumdünya Yumurta Günü, (1996)
16 Oktyabr – "Uolt Disney" Şirkətinin Təsis Edildiyi Gün, (1923)
16 Oktyabr – Mütaliə bayramı, (1989)
16 Oktyabr – Ümumdünya Çörək Günü, (2006)
17 Oktyabr - Füzuli şəhərinin işğaldan azad edildiyi gün, (2020)
17 Oktyabr – Ümumdünya Yoxsulluqla Mübarizə Günü, (1992)
18 Oktyabr – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü, (1991)
20 Oktyabr - Zəngilan şəhərinin işğaldan azad edildiyi gün, (2020)
20 Oktyabr – Beynəlxalq Kulinariya Günü, (2007)
20 Oktyabr – Energetiklər Günü, (2004)
22 Oktyabr – Beynəlxalq Məktəb Kitabxanaları Günü, (1999)
24 Oktyabr – Birləşmiş Millətlər Təşkilatı Günü, (1945)
25 Oktyabr - Qubadlı şəhərini işğaldan azad edildiyi gün, (2020)
28 Oktyabr – Beynəlxalq Animasiya Günü, (2002)
30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü,(1974)

**Yubilyar yazıçı və şairlər**

Tənqidçi, ədəbiyyatşünas Abbas Zamanovun 110 illiyi, (10. 10.1911-1993)
Ədəbiyyatşünas, folklorşünas Hənəfi Zeynallının 125 illiyi, (13.10.1896-1937)
Xalq yazıçısı, dramaturq Mirzə İbrahimovun 110 illiyi, (15.10.1911-1993)
Yazıçı Çingiz Ələkbərzadənin 85 illiyi, (17.10.1936-1999)

**İncəsənət**

Xalq artisti Nəcibə Məlikovanın 100 illiyi, (25.10.1921-1992)

**Milli qəhrəmanlıq zirvəsi**
Nəsibov Kamil Balədə oğlunun 75 illiyi, (08.10.1946-29.06.1992)
Bayramov Sultanağa Nəhmət oğlunun 85 illiyi, (17.10.1936-23.08.1993)
Makayev İqor Vladimiroviçin 50 illiyi, (27.10.1971-02.08.1992)
**Əlamətdar tarixi günlər və bayramlar**
**1 Oktyabr – Beynəlxalq Ahıllar Günü, (1992)**



Yaşadığımız cəmiyyət hamı üçündür. Gənclər, orta nəslin nümayəndələri, hətta ahıllar da cəmiyyətdə gedən inkişaf proseslərində iştirak edirlər. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Cəmiyyətdə yaşayıb ondan kənarda qalmaq olmaz. Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. BMT-nin İnkişaf Proqramında son illər ərzində ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin Ahıllar üzrə II Ümumdünya Məclisində belə bir fikir səslənmişdir ki, yaşlılar da cəmiyyətin bərabər hüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir. Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən, hörmətə layiqdirlər. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür. Ümummilli liderimiz Heydər Əliyev kimi yaşa dolmuş görkəmli siyasətçi və dövlət xadimi öz ölkəsini müvəffəqiyyətlə idarə etmişdir. Bu fakt bir daha sübut edir ki, yaşlı, ahıl insanların təcrübəsi əvəzolunmazdır. BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar İli elan olunmuşdur. Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir. 2001-ci il iyunun 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. 1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Beynəlxalq Ahıllar Günü ərəfəsində respublikamızın şəhər və rayonlarında icra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək, onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

**İnternetdə: www.books.google.com**

## 1 Oktyabr – Prokurorluq İşçiləri Günü, (1998)



Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə" 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır. Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Filip tərəfindən qoyulmuşdur. Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25 mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir örnək kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir. 1918-ci il noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. F.Xoyski, X.Xasməmmədov, A.Səfikürdski, T.Makinski AXC-nin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. AXC-nin süqutundan sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv olundu. Sovetləşmənin ilk illərində bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması zəruriliyini nəzərə alaraq, Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu. 1936-cı ilin iyulunda Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq, birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə, ayrıca qurum kimi fəaliyyətə başlamışdır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilməklə, sivil və demokratik inkişaf yoluna qədəm qoymuşdur.

**İnternetdə: www.books.google.com**

## 1 Oktyabr – Beynəlxalq Musiqi Günü, (1975)

***"Bəstəkarlar öz əsərlərini yaradarkən, unutmamalıdırlar ki, bizim yaradıcılığımızı xalq qiymətləndirir. Çünki xalq yalnız yaradıcı, yalnız bəstəkar deyildir, xalq eyni zamanda misilsiz tənqidçi və musiqi əsərlərinin ən yaxşı "istehlakçısıdır", xalq musiqi əsərlərinə diqqətlə yanaşır, yaxşını pisdən seçir".***

***"İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nəğmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır".*** Üzeyir Hacıbəyli




Bəşəriyyətin musiqi ilə tanışlığı çox qədim dövrlərdən başlayıb. Musiqi intəhasız, heç bir ölçüyə sığışmayan gücə malikdir...

Bir çox məşhur bəstəkarlar daxili dünyalarını, duyğularını, istək və arzularını ifadə etmək üçün musiqidən istifadə ediblər. Onların adı məhz musiqinin qüdrəti sayəsində tarixə və gələcək nəsillərin yaddaşına yazılıb. Musiqi heç vaxt qocalmır. İnsanlara bəxş edilən bu ilahi nemət bəşəriyyət var olduqca yaşayacaq. Beynəlxalq Musiqi Günü YUNESKO-nun qərarı ilə 1975-ci il oktyabrın 1-də təsis edilmişdir. Bu bayram hər il bütün dünyada ən yaxşı musiqiçilərin və incəsənət kollektivlərinin iştirak etdikləri möhtəşəm konsert proqramları ilə qeyd olunur. Həmin gün dünya musiqi xəzinəsinin qeyri-adi, bənzərsiz inciləri ifa edilir.

2000-ci ildə Çin arxeoloqları 2 min illik tarixi olan musiqi alətləri muzeyini aşkara çıxarmışlar. Azərbaycanda da musiqinin tarixi çox qədimlərə gedib çıxır. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olunmuşdur. Bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğu vurğulanmışdır. Görünür, Azərbaycan dilinin musiqi dili olması da buradan qaynaqlanır.

**İnternetdə:** **[www.books.google.com](http://www.books.google.com)**

## 2 Oktyabr – Elektron Məktubun Yaranması Günü, (1971)



Elektron poçt – (Electronic Mail və ya E-Mail) hazırkı dövrdə insanlar arasında ən çox yayılmış ünsiyyət növüdür. Bu ünvan bir neçə saniyə ərzində İnternet şəbəkəsinin yerləşdiyi istənilən yerə nəinki mətn, veb-səhifə, hətta məktub halında olan istənilən faylı göndərməyə imkan verir. ABŞ və Avropadan başlayaraq bu rabitənin adı "e-mail" və ya "email" formasında yazılır. Elektron poçt – ünvan sahibinin asudə vaxtlarda açıb və oxuduğu rəqəmli poçt qutusuna göndərilən elektron poçt, mətn göndərişləri. İlk elektron poçt da bir çox texnoloji yeniliklərin başlanğıcı kimi əsgəri işlərdən ötəri çıxmışdır. 1960-cı illərin sonlarında hərbi sistem üçün sistemlər inkişaf etdirməyə çalışan Rels Tomlinson ilk olaraq 1971-ci il oktyabr ayında iki kompüter arasında fayl mübadiləsini həyata keçirmişdir. Tomlinson "The Times" qəzetinə müsahibəsində deyirdi: "İlk e-mailimdə nə yazdığımı mən də xatırlamıram. Yalnız aralarında bir metr məsafə olan iki kompüter arasında həyata keçirilən fayl transferi idi. Mesajlaşma üçün kiçik bir addım, insanoğlu üçün isə böyük bir sıçrama idi". E-mail 1990-cı illərə qədər çox inkişaf etdi. İnternetin 90-cı illərdə yayılmasıyla birlikdə e-mail çox əhəmiyyətli bir vasitəyə çevrildi. Belə ki, Amerikanın Kaliforniya Universiteti, Berkeleyin 2001-ci ildə açıqladığı statistik rəqəmlər bizə emailin nüfuzunu göstərdi. Araşdırmaya görə 2001-ci ildə gündə ortalama 31 milyard email göndərilirdi. 2008-ci ildə isə bu rəqəm 170 milyarda qədər çatdı. 2011-ci ildə isə bu rəqəmlər biraz daha artaraq 294 milyarda çatdı. Elektron ünvanla işləyərkən SMTP və POP3 protokollarından istifadə edilir. SMTP protokolu məktubun göndərilməsinə, POP3 protokolu isə məktubun çatdırılmasına cavabdehdir. Göndəriləcək poçt "elektron poçt qutusuna" yazılır. Bu poçt serverin daimi yaddaşında yerləşən kataloqdur və ona yalnız həmin poçt qutusunun abonenti daxil ola bilər. Abonent serverə müraciət edərkən poçtu oradan çıxarır, poçt qutusundan çıxarılan məktub serverdə saxlanılmır. Elektron məktubların ünvanı DNS sistemlərində qəbul olunmuş ünvanlardan fərqlənir. Abonent @ ünvan – @ ("ət" və ya "doq") işarəsi kompüterə məktubun göndərildiyi server ünvanı ilə abonentin adını ayırmağa kömək edir. Abonentin adını istifadəçi özü seçir. Sonra o poçt ünvanının qeydiyyatını keçirir və proqram təminatını nizamlayır. Müasir dövrdə ən geniş yayılmış poçt hostinq serverləri kimi Gmail.com, Yahoo!, Hotmail tanınır. MDB məkanında isə Yandex, Mail.ru, Rambler kimi poçt servisləri məşhurdur.

**İnternetdə: www.books.google.com**

**3 Oktyabr – Suqovuşanın (Tərtər) Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildiyi gün, (2020)**



Suqovuşan kəndi əvvəllər Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir. Suqovuşan ilk dəfə 1991–1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında işğalçı Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib.Suqovuşan kəndi 3 oktyabr 2020-ci il Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. işğal dövründə Madagiz adlandırılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən tarixi adı bərpa edilərək Suqovuşan adlandırılmışdır.

Kənd ərazisində Suqovuşan su anbarı və Madagiz-1 su elektrik stansiyası yerləşir. Kənddə 2014-cü ildə balıqartırma zavodu tikilib. Aprel döyüşləri zamanı elektrik stansiyası və balıqartırma zavoduna ziyan dəysə də, onlar sonradan yenidən bərpa ediliblər. 2022–23-cü illərdə Madagizdən başqa ölkələrə balıq və qara kürü ixracının başlanması planlaşdırılmışdı. 1992-ci ilin sentyabr ayında Qarabağda formalaşdırılan beşinci müdafiə rayonu hərbi hissəsi Qarabağ döyüşlərində bir çox təxribatçı əməliyyatlarda iştirak edib və azad edilənədək işğalçı Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu. Hərbi hissənin nömrəsi 49971 idi. 5-ci müdafiə rayonu, dağatıcı alay, 49971 nömrəli hərbi hissə olaraq, 10-cu dağatıcı diviziyanın tərkibinə daxil idi. Ehtimal edilir ki, hərbi hissə Ağdərəyə yaxın ərazilərdən Madagiz yaşayış məntəqəsi hüdudlarınadək döyüş növbətçiliyinə cəlb olunurdu. Bura aprel döyüşlərində Azərbaycan ordusunun əsas hədəflərindən biri olub. Bundan başqa erməni ordusunun 6-cı müdafiə rayonu kimi qeyd etdiyi 33651 nömrəli hərbi hissə də Madagizdə yerləşirdi.

İnternetdə:https://az.wikipedia.org/wiki/Suqovuşan_(Tərtər)

**3 Oktyabr – Ümumdünya Memarlıq Günü, (1996)**






Dünya memarlarının və memarlıq incilərini sevən və dəyərləndirənlərin bayramı hər il oktyabrın ilk bazar ertəsində qeyd olunur. Ümumdünya Memarlıq Günü (World Architecture Day) Beynəlxalq Memarlar Birliyi (BMB) tərəfindən təsis olunmuşdur. BMB-nin 1985-ci ildə keçirilən yığıncağında bu bayramın 1 iyulda qeyd olunması qərara alınıb. Lakin 1996-cı ildə, BMB özünün Barselonada düzənlənən Baş Assambleyasında bayramın hər il oktyabrın ilk bazar ertəsi keçirilməsi haqqında qərar qəbul edib.

Beynəlxalq Memarlar Birliyi II Dünya müharibəsindən dərhal sonra, müharibə nəticəsində dağıdılmış şəhərlərin, yaşayış məskənlərinin və sənaye müəssisələrinin bərpası problemlərini həll etmək məqsədi ilə yaradılıb.

Hər il bayrama həsr olunmuş müxtəlif tədbirlər memarlıq üzrə müəyyən mövzuya həsr olunur.

**İnternetdə: www.books.google.com**

**4 Oktyabr - Cəbrayıl şəhərinin işğaldan azad edildiyi gün, (2020)**



Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə yenidən yaradılmışdır. 23 avqust 1993-cü il tarixində rayon Ermənistan ordusu tərəfindən işğal edilmişdir. İşğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib. Cəbrayıllı məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşıblar. 4 oktyabr 2020-ci ildə rayonun mərkəzi və bir sıra kəndləri işğaldan azad olunaraq yenidən Azərbaycan torpaqlarına birləşdirildi. Oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun 9 kəndini – Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndlərini işğaldan azad edib. Həmin gün İlham Əliyev Birlik komandirləri – general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib, təbrikləri korpusların bütün şəxsi heyətinə çatdırmağı tapşırıb. Cəbrayıl Kiçik Qafqaz dağlarının cənub-şərqində, Gəyən düzü və Qarabağ silsiləsində yerləşir. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049 kvadrat kilometrdir, ərazisi əsasən dağlıqdır. Araz çayının qırağı vaxtilə Tuqay meşələri ilə sıx olmuşdur. Arazboyu düzənliklərin torpaqları yüksək məhsuldarlığa malik tünd şabalıdı torpaqlardır. Məhsuldar olan Arazboyu torpaqlarda Cəbrayılın iri kəndləri — Böyük Mərcanlı, Soltanlı və s. yerləşir. Cəbrayıl rayonun ən yüksək zirvəsi Dağ Tumasdır (1580 m). Erməni işğalından əvvəl rayonda yaşı 400–500 olan 14 iri diametrli çinar ağacı, 104 kəhriz və 99 bulaq vardı. 1841-ci ildə Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə Şuşa qəzasının tabeliyinə verilmişdir. Cəbrayıl da baramaçılıq, xalçaçılıq ilə məşhur olmuşdur. Qəzada 5 ipək fabrik olub. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tərkibindən çıxarılaraq Yelizavetpol quberniyasının tərkibində Cəbrayıl qəzası yaradılıb. Bu vaxt qəzanın ərazisi 6,63 min km², əhalisi 66.360 nəfər olmaqla indiki Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı və Zəngilan rayonlarının ərazisini əhatə edib. 1876-cı ildə Cəbrayılda ilk rus məktəbi, 1912-ci ildə isə qızlar məktəbi açılıb. XIX–XX əsrin əvvəllərində Rusiya-İran dəmir yolu xəttinin Cəbrayıl ərazisindən keçən hissəsi çəkilib. 1905–1918-ci illərdə qəza Qaryagın qəzası adlandırılıb. 1930-cu il avqustun 8-də mərkəzi Cəbrayıl kəndi olmaqla, Cəbrayıl rayonu təşkil edildi. Rayonun ərazisi indiki hüdudları daxilində sahəsi 1050 km², əhalisi 24.300 nəfər olmuşdur.

İnternetdə: https://az.wikipedia.org/wiki/Cəbrayıl_rayonu

## 4 Oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü, (1931)



Yaşadığımız dünya bizimlə eyni planetdə həyat sürən heyvanların da evidir. Lakin insan fəaliyyəti nəticəsində onların yaşaması, artması üçün bir çox çətinliklər ortaya çıxır. Müəyyən olunmuşdur ki, hər milyon il bütün bioloji növlərin 9 faizi məhv olur. Başqa sözlə desək, hər il canlı varlıqların 1-dən 5-ə qədər növü yox olur. Yer kürəsinin bütün tarixi boyu yoxolma sürəti beş dəfə artmışdır. Sonuncu dəfə tam kütləvi məhvolma 65 milyon il əvvəl, bütün dinozavrların nəsli kəsilərkən baş vermişdir.

Biz insanlar heyvanların dostu və qonşusu kimi onları qorumağa borcluyuq. İlk dəfə Ümumdünya Heyvanları Müdafiə Gününü 1931-ci ildə nəsli kəsilməkdə olan növlərin acınacaqlı vəziyyətinə diqqəti cəlb etmək məqsədi ilə qeyd etməyə başlamışlar. Həmin vaxtdan başlayaraq, milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, hər kəs tərəfindən oktyabrın 4-ü dünyada yaşayan heyvanların günü kimi qeyd olunur. Bu gün hər hansı insan, təşkilat və ya aksiya ilə bağlı deyil. Bu gün – planetdə yan-yana yaşayan bütün insanların və heyvanların günüdür. Bu gün, heyvanların mövcud problemləri haqqında insanların məlumatlandırılması, onların qorunması üçün maarifləndirilməsi və səylərinin birləşdirilməsi üçün çox önəmli bir gündür. Heyvanların qorunması işində hər bir insan iştirak etməlidir.

**İnternetdə: www.books.google.com**

**5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü, (1966)**

*"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir!"*

**Ümummilli lider Heydər Əliyev**



Hər il oktyabrın 5-i Beynəlxalq Müəllim Günü kimi qeyd olunur. 5 oktyabr 1966-cı ildə YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən "Müəllimlərin statusu haqqında" adlı ilk sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Beynəlxalq Müəllim Günü kimi təsis edilmişdir. Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Hal-hazırda "Müəllimlər Günü" dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə keçirilir. Məsələn, müxtəlif əlamətdar hadisələr əsasında Müəllimlər Günü Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə isə 24 noyabr tarixlərində qeyd olunur. Müstəqil Azərbaycanda isə bu tarix 1993-cü il oktyabrın 5-də rəsmiləşdirilib. Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" – deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikri artıq realllığa çevrilib. Ən şərəfli sənət müəllim sənətidir. Çünki bu günümüzün həkimini, polisini, vəkilini, kompüter mühəndisini, memarını hətta müəllimini belə müəllim yetişdirir. Əgər müəllim olmasa bu sadalananların heç biri olmaz. Günlər keçir, illər illərə calanır, insan çox şeyi unudur. Lakin heç zaman ilk müəllim yaddan çıxmır, xatirədən silinmir. Axı insana elm qapısının açarını ilk müəllim təqdim edir, onu əsrarəngiz bir dünya ilə müəllim qovuşdurur.

**İnternetdə: www.books.google.com**

**9 Oktyabr -Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbəsinin erməni işğalçılarından azad olunduğu gün, (2020)**





Hadrut — Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbə inzibati ərazi dairəsində qəsəbə

Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən 2 oktyabr 1992-ci ildə işğal edilmişdir. 9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində azad edilmişdir.

Oykonim İran dillərindəki ha (ara), du (iki) və rud (çay) komponentlərindən düzəlib, "iki çayın arası" mənasındadır. Qəsəbənin adı fars dilində "hədi dü rud", yəni "iki çay arası" mənasına gəlir. Kəndin adı 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nahiyəsinin Haderud kəndi olaraq keçir. Hadrut qəsəbəsinin 1939-cu ilədək adı Dizaq olmuşdur. Qozluçayın dərəsində, Arqu dağının ətəyində yerləşir.

1930-cu ildə burada vəba epidemiyası var idi, onun müalicə olunmasına həkim Lev Zilber başçılıq edirdi. 10 sentyabr 1939–cu ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə respublikanın ərazi-inzibati bölgüsündə bir sıra dəyişikliklər edilib. Belə ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin Dizak və Corabərt rayonları Hadrut və Mardakert rayonları adlandırılıb.

Əhalisi:

2005-ci ildə Dağlıq Qarabağda keçirilən əhalinin siyahıyaalmasına əsasən Hadrut şəhərinin əhalisinin faktiki sayı 2936 nəfər, qeydiyyatdakı əhalinin sayı 2974 nəfər təşkil edirdi.

İnternetdə:https://az.wikipedia.org/wiki/Hadrut

**9 Oktyabr – Ümumdünya Poçt Günü, (1874)**






Oktyabr ayının 9-da bütün dünyada poçt sahəsi işçilərinin peşə bayramı – Ümumdünya Poçt Günüdür. Ümumdünya Poçt İttifaqının (ÜPİ) XIV konqresinin qərarı ilə Ümumdünya Poçt Günü 1974-cü ildə ittifaqın yaranması günü qeyd olunur. 9 oktyabr 1974-cü ildə İsveçrədə 22 ölkənin nümayəndəliyi ilə Baş Poçt Birliyinin əsasını qoyan "Bern sazişi" imzalanıb. Bu gün ÜPİ-yə üzv olan 191 ölkənin hamısında qeyd olunur. 1978-ci ildə birliyin adı dəyişdirilərək Ümumdünya Poçt İttifaqı adlandırılıb. Ümumdünya Poçt Günü hər il 9 oktyabr tarixindən etibarən bir həftə ərzində – "Beynəlxalq məktub həftəsi" adı altında keçirilir. Azərbaycan ÜPİ üzvlüyünə 1993-cü ilin aprelində qəbul olunub. Bu hadisə respublikanın poçt sahəsi üzrə fəaliyyətinin genişlənməsinə böyük imkanlar yaradıb. Ölkəmizdə poçt sahəsini "Azərpoçt" Birgə Müəssisəsi təmsil edir. XX əsrin sonunda SSRİ-nin dağılması və respublikamızın müstəqillik əldə etməsi ilə poçt rabitəsinin inkişafında da yeni mərhələyə start verilib. Respublikada poçt və elektrik rabitəsinin təşkili və xidmətlərin göstərilməsi "Azərpoçt" İstehsalat Birliyi tərəfindən həyata keçirilməyə başlayıb. ÜPİ-nın məlumatına görə, beynəlxalq poçt öz müştərilərininin 6800 dilində danışır və dünyada ən böyük ölçüyə malik fiziki poçtdaşıma şəbəkəsidir.

Ümumdünya Poçt Günü çərçivəsində hər il keçirilən tədbirlər (nadir marka və açıqcaların tematik sərgisi, poçt markalarının şəkillərinin müsabiqəsi, müxtəlif maarifləndirici aksiyalar və s.) müəyyən mövzuya həsr olunur.

**İnternetdə: www.books.google.com**

**10 Oktyabr – Yanğınsöndürənlər Günü, (2002)**



2002-ci il oktyabr ayının 5-də ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 10-nun ölkəmizdə yanğınsöndürənlərin peşə bayramı günü kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır.

Həmin tarixdən etibarən hər il oktyabrın 10-u Yanğınsöndürənlər günü kimi qeyd olunur. XX əsrin əvvəllərində yaradılan Azərbaycan Yanğından Mühafizə Xidmətinin əsas inkişaf dövrü ötən əsrin 70-ci illərinə təsadüf edir. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yanğın təhlükəsizliyi sahəsi daha sistemli şəkildə inkişaf etməyə başladı. Yanğından Mühafizə Xidmətinin maddi-texniki və normativ-hüquqi bazası möhkəmləndirildi, kadr ehtiyatının yaradılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi diqqət yetirildi. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı dövrlərdə də Azərbaycanın yanğın təhlükəsizliyi xidməti inkişafda olmuş, yanğından mühafizə sistemləri təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır.

Azərbaycanda Yanğından Mühafizə Xidməti 1918-ci ildə yaradılıb. Böyük tarixi yol keçmiş Azərbaycan yanğınsöndürmə xidmətinin fəaliyyəti indi bütün ölkəni əhatə edir. Qarabağ müharibəsində 24 yanğınsöndürən şəhid olub, onlardan 2-si Milli Qəhrəmandır.

**İnternetdə:** **www.books.google.com**

## 11 Oktyabr – Dünya Qız Uşaqları Günü, (2011)

***"Uşaqlarınız arasında fərq qoymayın, fərqli davranacaq olsanız belə, qızlarınızı üstün tutun".***

**Məhəmməd peyğəmbər**



Dünya Qız Uşaqları Günü 2011-ci ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş və hər il oktyabr ayının 11-dən qeyd olunmağa başlanmışdır. Əvvəlcə, Türkiyə, Kanada Peru tərəfindən qəbul edilən bu gün getdikcə digər dünya ölkələri tərəfindən də qeyd edilməkdədir. Dünya Qız Uşaqları Gününün məqsədi qız və oğlan uşaqları arasında davam edən ayrı-seçkiliyə diqqət cəlb etmək və bunun qarşısını almağa təşviq etməkdir. 2012-ci ildə başlanılan bu hərəkatın ilk devizi "uşaq nikahları" olmuşdur. 2013-cü ilin əsas mövzusu isə BMT tərəfindən "təhsil" kimi müəyyənləşdirilmişdir. BMT ən nüfuzlu beynəlxalq missiya kimi uşaqlara qarşı ayrı-seçkiliyin bariz şəkildə müşahidə edildiyi təhsil, qidalanma, səhiyyə, şiddət və s. bu kimi sahələrdə müvafiq qurumlar və qeyri-hökumət təşkilatlarının səylərini istiqamətləndirərək qız uşaqlarının həyatı üçün fərqlilik yaratmağa təşviq edir. Qız uşaqlarının həyatı üçün ən böyük ağırlaşdırıcı hallardan biri də erkən evliliklərdir. Qlobal miqyasda 20-24 yaş qrupunda qadınların təxminən üçdə biri, yəni təxminən 70 milyon qadın 18 yaşa qədər ailə qurur. Bu problem, təəssüf ki, bu gün də belədir. 15-19 yaş arası hər 4 qızdan biri şiddət görür. Qız uşaqlarını qorumağın ən yaxşı yolu isə təhsildən keçir. Qız uşaqları təhsil almadıqda cəmiyyətlər çox istiqamətli erroziyaya məruz qalır. Bu vəziyyət ictimai ədalət və bərabərliyin pozulması, cəmiyyətlərin sağlam bir şəkildə gələcəyə köçməməsi, iqtisadiyyatın pozulması, sülh və rifah şəraitinin azalmasına səbəb olur. Bu səbəblərlə, qız uşaqlarımızın təhsil almalarının önündəki bütün maneələr aradan qaldırmalıdır. Çox böyük təəssüf hissi ilə bildirməliyik ki, dünyada üç qız uşağından birinin təhsil haqqı zorakılıq, yoxsulluq və irqçilik səbəbindən pozulur.

Qız uşaqlarının daha yaxşı təhsil almaları və həyat şəraitlərinin yaxşılaşdırılması isə hər ölkənin prioriteti olmalıdır. Dünyada və ölkəmizdə sülhü, firavanlığı, tərəqqini və rifahı ədalətli və bərabər olaraq böyütmək istəyiriksə, əvvəla qız uşaqlarımızın daha çox təhsil almalarına imkan verməli, onları gələcəyin innovativ qız uşaqları olmaları üçün elm və texnologiyalarla daha çox təmin etməliyik. Çünki həyatımızın sağlam və dayanıqlı olması bugünkü qızlarımızın sağlamlıq və təhsil səviyyələri ilə sıx şəkildə bağlıdır.

**İnternetdə: www.books.google.com**

**12 Oktyabr – Ümumdünya Yumurta Günü, (1996)**



Dünyanın bir çox ölkələrində oktyabrın ikinci cümə günü Ümumdünya Yumurta Günü (World Egg Day), deməli, bütün yumurtadan olan yeməkləri, omletləri və s. sevənlərin bayramı qeyd olunur. Yumurta ən universal qida məhsuludur, o bütün ölkələrin və mədəniyyətlərin kulinariyasında istifadə olunur. Kulinariyada yumurtadan ən müxtəlif formalarda istifadə etmək mümkündür.

Bayramın yaranma tarixi belədir: 1996-cı ildə Beynəlxalq Yumurta Komissiyası Vyanada keçirilən konfransında yumurtaya həsr olunmuş günün oktyabrın ikinci cümə günündə keçiriləcəyini elan etmişdir. Bu günlə bağlı yumurta mövzusunda müxtəlif tədbirlər keçirilir: ən yaxşı resept, ən yaxşı şəkil, mühazirələr, aksiyalar, flaşmoblar və s.

Son zamanlar yumurtanın orqanizmə təsiri haqqında müxtəlif fikirlər səslənsə də, yeni tədqiqatlar sübut etmişdir ki, yumurtadan imtina etmək olmaz. Yumurtada yüksəkdəyərli, tez həzm olunan zülal vardır. Dünyada ən çox yumurta Yaponiyada istifadə olunur. Yaponlar gündə ən azı bir yumurta yeyirlər. Amerikalılar isə ildə bir dəfə Nəhəng Omlet Günü keçirirlər.

Bu məhsulun faydası, gərəkliliyi heç kəsə sirr deyil. Yumurta insan qidasının ən universal məhsuludur və onda bir çox zəruri maddələr var. Gündə 1 yumurta nəinki zərərdir, hətta xeyirdir. Toyuq yumurtasından istifadə geniş yayılsa da, tovuzquşu, qırqovul, ördək, qaz yumurtaları da məişətdə istifadə olunur. Amma bu cür quşlar yalnız yay fəslində yumurta verirlər. Bunların içərsində ən böyük yumurta dəvəquşu yumurtasıdır ki, o da qışda olur. İki yumurta 100 qram ətə bərabərdir. Amma bu yumurtalardan həddən artıq deyil, lazımı miqdarda və düzgün qaydada istifadə edilməsi əsas şərtdir.

**İnternetdə:** **www.books.google.com**

**16 Oktyabr – Mütaliə Bayramı, (1989)**



Fransızlar kitabı çox sevirlər, hətta onlar üçün əvəzolunmaz olan kinodan da. Buna görə də məhz Fransada Mütaliə Bayramı yaranmışdır və bu bayram demək olar ki, birnəfəsə keçir. Hər yerdə həm klassik, həm də müasir ədəbiyyata həsr olunmuş konfranslar, görüşlər, seminarlar, mühazirələr keçirilir. İlk dəfə belə ənənə 1989-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilmişdir. Mütaliə edən insanlara təqdim olunan tədbir elə böyük şövqlə qarşılanmışdır ki, heç kəsdə Fransada yeni bayramın yarandığına şübhə qalmamışdır.

Mütaliə Bayramında məşhur yazıçılar öz oxucuları ilə görüşür, onlara özləri, yazdıqları və yazmaq niyyətində olduqları əsərləri haqqında danışır, ümumiyyətlə, ədəbiyyatla bağlı söhbətlər edirlər. Fransa televiziyası isə müxtəlif ədəbi cərəyanlara və onun inkişafında rol oynayan görkəmli şəxsiyyətlərə həsr olunmuş verilişlərə hədsiz geniş efir vaxtı ayırır. Fransada Mütaliə Bayramında çoxlu kitab yarmarkaları keçirilir.

**İnternetdə: www.books.google.com**

## 16 Oktyabr – "Uolt Disney" Şirkətinin Təsis Edildiyi Gün, (1923)



Uolt Disney müasir Avropa kinematoqrafiyasında hakimlik edən çoxsaylı nağıl və multiplikasiyanın əsl ustadı idi. Ömrünü elə də xoş keçirməyən Uolt Disney 1918-ci ildə hərbi xidmətə getmək istəyir, ancaq yaşının azlığı ona bu istəyini reallaşdırmağa imkan vermir. Belə olan halda o, tibb sahəsinə yönəlir və xaricə göndərilərək, bir il sanitar maşınında sürücü işləyir. Kanzas–Sitiyə qayıtdıqda Uolt kommersiya studiyalarının birində bədii direktor kimi işləməyə başlayır. Burada o, gənc rəssam Ayverksomla tanış olur və onlar bir yerdə studiya açırlar. Qısa zaman ərzində işlənmiş kamera əldə edərək, xronometrajı 2 dəqiqə olan reklam çarxları çəkirlər. Az sonra onlar Hollivud kino sənayesinə yaxın olmaq üçün studiyalarını Los-Ancelesə köçürürlər. Amma Uolt multiplikasiyaya olan həvəsini boğa bilmir. Bir gün o, cibində 40 dollarla şəhərdən çıxıb getmək istədikdə qardaşı Royla rastlaşır. Onlar olan-qalan bütün pullarını toplayıb 500 dollar da borc pul götürür və əmilərinin qarajında Disney Brothers studiyasını açırlar. Və burada "Alisa möcüzələr ölkəsində" ilk multipikasiya filmlərini yaradırlar. 1923-cü il oktyabrın 16-da qardaşlar New York distributoru Marqaritlə filmin çəkilişi üçün müqavilə bağlayır və studiyanın adını Uolt Disney company kimi dəyişirlər. 1948-ci ildə Uolt Disney multiplikasiya ilə yanaşı, özünün məşhur rəngli təbiət filmlərinin istehsalına başlayır. Bununla paralel olaraq o, uşaq filmləri üzərində də işləyir. 1955-ci ildə Disney Kaliforniyada "Attraksionlar parkı" adlı ilk Disneylandi açır. Ötən əsrin 60-cı illərində Disney Amerikada şəhər həyatını yaxşılaşdırmaq məqsədilə bir neçə layihə həyata keçirir. O, Manhettendən iki dəfə böyük ərazi olan istifadəsiz torpaq sahəsi alır. Burada əyləncə mərkəzləri, kurortlar, mehmanxanalar, motellər sənaye kompleksi, gələcəyin aeroportunu yerləşdirərək yeni Disney dünyası yaratmağı planlaşdırır. Ancaq şəhərciyin açılışı Uolt Disneyin ölümündən çox sonra, 1971-ci ildə baş tutur. Kaliforniya İncəsənət İnstitutu da elə onun adı ilə bağlıdır. Daha bir universitet şəhərciyi isə Los-Ancelesin şimal-şərqində, Valensia şəhərində yaradılıb. Sözügedən şəhərcikdə musiqi və təsviri sənətlə yanaşı, kinematoqrafiya, teatr, heykəltaraşlıq və moda tədris olunur. Uolt Disney hər şeydən əvvəl multiplikatordur. Onun filmlərini elə indi də, həm böyüklər, həm də uşaqlar sevə-sevə izləyirlər. Disney 1966-cı ildə dünyasını dəyişib. O, təltif olunduğu Oscarların sayına görə çempion hesab olunur. Uolt 59 dəfə namizədi olduğu bu mükafatın 26-sını əldə etməyi bacarıb.

**İnternetdə: [http://mid.az/maraq/10973-uolt-disney-shirketinin-tarixi.html](http://mid.az/maraq/10973-uolt-disney-shirketinin-tarixi.html)**

**16 Oktyabr – Ümumdünya Çörək Günü, (2006)**



Ümumdünya Çörək Günü Beynəlxalq çörək sexlərinin təşəbbüsü ilə 2006-cı ildə keçirilmişdir. Bu gündə 1945-ci il oktyabrın 16-da Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı yaranmışdır. Tanrı sovqatı olan çörək, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanlar üçün müqəddəs nemətdir. Azərbaycanlılar çörəyi hər şeydən üstün tutur, onu duz ilə birlikdə süfrəyə birinci gətirir və süfrədən də axırda aparırlar. Çörək xalqın və bütövlükdə ölkənin sərvəti olmaqla yanaşı, həm də qüdrətidir. Əsl çörək bişirənlər qədim misirlilər sayılır. Sonralar çörəkbişirmə peşəsi qədim yunanlara da keçib. Onlar çörəyi gildən düzəldilmiş formalarda bişirirdilər. Həmin formalara "klibanos" deyirdilər. Qədim qotların çörəyə verdikləri "xlayfs", qədim alman dilində "xlayb", rusların "xleb", ukraynalıların "xlib", estonların "leyb" adları "klibanos" adından törənmiş sözlərdir. Dünyanın bir çox ölkələrinin arxeoloqları sübuta yetirmişlər ki, ilk çörək bitkisi müasir çovdar və buğda yox, şam olub. Misir ehramlarında aparılan axtarışlar zamanı tapılmış heykəlciklər və digər əşyalar göstərir ki, qədim misirlilər dəni üyüdüb un almaqla bərabər, undan çörək bişirməyi də bacarırdılar. Bişmiş çörəyin dadı tərkibindəki üzvi turşuların qədərindən asılıdır. İnsan həyatı boyu digər qida məhsulları ilə birlikdə təqribən 15 ton çörək yeyir. İnsanın sağlamlığı üçün çörək ancaq su ilə müqayisə edilə bilər. Bəlkə də, çoxları çörəyin gənclik vitamini sayılan E vitamininin, habelə PP və B qrupu vitaminlərinin mənbəyi olduğunu bilmirlər. Həmin vitaminlər insan beynini aktivləşdirir, onun yorulmasına və fəaliyyətsizliyinə imkan vermir. Çörəkdə həzm prosesini yaxşılaşdıran və orqanizmin təmizlənməsinə kömək edən sellüloz var. Çörək insan orqanizminin sulu karbonlara sutkalıq tələbatını təmin edir. Çovdar çörəyi çox faydalıdır. Çovdar çörəyi qanda xolesterinin miqdarını azaldır, maddələr mübadiləsini yaxşılaşdırır, orqanizmdən şlakları təmizləyir, onlarca xəstəliyin, o cümlədən onkoloji xəstəliklərin qarşısını almağa kömək edir. Çovdar çörəyi aşağı energetik dəyərə malik olduğu üçün bəzi ölkələrdə pəhriz ərzağı kimi istifadə olunur. Parisdə, Sankt-Peterburqda, Lvovda və sair yerlərdə çörək tarixi muzeyləri yaradılmışdır. Həmin muzeylərdə böyük sayda eksponatlar – qədim avadanlıqlar, müəssisə veteranlarının və onların qohumlarının muzeyə hədiyyə etdikləri sənədlər, şəxsi əşyalar, həbsxana kameralarında məhbusların çörəkdən hazırladıqları əşyalar, arxiv sənədlərinin surətləri, çörəyə aid nadir fotomateriallar saxlanır.

**İnternetdə: www.books.google.com**

**17 Oktyabr – Füzuli şəhərinin işğaldan azad edildiyi gün, (2020)**



Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. 1993-cü ildən ərazinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

2020-ci il 17 oktyabr tarixində Füzuli şəhəri işğaldan tam azad olunmuşdur. Füzuli Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Füzuli rayonunun ərazisi 1386 km², əhalisi isə təxminən 144 min nəfərdir. Rayonda 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 24 kənd vardır. Qəsəbələrdən 12-si ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır. 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, 9 oktyabr-da Yuxarı Güzlək, Gorazıllı, 14 oktyabr-da Qaradağlı, Xatunbulaq, Qarakollu, 15 oktyabr-da da Arış kəndi işğaldan azad edilib. 17 oktyabr 2020-ci ildə isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olunmuşdur. Davam edən əməliyyatlar nəticəsində 20 oktyabr-da Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, 21 oktyabr-da Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri, 28 oktyabr-da Mandılı, 07 noyabr-da Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar və Divanalılar, 09 noyabr-da Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu və Ələsgərli kəndləri Azərbaycan Silahlı qüvvələri tərəfindən Ermənistanın işğalından azad edilmişdir. Bölgə inzibati ərazi vahidi kimi 1827-ci il sentyabrın 10 yaradılmış və ilkin adı Qarabulaq olmuşdur. Rayon kimi 8 avqust 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Karyagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal — Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km. aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarladı. Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII–XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələr ermənilərin vəhşi vandalizminə məruz qalmış, məhv edilmiş, yandırılmışdır. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Füzuli səhəri Yağlıvənd,Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Di lağarda, Govşad, Xələfşə, Mollavəli, Xatunbulaq kəndlərinin əhalisi çəkmişlər. 23 Avqust 1993-cü ildə Füzuli Ermənistan ordusu tərəfindən işğal olunmuşdur.17 oktyabr 2020-ci ildə isə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad olunmuşdur. 51 kənd və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulub. Lakin Azərbaycan ordusunun 1994-cü ilin dekabr ayında başlatdığı Horadiz əməliyyatı nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Azərbaycan ordusu daha sonra Füzuli şəhərinin işğaldan azad olunması üçün hücuma keçsə də, bu əməliyyat uğursuzluqla nəticələndi. Hal-hazırda işğaldan azad olunmuş torpaqlarda əhali öz doğma torpaqlarına qayıtmışdır. 1995–1997-ci illərdə Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərinə 40.000 dinc sakin qayıdaraq öz normal həyatlarını bərpa ediblər. Atəşkəs müqaviləsi imzalanmasına baxmayaraq, cəbhənin bütün istiqamətlərində olduğu kimi Füzuli rayonu ərazisində də tez-tez atəşkəs pozulur. Rayon üçün digər bir problem işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsidir. Atəşkəs razılaşması imzalandıqdan sonra Füzuli rayonu ərazisinin minalardan təmizlənməsi işlərinə başlanılıb.

İnternetdə:https://az.wikipedia.org/wiki/Füzuli_rayonu

**17 Oktyabr – Ümumdünya Yoxsulluqla Mübarizə Günü, (1992)**



Bu günün tarixi 1987-ci ildən başlayır. 23 il əvvəl oktyabr ayının 17-də yüz minə yaxın insan 1948-ci ildə İnsan Haqları Haqqında Ümumi Deklarasiyanın imzalandığı Parisin Trokadero meydanına toplaşmışdı. Məqsəd bütün dünyadakı yoxsullara, aclıqdan əziyyət çəkən insanlara diqqət çəkməkdən ibarət idi. 1992-ci il 22 dekabr tarixində isə Birləşmiş Millətlər Təşkilatının 17 oktyabr tarixini Yoxsulluqla Mübarizə Günü kimi elan etdi. Hal-hazırda bütün dünyada milyonlarla insan yoxsulluqdan, aclıqdan əziyyət çəkir. Dünyada bu qədər aclıq, yoxsulluq olmasının əsas səbəblərindən biri israfın qlobal səviyyədə artmasıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına görə, dünyada istehlak üçün istehsal edilən hər 3 qidadan biri yeyilmədən zibilliyə atılır. Dünya səviyyəsində israf edilən qida miqdarı isə ildə 1.3 milyard tondur. Dünya Bankının hesabatlarına görə, inkişaf etmiş ölkələrin zibilliklərinə atılan qidalar dünyada acından ölən insanların 15 mislini doyuracaq səviyyədədir. Yəni, dünyada aclıq və ya qıtlıq problemi yox, sevgisizlik və laqeydlik problemi var. Yəni uşaqlar əslində acından ölmür, dəhşətli sistemin qorxunc nəticəsi olaraq həyatını itirir. Yaxşı planlama ilə israfın qarşısı alına bilər. Dünyadakı zənginliklər balanslı şəkildə bölüşdürülərək aclıq probleminin həll etmək mümkün olduğu halda, bu gün aclıq “dünyanın ən böyük 10 sağlamlıq riski”siyahısında hələ də birinci yerdədir. Bu mövzuda Fransa höküməti başqa dövlətlərə də nümumə olacaq bir addım atıb. Parlamentdə qəbul edilən qanuna görə, topdan satışla məşğul olanlar əllərində qalan ərzaq məhsullarını artıq zibilliyə atmayacaq. Satılmamış qidanın istehlak edilə bilməyəcək səviyyəyə gətirilməsi də qadağan edilir. Satılmayıb əldə qalan qida bağışlanmalı, heyvan yemi olaraq və ya gübrə kimi əkinçilikdə istifadə edilməlidir. Fransanın atdığı bu addım, başda inkişaf etmiş ölkələr olmaqla, hər ölkənin həyata keçirməli olduğu vacib siyasətdir. Təəssüf ki, dünyadakı olduqca böyük kütlə öz varlığını hər şeydən önəmli görür. Bunun adı isə eqoizmdir. İsraf bəlasının yer üzündən silinməsi, ancaq insanların eqoizm və acgözlüklərini tərk etmələri ilə mümkün olar. Buna nail olmağın isə bir yolu var: sevgi. Sevgini bilməyən bir insana şəfqəti, qoruyuculuğu, paylaşmağı və paylaşmanın verdiyi xoşbəxtliyi öyrətməyin yolu yoxdur. Dolayısı ilə dünyanın üz-üzə qaldığı bu aclıq və qıtlıq faciəsinə diqqət çəkmək istəyənlər ilk öncə insanlara sevgini öyrətməklə işə başlamalıdırlar. Dünyada aclıqla mübarizə aparan qurumlar ilk öncə şəfqətin gözəlliyini insanlara tanıtmalı, sonra onlara yol göstərməlidirlər.

**İnternetdə: www.books.google.com**

**18 Oktyabr – Azərbaycan  Respublikasının Dövlət Müstəqilliyi Günü, (1991)**

***“Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir”.***

**Ümummilli lider Heydər Əliyev**



XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etmişdir. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – “Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı” qəbul edilib. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılıb və əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verib. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edilib. Tarix sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı.  İkinci tarixi imkan bir də, təxminən, 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi  şəraitdə fəaliyyət göstərməyə başladı. Azərbaycan müstəqilliyini ilk olaraq qardaş Türkiyə Respublikası (1991-ci il noyabrın 9-da) tanıdı. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən  əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

İnternetdə: www.books.google.com

Azərbaycan Milli Ensiklopediyası:25 clddə.C.1-2.-Bakı, 2009-2010

**20 Oktyabr – Zəngilan şəhərinin işğaldan azad edildiyi gün, (2020)**



Zəngilan rayonu — Kiçik Qafqaz dağ silsiləsinin cənub-şərqində, Araz çayının sol sahilində yerləşir. Qərbdə və şimal-qərbdə Ermənistan Respublikasının Sünik mərzi ilə, cənubda və cənub-şərqdə İran İslam Respublikasının Şərqi Azərbaycan ostanı ilə həmsərhəddir.İnzibati mərkəzi Zəngilan şəhəridir. Rayon 1930-cu ildə təşkil olunmuşdur. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Rayon işğal olunmazdan qabaq erməni qüvvələri tərəfindən tam olaraq mühasirəyə alınmışdı və on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə idi. Hər tərəfdən mühasirədə qalan sakinlər Araz çayını keçərək xilas olmuşdular. Uzun müddət düşmən tapdağında qaldıqdan sonra 20 oktyabr 2020-ci ildə Zəngilan şəhəri və Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri, 21 oktyabr 2020-ci ildə Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qıraq Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri, 22 oktyabrda Kolluqışlaq, Malatkeşin,KəndZəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, ÇöpədərəTatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.Şərqlə qərbin qovuşduğu yerdə yerləşən bölgə, ticarətdə əsas əlaqələndirici məntəqələrdən olmuşdur. Bölgənin tarixinin qədimliyini, qalalar, müşahidə məntəqələri, arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət abidələri və nümunələri, qədim sikkələr və məişət qabları sübut edir. Rayonun ərazisində 60-cı illərdə təsərrüfat işləri zamanı xeyli küp qəbirlər (küb qəbirlər Azərbaycanda e.ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur) və e. ə. IV -II əsrlərə aid edilən və əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir.

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. "Zəngilan şəhəri" dedikdə əslində Pircavan şəhəri nəzərdə tutlmalıdır. Çünki Zəngilan şəhərinin əsl adı Pircavan yaxud da Pirçivan olmuşdur. Zəngilan isə həmin şəhərin və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı idi. Lakin sözün kökündə "Pir" sözü olduğu üçün, yaxud da tariximizi təhrif etmək məqsədi ilə rayona 1930-cu ildə Zəngilan adı verilmişdir. İlk adı Pircavan olan bu şəhər isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır, və 1967-ci ildə hazırkı Zəngilan şəhərinə şəhər statusu verildi.

Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə (Ağ oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd olmuşdur.

Kəndləri bunlardır: Beşdəli, Genlik, Keçikli, Malatkeşin, Sarıqışlaq, Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Birinci Alıbəyli, Xumarlı, İkinci Alıbəyli, Sarıl, Bartaz, Qarqulu, Tatar, Tiri, Şəfibəyli, Məşədi İsmayıllı, Şərikan, Bürünlü, Yuxarı Yeməzli,

Rəbənd, Yenikənd, Zəngilankənd, Cahangirbəyli, Turabad, Vəliqulubəyli, Canbar, Ağkənd, Dərəli, Gün-Qışlaq, Qazançı, Pirveys, Yuxarı Çöpdərə, Baharlı, Dəlləkli, Sobu, Böyük Gilətağ, Aladin, Dərə Gilətağ, Mirzəhəsənli, Üdgün, Şamlı, Vənəndli, Hacallı, Seyidlər, Vejnəli, Ağbənd, Əmirxanlı, Qıraq Müşlan, Məlikli, Muğanlı, Xurama, Muğanlı, Şərifan, İsgəndərbəyli, Ağakişilər, Ağbis, Məmmədbəyli, Babaylı, Ördəkli, Qaradərə, Qaragöz, Rəzdərə, Kolluqışlaq, Şatarız, Şayıflı, Aşağı Gəyəli, Qaragöl, İçəri MüÇlan, Tağlı, Yusiflər, Aşağı Yeməzli, Orta Yeməzli, Quyudərə Xəştab, Sarılı Xəştab, Zərnəli, Havalı, Nəcəflər.Əsrin əvvəllərində rayon mərkəzinin yerləşdiyi ərazi əsasən bəylərin çəltik zəmilərindən və onların özlərinə məxsus yaşayış evlərindən ibarət idi. Zəngilan şəhəri 4 kilometrlik bir məsafədə Oxçu çayın sağ sahilində, Çeşməgözlü deyilən bir yerdən cənuba doğru əhəng quyularına qədər bir ərazidə salınmışdı. Bu şəhərin özünün bir çox məhəllələri vardır. Çeşməgözlü, Köhnə Pirçivan, MTS məhəlləsi, Məscid düzü, Şaftalı dərəsi, Kirdəzir dərəsi, Bağırsaq dərə, Muncuqlu dərə, “Rayşelk” (ipək idarəsi olan yer) Pavilyon məhləsi ,Çala dərə ,Üst məhlə və s. məhəllələri vardır. Zəngilan inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Ərazisi – 707 $km^2$-dir.

Zəngilan rayonu şimaldan Qubadlı və Cəbrayıl, cənubdan və şərqdən İran İslam Respublikası, qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir.

Rayon ərazisi Kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu hissədə yerləşir. Ərazinin özünəməxsus gözəllikləri, sıldırımlı qayaları, laləli düzləri, göz oxşayan meşələri və kolları vardır. Rayonun ərazisi mürəkkəb səth qurluşuna malikdir. Ərazi çay dərələri ilə parçalanaraq dərin dərələr əmələ gətirir. Rayon ərazisində əsasən Mezozoy gili sistlər, Yura təbaşir yaşlı əhəng və qumdaşları bir çox yerlərdə çökmə və vulkan mənşəli suxurlar yayılmışdır. Dağlıq ərazilərdə yayılmış Yura və Təbaşir dövrü süxurları 150-200 min il əvvələ aiddir. Ərazidə Bazarçay silsiləsinin Barbar və Sələfir zirvələri (2270 metr yüüksəklikdə) vardır ki, bu silsilə də Ağbənd, Vejnəli yaxınlığında Araz dərəsinə düşür. Burada zəngin qızıl yataqları (Vəjnəli) vardır. Şükürataz yüksəkliyindən başlanan başqa bir sıra Sobu-Top -Dəlləkli kəndləri istiqamətində Araza doğru enir. Rayonun ərazisində dağlıq hissələrdə sıx meşələr yayılmışdır. 1800-2000 metr hündürlükdə olan enli yarpaqlı meşələr getdikcə enərək subalp və alp çəmənliklərinə keçir. Zəngilan rayonunda Dünyada ll, Avropada l nadir çinar meşələri vardır. Rayonun ərazisi müalicə əhəmiyyətli bitgilərlə və bulaqlarla zəngindir. Ərazidə zəngin tikinti daşı, gil, mərmər və s. materiallar vardır.

İnternetdə:https://az.wikipedia.org/wiki/Zəngilan_rayonu

**20 Oktyabr – Beynəlxalq Kulinariya Günü, (2007)**



Ümumdünya Kulinariya Təşkilatları Birliyi 2004-cü ildə İrlandiyanın Dublin şəhərində keçirdiyi beynəlxalq konfransda hər il oktyabrın 20-i Beynəlxalq Kulinariya Günü kimi elan edilməsi haqda qərar qəbul edib. Beynəlxalq Kulinariya Günü Azərbaycanda 20 oktyabr 2007-ci ildən etibarən təntənəli şəkildə qeyd olunur. Beynəlxalq Kulinariya Gününün bayram kimi keçirilməsi ona görə əhəmiyyətlidir ki, gənc nəsil Azərbaycanın milli kulinariyasının sirlərinə bələd olur, gələcəkdə ölkənin hüdudlarından kənarda xalqı layiqincə təmsil etmək imkanı qazanır. Hər xalqın özünəməxsus tarixi, ədəbiyyatı, folkloru, milli adət-ənənəsi olduğu kimi, özünəməxsus mətbəxi də mövcuddur. Xalqımızın milli mətbəx mədəniyyətinin öyrənilməsi və təbliği ilə məşğul olan Azərbaycan Milli Kulinariya Mərkəzi (AMKM) isə 1991-ci ildə yaradılıb. Bu təşkilat 1992-ci ildən Ümumdünya Kulinariya Təşkilatları Birliyinin üzvüdür. Ölkəmiz keçmiş SSRİ ərazisindən və Türk dünyasından bu quruma qəbul edilən ilk dövlət olub. 1993-cü ildə Azərbaycan komandası ilk dəfə Maltada keçirilən Dünya kulinariya çempionatına qoşulub və qızıl medalla vətənə dönüb. Çünki Milli Kulinariya Mərkəzi yarandığı gündən aparıcı kulinarları, səliqə-sahmanı və bu sahədə yaradıcılıq fantaziyası olan mütəxəssisləri ətrafında birləşdirib. Qatıldığı bütün yarışlarda birinciliyi əldən verməyən milli kulinariya ustalarımız dünyanın bir neçə ölkəsində xalqımıza məxsus zəngin mətbəx mədəniyyəti nümayiş etdiriblər. Hətta Malta Prezidenti Qvide de Marko, İngiltərə şahzadəsi Anna azərbaycanlı kulinarların əl qabiliyyətinə heyran qalmış, onları qəbul etmiş, mükafatlandırmışlar. Kulinariya özü də bir yaradıcılıqdır. Ölkəmiz 1998-ci ildən YUNESKO-nun Xalq Yaradıcılığı Təşkilatının da üzvüdür. Azərbaycanın mətbəx tarixinə, mədəniyyətinə də qısqanclıqla yanaşan bədnam qonşularımız bir neçə beynəlxalq yarışlarda xalqımıza məxsus xörəkləri, şirniyyatları və süfrəbəzəmə ənənələrini öz adlarına çıxaraq erməni mətbəxi kimi dünyaya tanıtmaq istəmişlər. Lakin həmin yarışlara qatılan, bəzən də həmin tədbirlərdə münsif kimi çıxış edən AMKM mütəxəssisləri isə tezliklə bunun qarşısını almışlar. Nəticədə erməni jurnalistləri və bu sahənin alim və mütəxəssisləri bəzi dünya yarışlarından təcrid edilmişlər.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**20 Oktyabr – Energetiklər Günü, (2004)**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə hər il oktyabrın 20-si ölkəmizdə energetiklərin peşə bayramı kimi qeyd edilir. Məqsədyönlü enerji siyasəti dövlətin milli təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafında çox mühüm əhəmiyyətə malikdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir. Bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektrik enerjisi üzrə proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də böyük nailiyyətlərin əldə olunmasına geniş imkanlar yaratmışdır. Bu ordenli-titullu mütəxəssislər gələcəkdə estafeti gənclərə vermək üçün sabahın daha müasir elektrik avadanlıqlarını bacarıqla idarə edə biləcək gənc energetiklər nəslinin yetişdirilməsinə də xüsusi diqqət və qayğı göstərirlər.

**İnternetdə: www.books.google.com**

**22 Oktyabr – Beynəlxalq Məktəb Kitabxanaları Günü, (1999)**



Beynəlxalq Məktəb Kitabxanaları Günü YUNESKO-nun təşəbbüsü ilə 1999-cu ildən etibarən qeyd olunur. İlk dəfə bu günün qeyd olunmasını Beynəlxalq Məktəb Kitabxanaları Birliyinin prezidenti Blanş Vullz elan edib. 2005-ci ildə bu bayramın rəsmi statusunu birliyin yeni prezidenti Piter Cenko təsdiqləyib.

2008-ci ildən bu günün qeyd olunması aylığa çevrilib (22 oktyabr – 22 noyabr). Bu isə hər bir məktəb kitabxanasına ay ərzində ən münasib tarixi seçərək bayramı qeyd etməyə imkan verir.

Kitabı uşaqlara ən yaxşı tanıdan kitabxanalardır. Burada ayrı-ayrı fənlərə aid əlavə materialları, tarixə, ədəbiyyata dair müxtəlif kitabları, ensiklopediyaları, bir sözlə, axtarılan sualların əksəriyyətinə cavab verəcək mənbələri tapmaq mümkündür.

**İnternetdə:** **www.books.google.com**

**24 Oktyabr – Birləşmiş Millətlər Təşkilatı Günü, (1945)**



Millətlər Cəmiyyəti 1927-ci ildə arbitraj və təhlükəsizlik üzrə xüsusi komissiya yaratdı. Həmin dövrdə Millətlər Cəmiyyətinin üzvü olan bütün ölkələr yeni müharibənin alovlanmasına yol verməmək üçün təntənəli şəkildə and içdilər. Ancaq andın mətni son dərəcə qeyri-müəyyən idi: dünyada heç bir ölkə başqa ölkəyə hücum edib müharibəyə başlaya bilməz. Tələb belə idi: bütün müharibələr müdafiə xarakteri daşımalıdır. Buna baxmayaraq, 1939-cu ildə Almaniya Çexoslovakiya və Polşaya soxuldu. Bununla da İkinci Dünya müharibəsi başlandı. Bu, Millətlər Cəmiyyətinin dağılması demək idi. İkinci Dünya müharibəsi (1939-1945) başa çatanda dünya xalqları bir daha qətiyyətlə dedilər: "Müharibə olmasın!" Çünki bu dəfə müharibə 60 milyon insanın həyatına son qoymuşdu. Əbədi sülhü bərqərar edib, möhkəmləndirən yeni beynəlxalq birliyin yaradılması zərurəti meydana çıxdı. Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər arasında dinc əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə müstəqil dövlətlərin könüllü birləşməsi nəticəsində yaranan beynəlxalq təşkilat oldu. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin ilin 24 oktyabrında qüvvəyə minmişdir. Odur ki, 24 oktyabr beynəlxalq aləmdə BMT Günü kimi qeyd olunur. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə düşür. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Məclis, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT Baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-nin iqamətgahı Nyu-Yorkda yerləşir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdır. BMT yarandığı vaxtdan bəri onun yeddi baş katibi olmuşdur: Treqvi Li (Norveç), Daq Hammarskold (İsveç), U Tan (Birma), Kurt Valdhaym (Avstriya), Havyer Peres de Kuel (Peru), Butros-Butros Qali (Misir), Kofi Annan (Qana). BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir. BMT-nin münaqişə zonalarında yerləşdirmək üçün müxtəlif ölkələrin hərbiçilərindən təşkil olunmuş və "mavi dəbilqəlilər" adlanan sülhməramlı qoşun kontingenti də vardır. Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 №-li qətnamələr qəbul edilmişdir.

**İnternetdə:**[**www.books.google.com**](http://www.books.google.com)

**25 Oktyabr - Qubadlı şəhərinin işğaldan azad edildiyi gün, (2020)**



Qubadlı şəhəri — Azərbaycanın Qubadlı rayonunun inzibati mərkəzi, Qubadlı şəhər inzibati ərazi dairəsində şəhər. 1993-cü ilin 31 avqust tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. 2020-ci il 25 oktyabr tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildiyi prezident tərəfindən bəyan edilmişdir.Qubadlı rayonu 14.03.1933-cü ildə yaradılmışdır. Rayonda 1 şəhər (Qubadlı) 93 kənd vardı. Sahəsi 802 kv/km, əhalisi 38,1 min (01.01.2010) nəfərdir. Bərgüşad çayının hər iki sahilində yerləşən Qubadlı şəhərinin əhalisi 5604 nəfərdir. 30500 nəfərlik Qubadlı əhalisi 94 kənd və bir şəhərdə məskunlaşırdı. Rayonun əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmuşdur.Bərgüşad çayının hər iki sahilində yerləşən Qubadlı şəhərinin əhalisi 5604 nəfərdir. 30500 nəfərlik Qubadlı əhalisi 94 kənd və bir şəhərdə məskunlaşırdı. Rayonun əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmuşdur. Kəndləri bunlardır: Balahəsənli, Aşağı Cibikli, Xallava, Yuxarı Cibikli, Bala Soltanlı, Qaramanlı, Padar, Başarat, Armudlu, Deşdahat, Hat, Milanlı, Çardaqlı, Əyin, Xələc, Tarovlu, Çərəli, Boyunəkər, Saldaş, Dəmirçilər, Poladlı, Dondarlı, Diləli Müskənli, Mirlər, Göyərcik, Əliquluuşağı, Fərcan, Göyyal, Hərtiz, Zor, Bəxtiyarlı, Sara y, Hal, Ballıqaya, Qəzyan, Məmər, Mollalı, Həmzəli, Çaytumas, Əfəndilər, Yusifbəyli, Xanlıq, Xocahan, Qilican, Tinli, Xocik, Mərdanlı, Qaracallı, Qarağac, Qarakişilər, Qaral ar, Hüseynuşağı, Kavdadıq, Qayalı, Abdalanlı, Ləpəxeyranlı, Mahmudlu, Mahruzlu, Mu radxanlı, Muğanlı, Məlikəhmədli, Qundanlı, Alaqurşaq, Davudlu, Eyvazlı, Gürcülü, Qə dili, Məzrə, Sarıyataq, Tatar, Qaraqoyunlu, Qiyaslı, Teymur Müskanlı, Xıdırlı, Ulaşlı, Altınca, Əbilcə, Yuxarı Xocamsaqlı, Aşağı Xocamsaqlı, Mehrili, Yuxarı Mollu, Aşağı Mollu, Mollabürhan, Zilanlı, Kürd Mahruzlu, Seləli, Novlu, İşıqlı, Həkəri, Cılfır, Seytas, Göyər Abbas, Xəndək. Qubadlı rayonu ilə Bakı arasında olan məsafə 403 kilometrdir. Qubadlı rayonu 31 avqust 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur.25 oktyabr 2020-ci ildə rəşadətli Azərbaycan ordusu Qubadlı şəhərini işğaldan azad etmişdir. .Qubadlı və onun ətrafında yerləşən kəndlər hələ XVIII əsrdə Qarabağ inzibati ərazisinə daxil idi. Sonralar Zəngəzur mahalına daxil olan Qubadlı 1868-ci ildə Yelizavetpol quberniyası yaranandan sonra Zəngəzurun tərkibinə daxil olmuşdur. Ermənistanın Gorus, Qafan rayonları və Zəngilan, Cəbrayıl, Laçın və Xocavənd rayonları ilə həmsərhəddir. Qubadlı şəhəri Qarabağ yaylasının cənub-şərqində, Bazar-çayın sahilində yerləşir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Qubadlı

**28 Oktyabr – Beynəlxalq Animasiya Günü, (2002)**



Beynəlxalq Animasiya Günü (International Animation Day) 2002-ci ildən etibarən qeyd edilir. Beynəlxalq Animasiya Filmləri Assosiasiyasının Fransa bölməsinin təşəbbüsü ilə, 1892-ci ilin 28 oktyabrında fransız rəssam və ixtiraçı Emil Reynonun icad etdiyi praksinoskopun ilk nümayişinin 110 illik yubileyi münasibətilə təsis olunub. Bu günün neçə yüz illik tarixi var.

İxtiraçı "optik teatr" adlanan bu cihaz vasitəsilə əllə çəkilmiş rəsmləri hərəkətə gətirib. Animasiya sənəti bu gün elə bir dövrünü yaşayır ki, ona nəinki uşaqlar, böyüklər də həvəslə baxırlar.

Baxmayaraq ki, Hollivud maraqlı animasiya məhsulu ilə bizi tez-tez sevindirir, lakin milli cizgi filmlərimizin yaddaşımızda öz yeri var.

Azərbaycanda 1969-cu ildən bu günə qədər 92, son 10 ildə isə təxminən 20-yə yaxın cizgi və animasiya filmi istehsal edilib.

Filmlərin nümayişinə gəlincə F.Əhmədov bildirdi ki, kinoteatra ən azı 1 saatlıq film verilməlidir. Bizim filmlərin böyük əksəriyyəti 10 dəqiqəlikdir.

Səbəb isə animasiyanın böyük vaxt və zəhmət tələb etməsidir. Ona görə də tammetrajlı animasiya filminin istehsalı nəzərdə tutulub və onun prokatı təşkil olunacaq.

**İnternetdə:www.books.google.com**

**30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü, (1974)**



Bu günün tarixi 1974-cü il 30 oktyabr tarixində keçmiş SSRİ-də məhkum olunmuş siyasi məhbus Kronid Lyubarski tərəfindən Mordovia və Perm düşərgələrinin digər məhbusları Beynəlxalq Siyasi Məhbuslar Gününü həbsxanada aclıq edərək, siyasi repressiya qurbanlarının xatirəsinə şam yandırmaqla qeyd etməyə başlayıblar. Elə həmin gün Sergey Kavalyov Andrey Saxarovun evində mətbuat konfransı təşkil edərək həbsxanada keçirilmiş bu aksiya barədə məlumat verib, həbsxana düşərgəsindən bəzi sənədləri ictimailəşdirib və siyasi məhbusların sözlərini ictimaiyyətə çatdırıb. Bir neçə aydan sonra bu mətbuat konfransının təşkili Kavalyovun ittihamnaməsinin tərkib hissələrindən birinə çevrilib. Bu hadisədən sonra oktyabrın 30-u Beynəlxalq Siyasi Məhbuslar Günü və Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü kimi qeyd olunur.

**İnternetdə: www.books.google.com**

**Yubilyar yazıçı və şairlər**
**10 Oktyabr - Abbas Zamanovun 110 illiyi, (10.10.1911-01.04.1993)**



**Zamanov Abbas Fəttah oğlu — tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, mətnşünas, 1982-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1968), professor (1971), Azərbaycanın Əməkdar elm xadimi (1980), Azərbaycan EA müxbir üzvü (1983), Türk Dil qurumunun müxbir üzvü (1971), Səlcuq Universitetinin (Türkiyə) fəxri doktoru (1988)**

Abbas Zamanov 1911-ci il oktyabrın 10-da Naxçıvan MR Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Naxçıvan və Bakı şəhərlərində uşaq evlərində yaşamışdır (1921-1927). Bakı pedaqoji texnikumunu bitirdikdən sonra rəhbər komsomol işçisi kimi çalışmışdır (1929-1937), iki il "Gənc işçi" qəzeti redaksiyasında məsul redaktorun müavini vəzifəsində işləmişdir (1933-1934). Sonra "Ədəbiyyat" qəzetində məsul katib və Azərnəşrin bədii ədəbiyyat şöbəsində müdir (1937-1939) olmuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini qiyabi bitirmiş və oraya müəllimliyə dəvət edilmişdir. Ədəbi fəaliyyətə 1937-ci ildə çap etdirdiyi publisist və elmi-kütləvi məqalələrlə başlamışdır. Həmin vaxtdan ölkəmizdə və onun hüdudlarından uzaqlarda XX əsr Azərbaycan ədəbiyyatına dair elmi-tədqiqat əsərləri müntəzəm dərc olunmuşdur. "Sabir və müasirləri" monoqrafıyası Əsəd Behrənginin tərcüməsində Təbrizdə, "Cəlil Məmmədquluzadə" oçerki Ələkbər Qəhrəmaninin tərcüməsində Tehranda fars dilində nəşr olunmuşdur. Türk Dil Qurumunun (Türkiyə) müxbir üzvü (1971), Konya və Səlcuq Universitetlərinin (Türkiyə) fəxri doktoru seçilmişdir. Mətnşünaslıq sahəsində ciddi fəaliyyət göstərmiş, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, S.Hüseyn, H.Nəzərli, S.Ə.Şirvani, S.M.Qənizadə və Q.Zakirin əsərlərini rus və Azərbaycan dillərində tərtib və nəşr etdirmişdir. O, M.Ə.Sabir, Cavid haqqında xatirə və məqalələri toplayıb ön sözlə "Sabir xatirələrdə" (1982) və "Cavidi xatırlarkən" (1982) adı ilə kütləvi tirajla çap etdirmişdir. 1 dərəcəli "Vətən müharibəsi" ordeni, döyüş xidmətlərinə görə medalı və bir sıra digər medallarla təltif edilmişdir. 1993-cü il aprelin 1-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** “İrəli” (1943), “A.Şaiqin həyatı və yaradıcılığı” (1956), ”Müasirləri Sabir haqqında” (1962), “Sabir və müasirləri” (1973), “Əməl dostları” (1979), “Sabir gülür” (1981), “Sabir bu gün” (1985), “Cəbhə dəftərindən” (1986), “Bu dünyadan Rəsul Rza gəlib keçdi”( 2008), “Cənubdan səslər. Min bir mahnı” (2010).

Tərcümələri (ruscadan): N.Jurba. Aleksey Matrosov 1951, H.Məmmədquluzadə. Mirzə Cəlil haqqında xatirələrim 1981.

**Filmoqrafiya:** Bəxtiyar (film, 1942), Sovet Naxçıvanı-şərqin qapısı (film, 1949), Azərbaycan naminə (film, 2005), Zəlimxan dastanı (film, 2007), Mətbuat fədaisi (film, 2007).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 20.

**13 Oktyabr - Ədəbiyyatşünas, folklorşünas Hənəfi Zeynallının 125 illiyi, (1896-1937)**

***H.Zeynallını bir cavidşünas kimi səciyyələndirən onun H.Cavidə dövrün ədəbi-tarixi kontekstində yanaşa bilməsidir.O, Cavidin romantizmini, onun estetik idealını doğru müəyyən etmiş, cavidşünaslığın təməl daşını qoyanlardan biri olmuşdur.***



**Zeynallı Hənəfi Baba oğlu – müəllim, ədəbiyyatşünas, Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından biri**

Hənəfi Zeynallı 1895-ci ildə Bakıda dəmirçi ailəsində anadan olmuşdur. 1916-cı ildə Bakıdakı Politexnik məktəbi bitirmiş və elə həmin il müsabiqə imtahanını müvəfəqiyyətlə verərək İmperator Texniki Peşə məktəbinə daxil olmuşdur. 1917-ci ildə fevral inqilabından sonra təhsilini yarımçıq qoymuşdur. H.Zeynallı 1922-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, 1927-ci ildə bitirmiş və təyinatını Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasına, sonra isə Azərbaycan Pedoqoji İnstituna almışdır. 1930-cu ildə dosent olmuşdur. 1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatının əsas yaradıcılarından biri kimi fəaliyyət göstərmiş və oranın baş redaktoru vəzifəsində çalişmışdır. 1923-1931-ci illərdə Azərnəşrdə işləyərkən o, “Kommunist”, “Maarif və Mədəniyyət”, “İnqilab və Mədəniyyət”, “Maarif işçisi” jurnallarında əməkdaşlıq etmiş, geniş ədəbi publisistik yazılarla çıxış etmişdir. H.Zeynallı 1926-cı ildə yazdığı "Azərbaycan atalar sözləri və məsəllər" (burada 4 minədək atalar sözü və məsəllər toplanmışdır), 1928-ci ildə yazdığı “Türk ədəbiyyatı üzrə iş kitabı” əsərlərində folklor, terminologiya və s. ilə bağlı məsələlərə toxunur. 1937-ci il yanvarın 28-də H.Zeynallı Ruhulla Axundovun əksinqilabi qrupunun üzvü kimi həbs olunub və Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri üzrə məsuliyyətə cəlb edilib. H.Zeynallının güllələnməsi haqqında hökm 1937-ci il oktyabrın 13-də Bakıda icra olunub. 1957-ci il martın 30-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarına görə 1937-ci il sentyabrın 12-də SSRİ Ali Hərbi Kollegiyasının Hənəfi Baba oğlu Zeynallının istintaq işi üzrə çıxartdığı hökm dəyişdirildi və cinayət tərkibi olmadığı üçün iş xətm edildi.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 364.

**15 Oktyabr - Xalq yazıçısı, dramaturq Mirzə İbrahimovun 110 illiyi, (1911-1993)**

***"Onun qələmi həmişə cilalı, parlaq kəsərli, heç vaxt qınına salınmayan silahdır. Kənd olsun, şəhər olsun, müharibə, sülh olsun, ailə ya ictimaiyyət olsun, kütləvi səhnə ya qəlb aləmi olsun, həyatımızın elə sahəsi yoxdur ki, oraya Mirzənin qələmi nüfuz etməsin, ədibin səsi, sözü eşidilməsin. O, təbiətən fəal, özünə tələbkar şəxsiyyətdir".***

Mir Cəlal Paşayev



İbrahimov Mirzə Əjdər oğlu (15 oktyabr 1911 – 17 dekabr 1993) — Azərbaycan yazıçısı, dramaturq, ictimai xadim. Azərbaycan SSR xalq yazıçısı (1961), Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1945), SSRİ Dövlət mükafatı laureatı (1950), Azərb. SSR Dövlət mükafatı laureatı (1965), Beynəlxalq Nehru mükafatı laureatı (1979). Azərb. SSR əməkdar incəsənət xadimi (1941). Sosialist Əməyi Qəhrəmanı (1981), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958), 1937-1991-ci illərdə SSRİ Ali Sovetinin deputatı. Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), Azərb. SSR Maarif naziri (1942-1946). Azərbaycan SSR Ali Sovetinin deputatı. SSRİ xalq deputatı (1989).

Mirzə İbrahimov 1911-ci il oktyabrın 15-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olmuşdur. 1918-ci ildə atası və böyük qardaşı ilə Bakıya gəlmişdir. Bədii yaradıcılığa da Zabrat fəhlə ədəbiyyat dərnəyinin üzvlüyündən başlamışdır. Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), SSRİ Yazıçılar İttifaqı idarə heyətinin katibi (1965-1975), Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin müavini (1946-1950), Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958) vəzifələrində işləmişdir. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda direktorluq etdiyi dövrdə dilçilik və ədəbiyyatşünaslıq elminin yeni, yüksək səviyyədə tədqiqini təşkil etmiş, üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin yaranmasında ciddi əməyi olmuşdur (1946-1954). Sonralar Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin sədri (1946-1954) və SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1965-1975) olmuşdur. 1993-cü il dekabrın 17-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Qiqantlar ölkəsi" (1932), "Həyat üçün" (1934), "Həyat (pyes)" (1938), "Böyük demokrat (Molla Nəsrəddin)" (1939), "Həyat və ədəbiyyat" (1947), "Azad" (1949), "Gələcək üçün" (1951), "Böyük dayaq (roman)" (1957), "Mədinənin ürəyi" (hekayələr) (1961), "Murovdağın ətəyində" (hekayələr) (1964), "Pərvanə" (1971), "Pərvizin həyatı" (povestlər və hekayələr) (1981), "Pərvanə" (roman) (1984), "Gələcək gün" (roman) (1984), "Tufanlara kömək edən bir qələm", "Seçilmiş əsərləri" : İki cilddə (2005), "Əsərləri": X cilddə (1983) və s.

**Filmoqrafiya:** Böyük dayaq (film, 1962)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 615.

**17 Oktyabr - Yazıçı Çingiz Ələkbərzadənin anadan olmasının 85 illiyi, (1936-1999)**

"***Vətənini sevən adam idi. Başqa yerə köçməkdən danışmaq belə istəmirdi. Tez-tez deyəsən Musa Yaqubdan bir misranı deyirdi: "Bəlkə də borcundan çıxmadım, Vətən…" Mənim atam ilk növbədə kişi olub, mərd olub, heç kimi satmayıb, heç kimə pislik etməyib. Atamla fəxr edirəm."***

Sevda Ələkbərzadə



Çingiz Ələkbərzadə Əbülhəsən oğlu 1936-cı il oktyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. Tovuz şəhərindəki A.S.Puşkin adına şəhər orta məktəbini bitirmişdir (1955). ADU-nun filologiya fakültəsində təhsil almışdır (1955-1960). Tələbəlik dövründə "Kökəlməyin sirri" hekayəsi almanaxda dərc olunmuşdur (1958). Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əmək fəaliyyətinə Əli Bayramlı rayonundakı 2 saylı orta məktəbdə müəllim kimi başlamışdır (1960). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri komitəsində son xəbərlər redaksiyasında işləmişdir (1961-1966). İsmayıllı rayonundakı İvanovka kəndində müəllim (1966-1968), Əli Bayramlı rayonunda "İşıq" qəzeti redaksiyasında məktublar şöbəsinin müdiri (1968-1971), İsmayıllı rayonunda "Zəhmətkeş" qəzeti redaksiyasında məktublar şöbəsinin müdiri (1971-1972), Azərbaycan SSR Televiziya və Radio Verilişləri komitəsində "Günün səsi" xəbərlər baş redaksiyasında müxbir (1972-1973), "Azərbaycanfılm" kinostudiyasında ssenarist (1973-1975), "Kirpi" satirik jurnalında ədəbi işçi (1976-1979), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Günün ekranı" redaksiyasında ştatdankənar müxbir (1979-1984), Şirvan bölgəsi üzrə xüsusi müxbir (1984-1989) olmuşdur. Özbəkistanda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir (1980). Durğunluq dövründə ictimai qüsurları kəskin tənqid etdiyinə görə həbs edilmişdir (1986-1988). Sonra bəraət almış, bədii yaradıcılıqla məşğul olmuşdur. 1999-cu il yanvarın 7-də vəfat etmişdir.

**Əsərləri:** "Yarpaqlar töküləndə" (1964), "Güllələr dənizdə sönür" (1973), "Qızıl yəhərli at" (1976), "Çılpaqlı" (roman). (1979), " Vulkan" (povest və hekayələr) (1983), "Öndən" ( 1992), "Qumarbaz" (1993), "Türmə mənim ahımdı" (1993) və s.

**Filmoqrafiya :**Günlərin bir günü (kinoalmanax, 1976),Vulkana doğru (film, 1977)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 166.

**İncəsənət**

**25 Oktyabr - Xalq artisti Nəcibə Məlikovanın 100 illiyi, (1921-1992)**



**Nəcibə Məlikova 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 iyun 1974-cü ildə xalq artisti fəxri adlarını alıb.**

Nəcibə Haşım qızı Məlikova 25 oktyabr 1921-ci ildə Bakının Buzovna kəndində doğulub. Bakı Teatr Məktəbində xalq artisti Fatma Qədrinin sinfini bitirib (1940-1943). Öz istəyi ilə Gəncə Dövlət Dram Teatrında işləməyə gedib. Burada bir neçə tamaşada çıxış edərək Bakıya qayıdıb və təzəcə təşkil olunmuş Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olub. 1951-ci ildə ali məktəbi bitirib. Texnikumda təhsil aldığı illərdə Milli Dram Teatrının tamaşalarında epizodlar oynayan aktrisa 1952-ci ildən (kinolara çəkilişlə bağlı kiçik fasilələrlə) yenə bu teatrda işləyib. Nəcibə Məlikova klassik və çağdaş Azərbaycan dramaturqlarının, dünya ədiblərinin, əsasən, dram əsərlərində və bir qədər də komediyalarında rollar oynayıb. Hüseyn Cavidin "Şeyx Sənan" (Xumar), "Səyavuş" (Firəngiz), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Şamama cadu), Cəfər Cabbarlının "Aydın" (Böyükxanım), "1905-ci ildə" (Sona), "Sevil" (Edilya), Mirzə İbrahimovun "Həyat" (Atlas), "Kəndçi qızı" (Ayxanım), İlyas Əfəndiyevin "Büllur sarayda" (Qönçə), "Qəribə oğlan" (Məlahət), Nəbi Xəzrinin "Əks-səda" (Zərifə), "Mirzə Şəfi Vazeh" (Zübeydə), Səməd Vurğunun "Vaqif" (Xuraman), Maqsud İbrahimbəyovun "Kərgədan buynuzu" (Diləfruz), Sabit Rəhmanın "Əliqulu evlənir" (Yasəmən), "Küləklər" (Firuzə), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Məlahət), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Şölə xanım və Ziba xanım), "Müsyö Jordan və dərviş Məstəli şah" (Şəhrəbanı), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Oqudalova), Hüseyn Muxtarovun "Kimdir müqəssir?" (Korinkina), Maksim Qorkinin "Zikovlar" (Sofiya İvanovna), Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Həkimin arvadı), "Türkiyədə" (Nazir qızı), Karlo Haldoninin "Məzəli hadisə" (Marianna), Aleksandr Şirvanzadənin "Namus" (Süsənbər), Fridrix Şillerin "Orlean qızı" (Aqnessa), Lope de Veqanın "Sevilya ulduzu" (Estrelya) pyeslərinin tamaşalarında çıxış edib. Nəcibə xanım kinoda uğurlu rollar yaradıb. Onların arasında "Ögey ana"da Dilarə, "Aygün"də Aygün, "Arşın mal alan"da Cahan xala, "Əhməd haradadır?"da Nərgiz xala rollarının ifası aktrisanın yaradıcılıq nailiyyətləri kimi dəyərlidir. Nəcibə Məlikova məlahətli, emosional, lirik-dramatik aktrisa idi. Mənən saf qəlbli qəhrəmanları, məhəbbət yolunda mürəkkəb vəziyyətlərdə gücsüz görünüb kövrələn, ancaq xeyirxah insanların köməyi ilə mətanətini qoruyub saxlayan personajları uğurla oynayırdı. Aktrisanın yumorunda da həzin və kövrək lirizm üstünlük təşkil edirdi. Bakıda 27 iyul 1992-ci ildə vəfat edən Nəcibə Məlikova ikinci Fəxri xiyabanda dəfn olunub.

**Filmoqrafiya:** Arşın mal alan (film, 1965), Axşam konserti (film, 1948), Ögey ana (film, 1958), Leyli və Məcnun (film, 1961), Əhməd haradadır? (film, 1963),Topal Teymur (film, 1983), Üzeyir ömrü (film, 1981), Yollar görüşəndə... (film, 1979) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Nəcibə_Məlikova

**Milli qəhrəmanlıq zirvəsi**
**8 Oktyabr - Nəsibov Kamil Balədə oğlunun 75 illiyi, (08.10.1946-29.06.1992)**



**Nəsibov Kamil Balədə oğlu — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi**

**Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Nəsibov Kamil Balədə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

Nəsibov Kamil Balədə oğlu 8 oktyabr 1946-cı ildə Laçın rayonunun Bozlu kəndində anadan olmuşdur. 1963-cü ildə orta məktəbi Minkənd kəndində bitirmiş və ordu sıralarına çağırılmışdır. Üç ildən sonra ordudan tərxis edilərək vətənə qayıtmış, 1973-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1992-ci ildə Laçın erməni silahlı dəstələrinin hücumlarına məruz qaldığı zaman Kamil könüllülərdən ibarət özünümüdafiə bölüyü yaratmış və özünün komandir olduğu 30 nəfərdən ibarət bu bölük Sadınlar, Malıbəyli, Xanallar, Suarası kəndlərinin müdafiəsində böyük rəşadət göstərmişdir. 1992-ci il 29 iyun tarixində Qonaqgörməz yüksəkliyi uğrunda gedən qanlı döyüşlərdən birində Kamil Nəsibov snayper gülləsidən ağır yaralanmış, döyüşçü dostları onu təhlükəsiz yerə çıxarmaq istəsələr də cəsur komandir etiraz edərək döyüş meydanını tərk etməmiş və nəticədə çoxlu qan itirərək həlak olmuşdur. Kamil Nəsibov ailəli idi, dörd övladı var. Ağcabədi rayonunda dəfn edilmişdir. Doğulduğu Bozlu kəndindəki Mədəniyyət evi Kamil Nəsibovun adını daşıyır.

***Vətəni sevmək azdır,***
***Onu qorumaq gərək.***
***Vətənim demək azdır,***
***Vətənin olmaq gərək.***
***Onun adi torpağı,***
***Ruhdan, candan irəli…***
***O, anandan qabaqdır,***
***O, atandan irəli…***

Cabir Novruz

İnternetdə: http://veten-ugrunda.az/milliqehremanlar/246-nsibov-kamil-bald-olu.html

**17 Oktyabr - Bayramov Soltanağa Nəhmət oğlu 85 illiyi, (17.10.1936-23.08.1993)**



**Soltanağa Bayramov (ö. 23 avqust 1993-cü il.)— Azərbaycanın Milli Qəhrəmanı, dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

**Azərbaycan Respubliksaı prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı fərmanı ilə Bayramov Soltanağa Nəhmət oğluna öiümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

Soltanağa Bayramov 17 oktyabr 1936-cı ildə Lənkəran rayonunun Şürük kəndində anadan olmuşdur. Orta təhsilini Astara rayonunda almışdır. 1957-ciildə Lənkəranda tibb məktəbini bitirmişdir. Daha sonra təyinatla hərbi hospitalda işə başlamışdır. 1990-cı illər vətənin çətin günləri idi. Erməni separatçıları müəyyən adamları öz əlaltılarına çevirərək Azərbaycanı parçalamaq istəyirdilər. Vətəninə, xalqına xəyanət edən "Talış Muğan Respublikası" yaratmaq xülyası ilə yaşayan bir qrup silahlı 1993-cü ildə Soltanağa Bayramov çalışdığı hospitala basqın edir. Soltanağa burada faciəli şəkildə həlak olur. Lənkəran şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ailəli idi, dörd övladı var.

***Qəhrəmanlıq nə yalnız***
***bir yüksəliş deməkdir.***
***Nə də ulduzlar kimi***
***parlayıb sönməməkdir.***
***Sızlarsa da könüllər***
***Şəhidlərin yasından,***
***onların arxasından.***
***Qəhrəmanlıq-içərək***
***acı ölüm tasından,***
***irəliyə atılmaq və***
***sonra dönməməkdir!***

Nihal Atsız

İnternetdə:https://az.wikipedia.org/wiki/Soltanağa_Bayramov

**27 Oktyabr - Makeyev İqor Vladimiroviç 50 illiyi, (27.10.1971-02.08.1992)**



**İqor Makeyev — Azərbaycanın Milli Qəhrəmanı; Qarabağ müharibəsi şəhidi**

İqor Makeyev 27 oktyabr 1971-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1979-cu ildə 39 saylı məktəbə getmiş, 1987-ci ildə səkkizinci sinfi bitirmişdir. 1990-cı ildə hərbi xidmətə çağırılan İqor əvvəlcə Bakıda, sonra isə Rusiyanın Rostov vilayətində xidmət edir və burada çavuş məktəbində təhsil alır. Azərbaycanda baş verən hadisələr İqoru narahat edirdi o, təhsilini yarımçıq qoyub Gəncəyə qayıdır. Anası onun gəlişinə etiraz edəndə o, demişdi : "Ana, məni düzgün başa düş! Mən Azərbaycanda dünyaya göz açmışam, ilk addımlarımı bu torpaqda atmışam. Bura mənim vətənimdir. Özümü də bu torpağın övladı sayıram! Övlad vətəni dar gündə qoyarmı? Mən Azərbaycanı qorumalıyam, yeri gəlsə onun yolunda canımı da fəda edərəm!" İqor Makeyev belə də etdi... O, evdən xəbərsiz Bakıya gəlir, Daxili İşlər Nazirliyinin qoşunlarından birinə yazılır, bununla da onun cəbhə həyatı başlayır. 1992-ci il 5 iyun tarixində ermənilər Naxçıvanlı kəndinə hücuma keçirlər. İqor burada onlarla erməni yaraqlısını məhv etdi, ermənilər kəndi tutsalar da döyüşçülərimiz əks hücuma keçərək kəndi geri ala bildilər. Ağdərə uğrunda gedən döyüşlərdə də o rəşadətlə vuruşdu. İqorun son döyüşü 2 avqust 1992-ci il oldu. "Vışka" yüksəkliyi uğrunda gedən döyüşdə o, Nikulin ləqəbli azərbaycanlı ilə birlikdə pulemyotla ön cərgədə gedərək onlarla erməni quldurunu məhv etdi, 28 nəfərin mühasirədən çıxmasına imkan yaratdı. Özü isə qəhrəmancasına həlak oldu. Subay idi. Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Sadıllı qəsəbəsində qəhrəmanımızın adına küçə var.

**Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə Makeyev İqor Vladimiroviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

***Bu vətən, bu torpaq mənimdi deyib***
***Üstündə vüqarla gəzdi şəhidlər.***
***Əyninə qanından bir köynək geyib***
***Düşmənin yolunu kəsdi Şəhidlər.***

Dursun Musayeva

İnternetdə: https://az.wikipedia.org/wiki/ İqor_Makeyev

**Noyabr**

**Əlamətdar tarixi günlər və bayramlar**

6 Noyabr – Televiziya və Radio Günü, (1926)

8 Noyabr –Şuşanın işğaldan azad edildiyi gün, (2020)

8 Noyabr – Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü, (1932)

9 Noyabr – Dövlət Bayrağı Günü, (2009)

10 noyabr - Zəfər Günü, (2020)

10 noyabr - Dünya Elm Günü, (2002)

10 Noyabr – Ümumdünya Gənclər Günü, (1945)

12 Noyabr – Konstitusiya Günü, (1995)

13 Noyabr – Ümumdünya Gözdən Əlillər Günü, (1745)

14 Noyabr – Ümumdünya Diabet Günü, (1991)

16 Noyabr – YUNESKO-nun Yaranması Günü, (1946)

16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü, (1995)

17 Noyabr – Milli Dirçəliş Günü, (1988)

19 Noyabr – Ümumdünya Fəlsəfə Günü, (2002)

20 noyabr – Ağdamın işğaldan azad edildiyi gün, (2020)

20 Noyabr – Ümumdünya Uşaqlar Günü, (1956)

20 Noyabr – Azərbaycan Fotoqraflar Birliyinin (AFB) Yaradılması Günü, (1998)

21 Noyabr – Ümumdünya Televiziya Günü, (1999)

21 Noyabr – Ümumdünya Salamlaşma Günü, (1973)

22 Noyabr – Ədliyyə İşçiləri Günü, (2000)

24 Noyabr – Morj Günü, (2008)

25 Noyabr – Kəlbəcərin işğaldan azad edildiyi gün, (2020)

26 Noyabr – Azərbaycan Kəlağayısı Günü, (2014)

26 Noyabr – Ümumdünya İnformasiya Günü, (1994)

30 Noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü, (1988)

30 Noyabr – Ümumdünya Ev Heyvanları Günü, (1931)

**Bu tarixi unutmayaq**

20 Noyabr – Qarakənd faciəsi, (1991)

**Yubilyar yazıçı və şairlər**

Şair Tofiq Mahmudun 90 illiyi, (06.11.1931-04.04.1997)

Şair Balaş Azəroğlunun 100 illiyi, (07.11.1921-24.04.2011)

Şair İbrahim Göyçaylının 85 illiyi, (12.11.1936-24.02.2007)

Yazıçı, ədəbiyyatşünas Aqşin Babayevin 85 illiyi, (23.11.1936)

Ədəbiyyatşünas, tənqidçi Əli Nazimin 115 illiyi, (24.11.1906-1941)

**Xarici ədəbiyyat**

Rus şairi, alim, rəssam M.V.Lomonosovun 310 illiyi, (19.11.1711-1765)

**İncəsənət**

Xalq artisti Mərziyə Davudovanın 120 illiyi, (25.11.1901-06.01.1962)

**Əlamətdar tarixi günlər və bayramlar**

**6 Noyabr – Televiziya və Radio Günü, (1926)**

***“Qarabağ müharibəsi dövründə Azərbaycan həqiqətlərini beynəlxalq arenaya çıxırılmasında dövlət televiziyasının müstəsna xidməti olmuşdur”.***

Ümummilli lider Heydər Əliyev




Azərbaycanda hər il 6 noyabr – Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur. 1926-cı il noyabrın 6-da Azərbaycan radiosu fəaliyyətə başlayıb və o gündən sözügedən tarix radio işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Azərbaycan Televiziyası yaranandan sonra bu tarix təkcə radionun deyil, həm də teleradionun yaranma günü kimi qeyd olunmağa başlayıb. Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı ilin 14 fevralında efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və çıxışına “Göstərir Bakı” kəlməsilə başlayıb. Həmin gün ekranda “Bəxtiyar” bədii filmi göstərilib. 60 il əvvəl Zaqafqaziya ölkələri arasında ilk dəfə Bakıda ağ-qara rəngdə göstərən televiziya fəaliyyətə başlayıb. 1956-cı il fevralın 14-də Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti, yəni AzTV yayıma başlayıb. Yenicə yayıma başlayan televiziya ilk vaxtlar yalnız Bakı və Sumqayıtda göstərib. Təxminən 1 il sonra isə əhatə dairəsi genişlənib, Salyan, Quba, Kürdəmir və başqa rayonlarda da TV-ni seyr etmək mümkün olub. Bütün rayonlara yayımın gecikməsi isə həmin vaxt teleqüllənin istifadəyə verilməməsi ilə bağlı idi. Sonralar istifadəyə verilən teleqüllə cəmiyyət üçün yenilik oldu və Azərbaycanda televiziyanın simvoluna çevrildi. Hündürlüyü 180 metr olan teleqüllə artıq yoxdur. Yeni televiziya qülləsi inşa edildikdən sonra köhnəsi hissə-hissə söküldü. Dövlət televiziyası Azərbaycan teleməkanına texniki uğurlarla yanaşı, yaradıcılıq və telejurnalistikanın inkişafı baxımından da yeniliklər gətirib. Sovet dövründə dövlət televiziyası Azərbaycan dilinin təbiliğində əvəzsiz rol oynayıb. Azərbaycanın ilk elektron mətbu orqanı müstəqillik illərində də ciddi işlər görüb.

**İnternetdə: www.books.google.com**

**8 Noyabr –Şuşanın işğaldan azad edildiyi gün, (2020)**




***“Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir... Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır.”***

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Şuşa — Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində, Şuşa şəhər inzibati ərazi dairəsində şəhər. Şəhərin təməli 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırırdılar.

Şuşada 17 məhəllə vardı: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə. Hər məhəllədə hamam, məscid və bulaq vardı. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Şuşalı tacirlər İran şəhərləri və Moskva ilə ticarət əlaqələri saxlayır burada Pənahabadi adlanan gümüş sikkə zərb edilirdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur. Şəhərin ərazisi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 metr). Keçəldağ aşırımı da rayon ərazisindədir. Rayonda əsasən, Yura və Təbaşir çöküntüləri yayılmışdır. Müxtəlif növ tikinti materialları yataqları və mineral su bulaqları (Turşsu, Şırlan) var. Şəhərin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır düzü xüsusilə məşhurdur. Cıdır düzündən bir qədər aşağıda qırx pilləkan deyilən dik pilləli yol Daşaltı çayına aparır. 1992-ci ildə Şuşa şəhərindən cənubda dəniz səviyyəsindən 1365 m hündürlükdə yerləşən, uzunluğu 114 m, əhəng daşları Triton əsrinə aid olan "Xan mağarası" ermənilər tərəfindən dağıdılıb. Şəhərdə Şuşa vələsi və Qafqaz qaş səhləbi və ya Xarıbülbülə rast gəlmək olar. Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilmişdir. Şuşanın işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilmiş, 165 nəfər yaralanmış, onlardan 150 nəfəri əlil olmuş, 552 körpə valideynlərini itirmiş, 20 mindən artıq əhali isə

doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdür. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə bu günə qədər məlumat yoxdur.

Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilib. Şuşanın işğalından əvvəl şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən bəzədilmişdir. 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdi. Şuşa tarixi-memarlıq qoruğuna daxil olan abidələrindən Xan qızı Natəvanın evi, Qarabağ xan sarayı, Vaqif türbəsi, Mirzə Salah bəy Zöhrabbəyovun yaşayış evi, Şuşa kurqanı, Şuşa mağara düşərgəsi, Şuşa qalası və digərlərini qeyd etmək olar. Şəhərin tanınmış sakinlərdən şair Mirzə Rəhim Fəna, heykəltəraş Münəvvər Rzayeva, jurnalist Haşım bəy Vəzirov, Türkiyənin ilk qadın vəkili Sürəyya Ağaoğlu, futbol hakimi Eldar Əzimzadə, bəstəkar Süleyman Ələsgərov, dövlət xadimi İskəndər Əliyev, həkim Azad Əmirov, tarzən Məşədi Cəmil Əmirov, mühəndis Teymur bəy Aslanov, Sovet İttifaqı Qəhrəmanı və Azərbaycanın Daxili İşlər Naziri Xəlil Məmmədov, Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərov, müğənni Sürəyya xanım Qacar, hərbçi Azad bəy Vəzirov, dramaturq Süleyman Sani Axundov və digərlərini qeyd etmək olar. Şuşa 8 noyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

İnternetdə:https://az.wikipedia.org/wiki Şuşa

**8 Noyabr – Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü, (1932)**



Noyabrın 8-i Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Hələ 1932-ci ildə Bakı şəhərinin inkişafının Baş planının ilkin variantlarında yerüstü nəqliyyatın işini yüngülləşdirmək və şəhərin darısqal küçələrini tramvay, trolleybus və avtobus nəqliyyatından təmizləmək üçün ən sürətli və rahat nəqliyyat növünün – metropolitenin tikintisi qərara alınmışdı. Lakin bir qədər sonra başlanan 1941-1945-ci illər müharibəsi həmin niyyətin həyata keçməsinə mane oldu. Yalnız 1947-ci ildə, dağıdıcı müharibədən 2 il sonra hökumət layihə-axtarış işlərinin aparılmasının başlanması barədə qərar qəbul etdi. 1949-cu ildə metropolitenin tikinti bazasının yaradılmasına, 1954-ci ildə isə birinci xəttin texniki layihəsi təsdiq olunur və metropolitenin 12,1 kilometrlik xəttinin inşasına başlanır. Baş yolun xətləri dəniz sahilindən 500-700 metr aralı keçərək buxtaya paralel surətdə uzanıb gedirdi. 1953-cü ildə tikinti işləri müvəqqəti dayandırılır və yalnız 1960-cı ildə bərpa olunur. Bu da Bakı Metropoliteninin istismara verilməsini xeyli gecikdirir. 1966-cı ildə Bakı Metropoliteni İdarəsi yaradılır. 1967-ci il noyabrın 6-da Bakı şəhərində metropolitenin 5 stansiyası fəaliyyət göstərirdi. 1967-ci il noyabrın 25-dən metropolitenin daimi istismarı və qatarların müntəzəm hərəkəti başlanır. Hazırda Bakı Metropoliteninin 23 stansiyası var – "Həzi Aslanov", "Əhmədli", "Xalqlar dostluğu", "Neftçilər", "Qara Qarayev", "Koroğlu", "Ulduz", "Bakmil", "N.Nərimanov", "Gənclik", "C.Cabbarlı", "Xətai", "28 may", "Nizami", "Emlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi", "Sahil", "İçərişəhər", "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül". Bu stansityalardan 14-ü ulu öndər Heydər Əliyevin Bakı metrosuna böyük diqqət və qayğısı sayəsində tikilərək istifadəyə verilmişdir. Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də Metropolitenə daim diqqət və qayğı ilə yanaşır. Məhz dövlətimizin başçısının beş il öncə imzaladığı sərəncam əsasında 8 noyabr Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü kimi təsdiq olunmuşdur.

**İnternetdə: www.books.google.com**

**9 Noyabr – Dövlət Bayrağı Günü, (2009)**

***“Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli - mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir”.***

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*




Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət bayrağımız – milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmişdir. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən “Türkçülük, islamçılıq və müasirlik” düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş, “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə” əsasında tənzimlənir. Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət bayrağı eni və uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət, düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən “Türkçülük, islamçılıq və müasirlik” düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

2009-cu ilin noyabr ayında Dövlət Bayrağı Günü ilə bağlı Əmək Məcəlləsinin 105-ci maddəsinə salınan əlavəyə əsasən, 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü elan olunub.

**İnternetdə: www.books.google.com**

**10 Noyabr – Zəfər Bayramı, (2020)**



Noyabr ayı müstəqil Azərbaycanın müasir tarixində artıq zəfər, qələbə ayı kimi qalacaqdır. Xalqımızın işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda 27 sentyabr tarixində başlatdığı İkinci Qarabağ – Vətən Müharibəsi 10 noyabr tarixində Azərbaycanın qələbəsi, düşmənin kapitulyasiyası ilə sona çatdı.

Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir: "XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. 2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir. Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan – Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi. Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər. Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə

yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 10-u Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

Qeyd etdiyimiz kimi, noyabr ayı artıq müasir tariximizin parlaq zəfər səhifəsi kimi yaddaşlarımıza həkk olunub. Yaşasın müstəqil Azərbaycan!

İnternetdə:https://apa.az/az/daxili_siyaset/10-Noyabr-Azrbaycanda-Zəfər-Gunu-kimi-təsis-olunub-617827

**10 noyabr - Dünya Elm Günüdür, (2001)**







Dünya Elm UNESCO-nun qərarı ilə təsis edilmişdir. 2001-ci ildə UNESCO-nun baş konfransının 31-ci sessiyası 10 noyabr gününü “Sülh və inkişaf naminə dünya elm günü” elan etmişdir. İlk dəfə 2002-ci il noyabrın 10-da keçirilən bayram həmin vaxtdan etibarən hər il bütün dünyada qeyd olunur. Məqsəd beynəlxalq və milli səviyyədə elmin rolunu yüksəltmək, eləcə də elmin nəticələrinin cəmiyyətin dinc və sabit inkişafına təsirini artırmaqdır. Davamlı cəmiyyətin yaradılmasında elm və alimlər mühüm rol oynayır, vətəndaşların elmi nailiyyətlər haqqında məlumatlandırılması və bu proseslərdə iştirakı isə vacib amillərdəndir. Dünya Elm Günü UNESCO-nun təşkilatçılığı ilə keçirilən elmi iclaslar, seminarlar, konfrans və festivallarla qeyd edilir və hər il müəyyən bir mövzuya həsr olunur. Bu gün dünyanın bir çox yerlərində olduğu kimi, Azərbaycanda da bu bayram böyük qürur hissi ilə keçirilir. Bu da səbəbsiz deyildir. Çünki Azərbaycan dünya elminə böyük töhfələr bəxş edən ölkələr sırasındadır. Ölkəmizdə elm, təhsil sahəsində əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Elm Günü “Sülh və inkişaf naminə” devizi altında keçirilir. Bu deviz elmi inkişaf, yeni nailiyyətlər və insanların dünyagörüşünün genişləndirilməsi istiqamətində elm adamlarının gördükləri işlərlə əhalini məlumatlandırmaq, cəmiyyətin dayanıqlılığını artırmaq məqsədi daşıyır.

Respublikamız və elmimiz üçün böyük əhəmiyyət daşıyan, elmi nailiyyətlərin təbliğində önəmli yer tutan bu günün qeyd edilməsində əsas məqsəd elmimizin bugünkü nailiyyətlərini geniş ictimaiyyətə tanıtmaq, müasir elmi bilikləri təbliğ etmək, gəncləri elmi fəaliyyətə cəlb etməklə elmi-tədqiqat işlərinə marağı artırmaq olub.

İnternetdə:https://azertag.az/xeber/10_noyabr___Dunya_Elm_Gunudur-192165

## 10 Noyabr – Ümumdünya Gənclər Günü, (1945)

***"Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".***

**Ümummilli lider Heydər Əliyev**



Bu günün qeyd olunması barədə qərar Ümumdünya Demokratik Gənclər Federasiyası tərəfindən 1945-ci ilin 29 oktyabr Londonda keçirilən konfransda qəbul edilib. Gənclər təşkilatlarının beynəlxalq birliyi özündə siyasi, milli mənsubiyyətindən asılı olmayaraq bir çox müxtəlif gənclər təşkilatını birləşdirir. Federasiya bütün dünyada sülh, gənclərin hüquqları, xalqların müstəqilliyi, qabaqcıl gənclərin beynəlmiləl həmrəyliyi uğrunda mübarizə aparır. Bununla belə, müasir dövrdə gənclər bir sıra problemlərlə üzləşirlər. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda keçirilib. 1996-cı ildən sonra isə bu günü bütün MDB-də geniş şəkildə qeyd edirlər. Dünyadakı əmək qüvvəsinin dörddə birini gənclərin təşkil etdiyi müasir dövrdə işsizlərin yarısı məhz onların payına düşür. Əmək bazarları gənclərin yaxşı perspektivli işlərlə təmin etməkdə böyük çətinlik çəkir. Hazırda dünyada 25 yaşa qədər olan 3 milyard insan var. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ilin 9 aprelində qəbul edilən "Gənclər siyasəti haqqında" qanundur. Bu qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, Azərbaycan gəncləri "Sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir". İnanırıq ki, bu gənclik böyük azərbaycanlı Heydər Əliyevin ideyalarını ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirəcək, inkişaf etdirəcək və daha işıqlı gələcəyə aparacaq.

**İnternetdə: www.books.google.com**

**12 Noyabr – Azərbaycan Respublikasının Konstitusiya Günü, (1995)**

***“Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir”.***

Ümummilli lider Heydər Əliyev




Hazırkı Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmişdir. Bu, Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra ilk Konstitusiyası idi. Konstitusiya (lat. constitutio – "quruluş") – ölkənin əsas sənədi, dövlətin ali hüquqi qüvvəyə malik hüquqi-normativ aktıdır, dövlətin siyasi, hüquqi və iqtisadi əsaslarını və vətəndaşın hüquqi statusunu müəyyən edir. Azərbaycanın dövlətinin birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-nin 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası SSRİ Konstitusiyasına uyğunlaşdırılmış olsa da müəyyən özünəməxsusluğa malik idi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. 1994-cü ildə Prezident Heydər Əliyev sədrliyi ilə Konstitusiya komissiyası fəaliyyətə başladı və layihə 1995-ci ildə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycanın Respublikasının ilk Konstitusiyası qəbul olundu. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib. 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin sərəncamı ilə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiya Günü elan edilmişdir.

**İnternetdə:** **www.books.google.com**

**13 Noyabr – Ümumdünya Gözdən Əlillər Günü, (1745)**



13 noyabr 1745-ci ildə anadan olmuş görkəmli fransız pedaqoqu Valentin Hayuinin şərəfinə bir çox Avropa ölkələri 13 noyabr tarixini Beynəlxalq Korlar Günü kimi qeyd etməklə, mövcud ictimayyətin, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin diqqətini görmə qüsurlu insanların problemlərinə və onların inteqrasiya məsələlərinə cəlb etmişlər. Birləşmiş Millətlər Təşkilatı və Dünya Səhiyyə Təşkilatının tövsiyəsi ilə 13 noyabr Ümumdünya Gözdən Əlillər Günü kimi qeyd edilir. Ümumdünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə əsasən dünya əhalisinin 160 milyonu gözdən əlildir. Azərbaycanda da, beynəlxalq təcrübədə olduğu kimi, aidiyyatı dövlət orqanları tərəfindən gözdən əlil insanların sosial müdafiəsinə, onların təhsil, səhiyyə, idman, məşğulluq, sosial adaptasiya, istirahət və bu kimi problemlərinə daha çox diqqət yetirilir. 5 dekabr 2014-cü ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bilavasitə maliyyə və texniki dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı çərçivəsində görmə qabilliyyəti zəif və məhdud uşaqlar üçün Dil kursları və İnformasiya Mərkəzi açılmışdır. Son illər ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daha çox diqqət artırılıb. Ölkə başçısının imzaladığı sərəncamlar bu təbəqədən olan insanların həyat şəraitinin yaxşılaşmasında və onların cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynayır. Həmçinin bu insanları öz sıralarında birləşdirən, onların problemlərini işıqlandırıb, həllinə çalışan ictimai təşkilatların da fəaliyyətləri üçün geniş imkan yaranıb.

**İnternetdə: www.books.google.com**

## 14 Noyabr – Ümumdünya Diabet Günü, (1991)

Bəşəriyyətin diqqətini şəkərli diabetlə bağlı problemlərə yönəltmək məqsədi ilə 1991-ci ildən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST-ın) və Beynəlxalq Diabet Federasiyasının (BDF-nın) tövsiyələrinə görə bu tarix Ümumdünya Diabet Günü kimi qeyd edilir. 2007-ci ildən isə 14 noyabr BMT günü elan edilərək bütün üzv dövlətlərdə xüsusi qeyd edilir. Dünya Diabet Gününün (DDG) emblemi olan mavi dairə şəkərli diabet ətrafında hamının birləşməsini simvolizə edir. Hər il müxtəlif şüar altında keçirilən ÜDG-nün dəyişilməz amalı belə səslənir: “Güc birlikdədir!”. Qeyd etmək lazımdır ki, şəkərli diabet xəstəliyini təhlükəli və problemli edən onun müxtəlif yaş həddini əhatə etməsi, əhali arasında geniş yayılması, ağır fəsadların meydana gəlməsi, böyük maddi vəsait tələb etməsidir. Xəstəliyin xoş gedişatı üçün, yəni onun həyat tərzinə çevrilməsi üçün düzgün tibbi xidmətə, sosial-iqtisadi qayğıya, normal psixoloji duruma və bütün bunları tənzimləyə biləcək hüquqi bazaya ehtiyac var. Hazırda dünyada 371 milyon insanda şəkərli diabet diaqnozu qeyd olunur. Güman olunur ki, 50 %-i öz xəstəliyi haqqında məlumatsızdır. Azərbaycanda da bu xəstəlikdən əziyyət çəkənlərin sayı 182 min nəfərdən çoxdur. Bu xəstəliyin yayılma tempinə görə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ŞD xəstəliyini qeyri-infeksion epidemiya kimi dəyərləndirir.

Azərbaycan dövləti bu xəstəlikdən əziyyət çəkən insanlara xüsusi diqqət ayırır. Belə ki, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli Fərmanına uyğun olaraq, Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli qərarı ilə “2005-2009-cu illər üzrə “Şəkərli diabet üzrə Dövlət proqramı” təsdiq edilmişdir. Növbəti illər üzrə Nazirlər Kabinetinin 2010-ci il 26 noyabr tarixli 222 nömrəli qərarı ilə “2011-2015-ci illər üçün Şəkərli Diabet üzrə Tədbirlər Proqramı” təsdiq edilmişdir. Bu proqram çərçivəsində respublikada ilk dəfə olaraq bütün xəstələrə özünənəzarət vasitələri – qlükometrlər və test sistemlər pulsuz olaraq paylanmış və onların dərman təchizatı ilə bağlı uzun illər davam edən problem aradan qaldırılmışdır. Həmçinin görülən işlərin nəticəsi kimi şəkərli diabetdən ölüm göstəricisi hər 100 min nəfərə 21,7-dən 7,5-ə enmişdir.

**İnternetdə:** **www.books.google.com**

**16 Noyabr – YUNESKO-nun Yaranması Günü, (1946)**



16 noyabr BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun təsis edildiyi gündür. Bu qurumun yaranması haqqında Nizamnamə 1945-ci il noyabrın 16-da Londonda imzalanmış, bir il sonra 1946-cı il noyabrın 4-də isə 20 üzv dövlətdən ibarət təşkilat rəsmi fəaliyyətə başlamışdır. Hazırda 195 dövlət YUNESKO-nun üzvüdür. YUNESKO-Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addım ümummilli lider Heydər Əliyevin 1993-cü ilin dekabrında Fransaya ilk rəsmi səfəri zamanı qurumun Parisdə yerləşən mənzil-qərargahında baş direktor Federiko Mayorla görüşü zamanı atılmışdır. Ulu öndər Heydər Əliyevin 21 fevral 1994-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyası yaradılmışdır. 2005-ci il sentyabrın 15-də isə Prezident İlham Əliyev Milli Komissiya ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Azərbaycanla YUNESKO arasında hazırda sıx əlaqələr mövcuddur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycan-YUNESKO münasibətlərinin inkişafında və möhkəmlənməsində məxsusi xidmətləri vardır. Mehriban xanım Əliyevanın ciddi səyləri nəticəsində Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan edilmiş, Qobustan Dövlət Tarixi Bədii Qoruğu ümumdünya irs siyahısına salınmış, İçərişəhər Qoruğu YUNESKO-nun təhlükədə olan ümumdünya irs siyahısından çıxarılmışdır. Aşıq sənəti və Novruz bayramı da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısında özünə yer almışdır. Təsadüfi deyil ki, 2004-cü ilin sentyabrında Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın xoşməramlı səfiri adına layiq görülmüşdür. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilərək istifadəyə verilmişdir. 2009-cu ilin martında Azərbaycanda I Beynəlxalq Muğam Festivalı keçirilmişdir. YUNESKO-nun baş direktoru Koişiro Matsura bu münasibətlə ölkəmizə səfər etmişdir. Dünyada savadlılığın dəstəklənməsi üzrə YUNESKO-nun regoinal konfransları silsiləsindən 2008-ci ilin mayında baş tutan “Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tədbiqinə dəstək” və digər tədbirlər bu mərama xidmət edir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin YUNESKO çərçivəsində qeyd edilməsi də bu qurumla əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisi sayıla bilər.

**İnternetdə: www.books.google.com**

## 16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü, (1995)

***“Azərbaycan Qafqazın işıq saçan mayakıdır, tolerant ölkədir və onun nuru dünyanın hər bir tərəfinə yayılır, insanlığa yol göstərir”.***

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti



Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan prezidenti bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Bu bir məziyyət, mənəvi keyfiyyətdir, lakin, hər şeydən əvvəl, tolerantlıq bir əməldir – başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir. Bəli, tolerantlıq insanlar arasında körpülər salmaqla və ünsiyyət üçün yollar açmaqla bu çətinliklərin bir qisminə cavab verir. Tolerantlıq Birləşmiş Millətlər Təşkilatının məğzini təşkil edir. Tolerantlıq öz-özünə meydana gəlmir. O, öyrədilməli, yetişdirilməli və başqalarına ötürülməlidir. Vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir.

**İnternetdə: www.books.google.com**

**17 Noyabr – Milli Dirçəliş Günü, (1988)**

***"Dirçəliş oyanışdı, yenidən yaranmaq, dünyaya təzədən gəlməkdi. Sözün hər mənasında dirçəliş mübarizə aparmaq və özünü təsdiq etməkdi. Elə bizim xalqın da Milli Dirçəliş günü onun özünü təsdiqi idi. XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır!"***

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*



1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. SSRİ-nin o vaxtkı rəhbərliyinin buna biganə münasibətini görən ermənilər planlı şəkildə Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Elə həmin ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlarda bunu sübut edirdi. 1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin uzunmüddətli mitinqi başlandı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı.

Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənizmin istiqlaliyyət qazanmasında əsas amil sayılır. "Milli dirçəliş" deyəndə buna yalnız siyasi aspektdən yanaşmaq olmaz, çünki milli dirçəliş yalnız ictimai baxımdan yox, həm də mədəni-mənəvi əxlaqi dəyərlərin xalqın özünün təməl prinsipləri üzərində inkişaf edən ənənələrinin təcəssümüdür, onun yaşadılmasıdır və onun yaşaması məhz Milli dirçəlişin təməlidir.

**İnternetdə: www.books.google.com**

**19 Noyabr – Ümumdünya Fəlsəfə Günü, (2002)**



Ümumdünya Fəlsəfə Günü YUNESKO-nun qərarına əsasən 2002-ci ildən başlayaraq noyabr ayının 3-cü cümə axşamı günü qeyd olunur. Ümumdünya Fəlsəfə Gününün yaranmasının əsas ideyası dünyada baş verən qlobal ictimai-mədəni dəyişiklikləri müzakirə etmək üçün platforma tapmaq, insanları fəlsəfi irsə yaxınlaşdırmaq, məişət təfəkkürünün aləmini yeni ideyalar üçün açmaq və bu gün cəmiyyət qarşısında duran çağırışlarla bağlı olan ictimai müzakirələri stimullaşdırmaqdan ibarətdir. Mütəfəkkirlərin çoxu qeyd edirdilər ki, fəlsəfənin məğzi təəccüblənməkdədir. Doğurdan da, fəlsəfə insan varlıqlarının özləri və yaşadıqları dünya ilə maraqlanmağa olan təbii istəkdən doğulur. Müdrikliyə olan sevgi qismində çıxış edərək, fəlsəfə bizi düşüncələr haqqında düşünmək, müxtəlif fundmental həqiqətləri dərindən öyrənmək və şəxsi nəticələr çıxarmağı öyrədir. Əsrlər ərzində fəlsəfə müxtəlif konsepsiyalar və ideyalar əmələ gətirmiş və kritik, müstəqil və yaradıcı düşünməyin təməlini qoymuşdur.

Fəlsəfə Günü YUNESKO-nun 70-dən çox ölkəsində qeyd olunur. Hər il fərqli mövzulara həsr olunan bu gündə mütəfəkkirlərin, alimlərin, müəllimlərin, tələbə və şagirdlərin, mədəniyyət və təhsil nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilir: fəlsəfi diskussiyalar, “dəyirmi masalar”, konfranslar, seminarlar, sərgilər, təqdimatlar və s.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**20 Noyabr – Ağdam şəhərinin işğaldan azad edildiyi gün, (2020)**



Ağdam — Azərbaycan Respublikasının Ağdam şəhər inzibati ərazi dairəsində şəhər.
1988-ci ilin son aylarında Ermənistandan və daha sonra isə Dağlıq Qarabağdan qovulub çıxarılan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna gətirilmişdi. 1993-cü il iyulun 4-də erməni qüvvələri artilleriya ilə Ağdamı bombalamış, şəhərin əksər hissəsini məhv etmişdilər və bunun nəticəsində, əsgərlər və mülki vətəndaşlar şəhərdən evakuasiya olundu. 23 iyul 1993-cü cü il tarixdə Ermənistan ordusu tərəfindən Ağdam şəhəri işğal olunub. Bununla belə Ağdam şəhərinin işğalına son qoyulur. 1994-cü il may ayının 12-dək davam edən hərbi təcavüz nəticəsində isə ermənilər Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometrini, yəni ümumi ərazisinin 77,4 faizini işğal etməyə nail oldular. Ağdamın müdafiəsi uğrunda 5 ildən artıq gedən qanlı döyüşlərdə qismətinə 5897 şəhid, 3531 nəfər əlil, 1871 nəfər yetim uşaq düşdü. Minlərlə insan fiziki şikəstlik qazanmış, 126 min nəfərdən artıq ağdamlı öz doğma ev-eşiyindən didərgin düşmüşdü.1828-ci ildə Ağdama şəhər statusu verilmişdir. Ağdamda qədim tarixə malik çoxlu memarlıq və incəsənət abidələri vardır. Onlardan XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalasını qeyd etmək olar. Şəhərin tanınmış sakinlərdən dramaturq Məcid Şamxalov, pediatr Ədilə Namazova, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov, yazıçı Ramiz Abbaslı, aktyor Murad bəy Muradov, tarzən Qurban Pirimov, xanəndə Nəzakət Teymurova, Sosialist Əməyi Qəhrəmanı Əminə Cəfərova, film direktoru Rimma Abdullayeva, futbolçu Vüqar Nadirovu və digərlərini qeyd etmək olar. 20 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ atəşkəs bəyanatının şərtlərinə əsasən Azərbaycan Silahlı Qüvvələri Ağdam şəhərinə daxil olur. Ağdam rayonu yenidən Azərbaycanın ən zəngin, mədəniyyətin, iqtisadiyyatın yüksək inkişaf etdiyi rayonlardan birinə çevriləcək.Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ağdam rayonuna getmişlər. Onlar Ağdam məscidini ziyarət etmişlər. Prezident Məkkədən gətirdiyi ‘’Qurani-Kərim’’i Ağdam məscidinə bağışlamışdır.

Əslən Ağdamlı olan Azərbaycanın Milli Qəhrəmanları


Nadir Əliyev


Rövşən Hüseynov


Canbulaq Rzayev


Faiq Ağayev

İnternetdə:https://az.wikipedia.org/wiki/Ağdam

**20 Noyabr – Ümumdünya Uşaqlar Günü, (1956)**

***“Uşaqlar – bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir”.***

M. Qorki




Ümumdünya Uşaqlar Günü (Ümumdünya Uşaq Hüquqları Günü ) (ing. Universal Children's Day) – 1954-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən (№836, (IX) saylı qətnamə) 1956-cı ildən bütün dövlətlərə uşaqlar şərəfinə keçirilməsi tövsiyə olunan bayramdır.

Baş Assambleya öz qətnaməsində qeyd edirdi ki, Ümumdünya Uşaqlar Gününün ümumi bayram kimi qeyd edilməsi millətlər arasında həmrəyliyin və əməkdaşlığın bərkidilməsinə xidmət edəcək. BMT tərəfindən 1959-cu ilin 20 noyabrında "Uşaq Hüquqları Bəyannaməsi", 1989-cu ildə isə "Uşaq Hüquqları Konvensiyası" qəbul etmişdir. Uşaq Hüquqları Konvensiyası (UHK) uşaqların insan hüquqlarını təsdiq edən ilk icbari hüquqa malik beynəlxalq konvensiyadır. 1989-cu ildən bu günədək BMT-yə və ya Cenevrə Konvensiyasına üzv olan ölkələrin sayını üstələyən 193 ölkə tərəfindən ratifikasiya edilmiş UHK, demək olar ki, bütün dünyada qəbul edilib.

1924-cü ildə ilk dəfə olaraq uşaqların hüquqlarını təmin edən bəyannamə qəbul edilmişdir. Bu bəyannamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyannamənin qəbulu ilə bağlı ilk işlər Eglantyne Djebb tərəfindən görülmüşdür. Birinci Dünya müharibəsinin dəhşətlərinin şahidi olan Eglantyne Djebb müharibənin dəhşətlərindən sarsılaraq uşaqların xüsusi müdafiəyə ehtiyac duyduqlarını anlayıb. O, bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə uşaqlara yardım, kömək göstərib, onların müdafiəsini təmin etmək üçün Londonda “Uşaqlara Yardım Fondu”nun əsasını qoyub.

**İnternetdə: www.books.google.com**

**20 Noyabr – Azərbaycan Fotoqraflar Birliyi (AFB) yaradılmışdır, (1998)**

Azərbaycan Fotoqraflar Birliyi həvəskar və professional fotoqrafları bir araya gətirən, Azərbaycan Respublikasında fotoqrafiya sənətinin inkişafından, əldə edilən nailiyyətlərin qorunub saxlanması və ölkə daxilində və xaricdə təbliğindən ibarətdir.

Azərbaycan Fotoqraflar Birliyi (AFB) ictimai, yaradıcılıq, qeyri-kommersiya təşkilatı olub açıq cəmiyyət, könüllülük və özünüidarə prinsiplərinə əsaslanır. Birlik AR-nin konstitusiyasına və təşkilatın Nizamnaməsinə uyğun fəaliyyət göstərir. AFB 1998-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 1073 nömrəli şəhadətnamə ilə qeydə alınmışdır. 1990-cı ilin əvvəlində SSRİ-nin dağıldığı vaxt işlək strukturlar fəaliyyətdən düşdü və tamamilə aydın bir zərurət yarandı ki, təcrübəli, həvəskar, peşəkar, bir sözlə, fotoqrafiyanı sevən hər kəsi birləşdirmək iqtidarında olan bir təşkilat qurmaq lazımdır. O zamanlar təşkilatlanmaqda Fransanın Nant şəhərində "Azərbaycan fotoqrafları" sərgisinin nümayişi bizim üçün ciddi və səfərbəredici amil rolunu oynadı. Sərgi 1995-ci ilin noyabrında baş tutdu, 24 fotoqrafın 105 əsəri göstərildi. Nümayişin uğuru gözlənildiyindən də artıq oldu, fotoqraflarımız yaradıcıqlarına, özlərinə qarşı böyük maraq hiss etdilər, ictimai rəy, bu gözəl peşəyə münasibət də kökündən dəyişdi. Fransa fotosərgisindən sonra düz 3 il mübahisə-müzakirələr oldu, nizamnamə yazıldı, müxtəlif maneələr dəf edildi, təşəbbüs qrupu yaradıldı ki, o da işi məntiqi sonluğa çatdıra bildi: birlik 1994-cü ildən faktiki olaraq işləsə də, hüquqi statusa malik deyildi, amma indi o rəsmi qeydiyyata alındı.

AFB-nin əsas məqsəd və vəzifəsi milli foto sənətini inkişaf etdirmək, ölkədə və xaricdə onun nailiyyətlərini yaymaq, foto irsimizdən yaradıcılıqla bəhrələnib onu qorumaqdır. AFB foto sənətimizin təbliği və inkişafı məqsədilə sərgilər, müsabiqələr, festivallar, ustad dərsləri və yaradıcılıq seminarları keçirir, Azərbaycan və xarici fotoqrafların iştirakı ilə konfranslar, simpoziumlar təşkil edir, həmçinin həvəskar fotoqraflar hərəkatlarına hər cür dəstək verir.

Bu gün AFB inkişafının yeni mərhələsinə qədəm qoyur. Həm təşkilati, həm də birliyin simasını formalaşdırmaq baxımından hələ çox işlər görülməlidir. Bütün maraqlı tərəflərdə münasibətlər qurulmalı, birlik üzvlərinin yaradıcılıq fəaliyyətləri üçün maddi zəmin və şərait yaradılmalıdır.

AFB-nin yaranmasından 10 il keçir. Yaradıcılıq birliyinin üzvləri bu zaman kəsiyində 100-dən artıq sərginin hazırlanması işində iştirak etmişlər. Sərgilərdən 30-u xaricdə baş tutmuşdur (AFB, Böyük Britaniya, Fransa, Türkiyə, Almaniya, Belçika, Ukrayna, Yunanıstan, Rusiya, Monqolustan, Özbəkistan, Qazaxıstan, Gürcüstan və s.). AFB-nin idarə heyətinin sədri Mirnaib Həsənoğludur.

**İnternetdə:** www.books.google.com

**21 Noyabr – Ümumdünya Televiziya Günü, (1999)**




1999-cu ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qərara əsasən 21 noyabr Dünya Televiziya Günü kimi qeyd olunur. İstər dünyada, istərsə də ölkəmizdə aparılan araşdırmalar göstərir ki, uşaqların şəxsiyyətinin formalaşmasında, qazanılan uğurlarda televiziyanın rolu böyükdür. Bəli, televiziya xəbər, əyləncə və düşüncələri ifadə etmək üçün ən gözəl vasitədir.

**İnternetdə: www.books.google.com**

**21 Noyabr – Ümumdünya Salamlaşma Günü, (1973)**





Ümumdünya Salamlaşma Günü (World Hello Day) hər il noyabrın 21-də keçirilir. Onun əsas məqsədi sülhün qorunması üçün şəxsi ünsiyyətin vacibliyini geniş ictimaiyyətin diqqətinə çatdırmaqdır. Çünki yalnız xeyirxah ünsiyyət vasitəsilə və güc tətbiq etmədən bütün münaqişələri həll etmək olar. Salamlaşma bayramını 1973-cü ildə, soyuq müharibənin ən qızğın dövründə, Misir və İsrail arasındakı münaqişəyə cavab olaraq iki amerikalı qardaş – Maykl və Brayen Makkomak düşünmüşlər. Salamlaşma günü beynəlxalq gərginliyin güclənməsinə etiraz kimi çox zəruri aksiyadır. “Sadə, lakin təsirli addım atmaq lazımdır” deyə düşünən qardaşlar dünyanın hər yerinə səmimi, mehriban salamlaşma məktubları göndərmişlər. Onlar dünyada sülhün qorunması və gərginliyin azaldılması üçün öz ideyalarını heç kimə məcburi qəbul etdirmirdilər. Makkomak qardaşları məktub ünvanladıqları şəxsdən, sadəcə, daha kimlərisə, heç olmasa on nəfəri salamlamağı xahiş edirdilər. Bu ideya 180-dən çox ölkədə dəstəklənmişdir. Həmin vaxtdan Ümumdünya Salamlaşma Gününü həm müxtəlif yaşlı insanlar, həm də ayrı-ayrı peşə sahibləri, siyasi liderlər, sənaye maqnatları, məşhur kino və televiziya ulduzları qeyd edirlər. Müxtəlif xalqların müxtəlif salamlaşma ənənələri fərqli olsa da, xüsusən beynəlxalq görüşlərdə millətlərarası etiket mahiyyətcə eynidir: görüş zamanı ənənəvi olaraq insanlar bir-birinə xeyir və sağlamlıq, rifah və uğur arzu edirlər. **İnternetdə: www.books.google.com**

**22 Noyabr – Ədliyyə İşçiləri Günü, (2000)**



22 noyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsi təsis edilib. Prezident Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib. Ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdi. Hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdi. ADR-in süqutundan sonra Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdı. Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və dövlət qeydiyyatını aparır; qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, o cümlədən qanun layihələri hazırlayır və normativ sənədlərin layihələri üzrə rəylər verir, hüquqi maarifləndirmə işi aparır; hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini, mətbu nəşrlərin reyestrini aparır; notariat fəaliyyətinə rəhbərlik edir; vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirir; dövlətlərarası övladlığa götürmə məsələlərini və sənədlərin leqallaşdırılmasını həyata keçirir; məhkəmə qərarlarının icrasının təmin olunmasını təşkil edir; məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə statistikasının aparılmasını təmin edir; qeyri-kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin (qərarlarının) qeydiyyatının aparılmasını həyata keçirir. Bunlarla yanaşı, Azərbaycanda aparılan bütün növ məhkəmə (qeyri-tibb) ekspertizaları Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat mərkəzi olan İnstitut tərəfindən həyata keçirilir. Azərbaycanda müşahidə olunan inkişaf meyilləri ədliyyə orqanlarının fəaliyyətində də öz əksini tapmışdır. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən dinamik inkişaf, genişmiqyaslı quruculuq işləri, xarici siyasətdə əldə olunan uğurlar Azərbaycanı regionda lider dövlətə çevirmişdir. Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və qeydiyyatını aparır. Bununla yanaşı, qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, o cümlədən qanun layihələri hazırlayır və normativ sənədlərə dair rəylər verir, hüquqi maarifləndirmə işi aparır. Ədliyyə Nazirliyinin genişmiqyaslı işi sayəsində ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası təmin olunmuş, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, hüquq ədəbiyyatı kitabxanası yaradılmışdır. **İnternetdə: www.books.google.com**

**24 Noyabr – Morj Günü, (2008)**



2008-ci ildə Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) və Dəniz Məməliləri üzrə Şuranın təşəbbüsü ilə Morj Günü təsis olunmuşdur. Bu heyvanlar – planetimizin şimal yarımkürəsində məskunlaşmış nəhəng kürəkayaqlılardır. Bu bayram təsadüfən noyabrın 24-ə salınmamışdır. Morjlar payızın son günlərində Çukot dənizinin arktik sahillərini tərk edirlər və qışlamaq üçün Berinq boğazına gedirlər. Bu yerdəyişmə zamanı onlar xüsusilə zəif və müdafiəyə möhtac olurlar. Təbiəti qoruyanlar bu bayramı elan etməklə ictimaiyyətin diqqətini morjların problemlərinə cəlb etməyə çalışmışlar. Ən əsas problem ekoloji problemdir. İqlimin istiləşməyə doğru dəyişməsi Yer kürəsində buz örtüyünün azalmasına gətirib çıxarmışdır. Nəticədə morjlar buzdan quruya keçməyə və burada özlərinə yeni yataqlar yaratmağa məcbur olurlar. Bu heyvanların belə yataqlarda kütləvi toplanması gənc morjların tələf olmasına səbəb olur. Morjların ikinci problemi insanların onların ərazilərinə nüfuz etmələridir. Şimal Buzlu okeanının şelfindəki qiymətli karbohidrogen yataqlarının insanlar tərəfindən mənimsənilməsi, gəmilərin hərəkəti morjların məhvinə səbəb olur. Ümumdünya Vəhşi Təbiət Fondunun nümayəndələri insanları okeanın sakinlərinə qayğı ilə yanaşmağa, onların problemlərinə biganə qalmamağa çağırır.

**İnternetdə: www.books.google.com**

**25 Noyabr – Kəlbəcər rayonunun işğaldan azad edildiyi gün, (2020)**




Kəlbəcər rayonu — Azərbaycan Respublikasında inzibati-ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. Kəlbəcər 8 avqust 1930-cu ildə inzibati rayon statusu almışdır. 1993-cü ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan sülh müqaviləsinə əsasən 25 noyabrda Ermənistan Silahlı Birləşmələri Kəlbəcər rayonunu boşaldıb Azərbaycan Silahlı Qüvvələrinə təhvil vermişdir. 15 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonu işğaldan azad edildi.Bəyanata əsasən 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadılmışdır. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması,ərazinin böyüklüyü və humanizm göstərilmişdir. Məğlubiyyətlə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir.Ərazini tərk edən ermənilər evləri ilə yanaşı meşələri də yandırmışdır. Nəhayət 25 noyabr 2020-ci il tarixində noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Kəlbəcər rayonu işğaldan azad edilmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olmuş və nəzarəti ələ almışdır. Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb. Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvələri Camışdağ dağındakı zirvə (3724 m) və Dəlidağdır (3616 m). Ərazinin çox hissəsi meşəlikdir. Kəlbəcər qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göy-Göl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir.Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngindir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Alagöllər, Qaragöl, Zalxa gölü və s. gölləri var. Rayonda əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılmışdır. Meşələrin ümumi sahəsi 30 min hektara yaxındır. 1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 sutkadan çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşaraq 450 nəfərdən çox döyüşçü itki vermiş və mühasirədə olan 60 min Kəlbəcərlinin təxliyyəsinə nail olmuşdu. Döyüşdə həlak olmuş qəhrəmanlarımız Kəlbəcər torpağında yatır.

İnternetdə:https://az.wikipedia.org/wiki/Kəlbəcər_rayonu

**26 Noyabr – Azərbaycan Kəlağayısı Günü, (2014)**



26 noyabr Azərbaycan kəlağayısı Günü bütün dünyada beynəlxalq səviyyədə qeyd olunur. 2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin keçirilən iclasında "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilmişdir.

Kəlağayı faylını birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi hazırayıb. Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin UNESCO yanında Daimi Nümayəndəliyi, UNESCO üzrə Milli Komissiyanın birgə həyata keçirdiyi çoxşaxəli fəaliyyət nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq etmiş olub.

Hazırda Kəlağayıdan başqa, Muğam ifaçılıq sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısında yer alır.

**İnternetdə: www.books.google.com**

**26 Noyabr – Ümumdünya İnformasiya Günü, (1994)**



Hər il 26 noyabr tarixinin məhz bu ad altında qeyd edilməsi təşəbbüsü Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamenti tərəfindən irəli sürülüb. Əlamətdar günün beynəlxalq təqvimə salınması ilə bağlı qərar 26 noyabr 1992-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə keçirilən I Beynəlxalq İnformasiyalaşdırma Forumunda verilib.

Ümumdünya İnformasiya Gününün 26 noyabr tarixində qeyd olunmasına dair qərar isə rəsmi olaraq YUNESKO tərəfindən 1994-cü ildə qeydiyyata alınıb.
Ümumdünya İnformasiya Gününün əsas məqsədi bu sahədə olan başlıca problemlərə və məsələlərə mütəxəssislərin diqqətini yönəltməkdir.

**İnternetdə:** **www.books.google.com**

**30 Noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü, (1988)**



Beynəlxalq İnformasiya Təhlükəsizliyi Gününün qeyd olunmasının məqsədi kompüterdə saxlanılan informasiyanın təhlükəsizliyinin təmini, bu sahədə mövcud olan müxtəlif problemlərin həllinin önəmliyini istifadəçilərin, proqram vasitələri istehsalçılarının, o cümlədən ictimaiyyətin diqqətinə çatdırmaqdır. 1988-ci il noyabr ayının 30-da "Morris soxulcanı" adlanan ilk kompüter virusu elmi-tədqiqat institutları, hərbi idarələr, hətta Pentaqon da daxil olmaqla, ARPANET-in minlərlə qovşağının fəaliyyətini iflic vəziyyətinə saldı. İlk kompüter virusunun vurduğu ziyan isə təxminən 100 milyon dollar dəyərində qiymətləndirilirdi. Bu hadisə bəşəriyyətin kompüter təhlükəsizliyi haqqında təsəvvürlərini dəyişdi. Məhz həmin vaxtda mütəxəssislər informasiya təhlükəsizliyinin təmini məsələlərinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladılar. Müəllifinin adı ilə adlandırılan bu virusun yaradıcısı – Robert Morris proqramın kodunun məxfi saxlanılmasına nail olduğu üçün onun bu işdə əli olduğunu çətin ki, kimsə sübut edə bilərdi. Onun məqsədi isə sırf tədqiqat xarakteri daşıyırdı. Onun atası Milli Təhlükəsizlik Agentliyinin kompüter üzrə eksperti isə hesab edirdi ki, oğlu tutduğu əməlini etiraf etməlidir. R.Morrisi 5 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyirdi. Lakin məhkəmə Kornell Universitetinin "Hesablama texnikası" fakültəsinin aspirantına güzəşt edərək, "alim"ə üç il şərti cəza kəsdi. Həmin ildə Kompüter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabr tarixini Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (Computer Security Day) elan etmişdir.

**İnternetdə: www.books.google.com**

**30 Noyabr – Ümumdünya Ev Heyvanları Günü, (1931)**





Hər il noyabrın 30-u bir çox ölkələrdə Ümumdünya Ev Heyvanları Günü (World Day Pets) qeyd olunur. Bu günün təsis olunması ideyası Təbiətin qorunması hərəkatı tərəfdarlarının 1931-ci ildə Florensiyada (İtaliya) keçirilən Beynəlxalq konqresində səslənmişdir. Həmin vaxtdan bu bayram dünyanın bir çox ölkələrində qeyd olunur və insanlar tərəfindən ev heyvanlarına çevrilən "balaca dostlarımıza" görə bütün bəşəriyyətin cavabdeh olduğunu xatırladır. Təsadüfi deyil ki, bu günün devizi Antuan de Sent Ekzüperinin məşhur əsərinin qəhrəmanı Balaca Şahzadənin bütün insanlara ünvanlanmış sözləridir: "Sən əhliləşdirdiklərin üçün hər zaman cavabdehsən".

Bu günlə əlaqədar keçirilən tədbirlər çox rəngarəng və müxtəlifdir və hər bir ölkədə fərqli şəkildə düzənlənir. Bu günün hansı şəkildə qeyd edilməsindən asılı olmayaraq, əsas məqsəd insanları ev heyvanlarının problemlərinə biganə qalmamağa çağırmaqdır.

**İnternetdə: www.books.google.com**

**Bu tarixi unutmayaq**

**20 Noyabr – Qarakənd faciəsi, (1991)**



Qarakənd faciəsi və ya 20 noyabr faciəsi Xocavənd rayonunun Qarakənd yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsidir. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 helikopteri 1991-ci il noyabrın 20-də, saat 14:42 dəqiqədə vurulub. Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri, jurnalist Osman Mirzəyev, Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdur.

**İnternetdə: www.books.google.com**

**Yubilyar yazıçı və şairlər**
**6 Noyabr - Şair Tofiq Mahmudun 90 illiyi, (06.11.1931-04.04.1997)**



**Mehdiyev Tofiq Mahmud oğlu - şair, nasir, tərcüməçi, publisist, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı (1984)**

Tofiq Mahmud 1931-ci il noyabrın 6-da Naxçıvan MR Şahbuz rayonunda anadan olmuşdur. Orta təhsili Bakıda 31 saylı məktəbdə almış, sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1949-1954). Əmək fəaliyyətinə Azərbaycan Mədəniyyət Nazirliyinin mədəni-maarif müəssisələri idarəsində metodiki kabinetin metodisti kimi başlamış (1954), sonra "Azərbaycan müəllimi" qəzeti redaksiyasında xüsusi müxbir (1958-1961), "Göyərçin" jurnalı redaksiyasında ədəbi işçi olmuşdur (1961). İlk şeiri "Kəsməsəm də, görməsəm də" 1953-cü ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur. 1976-cı ildən "Göyərçin" jurnalının redaktoru vəzifəsində işləmişdir. Bədii tərcümə ilə də məşğul olmuşdur. Onun tərcüməsində Xuta Berulavanın "Quş südü", İsabəy İshaqovun "Hər şeyi öyrənmək istəyən" kitabları işıq üzü görmüşdür. Əsərləri xarici ölkə xalqlarının dilinə tərcümə olunmuşdur. Azərbaycan Respublikası Uşaq Fondunun Bakı şöbəsinin sədri, həm də rəyasət heyətinin üzvü olmuşdur (1989-cu ildən). Azərbaycan Yazıçılar Birliyi uşaq və gənclər ədəbiyyatı şurasının sədri, keçmiş SSRİ Yazıçılar İttifaqı uşaq və gənclər ədəbiyyatı şurasının üzvü seçilmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Tofiq Mahmud 1997-ci il aprelin 4-də Bakıda vəfat etmişdir. Şairin adına "Tofiq Mahmud mükafatı" (hər il ən yaxşı uşaq şeirlərinin müəlliflərinə təqdim olunur) təsis edilmişdir.

**Əsərləri:** “Yola çıxıram” (1959), “Mənim kürəkənim” (1959), “Dibçək” (1962), “Buzovna qayaları” (1963), “Utancaq oğlan” (1964), “Açıqdır pəncərəm” (1966), “Alpinistlər” (1967), “Meşədə səs” (1969), “Ana qucağı” (1971), “Qızımın sualları”, “Dalğalar” (1976), “Ulduzlar, düşüncələr” (1977), “Pəncərəyə toxunan budaq” (1978), “Kəpənək gözəlliyi” (1980), “Məhəbbətim sirr deyil” (1981),”Yerə dağılan muncuqlar” (1983), “Şən şerlər”(1983), “Bu işıqla qalacağam” (1985), “Yağış yağır dənizə” (1985), “Gecə qapı döyülür” (1988), “Uzaqda ucalan dağlar” (1991) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 882.

**11 Noyabr - Şair Balaş Azəroğlunun 100 illiyi, (11.11.1921-24.04.2011)**



**Abizadə Balaş Allahbaxış oğlu (Balaş Azəroğlu) — şair, ədəbiyyatşünas, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1966), Azərbaycanın xalq şairi (1981). Xidmətlərinə görə "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenləri ilə, "21 Azər", "Firdovsi" və digər medallarla, iki dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1960, 1971), 1996-cı ildə "Şöhrət Ordeni" ilə təltif edilmişdir.**

Abizadə Balaş Allahbaxış oğlu (Balaş Azəroğlu) 1921-ci il noyabrın 11-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini də burada almışdır. Məktəbdə oxuyarkən ədəbiyyata böyük həvəs göstərərək, vaxtının çox hissəsini bədii əsərlər oxumağa sərf etmişdir. Məktəbin ədəbiyyat müəllimi Cəfər Rəmzi bu sahədə ona böyük təsir göstərmiş, qəlbində ədəbiyyata olan böyük sevgisini də o yaratmışdır. İlk mətbu şeiri "Dnepr" 1937-ci ildə Bakıda çapdan çıxmışdır. 1938-ci ildə ailəliklə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçdüklərindən burada fars ibtidai məktəbində təhsil alır. Milli azadlıq hərəkatına qoşulur (1941). Bu da onun yaradıcılığında siyasi lirikanın ön plana keçməsində mühüm rol oynamışdır. Ərdəbildə və Təbrizdə ilk şeir kitabları (1943, 1945) dərc olunmuşdur. Bakıda ADU-nun filologiya fakültəsində təhsil alır (1947-1952). Eyni zamanda, Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsində çalışır. ADF MK-nın orqanı "Azərbaycan" qəzeti redaksiyasında ədəbi-bədii şöbənin müdiri (1948-1953), sonra məsul redaktor (1953-1956), ADF MK-da təbliğat şöbəsinin müdiri (1956-1958), Azərbaycan Ali Partiya məktəbində xüsusi fakültənin dekanı (1958-1959) işləyir. Çoxcildlik “Azərbaycan ədəbiyyatı”nın müəlliflərindən biridir. Farscadan dilimizə çevirdiyi Nizaminin “Yeddi gözəl” poemasını, Füzulinin qəzəllərini çap etdirmişdir. Şəhriyardan tərcümələri vardır. Onun ərəb əlifbası ilə “Seçilmiş əsərləri” (1996, Tehran) buraxılmışdır. 24 aprel 2011-ci ildə vəfat etmişdir.

**Əsərləri:** “Şeirlər” (1948), “Savalan” (1949), “Mübarizə yollarında” (1950), “Gənclik dostlarım” (1950), “Mənim nəğmələrim” (1952), “Səhər şəfəqləri” (1953), “Sənətin qüdrəti” (1955), “Seçilmiş əsərləri” (1956), “Çiçəklənən tarlalar” (1954), “İtmiş qız haqqında dastan” (1957), “Hafizin qəbri üstündə” (1959), “Seçilmiş şerlər” (1959), “Əsərləri” (1961), “Elə oğul istəyir vətən” (1961), “İki dost” (1965), “Məcnun söyüd” (1966), “Savalan əfsanəsi” (1967), “Dünənim, bu günüm, sabahım” (1970), “İllərdən illərə” (1971), “Yarpaqlar töküləndə” (1976), “Gəl, ay bahar” (1983), “Sinəm Savalan dağıdır” (1984), “Bir kürsü istəyirəm” (1989), “Seçilmiş əsərləri (iki cilddə)”(1991) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 114.

## 12 Noyabr - Şair İbrahim Göyçaylının 85 illiyi, (12.11.1936-24.02.2007)



**İbrahim Göyçaylı (tam adı: Əsgərov İbrahim Məhəmməd oğlu) — Azərbaycanlı şair; Azərbaycanın Əməkdar İncəsənət Xadimi**

Əsgərov İbrahim Məhəmməd oğlu 1936-cı il, noyabrın 12-də Göyçay rayonunun Alıkənd kəndində anadan olmuşdur. 1943-cü ildə Göyçay şəhərində orta məktəbə gedib. 1953-cü ildə məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb (1953-1958). Əmək fəaliyyətinə qəzetdə müxbir kimi başlayıb. Sonra Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Mədəni ticarət", "Za kulturnuyu torgovli" qəzetlərində baş redaktor, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində redaktor, şöbə müdiri, baş redaktor kimi vəzifələrdə çalışıb. 1983-cü ildən 2007-ci ilə qədər baş redaktor müavini vəzifəsində fəaliyyət göstərmişdir. Ümumilikdə, Azərbaycan Dövlət Radiosunda 40 ilə yaxın müddətdə fəaliyyət göstərmiş, radionun formalaşmasında xüsusi xidmətləri olmuşdur. 2006-cı ildə prezident İlham Əliyevin qərarına əsasən Əməkdar İncəsənət Xadimi adına layiq görülmüşdür. 2007-ci il, fevral ayının 24-də, uzun sürən xəstəlikdən sonra 70 yaşında vəfat etmişdir. Yüzdən çox şerinə mahnılar bəstələnib, tanınmış sənətkarlar tərəfindən ifa olunub.

**Kitabları:** "Dalğalar qoynunda" (1966), "Yadigar sözlər" (1969), "Gözlərinin işığında" (1973), "Qərənfil işığı" (1979), "Qoymayın qızları kədərlənməyə" (1982), "Ulduzlar nədən danışır" (1984), "Vaxt soruşsa" (1986), "Песня голубой вершины. (Mavi zirvənin nəğməsi)" (1987), "Uzaq haraylara isinmir ürək" (1991), "Ümiddən uzun gecə" (1997), "Lirika" (2001), "Ümid yeri" (2003), "Yaşadığım bu dünya" (2004), "Fikrimin sabahı" (2005), "Ömrümüz su kimi" (2005) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 414.

**23 Noyabr - Yazıçı, ədəbiyyatşünas Aqşin Babayevin 85 illiyi, (1936)**
**Aqşin Babayev – Yazıçı-dramaturq, şair, tərcüməçi, pedaqoq, ictimai xadim.**



Aqşin Babayev Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Aspiranturada oxuyub, elmlər doktoru alimlik dərəcəsi, professor adı alıb. 30 kitabın müəllifidir. 32 il radioda çalışıb. 15 il Milli Məclisdə mətbuat katibi işləyib. Əməkdar jurnalistdir. "Yusif Məmmədəliyev", "Həsən bəy Zərdabi", "Humay", "Qızıl Qələm" mükafatları laureatıdır. 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə II dərəcəli dövlət müşaviri rütbəsinə layiq görülüb. A.Babayev əmək fəaliyyətinə tələbəykən respublika radiosunda başlayıb. Türkiyəyə, ərəb ölkələrinə, İrana və Cənubi Azərbaycana verilişlər hazırlayan redaksiyaların Baş redaktoru təyin edilib. Əsas işindən ayrılmadan 10 il ingilis, fransız, ərəb və ispan dillərində çap olunan "Moskou nyus" qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri olub. Ölkəmizin ictimai həyatı, mədəniyyəti, incəsənəti haqqında həmin qəzetin səhifələrində yazılar dərc etdirib. Ü.Hacıbəyov, F.Əmirov, Q.Qarayev, Niyazi, T.Salahov kimi sənətkarlarımızı xarici ölkə oxucularına tanıtdırıb. 1976-cı ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində respublika radiosu və xarici verilişlər üzrə sədr müavini təyin edilib. 15 il ərzində bu vəzifədə çalışıb. Aqşin Babayevin ilk hekayəsi 1958-ci ildə "Oktyabr işıqları" almanaxında çap olunub. 1964-cü ildə onun "Cazibəli üfüqlər" adlı ilk hekayələr kitabı çapdan çıxıb. "Həmişəbahar", "Bir parça həyat", "Ağ ulduzlar", "Bir ürəyin hərarəti", "Ayrılıq", "Söz gülləsi", "Dünyanın axırı" adlı kitabların müəllifidir. "Kişilər az yaşadı" kitabı isə Moskvanın "Sovetski pisatel" nəşriyyatı tərəfindən 30 min nüsxə tirajla nəşr edilib. 10 cilddən ibarət "Seçilmiş əsərləri" işıq üzü görüb. Aqşin Babayev həm də şairdir. Yeddinci sinifdə oxuyanda "Bahar" adlı ilk şeirini yazıb. Sözlərinə mahnılar bəstələnib. Şeir kitabına xalq şairi Fikrət Qoca ön söz yazıb. Aqşin Babayevin dramaturq kimi ilk əsəri tələbəlik dövründə 1955-ci ildə tamaşaya qoyulub. Sonra pyesləri Musiqili Komediya, Rus Dram, Gənc Tamaşaçılar, Bələdiyyə, Sumqayıt Musiqili Dövlət Dram teatrlarında oynanılıb. Onun ssenarisi əsasında telefilmlər çəkilib. "Xilaskar" və "Oğul" pyesləri ulu öndərimiz Heydər Əliyevə həsr edilib.

**Əsərləri:** “Bir parça həyat”, “Sünbül ətri”, “Kişilər az yaşadı”, “Ağ ulduzlar”, “Həmişəbahar”, “Söz gülləsi”, “Xilaskar”, “Oğul” və s.

**Filmoqrafiya:** Nekroloq (film, 2001), Dəvətnamə (film, 2003), Yol (2003), Mükafat (film, 2004)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 53.

**24 Noyabr - Ədəbiyyatşünas, tənqidçi Əli Nazimin 115 illiyi, (1906-1941)**



**Mahmudzadə Əliəkbər Mahmud oğlu (Əli Nazim) – Azərbaycan sovet tənqidçisi və ədəbiyyatşünası, 1934-cü ildən AYB-nın üzvü**

Mahmudzadə Əliəkbər Mahmud oğlu 1906-cı ildə Cənubi Azərbaycanın Təbriz şəhərində dünyaya gəlmişdir. Bakıda pedaqoji texnikumu bitirib Leninqrad İnstitutuna daxil olmuşdur (1925). Moskva Kommunist Akademiyasında aspirant, elmi işçi, SSRİ xalqları ədəbiyyatı və incəsənəti bölməsinin elmi katibi olmuşdur (1927-1932). Azərbaycan Elmi-Tədqiqat İnstitutu ədəbiyyat şöbəsinin müdiri və Ali Pedaqoji İnstitutda kafedra müdiri vəzifələrində çalışmışdır. Orta məktəbin yuxarı sinif şagirdləri üçün ədəbiyyat müntəxabatı tərtib etmiş, Hənəfi Zeynallı ilə şərikli dərslik də hazırlamışdır (1936). O, "Ədəbiyyat ensiklopediyası"nın redaktoru, Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin və əbədi mətbuat orqanı redaksiya heyətinin üzvü olmuşdur. 1937-ci ildə həbs olunmuş, 10 il müddətinə həbs cəzasına məhkum edilmiş, 1941-ci il avqustun 23-də həbsxanada vəfat etmişdir. Əli Nazim 1957-ci ildə bəraət almışdır.

**Əsərləri:** "Seçilmiş əsərləri" (1979)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 255.

## Xarici ədəbiyyat

## 19 Noyabr - Rus şairi, alim, rəssam M.V.Lomonosovun 310 illiyi, (1711-1765)



*“ Özünün böyük iradəsini və yüksək dərketmə qabiliyyətini ortaya qoyaraq Lomonosov təhsilin bütün sahələrini əhatə edə bildi. Elm yanğısı onun qəlbinin ehtirası idi. Tarixçi, natiq, mexanik, kimyaçı, mineraloq, rəssam, o bunların hamısını keçdi. Birinci olaraq Vətənin tarixinə baş vurdu, qanunlar işləyir, ..., fabriklər yaradır, rəssam kimi mozaika hazırlayır və ən əsası şeir dilinin mənbələrini hamıya göstərir.*”

A. S. Puşkin

Mixail Vasilyeviç Lomonosov dünya səviyyəli birinci rus alimi-təbiətşünası, ensiklopediyaçı, kimyaçı, fizik; vaxtilə fiziki kimyaya indiki dövrün tərifinə çox oxşayan anlayış verib və fiziki-kimyəvi tədqiqatların geniş proqramını işləyib. Onun istiliyin molekulyar-kinetik nəzəriyyəsi indinin materiya quruluşu barədə təsəvvürlərin əsasını qoydu, onun sayəsində bir sıra fundamental fiziki qanunlar işləmək mümkün oldu.

Mixail Vasilyeviç Lomonosov şüşə haqqında elmin əsasını qoyub. O, cihaz nəzəriyyəçisi, coğrafiyaçı, metallurq, geoloq, şair, rəssam, tarixçi olub, müasir rus dilinin əsasını qoyub. Rusiya təhsil sisteminin, elm və iqtisadiyyatının inkişafına dair bir sıra layihələr hazırlayıb. Sonradan onun adı ilə adlandırılan Moskva Universitetinin təsisi təklifini irəli sürüb. M.Lomonosov özünün fəaliyyətində elmin bütün əsas sahələrini əhatə edə bilib. Mixail Lomonosov ensiklopedik insan olduğundan bütün məşğul olduğu elm sahələri üzrə ciddi tədqiqatlar apara bilib. 1761-ci ildə apardığı tədqiqatlar zamanı böyük rus alimi Mixail Vasilyeviç Lomonosov Venera planetində atmosferin olduğunu aşkar etmişdir. XVIII əsrdə Rusiyada "Coğrafiyanın" inkişafında alimin də xüsusi əməyi olmuşdur. Əldə edilmiş müəlumatların təhlili, xəritələrin ümumiləşdirilməsi, ərazilərin mənimsənilməsi vacib vəzifə idi. 1739-cu ildə Rusiya Elmlər Akademiyasında yaradılmış “Coğrafiya” departamenti 1745-ci ildə "Rusiya Atlası"nı hazırladı. O, həmçının Şimal dəniz yolunun, Şimal Buzlu okeanının, onun iqlimi və buz örtüyü, su axınlarının, atmosferin öyrənilməsi üçün böyük əmək sərf etmışdir. İqtisadi coğrafiynın yaranması Lomonosovun adı iə bağlıdır. M.V.Lomonosov bu elmin inkişafının zəruriliyini göstərmiş və onun əsas istiqamətlərini vermişdir. 1756-cı ildə Lomonosov ilk dəfə fikir yürütmüşdür ki, təbiətdə hər hansı bir rəngi yaratmaq üçün 3 əsas rəngi (göy, qırmızı, yaşıl) müəyyən nisbətlə qarışdırmaq kifayətdir. Bununla da təsvirlərin kompüter kodlaşdırılması rəngin 3 komponentlik nəzəriyyəsinin əsasında qurulmuşdur.

**Kitabları:** “Rusiya qrammatikası” və s.

İnternetdə:https://crh.wikipedia.org/wiki/Mihail_Lomonosov

**28 Noyabr - Rus şairi Nikolay Alekseyeviç Nekrasov 200 illiyi, (1821-1878)**



Rus şairi, yazıçısı və publisisti, rus ədəbiyyatının klassiki Nikolay Alekseyeviç Nekrasov 28 noyabr 1821-ci ildə Podolsk quberniyasında anadan olmuşdur. Görkəmli şairin atası istefaya çıxmış hərbçi, anası isə varlı ailədən olan yaxşı təhsil almış qadın olmuşdur. Nekrasovun uşaqlığı Yaroslav quberniyasının Qreşnevo kəndində, atasının malikanəsində keçmişdir. Yaroslav gimnaziyasını bitirən Nikolay Alekseyeviç atasının istəyi ilə dvoryan polkuna daxil olmaq üçün Sankt-Peterburqa gedir. Lakin burada fikrini dəyişir və universitetə daxil olmaq istəyir. Onun bu istəyi atası tərəfindən etirazla qarşılanır və onu bütün maddi imkanlardan məhrum etməklə hədələyir. Buna baxmayaraq, Nekrasov Peterburq universitetinə azad dinləyici kimi qəbul olur. Atası tərəfindən hər cür maddi dəstəkdən məhrum olan Nekrasov çox çətinliklərlə üzləşir. Bir neçə il çox ağır çətinliklərlə üzləşən şair dərs verməyə başladıqdan sonra vəziyyəti bir qədər düzəlir. Şairin erkən yaradıcılığı əsasən romantik ruhdadır. 1840-cı ildə o, "Arzular və səslər" adlı ilk toplusunu nəşr etdirir. Daha sonralar o, özünü nəsrdə də sınayır. 1842-ci ildə Nekrasov Belinskinin dərnəyi ilə yaxınlaşır. O, tezliklə naşirlik fəaliyyəti ilə də məşğul olur və bu iş onda çox uğurlu alınır. 1847-ci ildə o, əsası hələ A.S.Puşkin tərəfindən qoyulan "Sovremennik" jurnalını icarəyə götürür. N.A.Nekrasov "Dəmir yolu, "Elegiya", "Rus qadınları", "Şair və vətəndaş", "Şaxta, qırmızı burun", "Yolda" "Dobrolyubovun xatirəsinə", "Kəndli uşaqları" və s. əsərlərin müəllifidir. Onun şeirləri əsasən xalqın əzabları, kəndlilərin faciəli həyatına həsr olunub. Şair öz yaradıcılığında folklordan, xalq yaradıcılığından da məharətlə istifadə edib. 1875-ci ildə şair xəstələnir və həkimlər onda bağırsaq xərçəngi xəstəliyini aşkar edirlər. N.A.Nekrasov 1877-ci il dekabrın 27-də uzun sürən xəstəlikdən sonra vəfat edir.

**Kitabları:** "Rus qadınları", "Şaxta baba", "Mazay baba və dovşanlar", "Kapitan Vrunqelin macaraları", "Dəmir yolu, "Elegiya", "Şair və vətəndaş", "Şaxta, qırmızı burun", "Yolda" "Dobrolyubovun xatirəsinə", "Kəndli uşaqları" və s.










İnternetdə:https://crh.wikipedia.org/wiki/ Nikolay_ Alekseyeviç _Nekrasov

**İncəsənət**

**25 Noyabr - Xalq artisti Mərziyə Davudovanın 120 illiyi, (25.11.1901-06.01.1962)**



***“Mərziyyə xanım əslində qaranlıq bir mühitdə qəfildən şimşək kimi doğmuşdu. Mərziyyə yetkin bir sənətkardır, ustadır. Aktrisa səhnədəki əhval-ruhiyyəsi ilə bütün tamaşa salonuna təsir edən heyrətamiz bir istedada malikdir”.*** C. Cabbarlı

Mərziyyə xanım Davudova Azərbaycan səhnəsinin ən qüdrətli aktrisası sayılırdı. 1901-ci ildə Həştərxanda anadan olmuş Mərziyyə Davudova ilk rolunu oynayanda 16 yaşı vardı. O, Həştərxanda İqbal məktəbində "Birinci Teatr" adlı ikipərdəli tamaşada (1917-ci il) Əfifə rolunu yaratmışdır. Səhnəyə böyük həvəsli yeniyetmə Mərziyyəni ilk dəfə görüb istedadını kəşf edən unudulmaz Hüseyn Ərəblinski olub. O, 1918-ci ildə Həştərxanda qastrolda olarkən bu gənc qızın oyununu bəyənmiş və onu Bakıya dəvət etmişdi. 1920-ci ildə Bakıya gələn və taleyini əbədi olaraq teatra bağlayan Mərziyyə Davudova Azərbaycan mədəniyyətinin, xüsusilə də teatr sənətinin inkişafında misilsiz xidmət göstərmişdir. Mərziyyə xanım Üzeyir Hacıbəyovun "Arşın Mal Alan" musiqili komediyasında əvvəlcə Gülçöhrə, sonra isə Cahan xala rollarında çıxış edib. Bununla da özünün aktrisa kimi nəyə qadir olduğunu məharətlə təsdiqləyib. Hüseyn Cavidin "İblis" əsərinin tamaşasında Abbas Mirzə Şərifzadə ilə tərəf müqabili olmaq onun səhnə yaradıcılığında yeni səhifələr açıb. Çox keçmir ki, Mərziyyə Davudova mürəkkəb, ziddiyyətli, bir-birinə bənzəyən və bənzəməyən müxtəlif qadın obrazlarını, xüsusilə də qüdrətli xarakterlərin yaradıcısı kimi parlayıb. Azərbaycan teatrının aktrisalarla bağlı yeni səhifəsinin yazılması şərafəti məhz Mərziyyə xanımın qismətinə düşdü. Böyük dramaturqumuz Cəfər Cabbarlının "Sevil" pyesi yalnız səhnədə deyil, həyatda da böyük əks-sədaya, təlatümə səbəb olmuşdur. Mərziyyə xanımın böyük ustalıqla can verdiyi Sevil obrazı o qədər parlaq, təsirli, təbii alınmışdı ki, tamaşa salonundakı qadınlar öz çadralarını elə oradaca atmışlar. Geniş yaradıcılıq diapazonuna malik olan Mərziyyə Davudova Azərbaycan kinosunun inkişafında da müəyyən xidmətlər göstərmişdir. "Hacı Qara", "Bir Ailə", "Bakının İşıqları", "Bir məhəllədən iki nəfər", "Koroğlu" və digər filmlərə çəkilib. Mərziyyə xanım Cəfər Cabbarlı, Hüseyn Cavid, Səməd Vurğun, Mirzə İbrahimov, Mehdi Hüseyn, Ənvər Məmmədxanlı kimi Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, rus və Qərbi Avropa ədiblərinin də tamaşalarında bir-birindən fərqli və mürəkkəb qadın obrazları yaratmışdır. 1956-cı ildən ömrünün sonuna kimi Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edən Mərziyyə xanım Davudova əslində qaranlıq bir mühitdə parlayan ulduz idi.

**Filmoqrafiya:** Ağasadıq Gəraybəyli (film, 1974), Bakının işıqları (film, 1950), Bəxtiyar (film, 1955), Bir ailə (film, 1943), Bir məhəllədən iki nəfər (film, 1957), Əsl dost (film, 1959), Hacı Qara (film, 1929), Koroğlu (film, 1960), Qızmar günəş altında (film, 1957), Min birinci söz (film, 1997), Onlar belə sevirdilər (veriliş, 2007) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Mərziyyə_Davudova

**Dekabr**

**Əlamətdar tarixi günlər və bayramlar**

1 Dekabr – Laçın rayonunun işğaldan azad edildiyi gün, (2020)
1 Dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Günü, (1988)
3 Dekabr – Beynəlxalq Əlillər Günü, (1992)
6 Dekabr – Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçiləri Günü, (2006)
7 Dekabr – Beynəlxalq Mülki Aviasiya Günü, (1996)
10 Dekabr – Ümumdünya Futbol Günü
10 Dekabr – Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Günü, (1950)
11 Dekabr – Uşaqların Beynəlxalq Televiziya və Radio Verlişləri Günü, (1994)
11 Dekabr – Beynəlxalq Dağlar Günü, (2003)
12 Dekabr – Ümummilli lider Heydər Əliyevin Anım Günü, (2003)
15 Dekabr – Beynəlxalq Çay Günü, (2004-2005)
25 Dekabr – "Qızıl qələmlər" Ədəbi Cəmiyyətinin Yarandığı Gün, (1925)
28 Dekabr – Beynəlxalq Kino Günü, (1895)
31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü, (1991)

**Azərbaycanın tanınmış şəxsiyyətləri**

Akademik, şərqşünas Ziya Bünyadovun 100 illiyi, (21.12.1921-1997)

**Yubilyar yazıçı və şairlər**

Ədəbiyyatşünas, tənqidçi Vəkil Hacıyevin 85 illiyi, (1936)
Şair Əflatun Cəfərlinin 85 illiyi, (1936)
Şair, publisist, dramaturq Abdulla Qurbaninin 65 illiyi, (13.12.1956)
Şair Ramiz Rövşənin 75 illiyi, (15.12.1946)
Tənqidçi, ədəbiyyatşünas Məmmədəli Əsgərovun 100 illiyi, (18.12.1921-1991)
Xalq yazıçısı Süleyman Vəliyevin 105 illiyi, (21.12.1916-1996)
Şair Müzəffər Şükürün 80 illiyi, (23.12.1941)
Tənqidçi, ədəbiyyatşünas Əbülfət Misiroğlunun 75 illiyi, (23.12.1946)
Ədəbiyyatşünas, tərcüməçi Əli Sultanlının 115 illiyi, (25.12.1906-1960)
Şair, publisist Şahmar Əkbərzadənin 80 illiyi, (28.12.1941-2000)
Şair Nüsrət Kəsəmənlinin 75 illiyi, (28.12.1946-2003)
Yazıçı, ədəbiyyatşünas Əzizə Cəfərzadənin 100 illiyi, (29.12.1921-2004)

**Folklor**

Aşıq Pənahın anadan olmasının 95 illiyi, (1926-1978)

**Xarici ədəbiyyat**

Rus yazıçısı, tənqidçi, jurnalist Nikolay Karamzinin 255 illiyi, (12.12.1766-1825)

**İncəsənət**

Kinorejissor, ssenarist, cizgi filmləri ustası Uolt Disneyin 120 illiyi, (05.12.1901-1966).

Aktyor Həsənağa Salayevin 100 illiyi, (05.12.1921-1981)

Xalq artisti, baletmeystr Tamilla Şirəliyevanın 75 illiyi, (08.12.1946)

Xalq rəssamı Mikayıl Abdullayevin 100 illiyi, (19.12.1921-2002)

Xalq artisti Əlövsət Sadıqovun 115 illiyi, (22.12.1906-1971)

Xalq artisti, baletmeystr Çimnaz Babayevanın 75 illiyi, (23.12.1946)

Xalq artisti Zeynəb Xanlarovanın 85 illiyi, (28.12.1936)

Xalq artisti Əbülfət Əliyevin 95 illiyi, (30.12.1926-1990)

**Milli qəhrəmanlıq zirvəsi**

Orucov Vəzir Surxay oğlunun 65 illiyi, (26.12.1956-22.03.1993)

Əsgərova Salatın Əziz qızının 60 illiyi, (16.12.1961-09.01.1991)

# Dekabr
# Əlamətdar tarixi günlər və bayramlar
## 1 Dekabr – Laçın rayonunun işğaldan azad edildiyi gün, (2020)



Laçın rayonu — Azərbaycan Respublikasında inzibati – ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. Rayonda bir şəhər, bir qəsəbə (Qayğı qəsəbəsi), 125 kənd olmuşdur.

Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonu ilə, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon mərkəzinin Bakı şəhəri ilə şosse yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km-dir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən 1 dekabr 2020-ci ildən etibarən Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir.

Laçın tarixi keçmişi zəngin olan bir ərazidir. Laçın abidələri hələ eramızdan əvvəl I–II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər.

Ermənistan tərəfindən işğalının nəticələri: 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayonun 6 Milli Qəhrəmanı vardır. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır.

İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

Rayonun 65507 nəfər əhalisi Azərbaycanın 59 şəhər və rayonlarına, "Taxta-körpü" qışlaqlarındakı 84 obaya məcburi köçkün düşmüşdür.

İnternetdə:https://az.wikipedia.org/wiki/Laçın_rayonu

**1 Dekabr - Beynəlxalq AİDS-lə (QİÇS) mübarizə günü**




Hər il dekabr ayının 1-də Ümumdünya AİDS günü qeyd edilir. AİDS xəstəliyinin inkişafı 70-ci illərin sonlarına təsadüf edir. Bəzi mənbələrdə isə onun tarixi 1959-cu ilə gedib çıxır. Azərbaycanda isə ilk AİDS-ə yoluxma 1987-ci ildə Uqanda və Keniyadan olan xarici vətəndaşlarda qeydə alınmışdır. Bu xəstəliyin yaranması ilə əlaqədar bəzi alimlər belə bir fərziyyə irəli sürürlər ki, HİV virusunun təhlükəli formaları bioloji silahın təsadüfi və yaxud qəsdən sızması nəticəsində yaranmışdır. Bu fərziyyəyə əsasən, virus xüsusi hərbi laboratoriyada gen mühəndisliyi metodu ilə alınmışdır. İki virusun – Visna və insan onkoloji viruslarından birinin birləşməsi nəticəsində HİV virusu əmələ gəlmişdir. Bu virus ömürlük həbs cəzası və yaxud ölüm cəzasına məhkum olmuş könüllü dustaqların üzərində sınaqdan keçirilmişdir. Belə ki, onlara sınaqdan sonra azadlıq vəd edilmişdir. Bu yolla da virus laboratoriya divarlarından kənara çıxaraq yayılmışdır. Bir çox virusoloq, epidemioloqlar hesab edirlər ki, AİDS epidemiyası Afrikada başlayıb və bu xəstəliyi törədən virus çox güman ki, “meymun” mənşəlidir. Afrika cəngavərliklərində yaşıl əntərlərdə və makakalarda AİDS-ə oxşar xəstəliklər aşkar edilmişdir. Belə fərz edilir ki, insanlar bu meymunları ovladıqda və onlarla təmasda olduqda xəstəlik insanlara keçmişdir. Yəqin ki, bu səbəbdən AİDS ən çox Afrika qitəsində yayılmışdır. **Statistika**

Dünyada təxminən 39,5 milyon insan HİV virusuna yoluxub. Onların da əksəriyyəti 15-24 yaş arasında olan yeniyetmə və gənclərdir. Yer üzündə hər gün HİV/AİDS xəstəliyindən 15 yaşına qədər 1.400 uşaq və 15-24 yaş arasında 6.000 gənc insan vəfat edir. 2006-cı ildə bütün dünyada AİDS pandemiyası nəticəsində 2,9 milyon nəfər, o cümlədən 380.000 uşaq həlak olmuşdur. Hər il 15 yaşına qədər 640.000 uşaq və 15-24 yaş arasında 2 milyon gənc HİV virusuna yoluxur. 15 yaşına qədər uşaqların 15%-nə bu xəstəlik öz anaları vasitəsilə ötürülür.

AIDS (**Acquired Immune deficit Symptoms**) xəstəliyini yaradan virus HİV (**Human Immune deficit Virus**) adlanır. HİV (İİV) – İnsanın İmmunçatışmazlığı Virusu, AİDS (QİÇS) - Qazanılmış İmmun Çatışmazlığı Sindromu deməkdir. HİV virusuna yoluxan insanın orqanizmi bu infeksiya ilə mübarizə edir və mübarizə aparan xüsusi “antibodis” adlı molekullar yaranır. Əgər qan yoxlanıldıqda “antibodis” molekulları aşkarlanarsa, bu həmin insanda HİV virusunun olduğunu təsdiqləyir. HİV antibodisi olan insanlar “HİV daşıyıcısı” adlanırlar. HİV-daşıyıcısı və ya HİV viruslu insanın AİDS xəstəsi olduğunu demək düzgün deyil. Çox insanlar var ki, onlar HİV-daşıyıcısıdırlar, lakin uzun illər xəstələnmirlər. HİV virusu orqanizmdə daha çox qaldıqca immun sistemi yavaş-yavaş zəifləyir və nəticədə AİDS xəstəliyi yaranır.

İnternetdə: https://az.wikipedia.org/wiki Beynəlxalq_ AİDS-lə (QİÇS) mübarizə_ günü

**3 Dekabr - Beynəlxalq Əlillər günü**



3 dekabr Beynəlxalq Əlillər günüdür. Əlillər günü 1992-ci ildə BMT-nin baş məclisində qəbul edilib. Ümumdünya Səhiyyə Təşkilatnın məlumatına görə dünya üzrə fiziki qüsurlu insanların faiz göstəricisi 10%-dir. Bu göstərici Azərbaycan üzrə 4,4% təşkil edir ki, bu da MDB məkanında ən aşağı göstərici hesab edilir. Azərbaycanda dörd yüz mindən artıq əlil insan var. Onların bir hissəsi 2-ci dünya müharibəsi, bir hissəsi erməni təcavüzü nəticəsində əmək qabiliyyətlərini itirən şəxslərdir. Əlillərin sosial müdafiəsinin gücləndirilməsi haqqında dövlət proqramına uyğun olaraq artıq 10 ildir ki, onların xaricdə müalicəsi təşkil olunur. Əlil insan dedikdə hər kəsin ağlına müəyyən orqanlarını itirmiş insanlar gəlir. Unudulmamalıdır ki, bu onların işləməyinə, həyat fəaliyyətlərinə və ya insani keyfiyyətlərinə əngəl deyil və olmamalıdır. Fiziki deyil, mənəvi cəhətdən qüsurlu olmamaq gərəklidir. İnsanların hamısı eyni olmur. Fiziki cəhətdən sağlam olanlarla yanaşı, əlillər və şikəstlər də vardır. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik vardır. Əlillər əhalinin başqa təbəqələri ilə müqayisədə daha çox sosial müdafiəyə, mənəvi dəstəyə, humanist münasibətə möhtacdırlar. Bu insanlar hətta maddi cəhətdən təmin olunsalar belə, isti münasibət, doğmalardan və yadlardan qayğı, mərhəmət və diqqət umurlar. Ölkəmizdə əlillərin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilmişdir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər. Beynəlxalq aləmdə əlillərin hüquqlarının qorunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. Onlardan ən mühümü BMT tərəfindən 1983-1992-ci illərdə həyata keçirilmiş Əlillər Onilliyidir. 1992-ci il oktyabrın 14-də Onilliyin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

İnternetdə:https://az.wikipedia.org/wiki/Beynəlxalq_Əlillər_Günü

## 6 Dekabr - Rabitə və İnformasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı



Dekabrın 6-da Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı qeyd edilir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsis olunub. O vaxtdan bütün respublikada rabitəçilər və informasiya texnologiyaları sahəsinin işçiləri öz peşə bayramlarını qeyd edirlər. Peşə bayramının məhz bu gündə qeyd olunması Azərbaycanda ilk telefon xəttinin yaradılması ilə bağlıdır. Belə ki, 1881-ci il dekabrın 6-da Bakıda "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir. Azərbaycanda rabitə sahəsi Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyəti illərində xüsusilə inkişaf etməyə başlayıb. Azərbaycanda rabitə sisteminin əsas inkişaf dövrü 70-80-ci illərə təsadüf edir. Həmin illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin bu sahənin inkişaf etdirilməsinə göstərdiyi xüsusi diqqət o dövrün rəsmi sənədlərində geniş şəkildə öz əksini tapır. 1976-cı ildə təkcə Bakı telefon şəbəkəsinin gücü 1927-ci illə müqayisədə 20 dəfədən çox artmış, telefon Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsinə çevrilmişdir. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı sahələri də diqqətəlayiq inkişaf yolu keçmişdir. 1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən Bakıda - köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik Yeni Teleqüllənin layihəsi təsdiq edildi və 1981-ci ildə obyektin tikintisinə başlandı. Buna baxmayaraq bir sıra obyektiv və subyektiv səbəblər üzündən Yeni Teleqüllənin istismara verilməsi ləngidilsə də Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə onun diqqət və qayğısı sayəsində xalqın istifadəsinə verildi. Həmçinin, 90-cı illərdə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycanda informasiya kommunikasiya texnologiyaları bölməsi də inkişaf etməyə başladı, ölkədə bu yeni sektorun inkişafı prosesi sürətləndi, Azərbaycanın internet seqmenti genişləndi. Azərbaycanda rabitə və informasiya-kommunikasiya texnologiyaları sektorunun hazırkı sürətli inkişafı birbaşa ümummilli liderin kursunu davam etdirən ölkə Prezidenti İlham Əliyevin şəxsi diqqəti və qayğısı nəticəsində əldə olunmuşdur. 2012-ci il ərzində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının və Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında sənədlər imzalanmışdır. Həmin ilin noyabrında illik Bakutel sərgi-konfransı ilə yanaşı, Bakıda dünya əhəmiyyətli İnternet İdarəçilik Forumu (IGF 2012) da keçirilmişdir. Bütün bunlar hökumət tərəfindən İKT bölməsinə böyük diqqətin yetirilməsini bir daha sübut edir.

İnternetdə:https://baktelecom.az/posts/6-dekabr-rabit-v-informasiya-texnologiyalar-icilrinin-pe-bayramdır

**7 Dekabr - Beynəlxalq Aviasiya günü**





1994-cü ildə Beynəlxalq Mülki Aviasiya haqda Konvensiyanın imzalanmasının 50 illiyi ilə əlaqədar olaraq 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən 7 dekabr tarixi Beynəlxalq Mülki Aviasiya Günü elan olunub. Bakıda ilk uçuş 1923-cü ildə həyata keçirilib. 1938-ci il tarixində Azərbaycanda ilk aviasiya qrupu yaradılıb ki, bu tarix 2006-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Mülki Aviasiya Günü kimi elan edilib. Bakı şəhərinin üzərindən ilk təyyarə 20 oktyabr 1910-cu il tarixində uçub. Sergey Utoçkinin idarə etdiyi uşaqsayağı yöndəmsiz və möhkəm olmayan "Farman-4" sistemli fransız biplanı heyrətdən yerində donmuş tamaşaçıların başı üzərində bir neçə dairə vurub, sonra isə alqışlar altında yerə enib. Azərbaycanın aviasiya ilə ilk tanışlığından sonra hava nəqliyyatının yeni növünün regionda rəsmi status alması üçün on beş il tələb olunub. 1923-cü ildə "ZAKAVİA" Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyəti yaradılıb. Artıq 1923-cü ilin aprel ayında "Yunkers" təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilib, iki il sonra isə Keşlədə aerodrom tikilib və mülki "Hava stansiyası" yaradılıb. 1926-cı ildə Mineralnıye-Vodı–Qroznı–Mahaçqala–Bakı–Yevlax–Tiflis marşrutları üzrə müntəzəm uçuşlar həyata keçirilməyə başlanıb. Sovet İttifaqı dağıldıqdan sonra mülki aviasiyaya 200 milyon dollardan yuxarı sərmayə qoyulub. Bu, aviaparkı müasir "Boeing-757" təyyarələri ilə təkmilləşdirməyə, uçuşları idarəetmə vasitələrini yeniləməyə, iyirmiyədək ixtisas üzrə kadrların hazırlanması sistemini yaratmağa və bu gün altmışdan yuxarı aviaşirkətin təyyarələrini qəbul edən beynəlxalq təyyarə vağzalının 1999-cu ildə Bakı şəhərində açılmasına imkan verib. Növbəti illərdə "Naxçıvan" beynəlxalq hava limanı, "Gəncə" beynəlxalq hava limanı və "Zabrat" hava limanında yeni təyyarə vağzalının binası istismara verilib. 2008-ci ildə "Lənkəran" və "Zaqatala" beynəlxalq hava limanları açıldı. Hazırda AZAL ölkə daxilində Bakı-Naxçıvan, Bakı-Gəncə və Gəncə-Naxçıvan və Bakı-Qəbələ marşrutları üzrə uçuşlar yerinə yetirir. "Azərbaycan Hava Yolları" QSC Avropa, MDB, Yaxın Şərq və Asiya ölkələrinə sərnişin daşımaları həyata keçirir. 2014-cü ildə uzaq uçuş məsafəsinə malik olan "Boeing" təyyarələrinin yeni partiyası alındıqdan sonra Şimali Amerika və Cənubi-Şərqi Asiya ölkələrinə daimi marşrutların açılması planlaşdırılır. İndi "Azərbaycan Hava Yolları" QSC Azərbaycanın Milli Daşıyıcısı kimi Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasında (İATA) layiqli yer və MDB ölkələrinin aviaşirkətləri arasında lider mövqe tutur. "Azərbaycan Hava Yolları" QSC həm regionda, həm də MDB-də yeni avialaynerlərin sayına görə liderlərdən biri sayılır.

İnternetdə:https://azertag.az/xeber/7_dekabr_Beynelxalq_Mulki_Aviasiya_Gunudur

**10 Dekabr - Ümumdünya futbol günü**



10 dekabr Ümumdünya futbol günü BMT-nin qərarı ilə qeyd olunur. Beynəlxalq ictimaiyyət bu idman növünə qiymət verərkən bildirir ki, bu, milyonlarla insan üçün sadəcə oyun deyil, həm də həyat tərzidir. Futbol – "ayaqla top oyunu" haqqında ilk xatırlatmalara bizim eradan əvvəl ikinci minillikdə Çin mənbələrində rast gəlinib. O, Çsu Çyu adlandırılıb, mənası "ayaqla itələmək" deməkdir. Bu oyunun ilk dəfə nə vaxt başlanması haqqında dəqiq məlumat yoxdur. Bəziləri iddia edir ki, futbolun ilk sələfləri VIII əsrdə İngiltərədə yaşayan saksonlar olub. Futbolu Qədim Yunanıstanda və Romada təxminən 2500 il bundan əvvəl oynayıblar. Yunanıstanda bu oyun "top uğrunda mübarizə" adlandırılıb.

İnternetdə:https://yandex.ru/ Ümumdünya_futbol_Günü

## 10 Dekabr - Ümumdünya İnsan hüquqlarının müdafiəsi günü

***"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır"***

Ulu öndər Heydər Əliyev




1948-ci ilin 10 dekabrında BMT-nin Baş Məclisi tərəfindən "İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul edilmişdir. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-u bütün dünyada "Beynəlxalq İnsan Hüquqları Günü" kimi qeyd olunur. İnsan hüquqları, insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir. İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar insan olmalarına görə eyni hüquqlara malik olmalıdırlar və bu hüquqlar hər hansı bir izaha ehtiyac olmadan hər kəsə bərabər şəkildə aid edilməlidir. Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli "Avropa İnsan Hüquqları Konvensiyası" mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu konvensiyaya əsaslanan və eyni zamanda real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir. İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: Hər bir insan onun malik olduğu irqdən, cinsdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan hüquqlarına malikdir.

İnternetdə:https://az.wikipedia.org/wiki/İnsan_Hüquqları_Günü

**11 Dekabr - Ümumdünya Uşaq Televiziyası Günü**

***"Uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır".***

Ulu öndər Heydər Əliyev




Ötən əsrin sonlarından BMT tərəfindən hər il dekabrın 11-i Uşaqların Beynəlxalq Televiziya və Radio Günü kimi qeyd olunur. (YUNİSEF-in (BMT Uşaq fondu) təşəbbüsü ilə 1992-ci ildən qeyd olunur. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il mayın 19-da imzalanmış "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində deyilir: "Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir". Uşaqlara göstərilən qayğının daha bir bariz nümunəsi 22 iyun 1999-cu il tarixdə qüvvəyə minmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşuqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Ulu öndərimiz Heydər Əliyev həmişə uşaqların bu əlamətdar günündə onlarla bir yerdə olmağı çox sevirdi. Ulu öndər uşaqlara göstərilən bu diqqəti belə dəyərləndirirdi. Belə ki, Televiziya və Radio Günü ilə əlaqədar uşaqların hazırladığı mərasimdə iştirak etməkdən böyük zövq alırdı. Fərəhlə demək olar ki, uşaq və gənclərə göstərilən diqqətin, qayğının daha da artırılmasında ölkə Prezidenti İlham Əliyevin xidməti çoxdur. Yeni məktəblərin tikilməsi, təmir olunması, idman komplekslərinin yaradılması buna əyani sübutdur. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu yolda gördüyü işlər xüsusi qeyd edilməlidir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində həyata keçirilən genişmiqyaslı inşaat və yenidənqurma işləri bölgələrimizdə uşaqların təhsili üçün gözəl imkan yaratdı. Azərbaycanın ən ucqar dağ kəndində də belə uşaqların təhsili üçün hər cür şəraiti olan təhsil ocaqlarının tikilməsi bu qayğının təzahürü kimi təqdir edilməlidir. Təbii ki, uşaqların diqqətini çəkən, onların maraq dairəsinə daxil olan vərdişlərdən biri də televiziyadır. Hər bir kanalın uşaqlar üçün ayrıca redaksiyası var və mütləq də olmalıdır. Bu sarıdan Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin ənənələrə söykənərək uşaqlar üçün proqramlar hazırlanması diqqət çəkir. İstər AzTV-də, istərsə də onun "Mədəniyyət" kanalında uşaq və gənclərə həsr olunan verilişlərin təkcə adlarına fikir verək: "Təmas nöqtəsi", "Tələbə dünyası", "Mən də uşaq olmuşam", "Çoxbilmişlərdənsinizmi?", "Mən Azərbaycanlıyam", "Müasir Azərbaycan gəncliyi", "Biləyən", "Bəbək", "Ana dili", "Əlaçı" və s.

İnternetdə:https://yandex.ru/ uşaq_televiziyası_günü

**20 Dekabr - “Qızıl qələmlər” ədəbi cəmiyyətinin yarandığı gün.**




Azərbaycan Yazıçılar Birliyi Azərbaycan yazıçı və şairlərinin, tərcüməçilərinin ən böyük ictimai təşkilatıdır. Birliyin əsas vəzifəsi gənc yazarların ədəbi-bədii fəaliyyətinə əməli dəstək vermək, dünyanın müxtəlif ölkələrində yaşayan yaradıcı azərbaycanlıları milli ədəbiyyat ətrafında birləşdirmək, sənətkar-oxucu əlaqələrini genişləndirmək, Azərbaycan ədəbiyyatını xaricdə təbliğ etməkdir. 1923-cü ildə Azərbaycan yazıçılarını bir təşkilatda birləşdirmək zərurəti meydana çıxarkən bir neçə yazıçı çap etdirdikləri müraciətdə "Türk ədib və şairlər ittifaqı dərnəyi" təsis etdiklərini bildirmişlər. Həmin ədəbi birlik "İldırım" adlanırdı. "Qızıl qələmlər" ədəbi cəmiyyəti də təxminən bu dövrlərdə formalaşmış, öz ətrafına gənc ədəbi qüvvələri toplamışdı. Bu cəmiyyət əsaslı və ədəbi təşkilat kimi 1925-ci il dekabrın 25-də Bakıda yaradılmış, ədəbi dərnəkləri öz ətrafında birləşdirmişdir. 1927-ci il iyul ayının əvvəllərində Azərbaycan yazıçılarının birinci ümumi yığıncağında bütün ədəbi qüvvələri bir təşkilat ətrafında birləşdirmək qərara alınıb. Beləliklə, Azərbaycan Yazıçılar Cəmiyyətinin müvəqqəti idarə heyəti yaranıb. 1932-ci ilin aprel ayından Azərbaycan Yazıçılar Cəmiyyətinin yenidən qurulması haqqında təşkilati tədbirlər həyata keçirilməyə başlayıb və iki ildən sonra 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan yazıçılarının I qurultayında Azərbaycan Yazıçılar İttifaqı yaradılmışdır.

İnternetdə:https://az.wikipedia.org/wiki/Qızıl_qələmlər

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü**

***"Bizim hamımızın bir vətəni var. Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır."***

Ulu öndər Heydər Əliyev




31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir. 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türk dilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram edilir. Azərbaycanlılar bu gün ilə fəxr edir və onu qürurla qeyd edirlər.

İnternetdə:https://az.wikipedia.org/wiki/Dünya_Azərbaycanlılarının_Həmrəylik_Günü

**Azərbaycanın tanınmış şəxsiyyətləri**

**21 Dekabr - Akademik, şərqşünas Ziya Bünyadovun 100 illiyi, (1921-1997)**

**Ziya Bünyadov – şərqşunas, tarixçi, Sovet İttifaqı Qəhrəmanı, Dövlət Mükafatı Laureatı, əməkdar elm xadimi**



***"Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında - 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərindən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdı. İlk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur"*.**

Ulu öndər Heydər Əliyev

Ziya Bünyadov 1923-cü il dekabr ayının 21-də Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuş, 1941-ci ilin mayında hərbi məktəbi leytenant rütbəsində əlaçı diplomu ilə bitirmişdir. Ziya Bünyadov İkinci dünya müharibəsində cəbhədən Berlinədək vuruşaraq şərəfli döyüş yolu keçirmişdir. Visla-Oder əməliyyatı zamanı kapitan Bünyadovun komandanlığı altında 123-cü cərimə rotası Pilitsa çayı üzərindəki 80 metrlik minalanmış körpünü ələ keçirmiş və əsas qüvvələr gəlib çıxıncaya qədər bir neçə saat ərzində onu düşmənin aramsız hücumlarından qoruyub saxlaya bilmişdi. Bu müddət ərzində 670 nəfər döyüşçüsü olan rotasından cəmi 47 nəfər sağ qalmışdı. 1945-ci il 27 fevralda Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Bünyadov ordudan tərxis olduqdan sonra 1946-cı ildə Moskva Şərqşünaslıq İnstitutuna daxil olmuş, 1950-ci ildə həmin institutun aspiranturasına qəbul edilmişdir. 1965-ci ildə SSRİ Ali və Orta təhsil Nazirliyi yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor dərəcəsi verilmişdir. 1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir. 1991-ci ildə professor Vasim Məmmədəliyevlə birlikdə Quranın azərbaycan dilinə tərcüməsini başa çatdırmışdır. Böyük məsuliyyət və zəhmət tələb edən bu işə görə o, Hacı Zeynalabdin Tağıyev adına mükafata layiq görülmüşdür. 1992-ci ildə o, ümumi səsvermə yolu ilə yenidən Şərqşünaslıq İnstitutunun direktoru seçilmişdir. Bünyadov 1991-ci ildə "Gülüstani-İrəm" əsərini ön söz və şərhlərlə çap etdirmiş və 1993-cü ildə bu işinə görə Abbasqulu ağa Bakıxanov adına mükafata layiq görülmüşdür.

**Əsərləri:** "Azərbaycan Atabəylər dövləti" (1136-1225-ci illər) (1985), "Azərbaycan VII-IX əsrlərdə" (2007), "Dinlər, təriqətlər, məzhəblər" (ensiklopedik soraq kitabı) (2007), "Qırmızı terror" (1993), "Xarəzmşahlar-Anuştəkinilər dövləti" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S

**Yubilyar yazıçı və şairlər**

**5 Dekabr - Şair Əflatun Cəfərlinin anadan olmasının 85 illiyi, (05.12.1936)**



***Ağa qara deyib tərsinə yozma,***
***Düz yeri yolunu, izini azma.***
***Qanun keşikçisi, qanunu pozma,***
***El güclü, sel güclü elə arxalan.***

Əflatun Cəfərli 1936-cı ildə dekabrın 5-də Gədəbəy rayonunun Böyük Qaramurad kəndində anadan olub. API-nin tarix-filologiya fakültəsini bitirib. "Gəlmişəm" adlı ilk şeiri "Kirovabad kommunisti" qəzetində dərc olunub. Müəllim kimi fəaliyyətə başlayıb. Bakıdakı 120 saylı məktəbdə direktor müavini, 241 və 119 saylı məktəblərdə direktor vəzifələrində çalışmışdır. "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. "Xatirələr", "Bizdən əvvəl doğulanlar", "Ürək həmişə ürəkdir", "Səni çağırıram", "İkiyasəmən" və s. kitabların müəllifidir. Gənc yazarlara dəyərli məsləhətlər verir. Jurnalist kimi fəaliyyət göstərir. 1984-cü ildən Azərbaycan Yazıçılar birliyinin üzvüdür, yaradıcılığını davam etdirir.

**Kitablar:** "Xatirələr", "Bizdən əvvəl doğulanlar", "Ürək həmişə ürəkdir", "Səni çağırıram", "İki yasəmən", "Dünya çiynindədir xeyirxahların" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 215.

## 13 Dekabr - Şair, publisist, dramaturq Abdulla Qurbaninin 65 illiyi, (1956)



**Qurbani Abdulla Novruz oğlu – şair, publisist, dramaturq, nasir, Əməkdar incəsənət xadimi (2003)**

Qurbani Abdulla Novruz oğlu 1956- cı il dekabrın 13- də Azərbaycanda Naxçıvan MR Şərur rayonunun Mahmudkənd kəndində anadan olmuşdur. İbtidai təhsilini burada almış, sonra Culfa rayonunun Əbrəqunus kənd internat orta məktəbini bitirmişdir. Əmək fəaliyyətinə Mədəniyyət Nazirliyinin nəzdində olan mədəniyyət işçilərinin respublika hazırlıq və ixtisasartırma kursunda başlamış, burada bədii rəhbər vəzifəsində çalışmışdır (1973-1975). Uzaq Şərq hərbi dairəsində ordu sıralarında xidmət etmişdir (1975-1977). Bakıda Aşıq Ələsgər adına Xalq yaradıcılıq evində kütləvi-tamaşalar üzrə metodist (1977-1978) işləmişdir. M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakultəsində təhsil almışdır (1978-1983). Naxçıvan MR Şərur rayonunda tarix diyarşünaslıq muzeyində direktor (1983-1989), mədəniyyətşünaslıq şöbəsinin müdiri (1989-1993) olmuşdur. Ermənistan daşnak qoşunlarının ölkəmizə təcavüzü dövründə könüllü olaraq milli ordu sıralarında əlində silah Murov dağı döyüşlərində iştirak etmişdir (1993-1995). Hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyində zabit kimi çalışır. Bədii yaradıcılığa kiçik yaşlarından başlamışdır. İlk qələm təcrübələri rayon qəzetlərində dərc olunmuşdur. Sonralar dövri mətbuatda şeir, hekayə və publisistik məqalələrlə müntəzəm çıxış etmişdir. 50-dən artıq şeirinə mahnı bəstələnmişdir. “Daşaltı” pyesi Bakı Bələdiyyə teatrında tamaşaya qoyulmuşdur.
**Əsərləri:** “Şəhidlər dastanı” (1992), “Kərki həsrəti” (1992), “Gültəkin qayası” (1993), Gedin deyin Xançobana” (1993), “Murov dağ karvanı” (1994), “Millətin oyaq gecəsi” (1994), “Ana, Murovdan gəlirəm” (1994), “Koroğlunun Ağdərə səfəri” (1995), “Vətən bizə arxalanır” (1995), “Ömrün qırxıncı son baharında” (1996), “Heydər Əliyev məktəbi” (1996), “General ömrü” (1996), “Mətinlik məktəbi” (19960, “Meşəli od içində” (1996), “Şəhidlər danışır”(1996), “Çağırışa hazıram”(1997), “Çilov adası da səngərdir” (1997), “Ağlı-qaralı dünyam” (1997), “Yurdumuzun ziyası” (1997), “Murovdağ qartallarına” (1998), “Bu kənd sənin kəndindir” (1998), “Daş andı”(1999), “Ölmək istəyirəm” (1999), “Ömrün davamı” (2000) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 23.

**15 Dekabr- Şair Ramiz Rövşənin anadan olmasının 75 illiyi, (1946)**



**Rövşən Ramiz Məmmədəli oğlu — şair, yazıçı, esseist, kino-dramaturq, tərcüməçi, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Ramiz Əliyev 1946-cı il dekabrın 15-də Bakının Əmircan kəndində anadan olub. Əslən Qubadlı rayonunun Teymur Müskanlı kəndindəndir. Suraxanı rayonundakı 208 №-li şəhər orta məktəbində təhsil alıb. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini (1964-1969), Moskva Ali Ssenari kurslarını bitirib (1976-1978). Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, "Mozalan" satirik kinojurnal studiyasında redaktor (1971), kinostudiyanın ssenari emalatxanasında ssenarist (1974-1975), ssenari redaksiya heyətinin üzvü (1979-1987), kinostudiyanın baş redaktoru (1987-1992) işləyib. 1992-ci ildən Azərbaycan Tərcümə Mərkəzinin baş redaktorudur. Bir neçə şeir kitabının müəllifidir. Ramiz Rövşənin ssenariləri əsasında çoxlu sayda bədii və sənədli film çəkilib. Şeir və hekayələri tərcümə edilərək bir sıra keçmiş SSRİ respublikalarında, eləcə də ABŞ-da, Almaniyada, Böyük Britaniyada, Fransada, Polşada, Bolqarıstanda, Türkiyədə və İranda çap olunub. Ramiz Rövşən 1997-ci ildə qəbul olunmuş Müsavat partiyasının himninin sözlərinin müəllifidir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvüdür. ”Babamızın babasının babası” (1981) və “Şəhərli biçinçilər” (1985) filmləri onun ssenarisi əsasında çəkilmişdir.

**Əsərləri:** ”Yağışlı nəğmə” (1970), “Göy üzü daş saxlamaz” (1985)

**Tərcümələri:** Sergey Yesenin. Qara adam (poema) (2004), Vladimir Mayakovski. Şalvarlı bulud (poemadan parça); Anam və almanların öldürdüyü bir gecə; Qulaq asın; Sergey Yeseninə (2005), Aleksandr Blok. Şeirlər. (2005), Marina Svetayeva. Sənin adın; Yatır yollar yorğunu (Blok haqqında şeirlərdən). (2005)

**Haqqında olan televiziya verilişləri :**Üç çinar yarpağı (film, 1985), Burax gedim, ay işığı (film, 1987), Ağrı (film, 1993)

**Mətnlərinin müəllifi olduğu mahnılar :**“Bağışla”, “Pıspısa xanım və Siçan bəy”, “Ayrılıq”, “Yalquzaq”, “Bu ağac öləcək...”, “Bilirəm gələn deyilsən”, “Səni sevdim sevilmədən”

**Filmlərdə səslənən şeirləri :** “Yağış yuyur, gün qurudur”

**Cizgi filmləri:** Pıspısa xanım və Siçan bəy, Bulud niyə ağlayır, Kitabi Dədə Qorqud Basat və Təpəgöz, Lovğa fil balası, Humayın yuxusu və s.

**Filmoqrafiya:** Yol əhvalatı (1981), Nizami (1982), Evlənmək istəyirəm (1983), Tənha narın nağılı (1984), Bəyin oğurlanması (1986), Süd dişinin ağrısı (1987), Kişi sözü (1987), Qətl günü (1990), Bəxt üzüyü (1991), Ömür ağacı (2002), Cavid ömrü (2007) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 723.

**18 Dekabr - Ədəbiyyatşünas Məmmədəli Əsgərovun 100 illiyi, (1921-1991)**



**Əsgərov Məmmədəli Səlimxan oğlu- tənqidçi, ədəbiyyatşünas, 1956- cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Əsgərov Məmmədəli Səlimxan oğlu 1921 - ci il dekabrın 18 - də Bakı şəhəri yaxınlığında olan Suraxanı qəsəbəsində buruq ustası ailəsində anadan olmuşdur. Suraxanıda orta məktəbi bitirdikdən sonra M. F. Axundov adına Müəllimlər İnstitutunun ədəbiyyat fakultəsində (1940-1943), eyni zamanda ADU- nun filologiya fakultəsinin qiyabi şöbəsində təhsil almışdır (1940-1945). İkinci Dünya müharibəsi dövrü üç ay ön cəbhədə siravi əsgər kimi alman-faşist işğalçılarına qarşı vuruşmuş, ağır yaralandığına görə tərxis olunmuşdur ( 1942). Bakıda 101 saylı məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi (1943-1964), "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1953-1955), Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kabinetinin metodisti (1964-1969), M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu səhnə nitqi kafedrasının baş müəllimi, müdiri və professor əvəzi (1969-1974) olmuşdur. Həmin institutda səhnə nitqi kafedrasının dossenti işləmişdir (1977- ci ildən). 1991 - ci ildə vəfat etmişdir.
**Əsərləri:** "Cəlil Məmmədquluzadənin tədrisi" (1954), "Füzulini məktəbdə necə tədris etməli" (1965), "Bədii qiraət" (1973), "Səhnə nitqi" (1974), "Natiqlik sənətinin əsasları" (1975) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 576.

**21 Dekabr - Xalq yazıçısı Süleyman Vəliyevin 105 illiyi, (1916-1996)**



**Vəliyev Süleyman Vəli oğlu — müasir nəsrimizdə müharibə mövzusunun görkəmli nümayəndəsidir. Onun yaradıcılığında Stalin repressiyaları, müharibə mövzusu, azərbaycanlı döyüşçülərin Avropa müqavimət hərəkatında iştirakı mövzuları əsas yer tutur. 1939-cu ildən Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi (04.01.1977), əmək veteranı (1976), Əməkdar incəsənət xadimi (1987), Müharibə veteranı (1981).**

Vəliyev Süleyman 1916-cı il dekabrın 21-də Bakı yaxınlığındakı Ramana qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. Süleyman Vəliyevin "Əmanət kassası" adlı ilk hekayəsi 1932-ci ildə "Hücum" jurnalında çap olunmuşdur. Yazıçının 21 yaşında – 1937-ci ildə yazıb çap etdirdiyi "Bığlı ağa" povesti həmin ildə "Azərnəşr"də ayrıca kitabça şəklində çapdan çıxdı. Bu Süleyman Vəliyevi həmişəlik ədəbiyyata bağladı, ədəbi mühitdə tanıtdı. S.Vəliyev Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi işləmişdir. Yazıçı nəsrində Sibiri, müharibə dövrünü və partizanları təsvir edirdi. 80-ci illərin əvvəllərində yazıçı öz xatirələrini "Qanadı qırıq quş da uçarmış" adı ilə çap etdirdi. Yazıçının Sibir sürgünündə gördüyü həqiqi faciələr bu sənədli povestdə böyük qüvvə ilə, sənədli dəqiqliklə əksini tapmışdı. Əsərdə əksini tapan həyat faktları bizim ədəbiyyatımız üçün tamam təzə idi, tarixi həqiqətlərin bədii formada bərpası kimi ədəbi əhəmiyyət kəsb edirdi. Bu romanda yazıçının şəxsi faciəsi öz inandırıcılığı ilə uydurma və bəzəkli müharibə nəsrinin şablonlarını təkzib edirdi. 1994-cü ildən Azərbaycanın Günahsız Siyasi Qurbanlar Assosiasiyasının rəyasət heyətin üzvü idi. Onun əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə də tərcümə olunmuşdur. Yazıçının bədii yaradıcılığında tərcümə də mühüm yer tutur. Süleyman Vəliyev Azərbaycan Rəyasət heyətinin fəxri fərmanı (1967-1986), "Xalqlar dostluğu" ordeni (1984) və medallarla təltif olunmuşdur. Süleyman Vəliyev 1996-cı il martın 7-də Bakı şəhərində 80 yaşında vəfat etmişdir. Məzarı İkinci Fəxri Xiyabandadır.

**Əsərləri:** "Bığlı ağa" (1937), "Şor cüllutu" (hekayə) (1939), "Molla Məmiş və sandıq" (1939), "Səadət yollarinda" (povest, hekayə və oçerklər) (1957), "Şor cüllutu (hekayə)" (1957), "Əncir ağacı" (hekayələr, xatirələr) (1959), "Bir səhənk su" (1963), "Məhəbbət buzu əridir" (1964), "Düyünlər" (roman)(1970), "Gül dəstəsi" (1972), "Mübahisəli şəhər" (roman və povest) (1974), "Düyünlər" (hekayələr, povestlər, roman) (1978), "Həyatın dadı" (povest və hekayələr) (1980),"Daşlı bulaq" (roman) (1987), "Seçilmiş əsərlər" (iki cilddə) (1983), "Qanadı sınmış quş" da uçarmış" (1989) və s. **Filmoqrafiya:** Məhəmməd Füzuli (film, 1958), İlk müjdələr (film, 1960), Yeddiilliyin adamları və illəri (film, 1960), Bizim mayaklar (film, 1961) Neft Akademiyası (film, 1974), Qara gölün cəngavərləri (film, 1984).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 817.

**23 Dekabr - Şair Müzəffər Şükür Məchulun anadan olmasının 80 illiyi, (1941)**



Müzəffər Şükür Məchul 1941-ci ildə dekabrın 23- də Azərbaycanın Ağstafa rayonunun Eynallı kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu və Azərbaycan Dövlət Universitetini bitirib. "Azərnəşr"də korrektor, baş redaktor (1978-1992) vəzifəsində işləyib. Azərbaycan Bəstəkarlar İttifaqının "Şur" nəşriyyatında məsləhətçi redaktor, "Doğru yol" qəzetində mədəniyyət şöbəsinin müdiri, "Qafqaz" qəzetində ədəbi redaktor, "İncəsənət" qəzetində redaktor müavini olmuşdur (1992-2000). Ədəbi fəaliyyətə 1964 - cü ildə "Azərbaycan gəncləri " qəzetində çıxan "Ulduzlar" şeiri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Əsərləri SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Bədii tərcümə ilə də ardıcıl məşğul olmuşdur. O, 20 ildən artıq Azərbaycan Nəşriyyatında redaktor vəzifəsində çalışıb. İlk dəfə Yunis İmrənin əsərlərini dilimizə tərcümə edib. XX əsr Azərbaycan ədəbiyyatının ilk türk divanı da məhz onun adı ilə bağlıdır. Şair Müzəffər Şükür Məchul sentyabrın 28-də Ağstafa rayonunda dünyasını dəyişib, ata yurdunda - Eynallı kəndində dəfn olunub. Müzəffər Şükür Məchul 1974-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. 17 kitabın müəllifidir.

**Əsərləri:** "Yelkənlər açılır" (1969), "Bu torpağın nəğmələri" (1971), "Yenə yaz gələr" (1978), "Kişilərə arxalanın" (1980), "Araz dalğaları" (1983), "Bir kökdən ayrıldıq" (1987), "Üfüqlərdə bir murazım qalıbdı" (1990), "Göl üstə sonam ağlar" (1993), "Divan" (1996), "Bülbülnamə" (2001) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 642.

**23 Dekabr - Tənqidçi, ədəbiyyatşünas Əbülfət Misiroğlunun 75 illiyi, (1946-1998)**

**Əhmədov Əbülfət Misir oğlu (Əbülfət Misiroğlu) — nasir, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**



Əbülfət Misiroğlu 1946-cı il dekabrın 23-də Ağcabədi rayonunda kolxozçu ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1963). Əmək fəaliyyətinə Bakı zavodlarında armaturçu, quraşdırıcı fəhlə kimi başlamışdır (1964-1965). Azərbaycan LKGİ Ağcabədi rayon komitəsində şöbə müdiri, sonra ikinci katib olmuşdur (1965-1968). Əmək müqaviləsi ilə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir (1968-1969). Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun nəsr şöbəsində təhsilini qiyabi davam etdirmişdir (1969-1976). Eyni zamanda Bakı şəhər İcraiyyə Komitəsi idarələrində müxtəlif vəzifələrdə çalışmışdır. "Yüksəliş" rayon qəzeti redaksiyasının (1975-1977), Ç.İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutu "Politexnik" qəzeti redaksiyasının əməkdaşı (1977-1984) olmuşdur. Sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Gənclik" baş redaksiyasının redaktoru işləmişdir. Bədii yaradıcılığa 60-cı illərdən başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Əbülfət Misiroğlu 1998-ci il dekabrın 10-da vəfat etmişdir.

**Əsərləri:** "İki səs" (hekayələr) (1971),"Gecələr olmayaydı" (hekayələr və povestlər) (1980), "Havadan asılmış dünya" (povestlər və hekayələr) (1985), "Ağ daşlar" (povest və hekayələr) (1986) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 208.

**25 Dekabr - Ədəbiyyatşünas, tərcüməçi Əli Sultanlının 115 illiyi, (1906-1960)**
***Ötən əsrdə dünya klassikasını xalqımızın milli-mənəvi sərvətləri xəzinəsinə çevirməkdə bənzərsiz xidməti olan görkəmli pedaqoq, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Əli Sultanlı sağlığında özünə əbədi heykəl qoymuş unudulmaz bir şəxsiyyətdir*.**



**Əli Sultanlı – filologiya elmləri doktoru, professor.**

Sultanlı Əli Abdulla oğlu 1906-cı ildə Naxçıvanda bənna ailəsində anadan olmuşdur. İlk təhsilini Naxçıvanda alan Ə.Sultanlı 1923-cü ildə Naxçıvan Müəllimlər Seminariyasına qəbul olunur və 1928-ci ildə oranı bitirir. O, bir müddət “Şərq qapısı” qəzetində ədəbi işçi vəzifəsində çalışır. Ə.Sultanlı 1929-cu ildə Bakıya gəlib, ADU-nun xarici ölkələr ədəbiyyatı tarixi kafedrasında assistent və ömrünün sonuna kimi respublikanın ali məktəblərində, elmi-tədqiqat institutunda dünya və Azərbaycan ədəbiyyatından dərs deyir və geniş elmi-tədqiqat işi aparır. Ə.Sultanlı 1934-39-cu illərdə xarici ölkələr ədəbiyyatın tarixi kafedrasına rəhbərlik etmiş, 1939-1941-ci illərdə ADU-nun prorektoru vəzifəsində çalışmışdır. O, bir sıra dərsliklər, müntəxəbatlar, tədqiqat əsərləri yaratmışdır. Ə.Sultanlı “Antik ədəbiyyat tarixi”, “Roma ədəbiyyatı müntəxəbatı”, “Antik ədəbiyyatı müntəxəbatı” kimi dərsliklərin, “Azərbaycana dramaturgiyasının inkişaf yolları”, “Nizami və Qərbi Avropa ədəbiyyatı” və s. görkəmli əsərlərin müəllifi kimi şöhrət qazanmışdır. O, Azərbaycan alimləri arasında birinci dəfə 1939-cu ildə xarici ölkələr ədəbiyyatı sahəsində filologiya elmləri namizədi alimlik dərəcəsi, 1946-cı ildə isə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Dövlətimiz Ə.Sultanlının xidmətlərini yüksək qiymətləndirərək onu 1940-cı ildə SSRİ Ali Sovetinin fərmanı ilə, Əmək igidliyinə görə medalı ilə təltif etmişdir. Ə.Sultanlı 1960-cı ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:** “V.Hötenin yaradıcılıq yolu” (1932), “M.F.Axundovun dramaturgiyası” (1938), “Mopassanın hərbi novellaları” (1942), “Azərbaycanda xalq draması” (1945), “Roma və Yunanıstanda ədəbiyyatşünaslıq və estetika məsələləri” (1945), “Şekspir və onun on ikinci gecəsi” (1946), “Antik dövrdə ədəbiyyat və ədəbiyyatşünaslıq məsələləri” (1946), “Rəşidbəy Əfəndiyevin dramaturgiyası” (1946), “Dədə Qorqud və yunan eposları” (1946), “Nizami və Qərbi Avropa ədəbiyyatı” (1947), “Ostrovski və Azərbaycan dramaturgiyası” (1948), “Antik ədəbiyyat tarixi. Bakı: ADU-nun nəşri” (1958), “Azərbaycan dramaturgiyasının inkişaf tarixindən” (1964), “Məqalələr” (1971)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 259.

**28 Dekabr - Şair, publisist Şahmar Əkbərzadənin 80 illiyi, (28.12.1941-30. 07.2000)**
***"Şahmar Əkbərzadənin adı çəkiləndə qüssələnən könlümüzə bir təsəlli də üz tutur. Sanki ondan yadigar qalmış misralar nikbinliyə çıraq tutan aynaya dönür. Hər kəlməsində, sözündə, misrasında vətən məhəbbətinin ülviliyi duyulur. Ürəyinin alovlarından libas geyinmiş poeziyasında külli Qarabağın özünü görürük. Sanki xiffətimizə od vurulur, dərdimiz damla-damla süzülərək eləcə külə dönür. Dünənimiz dirilir, yeddi arxa dönənimizlə üz-üzə gəlirik. Zəngəzura, Göyçəyə, Kəlbəcərə, Cəbrayıla qayıdırıq. Duyğularımız necə də ülviləşir, könlümüz bir az da Şuşalaşır, Ağdamlaşır".***

Flora Xəlilzadə



**Şahmar Əkbər oğlu Əkbərzadə — şair, jurnalist**

Şahmar Əkbər oğlu Əkbərzadə 1941-ci il 28 dekabrda Ağdam rayonunun Çəmənli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1958-ci ildə Mahrızlı kənd orta məktəbini bitirdikdən sonra həmin il Şuşa Pedaqoji Texnikomuna daxil olub və 1960-cı ildə texnikomu bitirmişdir. Elə həmin il M.F.Axundov adına Dillər İnstitutunun Rus dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1960-cı ildə Rus dili müəllimi ixtisasına yiyələnmişdir. Bir neçə il Çəmənli kənd orta məktəbində müəllim işləmiş, 1968-ci ildə Bakı şəhərinə köçüb "Azərbaycan gəncləri" qəzetində jurnalist kimi fəaliyyətə başlamışdır. Sonralar həmin qəzetdə şöbə müdiri vəzifəsində çalışmışdır. "Kommunist" qəzetində müxbir və şöbə müdiri olmuşdur. 1990-cı ildə "Mədəniyyət" qəzetini təsis etmiş və ömrünün sonunadək qəzetin baş redaktoru olmuşdur. Şahmar Əkbərzadə 2000-ci il avqust ayının 30-da Bakı şəhərində dünyasını dəyişmişdir. Şahmar Əkbərzadə 10 fevral 2014-cü ildə adını daşıyan "Şahmar Ədəbi Məclisi" (ŞƏM) təsis olunmuşdur.

**Kitabları:** "Yüksəlişdə", "Mil üzümçüləri", "Anama layla" (1978), "Sevgi borc verilməz" (1982), "Ona yanıram ki" (1988), "Haqqa pəncərə" (1998),

**Filmoqrafiya:** Qaragülün nağılı (film, 2007)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 823.

**28 Dekabr - Şair Nüsrət Kəsəmənlinin anadan olmasının 75 illiyi, (1946-2003)**



Kəsəmənli Nüsrət Yusif oğlu 1946-cı ildə Qazax rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur (1966). Universitetin II kursunda ikən "Bakı" və "Baku" qəzetlərində müxbir, ədəbi işçi vəzifələrinə qəbul edildiyinə görə qiyabi şöbəyə keçirilmişdir (1969-cu ildə). Universiteti bitirdikdən sonra Azərbaycan Yazıçılar İttifaqında referent və ədəbi məsləhətçi olmuşdur (1978-1985). 60-cı illərin əvvəllərindən bədii yaradıcılığa başlamışdır. 150-dək şerinə musiqi bəstələnmişdir. "Boş kəndlərin harayı", "Mövzu üzrə improvizasiya", "Ənbizlərin keşiyində", "Sovet Azərbaycanına səyahət" və s. sənədli filmlərin, "Afroditanın qolları", "Qarabağ əhvalatı" bədii filmlərin ssenari müəllifidir. Moskvada gənc yazıçıların VI,VII Ümumittifaq müşavirələrində iştirak etmişdir. Fəal ictimaiyyətçi olmuşdur: Azərbaycan Yazıçılar İttifaqında Həmkarlar Komitəsinin sədri (1981-1984), mədəniyyət işçiləri həmkarlar ittifaqı respublika komitəsi rəyasət heyətinin üzvlüyünə namizəd, Azərbaycan Tarix və Mədəniyyət Abidələri Mühafizə Cəmiyyətinin üzvü, Azərbaycan Yazıçılar İttifaqının VI,VII qurultayında idarə heyətinin üzvü, poeziya şurasının sədri seçilmişdir. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor işləmişdir (1985-ci ildən). "Dünyaya pəncərə" sənədli televiziya verilişinin ssenari müəllifi və aparıcısı olmuşdur (1985-ci ildən). Nüsrət Kəsəmənli 17 oktyabr 2003-cü ildə Təbrizdə vəfat etmişdir.

**Filmoqrafiya:** Afroditanın qolları (film, 1987)(qısametrajlı bədii film), Azərbaycana səyahət (film, 1988), Doğma sahillər (film, 1989), Dünyada yeganə (film, 1989), Əmbizlərin keşiyində (film, 1988), Goranboy – oğuz eli (film, 1989), Kəndlərin harayı (film, 1987), Qurultaydan qurultaya (film, 1985), Lətifə (film, 1989), Monoloq (film, 1987), Müsəlmanlar sülh uğrunda mübarizədə (film, 1987), "Neftçi"-87 (film, 1987), Şeytan göz qabağında (film, 1987)

**Əsərləri:** “Sevirsənsə” (1971), “Gözlərimin qarası” (1975), “Özümə bənzədiyim günlər” (1979), ”Gümüş yuxular” (1981), ”Təklikdə danışaq” (1983), “Daha nağıllara inanmıram mən”, “Biri vardı, biri yox...”, “Səni unutsam...”, ”Vətən alov etsin odunu sənin”, “Mənsiz qalacaqdır bu dünya bir gün”, “Oğru olmaq istəyirəm”, “Ağacın altında kölgə”, “Qoyunlar yeyəcək canavarları...”, “Məhəbbətdən küsəndə”, “Yoxdusa”, “Mənim o ağaca yazığım gəlir...”, “Mənə inanmırsan bir yuxu kimi”, “İnanma əzizim, inan əzizim”

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 689.

**29 Dekabr - Yazıçı, ədəbiyyatşünas Əzizə Cəfərzadənin 100 illiyi, (1921-2003)**

***Əzizə xanımın elmi-tədqiqatları onun ədəbi yaradıcılığına da güclü təsir göstərmiş və yazıçının əsərlərini Azərbaycan dilinin saflığı və təmizliyi uğrunda mübarizənin bariz nümunəsinə çevirmişdir.***



**Cəfərzadə Əzizə Məmməd qızı - yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor, 1946-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. "Xalqlar dostluğu" və "Şöhrət"ordeni ilə təltif olunmuşdur.**

Cəfərzadə Əzizə Məmməd qızı 1921-ci il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. 1946-1947-ci illərdə ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1944-1946-ci illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi, 1947-1949-cu illərdə teatr texniki məktəbinin müdiri, 1950-1955-cı illərdə pedaqoji institutda dosent, kafedra müdiri, 1956-cı ildə Kamçatka pedaqoji institutunda dosent, 1957-74-ci illərdə Azərbaycan Elmlər Akademiyasının əlyazmalar İnstitutunda baş elmi işçi, şöbə müdiri, 1974-ci ildən isə Bakı Dövlət Universitetinin professoru vəzifələrində çalışmışdır. Əzizə Cəfərzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin bilicisi kimi tanınırdı və bu sahədə 1950-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi-ziyalı surətləri" mövzusunda namizədlik, 1970-ci ildə "XIX əsr Azərbaycan poeziyasında xalq şeiri üslubu" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Ədəbi fəaliyyətə 16 yaşında başlamış və "Əzrayıl" adlı ilk hekayəsini 1937-ci ildə "Ədəbiyyat" qəzetində çap etdirmişdir. Əzizə xanımın nəsr əsərləri əsasən tarixi roman janrında yazılmışdır. Elmi tədqiqatçı kimi bir sıra aşıq və şairlərin əsərlərini toplayib çap etdirmişdir ki, bunlara "Fatma xanım Kəminə" (1971), "Könül çırpıntıları" (1972), "Azərbaycanın şair və aşıq qadınları" (2003), "Şirvanın üç şairi" (1971), "Mücrüm Kərim Vardani. Sünbülstan" (1978), "Abdulla Padarlı. Seçilmiş əsərləri" (1979), "Hər budaqdan bir yarpaq" (1983) daxildir. Əzizə Cəfərzadə 2001-ci ildə "Azərbaycan Anası" və s. kimi yüksək adlara layiq görülmüşdür. Əzizə Cəfərzadə 2003-cü il sentyabrın 4-də vəfat etmişdir.

**Əsərləri:** "Natavan haqqında hekayələr" (1963), "Aləmdə səsim var mənim" (1973-1978), "Yad et məni" (1980) , "Bakı-1501" (1981) , "Cəlaliyyə" (1983) , "Sabir" (1989), "Eldən elə" (1992) , "Bir səsin faciəsi" (1995) ,"Gülüstan"dan öncə" (1996) , "Zərrintac-Tahirə" (1996) , "İşığa doğru" (1998), "Bəla" (2001), "Rübabə-sultanım" (2001), "Xəzərin göz yaşları" (2003) , "Eşq Sultanı" , "Sahibsiz ev" (1966), "Əllərini mənə ver" (1970), "Sənsən ümidim" (1984), "Xəyalım mənim" (2002) , "Eldən-elə" "Vətənə qayıt" və s.

**Uşaqlar üçün yazdığı hekayə və nağıllar:** "Qızımın hekayələri" (1964), "Anamın nağılları" (1982), "Çiçəklərim" (1988), "Pişik dili" (2001) və sair.

**Filmoqrafiya:** İstiqlal yollarında (film, 1990), Ağ saçların işığında (film, 1993), Əzizə Cəfərzadə (film, 1999), Düma ömrünün qırx günü (film, 2002) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. 2011.S 302.

**Xarici ədəbiyyat**

**12 Dekabr - Rus yazıçısı, tənqidçi Nikolay Karamzinin 255 illiyi, (1766-1825)**



Rus tarixçisi, nasiri, şairi və publisisti Nikolay Mixayloviç Karamzin 12 dekabr 1766-cı ildə Rusiya imperiyasının Simbirsk quberniyasında anadan olmuşdur. İbtidai təhsilini Simbirskdə xüsusi pansionda almışdır. 1778-ci ildə Moskva universitetinin professoru İ.M.Şadenin pansionuna göndərilmişdir. Bir müddət atasının təkidi ilə hərbi qulluqda olan Karamzin tezliklə onu tərk etmişdir. Onun ilk ədəbi təcrübələri də məhz bu zamana təsadüf edir. Tezliklə Moskvaya köçən N.Karamzin burada N.İ.Novikov, A.Kutuzov, A.A.Petrov kimi yazıçı və ədəbiyyatşünaslarla tanış olur. 1789-1790-cı illərdə Karamzin Avropaya səfər edir, məşhur filosof İmmanuil Kantla tanış olur, Böyük Fransa inqilabı vaxtı Parisdə olur. Bu səfərin nəticəsində məşhur "Rus səyyahının məktubu" əsəri yazılır və müəllifinə dərhal şöhrət gətirir. Moskvaya qayıdandan sonra yazıçılıq fəaliyyətini davam etdirən N.Karamzin **"Bədbəxt Liza"** povestini, **"Aonidlər"** və s. toplu və almanaxları nəşr etdirir. XIX əsrin əvvəllərində ədəbiyyatdan uzaqlaşan N.Karamzin 1804-cü ildə I Aleksandr tərəfindən tarixçi rütbəsi alır və özünü bütünlükə tarixə həsr edir. O, 1811-ci ildə **"Qədim və yeni Rusiyanın siyasi və mülki münasibətləri haqqında qeydlər"** kitabını yazır. 1818-ci ilin fevralında Karamzin "Rusiya dövlətinin tarixi" əsərinin ilk səkkiz cildini satışa buraxır. Sonrakı illərdə bu əsərin üç cildi də çap olunur. Yarımçıq olan 12-ci cild Karamzinin ölümündən sonra çap olunur. N.Karamzin 22 may 1826-cı ildə Sankt-Peterburqda vəfat etmişdir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Nikolay_Karamzin

**Folklor**

**12 Dekabr - Aşıq Pənahın anadan olmasının 95 illiyi, (12.12.1926-26.08.1978)**



**Pənahov Əlipənah Ələsgər oğlu (1 dekabr 1926 – 26 avqust 1978) — aşıq-şair, Azərbaycanın əməkdar mədəniyyət işçisi (1967). Azərbaycan Yazıçılar İttifaqının üzvü (1974).**

Pənahov Əlipənah Ələsgər oğlu 12 dekabr 1926-cı ildə Salyanda doğulmuşdur. 1948-ci ildən aşıqlıq edib. Aşıq Pənah sazda 32 ənənəvi aşıq havasını ustalıqla ifa edirdi. O, 18 aşıq havası ("Dilbər", "Yeddi qardaş", "Azərbaycan" və s.), eyni zamanda mahnılar da bəstələmişdir. "Nə qəşəng bəzənmisən!" mahnısını xüsusi qeyd etmək olar. "Qəhrəman şah Nəcəf", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. dastanlarını məclislərdə məharətlə ifa edərdi. Aşıq Pənah 2 dastanın ("Sülh", "Pambıqçılar") və 128-ə qədər qoşmanın müəllifidir.

Pənahov Əlipənah Ələsgər oğlu 26 avqust 1978-ci ildə vəfat etmişdir. Salyanda adına bir küçə və bir məktəb var. Ev muzeyi fəaliyyət göstərir.

**Əsərləri:** “Saz və söz” (1963), “Məhəbbətdən danışaq” (1966), “Təzə söz, təzə mahnı” (1971), “Mənim sazım” (şeirlər) (1978)
**Filmoqrafiya:** Böyük dayaq (film, 1962), Aşıq Pənah (film, 2007)

İnternetdə: https://az.wikipedia.org/wiki/Aşıq_Pənah

**İncəsənət**

**5 Dekabr - Amerika rəssamı, kinorejissor, ssenarist, cizgi filmləri ustası Uolt Disneyin anadan olmasının 120 illiyi, (1901-1966).**




Amerika rəssam-multipikatoru, kinorejissoru, aktyoru, ssenaristi və prodyuseri, “Walt Disney Productions” multimediya imperiyasının qurucusu Uolter Elayas Disney 5 dekabr 1901-ci ildə Çikaqoda anadan olmuşdur. U.Disney kinematoqrafiya tarixində səsli və musiqili cizgi filmlərinin ilk yaradıcısıdır. O, özünün qeyri-adi şəkildə gərgin həyatında rejissor kimi 111 film çəkmiş və 576-dan çox filmin prodüseri olmuşdur. Disneyin sənəti sahəsindəki böyük xidmətləri 26 “Oskar” heykəlciyi ilə qeyd olunmuşdur və bu rekordu heç kim üstələyə bilməmişdir. O, həmçinin “Oskar” statuslu İrvinq Talberq adına mükafatla və bir çox başqa mükafatlarla təltif olunmuşdur. Çikaqoda dünyaya göz açan U.Disneyin əcdadları arasında ingilislər, irlandlar və almanlar olmuşdur. O, 14 yaşında qəzet paylayıcısı kimi pul qazanırdı. 1920-ci ildə kinoreklam studiyasına rəssam işinə qəbul olunan Disney özünün ilk reklam filmlərini çəkir. Burada işlədiyi zaman onda öz təcrübələrini şəkilli animasiya sahəsində davam etdirmək arzusu yaranır. Lakin bu firma müflis olur. O, 1922-1937-ci illərdə sırf yaradıcı işçi kimi çıxış edir, müharibədən sonra isə kino istehsalı ilə məşğul olur. Disney 1923-cü ildə Los-Ancelesə köçür və qardaşı Royla birlikdə Hollivudda The Walt Disney Company şirkətini kiçik animasiya studiyasını qurur. 1924-cü ildə ilk filmi olan “Alisanın dənizdə bir günü” filmini təqdim edir. Bu film Lyuis Kerollun “Alisa möcüzələr ölkəsində” əsəri əsasında çəkmişdir. 1926-1927-ci illərdə o, bu əsər əsasında 56 film çəkir. Onun məşhur cizgi filmləri sırasında **“Pinokkio”, “Bembi”, “Dambo”, “Yatmış gözəl”, “Mikki Maus”, “Balaca gəmi Villi”, “Uç donuz balası”, “Ağca və yeddi cırtdan”, “Küllücə”** və s. vardır. Uolt Disney 15 dekabr 1966-cı ildə Los-Ancelesdə vəfat etmişdir.

İnternetdə:https://az.wikipedia.org/wiki/Uolt_Disney

**5 Dekabr - Aktyor Həsənağa Salayevin 100 illiyi, (05.12.1921-02.09.1981)**



***Həsənağa Salayev çılğın ehtirası, vüqarlı görünüşü, sərbəst səhnə davranışı, əzəmətli boybuxunu, tamaşada yöndaşlarına diqqəti ilə seçilirdi. Gurultulu və cingiltili səsini məharətlə tənzimləyən aktyor romantik rollarla realist personajları, mürəkkəb psixoloji dönüşlü dramatik obrazları eyni məharətlə oynaya bilirdi. O, klassik və tərcümə əsərlərində ifa etdiyi obrazları çağdaş dövrün ictimai-sosial, mənəvi-əxlaqi problemləri ilə ustalıqla əlaqələndirirdi. Həsənağa Salayev ruhən, emosiya coşğunluğu, səs diapazonu, ehtiraslarının çılğınlığı ilə romantik aktyor idi.***

Romantik və realist aktyor məktəblərinin estetik prinsiplərini öz yaradıcılığında cazibəli ahəngdarlıqla ehtiva edən Həsənağa Dərya oğlu Salayev 5 dekabr 1921-ci ildə Bakıda qulluqçu ailəsində doğulub. Həsənağa 1937-ci ildə doqquzuncu sinfi yüksək qiymətlərlə bitirib. Elə həmin il Bakı Teatr Texnikumuna daxil olub. Tələbə ikən 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilib. Qısa müddətdə Həsənağa Salayev teatrın repertuarında yer tutan və təzə hazırlanan tamaşalarında maraqlı rollar oynayıb. Müxtəlif illərdə Səməd Vurğunun "Xanlar" (Mamulya), "Fərhad və Şirin" (Fərhad), "Vaqif" (Eldar, Qacar və Vaqif), Zeynal Xəlilin "Qatır Məmməd" (Əziz), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Mustafa), Bəxtiyar Vahabzadənin "İkinci səs" (Rəşad), Şıxəli Qurbanovun "Sənsiz" (Fərhad), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Vəli), Cəfər Cabbarlının "Solğun çiçəklər" (Bəhram), "Od gəlini" (Qorxmaz), "Almaz" (İbad), "Oqtay Eloğlu" (Oqtay), Pavel Malyarevskinin "Daş qartal" (Maksİm), Yuri Osnos və Vladimir Vinnikovun "Hind gözəli" (Çarudatta), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Bernard Şounun "Şeytanın şagirdi" (Riçard Daycen), Bəxtiyar Vahabzadənin "İkinci səs" (Rəşad), Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Doktor), Fridrix Şillerin "Orlean qızı" (Dünua), Hüseyn Cavidin "Səyavuş" (Keykavus) və s. əsərlərinin tamaşalarında xarakterik səhnə surətləri yaradıb. Aktyor eyni zamanda "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Fətəli xan", "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarını?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilib. Həsənağa Salayev aktyorluq sənətində qazandığı qələbələrə görə 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1974-cü ildə isə xalq artisti fəxri adları ilə təltif edilib. H. Salayev yaradıcılığının ən müdrik çağında 2 oktyabr 1981-ci ildə dünyasını dəyişib.

**Filmoqrafiya:** Aygün (film, 1960), Cazibə qüvvəsi (film, 1964)(film, kinoalmanax), Doğma xalqıma (film, 1954), Fətəli xan (film, 1947), Görüş (film, 1955), İstintaq davam edir (film, 1966), Körpə (film, 1962), Qara daşlar (film, 1956), O olmasın, bu olsun (film, 1956), Onu bağışlamaq olarmı? (film, 1959), Onun böyük ürəyi (film, 1958), Səhər (film, 1960), Üzeyir ömrü (film, 1981) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Həsənağa_Salayev

**8 Dekabr - Xalq artisti, baletmeystr Tamilla Şirəliyevanın 75 illiyi, (1946)**



**Tamilla Xudadat qızı Şirəliyeva — Azərbaycanın balet artisti, Azərbaycan SSR xalq artisti (10.01.1978), SSRİ Dövlət mükafatı laureatı (1980), Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının quruluşçu baletmeysteri.**

Şirəliyeva Tamilla Xudadat qızı 8 dekabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1964). Həmin ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Qaraca qız ("Qaraca qız", Əşrəf Abbasov), Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Məhmənəbanu ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Ayişə, Fiyetta ("Yeddi gözəl", "İldırımlı yollarla", Qara Qarayev), Odetta-Odilliya ("Qu gölü", Pyotr Çaykoski), Kitri, Paxita ("Paxita", L.Minkus), Şəhrizad ("Min bir gecə", Fikrət Əmirov) və s. əsas partiyalarıdır. 1977-ci ildən pedaqoji fəaliyyət göstəmişdir.

**Quruluş verdiyi baletlər:** Xeyir və Şər (1992), Xəzər balladası (balet) – (2001), Qafqaza səyahət (2002), Rast (2004)

**Filmoqrafiya:** Muğam (film, 1976)

İnternetdə:https://az.wikipedia.org/wiki/Tamilla_Şirəliyeva

**19 Dekabr - Xalq rəssamı Mikayıl Abdullayevin 100 illiyi, (19.12.1921-21.08.2002)**



**Abdullayev Mikayıl Hüseyn oğlu — Azərbaycanlı boyakar, qrafik və teatr rəssamı, professor, SSRİ Rəssamlıq Akademiyasının akademiki, Cəvahirləl Nehru adına beynəlxalq mükafatı və Azərbaycan SSR dövlət mükafatı laureatı**

Mikayıl Abdullayev 19 dekabr 1921-ci ildə Bakıda doğulmuşdur. 1939-cu ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini, 1949-cu ildə Surikov adına Moskva Dövlət Rəssamlıq məktəbini bitirmiş, S. Gerasimovun emalatxanasında rəssamlıq sənətinin incəliklərini öyrənmişdir. Əsərləri dünyanın bir sıra muzeylərində saxlanılır. Onun Dehlidə, Londonda, Monrealda, Moskvada və dünyanın bir sıra başqa şəhərlərində fərdi sərgiləri keçirilmişdir. Mikayıl Abdullayevin yaradıcılığı üçün daxili həyəcan, obrazların psixologiyasının poetik ümumiləşdirilməsi xarakterikdir. Onun əsərləri koloritin zənginliyi ilə cəlbedicidir. Bu xüsusiyyətlər onun "Mingəçevir işıqları", "Xaçmaz qızları", "Astarada çay yığımı", "Azərbaycan çöllərində" triptixində, "Çəltik əkən qızlar" əsərində daha aydın görünür. Milli ənənələrin, kənd yerində yaşayan insanların əməyi, məişəti, tipik mənəvi çalarların üzvi şəkildə müasirliklə vəhdətdə verilməsi Mikayıl Abdullayev yaradıcılığına xas xüsusiyyətdir. "Qırx birin iyunu" triptixinin mərkəzi hissəsi xüsusilə diqqəti cəlb edir. 1941-45-ci illərdə kənd əməkçilərinin payına düşən, ağır, narahat, keşməkeşli həyatını əks etdirən əsər canlı povestdir. "Çəltikçi qızlar" monumental lövhəsi XX əsrin qadınının zəngin mənəvi cizgilərini parlaq boyalarla əks etdirir. Bu, rəssamın ən sevimli mövzusudur. İşlədiyi bir sıra tablolarda müasir qadın obrazı əks olunmuşdur. "Qarabağlı qızlar", "Lənkəranlı kolxozçu qadın", "Abşeronlu qadın", "Ananın gəncliyi" kimi əsərləri bu qəbildəndir. Xalq şairi Səməd Vurğun, yüz yaşlı naxışçı usta Babayev, şair, mütəfəkkir Nəsimi və başqa portretlər qalereyası, Abşeron peyzajları, natürmortlar, Əfqanıstan və başqa ölkələrə həsr etdiyi əsərlər Mikayıl Abdullayev yaradıcılıq diapazonunun genişliyinə şəhadət verir. Mikayıl Abdullayev 2002-ci il avqustun 21-də 80 yaşında vəfat etmişdir.

**Filmoqrafiya:** Bizim Azərbaycan (film, 1959), Mikayıl Abdullayev (film, 1972), Günəşlə dolu dünya (film, 1973), Qələbənin yolları (film, 1976), Salam, Zeynəb! (film, 1982), Şeirin xəzrisi (film, 2000), Mətbuat fədaisi (film, 2007), Rənglə yazılmış tarix (film, 2012)

İnternetdə:https://az.wikipedia.org/wiki/Mikayıl_Abdullayev

**22 Dekabr - Xalq artisti Əlövsət Sadıqovun 115 illiyi, (22.12.1906-17.10.1971)**

***Əlövsət Sadıqov şöhrətli ifaçılar arasında öz dəsti –xətti olan, ecazkar səsə malik sənətkardır.***



**Yaradıcılıq nailiyyətlərinə görə Əlövsət Sadıqov 17 iyul 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 20 dekabr 1956-cı ildə xalq artisti fəxri adlarına layiq görülüb.**

Əliövsət Şirəli oğlu Sadıqov 22 dekabr 1906-cı ildə Nuxa (indiki Şəki) şəhərində doğulub. Səs tembri lirik tenor idi. 1928-1930-cu illərdə konservatoriya təhsili alıb. Təhsilini bitirən ili Azərbaycan Dövlət Opera və Balet Teatrına solist götürülüb. Üzeyir bəy Hacıbəyovun klassik operalarının lirik məhəbbət qəhrəmanlarının partiyaları Əlövsət Sadıqovun yaradıcılığında daha mühüm yer tutur. Əlövsət Sadıqovun Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Məcnun, İbn Səlam və Zeyd), "Əsli və Kərəm" (Kərəm), "Koroğlu" (Eyvaz), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Qərib), Reynqold Qlierin "Şahsənəm" (Aşıq Qərib və Aşıq Səməd), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Şah İsmayıl), "Nərgiz" (Molla Mütəllim), tərcümə olunmuş "Səfa" (Aşıq Musa) operalarında və Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Süleyman), "Məşədi İbad" (Hambal və Sərvər) operettalarında yaratdığı obrazlar daha diqqətçəkəndir. Sənətkar ömrünün son illərində opera teatrında məsləhətçi pedaqoq kimi çalışıb. 17 oktyabr 1970-ci ildə Bakıda vəfat edən Əlövsət Sadıqov ikinci Fəxri xiyabanda dəfn olunub.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əlövsət _Sadıqov

**23 Dekabr - Xalq artisti, baletmeystr Çimnaz Babayevanın 75 illiyi, (1946)**



**Babayeva Çimnaz Məmməd qızı - Azərbaycan balet artisti (1978), Azərbaycan SSR xalq artisti (1978), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1974).**

Çimnaz Məmməd qızı Babayeva 23 dekabr 1946-cı ildə Bakıda anadan olmuşdur. Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1964). Çimnaz Babayeva 1964-1977-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Şirin ("Məhəbbət əfsanəsi", A. Məlikov), Ayişə, Sari ("Yeddi gözəl", "İldırımlı yollarla", Q.Qarayev), Gülyanaq ("Qız qalası", Ə.Bədəlbəyli), qız, Nəsiminin sevgilisi ("Şur", "Nəsimi haqqında dastan", F.Əmirov), Kitri ("Don Kixot", L.Minkus), xanım ("Xanım və xuliqan", D.Şostakoviç) və s.

Çimnaz Babayeva 1977-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının məşqçi baletmeysteridir. Teatrın balet truppası ilə xarici ölkələrdə (Fransa, İtaliya, Norveç, İsveç, Birma, Hindistan, Türkiyə və s.) çıxış etmişdir.

**Filmoqrafiya:** Əfsanələr aləmində (film, 1975)

İnternetdə:https://az.wikipedia.org/wiki/% Cimnaz_Babayeva

**28 Dekabr - Xalq artisti Zeynəb Xanlarovanın 85 illiyi, (1936)**



**Xanlarova Zeynəb Yəhya qızı - müğənni, xanəndə, Azərbaycan SSR xalq artisti (1975), Özbəkistan SSR xalq artisti, SSRİ xalq artisti (1980), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1985). "Şöhrət" ordeni ilə təltif edilib.**

Zeynəb Yəhya qızı Xanlarova 28 dekabr 1936-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, 1956-cı ildə M.Ə.Sabir adına Bakı Pedaqoji məktəbini və 1961-ci ildə A.Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirib. Xalq artisti 1961-ci ildən Opera və Balet Teatrının solisti kimi fəaliyyətə başlayıb. Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leyli və Əsli obrazlarını yaradıb. Haqqında "Salam, Zeynəb!" adlı sənədli televiziya filmi çəkilib. Zeynəb Xanlarova həm də uzun illərdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Repertuarında muğam (Şahnaz, Mahur, Qatar, Bayatı-Şiraz və s.), təsnif və Azərbaycan xalq mahnıları, Azərbaycan bəstəkarlarının (Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Cahangir Cahangirov, Arif Məlikov, Emin Sabitoğlu, Ələkbər Tağıyev və b.) və şərq xalqlarının mahnıları geniş yer tutur. Azərbaycanın qadın xanəndələri arasında "Çahargah" muğamının ilk ifaçılarındandır. O, həmçinin bir sıra mahnıların da müəllifidir. Dünyanın əksər ölkələrində konsertlər vermişdir. Azərbaycan SSR Ali Sovetinin (XI-XII çağırış) və Azərbaycan Respublikası Milli Məclisinin (I-IV çağırış) deputatı olmuşdur.

**Filmoqrafiya:** Abşeron ritmləri (film, 1970), Toyda görüş (film, 1970), Konsert proqramı (film, 1971) (II), Qəribə adam (film, 1979), Nəğməkar torpaq (film, 1981), Üzeyir ömrü (film, 1981), Salam, Zeynəb! (film, 1982), Şərt (film, 1984),Hacı Arif (film, 1995), Şeirin xəzrisi (film, 2000), Əliyevin əli (film, 2000), Uğur formulu (film, 2007), Yorulmamışam. Rövşən Behcət (film, 2007), Xilaskar. III Film (film) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Zeynəb_Xanlarova

**30 Dekabr - Xalq artisti Əbülfət Əliyevin 95 illiyi, (30.12.1926-27.12.1990)**



**Əbülfət Əsəd oğlu Əliyev — Azərbaycan Respublikasının xalq artisti (29 iyun 1964)**

Əbülfət Əliyev 30 dekabr 1926 - cı ildə Şuşada doğulub. Azərbaycan Respublikasının xalq artisti (29 iyun 1964) fəxri adını alıb. Azərbaycan Dövlət Filarmoniyasının (1945-ci ildən) və Azərbaycan Dövlət Opera və Balet Teatrının (1956-1962) solisti olub. Ağdamdan Bakıya gəlişində Qarabağ məclislərində çox oxunan “Ay bülbüllər”, “Kimə yalvarım”, “Uca barıdan aşaram mən”, “Stəkanın deşilsin”, “Uca dağlar” və sair mahnıları ifa etməklə yetərincə tamaşaçı toplayan xanəndə dinclik nə olduğunu bilmirdi. Xalq və bəstəkar mahnıları, muğam və təsniflər Əbülfət Əliyevin səsinin, guşəxanlığının sayəsində su kimi dumduru şəklə düşürdü. Xanəndə nəyi necə çatdırmağı yaxşı bilirdi. Əbülfət Əliyev səs diapazonu imkan verməyən muğamlardan, mahnılardan yapışmayıb. “Gərək oxuyan adamın sir-sifəti gərgin vəziyyətə düşməsin, səsi haracan yetir, ordan o tərəfə keçməsin” qənaəti köhnə xanəndələr kimi Əbülfət müəllimə də yad deyildi. Söz sərrafı olması və qavalla məharətlə davranması da onun üstün cəhətlərindən idi. Əbülfət Əliyev təqribən on ilə yaxın Opera və Balet Teatrında çalışan, Məcnun, Kərəm, Şah İsmayıl rollarını yaradan sənətkar musiqimizi dünyanın üç qitəsində - Avropa, Asiya və Afrikada uğurla təmsil etməyi də bacaran sənətkarlardan olmuşdur. Bir çox mahnıların ərsəyə gəlməsi, yaşaması, bayağı sözlərinin dəyişdirilərək köhnə görkəmini dəyişməsi məhz xanəndənin iştirakıyla baş tutub. “Dinə bilmədim”, “Bu qala, daşlı qala”, “Ay Pəri”, “Endim bulaq başına”, “Bülbüllər gəzər bağı”, “Tel nazik” və sair dillər əzbəri olan nəğmələr ilk ifaçısından qazandığı uğurlar hesabına hələ çox yaşayacaq. 1990-cı il 27 dekabrda dünyasını dəyişmişdir.

**Əsas rolları:** Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Şah İsmayıl ("Şah İsmayıl")

İnternetdə: https://az.wikipedia.org/wiki/ Əbülfət_ Əliyev

**Milli qəhrəmanlıq zirvəsi**

**16 Dekabr - Salatın Əziz qızı Əsgərovanın 60 illiyi, (16.12.1961-09.01.1991)**



**Salatın Əziz qızı Əsgərova – Azərbaycan jurnalisti, "Azərbaycan gəncləri" qəzetinin müxbiri, Azərbaycanın Milli Qəhrəmanı**

**Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Əsgərova Salatın Əziz qızına ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adı verilmişdir.**

Salatın Əziz qızı Əsgərova 1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirmiş, elə həmin il Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. Sonralar jurnalist kimi fəaliyyət göstərmişdir. 1991-ci il yanvarın 9-u Laçından Şuşaya yollanarkən yolun 6-cı kilometrliyindəki Qaladərəsi kəndi yaxınlığında erməni silahlı qüvvələrinin mühasirəsinə düşmüş, olduğu maşın yaxın məsafədən şiddətli atəşə tutulmuşdur. Nəticədə Salatın Əsgərova amansızcasına qətlə yetirilmişdir. Ailəli idi, bir oğlu var. Adı Ceyhundur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bakı şəhərində adına bir küçə var. Bakı buxtasındakı gəzinti katerlərindən biri onun adını daşıyır. "Təfəkkür" Universitetində büstü qoyulub, yaşadığı binaya xatirə lövhəsi vurulub. Yaxınlığında həlak olduğu Şuşa rayonunun kəndi Salatınkənd adlanır.

***Zaman! Səs ver, bu günlərin harayına,***
***Xan Arazın, Ana Kürün harayına.***
***Biz çatmasaq, kim çatacaq***
***Qaçqınların, köçkünlərin harayına?!***
***Sən arxasan, sən dayaqsan, Azərbaycan!***
***“Qalx”! – deyəndə, qalxacaqsan, Azərbaycan!***

Nəriman Həsənzadə

İnternetdə: https://az.wikipedia.org/wiki/Salatın_Əsgərova

**26 Dekabr - Orucov Vəzir Surxay oğlunun 65 illiyi, (26.12.1956-22.03.1993)**



**Orucov Vəzir Surxay oğlu — Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi**

**Azərbaycan Respublikasın Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı Fərmanı ilə Orucov Vəzir Surxay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

Vəzir Orucov 26 dekabr 1956-cı ildə Tərtər rayonunun Xoruzlu kəndində anadan olmuşdur. 1949-cu ildə atası Surxay ailəsi ilə birgə Dərələyəz mahalından deportasiya olunmuşdu. Orta təhsilini Xoruzlu kənd orta məktəbində almış, 1974-cü ildə Bakı Yüngül Sənaye Texnikumuna daxil olmuşdu. 1975-ci ildə hərbi xidmətə çağrılmış, 1977-ci ildə ordudan tərxis olunaraq, yarımçıq qalmış orta ixtisas təhsilini davam etdirmişdir. 1984-cü ildə Rusiyanın Arxangelsk vilayətinə köçmüşdü. 1992-ci ildə Azərbaycana qayıdaraq may ayının 4-də Tərtər özünümüdafiə batalyonuna daxil olmuşdu. Sıravi döyüşçü kimi mübarizəyə başlasa da komandirlik bacarığına görə qısa zamanda batalyon komandirinin müavini vəzifəsinə qədər yüksəlmişdi. Marquşevan, Levonarx, Madagiz, Akop Komari, Sərsəng su anbarı, Çıldıran, Vaqauz kəndləri uğrunda gedən döyüşlərdə şücaət göstərərək, düşmənin bir çox planını puç etmişdi. 1 sentyabr 1992-ci ildə Çıldıran kəndi uğrunda gedən döyüşdə ağır yaralanmışdır. Müalicə olunaraq yenidən 2 noyabr 1992-ci ildə cəbhəyə qayıtmışdır. 22 mart 1993-cü ildə Ağdərənin Qlobus yüksəkliyi uğrunda gedən ağır döyüşdə qəhrəmancasına həlak olmuşdur. Ailəli idi. Bir oğlu yadigar qalıb. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

***Gəmilərin göy Xəzərdə üzər keçər,***
***Şahinlərin səmalarda süzər keçər.***
***Körpülərin, binaların***
***paytaxtımı yollar boyu bəzər keçər.***
***Keçmək olmaz amma səndən, Azərbaycan!***

Nəriman Həsənzadə

İnternetdə:https://az.wikipedia.org/wiki/Vəzir_Orucov

**Bu il həmçinin aşağıdakı yubileylər və əlamətdar günlər qeyd olunacaq:**

- Şair, mütəfəkkir Xaqani Şirvaninin anadan olmasının 895 illiyi, (1126-1199)
- Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmaının 880 illiyi, (1141-1209)
- Şair Saib Təbrizinin anadan olmasının 420 illiyi, (1601-1676)
- Türk dünyasının böyük sərkərdəsi Mustafa Kamal Atatürkün 140 illiyi, (1881-1938)
- Azərbaycan Kukla Teatrının yaranmasının 90 illiyi, (1931)
- Aşıq Ələsgərin anadan olmasının 200 illiyi, (1821-1926)
- Aşıq Mikayıl Azaflının anadan olmasının 95 illiyi, (1926-1990)
- El şairi Aşıq Pərinin anadan olmasının 210 illiyi, (1811- təx.IX əsrin 40-cı illər)
- YUNESKO-nun 75 illiyi, (1946)
- YUNİSEF (BMT-nin Uşaq Fondu) - 75 illiyi, (1946)
- Qurban bayramı. İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.
- Ramazan bayramı. İslamın müqəddəs bayramları arasında orucluq mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona “Ramazan orucu” da deyirlər.

## Azərbaycanın işğaldan azad edilən əraziləri :

- Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib.
- İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.
- Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.
- Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.
- Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.
- Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.
- Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib.
- Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.
- **27 sentyabr**
- Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri
- Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri
- Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər
- **3 oktyabr**
- Tərtər rayonunun Suqovuşan və Talış kəndləri
- Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri
- Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi
- **4 oktyabr**
- Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri
- **5 oktyabr**
- Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri
- **9 oktyabr**
- Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi
- Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri
- Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

- Tərtər rayonunun Çaylı kəndi
- 14 **oktyabr**
- Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri
- Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri
- **15 oktyabr**
- Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri
- Füzuli rayonunun Arış kəndi
- Cəbrayıl rayonunun Doşulu kəndi
- **16 oktyabr**
- Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri
- **17 oktyabr**
- Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri
- **18 oktyabr**
- Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı
- **19 oktyabr**
- Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri
- **20 oktyabr**
- Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri
- Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri
- Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri
- Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri
- **21 oktyabr**
- Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri
- Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri
- Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri
- **22 oktyabr**
- Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi
- Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri
- Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri
- **23 oktyabr**
- Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri
- Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

- Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
- Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri
- **25-26 oktyabr**
- Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri
- Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri
- Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.
- **28 oktyabr**
- Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri
- Füzuli rayonunun Mandılı kəndi
- Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri
- Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.
- **30 oktyabr**
- Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri
- Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri
- Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.
- **2 noyabr**
- Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri
- Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri
- Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.
- **4 noyabr**
- Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri
- Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri
- Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.
- 7 noyabr
- • Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri
- • Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri
- • Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri
- • Zəngilan rayonunun Beşdəli kəndi
- • Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri
- • Xocalının Qarabulaq, Moşxmaat kəndləri
- **8 noyabr**
- ŞUŞA şəhəri
- **9 noyabr**
- Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri
- Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri
- Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri

- Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri
- Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri
- Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi
- Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri
- **10 noyabr**
- Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.
- Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.
- **20 noyabr**
- Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub.Xatırladaq ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.
- **25 noyabr**
- Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib.
- Qeyd edək ki, Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir.
- 2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.
- **1 dekabr**
- Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan
- çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.
- Qeyd edək ki, ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir
- qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

**Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olmuşdur. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.**



**Yubilyar kitablar**

| | |
|---|---|
| 295 il | Conatan Svift **“Qulliverin səyahəti”** (1726) |
| 205 il | E.T.A.Hofman **“Şelkunçik və siçanlar padşahı”** (1816) |
| 195 il | F.Kuper **“Sonuncu moqikan”** (1826) |
| 190 il | A.S.Qriboyedov **“Ağıldan bəla”** (1831) |
| 190 il | A.S.Puşkin **“Çar Saltan haqqında nağıl”** (1831) |
| 185 il | N.V.Qoqol **“Müfəttiş”** (1836) |
| 185 il | A.S.Puşkin **“Kapitan qızı”** (1836) |
| 175 il | A.Düma **“Qraf Monte-Kristo”** (1846) |
| 155 il | M. Rid **“Başsız atlı”** (1866) |
| 150 il | L.Keroll **“Alisa möcüzələr ölkəsində”** (1871) |
| 145 il | Mark Tven **“Tom Soyerin macəraları”** (1876) |
| 140 il | K.Kolladi **“Pinokkionun macəraları”** (1881-ci ildə “Qazeta dlya detey” qəzetində çap olunub) |
| 135 il | S. Şedrin **“Nağıllar”** (1886) |
| 120 il | A.Doyl Konan **“Baskervilərin iti”** (1901-1902) |
| 115 il | Cəlil Məmmədquluzadə **“Poçt qutusu”**(1906) |
| 115 il | Cəlil Məmmədquluzadə **“Usta Zeynal”**(1906) |
| 110 il | Abdulla Şaiq. “**Yaxşı arxa. Tülkü, qarğa, hacıleylək”,“Tıq-tıq xanım”, “Tülkü və xoruz”** (1911) |
| 110 il | Əlıiabbas Müznib **“Əməl çiçəyi”**, **“Çəkməsilən”** (1911) |
| 110 il | Y.V.Çəmənzəminli **“İki hekayə”**, **“Məlik Məhəmməd”** (1911) |
| 105 il | Məmməd Səid Ordubadi **“Qəflət”** (1906) |
| 105 il | Süleyman Sani Axundov **“Qorxulu nağıllar”** (1916) |
| 105 il | Əliağa Vahid **“Tamahın nəticəsi”** (1916) |
| 95 il | C. Məmmədquluzadə **“Konsulun arvadı, yaxud iki müəllim”** (1926) |
| 95 il | Əbdürrəhimbəy Haqverdiyev **“Şeyx Şəban”**, **“Ağa Məhəmməd şah Qacar”**, **“Ağac kölgəsində”**, **“Bəxtsiz cavan”**, **“Vaveyla”**, **“Dağılan tifaq”**, **“Ədalət qapıları”** (1926) |
| 95 il | Hüseyn Cavid **“Topal Teymur”**, **“Peyğəmbər”**, “**Şeyx Sənan”**, **“Uçurum”** (1926) |
| 95 il | Marşak S.Y. **“Yük”** (1926) |
| 95 il | Miln A.A. **“Vinni Pux”** (1926) |
| 95 il | K.İ.Çukovskiy **“Telefon”**, **“Fedorinanın bəlası”** (1926) |
| 85 il | A.L.Barto **“Oyuncaqlar”** (1936) |
| 85 il | Əli Vəliyev **“Madarın dastanı”** (1936) |
| 85 il | Ənvər Məmmədxanlı **“Bakı gecələri”** (1936) |
| 85 il | Zeynal Xəlil **“İstək”** (1936) |

| | |
|---|---|
| 85 il | S.V.Mixalkov **“Styopa dayı”, “Foma”** (1936) |
| 85 il | A.N.Tolstoy **“Qızıl açar və Buratinonun macəraları”** (1936) |
| 80 il | Əli Vəliyev **“Sübut”, “Sovqat”** (1941) |
| 80 il | A.P.Qaydar **“Timur və onun komandası”** (1941) |
| 75 il | Zeynal Cabbarzadə **“Xanıman”** (1946) |
| 70 il | Bəxtiyar Vahabzadə **“Əbədi heykəl”** (1951) |
| 70 il | Əhməd Cəmil **“Təməl daşları”**(1951) |
| 70 il | Ələviyyə Babayeva **“Hekayələr”** (1951) |
| 70 il | Əyyub Abbasov **“Nailə”** (1951) |
| 70 il | Fəthi Xoşginabi **“İki dost”** (1951) |
| 70 il | Hüseyn Abbaszadə **“Yaşıl küçə”** (1951) |
| 70 il | Hüseyn Arif **“Mən sülhə səs verirəm”** (1951) |
| 70 il | Xalidə Hasilova **“İlk məktub”** (1951) |
| 70 il | İmran Qasımov **“Xəzərin şəfəqləri”** (1951) |
| 70 il | İsmayıl Şıxlı **“Dağlar səslənir”** (1951) |
| 70 il | Qasım Qasımzadə **“Bizim kənd”** (1951) |
| 70 il | Nəbi Xəzri **“Sülh əsgəri”** (1951) |
| 70 il | Salam Qədirzadə **“İlk hekayələr”** (1951) |
| 70 il | C.Podari **“Çippolinonın macəraları”** (1951) |
| 65 il | Adil Babayev **“Döyüş yollarında”** (1956) |
| 65 il | Əliağa Kürçaylı **“Səfərə çıxıram”** (1956) |
| 65 il | Nəriman Həsənzadə **“Dostlar gözləyir məni”** (1956) |
| 65 il | A.Rıbakov **“Tunc quş”** (1956) |
| 60 il | Eynulla Ağayev **“Tək qayıq”** (1961) |
| 60 il | Əlibala Hacızadə **“Heykəl gülür”**(1961) |
| 60 il | Əmrah Əmrahov **“Əbədi şöhrət”** (1961) |
| 60 il | X.Əlibəyli **“İşləməyən dişləməz”**, **“Uşaq mahnıları”** (1961) |
| 60 il | Xəlil Rza Ulutürk **“Məhəbbət dastanı”** (1961) |
| 60 il | İmran Qasımov **“ Uzaq sahillərdə”** (1961) |
| 60 il | Tofiq Bayram **“Ana təbəssümü”** (1961) |
| 55 il | S. Vangeli **“Ququçe”** (1966) |

**Tərtib edən: Ruhiyyə Məmmədli – F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi-metodika şöbəsinin müdiri**

**Redaktor: Lalə Qəmbərova**